KAMİL VƏLİ
NƏRİMANOĞLU

MƏNİM
FÜZULİM

(***Düşüncələr, portretə ştrixlər,***
məqalə və çevirmələr)

“CİNAR-ÇAP”
BAKI - 2006

Bu kitabı ilk dəfə İstanbulda Füzuli abidəsini
ucaldan mədəniyyət və elm xadimi böyük Atatürkçü

Bədrəddin Dalana

ərmağan edirəm

KAMİL VƏLİ NƏRİMANOĞLU

E22 "**MƏNİM FÜZULİM**" Bakı, **"CİNAR-ÇAP"**
Nəşriyyatı, 2006,- 461 səh.

© "CİNAR-ÇAP", 2006

MƏNİM
FÜZULİM

FÜZULI YOLU VƏ YA ÖN SÖZ ƏVƏZI

20 ildir ki, bu düşüncələrimi yazıram. Məqsədim araşdırma, tədqiqat deyil. O kitab yazılır, inşallah, tezliklə gün işığı görəcək. Yazıçılıq iddiasında - filan deyiləm. Sadəcə, bunun üçün doğulmamışam.

Füzuli ad

ını, "Məni candan usandırdı" misrasının odlu nəfəsini ilk dəfə atamdan - muğam ustası, Qarabağın məşhur tarzəni Nəriman Sədətqulu oğlundan eşitmişəm. Atam və əmilərim Şuşa pedaqoji texnikumunda Abdulla Şaiqdən dərs almışdılar. 1941-45 savaşının yediyi o dövrün ziyalılarından biri də əmim Bilal Vəli olub. Anasının xəlvətcə oxuyub gizlətdiyi bir məktubundakı cümlə yadımdadır: "Rusu qoyub almana güllə atmaq axmaqlıqdır".

Uşaqlıq illərində mərhum el xanəndəsi Ağabala Abdullayev, onun həyatdan cavan köçmüş istedadlı jurnalist, müğənni oğlu Zöhrab Abdullayev bizə gələr, əmilərim mərhum Əhməd Vəlinin, mərhum Rza Vəlinin, mərhum Mahmud Məmmədin, Hilal Vəlinin qonağı olardı. O məclisdə ailə dostları el ağsaqqalı Köçəri Babayev, Əhməd Hüseynov, Bağır Həsənov, Isgəndər bəyin oğlu Nadir Minbaşıyev, Azərbaycanın ağır taleli keçmiş baş naziri Teymur Quliyevin ağır taleli qardaşı Mürsəl Quliyev, Tofiq Əhmədov, Səməd Ismayılov, Niftalı Atakişiyev, Nadir Qaraşov, tarzən Zahid Kazımov, Eldar Fərhadov, Qəşəm Xəlilov, Vahid Hüseynov, istedadlı müğənni Zahid Quliyevin atası Aşıq Abdulla, Qabil Hacıyev, el şairi Ismayıl Quliyev, mərhum alim, tarixçi Şəhriyar Quliyev, Teymur Məmmədov, Bəbir Allahverdiyev, Mirkişi və Mehdi Mirkişiyevlər və b. tez-tez bizə gələrdilər.

Bu məclislər mənim yaddaşımda əsrarlı yuxular kimi qalıb. Bu məclislərin ana xətti ibrət dolu söhbətlər, xatirələr, muğam və şer idi.

Muğam və şer olan yerdə Füzuli olmazmı?

Hələ dərk etmədiyim Füzuli sözü mövlanə, peyğəmbər kimi işlənirdi. Və elə o illərdən məndə Füzuli sözündən qorxma,bir xof, həyəcan da var. Sonralar eşqlə yoğrulan bu doğma hissdə hələ də o xof, o qorxu yaşamaqdadır.

Novruz bayramının gizli keçirildiyi, milisin gəlib evin yorğan-döşəyindəki yunu töküb plan vermək üçün apardığı o qara illərin də öz qəribə hərarəti, işığı var idi.

Və bu işıq ailədən, üzünə çörək tapmadığımız halal insanlardan, namaz üstə dua edən nənələrdən, təbiətdən gəldiyi üçün unudulmaz və əziz idi.

Arazın Xudafərin tərəfdən görünən şəffaf parıltısı qılınc parıltısı kimi səhərin sübh çağı görünürdü. Və bölünmüş yurdun ağrısı Güneydən Quzeyə, Quzeydən Güneyə Cəbrayıldan keçib gedirdi. Çox vaxt o dərd elə orda çöküb qalır, yağış olub yağır, külək olub əsirdi. Ziyarət dağından əsən sərin mehin uzaqlardan, Şuşa tərəfdən gətirdiyi zərif sərinlik Cəbrayıla məxməri bir ab-hava gətirirdi. Çinar kəhrizinin suyu gecə-gündüz layla çalırdı. Ağoğlan dağı bir tərəfdən, Üçqardaş dağı o bir tərəfdən sanki yurdu bağrına sıxmışdı. Indiki faciəni o dağlar çoxdan duymuşdu. Fəlakəti öncə dağlar, daşlar, ağaclar, sular duyur.

Düşmən tərəfdən ilk zərbəni də alan dibindən kəhriz qaynayan Xan Çinar oldu. O Xan Çinar Cəbrayılın ilk şəhidi idi.

Hər gün yuxularımda o torpağı görməsəm, o yerlərə xəyalən üzümü sürtməsəm, torpaq məni özünə, öz ağuşuna almayacaq. Əminəm. Almayacaq.

"ALLAHINI TAPAN NƏ ITIRIR? ONU ITIRƏN NƏ TAPIR?"
(BIR ŞƏRQ BILGINI)

Ən qəribə olan və ən böyük bədbəxtlik də bundadır ki, mən Füzulini əlimə alıb ilk sözü oxuyan kimi yadıma qərib şairin özü, qərib qalmış Yurdum, qərib anam düşür. Dərdimi içimə tökürəm. Göz yaşım ürəyimə axır...

1993-cü ilin qara avqustunda rus-erməni ordusunun zəbun etdiyi Araz boyu Cəbrayıl, Qubadlı, Zəngilan köçünü Allah heç düşməninə də göstərməsin. Mən o məhşər gününün təsvirini verməkdə acizəm. O günü hətta yuxuda belə görməyə gücüm çatmır. O qaranlıq gecənin ah-zarında, xaosunda donub qalan respublikanın keçmiş Baş prokuroru Murad Babayevin göz yaşlarını, od tutub yanan kənddən qaçan kəndin öz canavarına baxıb "Yurd əldən getdi" deyib, köks ötürən nazir Əli Həsənovu, qəzəblərindən tir-tir titrəyən elm adamları Aslan Şahverdiyevi, Rafiq Quliyevi, yollarda çatlayıb ölən uşaqları, yorğun qocaları, sarsıntı içində qovrulan qadınları, Cəbhəçi gənclərin qəzəbdən boğulmuş sifətini, göyərmiş dodaqlarını, xəcalətdən, əlacsızlıqdan, əsəbdən əsən əllərini, qadınların, uşaqların fəryadını, yeznəm riyaziyyat alimi əsgər Xalıq Hüseynovun "Qrad" qurğusuna söykənib donub qalmasını, qardaşım Farizin bükülmüş belini, əmim oğlu Fazil Vəlinin oğlunun qəbri üstündəki ayrılıq hönkürtüsünü, atamın sarsıntısını, anamın bir gecənin içində dünyanın ən ağır xəstəliklərindən birinə yaxalanmasını necə unutmaq olar?!

Düşmən ayağı altında yiyəsiz qalmış qəbirstanlıq hər gün bizi gözləyir...

Cəbrayıldayam. Dörd tərəf od tutub yanır.

Bu yanıb dağılmış Qalalı məhəlləsi. Qəhrəman Cəmil Əhmədlinin heyrət, təəccüb dolu tunc sifəti donub qalıb. Bağışla, Sabir müəllim. Bağışla, böyük yazıçı, şəhid qardaşı, şəhid övladlı Sabih Əhmədli.

Bu, viranəyə çevrilmiş dəli-dolu Böyük Mərcanlı kəndi. Bağışla, Vaqif Bayatlı Odər.

Bu şənliyini bir gecədə qeyb eləmiş qədim Sultanlı kəndi. Bağışla, şair, bağışla, Sərdar Əsəd.

Yolları alt-üst olmuş Əmirvarlı kəndi, düşmən topunun gurladığı Əfəndilər yurdu. Bağışla, Əşrəf müəllim, bağışla, böyük alim, bağışla, Əşrəf Hüseynov.

Bu xarabazar Daşkəsən kəndi. Bağışla, Mehdi müəllim. Müəllimlər müəllimi Mehdi Mehdizadə. Bağışla, Sabir Süleymanlı. Bağışla, zamanın Kefli Isgəndəri – Kefli Bəşir. Bağışla, Alyanlı Cümşüd, bağışla, Məşədi Abış, bağışla, Isgəndər bəy.

Bağışla, Hacı Qaraman baba, bağışla, Hacı Qasım Çələbi baba, bağışla, Əli baba, bağışla, Mərcanlı Məhəmməd, Şıxalıağalı Orduxan.

Bağışlayın bizi, böyük insanlar! Böyük ruhlar!

Içdən və çöldən düşmən birləşdi. Qansız dağılmış Sovet rejimi qanlar axıtdı, intiqamını aldı. Dünya susdu. Haqq-ədalət çökdü. Azərbaycandan qovulmuş bədnam rus ordusu Ermənistandan püskürdü. Dığalar arxa tapdı. Qucaqda oturub "zəfər" çaldı. Lənət olsun...

Ölüm payımız orda qalıb, xilas payımız da, Tanrının verdiyi bütün paylar, qismətlər kimi orda qalıb.

Üç günlük əsirlikdən sonra düşmən Horadiz yolunu açdı. Horadizə girdik. Imişliyə yol aldıq. Yolun ağzında Füzuli rayonunun bitdiyi, Imişlinin başladığı yerdə "Füzuli" sözü yazılmış iri yazı-lövhə var idi. Yanında Füzulinin böyük, rəngli rəsmi. Ilahi, o günləri Füzulinin o rəsmi necə də hər şeyi olduğu kimi ifadə edirdi? Yarəb, o baxışlar niyə o qədər diri, ağır, mükəddər, hüznlü idi? Bilmirəm. Və yəqin ki, heç vaxt da bilməyəcəyəm.

Bu yaxınlarda rusların dağıtdığı Çeçen yurdlarını televizorda gördüm, qəhrəman çeçenlərin məşəqqəti, əsir düşmüş Raduyevin yanğısı, ifadəsi qeybə çəkilmiş gözləri o günləri, o faciələri mənə bir daha xatırldatdı, məni bir daha inim-inim inlətdi.

Füzuli Sözünə and olsun ki, çeçenlərin də, əsir durumda yaşayan türklərin də, Güneydə zülm içində yaşayan Azərbaycan türklərinin də, Qarabağın, Cəbrayılın düşmən tapdağından azad olduğu gün, düşmənin rəzalətə düşəcəyi gün uzaq deyil! Yaman günün ömrü az olar. Allah bizimlə olsun. Füzuli sözü, Füzuli ruhu bizimlə olsun. Imanımız, inamımız bizimlə olsun.

Amin!

(Oxucudan üzr istəyirəm. Nə qədər inamlı olsam da, yazıda nida işarəsi qoymağı tərgitmişəm).

Bu mürəkkəb, qarışıq dünyanın çözümü tapılacaq. Qılınc da, qələm də fürsətini, zamanını tapacaq və haqqı yerinə qoyacaq! Buna adım kimi əminəm.

Bir az mətləbdən uzaqlaşdım. Üzr diləyirəm.

Hələ orta məktəbdə oxuyarkən müəllimlərim Qabil Hacıyev, Qorxmaz Bayramov, Müzəffər Sadıqov, Bahadır Mehdiyev mənə Füzulini sevdirib.

Füzuli aləminin bir sirr olduğunu şüuraltı hiss etmişəm. Universitetdə mərhum müəllimlərim Mir Cəlalın, Muxtar Hüseynzadənin, Əli Fəhminin və hazırda yenə də enerji ilə işləyən Samət Əlizadənin dərsləri məni Füzuliyə ömürlük-tale kimi bağladı.

Rəhmətlik Mir Cəlal dərslərində Füzulidən az danışardı. Amma o qədər incə, məhrəm danışardı ki, sanki danışmaqla o müqəddəsliyin azalacağından çəkinirdi. Onun "Füzuli sənətkarlığı" kitabı həqiqətən dəyərli əsərdir.

Rəhmətlik Muxtar müəllim dil dərslərində örnəkləri Füzulidən deyəndə elə bir canlı can gəlirdi. Qrammatikanın quruluğunu və yoruculuğunu o şerlər özündə əridirdi. Muxtar müəllim "Füzulinin sintaksisi" adlı əsər üzərində işləyirdi və biz çağdaş Azərbaycan türkcəsi morfologiyasını keçsək də, o kitabdan hissələri artıq dinləyirdik. Təəssüf ki, ustadın arxivindən o əsər hələ tapılmayıb. Bəlkə bir gün tapılacaq. Bəlkə də Muxtar müəllim yazacağı kitabın mətləblərini bizə danışırmış. Və bəlkə də o, həmin kitabın - ömrünün şah əsəri olacaq kitabı yazmağa qıymırmış.

Füzulinin böyük bilicisi mərhum Əli Fəhmi universitetin anaş müəllimlərindən deyildi. Seçmə kurslar aparırdı. Özü həkim idi. Quranı tərcümə edirdi. Ilahiyyatı və təsəvvüfü gözəl bilirdi. Onun dilində Füzuli dərinliyi klassik Şərq ədəbiyyatı kontekstində o qədər məharət və ustalıqla verilirdi ki, heyrət etməyə bilmirdin. Akademik karyeri olmayan bu nadir insanın ərəbcə, farsca, türkcə dediyi şerlər filoloji sənətin əlçatmazlığının nişanəsi kimi unudulmazdı.

Akademik səviyyədə Füzulini Samət Əlizadənin dərslərindən öyrənməyə başladıq. Azərbaycan türcəsinin tarixi qrammatikası dərsini çox maraqlı və səviyyəli şəkildə deyən Sa-

mət müəllim üçün Füzuli hər şeyin ölçüsü-meyarı idi. O tez-tez öz müəllimindən əsərlərini sevə-sevə oxuyub kitablarından çox şey öyrəndiyimiz, üzünü görmədiyimiz (1965-ci ilin avqustun sonlarında - bizim qəbul imtahanlarının sonucu asılmış siyahı divara asılanda bu görkəmli alimin qara haşiyəli şəkli və nekroloq yazısı da həmin o siyahının yanından divardan asılmışdı...) mərhum Hadi Mirzəzadədən bəhs edərdi. Mərhum Hadi müəllimin obrazını anlamaq üçün onun öz əsərləri, Samət Abdullayevin "Azərbaycan dilinin tarixi sintaksisi" kitabına yazdığı maraqlı ön sözdən tapdığım və canlı olaraq yaşatdığı gələnəkələr, eləcə də onun oğlu - orijinal təbiətli, duzlu, məzəli, dərin təfəkkürlü, istedadlı bəstəkarımız Xəyyam Mirzəzadə və qızı - dil tarixçisi Çimnaz xanım Mirzəzadə göz önünə gəlir.

Füzuli suyu içmiş seçmə ailələrdən biri olan Mirzəzadələr ailəsi hər şeyi ilə milli ocaq dediyimiz ailələrdəndir. Seçkin ailələrin tarixi millətin tarixidir. Samət müəllim sonra IV kursda bizə Füzuli dilindən seçmə kurs keçdi. Indi mən 55 yaşın içindəyəm. Ancaq o dərslərdə Samət müəllim nə danışıbsa, hansı qəzəlləri necə təhlil edibsə, onları sizə az yanlışla sözbəsöz danışa bilərəm.

O zaman Samət müəllim özü də cavan idi. Və hiss edirdim ki, o, Füzuli haqqında çox ciddi söz demək üçün qüvvə axtarır, araşdırma aparır və bu böyük yolda özünü xoşbəxt hiss edir.

Doğrusunu deyim ki, Füzuli haqqında mənim gözlədiyim o əsəri Samət müəllim hələ yazmayıb. Mənim müəllimim, dostum, həmkarım məndən inciməsin. Mən onun yazdıqlarını, xüsusilə doktorluq əsərini yüksək qiymətləndirirəm. Ancaq onun dediyi dərslərdə - 1968-ci ilin qışında soyuq auditoriyaya gətirdiyi sakit və sirli gözəlliyin magiyasını, üstündən çox illər keçsə də, hələ də unutmamışam. Və çox istəyirəm ki, bütün dünya üçün Samət müəllim öz ürəyindəki Füzuli məhəbbəti gücündə əsər yazsın.

Əsər yazmaq yalnız müdrikliklə, elmin dərinliyi ilə bağlı deyil. Əsər həm də enerjidir, daxili gücün ifadəsidir.

Mən Füzuli haqqında naməlum müəllifin yazacağı elmi məntiqlə bədii-estetik dünyası birbirinə qarışmış, qovuşmuş əsəri hər gün gözləyirəm. Bəlkə də bu intizarda olan mən deyiləm, 20 yaşlı universitet tələbəsidir; auditoriyada oturub özünü dinləyir və bu daxili söhbət onu uzaq keçmişə qədər də, uzaq gələcəyə aparır. O, 20 yaşlı ümid, sevgi, enerji dolu gənc məndə ölübmü, sağmı, bilmirəm. Ancaq bir dəfə o gənc, müəllimini Bakı Soveti metrosunda rəngi ağappaq ağarmış, əlləri əsə-əsə validolu dodaqlarına yaxınlaşdıran gördü, onun qolundan yapışıb metrodan çıxmağa yardım etdi. Və bu vəziyyətdə o gəncin öz müəllimindən çox, Füzuliyə yazığı, heyfi gəldi. Füzuli haqqında yazılacaq kitabın məhrəm nisgili, qüssəsi o zamandan gəncin ürəyində özünə əbədi yer tapdı.

Füzuli ustadlarını anarkən görkəmli şərqşünas alim (heyf ki, Azərbaycanda qədir-qiyməti layiqincə bilinməyən), Quranı Azərbaycan türcəsinə mərhum Ziya Bünyadovla məharətlə çevirən, Füzulini çox zəngin və mürəkkəb türk-ərəb-fars poetikası, dilçiliyi kontekstində gözəl bilən Hacı Vasim Məmmədəliyevin, Füzuli əlyazmasını əlləri ilə köçürüb şərh yazan rəhmətlik Hacı Mailin, Füzuli vurğunu həkim Qəninin, Füzulini musiqi ilə yoğuran mərhum ustad Hacıbaba Hüseynovun, yaranması zəruri olan "Füzuli ensiklopediyası"nın gələcək baş redaktoru kimi görmək istədiyim, Füzuli araşdırıcısı kimi tanıyıb sevdiyim keçmiş tələbəm, həmkarım Rafael Hüseynovun, Azərbaycan ədəbiyyatı tarixinin türk kontekstində öyrənilməsini akademik səviyyədə konsepsiyaya çevirən dəyərli nəzəriyyəçi alim Yaşar Qarayevin, klassik ədəbiyyatın son mogikanlarından olan mərhum Qafar Kəndlinin,

M.Sultanovun "Leyli və Məcnun"u çağdaş Azərbaycan türkcəsində gözəl işləmiş həkim-professor Nurəddin Rzayevin, fəlsəfi aspektdə Füzuli dünyasını açıb aşkarlayan Fuad Qasımzadənin, Camal Mustafayevin, dərin və zəngin yazılarını sevə-sevə oxuduğum Azadə xanım Rüstəmovanın, Nüşabə xanım Araslının, eləcə də istedadlı füzulişünaslar mərhum N.Babayevin, L.Əlizadənin, T.Quliyevin, F.Qurbansoyun, Ç.Sasaninin, N.Mustafa, T.Kərimli, R.Mirzəyev və başqalarının (adlarını unutduqlarım məni bağışlasın) Füzuli sənəti, dünyagörüşü, həyatı, poetikası, öyrənilmə tarixi haqqında yazdıqlarını minnətdarlıqla xatırlamağı özümə borc bilirəm. Hamısından eyni şəkildə faydalanmadığım bu əsərlər füzulişünaslığın dəyərli qaynaqlarıdır.

Sonra mərhum ustadlar Abdulla Suru, Bəkir Çobanzadəni, Firudin bəy Köçərlini, Ismayıl Hikməti, Abdulla Şaiqi, Məmməd Cəfəri, Həmid Araslını, Əkrəm Cəfəri, Mirzağa Quluzadəni oxudum. Çox şey öyrəndim. Bəkir Çobanzadənin "Füzuli" məqalələr toplusunda çap olunmuş yazısı mənim üçün yeni, canlı Füzuli dünyası oldu. Məmməd Cəfərin "Füzuli düşünür" yazısı yeni baxış sistemi idi. Türkiyədə Abdulla Qaraxan, Hasibe Mazıoğlu ilə, Müjgan Cunburla, Mətin Akar, Mustafa Isen, Isgəndər Pala, Namiq Açıqgözlə şəxsən tanışlığım, söhbətlərimiz böyük şərqşünas-türkoloq Fuad Köprülüzadədən, eləcə də Ipəkoğludan və Əli Nihat Tərlandan oxuduğum əsərlərlə tamamlandı.

Türkiyədən görünən Füzuli obrazı mənə çox doğma və dərin təsir bağışladı. Xüsusilə, mətnşünaslıq və Şərq ədəbiyyatı kontekstində təhlil baxımından Türkiyə füzulişünaslığından bu mənada çox şey öyrənmək olar.

Rus-Qərb alimlərinin Füzuli böyüklüyünü anlayıb dərk etdiyinin də sübuta ehtayacı yox. Gibbin, Bertelsin, Bombaçinin, Krımskinin əsərlərindən çox şey öyrənmək olar. Ancaq bir millətçilik kimi anlaşılmasın, Füzulini söz-söz anlamaq, ürək dolusu qoxlamaq, duymaq üçün təpədən dırnağa türk olmalısan. Və Füzuli, demək olar ki, tərcüməsi olduqca çətin olan zərif şairdir. O incə söz toxumalarını, o işləmələri, dil fantaziyasını, romantizmini, lirizmini vermək üçün Füzulidən başqasına ümid olmaq əbəsdir. Varlığının suyunun suyu olsa da, Füzuli dünya şairi olaraq çoxdan qəbul olunub və öyrənilməsi işində də böyük məsafələr keçilib.

Sonralar Bağdadda, Kərbəlada oldum. Füzulinin müqəddəs qəbrini ziyarət etdim. Müqəddəs islam torpağında Füzuli ruhunu qan yaddaşımda bir daha duydum. Iraqlı türkman həmkarlarımdan Bəndəroğlunun, Sinan Səidin, Məfkurə xanımın Füzuli haqqında yazdıqları mənim üçün əzizdir. Bilmirəm, nədənsə mən onları qəribə bir məhrəmliklə oxuyuram. O kitablarda Füzulinin canlı nəfəsini duyuram.

Füzuli haqqında Sabir Əliyevin kitabı mənə maraqlı təsir bağışladı. Ağır zəhmətin bəhrəsi olan o kitaba ön söz yazdım və Füzuli poetikası haqqında fikrimi kitabın dəyəri ilə birgə açıqlamağa çalışdım.

Füzuli haqqında danışarkən Təbrizin sevdiyi Füzuli və mərhum şair, alim Həmid Nitqini xatırlamamaq ən ağır günah olardı.

Amma bir az sonra Bakını, Istanbulu, Ankaranı, Izmiri, Gəncəni çox sevsəm də, Yer üzündə cəmi 7-8 saat olduğum Təbriz qədər doğma yer görmədim. Bu bir ideologiya-filan deyil, səmimi ürək sözümdür. Azərbaycan türkcəsinin boy verməyən dərinliyini, zənginliyini, dolğunluğunu, istiliyini gördüyüm Təbriz bir qosqocaman Füzuli şəhəridir. Füzulinin heç vaxt olmadığı Təbriz Füzulinin hər vaxt yaşadığı əsrarəngiz şəhərdir. Insanları, məscidləri, küçələri, bazarları, havası, suyu ilə Təbriz Füzuli deyib yanır.

Mən Təbrizə ayaq basarkən Füzulini xatırladım və Füzuli adlı türk şairinin varlığı, əsərləri mənim baxışıma yeni bir aydınlıq gətirdi.

Bu sirri-xudanı anlaya bilmirəm. Ustad Şəhriyar məlum səbəblərdən farsca yazıb-yaradıb. Qocalıq çağlarında anasının xahişi ilə "Heydərbabaya salam"ı yazıb. Həsrət, kədər, xiffət, sevinc hopmuş bu əsər, əslində, Füzuliyə salamdır. Və mən ürəkdən inanıram ki, Füzuli bu salamı məmnunluqla almışdır.

Böyük maarifçi-alim Cavad Heyətin sözünün əvvəli də Füzulidir, sonu da, Nəvaidən sonra yenidən iki dili - farscanı və türkcəni elmi müqayisə edib türkcənin qüdrətini bir daha təsdiq edən Cavad Heyət Füzuli sözündəki qüdrəti və zərifliyi dərindən duyub elmi dili ilə Füzuli dünyasını mənalandıran araşdırıcıdır.

Güneydən söz düşmüşkən, Ə.Şerdostun Füzuli araşdırmaları diqqətdən kənarda qala bilməz. Mərhum Həmid Nitqi Füzuli sərrafı idi. Əlil arabacığında yuvasından boylanan bülbül kimi oturmuşdu Həmid müəllim. Hafizdən, Sədidən, Nəsimidən, Dədə Qorquddan danışırdı. Füzuliyə gələndə üzünə xəfif bir qızartı gəlirdi. Həyəcanla danışırdı. Və gözlənilmədən susurdu. Sözünün yetməzliyindən, sevgisinin daşıb yerə dağılacağından qorxurmuş kimi Füzulidən şer deyirdi. Dünya ədəbiyyatının nadir bilicisi Füzuli fenomenindən danışmağa çətinlik çəkirdi. Çox uzmanlardan hiss etdiyim bu qəribə hissi dərk etməyə çalışmışam, anlamaq istəmişəm, ancaq hələ də tam dərk edə bilməmişəm. Bu, Füzuli sənəti qarşısında insanın çarəsizliyidirmi? Sehrlə üzbəüz dayanan adamın psixoloji halətidirmi? Vurğunluq və vahimənin vəhdətidirmi? Bilmirəm. Bildiyim yeganə şey Füzulinin hər zaman yenidən doğulması, insanı yenidən açması, yenidən kəşf etməsidir. Füzulini oxuyan Füzulidə daha çox özünü görür, özünü hiss edir və özünü yazmaq, özünü ifadə etmək istəyir. Bəlkə də yanlışdır. Ancaq mənim qənaətim budur ki, Füzuli səndə olanla səndə olmayanın vəhdətidir. Şüuraltı ilə şüurüstünün birgəliyidir.

Və Həmid Nitqi Füzulidən öz atası, dostu, qardaşı, övladı kimi danışırdı. Bu, mənim üçün çox qiymətli idi. Vaxtilə Mirzə Cəlil haqqında "Anlamaq dərdi"ndə Anar da eyni şeyi yazmışdı və Həmid Nitqini dinlərkən Anarın çox maraqlı o yazısını xatırladım. Əslində, o yazılar modern düşüncə ilə, dekadens təcrübə ilə mənəvi irsə yanaşmaq yolu idi.

Yusif və Vaqif Səmədoğlu qardaşlarının da, Rüstəm Ibrahimbəyovun da, Isi Məlikzadənin də, Ramiz Rövşənin də Füzulisi, Mirzə Cəlili daha çox yaxın, doğma olan, müasirimiz olan, bizə gələcəkdən baxan Füzulidir, Mirzə Cəlildir. O Füzlini, o Mirzə Cəlili görmək və göstərmək yeni ədəbiyyatın mənəvi ehtiyacı idi. Çağdaş Azərbaycan ədəbiyyatı, 60-cılar adlanan yeni ədəbiyyatın və təbii ki, yeni təfəkkürün havadarı, arxası Füzuli və Mirzə Cəlil idi. Ayağının altındakı torpağa, başının üstündəki göyə inanan, Füzuliyə və Mirzə Cəlilə tapınırsa, burada heyrətli heç nə yoxdur.

Bir vaxtlar Mirzə Fətəli Füzuli "Ustadi-nazim" deyib. Bu ideolojini açıqlayan C.Cabbarlı bunun 300 illik öz ətrafında dolanan təqlid ədəbiyyatına zərbə və çıxış yolu kimi dəyərləndirir. Təpədən-dırnağa sənət olan C.Cabbarlını haqsız saymaq olmaz. Amma müxtəlif baxış bucaqlarından yorumlar da az deyil. Və hər halda Mirzə Fətəli haqsızdır. Bu haqsızlıq Mirzə Fətəlidən çox zamanın haqsızlığıdır. Modern semetikasının bir yolu da inkardır. Və bu inkar hər yerdə uğurlu, olumlu deyil. Uzaq zamandan baxanda kiçik zamanın oyunları açıq-aydın görünür. Müqəddəslərlə zarafat etmirlər. Görünür, Mirzə Fətəli hərdən belə zarafatları özünə rəva bilib. "Epoletlər altında böyük ürək" fəlsəfəsinə qatılmadan mən də çağdaş ədəbiyyatımızın banisi Mirzə Fətəlini hesab edirəm. Qısa zamanda yazdığı 6 kome-

diya ilə Mirzə Fətəli yalnız çağdaş dramaturjinin və teatrın deyil, çağdaş şerin, eləcə də nəsrin təməl daşını qoyub.

Və qəribə burasıdır ki, Azərbaycan ədəbiyyatında Füzuliyə yaxın ən böyük üç-dörd sənətkarın bir və zamanca birincisi Mirzə Fətəlidir. Sonra Mirzə Cəlil, Sabir və Üzeyir bəy gəlir.

Bu da bir taledir. Və şumerlər demişkən; insan taleyinin ardınca gedir - taledən qaçmaq olmaz.

Özünə yaxınlaşan, özünə dönən ədəbiyyatın Füzulini tapması və Füzuliyə tapınması həm də bizim türkcəmizin qəzavü-qədəridir. Bu sözləri yaza-yaza mən rejim bazarına çıxarılan ədəbiyyatı xatırlamaq istəmirəm. Və bu rəzalətin də səbəblərini araşdırmaq istəmirəm. Ancaq yerüstü çaylar qədər də var olan yeraltı çaylar olmasa, dünyanın suları yarımçıq, torpağı qısır qalardı.

Torpağı ayrılan, mənəviyyatı parça-parça edilən Azərbaycan, varlığı qəlpə-qəlpə edilən Türk dünyası ayağının altındakı torpaqla, başının üstündəki göylə ruhbir, canbir olmuşdur. Və bu birliyi, vəhdəti ilə bəşər mədəniyyətinin məhək daşlarından biridir.

Bəzən səslər eşidirsən: "Tanrı Türkü qorusun!" nə deməkdir? "Tanrı Türkü qorusun!" Allaha duadır, arzudur, iltimasdır. Və qətiyyən "Tanrı türk olmayanı qorumasın" - demək deyil. Bu cür yozum mənəvi təxribatdır. Hər millətin, etnosun yaşama, mücadilə haqqı var. Bu haqq dünyəvi olduğu qədər də ilahidir.

Füzulinin türkcə divanının dibaçəsi türkcənin manifestidir. Türkcənin manifesti olduğu qədər də sənətin bakirəliyi, zənginliyi və təkrarsızlığı haqqında misli-bərabəri olmayan mesajdır.

Sənət dünyasında Füzuli missiyası türkcənin əxlaqının təsdiqi olduğu qədər də, poetik zənginliyin, dolğunluğun, mürəkkəbliyin və şəffaflığın sübutudur. Füzuli türk ürəyinin, türk mənəviyyatının, sonsuzluğunun ifadəsi və bəşər təfəkküründün, təxəyyülünün fenomenal örnəyidir. Füzuli sözü bu birliyin həm gerçək tərəfidir, həm də simvolik-mistik tərəfidir. Türk sözünün ilahi anlamını dərk etmək üçün Allah Füzulini yaratmışdır. Bu, hər kəs kimi mənim üçün də bir gerçəkdir.

60-cı illərdə rəhmətlik R.Rzanın Nəsimi, Füzuli haqqında yazdığı yazıları çıxırdı. O yazılarda Füzuliyə yeni münasibəti, yeni baxışın yönü, konsepti açıqca bilinir. Kərkük bayatılarına yazdığı ön söz belə başlayır: "Iraq sözü mənim yadıma fəraq sözünü salır. Fəraq sözü isə Füzulinin naməlum rəssam tərəfindən çəkilmiş rəsmini..." Bu sözlər Füzuliyə doğma, yaxın çağdaş baxışın ilk addımlarıdır. Şairin "Füzuli" şerində bu baxış yeni üfüqlərə çıxır.

Bəxtiyar Vahabzadənin "Şəbi-Hicran" poeması Füzulisiz Azərbaycan Türk sözünün mümkünsüzlüyünün ifadəsi idi. Anar "Ağ liman"ında içli bir həsrətlə Füzuli ilə yaşayan müasirlərimizə yeni bir doğmalıq gətirdi. Çağdaş Azərbaycan ədəbiyyatının vicdanı, mərhum Ənvər Məmmədxanlının, çağdaş Azərbaycan elminin vicdanı Xudu Məmmədovun, Azərbaycan Milli-azadlıq hərəkatının lideri mərhum Əbülfəz Elçibəyin söhbətlərində, yazılarında, Ramiz Rövşənin baxışlarında, Alim Qasımovun ifasında yeni Füzulini bütün varlığı ilə ortaya çıxardı. Və təkrar edirəm ki, 60-cıların yeni ədəbiyyatı Füzulinin yeni doğuşu idi.

Titrəyib özünə qayıdan türklə, metropol dünyasında yaşayan türkün yeni obrazı yarandıqca, formalaşdıqca dünya dəyişir, dəyişən dünya bizi də dəyişdirir. Və bizim dəyişmə imkanlarımız sonsuzdur. Dəyişən zaman, elm-texnika, düşüncə, həyat tərzi üçün dəyişməyən dəyərlər var. Bu dəyərlərin başında Füzuli gəlir. Hər kəsin Füzulidən danışmaq, duymaq, dərk etmək və yazmaq haqqı var.

Və mən yazını yazarkən Füzulidən çox özümü yazdım, özümü dərk etməyə çalışdım. Üslubdan və üslubçuluqdan qaçmağa çalışdım. Duyduğumu, bildiyimi olduğu kimi yazmaq istədim. Bir damla Füzuli kədəri məni özümə açdı, məni mənə aydınlatdı, içimdəki pərdələri qaldırdı. Məni mənə görsətdi. Özümdə Füzulini gördüyüm kimi, Füzulidə də özümü axtardım. Bir insan kimi, bir fərd kimi özümə daldım. Və daldığım dünyanın əsrarını qələmə almağa çalışdım. Bu yazıların iddiasız olduğuna inanıram.

Zaman-zaman yazlımış bu düşüncələri qələmə alanda qulağımda Quranın səsi olub. Alim Qasımovun sirr dolu səsinin içində olmuşam. Dincəldiyim vaxtlarda bu səsi dinləmişəm.

Səs deyərkən mən Füzulini muğamda qoruyub saxlayan, müqəddəs varlıq kimi hifz edən Azərbaycan muğam məktəbini, onun yorulmaz araşdırıcısı mərhum Firudin Şuşinskini minnətdarlıqla xatırlamağı borclarımdan biri bilirəm. Şair Ağacəfər Həsənlinin, tənqidçi Vaqif Yusiflinin Füzuliyə baxışını göstərməmək mümkün deyil.

Yeri gəlmişkən, bizim aktyor-ifaçılıq sənətinin nadir ustalarından Sultan Nəcəfovun, Əli Zeynalovun, Məhluqə xanım Sadıqovanın, mərhum Səməndər Rzayevin, Rasim Balayevin, Həsən Turabovun, Əminə Yusifqızının, Mikayıl Mirzənin... adlarını çəkməklə Azərbaycan radiosunun bu sahədəki xidmətlərini dəyərləndirməyi zəruri bilirəm. Vaxtilə Anarın radioda yaratdığı "Səslər muzeyi" (yeri gəlmişkən, Füzuli şerini ən gözəl söyləyənlərdən biri də Anar özüdür) verilişi ədəbiyyatımız, mənəviyyatımız üçün böyük xidmətdir. Təəssüf ki, bu gün o böyük ənənə yeni çağa uyğun davam etdirilmir.

Zəmanəmizin dahi rəssamı mərhum Səttar Bəhlulzadənin "Füzuli" rəsmini xatırlayarkən rənglərin də varlığında, yoxluğunda Füzuliyə səcdə edən böyük sənətkar, kim bilir, bəlkə də Füzuliyə bənzəyən yeganə insan imiş? Kim bilir?

Bu yazının bir hissəsini vaxtilə mərhum əziz dostum Vidadi Məmmədov oxuyub dedi: " - Müəllim, gözəl yazmısan. Lap filosof kimi. Amma filosofluğun bir az kənd filosofluğudur". Zarafatla deyilən bu sözün məntiqini qəbul edirəm. Kənd müəllimi, kənd adamı, kənd filosofu olmaqdan üzüntü deyil, şərəf duyuram. Bu şərəfin içində hər şey var və mənə yetdikdir. Mənim genetik yaddaşımda çox böyük bir şəhər də var. 17 yaşımdan şəhərdə yaşasam da, şəhər-kənd bölgüsü şərtindən də şərtidir. Yalnız özümlə və Allahımla olduğum zaman yazdığım bu qeydlər mənim üçün çox əhəmiyyətlidir. Həyatımın mənası taleyim üçün və tələbələrimin, övladlarımın məni olduğu kimi görməsi üçün bu yazı yazılmalı idi. Və yazıldı.

Heç bir qarşılıq gözləmədən yazdıqlarımı çapa verərkən yuxusunu suya danışan adam kimi özümü rahat və xoşbəxt hiss etdim. Və mənə elə gəlir ki, yazdığım sözləri Füzuli özü mənə pıçıldayır. Və etiraf edim ki, o pıçıltını olduğu kimi vermək mümkünsüzdür.

Bu yazının sonunda Füzuliyə rəhmət oxuyuram. "Allahım, çox şükür", - deyirəm. Uşaqlarımın anası, ömür-gün yoldaşım Fatmaxanıma təşəkkür edirəm. Oğlanlarım Toğrula və Turala cansağlığı, başarılar diləyirəm. Onlara Füzuli imanından pay arzu edirəm. Əziz dostlarım mərhum Əbülfəz Elçibəyə, Isa Qəmbərə, Ramiz Rövşənə, Alim Qasımova, Vaqif Bayatlı Odərə bu yazının bağrından salam göndərirəm!

Ön söz əvəzi bir az vida sözünə oxşadı. Azərbaycanımın Azadlığını görmüşəm. Türk Dünyasını başdan-başa gəzib dolaşmışam, öyrənməyə, dərk etməyə çalışmışam. Dünyanın böyük insanları ilə görüşmüşəm. Gözəl ailə sahibiyəm. Etibarlı dost görmüşəm.

Allahımı tapmışam. Allahıma sığınmışam.

Millətimi sevmişəm. Dövlətimi sevmişəm. Insanı hər şeydən uca bilmişəm. Çox şükür. Inşallah, Vətənimin birliyini, Bütövlüyünü də görəcəm. Və ömrümün sonunu Təbrizdə yaşayacam. Boynu bükük bənövşənin salamını Araz boyunda alacam. Mən yaşamaq istəyirəm. Millətimlə, dostlarımla, ailəmlə, balalarımla birgə xoşbəxt olmaq istəyirəm. Millətimə, dövlətimə, dinimə, mədəniyyətimə, elmimə xidmət göstərmək istəyirəm.

Allahımı sevirəm və ruhumla ona bağlıyam.

Füzuli yolunun yolçusuyam. Inanıram ki, bu yol məni istədiyim məqama çatdıracaq. Inşallah.

Mən millətimin qoluzorlular, azğınlar, şərəfsizlər tərəfindən küsdürülmüş ləyaqətinin, şərəfinin geri dönəcəyinə anamın südü kimi inanıram!

"Bizdən olmayanlar bizə düşməndir" şüarı, tayfaçılıq, rüşvət və korrupsiya məhv olmayınca Azərbaycan xilas olmayacaq!

Türk dünyası türklük, dünyəvilik, islami əxlaq, demokratik düşüncə, hüquq əsasında doğmalaşmadıqca, mədəniyyət, iqtisadiyyat birliyi yolunu tutmadıqca xilas olmayacaq.

Insani dəyərlərlə milli dəyərlər, insani haqlarla bəşəri milli haqlar üzvi şəkildə qorunmadıqca dünya əzab çəkəcək.

Füzuli, Rable, Şekspir, Balzak, Xəyyam, Taqor, Dostoyevski, Pasternak, Folkner, Borxes, Markes, Kavabata... dünyasının ruhları birləşməyincə dünya xilas olmayacaq.

Ancaq biz Azərbaycanın da, Türk Dünyasının da, dünyanın da xilasına inanırıq. Biz Allaha inanırıq. Inanırıq, yaşayırıq, sevirik və mücadilə edirik.

Hamıya bəllidir ki, F.Köçərliyə qədər ədəbiyyat tariximizin ana qaynaqları dibaçələr, cünglər və xüsusilə, təzkirələr olmuşdur. Firudin bəy elmi-akademik ədəbiyyatşünaslığı yaratdıqdan sonra ədəbiyyat tariximizin bilim yolunda böyük uğurları olmuşdur. Sovet dövründə də bu məktəb rejim sıxıntılarına və ideoloji qəliblərə baxmayaraq çox böyük iş görmüşdür.

Stalin ideolojisinin ortaya atdığı Midiya, Nizami, Azərbaycançılıq məsələləri olduqca mürəkkəb, çoxanlamlı və çoxversiyalı tanıtıma, yozuma, şərhə möhtacdır. Qətiyyən belə anlaşılmasın ki, biz Midiya, Nizami və Azərbaycançılıq anlayışlarına qarşıyıq. Midiya bizim tarixi Vətənimizdir, Nizami qüdrətli Azərbaycan şairidir. Türkcə düşünüb farsca yazan Nizami, dünya ədəbiyyatının sütunlarından biridir. Azərbaycançılıq böyük Öndərimiz Məhəmməd Əmin Rəsulzadə tərəfindən ana xətləri gözəl işlənmiş, Vətənçilik, Dövlətçiliklə üzvi şəkildə birləşmiş prinsiplərlə vəhdətdə açıqlanmışdır. Azərbaycançılıq Türkçülüklə alternativ deyil. Azərbaycançılıq bir sıra mühüm mədəniyyət, mənəviyyat məsələlərində türkçülüyün tərkib hissəsidir. Azərbaycançılıq türkçülüyün inkarı deyil, təsdiqidir. Stalin təfsirində Midiya-türk olmayan xəyali məkandır. Midiya uydurulmuş elə bir antitürk coğrafi-sosial-mədəniyyət təməlidir ki, bu təməl üzərində "Sistem" quran Moskva-Leninqrad tarixçiləri və onların Bakıdakı əlaltıları türklüyə hücum cəbbəxanasını bu təməl üzərində qurmuşlar. Bir fakt göstərmək yetərlidir. Azərbaycanda antitürk sovet tarix platformu Mər-

kəzi Komitə və KQB-nin xeyir-duası və stratejisinə uyğun olaraq işlənmiş, Azərbaycan tarixini ərazi tarixi sınırları içərisində milli-mənəvi qeyri-türk amillər məntiqsiz şəkildə şişirdilmiş, milli tariximiz uydurulmuş tarixi faktlar əsasında yazılmışdır. Azərbaycan EA Tarix institutunun müdiri Iqrar Əliyev Mərkəzi Komitənin o vaxtkı katibi Danil Quliyevə yazdığı məktubda (24 iyun 1971-ci il - 1 çap vərəqində olan bu məktubu ayrıca çap etdirəcəyik) 20-dən artıq elm adamına pantürkist, millətçi damğası vurmaqla hər cür həbsə və inzibati cəzaya zəmin yaratmışdır. Təəssüf ki, 50-ci illərdən başlayıb Moskva KQB-si və Mərkəzi Komitə ilə işbirliyi şəraitində həyata keçirilən bu məqsədli ideoloji fəaliyyət, təhqir və hökm kompaniyası eyni adamlar tərəfindən günü bu gün davam etdirilir. Ancaq kökü qurumuş budaqların sonuna çox qalmayıb! Onları dirildən bu son 7 il son həmlədir və şübhəsiz ki, gələcəyin yolu onlara qapalıdır. Bu, ayrı bir söhbətin mövzusudur.

Azərbaycançılığı Türkçülüyə qarşı qoyanlar uydurma Stalin konsepsiyası əsasında Azərbaycan dili anlayışını dövrəyə buraxmış, türk olmayan hər şeyə rəvac vermişlər. Bu təfsirdə Azərbaycançılıq Türkçülüyə qarşıdır və çox təhlükəli bir baxışdır.

Ana dilli ədəbiyyatı önləmək, ümumtürk ədəbiyyatını önləmək üçün Nizami faktorunun aşırı şəkildə şişirdilməsi milli dilin və milli ədəbiyyatın öyrənilməsinə qarşı çevrilmişdir. Bu baxışın yarasını alan ədəbi şəxsiyyətlərdən bir də Füzulidir.

Füzuliyə dönüş milli ədəbiyyata, ana dilli mənəviyyata dönüşdür. Nizamiyə zərrə qədər də kölgə salmadan türk ədəbiyyatı bütün yönləri və zənginliyi ilə öyrənilməli, tədris edilməlidir.

Yalançı türkçülük hay-küydən başqa bir şey deyil. Uydurma etimologiyalarla tarixə hökm vermək də nadanlığın bir çeşididir. Türklüyün və Azərbaycançılığın sağlam yolu insanlığa gedən yola qovuşur.

Bu yol təmiz, səmimi, iddiasız və gerçək yoldur. Bu yol Füzuli yoludur.

Füzuliyə qayıdan millət özünə qayıdır, Füzuliyə dönən mənəviyyat öz kökünə, öz mayasına, öz əcdadına dönür.

Anadilli ədəbiyyat milli ədəbiyyatın bünövrəsi, məhək daşıdır.

Füzuli anadilli ədəbiyyatın səs, söz, ruh bayrağı, imanı və inamıdır. Allah heç bir milləti imansız və inamsız etməsin!

Allah bizi imansız və inamsız etməsin!

Allah bizə Füzulisiz bir gün verməsin!

Amin.

MƏNI CANDAN USANDIRDI

Sizi inandırıram ki, məni Füzuliyə kökümün, əslimin bir cığırı apardı - necə apardı, niyə apardı, bilmirəm. Doğrudur ki, mən Füzuliyə ömür həsr eləməmişəm. Füzulinin şer tilsimininsə, heç mində birini də bilmirəm. Ancaq bir şeyi çox gözəl bilirəm ki, Füzuliyə məni səsləyən o ulu, qoca babalarımdan biri, süd birliyi xatirinəmi, məndə yenidən yaşamaq xatirinəmi, hər gecə məni öz ürəyinə harayladı, orada mənə sığınacaq verdi. Bu səs həm uzaq dünənin gecəsindən, həm də uzaq sabahın dan yerindən gəlirdi. Bu səs mənə təntənə, bəlağət, nəsihət dünyasından o üzdəki bir başqa məmləkəti göstərib, o məmləkətin tənha sakini bir insanın, bir ruhun, bir yuxunun, bir həqiqətin yerini nişan verdi və sözdən uca dayanan sözün sirli-soraqlı yalqız evini-beytülhəzən deyilən qara çıraqlı ocağını göstərdi...

"Füzulinin min il bundan sonra da bir insana salam verməsi o insan üçün böyük bir şərəf olacaq. Salamını aldıq, alırıq: əleyküməssalam, böyük ustad". Və böyük Nazim Hikmət demişkən, mən o qara çıraqlı ocağın müqəddəs sahibinin salamını almağa gəldim.

* * *

Həmişə mənə elə gəlib ki, müasir Azərbaycan ədəbiyyatı "Məni candan usandırdı..." deyimi ilə başlayır.

Bu deyim aşığın işlətdiyi adicə el ifadəsi deyil. Başı sonsuzluq yolunda daşdan-daşa dəyən, ruhu irmaqdan-irmağa köç edən, yuxu ilə həyat arasında - nə yuxu, nə də həyat olan dünyada yaşayan, dərd-ölüm ölkəsinin vətəndaşı min bir fırtınadan, min bir təcrübədən - bədii sözün təcrübəsindən sonra nəfəs alıb deyir: Məni candan usandırdı...

Bu deyim yeni təzahürün, yeni dünyanın səsidir. Bu səs yer üzünün göydən düşən ilk buğda dənəsidir. Düşməsəydi, dünya min il ləngiyərdi, yürüşünə gecikərdi.

Bu səs Bayatlı Süleyman oğlu Məhəmmədin səsi idi.

* * *

... Bu dünyada min illər idi ki, gözəl nəğmələr var idi, qüssəli gecələr, həzin sevgilər var idi, adamları ölməyə qoymayan qəribə qoxulu otlar var idi, qoca-qoca kişilərin min illər bundan əvvəl başlayan hekayətləri, nağılları var idi. Bu dünyada bir damla göz yaşı var idi, işıq düşməyən bir yerinə həmişəlik qaranlığı var idi, içində günəş qaynayan çay var idi, gecələr ayın xəlvəti soyunub çimdiyi sular var idi.

Sübhəcən gözlərini ulduzlardan çəkməyən bir oğlan var idi.

Sübhəcən göz yaşlarını yastığına sıxan bir qız.

Bir də bütün bunları sözə çevirən Əfsunçu var idi. Adına Süleyman oğlu Məhəmməd deyirdilər. Vətəni bayatı, özü Bayatlı Süleyman oğlu Məhəmməd qürbətdə yaşayırdı, sehr dolu Vətəni sözlərlə yığıb ürəyində saxlayırdı. Qürbətdə vətəni bu sehrli sözlər yaradacaqdı. Vətən bir adamın üzünə yaşayacaqdı. Bayatının doğduğu Bayatlı Süleyman oğlu Məhəmmədin üzünə.

* * *

Dostum, dünyada çox əzab, çox ağrı var. Mənim əzabım eşq əzabı, eşq ağrısıdır.

Dərviş kimi yollar yoraram, ac-susuz yaşaram, baş alıb dünyanı payi-piyada gəzərəm. Içimdə bir xaraba şəhər saxlaram. Adamsız, həyatsız bu şəhərdə təkcə bir tüstü var. O tüstü o şəhərin ölmüş ruhudur. O şəhərin təmtərağı, səs-küyü, meydanları, oyunları, şairləri, pəhləvanları, cəlladları, qızları, oğlanları o bir burum tüstüdə ərşə qalxar.

Mən bir xaraba şəhərəm, viranə yurdam, dostum...

O şəhər mənim qəmimdir.

O binəva sənin qəmli şəhərində yaşayır-

Bayatlı Süleyman oğlu Məhəmməd...

* * *

... Füzuli doğluanda göyə baxdı - dörd bir tərəf qaranlıq idi. Bələnəndə də bu oğlan uşağı üzünü göyə çevirdi. Və o göy üzündə nə gördüsə, bütün ömrü boyu ora can atdı. Nə idi bu göy üzü? Ilğımmı, işıqmı, həqiqətmi, yalanmı - bilmirdi. Gözlərinə çökən göy üzünü özünə yurd eləyən şair yer üzünün xoşbəxtliyindən, bədbəxtliyindən, dadından, tamından, rəngindən, qoxusundan məhrum deyildi, əksinə, onlara məhkum idi.

Bu məhkum bəndə yerdə doğulub göyə can atdı. Göydə doğulub yerdə yaşamaq nə qədər dəhşətli idisə, yerdə doğulub göylə yaşamaq, işığını orada axtarmaq eləcə dəhşətli idi.

Çünki doğulanda ağlamışdı, ağlaya-ağlaya göy üzünə baxmışdı. Göz yaşlarının içində bir göy üzü görmüşdü. Bayatının doğulduğu Bayatlı Süleyman oğlu Məhəmməd...

* * *

Qürbətdə qərib şadiman olmaz imiş...

Füzuli Vətəndən uzaqda dünyaya gəlib. Vətəni sözlərindən tanıyıb. Dildə Vətən tapıb və bütün həyatı boyu vətəndən Vətənə baxa-baxa qalıb.

Vətənin qoxusu gələn bu sözlər gələcək şairin ürəyində ulu bir yurd salmışdı.

Doğma yurd onlara bir qəbiristan olmuşdu. Içində ölülər yatmayan bu qəbirlər ruhun sakitliyi üçün idi. Böyüklü-kiçikli bir yurd qəbiristanlığı.

* * *

Zamanın yaddaşında hər şey qalır. Ancaq hər şey zaman kimi qalır, zaman dilində həkk olunur, ulu ustad!

* * *

"Mənə uca bir türbə yapınız ki, uzaqdan məni görəsiz. Və mənim türbəmə şad gəlin ki, ruhum şad olsun" - deyib Mövlana Cəmaləddin Rumi.

Sən isə öz türbəni belə arzuladın.

Ucaldın qəbrim, ey bidərdlər, sanki-məlamətdən
Ki, məlum ola dərd əhlinə qəbrim ol əlamətdən.
Məzarım üzrə qoymun mil, əgər kuyunda can versəm,
Qoyun bir saya düşsün qəbrimə ol sərvqamətdən...

Qəbri üstə dərd əhlini görmək istəyən Füzulinin rahatlığı dərd gətirənin gətirdiyi dərddir.

Olduqca mən götürmə bəladan iradətim,
Mən istərəm bəlanı, çü istər bəla məni!

... Doğma yurd! Niyə belə məni əzirsən? Bu qədər xiffət, kədər, ağrı nəyə gərək? Bilirəm, mənə güc verirsən. Sən həmişə əzib mənə güc vermisən. Sıxmısan, ağrıtmısan, səndən qopanda görmüşəm güclüyəm, hərəkətdəyəm, özümdən asılı olmayaraq gedirəm, çarpışıram.

Doğma yurd, doğma ev, doğma ata, doğma ana, doğmalarım, yığın nə qədər ağrınız varsa verin mənə, gəlmişəm.

* * *

... Füzulinin şerində bir adam və bir xalq yaşayır. Bir xalqın mənəvi yüksəlişi, bir dövrün mənzərəsi bir adamda öz əksini tapır. Və bu adam gücün, gözəlliyin, zərifliyin, hərəkətin həyatı kimi yaşayır.

Bir adamda bir xalqın, bir xalqda bir adamın yaşamağı isə möcüzənin özüdür.

* * *

... Bu bir belə xatirədən necə çıxım, gülüm. Bu bir belə yaddaşdan hara qaçım? Mümkün deyil. Bu yaddaş, bu xatirə məni doğub, məni də gec-tez öz bətninə çəkib aparacaq.

* * *

... Sarsıldıqca incəlirdi və incəldikcə dünyanı daha aydın görürdü, insanın içindəki dərinliyə daha çox enirdi. Bəlkə də bu, dərinlik deyildi, sonsuz bir ucalıq idi ki, Füzuli o ucalığa yüksəlirdi.

Bu həssaslığın arxasında sarsıntı dayanırdı. Sarsıntı böyük olduqca həssaslıq da artır, insan incəlir, nazilir, gözlə görünməyən, qulaqla eşidilməyən titrəklik, kövrəklik qazanır.

Dünya şairin əsəblərindən keçir. Şair zamanı yaşayır; an-an, saniyə-saniyə keçən vaxt şair ürəyindən axıb keçir, süzülür, ağrıdan, əzabdan təmizlənir.

* * *

Adamlar iki yerə ayrılır: möcüzəni həqiqət bilib ona inananlar və bir də möcüzəni həqiqət bilməyənlər. Möcüzə yoxdur. Ancaq möcüzəyə inanmayan yoxdur.

Daş möcüzəyə inanmır, su inanır.

Füzuli möcüzəyə inanır. Inanır ki, o uça bilər, dağlar ağlaya bilər, günəş sönə bilər.

Füzuli inanır ki, ən böyük möcüzə o özüdür.

Yalnız öz möcüzəsinə inanan adam yaza bilər ki:

Cigərim qanını göz yaşına tökdün, ey dil
Varə-varə onu Qülzüm, bu Ceyhun etdin.
Canım aldın mey üçün, saqi, içirdin mənə qan,
Dad əlindən ki, məni al ilə məğbun etdin.
Göz yumub aləmdən, istərdim açam rüxsarinə,
Canım aldın, göz yumub-açınca möhlət vermədin.

... Qüdrətli Şərq şairlərinin çoxu formanın içindədir. Forma Füzulinin, o şairlər fəth edilmiş yerin işığını, Füzuli isə insandakı işığı tapandır. Füzuli insanı özündə tapır, özünü qazır, özünü özü ilə işıqlandırır.

* * *

... Bir gözəl, şairin dillər əzbəri şerini oxuyurdu. Səsi elə bil qızın içindən sıxıb çıxarırdılar. Titrək-titrək ucalan səs bir səhranın bir gecəlik sevgisini danışırdı. Bilmədiyim dilin, bilmədiyim səhranın, bilmədiyim sevginin səsiydi bu səs. Bu səsləri, bu sözləri dünya ilk dəfə eşidirdi.

Ah idi həmnəfəsim, ah ki, ol həm axır
Çıxdı ikrah qılıb külbeyi-ehzanımdan.
Can əgər çıxsa tənimdən əsəri-mehri ilə,

Əsəri-mehrini sanma ki, çıxar canımdan.

* * *

... Füzuli dünyagörüşünün hüdudlarını, əsaslarını təyin etmək asan deyil. Füzuli "Mətləül-etiqad"ı yazanda yunan fəlsəfəsini arayır, aşkarlayır. Nizaminin qurtardığı yerdən Füzuli başlayır. "Isgəndərnamə"dən "Mətləül-etiqad"a gedən yol iki dahini birləşdirən ən qısa yoldur.

Bulmuşdu səfayi-dil Nizami,

Şirvanşahə düşüb girami.

- deyən Füzuli şerində Şərqin üç böyük dilində yaradan qüdrətli söz ustalarının işığı var.

Füzuli dünyagörüşündə türk dilində yaradan nəhənglərin - Həsənoğlunun, Nəsiminin, Nəvainin, Baburun, Qazi Bürhanəddinin, Xətainin böyük təcrübəsi var idi.

Olmuşdu Nəvaiyi-süxəndan,

Mənzuri-şəhənşəhi-Xorasan...

- deyə Füzuli adını çəkdiyi və çəkmədiyi nəhənglərin işığını da özündə toplayıb cəm etmişdi.

Nəvainin "Mühakimətül-lüğəteyn" traktatı türkdilli ədəbiyyatın manifestidir. Və Füzuli Azərbaycan dilindəki "Divan"ının dibaçəsində Nəvainin nəzəriyyə yolunu davam etdirmiş, onu yeni zirvəyə qaldırmışdır.

Şah Ismayıl Xətainin yaratdığı böyük dövlətin dili - Azərbaycan dili, bu fütuhatın mənəviyyat amilləri layiqli ifadəsini Füzulidə tapdı. Və Füzuli yunan və Roma, Hind və Çin, Avesta və Zend fəlsəfəsindən başlayıb və böyük müdriklik dünyasını yaradırdı. Bu dünyanın ən bakirə sözü insan idi - insan sevgisi, insan azadlığının rəmzi idi. Idrakın əvvəli də sevgi idi, sonu da.

Dədə Qorquddan gələn şamanizm, əsatirimizdən gələn sehr-möcüzə, ilk Tanrıçılıqdan gələn təbiətə qovuşma, tapınma, islam dünyasında inqilabi qüvvə kimi baş qaldıran təsəvvüf, hürufizm məslək yolları, əqidə məktəbləri də Füzuli dünyagörüşünün bir hissəsi idi.

"Bibliya" və "Quran" da Füzuli sənətinin içindədir. "Bibliya" insanın zəifliyi, "Quran", isə insanın gücü üstündə qurulub.

"Bibliya"da insan gücü üstündə qurulub. "Bibliya"da insan köməksizdir, köməyə, istəyə möhtacdır, rəhmə möhtacdır, hər cür zülmə dözəndir.

"Quran" isə insanı imperiya üçün səfərbər edir, insana güclü olmağı təlqin edir. Dünyanın son böyük dinində ideologiya daha qabarıqdır.

Bu böyük abidələrin oxşar ruhu, bənzərsiz layları tarixlə bağlıdır. Gücsüzlüyün və gücün dini Füzuli şerinin bətnindədir.

Məqamlar var ki, Füzuli xristian təfəkkürünün şairidir. "Bibliya" genişliyi Füzuli sənəti ilə olduqca doğmadır.

Və məqamlar var ki, Füzul islam dünyasının əvəzsiz şairidir.

Füzuli sənətinin, dünyadurumunun ana qaynağı xalq mənəviyyatı, xalq düşüncəsi, el sənətidir. O el sənəti, o xalq dili ki, Füzuli onu açıq, olduğu kimi deməyib. "Kitabi-Dədə Qorqud"un ruhu ilə, atalar sözünün gücü ilə, nağılların, dastanların nuru ilə özünün həqiqət dünyasını yaradıb...

Xalq təfəkkür tərzi Füzuli dünyagörüşünün əsasıdır.

* * *

... Heyva ətri xatirədi, uzaq uşaqlığın geri qayıtmayan günləridi. Yaşlı adamın xiffətidi.

Alma ətri sevincdi, günün, yaşın sevincidi.

Qızılgül ətri ehtirasdı. Qıpqırmızı qandı, isti qandı, doymazlıqdı, gücdü, insanın ölməzlik çağının ətridi.

Bənövşə ətri sevgidi, təkrarsız, təkcə sevgi, bircə sevgi - yaşın, zamanın, məkanın itən çağının ətridi.

Yovşan ətri, nanə ətri, zəfəran ətri, çay ətri, bal ətri həyatdı, yaşanmış və yaşanmamış həyatdı. Hər kəs dünyada öz ətrini axtarır, öz yaşını axtarır, özündə çatışmayan ətri axtarır. Bir vaxt gəlir ki, onları tapır, o ətirləri özləri gəlib taleyin olacağı kimi ömür adlı kitaba yazılır. Yazıya pozu yoxdur, olacağa çarə.

... Füzuli öz hücrəsinə çəkilib ətirdən bihuş olmuşdu. Bu ətir onu dünyadan nə qədər ayırmış və onu dünyaya nə qədər bağlamışdı... Ətir ona xoşbəxtlikimi gətirmişdi, bədbəxtlikmi? Bu ətrin yiyəsi başını aşağı dikib Füzulini dinləyirdi.

- Ay zalım bənövşə, hardan gəldin? O uzaq, ilıq yuxunun içindən məni niyə ayırdın? Niyə hər şeyi bu qədər yaxına çəkdin, niyə məni diksindirdin, niyə bu qan yaşlı gözləri, titrək dodaqları, gözlərin içindəki uzun zülməti tərpətdin? Rəngi ətrinə çökmüş, ətri rənginə boyanmış zavallı, yazıq, ömürsüz, günsüz, hər şeyi duyduğuna qurban vermiş elsiz, obasız, bacasız balaca gül, mən düşən dərdə düşmüsən, bəxtəvər. Bəs səni kim qarğadı, ay xoşbəxtlər xoşbəxti, yazıqlar yazığı? Qızmısan, oğlanmısan - bilmirəm. Onu bilirəm ki, yolun uzun olacaq, qarşına otlar, ağaclar çıxacaq, quşlar çıxacaq, yoluna ay çıxacaq, gün, ulduzlar çıxacaq, yoluna ağ at çıxacaq; yoluna su çıxacaq, yoluna torpaq çıxacaq, dağ çıxacaq, daş çıxacaq, yoluna dünya çıxacaq, nəhayət, yoluna Tanrı çıxacaq.

Hamıya hər şey verəcəksən. Özünü, gözünü, sözünü söz-söz, baxım-baxım, tikə-tikə qurban verəcəksən. Bitib tükənəcəksən. Qismətini verəcəksən, taleyini verəcəksən. Qurban verəcəksən. Bir o ətri vermə, mənim balaca balam. Ot, ağac, atan, anan, bacın istəyəcək - verməyəcəksən, dağa da, daşa da, suya da, dünyaya da verməyəcəksən, heç Tanrının özünə də verməyəcəksən. Çünki sən ot ilə Tanrını ayırmırsan, sən öz ətrindən savayı hər şeyi ayırırsan. Ot ətrindən savayı heç nəti tanımırsan və öz ətrinə can atırsan. Sən sevirsən, sən

sevgisən, sən can əvəzinə o ətri daşıyırsan, mənim balam. Heç kəs bilmir ki, o ətir elə səndən ayrılan sənsən və sənə can atan sənsən. Heç kəs bilməyəcək ki, bu ətir qurtaranda sən də qurtaracaqsan, bu ətrin gözləri qapananda sənin də gözlərin qapanacaq, mənim balam.

Bir ömürlük ətrin var. O ətri yeyəcəksən, o ətri içəcəksən, o ətri heç kəsə qıymayacaqsan. O ətri ala-ala öləcəksən, ölə-ölə diriləcəksən, mənim balam, mənim bəxtəvər balam, mənim bədbəxt balam. Öz dünyasını azmış balam, Vətənini yadırğamış balam, gəldin, geri getməz oldun, mənim quzu balam, ətrin sönənəcən yanarısan, yolun var ikən gedərisən, axtardığını axtarasısn, tapmadığını arayasısan. Gecələr sənindi, səhralar sənindi. Yanğılar sənindi, dərdlər sənindi, mənim balam.

... Bu yerdə Füzuli anladı ki, bu xalqın onu dinləməyə səbri çatmır.

***

... Hər tərəfi şərtilik toru ilə örtülmüş bu cəmiyyət Füzulini iyrəndirir, onu sevgi adlı uzaq və azad bir məmləkətə səsləyirdi. Bu məmləkət onun nicat yolu idi. Onun xilası öz içindəki eşqdə idi.

... Mənə dəymə! Qoy çiçək kimi açım. Qoy yarpaq kimi solum. Min ildən bəri olmaq istədiyim şəklimi alım, almaq istədiyim mənanı alım. Mənə dəymə. Beynimin səssiz yerişinə, ürəyimin səsli yürüşünə, gözümün rənginə, alnımın qırışına, əllərimə, barmaqlarıma, saçlarıma toxunma. Qoy dirilim. Qoy olacağım şəkildə, olacağım mənada dirilim və sənin dəymədiyin kimi də ölüm. Dəydikcə məni dəyişirsən, məni olacağım şəkildən ayırırsan. Sözünlə, üzünlə, gözünlə, istəyinlə, nifrətinlə məni minillik yolumdan yayındırırsan. Mənə dəymə. Mən yollar yorğunu, mən yollar yolçusu ilə işin olmasın. Məndən uzaq ol.

Hər şey Füzuliyə öz sirrini, öz dərdini açırdı: ağac da, ot da, yarpaq da, səhra da. Axın-axın dərd, qoşun-qoşun sirr Füzulini bürüyürdü, şair dünyanın sirrinə qərq olmuşdu.

Dünya sirri. Nə idi bu sirr?

Şair əlinə qələm alıb bir cümlə sirr yazdı - insan sirri, dərd sirri; bir cümlə sirr açdı - insan sirri, dünya sirri. Şair bir həqiqət qarşısında dayanmışdı: Mən mənə qədər olan hər şeyin təsdiqiyəm. Mən mənə qədər olan hər şeyin inkarıyam.

***

"... Mən doğulduğum gün öldüm" - deyib bir müdrik. O müdrik həyatı dərk edib. Həyatı dərk edən ölümü də dərk edir. Öz ölümünə ağlayan insan hələ nə qədər cavandır, təzədir. Onun alnının qırışları beyninin qırışlarından qat-qat çoxdur.

Ilk ölümü görən, başa düşən və ümumən, insanın ölərliyini anlayan uşağın sarsıntısı ilə qocalıqda da ölümdən qorxan adamın nə qədər fərqi var. Ölənləri görə-görə ölməyə uyğunlaşmaq, alışmaq və yaş artdıqca ölümə vərdiş etmək hələ özündəki ölüm xofunu məhv etmək deyil.

Və Füzuli ölüm astanasından çox-çox qabaq bir kitabı vərəqləmiş, sağdan-sola oxuyub həyat almış, soldan-sağa oxuyub ölüm almışdı. Yaşaya-yaşaya ölməyin, ölə-ölə yaşamağın

vəhdətini bilmək üçün ona uzun lilər gərək olmuşdu. Otlar, ağaclar, pələnglər, güllər, çiçəklər, quşlar, insanlar... zaman adlı bir yolu keçir. Bu yolun başlanğıcı və sonu var. Bu yolun uzunluğu bir andır, beş saatdır, bir həftədir, 500 ildir, 300 ildir... Bu yolun bir anı ilə 300 anı arasında, bir ili ilə 500 ili arasında fərq varmı? Otları, quşları, gülləri insan kimi düşünən və danışa bilən Füzuli bir də bunu bilirdi ki, bu yolun uzunluğunun mətləbə, yəni bir ucu olum, bir ucu ölüm adlı həqiqətə - həyat adlı həqiqətə heç bir dəxli yoxdur. Bu elə bir yoldur ki, onun ömür müddəti tək bircə dəfə sinədolu qışqırmağa və ya bir ağız bayatı çağırmağa, ya da bircə anlığa ətir saçmağa ancaq yetər. Bəzən heç ona da yetməz. Yüz il gəzib dolaşmağa, istidə tərləməyə, soyuqda üşüməyə, yarpaq tökməyə, yarpaq bitirməyə, bala doğmağa və bala böyütməyə yetə də bilər, yetməyə də...

Füzuli bunu bilirdi ki, uzunluğunun fərqi olmayan bu yolda elə bir şey tapırsan ki, o tapdığın sənin yaşadığın və yaşamayacağın vaxta dəyir, hər şeyi sənin üçün adiləşdirir və həyat adlı, ölüm adlı varlığın, ya yoxluğun içində sənin yerini əbədiləşdirir.

Həyat bir yuxudursa, ölüm onun oynaşıdır. Bəs, ölüm yuxudursa?.. Ölüm yuxudursa, həyat onun yorğunluğu, ağrısıdır. Və həm də onun dəyəri, mənası, məğzidir. Füzuli yaşadığı ömür adlı zaman yolunda neçə addım atmışdısa, ölümü bir o qədər sevmişdi. Çünki ölümlə onun sevgisi eyniləşirdi. Bu yol yeganə yol idi ki, onun içindəki işığa aparırdı. Həyatda tapdığı müqəddəs eşq onu müqəddəs zülmətə çağırırdı.

***

Və Füzuli vəhdət vadisinə can atırdı. O vadidə hər şey var idi də, yox idi də. O vadinin günəşi də ayrı günəş idi, ulduzları da. Bəlkə də orada nə ay, nə gün, nə ulduzlar var idi. Bəlkə də orada ruhuna çilənən ilahi bir rahatlığın, sakitliyin, dincliyin özü idi o ay, o gün, o ulduzlar. Bəlkə də orada heç nə yox idi, bir o sevginin əbədiyyət qədər uzun və sonsuz yuxusundan başqa: nə görürsən, nə eşidirsən, nə qoxlayırsan, nə təmas bilirsən... Orada bəlkə Allah da insanı bambaşqa gözdə görür!

Mənası mənasızlıqdan başqa bir şey olmayan bu dünyanın, o dünyanın bir istisi, bir işığı var idi, bu da eşq idi, sevgi idi... Həmin işıqla da o vücuda gəlmişdi. Və o dünya da bu dünya kimi Füzuli sevgisinin dilə gətirdiyi söz yanında aciz idi.

...Və Füzuli anladı ki, kiçik məhəbbət də böyük nifrətdən güclüdür. Sonsuz gücü olan insanı yalnız sonsuz sevgi ilə məhv etmək olar. Çünki yer üzündə insanın bir möcüzəsi var: o da sevgidir. Tanrı bu möcüzənin sonunu bilir. Ancaq bundan asılı olmayaraq Insanın bədənindəki hüceyrələrin, toxumaların, qanın, suyun, beynindəki min-min qırışların hazırladığı, özü doğulmazdan min il əvvəl hazırladığı o sevgini yalnız Insan özü yaşayır, taleyin yolunu özü gedir. O özü təkrarı və misli olmayan istini, işığı, rəngi duyur. Özündə olan və Tanrının xəbərdar olduğu min sirrin Insan, bəlkə, heç birini də bilmir. Ancaq o, öz sevgisindən süzülür, taleyin alnına yazdığını yaşayır, sevgidən keçəndə alın yazısı da işıqlanır və hər şey aydınlaşır: insan da, dünya da, keçmiş də, gələcək də.

Sevgini də insana Tanrı verir. Insanda Tanrının vermədiyi heç nə yoxdur. Ancaq Füzulinin, məhz Füzulinin sevgisinin bətnini heç kəs vermir. Bu gözəgörünməz qüdrəti Tanrı yola salır, Tanrı qarşılayır. Yola salınandan qarşılananacan o, Məhəmmədə çatır, ondan qətrə-qətrə, udum-udum süzülür, baxış-baxış keçir, dad-dad yayılır, səs-səs ona çökür. Insa-

nın bədəni qədər ömrü, insanın ömrü qədər bədəni olan həmin o sevgi nə görünəndir, nə eşidilən, nə dadılandır, nə təmas olunan, nə qoxulanan... Nə zamandır, nə də məkan. Nə hərəkətdir, nə sükut. Ancaq həm də görünəndir, eşidiləndir, dadılandır, təmas olunandır, qoxulanandır, məkandır, zamandır, sükutdur və hərəkətdir. Onların hamısı bir yerdə ahəngdir. Eyni zamanda, onların hamısı bir yerdə yenə sevgi deyil. Çünki insanın bilmədiyi daha başqa bir şeydir. Və insanın bilmədiyi çox böyük həqiqətlər də onun içindədir...

Sevginin ölçüsünü, biçisini tapmaq, onu bilmək, duymaq, yaşamaq, dərk etmək mümkün deyil. Çünki insanın yaranandan bu günəcən və çox-çox uzaqlardakı sabahacan tapdığı hər şey hər şeyin əlifabısıdı, bir sevgidən savayı.

Füzuli anlayırdı ki, bu işıqlı dünya, bu qaranlıq dünya, bu aylı dünya, bu günlü dünya müvəqqətidir, bir yuxudur, ilğımdır. Və min illərin boyunca bir andır, bəlkə anın da mində, milyonda biridir. Bu an insana əbədi olan hər şeyi dərk etmək üçün verilir. Və insan bu anı sevgidən sonra anlayır. Nə qədər ağrılar, fəlakətlər, sarsıntılar, xəstəliklər, dərdlər, müharibələr varsa, hamısı insanın öz dərdinin yanında çox kiçik və hardasa yalan bir şeydi. Fanilik qədər böyük olan fəlakəti hansı dərd yuya bilər - heç kəs həmişəlik yaşamır. Heç kəs həmişəlik yaşamayıb, heç kəs həmişəlik yaşamayacaq. Ancaq sevgi bu böyük faciənin, sonu bilinən yeganə həqiqətin qarşısına çıxır və deyir ki... onun dediyini sözlə demək olmaz. Və onun dediyinin mində birini yalnız içi nurdan doğulan adam deyə bilər...

Və Füzuli get-gedə bunu da anlayırdı ki, deyəsən, onun da içində belə bir nur var. O nur ki, min ildə birinə qismət olur. Füzuli özünə dalıb bunu da anlayırdı ki, bu gözəgörünməz sirr insanda həmişəlik deyil. O, insanda olduğu vaxtın şəkli kimi qalır, bu şəklin gücü kimi yaşayır, paylanır, təkrarlanır, çevrilir, ildırım kimi çaxıb gedir. Və insanda bütün ömrü boyu bir ildırım çaxışının aydınlığı yaşayır. Insan olan kəs bu anın işığında nəyi tapırsa, onu qazanır: heç nəyi tapmırsa, heç nəyi qazanır, hər şeyi tapırsa, hər şeyi itirir.

Özündə ölçüsü olan şeyləri tapdığına insan sevinir. Və özündə olan şeyləri tapdığına insan sevinir. Və özündə olmayan şeylər tapdıqda insan kədərlənir. Ölçüsüz olan hər şey qorxudur, müəyyənsizlikdir. Ruhun ölçüsü dindir, təbiətin ölçüsü elmdir, insanın arzusu, duyğusu sənətdir. Və bunların hamısı ölçüdür, hamısı ölçəndir, hamısı ölçüləndir! Segvinin ölçüsü isə insandır. Füzulinin sevgisinin ölçüsü Füzulidir, Nizaminin sevgisinin ölçüsü Nizamidir, Nəsimininki də Nəsimi. Bütün sevgilərinsə ölçüsü yoxdur. Sevgi nə ölçəndir, nə ölçülən...

Və getdikcə Füzuli bir həqiqət yoluna gəlib çatırdı: nə qədər gücün, ağlın, zəkan, eşqin var, bu sevgiyə ölçü axtar. Bu ölçüsüzlüyün, bu nəhayətsizliyin, bu ağlasığmazlığın nə olduğunu axtar. Axtar və bütün ömrün boyu axtar. Güman ki, axırda onu tapmayacaqsan, ancaq onu tapmadığın yerdə özünü tapa bilərsən.

"Füzuli şerini oxuyub onun fikir dünyasına qərq olanda fikirləşirəm: bəlkə bu qüdrətin söz ustadını Nuh tufanından o üzdəki necə minillik dünya tarixi yaradıb. Suların altında qalan qədim dünyanın bizə gəlib çatan və yeni dünyanın ilk kitabıdırmı Füzuli şeri?

Bir də bunu fikirləşirəm, cansız dünyadan canlı dünya, canlı dünyadan isə insan kimi möcüzə törəyibsə, onların bir dili, bir ünsiyyət yolu olmalı deyilmi? Füzuli daşdan insana, insandan gülə, ota-çiçəyə uzanan mübhəm yolun həmdəmlik, bağlılıq dünyasnıın dilində yaradırdı. Yaradırdı ki, suyun zərrəsi ilə günəş danışsın, ay gecəylə, dağ çobanla, ilmə ilmə ilə, ulduz ulduzla və ulduz bənövşə ilə üns tutsun...

Füzuli bir adamın içindəki sevgini, qüdrəti, zəifliyi, bir adamın içindəki ikini, üçü, yüzü, mini yazırdı. Füzuli bir rəngdən bütün rəngləri, çalarları alırdı. Füzuli din yaratmırdı. Bütün dinlərin o üzündəki insanı yazırdı. Insanın həqiqətini insanda axtarırdı.

Və Füzuli Quranın sətirləri arasında yatan həqiqəti söyləmək üçün doğulmuşdu.

O həqiqətləri ki, insan onlarsız insan deyil.

"Bibliya"nın sətirləri arasındakı ağ həqiqəti də yazacaqlar. Və həqiqətdən-həqiqətə böyük bir yol açılacaq. Iki həqiqətin görüşəcəyi bu yolda bir hikmət qalacaq. Ancaq hələ tezdir.

Hələ "Bibliya"nın sətirləri arasındakı ağ dünya toxunulmazdır. O, yoxdur. Onu heç kəs görmür.

Dünyanın bu vaxtında Füzuli insanı araya-ayara neçə-neçə nağıl olan kitabların, pozusu olmayan yazıların ağ boşluğuna gəlib çıxmışdı.

Bu yazıların işığı ona nələr vermədi? Ona hansı sirləri açmadı? Ancaq zalım dünya yazılardan doymazmış. Yazıların yazıldığı ağ boşluq onu özünə çəkir, yazıdan o üzdəki qərib dünyaya səsləyirdi.

***

... Tanrını tanıyan hər kəs tanırını göydə, başının üstündə bilirdi. Tanrı kənarda yaşayan qüdrət idi.

Füzuli isə Tanrını öz içində tapmışdı: Tanrı içəridə, batində, canda, qanda idi.

Bütün insanlardan onun fərqi bundaydı ki, Füzuli özündə olan Tanrını axtarırdı, öz içindəki dünyanı küçə-küçə, tin-tin, ev-ev axtarırdı, öz sularında üzürdü, öz göylərində uçurdu. Füzuli özünü axtarırdı, öz heyrətini, öz qüdrətini axtarırdı. Tanrı Füzulidən qıraqda deyildi, onun özündəydi. Və Füzuli öz daxilinə çəkilmişdi.

***

Füzulinin səssiz ayinləri günəşin qürubunda idi. Üzünü batmaqda olan günəşə tutan şair donub qalır, ürəyindən keçənləri gözlərinin dili ilə günəşə söyləyirdi. Günəşdən Allaha salam göndərirdi. Allahdan eşq istəyirdi, eşq diləyirdi.

Çıxılmazlıqdan, eyniləşməkdən yeganə çıxış yolu idi eşq. Füzulinin həyatı, vətəni, ümidi, əvvəli və sonu eşq idi.

***

Ey Füzuli, şami-ğəm əncamına yoxdur ümid,

Bir təsəllidir sənə ol söz ki, derlər var sübh.

Bu qəzəl gecəyə söylənib. Gecəyə pıçıldayan Füzuli bu sözləri işığa deyə bilməzdi. Işıq bu sözləri görə bilməzdi. Işıq bu sözlərin can dərdini, can hayını haradan biləydi?

Zülmətə deyilmiş işıqlı kəlmələr insanın canıdır, hər nə qədər yatıb yuxuya dalsan da, bir vaxt səni o söz yuxudan oyadacaq, durub görəcəksən ki, min il keçib, milyon il keçib, sə-

nin öz canından başqa heç nə qalmayıb, sənin canın da ki, yalnız özünün deyə biləcəyin və dediyin beş-üç kəlmə sözdür, vəssalam - Füzuli bunu deyib.

***

...Füzuli bildiyi dillərin canından qopardığı gücü Azərbaycan dilinə verir, bu dilə özgə dillərin məna qatlarını, poetik rənglərini, quruluş zənginliyini gətirirdi. Güclü dil öz içində hər şeyi əridir, aldığı hər sözü, hər biçimi özününküləşdirərək yeni qüdrətə və gücə sahib olur. Qaynağından qopan çaya yeni-yeni qollar, sular qovuşmasa, qarışmasa, o, sısqalaşıb özəliləşməzmi? Dil də belədir.

Sənətkar var ki, dilini qurban verir. Sənətkar da var ki, dilinə qurban verir. Füzulinin doğma dilinə verdiyi qurbanları görmək istəyən "Leyli və Məcnun"u bu gözlə oxusun. Və ya hər hansı qəzəli açıq gözlə tədqiq etsin. Onda aydın görəcəkdir ki, Füzulinin dili dövrün dillərində olan çox şeyləri götürmüşdür. Füzulinin dünyagörüşü çox geniş olan çoxsaylı, çoxmənalı, çoxformalı ədəbi dildir. Götürdüyünü qat-qat milliləşdirmiş, özününküləşdirmişdir.

***

...Füzuli "Leyli və Məcnun"u yazmağa başlayanda bilirdi: xalqın yaratdığı bu əfsanə bütün dünyaya yayılmışdı. Hər şeyi bilən Füzuli qələmi əlinə alıb ilk cümləni yazandaca anladı ki, naməlum bir yola ayaq basıb və yüzlərlə, minlərlə müəmmanın sirri içində sözbəsöz, cümləbəcümlə addımlamağa başladı. Dərd dünyasına, qəm ölkəsinə doğru:

Düşdü səfərim diyari-dərdə...

Bəlli olan bu yolun naməlumluğuna vardıqca aydın oldu ki, bu yolu yenidən yaşamaq, yenidən kəşf etmək lazım gələcək. Görünən yol gedilən yol deyilmiş.

Füzuli Məcnunun tərcümeyi-halını bilirdi, ancaq bu tərcümeyi-halın içində Məcnunun taleyi yazılmalı idi.

Milyon ili bir an bilən zamanın əvvəli və sonu olmayan anlarının birində min illərin yolunu gələn yorğun bir körpə yaranacaq və o körpə öz dilində danışacaq, gəldiyi dünyaların dilində nə isə oxuyacaq və gəldiyi bu işıqlı dünyaların adamları elə biləcəklər ki, o, ağlayır... Onda şair o körpənin dediyini bu dünyanın adamlarına tərcümə edəcək:

Ey, cəfaçı dünya!

Bildim ğəmini sənin ki, çoxdur,

Ğəm çəkməyə bir hərif yoxdur.

Gəldim ki, olam ğəmin hərifi,

Gəl təcrübə eylə mən zəifi!..

Körpə bilirdi ki:

Tədbiri-ğəm etmək olmaz oldu

Gəldim, geri getmək olmaz oldu...

Körpə hələ dərdin nə olduğunu, sevginin nə olduğunu bilmir, körpə hələ bu dünyanın dilini bilmir. Bu müqəddəs dili, bu müqəddəs eşqi, bu müqəddəs kədəri ona Füzuli öyrədəcək.

***

Füzuli Məcnun deyil. O, için-için yanan ocaqdır. Bu ocağın yanımı, tüstüsü Füzulinin sözüdür.

***

Leylinin vətəni Məcnunun kədəri, Məcnunun vətəni Leylinin qəm dünyasıdır.

***

Özü öz səsinə oynayan Leyli!

Özü öz səsində uyuyan Leyli! Səni yaradan şair Sənə Məcnundan da çox vurğundur. Məcnun Leylini, Leyli Məcnunu sevir, Füzuli həm də Leylini sevir, özü də lap Məcnun qədər və bəlkə də haradasa onu Məcnuna qısqanır.

Məndə Məcnundan füzun aşiqlik istedadı var,

Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.

***

Özü ürəyini səhralara göndərən Füzuli artıq onun üçün ölmüş olan həyatını dirildir və yenidən ölmək üçün çöllərə salır. Məcnun demə, bir fəsaneyi-şəhr...

***

...Məcnunda bir rahatlıq yarandı. Bu rahatlıq əslində, hər şeyi itirəndə olur. Bu rahatlıq indi Məcnunu dincəldirdi. Ölümün hələsi kimi onu bürüyən bu qəribə dinclik axır ki, ona rahatlıq gətirmişdi - ölüm rahatlığı...

***

Leylinin faciəsi və Leylinin eşqi daha böyükdür. Öz Leylisini içində tapan və daxilən öz eşqinə qapılan Məcnun öz kədərində dinclik tapıb, eşqin bəlasına, sitəminə uyğunlaşıb və "Ya rəbb, bəlayi eşq ilə qıl aşina məni" - deyə bu bəladan doymaz olub.

Leyli isə hələ Məcnuna qovuşmayıb, tamlaşmayıb. Leylinin yarısı-yarı onun canından, ruhundan qıraqdadır. Və Leylinin ürəyindəki, ruhundakı, bədənindəki yanğın get-gedə daha

da alovlanır, yanmağa öyrənmiş Məcnun yanına Leyli daha parlaq işıq saçır. Onun eşqi daha böyük və əlçatmaz eşq yanğısından qida alır.

***

Ibn-Səlam ölmüşdü. Məcnunun arzuladığı əbədiyyətə qovuşmudu.

Füzuli dərindən kədərlidir. O indi böyük matəmlərə hazırlaşır. Bu ölümün göz yaşları böyük yasların yaxınlaşdığını bildirir. Füzuli duyur ki, kədərin sonu faciəyə çatmaqdadır. Leylinin matəmi yaxınlaşır. Məcnunun ölümü yaxınlaşır. Bu təzə matəm qoxusu Füzulini kədərləndirir.

Leyli öləndə Füzuli diksinir. Çünki bu ölüm nə vaxtsa bir dəfə də olmuşdu. Bu ölümün tarixi Füzulinin ürəyində idi.

Öz ürəyinin tərcümeyi-halını yazan şair gəlib ölümə çatmışdı.

***

...Qalibin də, məğlubun da özü ilə qaldığı səhnələr var. Bu səhnədə tamaşaçı yoxdur. Qalib dəqiqəsi qalibi ittiham edir, məğlub dəqiqələri məğlubu sakitləşdirir.

***

...Füzuli lirikası elə bir tilsimdir ki, onu nə iləsə müqayisə etmək çətindir. Bu lirika ələ gəlmir, yuxu kimidir: həm var, həm də yoxdur. Cəhdsiz, iddiasız, dupduru su kimi axır. Bilmir ki, yolda quruyacaq, ağacı suvaracaq, ya qurtum-qurtum içiləcək. Bilmir ki, təmizdir, durudur. Bilmir ki, o, axır. Və o, bilməməyi ilə gözəldir. Biləndə sözlər ayılır, yuxu qaçır.

Füzuli qocaman yaşında çatdığı həqiqəti doğulmazdan əvvəl bilirdi. Və o, dünyaya öyrətməyə, nəsihət etməyə gəlməmişdi. O gəlmişdi ki, hələ torpaq olanda bildiyi qüssəni danışsın. Danışa-danışa böyümüşdü, qocalmışdı və öləndə doğulmazdan qabaq gördüyü yuxunu danışmışdı.

Dünyaya nə isə deməyə gəlmişdi Füzuli. Bu "nə isə" o qədər çətin və dumanlıdır ki, o qədər çox zəngindir ki, o qədər doğma və istidir ki... Hələ bilmirik bu "nə isə" nədir, harada başlayır, harada qurtarır.

Bu işıq girdabdı, bu dərd-kədər günəşi... Və hər dəfə Füzulinin qəzələni oxuyub qurtaranda diqqət edib görürsən ki, sənin lə misar-misra, bənd-bənd gəzib, sənə dünyanın dərdini, özünün sonsuz kədərini danışan adam yoxdur.

Və hər dəfə bu sehri billə-bilə yeni sehrə düşürsən.

***

...Füzulini oxumağa başlayan kimi "Heyrət, ey büt!" müraciəti mənim beynimdə "Heyrət, ey dil!" şəklinə girir və bu şəkildə də qətiləşərək mütləq hökm kimi qəlbimə həkk olunur. "Heyrət, ey dil" Füzuli dilinin söz dünyası, sintatik biçimləri qarşısında, üslubi çevikliyi, poetik genişliyi qarşısındadır.

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Surəti-halım görən, surət xəyal eylər məni.

...Tiri-ğəmzən atma kim, bağrım dələr, qanım tökər,
Iqdi-zülfün açma kim, aşüftəhal eylər məni.

Görünən yolun zamanı yoxdur, keçilən yolun zamanı var. Və bu zamanda süzülən minlərlə əhvali-ruhiyyə, düşüncə, hiss, duyğu var. Füzuli məlumun naməlumluğunu arayır, aradıq-ca heç kimin tapmadığını tapır.

Deyirlər ki, filosoflar təəccüblənmirlər, çünki onlar hər şeyin səbəbini bilirlər. Füzulini sə-bəbini bilmədiyi insan və dünya sarsıdırdı. Nədən nəyin törədiyini anlamağa çalışan şair bu sirli idrak yolunda nə qədər təəccübə, heyrətə məruz qalır!

***

...Bu dünya hər şeyi unudur. Ancaq dünyanın bu şeri unutmağa haqqı yoxdur.

Giriban oldu risvalıq əlilə çak, damən həm,
Mənə risvalığımda dustlar tən etdi, düşmən həm,
Rəhi-eşq içrə can qıldım giriftari-bəla, tən həm,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?

Əgər tutsam qəmim eldən nihan, səbrü qərari yox,
Və gör şərhi-ğəmi-pünhanım etsəm, ğəmküsarim yox,
Əsiri-bəndi-zindanəm, əlimdə ixtiyarim yox.
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?..

Cüda səndən bəlavü dərdi-hicran ilə tutdum xu,
Qılır hər dəm mənə bidad dərd ayru, bəla ayru,
Bəlavü dərdə düşdüm ruzigarım böylə, halım bu,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?

Füzuli, hər zaman bir tən ilə bağrım qılırsan qan!
Əcəb bilməzmisən kim, eşqdən keçmək deyil asan?
Bilirsən düşmüşəm bir dərdə kim, yoxdur ona dərman,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?

FƏLƏKLƏR YANDI AHIMDƏN VƏ YA BIR GECƏNIN MIN BIR SUALI VƏ BIR CAVABI

Füzulinin dəhanın həsrəti bir dərdə salmış kim,

Nə pünhan etməyi mümkündür - öl dərdin, nə izharı.

Mən bu ğəm içrə ki, dəfni eyləmək naçardır,

Məsləhət sordum, dedilər məsləhət izhardır...

Bütün şerlərində Füzuli özünü təhqiq edir. Özündən qırağa çıxmayan şair Allahını axtırır. Öz dərdinin içində Allahına yol arayır. Füzuli müşkülü həm də budur ki, özündəki iztirabın Allahın iztirabı olduğunu zənn edir. Zənn etsə də, əmin olmur. Çırpına-çırpına qalır. Amma ürəyinin bir yerində (bəlkə Allahın qərar tutduğu yerdə) Tanrı yolunun Dərd olduğunu, Iztirab və Hüzn olduğunu bilir.

Füzuli dərdi bu böyük dərdin bir zərrəsidir bəlkə?

Bəlkə özündə özünü axtaran Füzuli halətində, varlığında olan hər ağrını açmaqla bizə Tanrını açır? Tanrıya gedən yolun izini arayır?

Bütün bu məhrəm sirləri açmaq, izhar etmək möcüzəyə inamdır ya inamsızlıq?

Neyin sədadan, bülbülün nalədən, gülün zəriflikdən, insanın dərddən, Allahın böyüklükdən başqa nəyi var?

Ney səda ilə dünya qurursa, bülbül nalə ilə ərşə çatırsa, gül zərifliyi ilə batinindəki sirri danışırsa, insan dərdi ilə böyüyürsə, Allah böyüklüyü bu böyük dünyanı yaradıb saxlayırsa, Füzuli niyə rəncidədir? Niyə küskündür? Niyə min bir sualda pirahən geyən hübab kimi anidir?

Eşq Allaha gedən yoldursa, yolçu kimdir? Yolçudan görünən yol Allahdan görünən yol qədərdirmi? Səbəblərin səbəbi Allahdırsa, niyə insan bütün səbəblər üzrə düşünəndir? Allah niyə insanı imtahana çəkir? Insanın bu imtahandan çıxmağa gücü varmı? Bəlkə şeytan özü də bir imtahandır? Allah kəlamı qarşısında insanın kəlam söyləməsi lazımdırmı? Dənizin qulağı sahildədirsə, insan dənizdir, yoxsa sahil?

Qəddi bükən, yaşı tökən, könlü yıxan, canı yaxan qəhhardımı, adildimi?

Bəla insanı çox istəyir, ya insan bəlanı? Ğəm zülməti işığın özüdürmü? Qovuşan xoşbəxtdir, yoxsa qovuşmaq həsrəti ilə külə dönən? Əcəl peymanəsi şirindir, yoxsa həyat çiçəkləri? Səhər mehi güclüdür, yoxsa qasırğa, fırtına?

Gedən bilir, yoxsa gələn? Gedən haqlıdır, yoxsa gələn? Hüsni-mütləq, yoxsa leylivəş türkzadə məhbublar? Qəm zəhəri, yoxsa qəndi-mükərrər ləzizdir?

Burda məbəd haradır, ey insanlar? Məscidmi? Meyxanamı? Mətbəxmi? Səri-kuymu? Könülmü? Ormanmı? Səhramı?

Hər nəfəs aldıqda Tanrıya iki can borcluyuq. Bu borcu bəs kim verəcək?

Bir zövqə iki dünyasını qurban verən pərvanənin ömrü uzundur, yoxsa qurdla qiyamətə qalanın həyatı?

«Ya» deyənin səsi çatır, yoxsa «ey» deyənin, «ay» deyənin?

Gecə keçir. Sual yağmuru yağdıqca dünya işıqlanır. Sualları cavablarından min dəfə çox olan dünya bilməcə donuna bürünüb gah bir aləm uzaqda, gah da bir nəfəs yaxınlıqda dayanır.

Geçə keçir. Suallardan sual doğur. Dünya sual dənizinə dönür. Suallar artdıqca cavablar azalır. Yaradanın gördüyü dünyanı insan görmür. Yaradanın özünün bildiyi ölçü-biçilər insanda olmadığından insanın canı cəzana gəlir. Insan hayqırır, insan ağlayır, sıtqayır, nalə çəkir, fəryad qılır, dolub boşalan insan ürəyi öz dərdinə çarmıxa çəkilir.

Çarmıxa çəkilmiş insan ürəyi – Füzuli sözüdür.

Bu min bir sualın bir cavabı Tanrıya qovuşmuş insandır. Bu qovuşmaqla, bu dərgaha yetməklə Allahın gördüyünü insan da görür. Allahın ölçü-biçisi qismən olsa da insana agah olur.

Ancaq nə qədər ki insan hələ insandır, o, suallar içində yaşamalı, dünya evi sual evi olmalıdır.

Gecə keçir. Qərib şam yanır. Ulduzlar həsəd çəkə-çəkə Füzuliyə baxır. Suyun axmağı onun öz etirafıdır. Şamın yanmağı şamın batinindəki etirafdır. Füzuli eşq içində, sevda dünyasında, dua səltənətində etiraf yazır: öz etirafını – insanın Allaha etirafını.

Gecə idi. Şamın titrək işığında bir şair düşüncələrə dalmışdı. Gecə uzandıqca uzanırdı. Kitablar, yazılar bir suala cavab verə bilmirdi. Şerlər bir suala cavab verə bilmirdi. Sözlər, bir suala cavab verə bilmirdisə o kitablar, yazılar, şerlər kimə lazım idi? Füzilini düşündürən bu idi. Eşq nədir? Allah bu qüdrəti hardan verib, niyə verib?

Füzuli bu suala hər gün yüzlərlə cavab verirdi. Hər cavabda bu sual yüz dəfə yenidən doğulurdu. Cavab yanğısı kükrədikcə sualın haləsi daralırdı.

Yaradanın insanı sual qarşısında qoymaqda məqsədi nə idi? Füzuli düşünürdü. Göz yaşları ürəyinə süzülürdü. Düşüncənin zülməti artdıqca dünyanın da işığı artırdı. Göylər aydın görünürdü. Tanrının nəfəsi bir daha aydın duyulurdu. Dünyanın yükü azalırdı. Işıq, şəfəq artırdı.

Insan can atırdı. Insan ucalırdı. Insan şəffaflaşırdı. Insan dünyanın o üzündəki o dünyaya qovuşurdu. Və insan-sənətkar, sənətkar-söz peyğəmbəri ulu Füzuli şam işığında səhəri açırdı. Sübh gəlmişdi…

Sübh dirilikdir, diriliyin doğumudur. Füzuli bu doğumu ayıqlıq ağrısı ilə, yuxusuz gözləri ilə qarşılayır. Günəş doğur. Hər doğuş kimi bu doğuş da dünyanın başlanğıcını xatırladır. Dünyaya işığın, istiliyin gəlişi hər gün təkrar olunur. Bir gecəyə sıxılmış dərd, kədər işıq dəydikcə açılır, dünyaya işıqla birlikdə bir kədər də çökür. Bu kədərin müqəddəs nuru dünyanı günəşin özü qədər təmizləyir. Füzuli ayağa qalxır, sübhün gəlməyini şerə çevirir.

Füzuli şeri bir şairin deyil, bir şairdə yaşayan neçə-neçə şairin şeridir. Ovqat-ovqat dəyişdikcə yeniləşən, həm köhnələn, sərtləşən və həm də yumşalan, gözəlləşən və özü özünə qarşı qəddarlaşan şairdir. Dərdi başından aşan Füzulidir. Dərdlə qidalanan, dərddən mənəvi enerji, istilik alan yalqız Füzuli.

Bəs Füzulinin o biri sənətkarlardan fərqi nədir? Bu fərqi hərə bir cür izah edə bilər.

Hər sənətkar nəsə bir şey tikir, qurur; qala quranı da var, daxma tikəni də, göydələn ucaldanı da.

Füzuli tikmir, nəsə canlı bir varlıq yaradır. Bu bir otdurmu, bir canlı varlıqdımı, bilmirəm. Onu bilirəm ki, bu varlıq diridir, dünya ilə canlı ünsiyyət tutan Söz – insandır.

Füzulinin bütün yaradıcılığı Allaha söylənmiş tək bir cümlədir. Yaradılan hər nə varsa, bir rəsmdir – Tanrının rəsmi.

Allaha söylənmiş bu bir cümlə üçün nə böyük məşəqqət, iztirab, dərd, ələm lazım imiş... Eşq əlifbası ilə yazılmış bu bir cümlə sərhədsizdir. Bu bir cümlə quruca nəfəsdir – Füzuli nəfəsi. Bir ahdır – Füzuli ahı.

Söz insanın ağrısını azaltmaq üçünmüş. Kəlmələr, cümlələr qövr eləyən ürək yarasının əlacı imiş. Bir anlıq, bir müddətlik əlac. Və Füzuli sözləri ilə özünə aram, sakitlik axtarır.

Ağrısını sözə köçürən, sözə həkk edən şair nəfəs alır, yaşayır. Sonra yenə o tufana, o fırtınaya düşür, sonra yenə sözə tapınır, sözdən əlac umur. Söz-sözə çevrilmiş Füzuli dərdidir. Oxuyub yanırsan. Oxuyub qouşursan. Oxuyub təmizlənirsən.

Füzulini oxumaq dua etmək kimi bir şeydir. Dünyada mənəviyyat uğrunda, ideal uğrunda əzab çəkənlər müqəddəs sayılır. Müqəddəs bütün dinlərdə, bütün xalqlarda müqəddəsdir. Füzuli əzabı şerlərində o qədər aydındır ki, ondan aydın başqa bir şey tapmaq çətindir. Bu şerlərin misralarına, sözlərinə yüklənmiş ağrı hər cür hesabdan, ölçüdən qıraqdadır. Bu ağrının dünyası eşqdir. Adı eşq, əvvəli eşq, sonu eşq. Füzuli sözünə toxunan kimi sözün gözlərindən damla-damla qan-yaş axır! Və heyrəti burasıdır ki, söz səninlə danışır, sənin içindəkini dindirir, sənə həmdərd olur.

Yetər ki, sən kitabı aç və ilk misranı oxu. Bu dua, bu vəhy səni alıb aparacaq. Gedəcəksən və öz kədərin qədər kədərlənəcəksən, kədərlənə bildiyin qədər kədərlənəcəksən. O qədər duman, sis, ağrı gətirəcəksən və görəcəksən ki, bu ağrı insanı yaşadan qüdrətin özüdür. Tanrıya atılan addımdır. Nəfəsdir. Bir dünyadan bir neçə dünyaya açılan qapıdır.

Füzulini oxumaq savabdır. Allaha da xoş gedən, bəndəyə də xoş gələn bir savabdır. Bu ziyarət ürəyi min yerdən çatlayan, ürəyinin qanı 500 ildir axa-axa kəsilməyən əzabkeşin ziyarətidir. Bu zirayətdə insan elə bir borcunu qaytarır ki, o borcu başqa cür qaytarmaq olmaz. Duanı Tanrıya edirlər. Amma, əslində, hər kəs duanı özü üçün edir. Dua qorxunu öldürür, dua arzudur, ümiddir. Dua həm də ilahi qüdrət qarşısında bir borcdur. Dua bu borcu qaytarmaqdan daha çox, qaytara bilməmək gücsüzlüyünün etirafıdır.

Füzuli müqəddəsə də dua düşür. Bu dua onun şerini oxumaqdır. Füzulidə özünü axtarmaq, tapmaq, ya tapmamaqdır.

…Sənətin mənşəyi həyatın özünün mənşəyi qədər qədimdir, çətin dərk olunandır. Ancaq hər şeyi dərk etmək mümkün deyil, bəlkə heç buna lüzum da yoxdur… Insan hisslərinin nəhayətsizliyi, çoxölçülü tutumu çox vaxt ağlın açmağa gücü çatmadığı hadisələri, anlayışları yozmaqla, özünəməxsus şəkildə şərh etməklə boşluğu doldurur, insanı ovundurur, beləliklə, bir növ, onun canını mübhəm sarsıntılardan qurtarır.

Şübhəsiz ki, sənətin mayası dinin, mifin mayası ilə bir yerdən götürülüb. Və sonra ayrı-ayrı yollara yönələn insan mənəviyyatının ifadə formaları kökcə, mənşəcə eyni olduğu üçün, bir yerdən su içdiyi üçün öz kök birliyini itirmir.

Insanları ibadətə çağıran səslərinə fikir vermisinizmi? Kilsə zəngləri, nağara səsi, əzan səsi… Islam dünyası ibadətə çağıran səsi arayarkən insan səsi üzərində dayanıb: insanı insan səsi ilə çağırmaq olar, onu diksindirmək, sarsıtmaq, qorxutmaq olmaz. Insana ən doğma

səs onun öz səsidir. Və insanı musiqi ilə çağır. Elə çağır ki, inanmağa gəlsin, imanını kamil etməyə gəlsin. Gəlsin ki, yaşasın, əbədiləşsin, insanlığına dalsın…

Muğamat oxuyan ustad xanəndə həm də dinə, imana gətirir, incəldir, zərifləşdirir, dünyanın faniliyini sübut edir, insanın əbədi olduğunu insana söyləyir.

Sənət məhz insana Allahdan keçən xassədir – yaratmaq xassəsi. Insan nə vaxt yaradıbsa, öz faniliyi, gəldi-gedərliyi əleyhinə yaradıb. Yaradıb ki, qalsın, yaşasın, bəşəriyyəti xilas etsin.

Şərqin eşq fəlsəfəsi qulağımda, ürəyimdədir. «Eşq Allahdan gəlir. Allah insanları sevir. Insan sevməyi Allahdan öyrənib. Məcazi eşq insanı Allaha yetirir».

Eşq imiş hər nə var aləmdə,

Elm bir qiylü-qall imiş ancaq…

– deyən Füzuli eşqi dünyanı idrak etməyin, yaşamağın əsası, özəyi kimi alıb…

Füzulini oxuya-oxuya anlayıram ki, Allahı yaratmaq üçün insan beyninin keçdiyi yolu təsəvvür etmək belə çətindir. O qədər böyük, ülvi, ilahi varlığı yaratmaq üçün insan nə qədər əzab çəkib, nə qədər arayıb-axtarıb, nə qədər incəlib, zərifləşib – zərrə-zərrə, toplaya-toplaya min illərdən sonra tapındığı, inandığı, güvəndiyi, əbədilik tapdığı varlığı – Allahı yaradıb. Allahda nələr yoxdur. Insanda olan və olmayan hər şey Allahda var. Insan ona görə Allaha can atır ki, min illər boyunca əcdadının yaratdığı o böyük varlığa yetişsin. Bu yetişmə hər şeydir.

Allahı yaratmaq üçün insanın çəkdiyi əzab və aldığı rahatlıq insanı yaratmaq üçün Allahın çəkdiyi əzab və aldığı rahatlıqla eynidir, o qədər eynidir ki, bunları ayırmaq belə çətindir.

…Layla deyən ana, holavar söyləyən, torpaq, daş, qaya üstündə ilk cizgilər çəkən insan, sözləri təkrar edə-edə yağışı kəsmək istəyən və ya yağışı yağdırmaq istəyən kimsə dünyasının ilk şairi olub. Şərti götürdüyümüz bu ilk şairlə biz lap yaxın oluruq – çiyin-çiyinə, nəfəs-nəfəsə. Bəzən də çox uzaq oluruq. O qədər ki, nə həddi var, nə də hüdudu.

Hər bir insan bəşəriyyətin keçdiyi neçə min illik, milyon illik yolu özü keçir, öz kiçik həyatından böyük zamanı yaşayır. Dahilikdən adiliyə doğru gedən bu yol sehrli yoldur. Onu mütləq mənada dərk etmək, idarə etmək mümkün deyil.

Hər kəs öz taleyinə məhkumdur. Hər kəs öz taleyində Özünü yaşayır və Özünü yaradır.

Füzulini oxuya-oxuya anlayıram ki, Allahın bir zərrəsi olan insanın ilahi qüdrəti nə qədər sonsuzdur…

Tanrı sevənlərə bir ölüm göndərir. Sevgililər bu bir ölümü bölür. Məcnun Leylidən o ölüm canını almaq istəyir. Leyli aman vermir. Ölüm şərbətini içmək səadəti Leyliyə qismət imiş. O vahid ölümü Məcnun Leyli ilə bölür – o şərbətin qalığını içir. Bir cana bir ölüm düşür, başqa sayaq olmur.

Leylinin ölüm səhnəsi çox hüzn dolu bir səhnədir. Bu səhnədə hamıdan dərdli-ələmli Füzulidir. Hətta Məcnundan da ziyadə. Bu, yalnız eşqin ölümü deyil. Eşq dastanının sona çatması ölümə yaxınlaşmasıdır. Yalnız eşq yox, dastan da ölümün astanasına çatıb. Hey-

hat. Bu bitməz-tükənməz dərdin, kədərin karvanını kim aparacaq? Leylidən, Məcnundan sonra bu dərd-qəm dünyası harda aram tapacaq?

Leylinin ölümü Məcnunun ölümüdür. Leyli-Məcnunun ölümü, Füzulinin ölümüdür. Məcnun doğulanda doğan günəş Leyli öləndə qüruba yetişir. Doğumdan qüruba gedən yolda qoca eşq kahini, qoca şaman, qoca söz peyğəmbəri və nəhayət, lələyün bir dərviş aram-aram addımlayır. Mübarək yolun mübarək ustadı – ulu Füzuli, dədə Füzuli.

Qədim şumerlər, yunanlar, romalılar… çoxallahlı olduqlarından qüvvələri allahlaşdırır və dünyanı elə dərk edirlər.

Kitaba inanan təkallahlılar bütün qüvvələri Tanrının ifadəsi kimi dərk edərək irəli getdilər və haqqı tapdılar. Bu, Allahın ən mücərrəd fəza müstəvisində dərki idi. Vəhylər qeybdən gəlirdi. Vəhy böyük Yaradanın xassəsi idi. Bəs bu Tanrı xassəsi insana verilə bilərmi?

Füzuli sənəti Tanrıya can atan insanın yanğısından, iniltisindən, sarsıntı və iztirabından doğan Tanrı vəhyidir. Qeybdən gəlməyən, fəqət qeybə can atan Füzuli vəhyi Tanrı qarşısında bir pıçıltı etirafdır. Sonsuz ağrının söz şəkli Füzuli vəhyidir.

Şübhəsiz ki, Füzuli başdan-başa vəhy deyil, ola da bilməz. Çünki Füzuli insandır, Yerdə yaranıb. Yerdə yarananın göyə can atması vəhy doğurur. Adidən qeyri-adiyə, gündəlik olanların sırasından ilahi düzümə, sehrdən sehrə, görməkdən heyrətə yol vəhy doğurur, vəhy saçır. Vəhy-misra, vəhy-beyt, vəhy-qəzəl, vəhy-mənzərə belə yaranır.

Nədənsə mənə həmişə elə gəlir ki, şerin sonu, mahnının axırı o şeri, mahnını yaradanın ölümüdür. O şerin duyğuları ilk sözdən başlayaraq doğulur, böyüyür, ərsəyə çatır və nəhayət, ölür. Füzuli qəbiristanındayam.

Ölə-ölə öz ölümünü, taleyini çəkən rəssamları düşünürəm. Üşənirəm. Hələ qanı qurumamış misralar iliyimə işləyir. Torpaq hələ nəmlidir; göz yaşları hələ qurumayıb. Əyilib Füzulinin qan qoxuyan qəmli ürəyini – dərd-ələm qəbiristanını – torpağını öpürəm.

Gər dersə Füzuli ki: «Gözəllərdə vəfa var,»

Aldanma ki, şair sözü, əlbəttə, yalandır…

Dünyaya yalan söyləmək, insanı yalanlara bürümək ehtirası Adəmlə Həvvadan başlayır. Adəmin Həvvaya, Həvvanın Adəmə söylədiyi yalan insan oğlunun ilk çıxış yollarından biri olub. Qəribə bir əzabın çarəsi bu yalan olub. Arzunun, diləyin dili də bu yalan olub. Ürəyə sığmayan eşqin köynəyi də yalan olub. Reallıqdan irreallığa, gözgörəti olandan görünməyən dünyaya uçuşun vasitəsi də bu yalan olub. Sözə sığmayan duyğunun, hissin qanadı yenə bu yalan olub.

Adəmin Həvvaya dediyi və Həvvanın inandığı yalan dünyaya bu bir cütün gətirdiyi uşaq qədər qiymətlidir. Kim bilir, bu ilk yalan olmasa, bu ilk övlad dünyaya gələcəkdimi? Ilk yalan ilk səhvin günahını yuyub.

Sözün ən müasir mənasında insan öz dünyasındakı duyğunu, beynindəki fikri ifadə etməkdə acizdir. Aciz olduğu üçün təhrif edəndir, yalan söyləyəndir. Duyğudan dilə gəlincə söz özü boyda yalan olur.

Əbədiyyət qarşısında həyat, Kainat içində dünya da bir yalandırsa, sənətin yalan qüdrəti, yalan tutumu niyə qərib olsun?

Və Füzuli yalanına yalan dünyanın ehtiyacı hər şeydən güclü idi. Çünki ən gözəl yalan söyləmək qüdrətini Tanrı Füzuliyə vermişdir.

Şair dostlarımdan biri gözəl söyləyib: ürəyinin ağrısı, dərd-aləmi ilə oxucu olan kəs, yandırıb yaxan, havasızlaşdıran şair sanki birdən boğulan oxucunu xatırlayır və deyir: qardaş, qəm yemə, ürəyini sıxma. Mən gözəllərldə vəfa var desəm, inanma ki, şair sözüdür, demək, yalandır…

Füzulinin yalan haqqı eşq adlı dünya ilə ölçülən müqəddəs haqdır. Bu yalansız başqa nə var axı? Tanrının insana qıymadığı ölçülər də bu yalanın içində deyilmi?

Həsrət gecəsinin bir anını, bir damla göz yaşını, bir uzaq təbəssümünün dəyərini yalan qüdrətində nə verə bilər? Füzuli yalanı həqiqət üçündür. Həqiqətə gedən yol Füzuli yalanıdır.

Füzuli sənətinin genişliyi deyirik. Dənizləri ümmanlara, göylərə bənzədirik. Çox gözəl. Bəs həqiqətdə nədir bu genişlik? Bu genişliyin məğzini, mənasını nələr şərtləndirir? Bu suallara cavab vermək istərkən sübutlar, aksiomlar, postulatlar yürütmək fikrində deyiləm. Duyduğumu sizinlə bölüşmək istəyirəm.

Füzuli genişliyi Füzuli düşüncəsi ilə bağlıdır. Bu düşüncənin qaynaqları ilə ilkilidir. Antik elm və sənət, ərəb, fars dilli qaynaqlar, türk dili və ədəbiyyatının istər şifahi, istərsə də yazılı qaynaqları… Şaman düşüncəsi. Buddizm, xristianlığın müqəddəs kitabları, mübarək Quran və Islam renessansı. Elm və sənətdə dərviş mədəniyyəti. Böyük xələflər. Bütün bunların içində əriyib yeni dünya yaradan sənətkar səsləri, rəngləri yeni boyaya, yeni işığa, yeni səsə çevirəndir.

Füzuli bu qaynaqların genişliyində genişlik yaradandır. O dünyada dolaşan sənətkar öz dünyası üçün topladığı hikməti, həqiqəti elə açmışdır ki, əl yeri bilinsəyən qəribə bir xalça toxunmuşdur. Bu xalçada hər şey nə vaxtsa, hardasa olub. Amma hər şey yenidir, təkrarsızdır. Sehrli barmaqlar bu xalçanı xülya, arzu, ideal kimi yaradıb. Amma gördüyümüz, bildiyimiz gerçəklərdən yaradıb.

Təbiət kimi Füzulinin də qurduğu dünyanın dili aydındır – bir məntiq üstündədir. Əslində, Füzulinin mürəkkəbliyi aydınlığındadır.

Təfəkkürdə, düşüncədə məkandan fəzaya, mütləqdən nisbiyə, rasionaldan irrasionala, konkretdən mücərrədə, maddidən mənəviyə, real irreala, sürreala, üçölçülükdən çoxölçülüyə keçən Füzuli üçün bu keçid qanuni bir səviyyədir. Bu keçid, bu yüksəliş olmasa gerçəklikdən ilahiliyə yetişmək, qovuşmaq mümkün deyil. Üz-üzə dayanan bu dünyalar həm birbirinə qarşıdır, həm də bir-birinin davamıdır. Və üzvilikdə Füzuli düşüncəsinin dəyəri yaşayır. Tanrıya gedən yol da budur.

Düşüncədə olan metamorfoza dildə də eynilə belədir. Füzuli sözünün gerçək mənasının üstündə fövqəladə bir məcazi mənası və onun min bir zənginliyi iç-içədir. Və real məna o qədər möhtəşəm təmasdır ki, ən uca, ən uzaq məcaz dünyasını çiynində daşıya bilir.

Leyli və Məcnun, Məcnun və Leyli, Leyli, yoxsa Məcnun.

Bütövü bölmək günahdır. Leyli və Məcnun bir bütövdür. Bu bütöv bir-birində yaşaya bilməyən mənəvi vəhdətin özüdür. Elə bir vəhdət ki, Tanrıya can atır və vadiyi-vəhdətə - əsl böyük vəhdətə qovuşur.

Nisbi vəhdətin mütləq vəhdətə yolu nə ilə ölçülür? Bunu hələ heç kəs tapmayıb. Tapacaqmı? Bilinmir.

Leyli və Məcnun bioloji birliyin mifologiyasından süzülüb gələn ilkinliyinin əks-sədasıdır. Əks-səda sədanın özü deyil. Amma həm də özüdür. Əks-səda sədanın kölgəsidir. Sədanın geriyə dönüşü ilkinliyə can atmasıdır. Bir də təkrar arzusudur. Vəhdətə aparan vəhdət – Leyli və Məcnun – Adəm və Həvvadır. Bu bölünmə birləşmək üçün, birləşib enerji almaq, toplanan mənəvi qüdrəti ali vəhdətə - qüdrətə çatdırmaq üçündürmü?

Ayrılma dünyanın bir mənzərəsidir, yaranışıdır. Tanrıdan yerə baxışıdır. Birləşmə bir başqa mənzərədir – Yaradana yoldur, mənəvi təkamüldür, kamillikdir. Insandan Allaha baxışdır. Yerdən göyə gedən yoldur. Göydən enənlərin yerdən göyə hərəkəti Leyli və Məcnundur. Leyli və Məcnunda Leylini və ya Məcnunu görmək Ayın bir üzünü görmək kimidir. Insanın görmə imkanının məhdudluğudur. Leyli və Məcnunda yalnız bir varlıq görünür. Allaha can atan vahidlik, tamlıq, ağrı, həsrət, məşəqqət bu tamlığa çatmamağın ağrısıdır. Ağrı yolun ağrısıdır. Ağrı törələrin, qanunların, qaydaların, adətlərin ağrısıdır. Ailəyə, cəmiyyətə zidd düşünən Leyli də, Məcnun da dünyanın ilk dissidentlərindəndir.

Cəmiyyət, ailə ənənəsinə arxa çevirən, zidd düşünən bu insanlar Allah dərgahına yol açanlardır. Xaosdan kosmosa can atanlardır. Göydən gələn əslini axtaranlardır. Və tapmayanlardır. Tapmadıqları üçün də Leyli olanlardır, Məcnun olanlardır.

Bu zülmün, bu cəhənnəm əzabının rəssamı Füzulidir. Əlinə qələm alıb bu üsyanı, bu harayı, bu təşnəliyi rəsm edir. Ürəyin min bir rəngini açır, halətin min çalarını kətana köçürür. Leyli qədər, Məcnun qədər yanır, kösöv kimi qaralır. Əslində, Leyli də Füzulidir, Məcnun da. Ürəyində özü ilə birləşməyən də Füzulidir. Vadiyi-vəhdətə də can atan Füzulidir. Ürəyinin sağ tərəfindən Leyli, sol tərəfində Məcnun dayanıb fəryad qoparır. Füzuli bu fəryadı yazırdı. Bu fəryad yanğıısnı soyutmayanda öz fəryadını Məcnunun fəryadına qataraq özündən uzaqlaşır. Məcnunun rəqibi kimi Leyliyə vurğun kəsilir. Məcnuna edilən atmacalar, eyhamlar yalnız şairin Məcnunla bəhsə girməyi deyil, ilahi cəzbin ilahi varlığa yüksəlişi, içdən gələn təkanıdır. Və o Füzulini sözə çevirən bu Füzuli var idi. Titrəyə-titrəyə şam işığında uzun gecələri sübhə çatdıran, varlığını sözə çevirən Füzuli var idi. Və söz Füzulinin içindəki yanğın qarşısında nə qədər aciz idi. O od, o alov sözə gəlincə nə uzun yol keçirdi.

Füzulinin təkrarsızlığı onda idi ki, şerdə o qədər böyük nəqqaş, memar, rəsam idi ki, şer ondan vaxt almırdı. Şer ona tabe idi, söz onun bağrından qopub gəlirdi. Dünyaya Füzuli sözü gəlirdi.

Sərhədi Füzuli ürəyi olan bu Sözün ömrü əbədiyyət qədər, nə az, nə çox. Qopub gəldiyi hiss-tüğyan, sözə çevrilməyən, toxum olmayan minlərlə, yüz minlərlə anımlar, duyumlar bu Sözün qan yaddaşı, kökü idi.

Şair xəyal dünyasında öz-özüylə şahmat oynayan şətrənc ustasına bənzəyir. Qalib də özüdür, məğlub da. Qalibin də, məğlubun da bir hakimi var. O da Tanrıdır. Məğlub deyirdi:

Xəncəri-bidad ilə hərdən görər zəxm üzrə zəxm,

Heç bir dəm görmədim önmüş, önülmüş könlümü…

Qalib deyirdi:

Inşəallah ki, qalibəm mən….

Məğlub bir ömrün xoşbəxtliyini, dolu səadətini uduzur. Qalib əbədiyyəti qazanır. Tanrı razılaşır. Səma. Şahmat. Şair. Tanrı.

HEYRƏT, EY BÜT

YA RƏBB! BƏLAYI-EŞQ ILƏ QIL AŞINA MƏNI!

Durğun dənizləri coşduran Sənsən. Dağları dik saxlayan, çayları təmiz, axarlı saxlayan sənsən.

Sənsən ağacı ağaca, kəpənəyi kəpənəyə sevdirən.

Sənsən bu dünyaya min bir rəng verən. Sənsən varlığın hər növünü öz dilində danışdıran.

Tanrım, Sən məni dinlədiyin kimi, o ağacları, suları, kəpənəkləri də dinləyirsən. O fəğan içində yanıb-tökülən bülbüllərin dili Sənə əyandır.

O kəpənək bəlkə məndən min dəfə gözəldir. Min dəfə gözəl danışan da bəlkə elə o özüdür.

Bu çinarın son bahar yetişincə qızaran yarpaqları insandan daha… daha böyük eşq, hüzn içindədir.

Bunu Səndən başqa kimsə bilmir, kimsə bilməz, Rəbbim!

* * *

Allahım! Yazılarım var ki, onları ürəyimin qanı ilə yazdım. Yazılar var ki, şəhidlərin qanı ilə yazdım. Yazılar var, yuxuda gördüm – söz-söz yuxumu yazdım. Yazılar var, göylərdən qulağıma gəldi, içimə doldu və səs kimi, fəryad kimi öz-özünə yazıldı. Yazılar var, Allahım, Sənin yaratdıqlarına daldım, daldığım dünyaları yazdım.

Yazdım. Yazmamaq mümkün olmayanları yazdım.

Tanrı onun zərrəsi olanları özünə aparır.

Bu eşq belə başlandı.

* * *

Ruhum büllurlaşdı. Bədənin əsarətindən, nəfsin basqısından qurtuldu.

* * *

Sidq ilə bağlandım. Sadiq oldum.

Ömür boyu sədaqətli qaldım.

Allahın inayət və kərəmini sədaqətlə qazandım.

Min canım olsa Sənə fəda olar. Tanrım.

Sənə inandım, Sənə güvəndim, Sənə sığındım.

* * *

Tanrım!

Özümə söz sultanı dedim.

Məni bağışla!

Sən məni söz sultanı yapdın.

Bu işığı, bu imanı, bu hökmranlığı Sən verdin mənə, Rəbbim!

Sənin şənin nə böyükmüş, Allahım!

Sözünün kölgəsində sərinlədim.

Sözünün nəfəsi ilə isindim.

Sözündən Söz qüdrəti aldım.

Şükür, Tanrım!

Içimdəki nur gözümü qamaşdırır.

Özümü, sözümü, nəfəsimi mələk kimi qanadlı görürəm.

Ibadət edirəm. Şer yazıram. Bu Şer mənim ibadətimdir.

Sirr içindəyəm. Sehr içindəyəm. Sirrimi açmayacağam. Şer yazacam. Ibadət edəcəm. Şerlərimlə Allahıma qovuşacağam.

O, məni gözləyir. O, məni sevir. Mən onu sevdiyim qədər. Mən ona bağlandığım qədər.

Mənim dərdim dünya dərdi. Mənim dərdim Tanrıya gedən yol dərdi. Mən dərdimi Sözə həkk edəcəm. Sözlərim göylərə ucacaq. Sözlərim geri dönməyəcək. O sözlərin kölgəsi mənimlə qalacaq. Yazıda qalacaq.

Yazıya pozu yoxdur.

Mələk qanadlı sözlərsə, Allahındı. Onu kimsə Allahdan ala bilməz.

Tanrı yaratdıqlarını sevir. O, Rəhman və Rəhimdir.

Tanrım ona can atanları daha çox sevir.

Tanrım, öncə Sən məni tapdın. Bu, mənim alın yazım idi. Sonra mən Səni bir gün birdən tapdım. Bir eşqin içində, uzun gecələrin yuxusuzluğunda bir məqam gəldi. Bu məqam haqqında çox şey bilmirəm.

Mübhəm, işıqlı, isti, ümid dolu bir məqam. Öncə uçmaq istədim. Dünyada olan hər şeyi unutdum. Məni çağıran və məni körpə uşağa oxşadan işıqdan başqa hər şey anlamsız, dəyərsiz oldu.

Dualarımı, namazlarımı xatırladım. Ibadətlərim göz önünə gəldi. Bu uzun illər mən Allah xofuna tapınmışdım. Allah adına vərdiş etmişdim.

Ayinləri də vərdişlə yerinə yetirmişdim.

Indi hər şey dəyişmişdi. Içimdəki o qaraşın ərəb qızının sevgisi qızmış köz kimi qalmışdı. Sadəcə, gözlərimi gözümlə görmüşdüm. Bir səhra gecəsində «Gecələr bizimdir», «Gecələr səhralılarındır» - pıçıltısını eşitmişdim. O gözlər, o pıçıltı məni mən olmadan ayırmışdı. Dərdimi sözlərə danışmışdım. Dərdimi sözlərlə danışmışdım. Sözə tapınmışdım.

Və birdən o məqam gəlmiş, məni o qızın gözlərinin dikildiyi açıq qapıya aparmış, o qapıdan görünən, böyüyən işıq selinə qarışmışdım.

Mən Allahı tapmışdım. Mən Allahı öz içimdə tapmışdım. Mənim varlığım ilahi işığa bürünmüşdü. Mən yenə sözlərlə üzbəüz qalmışdım. Amma bu sözlər o əvvəlki sözlər deyildi. Bu dərd, bu kədər, əvvəlki dərd, kədər də həm mənim deyildir. Farabidən, Marağayidən aldım. Beynimə, ürəyimə, qanıma, canıma çökdü muğamlar. Söz dünyaya gələndə muğamla gəldi. Öləndə də muğamla öləcək.

* * *

Sözün heç vaxt ağlıma gətirmədiyim və təsəvvür belə etmədiyim qapılarını açdım.

* * *

Ürəyimi bakirə sözlərə açdım. Dərdimi günahsız sözlərə söylədim. Sözlər məni anladı. Sözlər yaramı sarıdı. Sözlər məni sevdi.

* * *

Mənim eşqim böyük nifrətdən doğmadı. Mənim eşqim Eşqin özündən doğdu. Heyrətdən, intizardan, cəzbdən, işıqdan doğdu.

* * *

Allah sevdiklərinə eşq verir.

* * *

Şer hər kəsin duyduqlarını, yaşadıqlarını danışmaq cəsarətidir.

* * *

Şerlər iki cürdür – Allahdan eşitdiklərini insanlara söyləyən şerlər və insanlardan eşitdiklərini Allaha söyləyən şerlər.

* * *

Sözlərin yaşı varmı? Sözlərin yaşı neçədir?

Ağac yaşında. Daş yaşında. Bulud yaşında. Su yaşında. Iki, beş, səkkiz… yaşında.

Hələ gün işığına çıxmamış sözlər yaşın başında idilər. Hələ yola çıxmamışdılar.

Və Füzuli sözün yaşsızlığının gerçəyini həqiqət bilmişdi. Ustad üçün sözlər yaşsız idi. Sözlərin hamısı ustadın öz yaşında idi. Ya ustad onların yaşındaydı. Təzə doğulmuş sözlə ölüm yatağındakı Söz eyni idi. Söz dirilirdi, ölürdü, bir də dirilirdi.

Sözlər yaşın – Zamanın kölgəsi idi. Kölgənin yaşı olmaz.

* * *

…Söz bir başqa dünyadan gəlirdi. Gəldiyi dünyada onu həyat gözləyirdi. O, nəyi isə quracaq, nəyi isə yaradacaqdı. Onun yeni həyatı başlayacaqdı.

Ustad sözə dalmışdı.

Yeni həyat, yeni sevgi, yeni ölüm – onu gözləyirdi.

* * *

Mən də bir adayam. Dörd tərəfi su. Bu sular mənim divarımdır. Həmin divar məni qoruyur. Bu su – divar içində mənim öz dünyam yaşayır.

* * *

Heç kəsdən qorxmayan insan hər şeydən qorxur. Özündən də. Bu, insan gücünün və gücsüzlüyünün o biri üzüdür. Heç kimin görmədiyi üzü.

Füzuli gücün və gücsüzlüyün kəsişmədiyi bir dünyada yaşayırdı. O, gücsüzlüyü, gücsüzlüyün gücünü açmışdı. Bu gücsüzlük gücü də onu tapmışdı.

Kəsişməyən dünyaların kəsişməsi riyaziyyat qanunlarına zidd olsa da. Şüurun o biri üzünə doğru idi. Deyəsən, Bu dünyanın qanunları O biri dünyada gülünc və çarəsizdir.

* * *

Insan Sözlə düşünür. Insan mənliyini, varlığını Sözlə duyur, dərk edir. Sözsüz dünya bir heç. Heç. Füzuli bunu bilirdi.

Söz gözəlliyin özü idi. Söz o qızın – Leylinin özüydü. Sevgilisi də o özü idi. O qız Sözü gətirmişdi. Söz onu Allaha aparırdı.

Ilkin olanla sonsuz olanın qovuşduğu nəhayətsizlik ustadı gözləyirdi.

* * *

Insana sonsuzluq duyğusunu övlad verir. Əkdiyi ağac, səpdiyi toxum verir. Insanın sonsuzluğu yerlə bağlıdır, torpaqla ilgilidir.

Ustad üçün belə deyildi.

Sonsuzluq duyğusu eşqlə bağlıdır. Eşqin özü sonsuzluqdur. Və sonsuzluq yeri yoxdur. O, nə yerdədir, nə göydə. O, hər yerdədir.

* * *

Görmədiyim yerləri, görmədiyim insanları, görmədiyim olayları nə vaxtsa öz ruhumda görmuşəm və ruhumdan tanıyıram.

* * *

Dədə-babamın yurdu haqqında eşitdiyim həsrət dolu xatirələrdən və yuxularımdan başqa heç nəyim yoxdur.

* * *

Su verəcəyik dedilər, su vermədilər.

Susan kimi böyüdüm.

Könlümün qapısı gözəl sözlərə açıldı.

* * *

Onu tapdım. Özümdə gizləndim. Kimsə məni tapa bilmədi.

* * *

Muğam mənim sözümün içində. Muğam damla-damla sözdən bal kimi sızır. Zəhər kimi sızır. Sözlər ayaq açıb muğamın içində yürüdükcə, qanad taxıb uçduqca Sözlə muğamı ayırmaq mümkünsüzləşir. Sözlərin nəfəsi, göz yumuşu, ağır-ağır pərvərişi muğamladır.

Yana-yana oxuyan müğənni mənim sözlərimin sahibidir. Coşğunluğa qərq olan bu müğənninin əlindən kim bu sözləri ala bilər?

Ağır-ağır Söz məclisləri muğamsız olmaz.

Doğumdan ölümə uzanan muğam yolu.

* * *

Şeytan toru insan sınağıdır. Çıxan çıxır, çıxmayan çıxmır.

Allahım, Sən yaratdığına inanırsan. Sənin bir adın da Səbrdir. Səbrlə dözürsən, görürsən və sonunda Sən deyən olur.

Insan Sənə dönür, insan sınaqdan çıxır. Insanlıq yaşayır. Lənətə gələn şeytan olur, şeytanlaşan olur.

* * *

Aclığın, səfalətin, vəbanın, qanın, qadanın, savaşın, rəzalətin, kinin, küdurətin içindən sıyrılıb çıxdım. «Heyrət, ey büt!» deyib, üzümü Allaha tutdum. Gözəlliyə inandım, eşqə tapındım, Allaha sığındım.

* * *

Tarixinizdən güc almasanız, irəli getməniz mümkün deyil. Ən böyük tarix isə ürəyin tarixidir.

* * *

Ən dəhşətli səs ürəyinin öz səsidir.

* * *

Qaranlıq bir boşluqda olmayacağam. Torpaqda yox, Sözlərimdə dəfn olunacam. Sözlərimdə diriləcəm. Işığa dönəcəm. O dünyada sözlərim mənim ruhumu Sənə təhvil verəcək. Və Sən mənim ruhumu sözlərimdən geri alacaqsan, Allahım!

Ruhumu söz-söz dirildəcəksən. Söz-söz məni əhya edəcəksən. Öz sözlərini görüb gülümsəyəcəksən. Sonra ağlayacaqsan. Yaratdığının yaratdıqları Sənə dönəcək. Və hər şey bitəcək.

* * *

Allahım, biz Sənə oxşayanda insan oluruq. Biz Sənə oxşamayanda şeytan oluruq.

Ürəyimizdə Sən olanda ana oluruq, ata oluruq, övlad oluruq, dost oluruq, qardaş oluruq, bacı oluruq.

Ürəyimizdə Sən olmayanda iblis oluruq, cani oluruq, oğru oluruq, düşkün oluruq, hər şeyə, hər şeyə ləkə oluruq.

Biz Allah deyəndə Allahın bir zərrəsi oluruq. Böyük Yaradana can atırıq.

Biz şeytan deyəndə şeytan oluruq. Şeytanın belə etmədiklərini edirik. Şeytana papış tikirik.

Şeytanın şeytanı oluruq. Şeytanlaşmış insan şeytandan min dəfə dəhşətlidir.

Şeytan insana toxum səpir. Insanın nacins yerində, nəfs hücrəsində o toxum bar verir.

Allahın dərgahından qovulan şeytan atəş dodaqları ilə gülümsəyir:

- Mən Tanrıya insanın Tanrı zərrəsi olmadığını, torpaq pisliyi olduğunu sübut edəcəm.

Insanın şeytan olması şeytanın zəfəri, toyu-bayramıdır.

Dünya özü də, Doğum da, Ölüm də, Eşq də yalan imiş…

Allahım!

Yalan, yalan, yalan!

* * *

Eşqin cinsi yoxdur. Allahı sevməyə ulaşan canının, yaşını, cismini qeyb edir.

Eşqin eşqdən başqa heç nəyi yoxdur, Allahım!

Allahım, varlığımın səbəbi dinim və dilimdir. Dinim məni mükəmmələ, ruh gözəlliyinə, cismani və mənəvi ülviyyətə çəkdi. Dilim məni dinim kimi gözəlliyə, dərinliyə, müqəddəsliyə çəkdi.

Dinim mənim imanım və inamımdır.

Allahım, mənə güc, qüvvət veri. Dinimin ucalığına varım, dilimin ənginliyinə yetim.

Ya Rəbb, mənim eşqimi dinsiz və dilsiz etmə.

Ya Rəbb, bəlayi-eşq ilə qıl aşina məni.

Bəlayi-eşqdən etmə cüda məni.

Biz yalan dünyasında gerçəyi arayırıq.

Yalandan gerçək alan əl-cəbr ustalarıyıq.

Yalandan gerçəyə can atırıq.

Yalanla Sənə ulaşmaq istəyirik.

Sözün min bir rəngi, Sözün min bir yalanıdır.

Bu ağır dünyanın xəyalı bizim yazdıqlarımızdır.

Dünya xəyalsız olmaz, Tanrım!

Söz yalansız olmaz, Allahım!

Yalanın söz zirvəsi gerçək olacaqmı?

Yerdən Göyə yol açılacaqmı?

Minlərin içində bir olan, yeganə olan gerçək bulunacaqmı?

Allahım, mən Sənin yolunda uzaqlara, sonsuzluğa gedəcəyəm.

Hüdudsuzluq, qəriblik, xəyal içində gerçəyi – Səni arayacam.

«Sözün ən gözəli onun ən yalanıdır», yalanı içində görünən ilğımı görürəm. Ona doğru gedirəm.

Mən getdikcə o, məndən qaçır.

Mənə özüm qədər yaxın, özüm qədər uzaq gerçək görünən görünməzlik içindədir.

Hər şey qaranlıq bir aydınlığa boğulub.

Hər şey işıq seli kimi axıb gedir.

Sərhədlər, hüdudlar itir. Göy-yer bir-birinə qarışır. Su-quru, soyuq-sıcaq hüdudları itib gedir.

Dünya bütövləşir.

Dünya nəfəs alır. Dünya ağlayır, gülür, dünya əli qoynunda yol gedir.

Dünya da gerçəyi axtarır.

Daş da yalanmış, dağ da, su da, ağac da, otlar da, çiçəklər də.

Gündə min yol ölüb dirilirəm. Kimsəsiz yurdun bayquşu kimi ulayıram. Zaman məndə boğulub kösövə dönür. Içimdə ildırım çaxır. Içimdə yağmur başlayır.

Dışım qara qul kimi yanır.

Ölümlə yaşam arasında fərq silinib gedir…

* * *

Sən Sözlə dünya yaratdın.

Biz Sözün yolunu tutduq.

Sənin bir sifətin də Sözdür.

Özünə min şükür, Sözün minə şükür, Tanrım!

* * *

Allahım!

Qum səhrasında üzən ilanlar, su dünyasında yürüyən balıqlar dünyanın bir üzüdür. Bir bülbül naləsi, bir gül nəfəsi də dünyanın bir üzüdür.

Meşələr bir üzü, dağ-daş bir üzü.

Sular bir üzü, çöllər bir üzü.

Bu üzlərin üzü insandır. Bu üzlərin gözü insandır. Bu üzlərin sözü insandır.

Bu düzənin, bu ahəngin yazarı Allah özüdür.

Bu əsər Tanrının öz əsəridir.

* * *

Allahım, dediyim Söz, yazdığım Söz yalandır. Şair yalan yazandır. Yalan yazmaq şair günahıdır. Düz Söz Sənindir, Rəbim!

Gerçək Sözün tək sahibi Sənsən, Allahım!

Biz yalan yazmağa məhkumlarıq. Biz şairlərik. Biz yalan yazırıq. Beynimizdə ildırım kimi çaxan duyğu, fikir Sözə gəlincə dünyanın ən uzun yolunu keçə-keçə əriyir. Gerçək olan yalan olur.

Səndən gələn vəhylər Söz cildinə girincə əslindən uzaqlaşır. Yalan olur.

Yer gözəlinə söylədiklərim yalandır. Yerdəki gözəl yalandır.

Əsl gözəl Sənsən!

Eşqin hər cilvəsi həyat mərtəbəsidir. Insanlığın insan kimi yüksəlişi, mədəniyyətin bəşəriyyətə çökməsi, cismani, mənəvi gözəlliyin, təmizliyin insanlığa hopması eşqdən keçən, eşqdən təpər, güc, qüvvət alan bir sürəcdir, hərəkətdir.

* * *

Allahım, sən sözə nə xassə verdin? Sən sözə hansı adlarını verdin? Sən Sözə mələklərin qədər inandınmı?

Ilahi, Sən Sözü şeytana da verdin?

Şeytandan geri aldınmı?

Otlara, çiçəklərə niyə Söz vermədin?

Ceyran, cüyür niyə Sözsüz qaldı?

Tanrım, Sən Söz vermədiklərinə nə verdin ki, biz onu bilmirik? Və bilməyəcəyik.

Ot dilini, ceyran dilini Sözə deyil, nəyə sığdırdın, Ilahi?

Sən Böyüksən, Tanrım!

Sən bizim bilmədiklərimizi bilənsən, Tanrım!

Quş dili, cüyür dili, çiçək dili Sözlü dildən daha gözəldirmi, Tanrım?

Sükut dili, göz dili kimi əsrarlıdırmı, Tanrım?

Allahım, Sən lövhi-məhfuz dilini göylərdən yerə Sözlə endirdin.

Istədiklərini mələklərlə Sözə büküb göndərdin.

Ulu Peyğəmbərimiz Ilahi həqiqəti göylərdən yerə endirdi.

* * *

Eşq atəşindən geydiyim köynək alışıb yanır.

* * *

Könlün meyli nəfsin arzulaması deyil.

Hər qulun ürəyində bir zalımlıq yatır.

* * *

Insan fərddən, içdən-daxildən başlayan yüksəlişdir. Imperatorluqlara qədər ulaşa bilər. Imperatorluq çökür, ancaq fərddə, içdə olan qurum, düzüm pozulmaz.

Inqilab çöldən, dışdan – xaricdən başlayan fenomendir. O da imperatorluğa qədər ulaşa bilər və zamanı gəldiyində çökər. Iç, fərd əsası olmadığı üçün tamamilə məhv olub gedər.

* * *

Islamla xristianlığı üz-üzə qoyub təhlil etmək bitkin təhlil örnəyi deyil. Çünki onlar ayrı-ayrı qütblər deyil. Bir qütbdə gedən dəyişmə, mükəlləşmə, kamilləşmədir.

Və sözün geniş mənasında Tövrat və Incil də Islamdır – Islama gedən yoldur.

* * *

Ölümü ilə barışmaq bir gözəllikdir, ölümü ilə barışmamaq da bir başqa gözəllik. Yaralı qızılquşun son fəryadı, son çılğınlığı ölümü ilə barışmayan varlığın dirənişidir.

* * *

Bütün yalqız yaşayanlar kimi azadam. Bütün azad olmuşlar kimi yalqızam.

* * *

Savaş – ölüm mövsümüdür.

* * *

Gözəl şer bir rəhmətdir. Gözəl şer bir ilahi lütfüdür. Gözəl şer böyük cəhdin bir addımıdır.

* * *

«Həqiqətən Allah gözəldir və gözəlliyi sevər» (Hz. Məhəmməd (s.ə.s.).

* * *

Ilahi, insanı yaratdın!

Şah əsərin insandır. Ona öz xassəni verdin, bütün canlılardan, cansızlardan ayırdın. Seçkin varlıq insan oldu – ağlı ilə, dərrakəsi, zərifliyi, ölçüsü, biçisi ilə.

Insan şüuru, şüuraltı cizgiləri, duyğuları ilə ali varlıq oldu.

Fəqət.

Insana düşmən də insan oldu. Şeytana aldanan, satılan da insan oldu.

Sonsuzluq qədər gözəl olan varlıq sonsuzluq qədər rəzalət, eybəcərlik yoluna da açıq oldu.

Yaratdığın insanların hamısı kamil varlıq olmadı.

Tanrım, insanı şeytandan qoruduğun kimi, insanı insandan da qoru.

Yer üzündə insanın ən böyük düşməni insandıra, bu, insan adına ən böyük ləkədir. Ali məxluqun adiləşməsi, vəhşiləşməsi Sənə sayğısızlıqdır. Rəbbim.

Allahım, insanı insandan qoru! Canavarın canavara etmədiyini insan insana edir.

Allahım, mən şerimi insana yazıram.

Allahım, mən insana inanıram.

Allahım, sənin yaratdığın sənə dönməlidir.

Inanıram.

* * *

Dünyanın bütün şeri əzanın kölgəsindədir.

Dünyanın bütün sözləri Quranın solğun və solğun təkrarıdır.

Ən uca Söz, ən gözəl söz Qurana can atan Sözdür.

Söz Allahın əmanətidir.

Əmanətə xəyanət olmaz.

«Haqq yavaş-yavaş acan su kimidir. Insanlar bəzən üzdə olan köpüyü görürlər. Fəqət gec-tez suyun özünü görürlər» (Quran).

* * *

Dərd içində yaşayıb başqalarına dərman olacağam. Hər şeyə, hər yerə işıq aparacam. Özüm işıqsız qalsam da.

Kini, qisası, küdurəti, nəfsin min bir üzünü şeytanın özü kimi boğacağam.

Allahın min bir adı olan məmləkət arayacağam.

Insanı mübarək sayacam.

Köç əmrini səbrlə gözləyəcəyəm.

Ölüm mələyini sevəcəyəm.

Ruhumun ölməzliyinə inanacağam.

Allah, Allah deyib öləcəm.

Allah, Allah deyib yenidən diriləcəyəm.

Məni öldürən eşqin məni yenidən dirildəcəyinə adım, Füzuli kimi əminəm.

* * *

Mövlaya yüksələn «Allahu Əkbər» sədası insan səsinin Allaha ulaşan yoludur. Iki cümlə-nin, yeddi-səkkiz sözün təkrarıdır. Amma bu ah, bu fəryad, bu çağırış qədər böyük nə ola bilər?

Allahın böyüklüyü, təkliyi, vəhdəti xəbər verilir.

Zamanın səsidir, Əzan. Allahın hökmüdür, Ibadətə dəvətdir, Vurğunluqdur, həyacandır, yoldur, tövbə məqamıdır.

Insanla insan səsi çağıran ulu Peyğəmbərimizin hikmətidir.

Bütün səslər insanı qorxudur, vahimələndirir, diksindirir.

Əzan ana səsi kimi təmizdir.

Əzan ata səsi kimi doğmadır.

Əzan kişi səsi kimi əzəmətlidir.

Əzan əzamətlə həyəcanın, sevinclə dərdin vəhdətidir.

Əzan ümid, pənah qapısıdır.

Əzan gözəllik və ülviyyətdir.

Əzan sadəliyin möcüzəsidir.

Əzan eşqdən gələn nurun səsidir.

Allahu Əkbər!

Allahu Əkbər!

La Ilahə Illəllah!

* * *

Tanrım, Sənə dua edirəm. Duamı öz sözlərimlə edirəm. Sevdiyim o gözəl də məni Sənə aparan bir yoldur. Dua edirəm. Və bu anda hər şey qeyb olur. Ruhumla Sənə can atıram. Mən yoxam. Mən bədənsizəm, görünməz olmuşam. Mən külək olmuşam, nəsim olmuşam.

Bir şeç olmuşam. Bir «ah» boydayam. Bir udum havayam.

Duam bitir. Ruhum bədənimə dönür. Bədənim ruhumu geri alır. Buna sevinir. Ruhum ynə sümüklərimə çarmıxa çəkilir. Həzrəti Isa kimi ağlayır. Ruhumun barmaqlarından, ayaqlarından, sinəsindən qan sızır.

Bədənim qızışır. Ruhum soyuyur. Bədənim ruhumu ağuşuna alıb özünə sıxır. Ruhum titrəyir.

Aman Allah!

Ruhum təslim olur! Aman Tanrım! Mən hər şeyi unutdum. Dünyaya qovuşdum. Tanrım, hər ulduz Sənin nur aləminə bir pəncərəymiş. Mənimlə hər gün öz işıq dilində danışan qərib ulduz da.

Sözləri əmanət kimi göndərirsən. Sözlər içimdə dirilir. Diri insanlar, canlı çiçəklər, bülbüllər, cüyürlər sözə bürünüb içindən yerə, yerdən göylərə can atır. Onları saxlaya bilmirəm. Onlar uzaq ellərin rüzgarı kimi axıb gedirlər.

Ya Rəbb! Onlar hara gedir?

Ya Rəbb! Onları saxla.

Yaddaşım, içim, çölüm yalqızlaşdı. Boşaldım, tənhalaşdım, yalqızlaşdım.

Allahım, mənə rəhm et!

* * *

Tanrım! Sən buyurmadığın sözü mən söyləmədim. Söyləyə bilməzdim. Söyləməyəcəyəm də.

Sən istədiyin mətləbi, Sən istədiyin zərifliyi Sözə köçürdüm.

Uyğun bildiyin mizana, uyara, sevib dəyərləndirdiyin gözəlliyə ulaşmaq üçün Sözün təkinə vardım. Sözü aradım. Və Sənin layiq bildiyin Sözlərlə Sənin rəva bildiyin insan mənzərəsini, insan eşqini yaratdım.

* * *

Gecə keçir. Son ulduz da gün işığında əriyəndə qara çırağı keçirirəm.

Səndən ayrılıram. Son duamı edirəm. Yavaş-yavaş sönürəm. Sönə-sönə nə vaxtsa yanacağıma inanıram. Dünya işıqlandıqca mən aydınlıq içində zülmətə qovuşuram.

Bu zülmət məni hələ görmədiyim, hələ bilmədiyim böyük bir işığa aparır.

Gözlərimi yumuram. Sönə-sönə yanacağıma Haqqın özü kimi inanıram.

* * *

Ulu Rəsulum, sevgili Peyğəmbərim, şer Sənin nəyinə lazım? Sən böyüksən, qadirsən, gözəlsən. Şerin can atdığı böyük məqama erişmişsən.

Şer biz bəndələr üçündür.

Bizi bağışla.

* * *

Hər gecəm bir əsr qədər uzundur.

Hərdən bu gecələrdə nəfəsim tıxanır.

Gecənin zülmət əlləri məni dörd bir tərəfdən sıxır. Imdad istəyirəm.

Dodaqlarıma bir surə qonur – Qədr surəsi – oxuyuram. Olmuş, ölmüş gülü dirildən su kimi Qədr sədası məni oyadır. Sözləri möcüzə dolu axarı içimə hüzn, fərəh, işıq gətirir.

Surə məni O dünyaya götürür.

Gəlirəm, Tanrım!

Məni gözlə…

* * *

Ayın bu bir parça işığı məni O məmləkətə səsləyir.

Allahım, gecənin bir vədəsində bir qız acı göz yaşı içində məni özünə çağırır.

Ilahi, dupduru bir uşaq naləsi fəryad edib məni O ocağa aparır.

Bir saz səsi, bir qız səsi, bir ata səsi, bir dədə səsi niyə belə usanmadan, yorulmadan məni özünə çağırır, məni istəyir, mənsizliklə yanıb qovrulur, Allahım?

Mənim orda qalan canım, varlığımmı?

Orda qalan sözümmü, dilimmi?

Eşqimmi? Həsrətimmi?

Bilmirəm, Allahım, bilmirəm.

* * *

Ya Ilahi, qaş qaralınca gəlib Imam Hüseyn qəbrinin üstündəki çırağı yandırıram.

Bu çıraq yanınca mənim həyatım başlayır. Axşam keçir. Gecə gəlir. Gecələr mənimdir. Allahım! Səhradan gələn uzaq ellərin sərin yeli məni özüylə alıb aparır uzaqlara. Gecələr mən Sənin üzbəüz qalıram, ya Rəbbim!

Sənə ibadət edirəm.

Qara çırağın titrəku işığında duyduqlarım, yazdıqlarım Sənə ibadətdir, Rəbbim!

* * *

Ilk öncə Söz var idi. Söz uçdu, yazı qaldı.

Yazıya pozu yoxdur. Alın yazısını Allah yazır. Bu yazını mən yazdım.

* * *

Doğulmazdan öncə Səni sevməyə başladım. Bu sevgi məni dünyaya gətirdi.

Bu sevgi məni dərd içində yaşatdı. Və bu sevgi məni öldürdü.

* * *

Ilahi, yuxularımda bir məmləkət görürəm. Allahım, bəlkə Cənnət oradır?

Allahım, yuxularımda bir məmləkət görürəm.

Dədələrimin, babalarımın dilindən duyduğum bu məmləkət hər gün, hər an durmadan, dayanmadan məni özünə çağırır.

Bu məmləkət bir ilğım olub başım üstə dolanır. Suyu ilə, çayı ilə, ağacı ilə, ormanı ilə «gəl, gəl balam» - deyir mənə.

Allahım, bu məmləkət bəlkə yoxdur bu dünyada? Bir xəyaldır mənə qismət eləmisən.

Şükür böyüklüyünə, Allahım. Danışdığım dildə, yazdığım sözdə bu məmləkətin dadını, tamını yaşayıram.

Ana dilim məmləkətimdir. Ana sözüm Ana yurdumdur.

Düşünürəm, duyğulanıram, eşq içində uyuyuram, eşq atəşində oyanıram.

Eşqlə ölürəm. Eşqlə dirilirəm.

Eşqimin dili bu məmləkətdir.

Məmləkətə salam olsun!

Allahım, bu söz barmağımın ucunda, bu söz ürəyimin başında, bu söz damarımda, bu söz iliyimdə, bu söz beynimdə.

Allahım, dünyanın bu qədər uzun yolu harda var. Hərdən özümü o yolda öldürmək istəyirəm. Sönən sözün ağrısına dözəmmirəm. O sönən Söz məni özüylə götürüb aparır. O Söz mənə Aman vermir.

Beynimdən dilimə gələn yol yüz illik, min illik yoldan da uzun. Doğur, parlayır, yana-yana gəlir.

Beyin, ürək, damar, sinir, dil, barmaq yolunda yana-yana sönür. Sönhasöndə söz qələmin ucuna yetişir. Bu uzun yol o yaranan sözü doğulan sözdən bir dünya qədər ayırır.

Allahım, beynimdən sözü mənə ver.

Ürəyimdən yanan o atəşi mənə qaytar.

Məni bu əzabdan qurtar.

Yanıram, çatlayıram, ölürəm. Ölən sözləri məndən al. Məni bədənimdəki diri sözlərə qaytar. Odlu, nəfəsli sözləri məndən uzaq etmə. Allahım, gözümü yumuram və sözlərimə qo-

vuşuram. Səni orda daha aydın, daha yaxın, daha doğma görürəm. Ordan Sənə Sən olmaq üçün bir kəpənək yolu qalır.

Və titrək, niffal qanadlarımı çırpıb Sənə uçuram.

Bu körpə uşaq alın yazısını bilmir. Başına nələr gələcək, heç fərqində deyil. Onu gözləyən eşq uzaqdadır. Onu gözləyən eşq uzaqdadır. Onu gözləyən qəza, onu gözləyən məzar səbrlidir. Uşaq gülümsəyir. Dünyaya baxır. Məchul eşqə, məchul qəzaya, məchul məzara gedən o yol təmiz alında təmiz dillə yazılmışdır. Tale adlı əlifbanın dilini kim bilir, ya Rəbb?

Bu yazının arasındakı boşluqda nələr var, Tanrım?

Acısı şirin, şirini acı dünya. Fani dünya. Fənalıqdan ucalığa gedən məchulluq, qəza, eşq içindəyəm. Sehrindəyəm, Tanrım! O balaca körpənin izi ilə Sənə gəlirəm. Səni istəyirəm. Sən olmaq istəyirəm. Məni özünə götür, Allahım.

Əlindən tutduğun o uşaq da mənəm. O yazı da mənim yazımdır.

Yazımı oxuyuram.

Məni dinlə, Tanrım.

* * *

Bizim Allah-Təalaya ayırdığımız vaxt, Allah-Təalanın bizə ayırdığı vaxtın yanında bir kiçicik zərrə də deyil.

* * *

Sönürəm. Şamın göz yaşları kimi əriyib gedirəm. Sönə-sönə sona doğru yolçuluq edirəm.

Sönə-sönə yanacağıma inanıram.

Yenidən diriləcəyimə, yenidən var olacağıma, yenidən eşqə qovuşacağıma inanıram.

Son ziya, son nəfəs.

Sönə-sönə yanacağam.

Yanacağam.

* * *

Insan xoşbəxtliyini itirib tapa-tapa xoşbəxt olandır.

Insan xoşbəxtliyi itirib tapmayandır.

* * *

Allahım, Səndən mənə gələn yol, məndən Sənə gələn yol qədərdir. Bu yolun hər kəsiyində mən varam, Sənin işığın var. Bu yolun hər qədəmi mübarəkdir.

* * *

Qaranlıqdan mədəd umanlar qaranlıq tapar.

* * *

Eşqin məntiqi, elmi yox. Eşqin dili, könlü, sonsuz yolu, ağrısı var.

* * *

«Iman dağları yerindən oynadar». Əvvəl iman eşqdirsə, dünyanı oynadar.

* * *

Sevgi gücü heyranlıq və heyrətdir.

* * *

Bilinməyən bilmək, duyulmayanı duymaq ehtirası canımı yandırır, Allahım.

* * *

Günəş doğmadan öncə göyün ən qaranlıq olduğu andır.

* * *

Dərvişlərin səma rəqsinə baxdım – boynu bükük dönən insanlar. Allaha üz tutub, əlləri sinədə dönürlər, dönürlər, dönürlər…

* * *

Allahım! Keçmişim məni yeyib bitirəcək. Keçmişimin hər günü dirilib üstümə gəlir. Ilahi, üstümə gələn gömgöy dənizdir, dalğadır, ümmandır, ağır-ağır dağdır, daşdır.

Allahım, hər gün, hər an keçmişimi dirildirəm, onunla üzbəüz qalıram. Dirildiyim keçmiş məni yeyib-yeyib doymaq bilmir.

Əriyirəm, bitirəm, tükənirəm.

Diriltdiyim hər an körpəliyimdir, uşaqlığımdır, gəncliyimdir.

Sonsuzluğun o biri ucundan mənə baxan o bir cüt göz məni çəkib aparır.

Sonsuzluq duyuram. Nur yolu məni özünə çağırır.

Keçmişim məni yeyə-yeyə yenidən doğur.

Ölürəm və doğuluram.

Gedirəm və gəlirəm.

Rəbbim, məni unut!

Rəbbim, məni qarşıla!

* * *

Dünyanın ən qaranlıq çağlarında, ən qaranlıq guşələrində ən aydın, işıqlı kəlamlar göndərdin. Ümidsizlərə ümid, dərdlilərə dayaq verdin.

Dünyanın faniliyi ilə əbədiliyi arasına körpü qoydun. Adamı insan etdin. Zərifliyin, gözəlliyin hüdudsuzluğuna yol açdın.

Sən Böyüksən, Tanrım!

* * *

Ey rəqiblərin pənahı!

Mənə qərib dünyanı doğma edən Sənsən.

Yerin, Göyün gerçək sahibi Sənsən.

Vətəni, yurdu qutsal yapan Sənsən.

Yaratdığına zülm, cəbr etməyən Sənsən.

Ürəklərə sevgi toxumu, eşq nuru səpən Sənsən.

Şükür sənin böyüklüyünə!

* * *

Hamı Səni unudacaq. Hər şey Səni unudacaq. Məndən başqa. Bu otların yadından çıxacaqsan. Bu dağlar Səni xatırlamayacaq. Bu adamlar üçün olmamış kimi olacaqsan.

Bir tək mən, bir tək mən Səni unutmayacağam. Sən məndə ürəyimin yarası kimi, ürəyimə çəkilmiş dağ kimi qalacaqsan. Sən məndə öz qanından qorxmuş çocuğun fəryadı kimi qalacaqsan.

Hər şeyi unudacam. Atamı, anamı, bacımı, qardaşımı… Hamını unudacam. Son unudacağım Sən olacaqsan. Səni unudan an mənim canımı can alan olacaq. Ruhum Səni axtaracaq. Və nəhayət, işıq işıqda əriyəcək.

Allahım, o bəyaz geyimli qız hara gedir?

Allahım, o qızın əynindəki o bəyaz geyim kəfəndimi? Allahım, o kəfən o qıza niyə elə gözəl yaraşır? Allahım, fələk biçən bütün köynəklər belə gözəldimi?

Allahım, o ucaboylu sarışın qız ala gözlərini son dəfə süzdürüb göz yumanda ürəyin sızladımı?

Allahım, dünyanın ən gözəl gəlin qiyafəti kəfəndimi?

Allahım, insaf elə, o kəfəndə məni də apar.

O kəfəndə mənim yarım var, Allahım, qıyma mənə. Qıyma mənə…

* * *

Kor adamın gözündəki zülmət kimiyəm. Son damla, son nəfəs kimiyəm. Ananın övladına son baxışı kimiyəm. Qaranlıq, ümidsizlik, çarəsizlik içindəyəm. Eşqim tükənir.

Səni axtarıram. Səni arayıram, Allahım. Səni tapmaq, Sənə tapınmaq, son çarə bu. Son çarə, Allahım!

* * *

Iztirab dolu gecənin qolları arasındayam. Dodaqlarımda ayrılıq şərbəti. Barmaqlarımda təmas həsrəti. Gözlərimdə rəngsizlik sürüb gedən sonsuz yol.

Bu gecə qanımı sorub işığımı damla-damla əmir.

Bu gecə mənə həsrət. Bu gecə mənə görə yaşayır.

Bu gecənin zülmət dolu həyatı mənim ölümümdür.

Varlığımı, ətimi, canımı, qanımı yeyən gecə.

Allahım, bu Sözləri eyni halda yazmadım, haldan-hala düşdüm. Halımı yazdım.

Haqq yolunda yolçuluğumu yazdım.

Eşq içində qovrulub yandım. Yanğımı yazdım. Üşüdüm, üşüməyimi, üşəndim, üşənməyimi, heyrət içində bayıldım, heyrətimi, dərd içində öldüm, dərdimi, şam kimi şöləmi, quş kimi uçuşumu, ilan kimi sürünməyimi, ot kimi bitməyimi, ağa kimi yaşıllaşmağımı, Səni, Səni yazdım Tanrım!

* * *

Bu sözlər məni cənnət bağına aparır, Allahım.

Bu sözlər məni cəhənnəm əzabına aparır, Allahım.

* * *

Bir mübarək gecə idi. Bütün dünya səssiz yatan bir cocuq kimiydi.

Tək Tanrı oyaqdı. Tanrının nəzəri uyuyan körpənin üstündəydi. Dərd-bəla, göz-nəzər əriyib körpənin beşiyinin dibinə tökülürdü. Tanrının ovcunda bir çocuq uyuyurdu.

O çocuq mənəm, ey tək Allahım!

Bəlkə də mən deyiləm, Tanrım!

Ancaq nə dəyişər ki?

* * *

Allahım, rənglər təbiətdə deyil. Rənglər insanın içindədir. Hər rəngin anlamı insan düşüncəsində, fəlsəfəsindədir. Hər şey məndən gəlir. Hər şey mənə gəlir. Təbiəti gözəl edən mənəm.

Allahım, işığı düşən mənim zəkam, mənim ürəyimdir.

Allahım, bu görünən dünyanın yalanı ilə içimizdəki gerçəyi ayırmada insanlara yardım et.

Bu həqiqət bilinməsə, insan özünü qaza bilməz. Insan dərinləşməz, sonsuzlaşmaz. Və insan sonsuzluğu anlaşılmaz.

* * *

Allahım, bu dünya bir-birini tanıyanların dünyasıdır. Adəmdən, Həvvadan bir neçə min illər öncə, mədəniyyət ortaqlığı olan insanların dünyasıdır.

Musa peyğəmbərdən, Ibrahim peyğəmbərdən, Süleyman peyğəmbərdən gələn yollar Islama gələn yollardır.

Tarix torpaqda deyil. Tarix qandadır. Tarix yaddaşdadır. Tarix düşüncədə, mədəniyyətdədir.

Allahım, peyğəmbərləri göndərdin. Elçilərlə insanı insan yazan kitablar göndərdin. Varlığını, təkliyini, vəhdətini anlayanları insanlara göndərdin.

Fironlar dünyasını dəyişdin.

Böyük bilginlər, alimlər tapdıqları, yazdıqları ilə dünyanı çağ-çağ dəyişdi.

Sənət əhli dünyada dünyalar yaratdı. Qələmin, tişənin, kamanın möcüzəsi insanı insan etdi.

Nəhayət, dünyaya son peyğəmbər – bizim Peyğəmbərimiz gəldi.

Yeni dünya son Rəsulla başladı.

Və Rəsuldan sonra insanla Allah arasnıda elçi olmadı.

Son kitab – mübarək Quran endi. Və əbədiyyətə qədər sürəcək kəlam insanın oldu.

Allahım, gecənə də şükür, gündüzünə də.

Dünəninə də şükür, sabahına da.

Gördüyümüz keçmiş, görmədiyimiz keçmiş yanında heç nədir.

Gördüyümüz gələcək görmədiyimiz, görə bilmədiyimiz gələcəyin yanında nədir ki…

Sonsuzluqdan gəlib sonsuzluğa gedən yolçularıq, Allahım.

* * *

Dünyaya gələn hər çocuq Tanrının insandan ümidini kəsmədiyini göstərir.

* * *

Gözəl – kökü yerdə, gövdəsi, budaqları göylərdə olan ağac kimidir.

* * *

Tanrım, Sən yaxşıların Allahısansa, bəs pislər haraya getsin? Bəs pislər neyləsin?

* * *

Şükürlər olsun, xəcil olmadım.

Fəqət mənim Sənin üçün yazdıqlarım türkcədir. Mənim Səndən görünən insanlar üçün yazdıqlarım mənim qərib türkcəmdir.

Uzaq ellərdə dolaşan Bayatlı nənənin, dədənin, ozanın yanıq-yanıq olmuş Sözü məni Məcnun elədi.

Tanrım, mənim Leylim türkcəmdir.

Bülbül üşüdü gəldi.

Dərdə tuşudu, gəldi.

Bülbül yaz havasına

Hələ qış idi, gəldi.

Allahım, görmədiyim yovşan ətirli gözəlləri bu sözlərdə gördüm, bu sözlərdə sevdim.

Ilahi, Türkcə mənim eşq dilimdir. Sənə doğru məni ucaldan anamın mənə verdiyi Türkcədir.

Görmədiyim ağacları, dağları, gözəlləri, yurdları, insanları, bu sözləri fəryadında tapdım.

Şairlik Sənin mənə verdiyin lütfdür, haqdır, imandır, eşqdir.

Məni Sənə tanıdan Türkcəmə and içirəm ki, bu sözlərlə, bu dillə böyük dərgahına üzüağ gələcəm.

Nazim nəzmi nə qədər çətin olsa da, Türkcə yazacam. Fərasətim, bacarığım yetərsə, hər cür ağırlığına yenəcəm.

Türkcəmdə tikanlarda gül açacaq.

Sənin dərgahına bu güllərlə gələcəyəm, Rəbbim!

Amin.

Allahım!

Mən bu yerlərə bayatıyla, türkü ilə gəldim. Vətəni dilində gətirən bayatılar Dədə Qorqudun sözünü özlərinə vətən etdilər. Neçə min illərdir mənim canımda, qanımda yaşayan bu Sözlər, havalar, havacatlar məni bəslədi. Mayamı onlarla tutdum. Sözləri anamın südü ilə əmdim. Canım, ruhum, başdan-başa Sözdür.

Türkü doğandan bildim. Ərəbi, farsı öyrəndim. Yunanla, hindlə tanışdım. Hər dil mənə bir qanad verdi.

Fəqət, Tanrım, Sənin ulu varlığını türkcə anladım.

Tanrım, səninlə ünsiyyətim türkcədir.

Tanrım ürəyimin duası türk dilindədir.

Tanrım, Sən dili yox, insan ruhunu oxuyursan. Bizim deyəcəyimizi, deməyəcəyimizi bilirsən.

Allahım, Sən bizim ürəyimizə ayna tutursan. Bu, Sənin böyüklüyündür, Rəbbim.

Lövhi-məhfuz dili insan dilidir.

Tanrım, biz yerdə doğulub, göyə can atanlarıq.

Allahım, biz naqisləri bağışla. Biz öz dilimiz qədərik. Biz öz dilimizdə dilimiz boyda görünürük.

Tanrım, mən naqis Sənin hüzuruna türkcəmlə gələcəm.

Ərəbcə, farsca, yazdıqlarım ərəblərə, farslara sayğımdır.

Bu dillərin də batininə vardım.

Yazdım-yaratdım.

Şeytanın əkdiklərinin tarixi.

Allahın insanı ucaldan tarixi.

Şeytanın insanı alçaldan tarixi.

Biz insanlar hər iki tarixi yaşadıq, yaşayırıq. Və həmişə belə olacaq.

Allahım, bu mənim anladığım gerçək.

Yanlışdırsa, əfv et, Rəbbim.

* * *

Allahım, min illərdir ki, insanlar günahlarında boğuldu.

Qiyamət son hesabdır. Qiyamət bir səbəb olmaqdan daha çox nəticədir. Sonuc və olacağı yalnız Sən bilirsən.

Bir damla murdar sudan ali xilqət yaratdın, Tanrım.

Allahım, üzünü bizdən çevirmə.

Allahım, bizi öz yolunda saxla.

Kölgəni əsirgəmə.

Mən Səni hər yerdə görürəm, Tanrım. Oyanan, uyuyan hər şey Sənsən. Yaşayan hər şey Sənsən. Hər şey Səndən başlayır, Səndə bitir.

* * *

Allahım, birdən könlüm o qədər yoxsullaşır, məhzunlaşır, yazıqlaşır ki, mən bu yazıqlığı, yoxsulluğu, məhzunluğu heç kimlə bölüşmək istəmirəm. Heç kəsi özüm qədər dərdli görmək istəmirəm. Əlacımı özümdə axtarıram. Çarəni özümdə tapıram.

Allahım, mən özümdə Səni tapıram.

Səni tapanda xilas oluram.

Ana dilim mənim başımın üstündəki göy üzüdür.

* * *

Mən qürbətdə qəribəm. Öz Vətənində qərib olanlar bədbəxtlərin bədbəxtidir.

* * *

Ən böyük yalan ən böyük xoşbəxtlik haqqında uydurulmuş yalandır.

* * *

Söz ərşdən yerə enmiş kələfdir. Açacaqsan, açacaqsan, açılmadığını bilə-bilə açacaqsan, çözəcəksən, çözəcəksən. Dörd tərəfin sözlə hörəcəksən. Sözün içində boğulacaqsan. Öləcəksən. Bir kəpənək olub uçub gedəcəksən.

* * *

Çirkinliyin tarixi də bəşər tarixidir. Rəzalətin və zülmün tarixi də insan tarixidir. Gözəlliyin tarixi də bəşəriyyətindir. Qəhrəmanlığın tarixi də.

Tarixdə də Allah və şeytan var.

Allahın yaratdığı tarix.

* * *

Yaralarımın dərmanı Sənsən.

Könlümə endirdiyin EŞQ-i də hər kəslə bölüşmək istəmirəm. Bu eşqi də hər kəs çəkə bilməz. Bir də… Olmaz. Bölmək olmaz.

Eşq bölünməz, Allahım.

* * *

Allahım, bu dünyadan uzaqlaşıram. Dörd bir yanımda olanları görmürəm, duymuram. Kor adamın gördüyü yuxu kimi yaşayıram. Bu dünyada ola-ola bu dünyada yaşamıram. Mən bu dünyada yoxam, Tanrım. Bu dünyada olan mənim kölgəmdir, mən deyiləm.

Acıdır, ağırdır, çəkilməzdir, amma belədir. Tanrım, belədir.

* * *

Allahım, yenə dilimin, ana dilimin sevdası düşdü başıma. Öldür məni. Bu, sevdadı.

MƏN TÜRKZƏBANDAN ILTIFAT EYLƏMƏ KƏM…

Ey feyzrəsəni ərəbü türkü əcəm,

Qıldın ərəbi əfsahi-əhli-aləm,

Etdin füsahayi-əcəmi Isadəm

Mən türkzəbandan iltifat eyləmə kəm…

(«Ey ərəb, əcəm və türk millətlərinə zövq verən Tanrım! Sən ərəb millətini dünyanın ən fəsih danışan milləti etdin. Əcəm (fars) fasihlərinin sözlərini Isa nəfəsi kimi cana can qatan bir gözəlliyə ulaşdırdın.

Mən türkəm, türk dilində yazmaq istəyirəm. Məndən iltifatını əsirgəmə!»).

Allahım, kəlamüllaha sayqım sonsuzdur. Bizim Səndən başqa kimimiz var? Qurandan böyük nə ola bilər?

Sayqım, sevgim sonsuzdur.

Allahım, mən bir türkəm. Türkcə yazmaq mənimçün şərəf və ucalıqdır.

Allahım, mən «kəlam» deyil, «Söz» yazsam, Söz sözünü şerləşdirib zəriflik, ədəb, ərkan, sənət gözü ilə baxsam, məni bağışla.

Bağışla mənim türklüyümə, Tanrım.

* * *

Tanrım, əlimə qələm alıb ilk sözümü yazanda Səndən haqq alıram, Səndən xəcalət çəkirəm. Sənə güvənirəm, Sənə sığınıram. Yazdığım hər söz üçün ustadlarımdan üzr istəyirəm. Mənim hər sözüm onlara ulu salamdır. Ustad Nizamiyə, ustad Mövlana Rumiyə, ustad Nəvaiyə, ustad Nəsimiyə, ustad Xətaiyə, ustad Hafizə… verdiyim salam, aldığım salam bir ucalıq, ülviyyət və ehtiramdır. Yazdığım hər söz ustadlarla görüşür. Yazdığım hər söz üzünü görmədiyim və görməyəcəyim xələflərimə salamdır.

Söz də bir yoldur. Bizə gəlir, bizdən gedir. Bizləri Sənə aparan yola nur sal, Tanrım. Bu yolu Sən istəmisən.

Bu insanları Sən seçmisən, Tanrım.

* * *

Bədənim ruhuma dəmir qəfəs olanda neyləyim?

Bu ruhu zindandan necə qurtarım, Allahım?

* * *

Ömür bitər, bu eşq bitməz. Bədən bitər, ruh tükənməz. Zaman bitər, yol bitməz. Insan bitər, Tanrı bitməz.

* * *

Göy üzunə yayılan mənim eşqimin dumanı.

Gecələrimin sənsizliyi içində içi sökülü mən.

* * *

Uşaqlığım – sonunu bilmədiyim nağıllar. Yuxular, yuxular.

Gəncliyim eşq.

Yetkinliyim – Allaha ulaşmaq.

Budur mənim həyatım.

* * *

Mahiyyətində özüm olmayan sözü yazmadım. Içimdəki məmləkətdə Leyli var, Məcnun da. Mən həm Leyliyəm, həm Məcnun.

Mənim zərrələrim Sözlərimdir.

Sözlərim duyğularıma hamilə.

Içim qərib məmləkət.

Başımın üstündə Göy.

Və Tanrım.

* * *

Allahım, Mənə duyğularımı açıb göstərmə cəsarəti verdin. Gizli olanı üzə çıxardım. Sözsüz olanı Sözə çevirdim. Yazılmayanı yazdım. Türkcəmə daldım. Görünməyəni göstərdim. Mənə çatanları insanlara çatdırdım.

* * *

Gözümü açmağa qorxuram. Gözümü açınca gördüyüm dünyanı görməyəcəyimdən qorxuram.

* * *

Ölümün rəngi yoxdur. Bu rəngsizlik daha çox gerçəyin özüdür.

Doğum sevinmək və sevindirməkdir. Doğum mərasimdir.

Ölüm – utana-utana; mərasimsiz-filansız rəngsizliyə, səssizliyə çəkilməkdir.

Ölüm həyatın insanın bilmədiyi şərtlər içində davamıdır.

* * *

Hər gün eyni adam olmaq mümkünsüz. Hər gün eyni şeri yazmaq mümkünsüz. Hər gün eyni duanı oxumaq mümkünsüz.

Həyat keçdikcə yer kiçilir, göy üzü böyüyür.

Həyat keçdikcə zaman-zaman donur.

Həyat keçdikcə xatirələr çəkilməyən yük olur.

Həyat keçdikcə yaddaş insanın anası olur.

Həyat keçdikcə ilğımlar yoxalır, yaşanmışlar qəribə bir əlifba ilə içdəki lövhəyə yazılır.

Həyat keçdikcə yaşanmayacaqlar yuxu kimi insana hədiyyə edilir.

Həyat keçdikcə… Həyat keçirmi? Keçən nədir, Allahım?

* * *

Həyat intiqamdır. Insanın özünün özündən aldığı intiqam.

* * *

Dünyanın ən böyük Sözü belə işıq saça-saça gedir və qaranlıqda boğulur.

* * *

Sözün son məskəni çıxılmazlıqdır.

* * *

Bədənimin ruhuma yük olması məni hər şeydən çox incidir.

* * *

Ruhumu eşqimlə bəslədim.

* * *

Dünya işıq içində olsaydı, şerə ehtiyac qalmazdı.

* * *

Insan dönməyən, qayıtmayan hər şeyin dəli-divanəsidir.

* * *

Eşqim dərdim qədərdir.

* * *

Dəstə ilə mücadilə heyvan xislətidir.

* * *

Zamana sığmayan şairin zamana sığışdırılması şairin özündən çox şerə xəyanətdir. Şerdən də çox insanlığa xəyanətdir.

* * *

Sözün kabusu sözdür.

* * *

Bu dünya əvvəli itmiş, sonu cırılmış kitab kimidir.

* * *

Sübh vaxtı, dan çağı – savaş, döyüş səfəridir, gündüz – iş, gücdür, fəaliyyətdir, axşam – ziyafət, keyfdir, gecə – həzz və iztirab, eşq və kədərdir.

Dan yeri – türklərin, gündüz – firənglilərin, axşam – farsların, gecə – ərəblərindir.

* * *

Gecə – ulduzların öz gözəlliyini göstərməsi üçün bir bəhanədir.

* * *

Bu gecə yenə dərdimi çəkməyə yetməyəcək.

* * *

Ömrüm – yatmadığım gecələrin sayı qədərdir.

* * *

Bir şam ömrü bir dünya qədər şerdir.

* * *

Bir eşqə iki dünyasını qurban verən pərvanənin şerini - pərvanə – Füzuli yazacaq.

* * *

Ətri artdıqca ömrü tükənən gül mələklər qədər şerdir.

* * *

Su da torpaq qədər şerə layiqdir.

* * *

Tanrı Tanrı qədər şerdir.

* * *

Hər şeyimizi bölüşdük. Böülşməyəcəyimiz tək bir şey qaldı: Ölüm!

* * *

Insan gerçək gücünü təkləndiyi zaman bilir.

* * *

Məndə Allahın sirri var. O sirri deməmək mənə şer yazdırır.

* * *

Şer yalanı söylənmiş həqiqətdir. Həqiqətlərin həqiqəti.

* * *

Şer tənhalığın yetim qızıdır.

* * *

Bir an əbədiyyətin qəlibidir.

* * *

Mənim Sözümə güvənmə. An keçəcək. O, uçub gedəcək. Səndə qalan, Sözün ölgəsi olacaq.

* * *

«Insanlar həqiqətə deyil, həqiqətə bənzər şeylərə inanırlar» - deyir Əflatun. Insanlar həqiqətin özünə deyil, fəryadına inanırlar.

* * *

Xəyanət unudulmur, gizlədilir.

* * *

Tökülən yarpaqları yalnız tökülən yarpaqlar anlar.

* * *

Molla Nəsrəddin bir gün evdə sobanın bir tərəfində oturubmuş. Isti olur, keçib sobanın o biri tərəfində oturur və deyir:

- Bay, zalım oğlunun dünyası, gör bayaq hardaydım, indi harda…

Bir ölkədən başqa ölkəyə, bir iqlimdən o biri iqlimə keçəndə, əziz dostumu qəbrə sallayanda, axşam yatıb səhər duranda Mollanın o sözünü xatırlayıram. O biri dünya bizim dünyamızla bir yerdədəir, onları zərif bir pərdə ayırır. Elə zərif ki, onu keçib getmək olmaz. Keçib gedənlərin böyük bir qisminə biz hələlik dəli deyirik. Haqsızlığımızı sübut etmək mümkün deyil.

Sənət milli ruhun mayasını təşkil edir. Və sənət milli sədd, hüdud tanımır. Sənət torpaq kimidir, bir də, sənət başının üstündəki göy üzü kimidir.

Sənət həm təsdiqdir, həm də inkar.

Sənət yoxdan var olanla, vardan yox olanın vəhdətidir.

Bəzən obrazlı danışmağa can atan və obrazlarla danışan şairə adamın yazığı gəlir. Dilsiz uşağın gözlərində, kəlmələrində, hərəkətlərində ifadə olunan (nə qədər mümkünsüz ünsiyyət…) obrazlılığın yanında bu şair nə qədər yalınqatdır, bəsitdir – deyə bilmirəm. Bu yerdə mənim yadıma Füzuli düşür. Ölməz, diri, uşaq kimi dahi, dahi kimi uşaq Füzuli. Dahiliyin uşaqlıq dünyası Füzulidən başlayır. Anasını sevgili bilən yuxu adamı üçün cəmiyyətin minillik sərhəddi yoxdur (Mən Freydi yada salmıram. Freyddən çox qabaqlar yaşamışam – min il, on min il əvvəl). Istək var, istilik, məhrəmlik var, əlifbası olmayan sevgi var, anasını əmən uşaq var, sevən insan var. Anasından başlayır, Allahınacan yol gedir. Geri dönmür, geri dönsə, daşa dönər.

* * *

Dünyadan sıyrılıb çıxdım.

Insanlardan sıyrılıb çıxdım.

Özümə saplandım.

* * *

Allahın yaratdıqları içərisində ən utancaq varlıq Sözdür.

Söz Allahdan utanır.

Söz Insandan utanır.

Söz Özündən utanır.

Söz sözün xəcalətini çəkir.

Kirlənmiş, əprimiş sözlərin ağrısını Söz çəkir.

Söz olmaqdan çıxan sözlərin dərdini Söz çəkir.

Muğamın ah-naləsini çəkən də Sözdür.

Allahın adı da Sözdür.

* * *

Yazdığım hər Sözün dərdini çəkdim. Hər Sözün naz-qəmzəsini çəkdim.

Yazdığım hər Söz də mənim dərdimi çəkdi. Mənim nazımı çəkdi.

Dərd çəkə-çəkə dərdin özü olduq.

* * *

Mən gördüm. Hərəkəti də, sükunəti də eyni yerdə, eyni məqamda, eyni zamanda gördüm.

Mən Allahı, Insanı da elə gördüm.

Mən təzadları təzadsız, təzadsızları təzadlı gördüm.

Mən müsbəti mənfi, mənfini müsbət, sükunəti hərəkət, hərəkəti sükunət olaraq gördüm.

Mən faciədə məzhəkə, məzhəkədə faciə gördüm.

Gördüm. Mən onu gördum.

Dünyada nə qədər gözəl Sözlər var, Allahım.

Dünyada nə böyük şairlər var, Ilahi! Bu qədər Sözü hardan tapıblar, necə yazıblar?

Bu Sözlər, bu şerlər məni heyrətləndirir, vəcdə gətirir, uyudur, oyadır, ağladır, güldürür.

Bu Sözlər mənə dərd-qüssə qapısını açır.

Bu Sözlər məni ayaq dəyməyən, nəfəs yetməyən aləmlərə aparır. Vurğunam bu Sözlərə. Dəlisiyəm bu Sözlərin.

…Elə ki əlimə qələm alıram, şam işığı titrək-titrək yandıqca, Sözlər də titrək-titrək dünyaya gəlir, hər şeyi unuduram.

Bütün Sözləri unuduram. Oxuduqlarım, dinlədiklərim işıqda əriyən qaranlıq olub yox olur. Olmamız kimi qeybə çəkilir.

Dünyada öz Sözümdən başqa heç nə görmürəm. Öz Sözümdən başqa heç nə eşitmirəm. Görmək də, eşitmək də istəmirəm. O Sözlər çox uzaqlarda qalır. Öz Sözümün bəyaz gecələrini, aydın səhərlərini yaşayıram. Sözlərimin ürək səsini dinləyirəm.

Dünyadan heç nə istəmirəm.

Allahdan da heç nə istəmirəm.

Öz Sözümdə boğulmaq istəyirəm.

* * *

«Bu gözəl Sözlərin hansı çirkabdan gəldiyini bilsən, heyrətdə qalarsan» - deyib, dühalardan biri.

Gözəl söyləyib. Amma…

Bu gözəl Sözləri gözəl saxlayıb çirkin olan, adı çirkinliyə çıxanlar nədi bəs? Bu gözəlliyin qurbanları – körpəni ana bətnində qoruyub saxlayan çirkin adlanan hər şey o körpəyə hər şeyini verib çirkin olmuşlardır.

Sözlər – gözəllər qurbanlardan, şəhidlərdən süzülənlərdir.

Unutmayaq. Unutmayaq bunu.

* * *

Ölümdə ayrılıq yaşayır. Ayrılıqda ölüm.

Ürək islanır.

Eşq islanır.

Dünya üşüyür.

Şeytan gülümsəyir.

Allah görünmür.

Və boşluq, dibsiz boşluq.

* * *

«Musiqi Allahların dilidir» - deyən bütpərəstlər bir şeyi anlamayacaq – şairlərin dili şer dilidir, Allahın öz dili şerin üstündəki şer dilidir. Allah bu dildə vəhy, əmr, xəbər göndərir.

* * *

Mənə təmiz və gözəl olan hər şeyi Şer gətirir.

Məndən təmiz və gözəl olan hər şeyi Şer aparır.

* * *

Dərdsizlər dünyanın ən zavallı bəndələridir. Çünki onlar heç vaxt Şer yazmayacaq.

Və heç vaxt dərdli Şeri anlamayacaq.

* * *

Qanımda dolaşan Sözlər mənə şer söyləmək istəyir. Mən hələ o Sözləri eşidə bilmirəm.

* * *

Birdən dünyanın bütün sözlərini unuduram. Və yalnız qanımın bədənimdə dolaşan səsini dinləyirəm. Sözlərin acizliyinə acıyıram.

Və özümə acıyıram.

* * *

Izn verin yuxularıma inanım.

Izn verin xəyallarımı gerçək bilim.

Izn verin bu dünyanın adamı ola bilmədiyim üçün Sizdən üzr istəyib ayrılım. Həmişəlik.

* * *

Sən gecənin bir üzünü görmüsən. Gecənin o biri üzünü görmək sənə qismət olmayacaq. Gecənin o biri üzündə gecənin ağır kiprikləri qalxır. Gecə ağırlaşmış qara başını köksünə qoyur. Ağır-ağır nəfəs alır. Sinəndə nəmlik hiss edirsən. Gecənin göz yaşları sinəni isladır.

Gecənin o biri üzü gecənin öz üzüdür.

Sən o üzü görməyəcəksən. Və nə yaxşı ki, görməyəcəksən.

* * *

Dünyadakı bütün haqsızlıqlar, narahatlıqlar və narazılıqlar hər kəsin öz gücünün yerini bilməməyindən doğur.

* * *

Haqsızlıqdan haqsızlıq doğar.

* * *

Biz əzəldən gəlib əbədə gedənlərik.

* * *

Nə verdiklərini bilmədiyin adamın aldıqlarına darılma.
Nə verdiklərini bildiyin adamın da aldıqlarına darılma.

* * *

Maddi şəkildə itirdiyimiz heç bir şey itki deyildir. Itirilən yeganə şey xatirədir, yaddaşdır.

* * *

Sənət hər kəsin duyduğunu, gördüyünü, yaşadığını danışa bilmək – yaza bilmək, çəkə bilməkdir.

* * *

Toyuq kimi düşünüb qartal olmaq mümkün deyil.

* * *

Göyə qalxmaq istəyirəm – Göy uzaq,
Yerə girmək istəyirəm – Yer qatı.

* * *

Həyatın gözəlliyindən heç bir zövq ala bilmirəm. Həyatın çirkinliyindən iyrənmirəm. Sevinmirəm və kədərlənmirəm. Hər şey bitdimi?

* * *

Bir qəzəlin yolu qədər ömrüm qalıb. Bu yolu söz-söz gedəcəyəm. Beytin sonunda nəfəs alıb yenə gedəcəm. Yoluma Ay çıxacaq, Gün çıxacaq.

* * *

Baxıb keçəcəm.
Yoluma doğmalarım çıxacaq.
Baxıb keçəcəm.
Evdən, eldən, dünyadan keçəcəm.
Son beytə – beytülhəzənə yetişəcəm.

Baxacam. Heç kəsi, heç nəyi görməyəcəyəm.

Son Sözlə ağzımı bağlayacaqlar. Son nəfəslə gözümü sığayacaqlar.

Bir işıq sinəmə qonacaq.

Və məni Allaha aparacaq.

Son Evim yetim qalacaq. Sözlərim qırılmış mirvari boyunbağının dənələri kimi dünyaya səpiləcək. Yetim evin yetim Sözləri mənim olmayacaq. Özünü tapanların, özünü bilənlərin olacaq.

* * *

Sözün aldatdığı adamlara yazığım gəlir.

Sözün sərxoş etdiyi adamlar da yazıqdır.

Sözün ayıltdığı adamlar da.

Amma onlar da yazıq Sözü dünyaya gətirənlərdir.

* * *

Inan! Söz səni aldadacaq. Söz səni yazıq edəcək. Elə biləcəksən, Söz sənindir. Elə biləcəksən, Sözü sən yazdın. Elə biləcəksən ki, yazansan.

Və günlərin bir günü ayılıb görəcəksən ki, Söz səni aldadıb. Söz heç vaxt sənin olmayıb. Və sənin Sözlə bağlılığın uzaq və yalan bir ilğımdan başqa bir şey deyil.

Sözlər sənə gülüb gedəcək.

Sözlər sənə tüpürüb gedəcək.

Dünyanın ən yazıq, miskin adamı Sən olacaqsan.

Və günlərin bir günü bütün bunları bilmədən öləcəksən.

Sözlər uğunub gedəcək. Ağır cinayətlərinə peşman olub zülm-zülm ağlayacaq.

Yaş torpağın sənə heç vaxt inanmaması düşmənin üçün ən əziz torpaq olacaq. Mənasız nağıl bitəcək.

Vəssalam.

* * *

Nəyim varsa, hər şeyimi Sözə verdim. Sənə verməyə heç nəyim qalmadı.

Bağışlama məni. Heç nəyə layiq deyiləm.

* * *

Bardaş qurub içimə sığmayan içimdə oturmuşam. Önümdə bir qab su. Kiçik pəncərə. Pəncərənin içində azmız Ay, azmış ulduzlar…

Dörd yanımda sükut. Sükutun içində Allah.

Bu dünya bitib. O dünya başlamayıb.

Içimin içində oturub gözləyirəm. Nəyi? Kimi?

Bilmirəm. Və bilmək də istəmirəm.

Bilsəm nə olacaq? Bilməsəm nə olacaq?

* * *

Ölü balıq beli üstə – qarnı göylərə dənizdə üzür. Ətrafda diri balıqlar üzüşür.

Ölü balığın kipriksiz gözləri dənizin üstündə nə isə axtarır. Bu axtarış o qədər gücsüz və anlamsızdır ki, balığın özünə gülməyi gəlir. Və əlbəttə ki, gülə bilmir.

Diri balıqlar açıq kipriksiz gözləri ilə öz yeməklərinə baxırlar.

Allah da onlara baxır.

Və əlbəttə ki, onlar öz yeməklərini yeyirlər. Allaha şükr edib dənizdən dənizə gedirlər.

Ölü balığın ağ qarnı görünmür. Gözləri də düşüb dənizin dibinə gedir.

Dünyada bir balıq azalır.

Və Allah baxıb gülümsəyir.

* * *

Dünyada hər şeyin sayı var.

Dilin, dişin, ürəyin, barmağın.

Dağın, daşın, dənizin.

Nəfəsin də sayı var.

Simə toxunan mizrabın da.

Dodağa toxunan dodağın da.

Olanın da, ölənin də.

Imamın da, peyğəmbərin də, kitabın da, dəftərin də sayı var. Günün də, ayın da sayı var. Ulduzların da sayı var. Udulan loxmanın, suyun da sayı var.

Bu sayı sayan heç vaxt səhv etmir. Bu hesab həmişə hər yerdə düz çıxır.

Bu sayı, bu hesabı bilən tək varlıq Allahdır.

* * *

Ağlımın seçdiyini duyğularım seçmədi.

Duyğularımın seçdiyini ağlım seçmədi.

Ağlın yolunu tutmadım.

Bu günə düşdüm.

Çox şükür ki, bu günə düşdüm.

Ya Rəbb! Çox şükür. Dilimə nifrət edənlərə dilimi öyrənmək əzabı verdin. Dilimi cansız, ruhsuz rəqəm kimi öyrəndi. Amma öyrənməyə məhkum oldu.

Tariximə şər atanları, tarixi ləkələyənləri tariximi öyrənənlərin başına gətirdin. Baxa-baxa yanmağa, qovrulmağa məhkum etdin.

Gec ölmək, ancaq güc ölmək əzabına düçar etdin. Bildiyinə şükür, Tanrım.

* * *

Adəmdən əvvəl bəşər olduğuna inanıram.

Adəmdən əvvəl fərd olduğuna inanmıram.

Adəmdən əvvəl peyğəmbər olduğuna inanmıram.

Varlıq fəlsəfəsinin mürəkkəbliyinə inanıram.

Bəşərlə Adəm çoxsəsliliklə tək səsin üzvi vəhdətidir.

Varlığın, idrakın, fərdin, bəşərin böyük yaradanı Allaha inanıram.

* * *

Hər şey dəyişəcək. Inqilablar, tufanlar olacaq. Fırtınalar, qasırğalar olacaq. Seçkin insanların yaratdıqları gözəlliklər dünyanı süsləyəcək.

Bütün bunlar Insanın içindəki bir tərpəniş dəyərindədir. Sadəcə bir tərpəniş.

Bütün bunlar sonsuz dəyişmələrin sadəcə bir parçasıdır.

Və həyat davam edəcək.

* * *

Yağış yağır. Hər damla göylərin yanağından süzüldükcə, torpaq sevinir. Torpaq gözlərin göz yaşını bağrına çəkir. Uzun illərin həsrətini söndürür.

Yağış yağır. Damlalar göylərin dediyini yerə danışır.

Torpaq acgözlüklə damlaları oxuyur. Oxuyur, oxuyur, doymaq bilmir.

Yağış kəsilir. Göylərin məktubu bitir. Torpaq üzünü son damlaya qoyub uyuyur.

* * *

Dövlət hüquqdur. Gerçəyincə hüquq dövlətdir. Gerçəyindən ayırmaq olmaz.

Hüquq dövləti vətəndaşdan qorumaqdan daha çox, vətəndaşı dövlətdən qorumalıdır.

Bir şairin hüquq düşüncələrinin olması onun yerdə yaşaması ilə bağlıdır. Toplum içində olması ilə ilgilidir.

Şair səhv edə bilər. Təki hüquq və dövlət yanılmasın.

* * *

Mən Sözün varlığını gördüyüm qədər, onun yoxluğunu da görürəm. Sözün yoxluğu onun var olmaması demək deyil. Sözün yoxluğu onun görünməyən dünyasıdır. Və ya hər kəsin görə bilmədiyi bir aləmdir.

Sözün görünməzliyi yalnız onun haradan-haraya uçduğu deyil, həm də haralara uça biləcəyidir, nə qədər hərəkət etdiyi deyil, nə qədər hərəkət edəcəyidir.

Sözün görünməzliyi Sözün sonsuz ilişki imkanıdır.

Sözün görünməzliyi Sözün bilinməyən sehri, qüdrəti və gücüdür.

Mən Sözün keçmişini gördüyüm qədər də, onun gələcəyini görürəm.

Mən Sözün kökünü, şaxələrini, keçdiyi dolanbac yolları, törəmələrini, qohumluq çevrəsini görürəm.

Mən Sözün sevincini, xürrəmliyini, məstliyini, ayıqlığını, duyarlılığını gördüyüm qədər də Sözün kədərini, dərdini, möhnətini, yuxusunu, fikrini, düşüncəsini görürəm.

Mən Sözü olduğu qədər də olmadığı qədər görürəm.

Mən Sözü görürəm.

Mən Sözü eşqim qədər görürəm.

* * *

Insanın əsrlər boyu çəkdiyi məşəqqətin bir ana səbəbi var: əlacı çöldə axtarmaq, dışarıda gəzmək.

Insan bütün əlacları içində, daxilində, batinində aramaq yolunu tutduğu vaxt xilas olacaq. Insan xilas olduğu vaxt insanlıq da xilas olacaq.

Isti məmləkətlərin soyuğunu, şaxtasını gördünüzmü?

Isti diyarların buzunu, qırovun duydunuzmu?

Bunu qürbətdə yaşayanlardan sorun.

Istinin soyuğunu qəriblər bilir. Gecələrin istisində soyuqdan büzüşən qəriblər bilir.

* * *

Sənət adamları iki yrə ayrılır. Allahdan eşitdiklərini insanlara danışanlar və insanlardan eşitdiklərini Allaha danışanlar.

* * *

Yerdən göyə və göydən yerə. - Sənətin yolu bu qədər sadə və aydındır.

* * *

Sənət cəsarətdir. - Ilahi duyğunu gerçək şeyə çevirmək cəsarəti.

* * *

Roma prokuratoru Hz.Isayi-Məsihə «O, şairdir…» - deyir. Zalımlar, bütə tapınanlar Hz.Məhəmmədə (s.ə.s) «O, bir şairdir» (Quran, Ənbiya surəsi, ayə 5) hökmünü verirlər.

«Şüəra» surəsində şairlər və şer haqqında deyilir:

«Şairlərə (Peyğəmbəri həcv edən müşrik və kafir şairlərə) gəlincə, onlara yalnız azğınlar uyar! (224).

«Məgər görmürsənmi ki, onlar hər bir vadidə sərgərdan gəzib dolaşırlar? (Hər tərəfə meyl edir, müxtəlif mövzularda istədiklərini yazıb birini yalandan mədh, digərini isə əbəs yerə həcv edirlər!)» (225).

«Və onlar etmədikləri şeyləri deyirlər! (Onların dediklərinin əksəriyyəti yalandır!)» (226).

«Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən və zülmə uğradıqdan sonra intiqamını alanlardan (onları həcv edən müşrik, kafir şairlərə öz mənzumələri ilə qələbə çalan mömin şairlərdən) başqa! Zülm edənlər (Allaha şərik qoşanlar, küfr edənlər öləndən sonra) hara düşəcəklərini mütləq biləcəklər!» (Onların məskəni Cəhənnəm, əzabları isə sonsuzdur!) (227).

«Biz ona (Məhəmməd əleyhissəlama) şer öyrətmədik və bu ona heç yaraşmaz da (lazım da deyildir). Ona vəhy olunan ancaq öyüd-nəsihət və (haqla batili ayırd edən) açıq-aşkar Qurandır ki, onunla ağıl və bəsirət sahiblərini qorxutsun və deyilən söz» (əzəldən buyurduğumuz əzab hökmü) kafirlər barəsində gerçək olsun (Yasin surəsi, 69-70).

«Və: «Biz heç divanə bir şairdən ötrü Tanrılarımızı tərk edərikmi?!» - deyirdilər» (Saffat surəsi, 36).

Yenə də Peyğəmbərimiz şair sayılır, özü də Məcnun şair.

«Yoxsa onlar (sənin barəndə): «O şairdir. Biz (ruzigarın gərdişi nəticəsində) onun başına gələcək müsibəti (ölüb getməsini) gözləyirik!» - deyirlər (Tur surəsi, 30).

«O, şair sözü deyildir! Nə az inanırsınız!» (Haqqə surəsi, 41).

Peyğəmbərimizin şair deyil, elçi-uyarığı, xəbərdaredici olması, Quranın şair sözü deyil, Allah Kəlamı olması dəfələrlə buyurulur.

Hər halda, əsl şairlər peyğəmbərlərdən sonra gələnlərdir.

Könlünə haqq ilham etmiş bu seçkin insanların ən seçkinlərindən biri Füzulidir.

Şair türkcə Divanının dibaçəsində yazır: «O yaradan sənətkar ki, hər şeyi vaqif gözəllik qələmi ilə can lövhəsinə əzəldən ruha zövq verən nəzm həruriyyətini yazmışdır, şerin kamillik kəsb etməsi onun yardımı olmadan mümkün deyil. Ona minnət ki, nəzm təbini lütf etmiş, mərhəmət göstərmişdir (sadələşdirilmiş mətndən)».

Yenə şair yazır: «Şer bizim kimi naqislər, yarımçıqlar üçün bəzəkdir, ziynətdir. O ki kamildir, bütövdür. Bəzəyə möhtac deyil».

Fəqət «təbinin üfüqlərindən gözəllik ayı doğan» şair şerin bünövrəsini elm bilmiş, «Elmsiz şer əsası yox divar olur. Əsassız divar isə nəticədə etibarsız olur» deyərək farsca rübaisində yazır: «O əhmədi-müral ki, dünyada hər nə varsa, onun yaradılışının tüfeylisidir, şerin dərəcəsi ondan yüksəldi və onun peyğəmbərlik cövhərinin məhək daşı oldu».

Şairin qorxusu cəhalətdir. Cahillik yalnız cəhalətin meyarı ola bilər. Şair yazır:

Şer zövqindən olmayan agah,

Əhli-nəzmi məzəmmət eyləməsin

Kəndi cəhlinə etiraf etsin,

Hər kəramətə sehr söyləməsin…

Görünür, «şeri məcnunlaşdıran» (M.Ə.Rəsulzadə) Füzuli Quranın «Hər şey öz əslinə dönəcək» hökmünə uyaraq əbədi kəlamlara dönmüş, sonsuzluğa qovuşmuşdur.

* * *

Allahın Peyğəmbərimizə vəhylərindən biri belədir: «Əgər əsirlər sənə xəyanət etmək istəsələr, (bilsinlər ki) bundan (Bədr vuruşundan) əvvəl Allaha xəyanət etmişdilər. Allah (sənə Bədrdə onlardan intiqam almağa) imkan verdi. Allah (hər şeyi) biləndir və hikmət sahibidir!» (Ənfal surəsi, 71).

Füzuli bunu gözəl bilirdi və ömrü boyu heç kəsdən incimirdi, heç nəyə üzülmürdü. Dünyaya da, insana da ucalardan baxırdı. Ucalarda Söz var idi. Imkan da, qüdrət də Sözdə idi.

Sözü Allah vermişdi.

* * *

Allah Insandan əvvəl Eşqi yaratdı.

Allah Insandan əvvəl Sözü yaratdı.

Allah dünyada hər şeyi Insan üçün yaratdı.

* * *

Bütün dünyanın açarını Allah Insana verdi. Allah Insanı sevdi və Insanın da onu sevməsini istədi.

* * *

Dini irticanın yaddaşında qan var, inkvizisiya var, zor, ölüm, basqın var.

Dini irtica dinin deyil, irticanın bir növüdür. Din kəlməsi orda bir pərdədir. Bu pərdə zoru, zorbalığı örtmək, gizlətmək üçündür. Qanlı bıcağı Quranın arasında saxlamaq Quran kəlamı qarşısında ən böyük günahdır.

Yetim qoyulmuş cocuqların göz yaşını Tövratın vərəqləri ilə silmək yalnız Tövrata deyil, ilahi olan hər şeyə sayğısızlıqdır, dinsizliyin bir növüdür.

Dini irtica dinsizlikdən də dəhşətlidir.

Din – Allaha eşqin ifadəsidir.

Din Allaha gedən yolun idrakıdır.

Din şərəfdir.

Irtica şərəfsizlik.

Şərəfli şərəfsizlik olmadığı kimi, şərəfsiz şərəf də yoxdur.

Özümüzü aldatmayaq. Aldadanlara aldanmayaq. Dünyaya Füzuli gözü ilə baxaq.

* * *

Mənə ulduzlar qədər uzaq, ulduzlar qədər də yaxınsan. Aylar, illər keçəcək, dərd üstünə dərd gələcək. Allahın verdiyi hər şey mənə bir-bir vida deyəcək. Amma mən, yalnız bir dərdə ağlayacam. Mən ancaq sənin üçün göz yaşı tökəcəyəm. Itirdiklərimin əzəli və əbədi olanı sənsən. Nə itirmişəmsə, nə itirəcəmsə, səni istəyirəm.

Mən sənə, sənə ağlayıram.

Sənsizliyində boğuluram, ölürəm. Mənsizləşirəm. Heçlikdə heç oluram.

* * *

Günəşin qovurduğu səhralar kimiyəm. Ürəyim eşq yanğısı içindədir. Bağrım çatlayır. Ayrılıq qanıma susayıb.

Görmək istədiyim – dünyalar qədər uzaq, dünyalar qədər yaxın.

Bu uzaqlıq məni çatladır.

Bu yaxınlıq məni ürküdür.

Ruhum bədənimdən utanır. Bədənim ruhumdan küskün. Eşq təşnəsiyəm.

Qovuşmaq istəyirəm. Vəhdət istəyirəm.

* * *

Ölənlər öldü. Biz qaldıq. Lütfdürmü? Cəzadırmı – bilmirəm. Biz daşıyırıq. Ağlayırıq, gülürük, sevirik, nifrət edirik. Yazırıq, pozuruq. Zamanın içindəyik. Onlar Zamana dözmədilər. Zamana sığmayanlar da oldu. Zaman daşdı və onlar qeyb oldu. Yoxmuş kimi.

Onlar haqqa qovuşdular. Onlar xilas oldular.

Biz hələ yaşayırıq. Aldadırıq, aldanırıq, bir az özümüzü sevirik, bir az övladlarımızı, bir az yazıları, kitabları, bir az da Allahı.

Dünyanı gəzirik. Insanları sınayırıq. Bizi sınağa çəkirlər. Bezirik, vuruluruq. Bir-birimizin qanını içirik. Hər yazını odlu silah kimi hazırlayırıq. Yazının gücünü öldürmə gücü ilə ölçürük.

Söxün dua gücünü unutmuşuq.

Bu dünyaya vurulmuşuq.

Şöhrət ocağından asılmışıq.

Allahla aramızdakı yolu salıb itirmişik.

Dostların ruhu bizi həmişəlik atıb gedib. Kiminsə üzünün suyuna yaşadığımızı unutmuşuq.

Çörəklə, torpaqla imtahana çəkilən xalqın qarğış yeri olmuşuq.

Azadlığı dışımızda axtarıb, içimizdə qul olmuşuq.

Özümüzə çarmıxa çəkilmişik.

Özümüzdən düşürük. Biz düşdükcə torpaq da düşür. Düşürük, düşürük, düşürük.

* * *

«Allah göylərin və yerin nurudur» (Quran, Nur surəsi, 35).

Işıqlar işığı Sənsən, Tanrım.

Insan qəlbinə atılan nur haqqa yetişməyin yeganə yolu.

Hz.Adəmdən Hz.Məhəmmədəcən Allahın söz nuru ilə yaratdığı peyğəmbərlərimiz.

Nurun həmən sahibi Hz.Məhəmməd oldu.

Içimdəki nuru tapdım, Allahım.

Ilazi feyzə qovuşdum, Tanrım.

* * *

Göylərdən görünən yerə yazığım gəlir.

Yerlərdən göyə həsəd çəkirəm, həsrət qalmışam.

Bir dağın başına çıxıb son dəfə bar-bar bağırmaq istəyirəm. Sonra ruhumu bədənimdən azad edib göylərə çəkilmək istəyirəm.

Yerdən doydum. Yeri istəmirəm.

Göyü istəyirəm. Sonsuzluğu istəyirəm. Tənhalığı, yalqızlığı istəyirəm.

* * *

Unut məni, quzum. Unut məni, gözüm. Qaranlığa daşan işıq görüyünü unut. Bitməyən yuxu kimi, olmamış olan kimi unut məni.

Əlindən salıb sındırdığın büllur qab kimi məni sınmış, çiliklənmiş bil. Məni bitmiş bir nağıl bil. Azmış bülbül, solmuş gül bil, yağıb qurtarmış yağış bil.

Yaza çıxmayan qış bil.

Qurumuş göz yaşı bil.

Susmuş kaman, ötməyəcək saz, çıxmayacaq səs bil.

Zamanı keçmiş fəryad kimi məni unut. Dişləri çıxarılmış qurd, gözləri tökülmüş qızılquş, axtalanmış at kimə lazım.

Lütfən, məni unut. Məni unutmaqla xila set.

Ən gözəli məni unutmaq. Həmişəlik unutmaq.

Bir işıq gördün. O işıq artıq yoxdur.

Bir səs eşitdin. O səs yoxdur artıq.

Bir ətir duydun. O ətir də yox.

Heç nə yox. Yoxmuş kimi yox.

Ağlama. Qəm yemə. Hər şey keçib gedər.

Unut məni.

* * *

Yarpaqlar ağacda can verir. Uça-uça ölümü qarşılayır. Son dəfə torpağı öpüb vida deyir.

Son baharın ahını dinləyən ağaclar qərib-qərib baxır.

Ilk baharda başlayan bir eşq hekayəsi qırılır. Hər tərəf bu qırıqlığın matəmi içindədir.

Və sonra uzun bir sükut gəlir.

Və sonra boran, şaxta, qar.

Uzun yuxular. Bitməyən həsrət.

Bitməyən eşq.

* * *

Füzulinin dilində türkcənin keçmişi və gələcəyi var.

Keçmiş dilin qan yaddaşıdır; Nitqin qazandıqlarının dilə gətirdikləri sərvətdir, dəyərdir. Türkcənin yazıda və ağızlarda cilalanan normaları, qəlibləri, forma və məzmun modelləri Füzuli üçün zəmindir.

Füzuli dilinin keçmişində Orxon-Yenisey var, naməlum şair Cuci var.

Bu keçmişdə uyğur ədəbi mətnləri var.

Y.Balasaqunlunun «Kutadqu bilik»i, Y.Əmrə, Nəsimi, Nəvai, Babu, Kişvəri, Q.Bürhanəddin, Xətai… var.

Füzuli sözündə «Kitabi-Dədə Qorqud» dil təcrübəsi var. Saysız-hesabsız dastan, nağıl, atalar sözü, türkü, qoşma… Füzuli sözünü yetirən bərəkətli torpaqdır.

Füzuli özünəqədərki türkcənin yekunu, bütöv bir mərhələsi, misilsiz mənzərəsidir.

Və Füzuli dili özündənsonrakı türkcənin mayasıdır; gələcək nitq çeşidlərinin üslubların, poetik rəngarəngliyin bünövrəsidir. Bu invariantdan törəyəcək variantlar nitq təcrübəsindən keçə-keçə dildə yekunlaşacaq və bir məhvərdə birləşəcək, türk dili adlı fenomeni gerçəyə qovuşduracaq. Böyük Quranın nuru içindədir Füzuli. Göylərdən, tarixdən, gələcəkdən gələn bir gerçək danılmazdır.

Füzuli türkcənin dinidir. Bu din son dindir və dəyişməyəcək əbədi dindir.

Füzuli dili aydınlığın aydınıdır. Hissin ağlı, ağlın hissi bu dildədir.

Füzuli dili sirlərin və sirri yalnız Allah bilir.

* * *

Dünyada hər şeyin adı var. Və adların zamanı yoxdur. Adlar sonsuzdur.

Dünyada hərəkət var. Hər şeyin içində hər şeyin hərəkəti sonsuzdur.

Hərəkətin zamanı var.

Allahın yaratdığı adlar var. Bu adlar əbədidir, bəşəridir və ilahidir.

Insanın yaratdığı adlar var. Bu adlar ayrı-ayrı insan toplusunun içindədir.

Allahın verdiyi ilahi hərəkət var. Küll və cüz bu əbədi hərəkət içindədir.

Insanın yaratdığı hərəkət var. Bu hərəkət insanların məhdud dünyası üçündür.

Adların və hərəkətin qanunları var.

Insan adları və hərəkəti öyrənib dərk edəndir.

* * *

Dünya dediyin şey mənim dünya haqqında bildiklərimdir. Bu dünyanı zaman-zaman dağıdıram, zaman-zaman qururam, əzizləyirəm, sevirəm, nifrət edirəm, boyunu bəsləyirəm, dəli kimi vurğun kəsilirəm, bal kimi şirin bilirəm, zəhər kimi acı.

Dünya mənimdir.

* * *

Modernizm dünyada olan hər şeyin yeni sırasını tapmaq, baxış bucağını dəyişmək, dəyərləri yenidən müəyyənləşdirməkdir.

Modern düşüncə yeni çağın yeni sintaktikası və yeni semantikasıdır.

* * *

Qapılardan biri qapanmasa, o birisi açılmır. Dünya evinin qapıları belədir; könül evinin də.

* * *

Məhəbbət və qorxu Allaha bağlılığın yoludu.

Eşq cazibədir, ruhi bağlılıqdır. Könül bağları ilə ulu Yaradanla ünsiyyətdir.

Qorxu-ilahi qorxudur. Yer üzünün insana və şeytana xas bütün qorxularını yenmək üçün Allahdan qorxu yeganə xilas yoludur.

Allahdan qorx.

Və ürəyini Allahla bağla.

* * *

Bu dərdi Allah göndəribsə, mən dərdimi kimə deyim? Kimdən deyim? Kimə deyim?

Dərd də bir qismətdir. Qismətdən kim qaçar ki?

Hər şeydən qaçaram. Özümdən qaçmaram.

Allahımdan hara qaçım?

* * *

Qapım açıqdır, gəl içəri.

Ruhum sənə əmanətdir, gəl içəri. Bəlkə məni tanımayacaqsan, qəm yemə, gəl içəri.

Günəş qürub edir, hava soyuyur, üşüyürsən, gəl içəri. Isinməsən də gəl.

Tanrı vuran qapılar açıq qalır. Gələn gəlir, gedən gedir. Külək əsir, gün yandırır, quşlar ötür, otlar ağlayır, güllər gülür.. nə vecinə, gəl içəri.

Bir az mənimlə üşü, bir az mənimlə qızın. Bir az məni yadına sal. Istərsən qal, istərsən get. Gəl içəri.

Içəridə məni görməsən üşənmə, qorxma. Ağlama, gülüm, ağlama. Yuxular da bir gerçəkdir, gəl içəri.

* * *

Qanımda keçənləri duyuram. Qanımda köçləri duyuram. Ağır karvanların uzaq-uzaq yürüşləri hardan gəlib hara gedir, Allahım. O ağır karvandakı sarvanları görürəm. Oğul-uşaq səsini eşidirəm. Gecələr çalınan sazlar qanımda qayım-qayım qaynayır.

Uzaq ellərin doğma karvanından süzülüb gələn sözləri kəlmə-kəlmə içimə sindirirəm. Qanımdan gələn yovşan iyi burnumda tütüyür. Qanım bədənimdə dolaşdıqca, o karvan da dünyada dolaşır – Günbatandan Gündoğana.

O karvanın qərib yolçuları atamdır, anamdır, babamdır, nənəmdir, oğlumdur, qızımdır, nəvəmdir, mənim Allahım.

O qan axdıqca o karvan gedəcək. O karvan getdikcə, o qan axacaq.

Qanım axır, karvan gedir.

Allah baxır. Allah görür. Allah bilir.

* * *

Zaman - Allahdır.
Allah özü Zamandır.
Zaman Allahın sifətidir.
Zaman da Allahın adıdır.

* * *

Mənim sözüm hissəsi olduğum gücün bütünündən işıq alır.
Mənim sözüm özümə dönən yoldur.
Mənim sözüm dərdimin dili, dünyanın əks-sədasıdır.
Mənim sözüm ümid, körpü, həyəcan, sarsıntı və eşqdir.

* * *

Insanlara təslim olmadım.
Ağırlığa təslim olmadım.
Günahlarıma təslim olmadım.
Ölüm qorxusuna, həyat nəşəsinə təslim olmadım.
Sözə də təslim olmadım.
Imanıma təslim oldum.

* * *

Şerim mənim kimliyim.
Şerim mənim evim.
Şerim mənim qəbrim.

* * *

Şerimi Allah üçün yazdım.
Bəndələr məni bağışlasın.

* * *

Dediklərincə var imiş.

* * *

Sözlərimin haralardan, hansı əzabla, necə gəldiyini bilsən, sarsılarsan. Məni oxumağa qıymazsan. Mənə yazığın gələr. Və məni ömrün boyu ağlarsan.

* * *

Qanunu ağıllılar yazır.

Güclülər tətbiq edir.

Gücsüzlər əməl edir.

* * *

Mən təzadların övladıyam. Isti ilə soyuq, dərdlə sevinc, eşqlə nifrət sonlu ilə sonsuz, göz yaşı ilə qəh-qəhə, dostla düşmən… qütblərin, sınırların içindəyəm. Və bu sınırlardan, qütblərdən dünyalar qədər uzağam. Gün kimi, su kimi, təbiət kimi dəyişənəm və dəyişməzəm.

Təzadlar mənim içimdə, varlığımda. Təzadlar mənim beynimdə, fikrimdə, duyğularımda. Təzadlar mənim dışımda.

Təzadlar mənim uyumum, tarazlığım.

Təzadlar mənim uyumsuzluğum, dəngəsizliyim.

Təzadlar mən özüm. Üz-üzə gəlib dağılan, üz-üzə gəlib dayanan təzadlar dünyası mənim dünyam.

Mən təzadların övladıyam.

Təzadlar mənim övladım.

* * *

Hara gedirsənsə get, dünyanın harasında olursansa ol, 2-3 qulac torpaq səni səbirsizliklə gözləyir. Gözləməkdən gözünün kökü saralıb bu qara torpağın.

Hara gedirsənsə get. Taleyindən qaça bilməzsən. Bu taleyin bir adı da gözünün kökü saralmış 2-3 qulac qara torpaqdır.

* * *

Fəryadımı eşitməz olmusan. Məni görməz, duymaz olmusan. Məndə yalnız sən qalmısan. Səndə məndən bir zərrə yox. Işıqda boğulmuşam, aydınlıqda yox olmuşam.

Bir yox bir vardan nə umar, nə istər, Allahım?

* * *

Qadını Peyğəmbərimiz sevən kimi sevərlər. Qadını Peyğəmbərimiz ucaldan kimi ucaldarlar. Gözəlliyi Peyğəmbərimiz görən kimi görərlər, duyan kimi duyarlar.

Bir damlada sonsuzluq ülviyyətini Peyğəmbərimiz tapan kimi taparlar.

Həmd olsun.

* * *

Heç kəsə, heç nəyə nifrət etmədim. Mənə nifrət edənlərə də nifrət etmədim. Özümü nifrətin verdiyi gücdən məhrum etdim. Sevdim və sevə bildiyim qədər sevdim. Və sevginin o biri üzü nifrət olaraq özümə qaldı.

* * *

Eşq – görünməyən bir qüvvənin səndən aldığı intiqamdır.

* * *

Qara xəbər ildırım kimi gəlir, sevinc sürünə-sürünə.

* * *

Eşqlərin ən gözəli yaşanmamış eşqdir.

* * *

Dərd dərdi yeyir. Sonda tək bir dərd qalır. Əsl dərd – o son dərddir.

* * *

Ağrı bədənin, dərd ruhundur.

* * *

Kiçik ağrı böyük ağrıdan çıxılır. Kiçik dərd böyük dərdlə toplanır.

* * *

Sehr ilə biganə etdin aşinalardan məni.

* * *

Xəyallarım xəta, arzularım günahım, Cəzam ayrılıq, möhnət, hicran. Dözmək səvabındır. Dözməlisən. Döz, Füzuli.

* * *

Xəstənin ən yaxşı dostu ağrısıdır. Hər kəs onu unudur. Ağrıdan başqa.

* * *

Allahım, keç günahımdan. Mən, əslində, yazılmayacaq dərdləri yazıram. Dilsiz dərdləri Sözə gətirmək günahdır.

* * *

Ən yalançı göz aldandığın gözdür.

* * *

Bütün gözəlləri doğan sənsən, ey yalan.

* * *

Hər kəs öz dilində Allaha ulaşa bilir. Islam insandan – Məndən başlayıb ilahi ucalığa yüksəlməkdir. Mənim içimdə qurduğum islam dünyasının ana dili türkcədir. Dünyagörüş dillərim ərəbcə, farscadır. Ərəbcəyə din dili, elm dili deyirlər. Böyük Quranı oxudum. Ərəb şerini oxudum. Ərəbcə yazıb-yaratmaqda şərəf duydum. Farscaya şer dili deyirlər. Rudəkini, Sədini, Hafizi oxudum. Farsca yazıb-yaratmaqda qüdrət duydum. Türkcə hünər dilidir. Mən öz dilimdən görünməkdən güvənc duydum. Mən öz dilimi göstərməkdə qürur duydum. Mən Allahıma türkcəmlə ulaşacağam. Tanrım, türkcədən Sənə gələn yolu açıq eylə!

Allahım, mənim söylədiyim sözlər səma sözləri deyil. Vəhy də deyil. Göylərdən enmiş kəlamlar da. Amma, Tanrım, mənim sözlərim vərdiş də deyil. Təkrar da deyil. Sözdən gələn sözlərdən də deyil. Mənim sözlərim yalnız Sənin sözlərindən kiçikdir. Bütün sözlərdən böyükdür.

Mən sözlərimi Sənə söylədim. Mənim sözlərim yerdə doğulsa da, üzləri göyədir, Sənədir, Rəbbim! Mən söz çeynəmədim. Sənə dualar etdim. Bu sözlər mənim dualarımdır. Yazdı-

ğım bu şerlər Sənə ibadətimdir. Dilimin ustadlarını öyrəndim. Dilimdəki sərraflığı, zərifliyi öyrəndim. Dilimlə yatdım, dilimlə oyandım. Yuxularımı dilimin içində gördüm. Şüurum da, alt şüurum da ana dilimlə yoğruldu.

Səni dilimlə tapdım.

Sənə dilimlə tapındım.

Içimi, dışımı dilimə həkk etdim. Səni dilimə həkk etdim. Ruhumu dilimə köçürdüm.

Dilimin hər bucağında səni görüdm. Eşqimin hər harayında sənə üz tutdum.

Səni ana dilim kimi, ana dilimi sənin kimi sevdim, sevdim, sevdim, sevdim.

Tanrım, məni bu ucalığa qismət elə!

Tanrım, məni bu ucalığa layiq elə!

Tanrım, mən iki dünyada yaşayıram. Iki dünyada baxıram, qorxuram, görürəm, duyuram, düşünürəm. Görülən, duyulan dünya da mənim dünyamdır. Görünməyən dünya da mənimdir. Hər iki dünya mənim varlığımda birləşib. Xəyalımda qurduğum dünyamla gerçək dünyam ayrılmazdır, bölünməzdir. Mən hər iki dünyamın ortaq vətəndaşıyam.

Hər iki dünyada başımın üstündə olan Sənsən, Tanrım! Qanımda, canımda olan Sənsən, Rəbbim!

Mənim və hamının olan dünyalarda yaşamaq da bir qismətdir.

* * *

Ağlın yolu bir, hissin yolu min. Ağıl arayır, yol göstərir, mümkün olanla mümkünsüzlüyün sırasını tapır. Gələcəyə baxır, keçmişi arayır. Ölçür, biçir, hesablayır, zamanlayır, məkanlayır.

Hissin yolu min, neçə min. Ilğımlar görünür, itir, yuxu həyata, həyat yuxuya qarışır. Bir anda gördüyünü bir andaca itirirsən. Rənglər dəyişir, itir, görünür, yenidən itir. Dünya kiçilib bir damla olur. Bir damla böyüyüb bir dünya olur.

Ağıl yoldur. Hiss burulğan. Düşürsən və çıxa bilmirsən. Səbəbləri bilmirsən, niyələr, nə eylərlər o biri sahildə qalır. Varlığını, çəkisini itirirsən. Başqa bir insana köçürsən, onda yaşayırsan. Və içində başqasını özününkü edirsən. Iki can bir olur. Ölümlə həyat arasında sərhədlər silinir. Zaman kiçilir, Məkan böyüyür. Məkan sonsuzluq qədər kiçilir, zaman-zaman yox olur, zaman arta-arta böyüyüb hüdudsuzluğa çevrilir.

Hiss – yerlə göy arasında fərqsizlikdir. Ölçüsüzlükdür, hesabsızlıqdır. Şair hisslə ağılın həmhüdudunda yaşayan varlıqdır. Ustad bunu bilirdi. Ustad bunu da görə bilirdi ki, ağıl da, hiss də Allahın verdiyi qüdrətdir. Ağıl yerdir, hiss –fəza, sonsuzluq.

Ustad yerdə yaşayıb göyə çəkiləcək varlığın halını yaşayırdı.

Ağılla, məntiqlə gəldiyi məqamı hissin dumanından kosmosa çevirmək, sonsuzluğa qovuşmaq, bədənlə ruhun ahənginə, ahəngsizliyinə qovuşmaq kimi bir həsrət, istək ustadı içinə sarmışdı.

Ağlın zirvəsi elm, hissin zirvəsi şer. Ağlın məramı qanun, qanunauyğunluq, sıra, düzüm. Hissin məramı sırasızlıq, məqamsızlıq, qanunsuzluq, sıra, düzüm. Hissin məramı sırasızlıq, məqamsızlıq, qanunsuzluq.

Füzuli bu dünyaların ikisində də yaşayırdı.

Ərəstun, Əflatun, Sokrat, Plutarx, Farabi… - ağıl dünyası.

Füzuli onları birər-birər oxumuş, düşünmüş, dərk etmiş, nələrisə tamamlamış, nələrisə inkar etmişdi. O müdriklər Füzulinin ağıl dostları, qardaşları idi. Dünyanı ağılnan bulmuş bilgələrlə omuz-omuza yaşamaq, bu dünyanı dərk etmək, səbəbləri tapmaq – bu da Allah yoludur.

Füzuli bu yolun yolçusuydu. «Mətləül-etiqad» bu qərib yolçunun elmə bağışladığı ağıl ərmağandır. Dibaçələr sözün qanı, canı haqqında dərindən dərin elmi düşüncələrdir. Fəqət –

Elm kəsbilə rütbyi-rifət

Aruzyi-məhal imiş ancaq.

Eşq imiş hər nə var aləmdə

Elm bir qiylü qal imiş ancaq…

Allah Füzulini elm üçün yaratmamışdı.

Hiss, duyğu yolu Füzulini çəkib uzaqlara, Allaha gedən yola çıxarmışdı. Allaha çatmağın, erişməyin yolu eşq imiş.

Hissin tufanı, cövlanı, sonu və sonsuzluğu eşq imiş.

Bu dəli eşqin içində ağıl nə qədər zavallı, köməksiz idi.

Eşq uçmaq, o biri dünyalara getmək hüququydu.

Yaranışdan eşq üçün doğulmuş Füzuli ağıl yolunu yaşamış, ona sığmamış və gec-tez gələcəyə yola çıxmışdı.

Eşq dəryasının kimsəsizliyinin üzü ilahi varlığa doğru idi. Bu yolun nə zaman, harda bitəcəyini kimsə bilmirdi.

Eşq dünyasında hər şey anlamını dəyişir. Füzuli bu dəyişmiş, özgələşmiş dünyanın adamı idi. Və o, dünyanı dilə, sözə çevirirdi. Ilahi dünyadan xəbər gətirirdi. Insanın dünyasındakı sonsuzluq Füzuli sözündə yeni dünya, yeni insan idi.

Bu da körpü. Keçirsən və yeni dünya, yeni insana qovuşursan.

Füzuli səni aparacaq.

Yolun uğurlu olsun, yolçu…

* * *

Tanrım, sevməyi Səndən öyrəndim. Eşqi Səndən aldım. Allahım, mən Səni Sən məni sevdiyin qədər sevdim.

O sevgidən, o eşqdən uca, böyük nə var ki?!

Allahım, mənə sevməyi öyrətmədin, mənə öz xassəni verdin. Mənə özündə olan ən ülvi, ən əziz olanı verdin.

Şükür böyüklüyünə, Tanrım!

Mən Sənsiz, Sənin verdiiyn eşqsiz heç nəyəm, heç kiməm, yoxam. Və varlığımı Səndə arayıram, Səndə tapıram.

Məni Sənə səsləyən, məni Sənə aparan Sənsən!

* * *

Allah onu xoş saatında, xoş məqamında yaratmışdı.

Peyğəmbərə vəhy verən Allahdır.

Şairə ilham verən Allahdır.

Bəs Allaha xoş saatı, xoş məqamı verən kimdir?

Bəlkə Allah da özündə doğub özündə batan işıqdır?

Bəlkə Allah da hiss və ağıl deyilən dünyaların vəhdətidir?

Bəlkə Allah…

Füzuli düşünürdü və bu düşüncələr onu alıb uzaqlara, çox uzaqlara aparırdı.

* * *

Inandığım üçün sevirəm. Sevdiyim üçün inanıram. Inandığım üçün Səni hər yerdə görürəm. Sevdiyim üçün hər an Səninləyəm, Allahım.

Allahım!

Səni bu Fani dünyaya sığdırmayan mənəm.

Mənəm bütün gözəllərdə Səni görən, Sənə can atan, Səni anan, Səni düşünən.

Gecəm də, gündüzüm də Sənsən. Sənin birliyin, Sənin qüdrətin, Sənin gözəlliyindir.

Bu sonsuz səhraları mənə cənnətə çevirən Sənsən!

Bu bomboz dünyanı mənə əziz, doğma edən Sənsən!

Hara baxıram, Səni görürəm!

Hara gedirəm, Səni görürəm!

Gözəlliklərinə üz tutub ağrımı yazdığım, dərdimi tökdüyüm, sığındığım, güvəndiym gözəllik Sənin gözəlliyindir.

Çilik-çilik, parça-parça olmuş dünya gözəlliyini ürəyimdə birləşdirib Səni gördüm, hər şeyin Sənin olduğuna heyrət etdim. Və inandım. Inandım və səcdə etdim.

Şükür böyüklüyünə, ulu Tanrım!

* * *

Sözlər göydəki ulduzlar kimiydi. Dolu-dolu, parlaq-parlaq. Tanrı onları ətəyinə toplamışdı. Sonra özü dağıtmışdı göylərə. Ulduzlar nəyinsə şahidi olmuş kimi işıq dilində danışır. Füzuli Tanrını söz-söz, ulduz-ulduz dinləyirdi. Göydə ulduz olmayanda ürəyi nəhayətsizcə sıxılır ustadın. Ulduzlar göyün dərdini, Tanrının özünü anladan söz idi. Dərdli, tənha, tükənməz, ucsuz-bucaqsız sözlər Füzuli gecəsinin şahidləri idi.

Uzaq dünyaların zamansız, məkansız varlığı, yoxluğu bu ulduzların işıq dilində idi.

Bu yanan şam da, o közərən ocaq da, o narın sübh yeli də ulduzlardan utanırdı.

Tanrının yaratdığı hər şey ulduzların yanında xəcalətliydi.

Ulduzların dolu-dolu danışdıqlarını heç nə danışa bilmirdi. Şamın qüssə dolu zərifliyi ulduzların önündə əriyirdi.

Közərən ocaq soyuq ulduzların sərinliyinə köçürdü.

Uzaq ellərdən gələn yellərin sözü ulduz uzaqlığından utanırdı.

Ulduzların dediyini Füzuli eşidirdi.

Sübh yetişir. Tənhalıq bitir. Ulduzlar işıqda bir-bir boğulduqca, ulduz sözləri ərşə çəkilirdi. Günəhin insanları haraylayıb çağırması ulduzları ürküdüb qaçırdıqca dünya adiləşirdi. Dünya gerçəkləşdikcə söz azalır, yoxalırdı. Ulduzların gətirdiyi bəsirət işığı bitirdi.

Sübh gəlirdi. Füzuli gedirdi. Ulduzların getdiyi, itdiyi yer ustadı söz-söz çəkib aparırdı.

Dünyada yalnız söz qalacaq. Hər şey gedəcək. Hər şey dağılacaq. Hər şey öz əslinə – Sözə qayıdacaq. Dünyanın sonu Sözün əvvəlinə dönüş olacaq.

Bunu bilən Füzuli idi.

* * *

Ayın titrək işığı Sözün son köynəyi idi. Ustad əlini uzatdı, O ilahi bədəndən sonra köynəyi çıxarmaq istədi. Ilk düyməni açdı, sonra o birisini. Sözün bir damla göz yaşı ustadı diksindirdi. Sözün son köynəyinin yaxasını bağladı ustad.

Görünməz, bilinməz sirr ağ işığa qarışıb əridi. Sözün son köynəyi son sirri gizlətdi.

Sözün son sirri yenə Allahda qaldı.

* * *

Hər şeyin əsli Sözdür. Sözün əsli Allah. Şahid Füzuli.

* * *

Uca Peyğəmbərə vəhy sözlə gəldi. Dünyanın məğzi, anlamı Sözə çevrildikcə hər şey öz adını aldı. Doğa dünya, varlıq öz qanununa qovuşdu.

Zərrənin bütövə, bütövün zərrəyə körpüsü söz oldu.

Füzuliyə Sözün sözünü yazmaq buyruldu.

Ulu Peyğəmbərə sözün özünü demək buyruldu.

Ustad Füzuliyə Sözün sözünü demək qismət oldu.

* * *

Dünya kiçildikcə Söz böyüyürdü.

* * *

Kəlmələr Sözün yoludur. Musiqi Sözün yolsuluğunun yoludur. Musiqi Sözün deyə bilmədikləri deyil, Sözün deyə bildikləridir. Əzanın səsi Sözün səsidir, Sözün içindəki Sözdür.

Füzuli sözünü muğam içində deyirdi. Müğam içində eşidirdi. Muğam içində görürdü.

Füzuli sözünün əsəb nöqtələri bu səsdəydi. Səslər sözlərin canı idi. Füzuli sözlərin ruhunu cana yetişdirdikcə, azad olurdu. Ruhla can qovuşduqca söz Söz olurdu.

* * *

Məndə sənə yetəcək qədər mən qalmadı.

Səndə mənə yetəcək qədər sən qalmadı.

…Mənli sənli sərhədsizliyi keçən şair ilahi həsrətə qovuşdu.

* * *

Şair Tanrının sırasın arayır, sıradakı mizana, ölçüyə heyran qalırdı. Şair böyük dünyanın və kiçik dünyanın ahəngindəki incəliyə, dəqiqliyə vurulurdu.

Şair ölçüsüzlüyün, mizansızlığın, ahəngsizliyin şeytan işi olduğunu qəbul etməkdə idi. Şeytan ahəngi ahəngsizlikdirmi?

Qarışıqlıq, xaos şeytan dünyasının bəlirtisidirmi?

Amma, deyəsən yox.

Yox, yox. Yox…

Bizim dərk etdiyimiz ahəngsizlik bizim bildiyimiz, bizim gördüyümüz, hiss etdiyimizdir.

Tanrı dərgahında ahəngsiz heç nə yoxdur. Ölçüsüzlük də bir ölçüdür. Hüdudsuzluq da hüquqdur…

* * *

Sözlər ruhunu Füzuliyə əmanət edib bir-bir ölürdü – canını ustada təslim edirdi.

* * *

Dünyanın qulağı yumulmuş, gözləri qapanmışdı. Dünya uyuyurdu. Dünyanın keşiyini şair çəkirdi. Dünya beşikdə körpə kimi yatırdı. Beşiyin başında dayanıb susan, şair idi

Şair dünyanın yuxusunu oxuyurdu. Şair dünyanın yuxusunu yozmaq istəyirdi.

Yuxu Sözdən diksinirdi.

Yuxu Sözdən qaçırdı.

Yuxu sözsüzlüyə çökmüşdü.

Şair əzab çəkirdi.

* * *

Danışdığın dilə and olsun ki…

Bu şeri insan deyə bilməz. Bu şer insan gücünə hesablanmayıb.

Bu sözlər Tanrının sözləridir. Söyləyib. Şair eşidib. Tanrının sözlərini şair olduğu kimi bizə çatdırıb.

* * *

Şair anladı ki:

Sözün yolu dünyanın ən uzun yoludur. Bu qədər uzunluqdan sözün gətirdiyi nə qədər az idi, əslində, yox idi.

Şair duyduğunu, eşitdiyini, ürəyinə göydən damanı yazmır, Sözün ürəkdən, qandan, əsəbdən keçən yolunu yazırdı. Bu yol ulduzlardan gələn işıq kimiydi. Duyulan elə sürətlə azalıb itirdi, bu uzun yol tablamıdı. Şairin yazdığı söz duyduğu əsrarəngiz hissin uzaqdan-uzaq şəkli idi. Yollarda yana-yana gəlib çıxan o idi. Ildırım çaxması bir damlacıq nurdan başqa heç nə qalmamışdı.

Şairi əzaba salan bu idi. Şairi yerdən yerə, göydən göyə aparan bu qəribə sehr əzabın özü idi.

Söz əzabı. Şair əzabı. Tanrının bir zərrəsi bütövlüyün əzabını çəkirdi.

Bu əzabı şair ömrü boyu çəkəcəkdi.

Yalan dediyi şeyi yazacaqdı. Əsil olan nə isə, o, heç vaxt sözə gəlməyəcəkdi.

Şair sözsüzlükdən sözə kimi uzanan yolun qərib yolçusuydu. Getdikcə gedəcəkdi.

Və heç vaxt sözsüzlüyün sınırını, hüdudunu tapmayacaqdı.

Söz əzabı çəkəcəkdi şair.

Bu, qismət idi - Şair qisməti.

* * *

Ilahi, bu Sözlərin əsli nə imiş ki, bu qədəri gəlib bizə çatıb.

Bu sözlərin Şairin ürəyində, beynində olan əsli artıq sonsuzluqdadır.

Şair Sözü deyib və azad olub.

Dünyaya Söz gəlib.

* * *

Sözün bətnində gələn Söz. Sözün qanadında gələn Söz. Sözün qanında yaşayan Söz. Söz olmayacaq sözlər. Söz olacaq sözlər.

Hamilə sözlər. Hakam sözlər. Qaranlıqda doğulub işığa can atan sözlər. Işıqda doğulub qaranlığa can atan sözlər.

Sözə oxşayan sözlər. Sözü yamsılayan sözlər.

Böyük sözlər. Ilahi Sözlər. Şairin sözləri. Ustadın sözləri.

Ta əvvəldən, lap ilk görəndən bunu bilirdim. Bilirdim ki, bunun sonu belə olacaq. Və Səni tanıdığımdan hər dəqiqə, hər an bunu gözləmişəm.

Bu, ölümdür. Bu, sevgidir. Başından bilirdim. Başıma gəldi.

Əlvida.

* * *

Insanın və insanlığın ən böyük kəşfi Allahı tapması, tək Allahın dərgahına sığınmasıdır.

Və bununla yeni tarix başladı.

* * *

Gecənin tən yarısı idi. Ulduzlar hamısı birdən ustada baxırdı. Şairə işarə edirdi ulduzlar.

Ustad sözləri bir-bir yazdıqca Sözlər də bir-bir sönürdü – başqa dünyaya köçürdü. Sönən sözün - gedən sözün son işığı özündən əvvəlki Sözə düşürdü.

Işıq-işıq sönən Sözlər başqa bir dünya üçün yenidən yanırdı.

Ulduzlar həsrət içində şahidlik edirdilər. Sübh yetişəcək, onlar da sönəcəklər və yenidən yanacaqlar.

Sözlər kimi…

* * *

Bura müqəddəs torpaqdır. Bura Kərbəla torpağıdır. Sıxılanda şəhid qanı tökülən bu torpaq Füzuli Vətənidir.

Yüzillərdir ki, dünyanın hər bucağından gələn insanlar göz yaşları içində ziyarət edirlər. Imam Hüseynin qəbri göz yaşları içində üzən qərib gəmiyə bənzəyir.

Adamlar dalğalardır. Dalğalarda üzən gəmi uzaq dərgaha – Tanrı dərgahına gedən müqəddəs əmanətdir.

Ustad hər gün gecə o qəbrə yollanır, namaz qılır, dua edir, çırağı yandırıb öz beytülhəzəninə – Sözlərin yanına dönür.

Sözlərlə keçən gecə sevgi, həsrət, dərd, ümid gecəsidir.

Sübh açılır. Ulduzlar tək-tək sönür. Ustad müqəddəs qəbrə yollanır. Qara çırağı söndürüb səhər namazı qılır. Səhər şeri ilə bütün müqəddəslərin salamını verir.

Həzrəti Əlinin evinə getdiyi yolla yuvasına dönür. Namazda qanına qəltan edilən gözəllər gözəli, şəhidlər şəhidi Həzrəti Əli son namazını sonacan qıldığı üçün xoşbəxt idi. Haqq yolunda öldüyü üçün də ən bəxtiyar varlıq idi. Allahın dərgahı bayram libasında Həzrəti Əlinin gözəl üzünü gözləyirdi.

Bu dünya qan-yaş töküb ağlayır, O dünya bayram libasında gözləyirdi. O dünya ilə Bü dünyanın arasında Füzulidən başqa kimsə yox idi.

Həzrəti Əlinin yaşadıqlarını yaşayan Füzuli Sözü gözəldir.

Ustadın hər şerində bu matəmin, bu ululuğun, ucalığın bir damlası var. Dünyaya sığmayan əqidəni, gözəlliyi, inamı, azadlığı verə bilmək Şairin qisməti idi.

Dünyaya «Həqiqətüs-süəda» gəldi.

Qəsidələr, qəzəllər bu əbədi dərdi insan hüdudundan ilahi hüdudsuzluğa çıxardı.

Imam Hüseyn həqiqəti.

Həzrəti Əli həqiqəti.

Peyğəmbər nəvələri Həsən, Hüseyn həqiqəti.

Füzuli bu həqiqətləri yazmaq üçün doğulmuşdu.

Və bu həqiqəti şərəflə yazdı.

Ölümsüzlüyə qovuşdu.

* * *

Türk üçün yaşamaq – hərəkət deməkdir. Əbədi hərəkət, dövran türkün həyat fəlsəfəsidir.

Dayanmaq ölümdür. Insan dayanaraqdan ölür və həmişəlik hərəkət etmir. «Yata-yata yanı ağrıyan, dura-dura beli quruyan bəylər yürümüş, yürüdükcə yürümüşlər».

Ustadın canındakı qan da beləydi. Qayım-qayım qaynayırdı.

Ustadın üz tutduğu sözlər durmaq bilməyən at ilxısı, dəvə karvanı idi. Axa-axa gedən bu əbədi karvana Füzuli sarbanlıq edirdi.

Sular axır, küləklər əsir, yer-göy dönür, karvan, ilxı gedirdi.

Ustad hərəkət içində yaşayan varlığın özü idi.

* * *

Sözlər Füzuliyə can atır. Sevən Sözlər, vurğun Sözlər şairə tələsir. Şair onlar üçün sevginin sonu, eşq adlı naməlumluğun başlanğıcı, ölüm və var olumudur.

Sözlər şairi dəlicəsinə sevir. Sözlər atəş dolu ürəklə yanmağa gedir. On minlərlə, yüz minlərlə Sözün hansı bəxt mənzilinə çatacaq.

Hansı söz ölümüylə ölümsüzlüyü qazanacaq?

…Bu sözləri kim dedi?

Bu sözlər hardan gəldi?

Sözlər, sözlər….

Eşq həlqəsində yaşayan Şair Sözləri görmür, Sözləri eşitmir.

Titrək Ay işığı Şairi özünə çağırdıqca, Sözlər Şairi qanadlarına alıb o işığa aparır.

Həmişəlik.

* * *

Insan sevə bildiyi qədər insandır, insanın gücü içindəki eşq qədərdir.

* * *

Füzulini yamsılayan şair yalançı bülbül kimidir. Hər şey yamsılanmış, hər şey Füzulisayağı deyilmiş. Fəqət yalançı bülbül Bülbül olmamış, Füzuli təkliyində, təkrarsızlığında qalmışdır.

Ədəbiyyatın yüz illər boyu bu cazibədə qalması, bu gücün içindən çıxa bilməməsi Füzulinin problemi deyil. Dünya gücün və gözəlliyin qarşısında acizdir.

Dünyanın gərdişi insanın istədiyi kimi deyil.

Hər şey Allahın istədiyi kimidir.

Hər şeyi Allah seçir.

Füzuli də seçilib.

Seçilənlər mühakimə edilmir.

* * *

Hər gün məni özünə çağıran sehr, tilsim qarşısındayam. Müqəddəs Kərbəlanın Müqəddəs qəbirlərini ziyarətdən sonra, nəhayət, Füzuli qəbrinə pənah gətirmişəm. Füzulinin qəbir

daşına, yazılı sinə daşına baxa bilmirəm. Reallıqdan, gerçəklikdən qorxuram. Bu qədər ideal olanı yerdə görməyə cəsarətim çatmır.

Ruhun ənginliyi və daşın hərəkətsizliyi arasında əlaqə, rabitə qura bilmirəm.

Sözlər məni göyə çəkir. Firuzəyi qəbir daşı getdikcə göyün içində əriyir.

…Gecədir. Kərbəla gecəsi. 500 il, 1000 il, 10000 illərdən əvvəlki kimi ulduzlar göyə səpələnib.

Məndən ulduzlara qədərki məsafə, Füzulidən göylərə qədərdir. Bu məsafə Anadoluda, Azərbaycanda, Fransada belə deyil. Bu mizan, bu ölçü dəyişməzdir.

Füzuli gecəsinin sehrini yaşamaq istəyirəm.

Nə məkan, nə ulduzlar, nə torpaq yardım edir mənə. Ölçülər çoxdur. Tanrı bu ölçüləri mənə verməyib.

Bu ölçülərsiz Füzulini tapmaq, onunla üzbəüz dayanmaq mümkünsüz.

Kərbəla gecəsi mənə bağlıdır.

Kərbəla gecəsi məni əfv edir.

Füzuli xatirinə.

* * *

Və sonra Sözlər öldü.

Sözlərin qəbri üstə gömgöy otlar bitdi.

O otlar da Söz oldu.

* * *

Hərdən Füzuli Sözlərdən qorxurdu, hərdən onlardan iyrənirdi. Hərdən də sözlərdən qaçırdı, uzağa, lap uzağa.

Sözlər ustadın içindəkilərdən o qədər az, o qədər qaba və yöndəmsiz idi ki…

Şair öz içindəki ilə sözün uzaqlığından qorxurdu, qaçırdı.

Sözün yalanından iyrənirdi.

Söz Şairin taleyi idi.

Taledən qaçmaq olmazdı.

Füzuli Sözə aid idi, Sözün bir giləsi, damlası idi. Söz də Füzuliyə aid idi. Onun bir damlası, bir parçası idi.

* * *

Uca Allahım! Əzanı dinləyirəm. Mübarək Quranı səs-səs, kəlmə-kəlmə ürəyimə yığıram. Zəriflik və dərinlik, uyum və idrak, əxlaq və gözəllik qarşısında sarsılıram.

Ürəyində Allah kəlamı olana nə lazım?

Ürəyində Allah kəlamı olmayana nə lazım?

Anam türkcə dua edərdi. Mən ömrüm boyu o duaların həyəcanı, sehri içində yaşadım. O səsin titrəyişini, o kəlmələrin ilahi qüvvəsini, pıçıltı ilə söylənən sözlərə bərabər sözü ömür boyu yaza bilmədim.

O duaların sübh toranına qarışmış cazibəsi mənimlə qəbrə gedəcək. Ruhum yaşadıqca yaşayacaq. Ruhum öləndə o səs də mənimlə bərabər öləcək.

Atamın namaz vaxtı oxuduğu duaları xof içində dinlərdim. Ərəbcə kəlmələrin xofu içində başım dönərdi. Mübhəm bir boşluq, anlamadığım kəlmələrin anladığım, duyduğum havasına, nəfəsinə qərq olurdum. Aradabir atam susurdu. Bu susqunluq kəlmələrin özü qədər müəmmalı, heyrətli bir Söz idi.

Səslərin düzümü, kəlmələrin yaratdığı musiqi, ahəng mənim uşaq hafizəmə təzə əlifba, təzə yaddaş kimi yazılırdı.

Çox-çox sonradar Söz eşqinə tutulmamın səbəbini araşdırdım. Anamın dualarında, atamın ibadətində, sehrli əzan səsində, evimizdə, qohum-əqrəbalar içində eşitdiyim türkülərdə, nağıllarda, deyimlərdə… bu tutqunun mayasını, kökünü tapdım.

Əlimə qələm alıb ilk Sözümü yazanda o sözlərin vəcdini, qüdrətini, möcüzəsini duydum. Duyduqlarım canıma, qanıma yayıldıqca, ilahi bir yola girdiyimi anladım.

«Gəldim, geri getmək olmaz oldu…»

* * *

Füzuli anladı ki, «Gəldim, geri getmək olmaz oldu» gerçəyi Məcnunun – bütün insanların aldadılmasıdır. Bəs uşağı kim aldadıb? Uşağı aldadan işıqdır. Doqquz ay (və neçə min gendə) qaranlıqda yaşayan uşaq işığı duyub, işıq həsrətini hiss edib və işığa eşqi onu qaranlıq dünyadan işıqlı dünyaya gətirib.

Və gələn kimi uşaq peşiman olub. Bu soyuq, yad, çəlimsiz, narahat dünya onu yaxalayıb. Ağrı, acı qarşısında yeganə ifadə dili ağlamaqdır. Uşaq ağlayıb. Geriyə yol yoxdur. Işıqlı və acı dünyada yaşamalıdır. Bir zaman gələcək, işıq yenə də onu özüylə aparacaq. Ölüm adlı qaranlıq çıxmazdan görünəcək və onu xilas edəcək. Ancaq hələ ona çox var. Və Füzuli öz yorumuna gülümsədi: bu ağlamaq işığın aldatmasından daha çox, sonra başına gələcəyini duymaqdır – qəzavü-qədərin körpə uşaq ürəyindəki əsintisidir.

Bu gecədən özümü qovmaq istəyirəm. Bu gecə içimə çökmüş, məni boğur. Bu gecənin bir yükü var, o da mənəm. Mənim yüküm də bu uzun, ağır gecədir.

Bu gecəni necə qovum, ilahi?

Ulduzu ilə, Ayı ilə, səssizliyi ilə, sənsizliyi ilə bu gecə məni incidir, ağrıdır. Mən ağrısız qalmaq istəyirəm. Ayrılıq acısı çəkmək istəmirəm. Sənsiz olan hər şeydən qurtulmaq istəyirəm. Hər yerində səni axtardığım bu gecə ucsuz-bucaqsız şəhər kimi məni udub. Məni mənsiz edib. Ipim qırılıb, dərin quyunun dibinə gedirəm. Getdikcə gedirəm. Işığa həsrətəm. Sənsiz çökürəm. Yox olmaq qorxusu bu uzun gecə kimi bağrıma saplanıb. Əlimi uzadıram. Qışqırıram, hayqırıram, pıçıldayıram, yalvarıram gecəyə. Gecəni qovmaq istəyirəm. Gecəni istəmirəm. Sənsiz olan heç nəyi istəmirəm.

Və Füzuli gecəsinin bir anı da keçdi.

* * *

Ilahi, bu səslərin, sözlərin gözəlliyi haqdanmış yarandı?

Allahım, bu axın, bu ahəng, bu zəriflik, incəlik, bu güc-qüdrət hardan gəldi?

Allahım, ulu Quranın dili dillərin üstə dil, gerçəklərin üstə gerçək, gözəlliyin üstündə gözəllikdir.

Bir Yasin ehtişamını kim verə bilər?

Bir Qədr surəsindəki musiqi, həzinlik bəşər gücündən çox-çox yuxarıdır.

«Bəqərə», «Yusif», «Həşr», «Qüreyşi», «Məryəm», «Leyl», «Loğman», «Əsr», «Təkasir», «Kövsər», «Ihlas», «Həc», «Həcm»… surələrinin göy gücü, səma qüdrəti və qeyrətdir.

Ilahi, bu zamansız kitab xilasmı, yolmu, ilahi həqiqətmi, şermi, elmmi, qanunmu, törəmi, uyarımı, nicatmı…

Hamısı, bunların hamısı. Və bir də bizim anlamadığımız, dərk etmədiklərimiz, duymadıqlarımız.

«Insanı ən gözəl bilən onu Yaradandır» kəlamından sonra biz nə çarəyik? Biz nə deyənik? «Ay, işığını Günəşdən alır» - buyurdu Rəbbim. Işığını bizdən əskik etmə.

«Yağmurla Allah ölü torpağa can verir», «Ulduzlar kosmosda dönərək üzüb gedir», «Ölümü hər canlı dadacaqdır», «Insan özü-özünün şahididir», «Allah ilkdir, sondur, zahirdir, batindir. O, hər şeyi biləndir»…

Bitərmi, tükənərmi eşq kitabı, nur kitabı, ümid qapısı?

Ulu Peyğəmbər ilahi vəhylə bizə çatdırdı. Min rəhmət!

Bəşəriyyət ilahi möcüzəyə qovuşdu. Mübarək səs, mübarək söz, mübarək kəlam insana ulaşdı. Haqqın yolu açıldı. Haqqın yolu mübarək!

* * *

Zaman oldu ki, sultanlardan, şahlardan ümid payı gözlədim. Ehtiyaca əyildim. Nəfsimin əsiri oldum. Düşdüm. Şairlər sultanına həsəd çəkdim. Düşdüm.

Düşə-düşə Füzulidən düşdüm. Sözdən düşdüm. Ruhumun ulaşdığı ucalıqdan düşdüm.

Haqqı tapandan sonra nəfsin ardına düşməyin acısına, ağrısına düşdüm.

Sözləri içimdə boğdum. Içimdə də dəfn etdim. Eşqimə yadlaşdım.

Yalan dünyaya aldanıb ona əl uzatdım.

* * *

Şeytanı sevindirdim. Düşdüm.

Düşə-düşə anladım.

Yanlışmı anladım…

Sözə döndüm. Özümə döndüm. Allahıma döndüm.

* * *

Quran oxumaq Allahı oxumaqdır.

Quran oxumaq özündəki yolu arayıb tapmaqdır.

Quran oxumaq təmizliyin, arılığın, duruluğun, halalın, səbrin yolunu tutmaqdır.

* * *

Allaha təslim olacaqsan. Şeytana yox. Anla bunu.

* * *

Anlarda əsrlər yaşayır.

* * *

Olur ki, budaqdan budağa uçuram. Bülbüllə dil-dilə verirəm. Güllərlə bəhsə girirəm. Su kimi axıram. Ulduzlarla danışıram. Ayla sevişirəm.

Dağlara dərdimi söyləyirəm. Otları dinləyirəm. Meşənin ağacı olub meşə ilə yatıram.

Olur ki, torpağa gömülürəm, daş kimi susuram. Qapı kimi bağlanıram. Xəzan kimi tökülürəm.

Olur ki, göylər kimi doluram. Yağmur olub yağıram. Sellər olub axıram.

Dəniz oluram. Səhra oluram.

Dəvə kimi kinli, kəpənək kimi titrək, atəş kimi qızmar, buz kimi soyuq, qar kimi bəyaz, gecə kimi siyah, göylər kimi mavi oluram.

Külək oluram. Uzaq ellərə ayağıyalın gedirəm. Dolaşıram düzü-dünyanı, yetim-yetim.

Bir udum nəfəs oluram.

Səs oluram. Neydə, kamanda həzin-həzin dillənirəm.

Göy gurultusu kimi dünyanı lərzəyə salıram. Sonra susuram. Utanıb buludların arxasında gizlənirəm.

Içimə çəkilirəm. Dışa nifrət edirəm.

Dışarı çıxıram. Içimə dönmək istəmirəm.

Insanları sevirəm. Insanlardan qaçıram.

Hər nə olsa, Allahlayam.

Gözümü yumuram və Tanrıma qovuşuram.

Bu dünyada yaşayıram. Yaşaya-yaşaya ölürəm. Ölüm son eşqimdir. Son eşqim məni dönməz, sönməz bir məhəbbətlə gözləyir. Mən ölümsüz yarımçıq, ölüm mənsiz yarımçıq. Bütöv olmaq istəyirik, bütün olmaq həsrətindəyik. Həsrətimiz mübarək…

Allahım, xoşbəxt kimdir?

Səadətə ərmiş kimdir?

Sultanlarmı? Dünyaca zənginlərmi? Eyş-işrət içində yaşayanlarmı?

Sanmayıram, Allahım, sanmayıram.

Övladına qıyan sultanlar, qızıl teştə qan qusan zalımlar, qan üstündə qurulmuş xanimanlar, saraylar xoşbəxtlikmi?

Yetim-yesir malı ilə imarətlər ucaldıb sonunda rəzil olanlar xoşbəxtdirmi?

Hiylə ilə, fitnə ilə, ikiüzlülük və riya ilə yüksələnlər xoşbəxtmi?

Sanmayıram, Allahım, sanmayıram.

Allahım, dua bilməyən, namaz bilməyən, saf, sadədil ürəyi ilə qoyun-quzusunu otarıb ailəsini dolandıran çoban xoşbəxt deyilmi?

Təmiz ürəklə namazını qılıb, orucunu tutan, zəkat-fitrəsini verən, müqəddəs ziyarətini yapan Allah adamı xoşbəxt sayılmazmı?

Ata-ana borcunu qaytaran, övlad borcunu verən, kimsəsizə, əlacsıza, çarəsizə əl tutan, loxmasını ailəsilə halallıqla yeyən xoşbəxt deyilmi?

Dininə, ümmətinə, millətinə, dövlətinə sədaqət dolu ürəklə yaşayan xoşbəxt deyilmi?

Allahım, anamın dualarında, atamın ibadətlərində səni tapmışam.

Ulu Quranı könlümün ən uca guşəsində yaşadıram.

Ailə borcumu qaytarmışam.

Sözə tapınmışam. Sözü satmamışam. Sözü sevmişəm. Allahım, sənin verdiyin ilhamı sözə çevirmişəm.

Eşq dünyasında ərimişəm. Sənə can atıram, Sənə qovuşuram, Allahım.

Və mən Allahın xoşbəxt bəndəsiyəm.

Min şükür.

Etiqadların mənşəyini aradım. Yunan, Roma, ərəb, hind, Çin… qaynaqlarına baş vurdum. Ağıla, hissə söykənən təlimləri öyrəndim. Ruhun, varlığın, idrakın, hərəkətin, mövcudiyyətin nüktələrinə vardım. Əflatunu, Sokratı, Ərəstunu oxudum. Ibn Sinanı dərk etdim. Birunini incələdim. Ibn Xəldunu araşdırdım.

Hara getdimsə, Qurana gəlib çıxdım. Öyrəndiklərim, oxuduqlarım Quranın bir bucağının mində biri olmadı.

Üstünə Quran işığı düşən təfsirləri, şərhləri oxudum. Quranın min belə şərhi, təfsiri olsa belə, cüzi bir köşəsinin belə açılmadığını gördüm.

Təriqətləri incələdim. Quran dünyasının zərrələrindən başqa bir şey görmədim.

Fikir karvanımı elmlə yüklədim. Fəqət mənzil yetişmədim.

Duyğu, hissiyat aləminə qapıldım. Elmin açа bilmədiyi qapıları açа bildim. Fəqət yenə Quran dünyasının sirləri qapalı qaldı.

Dünyanı, kövni-məkanı, keçmişi, gələcəyi, insanı düşünə-düşünə həqiqət yoluna düşdüm.

Gördüyüm mənzərəni Sözə həkk elədim. Gördüklərimin görünməyən dünyasını aldım. Duyulmayanları duymağa başladım.

Yenə Quran yol göstərdi, əl tutdu.

Allahım, bu dünyanın qəm yükünü çəkənlərdən biriyəm. Qəm karvanı dünyanın ən ağır məşəqqət dolu karvanıdır.

Çəkdiyim dərdlər yer və göy dərdidir. Yer dərdini şeytan və şeytanlaşmış insanlar törətdi. Zalım oldular, kazib oldular, qan tökdülər, zülm əkdilər.

Quzu dilində qana susamışları qınadım, sitəm etdim.

Acların, susuzların, binəsiblərin yanında oldum.

Iztirab yol yoldaşım oldu.

Şərin dəhşətli pəncəsi məni yerdən yerə vurdu.

Rüşvət, riya, etinasızlıq, saymazlıq, avamlıq dünyamı qaraltdı.

Şeytan da hər yerdə pislik toxumu əkdi. Bu toxumları bəsləyənlər Allahdan qorxmadı. Sözdən, şerdən də qorxmadı.

Söz də ayaqlara salındı.

Fəqət bunlar yer dərdidir. Yer dərdini unutmaq zor deyil. Təriqət, mərifət, həqiqət əhli olunca, dünyanın gərdişinə göz yumunca dünyanın rəngləri özünə dönür. Dünya kiçilir. Dünya bir udumluq, bir anımlıq olur.

Əsl dərd göy dərdidir, Allahım. Ucalıq, ucalmaq, qovuşmaq möhnəti ən böyük möhnətdir.

Izini gözəldə tapdım. Nişanəsi yerdə olan haqqa qovuşmaq üçün ilahi dərdə üz tutdum. Bəlayi-eşqə düşdüm.

Çox şükür, min şükür ki, bu eşqə düşdüm. Bu eşqdən çıxmaz oldum. Intəhasız zövq bulduğum eşq içində görünməz oldum.

Sənə yüksəlirəm, Sənə gəlirəm, Tanrım!

Allahım, Sözdən dünya qururam. Sonra o dünya çilik-çilik olub yerə tökülür. Sonra bir də qururam. Bir də tökülür. Bir də, bir də…

Allahım, istədiyimi qura bilmirəm. Istədiyimi yarada bilmirəm.

Söz məni əzir. Söz mənə əzab-iztirab verir. Söz duyduqlarımı ifadə etməkdə əlacsızdır, çarəsizdir.

Söz axtarıram. Ərəbdə, əcəmdə, türkdə, məğribdə, məşriqdə söz gəzirəm. Istədiyim sözlər dünyada yoxdur. Içimdəkilərin sözünü tapammıram.

Gözümlə, qanımla, canımla danışmaq istəyirəm. Dilsiz, sözsüz danışmaq istəyirəm. Yanmaq, qovrulmaq, uçmaq, içimdəki eşqi göylərə səpmək istəyirəm.

Allahım, Sən məni Söz əzabından qurtar. Qurtar bu əzabdan, Rəbbim!

Əlbəttə ki, Islam dini, Quran Füzulidən başlamır. Amma insan dini Füzulidən başlaya bilər.

Füzulidən başlasan, sevgi yolunu tutacaqsan. Bu yol səni ulu Tanrıya aparacaq.

Sevə-sevə Mövlananı, Yunusu da…görəcəksən, Nəsimidən keçəcəksən, Nəvaidən süzüləcəksən, Həzrəti Əlini anlayacaqsan, sonra ulu Peyğəmbərimizi dərk edəcəksən.

Bu yol Allah yoludur.

Bu yol Füzuli yoludur.

* * *

Dörd mövsümə eyni anda baxıram və hər şeyi görürəm.

* * *

Azadlığın ortaya qoyduğu borcları ödəyəcək dindir Islam.

* * *

Dünyada nə qədər əbləhanə fikir varsa, bir o qədər də əbləhanə fəlsəfə, yozum var.

* * *

Quran bir dönüş nöqtəsidir. Qurandan əvvəlkilər. Qurandan sonrakılar…

Zaman və mədəniyyət ayrımı belədir…

* * *

Riyaziyyat-iqtidar, şer (sənət) müxalifət, memarlıq həm iqtidar, həm də müxalifətdir.

* * *

Savadlı (oxumuş) avamlığı (cahilliyi).

* * *

Siyasətin öldürdüyünü sənət yaşadır.

* * *

Unutma, xəstəliyi olan millətik.

* * *

Allahın rizası olsa, tək bir insan belə, dünyanı dəyişə bilər.

Türk dili söz anlamını və söz düzümünü ilk dəfə real tarixi müstəvidən – yer müstəvisindən ayırıb fəza müstəvisinə daxil edən Füzulidir.

Real müstəvi ilə irreal fəza müstəvisinin uyarlığını və uyarsızlığını dil zəminində gerçəkləşdirən Füzulidir.

Ədəbi dilin real qatı ilə ideal-ilahi qatını birləşdirən də Füzulidir.

Ədəbi dilə cığatay-oğuz, dastan-xalq şeri bucaqlarından baxıb onları bir zəmində, bir yazı məkanında birləşdirən də Füzulidir.

Türkcəni ərəb və fars yazı dilləri və poetik ənənələri ilə birləşdirə-birləşdirə bütövləşdirən və ümumiləşdirən, yazı dili mühiti yaradan da Füzulidir.

Füzulinin dil-poetik, üslub-dil estetikası elə bir universumdur ki, o universum heç bir Homer, Dante, Şekspir açarı ilə açılmaz. O mübhəm və şəffaf, mürəkkəb və aydın aləmin çoxsaylı, dolanbac, sıralı, ahəngli, sonlu və sonsuz dünyanın açarı elə Füzuli özüdür.

Füzuli dili yalnız gerçəkləşmiş poetik biçimlər, fiqurlar, anlamlar və simvollar deyil.

Füzuli dili türkcənin imkanı və potensial zərifliyi, zənginliyi, gücü-qüvvəsidir.

Bir dilin ulaşa biləcəyi yüksəklik və genişlik, incəlik və dəqiqlik, çoxsəslilik və çoxrənglilik Füzulidə toplanıb.

Füzuli şerində türkcənin bütün üslublarının potensial dəyəri cəmlənib.

Türkcənin Füzulidən sonra gələn bütün şair və yazıçıları o potensialın örnəkləridir.

Füzuli dili gələcəyin ədəbi dili üçün ideal zəmindir.

Füzuli dili yalnız mif, dastan, nağıl, qoşma, bayatı təcrübəsinin deyil, eyni zamanda yazılı ədəbiyyatın, dünyagörüşün, psixoloji ovqatın, baxışların, zamanların qovşağıdır.

Füzuli dili uyumsuzluğun uyumu, irreallıqla reallığın, inkarla təsdiqin, xaosla kosmosun kəsişməsidir.

Füzuli dili türkcənin vəhdətidir.

Inancsız, fəlsəfəsiz, hikmətsiz dildə (təfəkkürdə!) böyük ədəbiyyat yaratmaq mümkün deyil.

Füzuli dili böyük ədəbiyyatın dilidir.

Füzuli dili böyük duyğunun, böyük ağlın dili olduğu kimi də böyük təcrübənin dilidir. Türkcənin 1000 illik yazı təcrübəsi, özəlliklə türk-islam mədəniyyətinin «Kutadqu bilik»lə başlanan yazı örnəyi, türkcənin Yunus Əmrədə, Nəsimidə, Nəvaidə, Xətaidə gerçəkləşən yazılı ədəbiyyat təcrübəsi, eləcə də farscanın Rudəkidə, Firdovsidə, eləcə də türkcə düşü-

nüb ərəbcə, farsca yazan Qətran Təbrizi, Xətib Təbrizi, Xaqani, Nizami, Rumi kimi ustadların təcrübəsi də bir dil məktəbidir.

Türk-islam düşüncəsinin bir başında «Dədə Qorqud», o biri başında Quran dayanır. Füzuli bu böyük təcrübələri yaşayan, yetişən, ustadlaşan böyük şairdir.

Ana dilində yazı mədəniyyəti düşüncə, fikir, təcrübə olaraq milli olduğu qədər də bəşəri və dünyəvidir. Füzulinin Sözü semit, hind-Avropa və türk yazı mədəniyyətindən süzülüb gələn çoxsəsli, çoxtərkibli zənginlik örnəyidir. Türkcənin cahan dili olması üçün dünyəvilik əsas şərtlərdəndir. Dildə milliliklə dünyəvilik, türklüklə türk olmayan təcrübənin birləşməsi yeni üzvi tərkib – lüğət və sintaksis yaradır.

Insan ruhunun zərifliyinin və zənginliyinin Sözdə maddiləşməsi, Sözdə reallaşması üçün dünyanın hər yerində görülən iş qaynaqdır, məktəbdir.

Və Füzulinin dil məktəbi məktəblər məktəbidir.

Füzuli dühası dil təcrübəsini yeniləşdirmiş, ona çağın modern biçimini vermişdir. Dil-üslub ənənəsi və yeniləşdir-novatorluq üzvi şəkildə birləşmişdir.

Gələcək üslubi-poetik sistemlərin qaynağı olan Füzuli dil poetikası türkcənin öz dəyərini müəyyənləşdirən dəyər-qaynaq rolunu oynamışdır. Zəngin fonetik və morfoloji poetik sistemi, dinamik sintaksis, poetik fiqurlar və üslub əməliyyatları əl yeri bilinməyəcək zəriflik və məharətlə canlaşdırılmış, insan duyğularının heyrətamiz mənzərəsi gerçəkləşmişdir.

Füzuli dili türkcənin renessansıdır. Bu əhya, yenidən oyanış türkcənin fəlsəfəsi ilə musiqisinin vəhdətində, milli olanla bəşərinin bütövlüyündə, analitik poetik idrak səviyyəsində, cilvədə, təfərrüatda, ahəng və ritmdə, deyim tərzində yekunlaşmışdır. Türkcənin yerişini, yürüşünü uçuşa çevirən Şair məkanı fəzalaşdırmaqla dilin üfüqlərini genişləndirmiş, dilin dərin qatlardakı ifadə potensialını gerçəkləşdirə bilmişdir.

Yalnız türkcənin deyil, insan dilinin yeni dəyərlərini tapmaqla dünyada adını tarixə yazan çox az sənətkarlanda biri Füzulidir.

Bu ucalıq yalnız insan dühasının qazandığı deyil, həm də Allahın verdiyidir; haqdan gələn ilahi seçimdir.

Füzuli dilinin estetikası səsdən başlayıb bənd-mətnə, şer-mətnə, poema-mətnə uzanan içiçə bağlı dinamik poetik sistemdir. Görünənlə görünməyənin, ələ gələnlə ələ gəlməyənin, şüurla dərk edilənlə şüuraltı sezmənin, duyulanın vəhdəti və dialektikası Füzuli dilinin gözəlliyi dediyimiz sehr-magiyadır. Bu, bir gerçəklikdir. Gerçəklik olduğu qədər də möcüzədir.

Zaman keçəcək. Yüzilliklər dəyişəcək. Insanlar bu möcüzə ilə gerçəkliyin sərhəddini dana bilməyəcək.

Bu sirr uzaq gələcəkdə də tapılmayacaq.

Və Allahın verdiyi xoşbəxtlikdir, bir ilahi lütfdür ki, tapılmayacaq. Heç bir zaman tapılmayacaq sirlər dünyanın anlamı, həyatın sonsuzluğu deməkdir.

Allah yaratdıqlarından yalnız insana öz xislətinin bir parçasını vermişdir.

* * *

Həyat məni bağrına basdı və axıb getdi.

Həyat məni bağrından çıxarıb atdı və axıb getdi.

* * *

Dünyadan böyük bir macəra gözləyirəm. Hər kəs mənim üçün bir sirr dünyası, açılmamış kitabdır. Hamının baxdığı və görmədiyi dünyanı görmək istəyirəm.

Uçurumları oyuncaq sayıram.

Özümü yaşıl yamacların, başı qarlı dağların, otların, ağacların balası bilirəm.

Bir gün bir qızın əlindən düşən şüşə qab kimi sınacağımı da bilirəm.

Yazıq, zavallı, tənha dünyanı yetim qoyacağıma üzgünəm.

* * *

Ailəmə, evimə çarmıxa çəkilmişəm.

Yaralarımdan axan qan xoşbəxtlik damlaları.

* * *

Tanrım, insanları gücsüz yaratdın. Bəs mənim içimdəki bu güc hardandır? Əlimi sözlərə sürtürəm. Sözləri pıçıldayıram. Hərf-hərf yazıram sözləri. Bir ilahi lövhə qazıram. Haqdan gələn eşqin dalğalarına qovuşuram. Özümdə Səni, Sənin böyüklüyünü hiss edirəm. Tanrım, ucalığın, gözəlliyin məni uca və gözəl edir.

Allahım, verdiyin gücə, qüdrətə, gözəlliyə min şükür.

Sənin mənə verdiklərini mən də Sözlərə verdim.

* * *

Eşq məni ruhlar aləminə apardı. Vücuda bağlılığım həmişəlik kəsildi.

Ruhlara inandım. Ruhlar üçün yazdım.

Ilahi ruha sığındım.

* * *

Sözlərin də ruhu var. Yazı da, səs də Sözün vücududur.

Vücud qapıdır. Qapıdan içəri girdin, ruş başlayır. Sözün ruhu zamansız və məkansızdır. Candan-cana, qələmdən-qələmə, dildən-dilə keçən söz yaşayan, dəyişən gerçəkdir.

Və həm də gerçək olmayan boşluqdur - nəhayətsizlikdir.

* * *

Hər günah şeytanı dəvətdir, şeytanı çağırışdır.

Şeytanın hər gəlişi günahdır, azğınlıqdır.

Insanların yaratdığı qanunlar müqəddəs deyil.

Allahın qanunları müqəddəsdir.

Insanların qanunu toplumu tarazlayır, qoruyur.

Allahın qanunları insan ruhunu hifz edir.

Allah verdiyini geri alır.

Allah mükəmməlliyi, olğunluğu sevir.

Və Allahın qanunları insanı kamilliyə aparır.

Insan qanunları dəyişir.

Allahın qanunları dəyişməz.

Insanın qanunları sayğı, itaət istəyir.

Allahın qanunları sevgi və ibadət istəyir.

Insan qanunları anayasalarda gəlir, anayasalara dönür.

Allahın qanunları müqəddəs kitablardan gəlir və Allaha dönür.

Insan qanunlarının hakimi, ittihamçısı, vəkili, dövlət mərtəbələri var.

Allah qanunları Allaha bağlıdır. Hakim də, ittihamçı da, qoruyan da, bağışlayan da, əfv etməyən də Odur.

Şükür böyüklüyünə.

* * *

Əllər qələm tutmaq üçündür. Əllər qurmaq üçündür. Əllər ibadət üçündür.

Əllər silah tutmaq üçün yaradılmadı. Əllər dağıtmaq, məhv etmək üçün insana verilmədi.

Əllər əlləri kəsmək üçün deyil.

Əllər əl tutmaq üçündür.

* * *

Elə evlər var ki, onun yanından elə-belə keçib gedə bilməzsən. O evdə kimlərin yaşadığını və kimlərin öldüyünü evin daşları adama pıçıldayır.

Mən hər gün özümü bir az daha yaxşı tanıyıram. Bir az da dərindən özümə bənd oluram. Bir az da dərinə gedirəm. Özümü bir az da kəşf edirəm. Özümə inandığım qədər inanmıram. Inanmadığım qədər də özümə inanıram.

Özümdə batmaq, qərq olmaq istəyirəm. Özümdə boğulmaq istəyirəm.

Allahım, əlimdən tutub min illər boyu məni dolaşdırdın. Əlimdən tutub anama əmanət etdin. Amma kölgəni əskik etmədin.

Doğuldum. Elə bir anım olmadı ki, sənsiz olum. Anamın məni unutduğu aylarda, günlərdə Sən məni unutmadın. Atamın, bacımın, qardaşımın, xanımımın, övladımın məni unutduğu anlarda Sən məni unutmadın.

Yatdım, Sən mənimlə oldun. Oyandım, mənimləydin. Sevdim, ağrıdım, sevindim, zülm çəkdim… Həmişə, hər yerdə Sənin olduğumu gördüm.

Öləcəm, Ruhumu Sənə əmanət edəcəm. Və ruhum həmişə Sənin olacaq.

* * *

Hər kim yaşam boyunca bu dünyanın heç olmasa bir sirrini açа bilməyibsə, onun ömrü hədər keçib.

* * *

Sirsiz, möcüzəsiz dünya kimə lazım?!

* * *

Biz gedirik. Yol dolanbac, mənzil uzaq. Düşənlərik, keçənlərik. Ayrı-ayrı yollarla bir mənzilə gedənlərik.

* * *

Ölümsüzlük də ölümün bir adıdır.

* * *

Hamı gələcəkdən qorxur, mən də keçmişdən.

Hamı gələcəyə ümid edir. Mən keçmişə.

Hamı keçmişdən qaçır, mən gələcəkdən.

Gələcək yoxdur. Gələcək tərsinə çevrilmiş keçmişdir.

* * *

Sonunda olmalı olan şey əvvəl oldu. Və hər şey tərsinə döndü. Sonunda mən doğulmalı idim. Mən öncə doğuldum. Və…

* * *

«Hər insanın bir ulduzu var. Gün gələr, parlar».

Ulduzum məni itiribsə, o kimə parlayacaq?

Qaranlıq istəyirəm. Özümü görmək üçün. Özümlə qalmaq üçün.

* * *

Dərdimə öyrəşirəm, alışıram. Ilahi, məni bu dərddən qoru.

* * *

Eşq dərdini eşq sağaldar.

* * *

Dərdin göstərdiyi yolu seçdim və bu yola düşdüm.

* * *

Heç bir şey göründüyü kimi deyil. Bizim gördüklərimiz görmək istədiklərimizdir. Gözün gördükləri görünənin heç mindən biri də deyil.

* * *

Elə duyğular, düşüncələr var ki, onların dillə ifadəsi yoxdur və olmayacaq.

* * *

Mənim bütün varlığım, yazdıqlarım ürəyin içindən gələn bir ah qədər deyil.

* * *

Bu dağlar aldatdı məni. Bu dəniz, bu səhra, bu güllər aldatdı məni. Yuxunu gerçək bildim, yuxular aldatdı məni.

Tapındığım Sözlər aldatdı məni, rənglər, boyalar, naxışlar, havalar, havacatlar aldatdı məni.

Sular aldatdı məni.

Göylər aldatdı məni.

Aldana-aldana aldatmağı öyrəndim.

Dənizləri, dağları, suları, yuxuları, ağacları aldatdım.

Rəngləri, havaları, naxışları aldatdım.

Insanları aldatdım.

Və Sözləri aldatdım.

Mən nə oldum. Allahımı tapdım. Allahıma tapındım.

Idrak etdim:

Allahlaşma yoxdur, ola bilməz. Insan allahlaşması nəfsin xətası, başın bəlası, günahların günahıdır. Insan ilahiləşə bilər. Kamil insan Allahlaşan insan deyil. Mükəmməl Allahdır. Insan günahlarından uzaqlaşa-uzaqlaşa, arına-arına, durula-durula ilahiləşir.

Insan nə mələkdir, nə şeytan. Allah insanı Mələkdən sonra yaratdı. Insanın mələkləşməsi məqbul. Mələk qanadlarına can atması məqbul. Amma insan mələk olaraq yaradılmadı və mələk olmayacaq.

Allah şeytanı oddan yaratdı. Insanı şeytanla imtahana çəkdi. Insan şeytan olaraq yaradılmadığı üçün şeytan olması da mümkünsüz. Insan şeytanlaşa bilər. Insan qanında, canında, ürəyində, beynində şeytana sığınacaq verə bilər və şeytanlaşmağa yol açar.

* * *

Mən xalqı anlatmıram.

Mən haqqı anladıram.

Mən insanları inandırmıram.

Mən özümü inandırıram.

Mən inqilabçı, islahatçı deyiləm.

Mən içimdəki burulğanı yazıram. Mən dərdimi özümə danışıram. Mənim Işim özümlədir. Özümü qazıram. Özümdəkiləri arayıram. Özümdən ilahiyə gedən yolu axtarıram. Tək bir qapı tanıyıram. O qapı mənim tale qapımdır.

Yenə səhra dəniz kimi dalğa-dalğadır. Yenə səhra qırçın-qırçın ləpəlidir. Yenə səhranın bağrı yanım-yanımdır.

Yenə səhra məni öz gecəsinə çağırır. Dəvə karvanlarının kölgəsində səhraya pıçıltı ilə şer söyləyəcəyəm.

Səhra məni gözləyir.

* * *

Dün gecə səhrada bir muğama yaxalandım. Bu səs haralardan gəlirdi, ilahi. Səsin içində özümü gördüm. Taleyimi, dərdimi tapdım. Leyli-Məcnundan oxuyurdu. Gah Leyli olurdu, gah Məcnun. Muğamın cilvəsində Sözümün ürəyimdəki rəngini sezdim. Sözlərim məni bir daha ağlatdı. Göz yaşları içində ürəyimdə qanlı-qanlı dolanan kəlmələr məni alıb uzaqlara, çox uzaqlara apardı. Səsin nisgili Sözün qubarına qarışmışdı. Səhra mənə dar gəldi. Dünya kiçildikcə kiçildi. Yaxşı ki, göylər var imiş. Göylərə baxdım. Ulduzları yaramın gözünə basdım.

Üçgünlük Ayın bakirə gözəlliyi könül evimə su səpib sakin elədi.

O səsi bir daha eşitmədim.

O səsin sahibini soraq elədim. «Gördüm» deyən olmadı.

Səs onu mənim həsrət olduğum məmləkətə aparmışdı bəlkə?

Bəlkə o bakirə Ay o səsi çalıb işığında gizlətmişdi?!

Bəlkə…

* * *

Bəzən tək bir sözün dəli sevdalısı oluram. Bütün şeri tək bir Sözün xatirinə yazıram. O sözü şam kimi yandırıb içimə işıq tuturam.

* * *

Körpə dilində şer yazmaq istəyirəm. Sözləri tapa bilmirəm. Bilmədiyim dilin məchulluğunda azıram.

* * *

Hər gözəlin əsli göylərdə – Allahdadır.

Yerdəki, solğun əksdən başqa bir şey deyil.

* * *

Dilin tabularını qaldırmadım. Sözün bəkarətini qutsal bildim. Sözün nazikliyini, zərifliyini qorudum. Söz düzümünü dünya biçiminə uyğun seçdim. Ilahi gözəlliyi Sözün bağrında tapdım. Eşq dastanını ürəyimin qanı ilə yazdım. Yaza bilmədiyim məqamlarda da lal oldum. Sözün qapısında diz çöküb susdum.

Suyun səsini, işığın şəffaflığını, yarpaqların yaşılını, çiçəklərin alını, səhranın hüznünü, uzaq ellərdən gələn ruzigarı, səhərin mehini, Tanrının şəfqətini Sözə gətirdim. Varlığımı Sözə verdim. Mən öldükcə Söz dirildi. Və yaşadı.

Mən getdim. Söz qaldı.

* * *

Sözün hər cür sınağını sevirəm. Sözün gizli imkanlarını aşkar etdikcə, sözün uyumunu, rahatlığını, təmənnasızlığını, rəng-rəng çalarlarını duyduqca dünyama yeni hava, yeni işıq gəlir. Sözü varlığımda, qanımda duyuram.

Sözə vurğun oldum. Söz məni sevdiyi qədər mən Sözü sevirəm.

Allahın bir adı da Sözdür.

* * *

Sözlə danışmayan zavallı güllərə, quşlara, otlara, ağaclara yazığım gəlir.

* * *

Hələ yolun başındayam.

* * *

Hələ düzlərin ucundayam. Hələ göylər mavi, səhralar isti, gecələr məxmər, dəvələr güclü, səhərlər aydındır. Cilvə-cilvə ulduzlar hər gecə mənə şer söyləyir.

Hələ dərd dənizi məni udmayıb.

Hələ dünya ölümsüzdür.

Hələ bir səf qız, bir səf oğlan dərs oxuyuruq. Gözüm gözündə, ürəyim ürəyində.

Işıq selində üzürəm. Nağıl içində, əfsanə, yuxu içində üzürəm.

Hələ yolun başındayam.

Hələ dünya gözəldir. Gözəldən gözəl…

* * *

Mənimlə gözünlə danış. Mənimlə üzünlə danış. Amandır, sus, danışma. Sözlər səni oğurlayar. Sözlərin səndən çaldıqlarını mənə kim verər?

Bir kəlmə söyləmə, yalvarıram.

Sözlərdən qorxuram. Sözlərə güvənmə, sözlərə inanma, sözlərə aldanma, quzum.

Sakitcə dayan yetər. Mən səni kəlmə-kəlmə oxuyacam. Mən səni su kimi içəcəm. Mən səninlə ulduz dilində danışacam, Günəşlə Ay dilində danışacam. Üzünü mənə çevir və danış. Yetər.

* * *

Kainatın da sınırı, sərhəddi var. Kainat sonsuz deyil. Sonsuz, ucsuz-bucaqsız, sınırsız olan yalnız Allahın özüdür. Allahın yaratdıqları sınırlıdır.

* * *

Günəşin qapısı bağlandı. Nurlu üz qaraldı. Artıq mənim üçün Günəş yoxdur. O doğmur və batmır.

Günəş mənim üçün öldü.

* * *

Ən böyük istəyimi ən sona saxladım. Və sonda hər şeyi itirdim.

* * *

Mənim eşqim mənim azadlığımdır.

* * *

Sənə dalmaq, səni anlamaq üçün səssizliyə, sözsüzlüyə ehtiyacım var.

Yalnız Tanrının, peyğəmbərlərin və mələklərin şerə ehtiyacı yoxdur.

* * *

Mənim taleyimə düşən eşqi toxum kimi yüzillərə, minillərə səpəcəyəm. Bu toxumlardan cücərən eşqlər dünyaya sevgi, sevda, gözəllik gətirəcək. Eşqimi parça-parça edib milyonlarla insanlara böləcəm.

Bu eşq artacaq, böyüyəcək, yer-göy Füzuli eşqi içində olacaq.

Yüzillərdən, minillərdən gələn eşq nuru üzümə düşür.

Dünya eşq içindədir.

Insanlıq eşqə heyrandır.

Allah da eşqə vurğundur.

* * *

Şəkkak şeytanın ortağıdır.

* * *

Eşq yuxusu qəflət yuxusu deyil.

* * *

Quranın şeriyyatı şerin, nəsrin üstündə bir şeriyyatdır.

Quran şerlərin şeri, haqdan yaranmışların əşrəfidir.

* * *

Imamların müsibəti mənim müsibətimdir.

* * *

Türk dilinin haqqını özünə qaytarmağı şərəf və borc bildim.

* * *

Dünya dəyişəcək.

Allahın lütfü ilə insan yeni-yeni üfüqlərə çıxacaq. Məkan kiçiləcək, sürət artacaq, zamanın hüdudları dəyişəcək.

Zövqlər dəyişəcək, maraqlar rəngdən-rəngə düşəcək, ölçülər, dəyərlər yeni biçim alacaq.

Dəyişməyən, uca Sözün gözəlliyi olacaq.

Dəyişməyən, ilahi Eşq olacaq.

Dəyişməyən, ulu Tanrı olacaq.

* * *

Məhəbbət qürur, nifrət dağıdır.

* * *

Sürtülmüş, sönmüş Sözlərə bəkarətini, təmizliyini, zərifliyini, gücünü qaytarmaq, o sözlərin günahını yumaq mənə düşür. Mən o Sözlərin günahını öz boynuma çəkəcəyəm. Mən o Sözləri dupduru su kimi könüllərə qaytaracam.

Sözün nə suçu?

Suçlu bizik. Suçumuzu özümüz yumalıyıq.

* * *

Hər Söz yeni doğulan uşaq kimidir. Min illərdər yol gəlir. Seçilə-seçilə, arına-arına, durula-durula gəlir. Və işığa çıxır.

* * *

Dünyaya Söz gəlir. Hər Söz şerdə yenidən doğulur. Şeri quran, yaradan Söz nəfəsi ilə, hərarəti ilə şerə can verir. Duyğuların diriliyini, hərəkətini rəmzləşdirir, daşlaşdırır – əbədiyyətə köçürür.

* * *

Hərdən Sözlərin yuxusunu görürəm. Və hər dəfə sarsılıram.

* * *

«Leyli-Məcnun»u bitirdim. Sanki dünyada hər şey bitmişdi. Ümidlər, arzular tükənmiş, son damla da düşmüşdü.

Gözlərimi yumdum və içimdə dəhşətli bir ağrı hiss etdim.

Yazılmayanları yazmışdım.

Dilə gitirməyənləri gətirmişdim.

Günaha batmışdım.

Bu günahı yalnız Allah bağışlaya bilərdi.

Üzümü Allaha tutdum. Və yalvardım, əfv dilədim.

Allah məni bağışladı.

Allah məni Leylinin əzablarını duyduğuma bağışladı.

Şükür böyüklüyünə.

* * *

Canım, gözüm, əfəndim, sən o neyə sus deyə bilərsənmi? Sən o neyin hisə verilmiş səsini susdura bilərsənmi?

O neyə anladan lazım - bu qədər dərdi hara gətirirsən, ey qafil? Bu yer, bu torpaq, bu insanlara rəhmin gəlmirmi, ay zalım?

Allahın belə əfv etməyəcəyi günaha, suça batırsan.

Sən bu dərdi danışma, rəhm et, danışma. Dünya dağılar. Dünya yazıqdır, canım.

Elə dərdlər var onları danışmaq yasaqdır, canım. Yalvarıram, sus, danışma.

* * *

Nəfsim üçün istədiyim hər şey şerin ölümüdür.

* * *

Mən sənə acıdığım qədər, sən də mənə acı.

Dərdi çəkən bilər.

Bu dərdin məni nə qədər xoşbəxt etdiyini sənə necə anladım? Dərd işığını sənə necə izhar edim?

Qoy mələklər gəlsin. Mələk dilində hər şeyi sənə anlatsınlar. Mənim gücüm çatmaz.

* * *

Vəhşilər öz dərmanını özləri tapan canlılardır. Insan öz dərmanını tapa bilməyən canlıdır. Dərmanı tapılmayan dərdlər insanı insan edən dərdlərdir.

* * *

Sözlərlə sevişmədən yazmaq olmaz.

* * *

Leyli öldükdən sonra bütün ölümlər mənasını itirmişdi. Məcnun ölümü Leylinin ölümünü xatırlatdığı üçün dəhşət doğurur. Və Leylinin ölümü qədər insanı sarsıtmır.

Əslində, Məcnun da Leyli ilə birgə ölmüşdü. Sonra ölən sadəcə bir bədəndir – Məcnunun bədəni.

* * *

Yetərincə sevməyi bacarmamaq yetərincə insan olmamaqdır.

* * *

Eşqin əlifbası hər nəsil dəyişdikcə dəyişir. Və eşqin yorumu o qədər dəyişir ki, nəsillər eşq anlamında bir-birini anlamır.

* * *

Hər kəs cənnətə getmək istəyir.

Ölmək istəyən isə yoxdur.

* * *

Haqdan aldığımı xalqa verdim, xalqdan aldığımı haqqa verdim.

* * *

Allahım, mənim Sənə bir əmanətim var. Bu əmanəti yalnız Sənə etibar edirəm, Tanrım.

Əmanət – mənim ruhumdur.

Allahım, bu əmanəti qadına vermə, salıb sındıracaq.

Allahım, bu əmanəti insana vermə, anlamayacaq.

Allahım, bu əmanəti uşağa vermə, itirəcək.

Ota, çiçəyə, ağaca vermə, səssiz qalacaq.

Allahım, bu dünyanı düzünə oxuyub, tərsinə yozan, tərsinə oxuyub düzünə yozan mənim ruhumdur.

Yuxularında yalnız Səni görən mənim ruhumdur.

Dağdakı solmayan çiçəyi insan bilən, insanı yarpaq, tumurcuq, nar çiçəyi bilən mənim ruhumdur.

Sözlərin dilini bilən, Sözlərlə duran – Söz təşnəsi mənim ruhumdur.

Eşqin özü mənim ruhumdur.

Allahım, ruhum Sənə əmanətdir.

Amandır Tanrım, onu heç kimə vermə. Onu Özündə saxla.

Ona qıyma, Tanrım.

* * *

Səhranın qara küləyi başladı. Toz-duman içində öncə insanlar, sonra evlər, daha sonra küçə, şəhər itdi. Səhranın qumları burula-burula uğultu içində sovrulur, dünyanın gününü qara edirdi. Səhra cəhənnəm içində boğulurdu. Başları sarıqlı insanlar korlar kimi şəhərdə dolaşır, evlərinin yolunu tapa bilmirdi.

Dünya özü-özündən intiqam alırdı.

* * *

Insanı insan edən şerdir.

* * *

Mən görünəni yazdım. Görünməyəni yazmağa çalışdım. Görünməyəni görüncə görünənin bir pədə olduğunu anladım.

Dünyanın batini kimi Sözün də batinini sirr içində gördüm. Və bu sirri açmağa çalışdım.

* * *

Mən hamının bildiyini yazıram. Hətta hamının yaxşı bildiyini yazıram.

Hamının bildiyi Sözlər, hamının bildiyi gerçəklər insana ən yaxın və ən uzaq gerçəkdir. Insan bildikləri içində bilinməzdir.

Insan sirr içində sirrdir.

* * *

Özümə həqiqəti söyləyənə qədər yazacağam.

* * *

Yer üzünün ən böyük zalımı mədəniyyətlə silahlanıb mədəniyyəti dağıdandır.

* * *

Məndə bu dünyada çoxdan yaşamış, hamıdan çox əzab çəkmiş bir adamın əl boyda bir dəftəri var. Mən onu yuxuda tapmışam. Mən hər gecə bu dəftəri oxuyuram.

Və onu yazıram.

* * *

Hamı elə bilir ki, bu dünyada yaşamaq başdan-başa cavabdır. Amma bu dünyada yaşamaq başdan-başa sualdır.

Hamı elə bilir ki, bu dünyada yaşamaq təsdiqdir. Amma bu dünyada yaşamaq başdan-başa inkardır.

Ölmək yaşamaqdır, yaşamaq ölmək.

* * *

Allahın şah əsəri Insandır. Və qəribəsi budur ki, Şeytanın da şah əsəri insandır.

* * *

Allahını tapan Insanın bəndəyə sitayişi Şeytanın zəfəridir.

Şeytanını dərk edən Insan Allahın zəfəridr.

* * *

Dünyada elə şeylər var ki, onları yalnız duymaq olar. Onları yazmaq yasaqdır. O duyğuların sözə gəlməsi günahların günahıdır.

* * *

Bu dünya dəli bir dağ çayı kimi axıb gedir. Yalından alov tökülən qızmış ayğır kimi çapıb gedir. Gedir, arxasına baxmır.

Aramı, hüznü, səbri yox dünya qan içində çırpınan yaralı şir kimidir.

Baharı qış olmuş bülbüldür, xəzan döymüş çəmənlər dünya. Bu dünya əslini unudub.

Bu dünya daşa-daşa köpük olub.

Bu dünya Göylərdən ayrılıb yalnız qalıb.

Bu dünya Eşqə həsrət qalıb.

* * *

Öz içinə yönəlmiş insan fəlsəfəsi minlərlə insana xitab edilmədiyi üçün, minlərlə insanı orduya çevirmədiyi üçün, zəfər və qan, taxt-tac, səltənət davası etmədiyi üçün bəlkə o qədər də parlaq, gurultulu, dəbdəbəli olmamışdır.

Ancaq nə qədər qəribə olsa da, dünyada insanın özünə dediyi həqiqət qalib gəlir. Bu qələbə zərifliyin, ağlın, səmimiyyətin, mədəniyyətin, gözəlliyin – bir sözlə, eşqin qələbəsidir.

Insanın özünün belə güclə eşitdiyi pıçıltı lərzəyə salan gurultuya qələbə çalır.

Ürəyinin içində Allahını tapan, Allaha xitab edən, Allahla bölüşən insan ruhu zərifliyin, zəifliyin, həssaslığın, duyğusallığın, ağlın gücüdür.

* * *

Nə yazırsan yaz, nə duyursan duy, nə düşünürsən düşün, bir tək bu beytin ucalığına çıxmayacaqsan.

Ya Rəbb! Bəlayi-eşq ilə qıl aşina məni,

Bir dəm bəlayi-eşqdən etmə cüda məni…

* * *

Bədirlənmiş Ay süd kimi çılpaq bədənini barmaqları ilə gizlətmək istəsə də, gizlədə bilmirdi. Çılpaq Ayın gözəlliyi göydən daşıb yerə tökülürdü. Şairin gözləri bu gözəlliklə doludur.

* * *

Bədənin yeri, məkanı var. Ruhun yeri, məkanı yoxdur. Ruh hüdudsuzdur.

Bədən ruhun müvəqqəti, nisbi məkanıdır. Bir zaman gəlir və ruh öz nisbi məkanından ayrılır. Məkanda olduğu zaman yuxu pəncərəsindən özünə, sonsuzluğuna baxan ruh özünü yaşayır.

Və ruhun zamanı da yoxdur. Əslində zaman da bir məkandır.

Ruh zamana sığmadığı üçün, məkansız olduğu üçün onun ölçüsü insanın bilmədiyi bir ölçüdür. Insan ruhu dəyərləndirmək gücündə, qüdrətində deyil.

Ruh – Allahın xislətidir, Allahın ölçüləri içindədir.

Və ruhun bir varlığı da Sözdür. Yoxdan – bir nəfəsdən var olan Söz ruhun özü olmaqdan daha çox onun rəmzidir, əks-sədasıdır.

Və söz də ruh kimi əbədidir.

Sözün ölçüsü Tanrıdadır.

Can sözdür əgər bilirsə insan,
Sözdür ki, deyirlər özgədir can.

Təzadlar dolu dünyanın bir gerçəyi də budur.

* * *

Sənlə eyni bir səhrada yerimək istəyirəm.

Istəyirəm ləpirlərim sənin ləpirlərinə qarışsın. Və dünya qaldıqca qalsın.

Sənlə bir yağışda, eyni bir yağmurda islanmaq istəyirəm. Sonra o damlaları ovcuma yığıb qəbrimə aparmaq istəyirəm.

* * *

Bir nağılın gerçəyi sən, yalanı mən.

Bir yalanın nağılı sən, gerçəyi mən.

Bir gerçəyin yalanı sən, nağılı mən.

Sirr içində gizlənmişəm, gəl tap məni. Tap ki, mən də səni tapım. Heç olmasa tapa bilim.

* * *

Nə üçün sevdim?

Niyə aşiq oldum?

Eşq nə olan şeydir?

Bu suallara cavab verəcək qədər azad və xoşbəxt deyiləm. Kimsənin də belə azadlığa, xoşbəxtliyə qovuşduğunu zənn etmirəm.

* * *

Bu dünyanın ən gözəlini seçdim. Və onun da özündən gözəl olmasını istədim. Olmadı.

* * *

Adəm atanın Həvva anadan başqasını dəlicəsinə sevməsi imkansız idi. Çünki dünyada tək bir Adəm və tək bir Həvva var idi.

Həvva ana qısqancıydı. O, Adəm atanın bir qabırğasından yaranmışdı. Və yerdə qalan bütün qabırğaları dəlicəsinə qısqanırdı.

* * *

Dərdə dözəmmədim. Dərdimi Sözə dedim. Söz də dözəmmədi. Dərdimi açıb hamıya dedi.

* * *

Türkcə şer yazmaq Füzuli qarşısında imtahan verməkdir.

* * *

Sözün qıl körpüsündən keçməyən üçün yazmaq çox asandır.

Sözün qıl körpüsündən keçən üçün yazmaq məşəqqətdir.

* * *

Sözün ağır daşını qaldırırsan, altından əfi ilan çıxır.

* * *

Başqa dilin içində yaşayan doğma Sözlər qürbətdə yaşayıb qürbətdə ölən adamlar kimidir.

* * *

Başıma odlar yağdırıblar. Topla, tüfənglə gülləbaran ediblər. Zəhərli oxlar bədənimi dəlik-dəlik eləyib. Tənə, hücum, təhqir sağdan da yağdı, soldan da. Arxadan vurulan yaralar zəfər sayıldı.

Qol gücü, pul gücü, altun gücu düzü-dünyanı qarsıb keçdi. Bu zəbun durumda imkan tapıb atdığım ox-yayla düşmənləri gözlərindən vurdum.

Zülm artdıqca gücləndim. Düşmənimi sevəcək qədər ucaldım. Kini-küdurəti, zəhəri, silahı onlara bağışladım. Zülmü, qəniliyi, qəddarlığı onların öz boğazına asdım.

Allaha ulaşmaq üçün eşq yolun tutdum.

Getdim gedə bildikcə.

Sevdim sevə bildikcə.

Duydum duya bildikcə…

* * *

Səni gördüm. Ilk şeri mənə sən yazdın. Gözlərinlə, baxışınla, duruşunla dünyaya sözsüz şer gəldi.

Sonra mən yazdım, yazdım…

Fəqət, bu ilk şerə çata bilmədim.

* * *

Allahımı tapmamış səni tapdım. Sən mənə eşq dilini öyrətdin. Sən mənə uçmağı öyrətdin. Sən mənə Allahımın yolunu öyrətdin.

Allahımı tapdım. Tanrıma ulaşdım. Və səni unutdum. Özümü də unutdum.

* * *

Sən mənim şübhəmsən. Sən olmasan, mən həqiqətə çatmazdım.

* * *

Tövbə qapısına gəldim. Eşqdən başqa hər şeyə tövbə etdim.

* * *

Qara bayram keçirən şəhid anası kimiyəm. Sözlər zəhər kimi, qurşun kimi boğazıma tökülüb. Səslər içimdə əriyib. Işıq gedib, kölgə qalıb. Hər şey itib, hər şey qeyb olub.

Titrək, xəfif bir xatirə qalıb.

* * *

Cəhalətin sonu savaşdır, qandır.

* * *

Anlamağın bir dili də ağlamaqdır.

Anlamağın bir dili də gülməkdir.

* * *

Ölümü sevdirməsək insan qurtarmaz.

Ölümü sevdirməsək Vətən qurtarmaz.

* * *

Eşqim ölümüm qədər böyükdür.

* * *

Ən böyük qarğış insanın özünün özünə elədiyi qarğışdır.

* * *

Bu ömür bir göz qırpımında keçdi. Bir eşqə belə yetmədi.

Min il yol gəldi, bir göz qırpımınca sona yetdi.

Yaşanan gün keçmiş oldu.

Yaşanan eşq keçmiş oldu.

Hər şeyə əlvida.

* * *

Heç bir şeyə heyrət etmirəm. Çünki hər şeyin səbəbini bilmirəm. Səbəblərin səbəbinə söykənirəm. O, Allahdır.

* * *

Həyatı çirkab içində olan «müqəddəslər» başqalarını da çirkaba batırmaq üçün əllərindən gələni edir. Bu, onların silahıdır. Hamının çirkin olması «müqəddəslərin» xilasıdır. Maskalar və pərdələr dünyasının yaşam məntiqi budur.

* * *

Sözün hər növünə cumub söz yazmaq istəyən bədbəxt bir gerçəyi unudur: Bu haqqı Tanrı verir. Güclə, zorla, pulla, sərvətlə, hiylə ilə hər yapıla bilər. Ancaq gerçək Söz yapılmaz.

Keçmiş olsun.

* * *

Satdı böyüdü, aldatdı böyüdü, əyildi böyüdü. Allahı unutdu. Şeytana tapındı. Onu da aldatdı. Zavallı şeytana papış tikdi.

Hər şeyi ölçdü-biçdi, hesabladı, zamanı iylədi. Namusunu ayağının altına qoydu. Vəzir oldu. Dışa baxan uzman oldu. Ölçülərin, dəyərlərin itdiyi məmləkətin böyük adamı oldu. Goreşənlər içində anaş goreşən. Bir az alim, bir az siyasətpərdaz, bir az dəllal, bir az qoçu, bir az ayaqqabı yalayan.

Kərəminə şükür, Tanrım.

Dünya dönür, görək hara dönəcək. Şeytan tərəfə, yoxsa Tanrım tərəfə.

Günəşin batdığı, Ayın qaraldığı, ulduzların öldüyü məmləkət uzaqdan zavallı görünür.

Yazıq məmləkətim…

* * *

Allah ona ilham verdi. Söz verdi. Tale verdi. Hamısını deyil. Tox pişik kimi həyət dolaşdı. Qoçuların, pulluların əl tulası oldu. Başını ayaqlara sürtdü.

Hər şey aldı.

Allahın verdiklərini itirdi.

Içindəki üfunət, zillət, kibr quyusuna düşdü.

Qırmızı dağlar kövrəlib ağladı.

Dünya yaman dünyadı…

* * *

Alim yol dalınca, bərat dalınca, şöhrət dalınca getdi.

Igidi qan apardı.

Alimi yol apardı.

Alim öldü, aləm güldü.

* * *

Səsi var idi. Adam idi. Səsini itirdi, adamlığı da itdi.

* * *

Dilin sənə qənim olsun, ay dilçi.

Basdın bağladın. Həriflərə arif oldun. Aşağıların ağası, yuxarıların gədası.

Cavan yaşında qocaların gedə bilmədiyi əyri yolları birər-birər getdin.

Sıra gəldi. Sürətlə getdiyin yollarla üzüaşağı geri gəlmək.

Haydı!..

* * *

Türk, türk deyib tülkü oldu. Sağdan yedi, solu söydü, soldan yedi, sağı söydü.

Padşah qabağında diz çökdü.

Millətdən danışıb millətsiz oldu.

Balaca meydanların balaca Adamı.

Yazıqlar olsun.

* * *

Allah ona ən ağır cəza verdi. Nifrət etdiyi, içinə sindirə bilmədiyi türkcəni öyrənmək, araşdırmaq məcburiyyəti. Istəmədiyini yazmaq zilləti.

Sevmədiyini yazdı. Gözü götürmədiklərini gördü. Qanadsız yaşadı, paxıllıq içində boğuldu. Üz vəzifə qucaqladı. Qucağı boş qaldı. Boş çəllək kimi gurultusu guruldadı, partladı.

Türk dilinin altında yaşayıb türk dilinin altında da öldü. Yaşaya-yaşaya gözüaçıq öldü.

Gözünə torpaq tökməyəcəklər. Torpaq müqəddəsdir. Türk torpağından ona pay yoxdur.

Türkcə yazıb türkcəyə kin, ədavət bəsləyən siçangöz yazar pritça yazmağı hünər saydı.

Pusub vurmağı qeyrət saydı.

Qəzet filosofu qəzetlərdə çürüdü.

Yatıb yuxusunda Firon gördü. Tülkü kimi yaşayıb aslan kimi xəyala daldı.

Yazdığı dili bilmədi.

Yazdığı tarixi anlamadı.

Çirkab atdı, çirkabı öz başına töküldü.

* * *

Gücənib Söz yazan balaca adam yazar olmaq istədi. Qışqırdı, bağırdı, zarıdı, inlədi, söydü, çığırdı. Və ola bilmədi.

Qanmadı ki, qanmazlığı Sözə çevirmək özü də bir qanmazlıqdır.

FÜZULI GÖZƏLLIYI - FÜZULI AYDINLIĞIDIR

Ikimizin cəmi bizə az gəldi. Ikimiz bir olduq. Birimiz də az gəldi. Ikimiz də heç olduq. O da az gəldi. Hesabdan-kitabdan çıxdıq. Ölçülərdən qopduq. Nə ölçdük, nə ölçüldük. Bu dünyadan ayrıldıq. Tanrıya qovuşduq. Və bu dünyaya yenidən gəlmək istəmədik.

* * *

Gülün yuxusunu bülbülə söylədim. Bülbülün bağrı çatladı. Gülün ayaqları altına düşdü.

Bülbülün yuxusunu gülə danışdım. Qəh-qəh çəkib güldü, özündən getdi.

* * *

Sözüm minlərlə Sözün qanın içəcək. Sözüm minlərlə Sözün qəbiristanı olacaq. Sözümdə minlərlə söz boğulacaq.

Və sözüm yaşayacaq.

* * *

Bütün Sözlər içdən gəlir, ruhda, yetişir, mayalanır, dilə gəlir, dünyaya yayılır.

Quran kəlmələri göydən gəlir, içə keçir, ruhu oyadır, qana-cana hopur.

* * *

Ağlayanda üzümün eybəcərləşdiyini bilirəm. Və bu, mənə əzab verir. Gündüzlər ağlamıram. Adamlar yanında ağlamıram. Üzümün eybəcərliyindən utanıram.

* * *

Gecələr ağlayıram. Tənha olanda ağlayıram. Amma yenə özümü görürəm. Üzümü görürəm. Əzab içində ağlayıram. Üzümün eybəcərliyinə ağlayıram.

* * *

Bu savaşın böyük meydanında yoruldum. Bu savaşın böyük meydanı mənim yumruq boyda ürəyimdi. O da yoruldu.

Başımı ürəyimə qoyub həmişəlik dincəlmək istəyirəm.

* * *

Əgər dünyada Sözlər olmasaydı, lal-kar olardım və ömrüm boyu şer duyğusunu yaşamazdım. Inanıram ki, bu duyğu insanın bilmədiyi, duymadığı ilahi bir duyğu olardı.

Bu ilahi duyğunu maddəyə, gerçəyə çevirən Sözdür. Şerin Sözə enməsi ilahi duyğunun sona yetməsidir. Söyləmək nə qədər qəddar olsa da, bu, belədir.

* * *

Gerçəyin üstündə olan bir dünyanı yazdım. Gerçəyin üstü Allahın ayaqlarının altı imiş.

* * *

Bütün müqəddəslər üzlərindəki maskanı çıxardılar. Özləri özlərindən xəcalət çəkdilər. Və sakitcə getdilər.

* * *

O dünyaya bir xatirəmi aparacam. O xatirəni özüm özümə danışmağa da qıymıram.

* * *

Hərdən bədənimin başqa bir ruh tərəfindən əsir alındığını hiss edirəm. Əsir bədənimin bütün sarsıntılarını yaşayıram. Yaşadıqlarımı yazmağa çalışsam da, yaza bilmirəm.

* * *

Ədalətsiz bir işdə ədalətli bölgü aparmaq ədalətsizliyin ən böyüyüdür.

* * *

Ən dəhşətli qəzəb anında gülümsəyən adama bənzəyənlərdən qorx. Bu qəzəb sahibi qarşısındakı heç bir şeyə rəhm etməz.

* * *

Insanın xilası – eşq, dövlətin xilası – hüquq, toplumun xilası - Azadlıqdır.

Eşq, Azadlıq, Hüquq – dünyanın xilasıdır.

* * *

Allah dünyanı yaratdı ki, Onu görsünlər. Hər şeydə, hər yerdə Ona tapınsınlar, Ona qovuşsunlar.

* * *

Oğuz üslubunda yalın, şəffaf, açıq yazdım.

Quran üslubunda pərdəli, gizli, eyhamlı, məcazi yazdım.

Tövrat üslubunda sirli, sehrli, xoflu yazdım.

Və nəhayət, Özüm kimi yazdım.

Özümə yetişdim və dünyanı, tarixi, Allahı özümdən süzdüm. Özümü yazdım.

* * *

Bu sözlərin gözlərinin içindən Sənə baxıram. Bir gün bu Sözləri Sən oxuyacaqsan. Və yalnız mənim gözlərimə baxacaqsan. Bu sözlərin neçə yüz il əvvəl sənin üçün yazıldığını anlayacaqsan.

* * *

Qadın Allah əmanətidir. Qadını uca tutan toplum uca və yetkindir.

* * *

Hisə verilmiş bu ney səsi ürəyimi dartıb yerindən qopardı. Məndən alıb sözünün gəldiyi uzaq məmləkətə apardı.

* * *

Gecənin yeddi rəngini görürəm. Gündüzlər görmədiyimi gecədə görürəm. Ürəyimi gecəyə açıram. Gecə də dərdini mənə danışır. Suda çimən gümüşü Ay, isti-isti nəfəs alan qum səhrası, həyalı gecə olan varlıqlar bizi dinləyir. Gecə bizimdir. Biz gecənin.

* * *

Başımı qaldırıb qəflətən gördüyüm işığı öləziyən ulduz mənə səni xatırladır.

Bax, bu başını yana əymiş gözəlim ot mənə səni xatırladır.

Qızarmış payız yarpaqları, gecənin səssizliyi, dan çağının təmiz nəfəsi mənə səni xatırladır.

Səni nə xatırlatmır ki?!

* * *

Hərdən mənə elə gəlir, məni bir ulduz çağırır. Sonra səsindən utanıb gizlənir o ulduz.

* * *

Səni itirdim və səni hər yerdə tapdım.

* * *

Yazdığım bu Sözlər səni mənə gətirməyəcəksə, mən o Sözləri neyləyirəm?

* * *

Sirrimi sözə dedim. Söz məni satdı. Dediyimi hamıya dedi.

Sonra könlümü aldı.

* * *

Nəhayət, gecə gündüzdən intiqamını aldı. Yaşayan ölüm yerin üstünə çökdü.

Dünyanın ən böyük eşqi təmasa çevrildi. Yer üzündəki, göy üzündəki bütün eşqlər qapqara pərdəyə büründü. Büiün səyyarələr utanıb üzünü yan çevirdi.

Ulduzlar həsəd içində boğuldu.

* * *

Mən Səni minillərin tarixi içində görürəm və sevirəm. Sən bugünün Adamı deyilsən. Sən minillərdən gəlib minillərə gedən ilahi varlıqsan. Mənim sənə sevgim zamansızdır, zamana sığmazdır.

* * *

Əllərim saçlarında, gözlərim gözlərində, ürəyim ürəyində.

Şıdırğı yağmurdan sonra su içib doymuş səhra kimisən.

Yarpaqlarına vurulan ağac kimisən.

Bülbül səsinə qısqanan gül kimisən.

Göyərçin köynəkli dəniz kimisən.

Hər şeyinlə mənimsən.

Və mənim olacaqsan.

* * *

Bütün rənglərin qara olduğu ulduzsuz, aysız gecələrdə canımın yarısı sızım-sızım sızlayır, ürəyim qopub getmək istəyir.

* * *

Hər yuxarıdan baxan Allah olduğum şöhrəti, kədəri, müsibəti, xoşbəxtliyi aldım.

* * *

Mənim şerimdə, bir insan hüceyrəsinin quruluşu varsa, təəccüb etməyin. Bu şerlərdə ücsuz-bucaqsız zaman, məkan, insan varsa, yenə heyrətlənməyin. Şerlərimdə qızıl bölünmə, tənbölüm, nisbət, ehtimal, nizam, nizamsızlıq, düzüm, əks düzüm görsəniz, bunu təbii sayın. Gerçək də, gerçək olmayan da, olmuş da, olacaq da bu şerlərdədir.

Şerlərimi sidq ürəkdən yazdım. Duyğumu, sezdiyimi, yüxümü, göylərdən eşitdiklərimi yazdım.

* * *

Yazmaya bilmədiklərimi yazdım.

* * *

Şer yaza bilməyəndə Quranı oxudum. Şer yazıb əlimi qələmdən çəkəndən sonra da Quranı oxudum.

* * *

Ruh bədəni gözləməyib göyə çəkildi. Məhbəsdən qurtardı və azadlığına qovuşdu. Məhbəsin qapıları qırıldı, divarları uçuldu, daşı çökdü. Məhbəs məhbussuz qaldı. Və yerin təkinə çökdü.

Görünməyən rühün, məhbusun yeri qaldı.

Görünən bədənin – məhbəsin heç nəyi qalmadı.

* * *

Udduğum hava, yediyim çörək, içdiyim su mənim min illərdir hava udan, çörək yeyən, su içən adamlarla qohum olduğumu söyləyir.

* * *

Dünyada, şübhəsiz ki, sehr yoxdur. Sehrbaz var. Ən böyük sehrbaz şairdir.

Inanmırsan?

Məni oxu.

* * *

Fərdin gördüyü yuxu gücü Sözün gücünə təslim olur. Hərdən də ruhum gücü Sözün gücünə qalib gəlir.

* * *

Hərdən ruhumun gücü Sözün gücünə təslim olur. Hərdən də ruhumun gücü Sözün gücünə qalib gəlir.

* * *

Həmişə uduzan, canımın, bədənimin gücüdür.

* * *

Qalxdığım ucalıqda, endiyim dərinlikdə heç kimsəni görmədim.

Kimi görsəm, özümdən çox onun halına ağlayacam.

* * *

Mən məndən daha azad olanlara həsəd aparıram.

* * *

Bədənim zəiflər dünyasında, ruhum güclülər dünyasında. Bu ziddiyyət mənim yaşamımın təməlidir.

* * *

Yaşım Zamanı saya-saya gedir. Bu say bilmədiyi yerdən başlayır, bilmədiyi yerdə bitəcəkdir. Iki qeyri-müəyyənlik arasında müəyyənlik mənim ömrüm – bu dünyadakı həyatımdır. Yer gerçəyi budur.

* * *

Gücüm də yazmağımdı, gücsüzlüyüm də. Şərəfim də yazmaq, zəifliyim də. Yazmasam, yaşaya bilmirəm. Yaşadığım üçün yazıram. Allaha yazmağa qüdrətim yox. Özümə məktublar yazdım.

Şerlərim gecənin bir aləmində özümə yazdığım dərd məktublarıdır.

* * *

Hərdən özümə gülürəm. Özümə güldüyüm anlar mənim ən təbii, səmimi anlarımdır. Özümlə anlaşıram və gülürəm. Əslində, bu gülüş mənim sonsuz dərdimdən daha anlaşılmazdır. Və mən bu anlaşılmazlığı yazmaq üçün doğulmadığımı da anlayıram.

* * *

Ən çox sevmədiyim, içindəki fırtınanı bildirmək, onu ifadə etməkdir.

* * *

Ən müqəddəs duyğular yazılmaz.

* * *

Içindəki sarsıntını, dərdini yazmayan adam o dərdi, o sarsıntını əsli ilə yaşayan adamdır. Mən həmişə o adamdan utanıram.

* * *

Dərdimi danışıb dərdinizi azaltdım. Dərdinizi dərdimə qatdım. Sizi dərdsiz görmək istədim.

Bu qədər.

* * *

Şeytanın da mənə yazdırdığı sözlər var. Allah onların günahını özünün söylədiyi – mənim yazdığım Sözlərə bağışlasın.

* * *

Dörd tərəfin dəniz olsun, su olsun, dörd tərəfin səhra olsun, qum olsun, dörd tərəfin meşə olsun, ot olsun… nə dəyişər ki? Ada olan, yalqız olan yenə sənsən. Sən.

* * *

Hər sözün doğrudur. Ayrı-ayrı fikirlərin gerçəkdir. Bütövlükdə yanlışsan.

* * *

Mən kiməm?

Bir bikəsü biçarəvü bixanimanam.

Mən kiməm?

Iman adamıym. Imanlığın quluyam. Dərvişəm. Dərviş xislətimlə qürur duyuram.

Mən eşq əhliyəm. Eşqin hərifiyəm.

Mən zahidəm. Nəfsimin boğazı əlimdə.

Mən həyatdan çox ölümün meyarıyam. Çünki həyatın meyarı ölümdür.

Mən bilgəyəm. Düşüncələrimin, elmimin içindəyəm. «Elm kəsbiylə rütbeyi-rifət aruzeyi – məhal imiş ancaq» - deyirəm. Allahın elmə qoyduğu ölçüsünə sadiqəm.

Duyğuların əl-kimyası içindəyəm.

Mən gerçək bir adamam, türkəm, müsəlmanam. Inanıram və yazıram.

Və mən ilahi dəyərlərin yerə enəcəyinə inanan adamlardan biriyəm.

Hər şey keçib gedəcək.

Qalan Kim olacaq?

Mən Söz əsiriyəm. Sözlə yaşayıram və Sözün gözəlliyinə vurğunam.

Türkcə düşünürəm, dünya üçün, bəşər üçün yazıram.

Həm qalibəm, həm məğlub.

* * *

Məni unudan son adam qəbrimi qazacaq.

Və mən o gün öləcəm.

* * *

Yuxuların sərhəddi yoxdur. Həm O dünya var, həm Bu dünya. Həm övlan var, həm qalan. Yuxuların dili də birdir. Hamını anlayırsan və hamı səni anlayır. Yuxuların dostu, düşməni də yoxdur. Bir dərinlik var ki, o dərinliyi düzəyində anlayışlar, duyğular, sezgilər, ağrılar və sevinclər fərqlidir.

Yuxular uzaq keçmişin – neçə minillər öncənin və uzaq gələcəyin – neçə minillər sonraların birləşməsidir, zaman, məkan kəsilməzliyidir. Yuxu şeytanın mələklə bərabərləşdiyi və həmişəlik ayrıldığı rəngli boşluq, səssiz fəza və bu dünyanın dili ilə ifadə edilməyəcək bilinməzlikdir.

Bu dünyanın dilinə tərcümə olunmuş yuxular çox kiçik bir zərrəsidir – Sözə gələ bilənidir. Sözə, dilə və ümumən bu dünyanın məntiqinə gəlməyən, gələ bilməyən yuxular Allahın sirridir. Və ən dəhşətlisi budur ki, insan bu sirri heç vaxt bilməyəcək.

Şer yuxudan tökülüb qalan zərrələrdir.

Uzun gecələrdə, ulduzlu göylərdə, boş səhralarda, xəyallarımda, duyğularımda, dışımda, içimdə o zərrələri arayıram, o zərrələri axtarıram. Həmin zərrələrin içimdəki uyumunu, rahatlığını Sözə çevirmək, bu dünyaya demək istəyirəm. Bu dünyanı ovutmaq istəyirəm. Bu dünyanı əbədi yuxu gözləyir. Ədəbi yuxuya dualar yazıram. Eşqlərin ən gözəlini, ən hüzünlüsünü və ən sirlisini yaşayıram.

Eşqin də bir yuxu olduğunu anlamayacaq qədər təmizəm. Hər şeyin keçib getdiyi bu təmizlik içində tək varlığın olduğunu bilirəm. Və bu, mənə yetər. Daha nə lazımdır ki…

* * *

Sözümün Qanı sıçrayan misralarımı göz yaşlarımla yuyuram.

* * *

Qəbirdəyəm. Üstümdə gəzən qarışqanın ayaq səslərini dinləyirəm. Cücələrin dişlərinin xırçıltısını eşidirəm. Qəbrimin üstündə gəzişən göyərçin qanadlarının səsini də duyuram.

Və bu səslərdən zərrə qədər də qorxub çəkinmirəm. Taleyimin səs qismətini dinləyirəm, şükür edirəm.

* * *

Otun ota sevgisini yazdım. Dalğanın dalğaya, buludun duluda, ulduzun ulduza eşqini yazdım.

* * *

Bir şüşə qab əlimdən duşub sındı. Bu sınıb duşən qab mənim Vətənimdir.

Əlimi uzatdım, sınan şuşə qabın qırıqlarını yığmaq istədim. Əlimi yerə sürtdüm. Heç nə tapa bilmədim. Vətənim sınmış, Vətənim çilik-çilik olmuş, bu çiliklər də yox olub qeybə çəkilmişdi.

* * *

Mən şeri insanları gündəlik həyatdan qoparmaq üçün yazdım. Yazdım ki, insanları adilikdən çıxarım, qeyri-adi məxluq olduğunu anladım. Anladım ki, insan ilahi varlığın bir parçasıdır. Insan ölməyəcək ruh sahibidir. Və mən o ruhun dilini insanlara xatırlatdım.

* * *

Rəzil və qəddar adamın hökmranlığının səbəbkarı bizim içimizdəki rəzillik və qəddarlıqdır. Yaxud bizim içimizin rəzilliyə və qəddarlığa təslim olmasıdır.

* * *

Oxuyanlarım üçün mənim damla-damla, hissə-hissə ölməyim qədər gözəl anlaşılan, ürəkdən duyulan və sevilən başqa nə ola bilər?

Məni ölümlə söz-söz aparan şerim məni oxuyanları, məni dinləyənləri, məni sevənləri söz-söz həyata gətirən yoldur.

* * *

Unutduğum hər şeyi sözlər mənə xatırladır. Söz mənim üçün daddır, tamdır, istilik və soyuqluqdur, rəngdir, təmasdır, görünən və görünməyən hər şeydir. Mən yaratdığım qədər də Sözlər də məni yaradır. Mənim Sözə verdiyim dirilik, Sözün mənə verdiyi dirilik qədərdir.

* * *

Şeytan qədər şirin, mələk qədər acı Sözlər içimdə qövr eləyir.

* * *

Sözdən payız qoxusu gəlirdi.

Bu kimsəsizlik içində məni boğan boşluğun adı sakitlikdir. Qu deyirəm, qulaq tutulur. Bu qədər insan içində, bu qədər hay-küy içində bu qədər sakitlik hardandır?

Sakitlik girdabına düşmüşəm. Nə geriyə dönüş var, nə irəliyə ümid. Hər şey dönüb, hər şey sakitdir. Hər şeyi içimdəki hərəkətsizlik dondurub. Hər yer sükunətlə qovrulub.

Əzrayıl adlı mələyin bir adı da sakitlik, sükunət, hərəkətsizlik imiş.

* * *

Zəhərin tökmüş ilanın sakitliyi, həlimliyi var üzündə. Indicə bir canlı sənin zəhərinlə öldü. Allahın verdiyi həyata vida dedi o canlı. Sakit-sakit, razı-razı sürünən ilana baxıram və səni xatırlayıram. Sən o ilan kimi sakit, o ilan kimi xoşbəxt, o ilan kimi günahsızlıq pərdəsi içindəsən. O ilan kimi sən də günün altında ilışdayan soyuq dərini isitmək üçün qızmar, sakit, xəlvət yer axtarırsan. Itirdiyin zəhərin yerini doldurmaq istəyirsən. Özün özündən həzz almaq istəyirsən.

Yolun açıq olsun.

* * *

Hər şeyin gözəlliyindən, ülviliyindən danışmaq mümkündür. Xəstəliklə kasıbçılıqdan başqa.

* * *

Canımın qanın tökdün. Ruhumun qanını tökə bilməyəcəksən. Onun Qanı yoxdur. O bədənsizdir və azaddır.

* * *

Xəyanət və satqınlıqla əldə edilmiş azadlış vicdan qarşısında əbədi qul olmaqdır.

* * *

Sən öləcəksən. Səndən sonra etdiyin pisliklər yaşayacaq. Şeytan o pisliklərі götürüb Allahın dərgahına gedəcək. Gülə-gülə onları Allahın ayaqları altına atıb deyəcək:

- Mən demədimmi torpaqdan yaranan yalnız bunları etməyə qadirdi?!

Inandığı üçün səhv etmək bir şəxsə aiddirsə, o yanlış o şəxs üçün bəraət sayıla bilər. Əgər qurbanlar varsa, bəraətə haqq qazandırmaq olmaz.

* * *

Gücün gücsüzlüyünü, zəifliyini, qüdrətini anladım. Incitdiklərimin babalını boynuma aldım.

Anladım, bildim, dərk etdim, ağıllandım, ölçüb-biçməyi öyrəndim. Həyata yenidən başlamaq istədim.

Fəqət həyat keçmiş, bir ömür bitmişdi.

* * *

Dərdimi deyirəm – şer bilirlər. Sözlərlə ağlayıb, Sözlərlə inləyirəm – şer bilirlər.

Ölürəm, vəsiyyət edirəm – şer bilirlər.

* * *

Bu gözəl yay gecəsi yenə ölüm fürsətini bir ağacın altında salıb itirdim, tapa bilmirəm.

* * *

Mənə uzaq olanın Allaha yaxın olduğunu düşünürsənsə, yanılırsan. Məndən uzaq olan şeytanla nəfəs-nəfəsədir.

* * *

Gözüm gözünə sataşdı. Bu an mənim ömrümdən uzun, dünyanın ömründən qısa idi. Gözünə gözümlə dua etdim. Dunyanın ən məhrəm, ən uzun və ən qısa duası sənə idi.

Gözümü gözündən çəkdim. Dua bitdi. Dün bitdi. Mən bitdim.

* * *

Insanın varlığı Sözdür. Yuz minlərlə söz səslərdən yarandığı kimi cümlələri qurur. Bu səslər və cümlələr də insanın gizli varlığıdır. Bu dili bilən Allahdır. Bu dili öyrənmək istəyən Insandır. Insan Allahın sirrini açа bilməz. Çünki sirlərin sirri Allah sözüdür. Insan sirlərin milyonda bir zərrəsini açа bilər. Allahını dərk etmək üçün. Özünü anlamaq üçün. Allahdan qorxmaq və Allahı sevmək üçün.

* * *

Inandığım dünyanın adını tapdım: Islam.

* * *

Mən heç bir şerimi içimdən, qanımdan gələn gücdə yazmadım, yaza bilmədim. O gücdə şer yazmaq insan üçün gerçək deyil. O güc, o sürət, o işıq içində insan əriyib yox olar. O enerji insan hüdudlarını aşıb keçir.

* * *

Insanlar normal çərçivələrdə anormal olaraq sevir. Əslində, anormal çərviçədə normal olan maraqdır.

* * *

Sən mənim sönməkdə olan ruhuma işıq verən yeganə adamsan. Soyuq pərdənin içində yaşayan qızmar varlığınla mənə istilik verirsən. Təmiz ruhun Zamanın və Şeytanın içimə tökdüyü qaranlığı təmizləyir. Sənin bəyazlığından, işığından gələn ağ yol mənim varlığımın son yoludur. Fiziki varlığımın o yola zərrə qədər dəxli yoxdur.

Cismim o yola girmək haqqını artıq itirib.

Ağ yol ruhun yoludur.

Bilirsənsə, bağışla. Bilmirsənsə də bağışla.

* * *

Mənim sözüm bir qız uşağının ağ kəlağayı üzərinə toxuduğu naxışdır. O naxış toxuyan qızın o naxışın vurduğu anda duyduğu mübhəm istilikdir, naməlum istəkdir, hələ görünməyən yolun sirli-soraqlı çağırışıdır.

O qız bəlkə sən özünsən. O naxış da bəlkə elə mən özüməm.

* * *

Insanı fikir, ideya deyil, hisslər, ehtiraslar idarə edir. Böyük keçidləri, həlledici məqamları müəyyənləşdirən hisslər, ehtiras dolu anlardır.

Insanlığı da eləcə.

* * *

Qadın kişi cəsarəti göstərdiyi kimi, kişi də qadın cəsarəti, qadın qəhrəmanlığı göstərə bilər. Bunları ayırmaq çətin olsa da, mümkündür.

Qadın cəsarətinin zamanı kişi cəsarətinin zamanından kiçikdir, risk ehtimalı da yüksəkdir.

Qadın cəsarəti gözlənilmiz nəticələr verə bilər, amma böyük sonuclar verə bilməz.

* * *

Qadın mahiyyətcə dağıdan deyil, qurandır.

* * *

Şeytan qadında yaşayıb işini kişidə görməyi sevir.

Şeytan öz gücünü kişiyə deyil, qadına etibar edir. Inandığı üçün deyil, məqsədinə uyğun olduğu üçün bunu belə edir.

* * *

Bədii söz bəzən öz gerçəkliyi üçün hər şeyi qurban verir. Hətta gerçəkliyin özünü də.

* * *

Dünyanı tutan da bizik, dünyanı söyən də bizik. Dünya deyib duran da bizik. «Dünya, üzün qara olsun», - deyib üzünü o yana tutan da bizik.

Gözəl dünya, əzəl dünya, yalan dünya, ağır dünya, zalım dünya, fani dünya… Dünya, dünya və yenə dünya.

Bəlkə Allahın bir adı da Dünyadır?..

* * *

Savaş meydanında vuruşan, yaralanan, şəhid olan, qanını yalayan mənim millətimdir. Dünyanın ən dərdli türkülərini oxuyan, göz yaşı tökən də mənim millətimdir.

* * *

Ölümün səbəbi həyatdır. Həyatın səbəbi ölüm deyil. Iki qaranlıq arasında işıq. Iki işıq arasında qaranlıq.

* * *

Minlərlə uşaq öz atasından olmur. Minlərlə uşaq anaların ürəyindəki, beynindəki məchul adamlardan doğulur. Fiziki-bioloji törəmə mənəvi-ruhi törəmə ilə eyni deyil.

Ilahi, dunyada nə qədər bic vələdüznə var?

* * *

Insanlar nail olduqları, qazadıqları gerçək şeyləri deyil, uydurduqları şeyləri itirdikdə daha çox yanıb yaxılırlar.

* * *

Insan öz vətənində ya xoşbəxt olmalıdır, ya bədbəxt. Insanın başqa yurdu Vətən seçməsi bəri başdan bədbəxtliyi seçməsidir.

* * *

«Bu da gəlib, bu da keçər, ağlama» - başqa nə deyəsən?

* * *

Tarixi kəsik-kəsik, əlaqəsiz görənlər tarixi görməyənlərdir.

* * *

Söhbət necə olmaqdan deyil, necə olmamaqdan gedir. Necə olmamağın başında köləlik, müstəmləkə boyunduruğunda olmaq, kimliyini dərk etməmək dayanır.

* * *

Özünü padşaha bənzədən təzə məxluqlar yaranıb. Onun kimi danışan, əl-qolunu yelləyən, səsini ucaldan-alçaldan bu məxluqlar üçün müqəddəs heç nə yoxdur. Onları təbiətlə cəmiyyətin bic izdivacı yaradıbmı?

Bəlkə paranoidlərin yaranması da tarixi bir zərurətdir? Süni canlıların proqramlı idarəsi normaldırmı? Kim bilir?

* * *

Bir növ canlılar da yarandı. Onlar şər şeyə etinasızdır. Gücdən başqa. Onlar gücə gəlirlər, gücə qonurlar. Güc bitdikdən sonra baş alıb gedirlər. Onlar gücün qanını əmənlərdir. Bu yumşaq, məsum, mədəni məxluqlar güc, işıq parazitidirlər.

* * *

Hamımızda onun gücü var idi. Gücünü alıb güclü olmuşduq. Bəzən danlar, bəzən küsər, bəzən danışardıq. Bütün günahlarımızı onun boynuna qoyardıq. Bütün bunları bilmirdik.

Ölüm hər şeyin pərdəsini açdı. Hər şey olduğu kimi göründü.

* * *

Sevənlərə gecənin zindan olduğunu söyləyən, bu gecəni yaşayan qədər savab sahibidir.

* * *

Batı - dünyadan özünə qayıdan, özünə dönən idrak fəlsəfəsini, Doğu - özündən qopub dünyaya qovuşan, öz varlığını dünyanın varlığına dəyişən idrak fəlsəfəsini qəbul edir.

Və Günəş Doğuda doğduğu üçün həyat da ordan başlayır, həqiqət də, həqiqət haqqında elm də, həqiqət haqqında sənət də.

Və Füzuli bir Doğu şairi, filosofu kimi özündən dünyaya dönürdü.

* * *

Siyasətdə şərəf güdənlər uduzur. Ancaq bu da o demək deyil ki, siyasət şərəfsizlik sənətidir.

* * *

Öləcəyi qədər ölmüş Adamı dirilə biləcəyi qədər diriltməyin bir mənası varmı?

* * *

Elə söz var ki, yaşı çox keçmiş qadının uşaq doğmaq arzusu qədər təmiz və iyrəncdir.

* * *

Bu söz mənə analıq nurundan məhrum olmayan əxlaqsız qadın kimi baxır.

* * *

Mənim sözümü bir canlı olaraq görüb sevməyən, heç vaxt onu anlamayacaq.

* * *

Minlərlə il əvvəl yaşamış kəpənəyin nəfəsini duyuram. Bu kəpənəyin al-əlvan rənglərini görürəm. O kəpənəyin də mənim əlvan rənglərimi gördüyünə inanıram.

* * *

Mənim sözüm – mənim özüm. Bir körpə ovcuna düşən qar dənəsi. Bir an üçün olacaq. Əriyəcək. Yox olacaq. Olmayacaq.

* * *

Ruh – enerjidir. Günəşdən doğan işıq enerjisidir. Bu enerji heç nədən – boşluqdan başlayıb sonsuzluğa qədər uzanır. Və bəlkə Allahdan başlayıb. Allaha qədər uzanır.

* * *

Allah insana Ruhun sirrini vermədi. Allahın vermədiyini biz Allahdan ala bilmərik. Almağa da haqqımız yox.

Amma Ruh haqqında düşünmək, ruhu dərk etmək, duymaq, açmaq, aramaq ehtirası da insanın haqqıdır.

* * *

Insanın yaşadığı dəyərlər sistemi Sözün yaşadığı dəyərlər sisteminə çox yaxındır.

* * *

Mif – yalan, olmayan deməkdir. Bizim üçün yalan Tanrı üçün yalan deyil. Bizim üçün olmayan – Tanrı üçün olmayan demək deyil.

Yuxu da mifdir. Sözün özü bunu açıqlayır: yuxu-uyxu (uyku). Uymaq – yalan girdabına düşmək. Uydurmaq – yalan danışmaq. Ancaq yuxu da Tanrı gerçəyidir. Tanrının insana sirrini vermədiyi gerçək.

* * *

Hicrət peyğəmbərlərin qisməti – alın yazısıdır.

Hicrət bir qaçış deyil, arayışdır.

Din yolunda mücadilə, Milli kimlik və Milli Dövlət uğrunda mühacirət onun da alnına yazılıbmış.

* * *

Artıq sənə məndən çox mənim əksim lazımdır. Təmiz, hüznlü gözəl bir üz. Artıq mənim xatirəm məndən qat-qat əzizdir. Və mənim sənin üçün əziz, doğma, müqəddəs xatirə olmaq vaxtım yetişib.

Füzuli elm işığında

FÜZULI TÜRKLÜYÜ

Füzuli türklüyü Dədə Qorqud türklüyünün davamıdır. Anadan türk doğulub, gen-qan yaddaşı türkcə qurulan, təfəkkür tarixi türk şüur yolunu keçən Mövlanə Füzuli üç dildə qələm çalıb, üç dilin abidəsini yaratsa da, dünya poeziya tarixinə türkcə yazan türk şairi kimi daxil olub. Bu mənada Füzuli öz sələfi böyük qan qardaşı Nizamidən seçilir. Belə ki, Nizami ruhunun türklüyü fars dilinin arxasından, farsca kəlmələrin arasındakı boşluqdan və fars dilinə səpələnmiş türk kəlmələrində gerçəkləşən türklükdür.

Yəni başqa dil sistemi içərisində bərpa olunan türklük ayrı bir yanaşma üsulu, metodu istəyir.

Füzuli türklüyü anlayışı özümüzdə özümüzü axtarmaq üsuludur. Doğma türkcədə ana dilində reallaşan böyük bir mənzərə yaradan Füzuli türklüyü aşağıdakı amillərdədir:

Etno-sosial mühit özünəməxsusluğu, milli etnik toplum səciyyəsi;

Dünyagörüşü, şüur tipi, düşüncə yönü;

Təfəkkür tərzi, psixoloji tutumu;

Həyat tərzi, məişət tutumu, mədəniyyət konteksti;

Milli-bədii məntiq tipi;

Estetik qavrayış;

Əxlaqi-etik baxışlar.

Adlarını çəkdiyimiz bu amillər müxtəlif elmlərin kəsişmə sahəsindədir və onların birbaşa predmetidir və professional araşdırma tələb edir. Ayrı-ayrı səpkilərin öyrənməli olduğu bu yönümləri birləşdirən bir təməl var ki, bu da onların dilxarici, dilfövqü olmasıdır.

Bəs dilin özü necə?

Burada da yanaşma üsulu öyrənilən predmetdən asılı olaraq fərqlidir. Ərəb və fars dilində Füzuliyə yanaşma tərzi Nizamiyə və ya Xaqaniyə yanaşma tərzi ilə aşağı-yuxarı birləşir. Fərdi üslub sistemini nəzərə almaqla ərəb dilində Füzuli türklüyünü və ya fars dilində Füzuli türklüyünü öyrənən araşdırıcının qarşılaşacağı mənzərəni bəri başdan cızmaq çətindir. Hər halda, əlində türkcə Divan və yetəri qədər poemalar olan araşdırıcının ərəb və fars dillərindəki Füzuli türklüyünü açıqlaması üçün hər cür şərtlər hazırdır.

Şübhəsiz ki, türkcə əsərləri qarşımızda dayanan Füzulinin Türklüyü ilk növbədə dil-nitq sistemi ilə predmetləşir.

Burada açıqlanması gərək olan cəhət dildə gerçəkləşən Füzulinin türklük baxışları, türklük tutalqaları hansı vahidlərdə gerçəkləşir, bu sayaq araşdırma bizə nə verir?

Öncə bu sualın birinci hissəsini cavablandırmağa çalışaq.

Füzuli dilinin türklüyünün bəlirtiləri türk dili sisteminin bütün vahidlərini ehtiva edir:

a) Səs sistemi-fonemlər, superfonetik hadisələr;

b) Leksik sistem, gəlmə dağarcığı;

v) Frazeoloji vahidlər, deyim xəzinəsi;

q) Söz yaradıcılığı modelləri;

ğ) Sintaksis (cümlə və mətn);

d) Morfoloji və morfonoloji sistem;

e) Üslubi-poetik vasitələr (məcazlar, bədii intonasiya və ritm, təkrar sistemi, xüsusilə, alliterasiya və paralelizm, sıralanma poetikası, formullar, vəzn, ölçü, bölgü, qafiyə…).

Söhbət burada adı çəkilən vahidlərin tam elmi təsvirindən və ya linqvopoetik təhlildən getmir. Bu bir başqa yanaşma üsulu, yoludur.

Burada mətləb adı çəkilən vahidlərdə Füzuli türklüyünü gerçəkləşdirən dil-nitq mexanizmini öyrənib araşdırmaqdadır.

Qeyd edilən vahidlər, əslində, bütöv bir sistem – Füzuli dilini (əslində, Füzuli nitqini) təmsil edir ki, orada bu və ya digər vahidin ayrıca öyrənilməsi şərti səciyyə daşıyır. Və o sayaq müstəqillik də nisbi səciyyə kəsb edir.

Təsvir mərhələsi fonetik-qrammatik vahidləri bir bütöv kimi əhatə edirsə, üslubi-poetik baxış bədii-funksional aspekti ehtiva edir.

Bizim məqsədimiz türklük duyğusunun, fikrinin, düşüncə tərzinin sosial qurum, psixoloji aspekt, mədəniyyət konteksti ilə şərtlənən dil-nitq ifadəsindəki dəyərləri üzə çıxarmaqdır.

«Üçayaqlı» Füzuli nitqində (türk-ərəb-fars) dövrün yazılı ədəbi dilinin, xüsusən, divan ədəbiyyatının norması kimi meydana çıxan, poetik ənənənin qəlibləri içərisində (vəzn, üslubi-bədii fiqurlar…) yaşayan və aparıcı olan vahidlərin rolunu, mahiyyətini, funksional yükünü açıqlamaqdır.

Görünən və görünməyən, real vasitələrlə reallaşan və reallaşmayan Füzuli türklüyünün ən böyük tutalqalarından biri frazeoloji vahidlər – deyimlər sistemidir.

Bu yazıda bizim məqsədimiz nəzəri-linqvistik araşdırma, frazeologiyanın bir dilçilik sahəsi kimi incələnməsi deyil. Elmi təsnifat necə aparılarsa aparılsın, bu, ana təməli pozmur. Sözə ekvivalent olan deyimlər dilin ilk şeri, ilk məcaz yatırı kimi çox qədim və zəngin özəllikləri ilə diqqəti cəlb edir.

Belə ki, türk mühitində yaşayan və türk dilli sələflərinin davamçısı olan Füzuli bu deyimi işlədə-işlədə (1), dəyişə-dəyişə (2), yarada-yarada (3) Azərbaycan türk sözünü yeni bədii dünyaya çıxarmışdı. Burada söhbət yalnız kəmiyyətdən getmir. Bir sənətkar Füzulidən qat-qat çox deyim işlədə bilər. Ancaq onun söz dünyası olmaz. Məsələ kəmiyyətlə bədii keyfiyyətin vəhdətindədir. Əruzun qəlibləri, intonasiya modelləri içərisində ana dilinin canlı intonasiyasını saxlayan Füzuli deyimlərində sözün mayasındakı, toxuma və hüceyrələrindəki millilik qorunub saxlanmışdır.

Mürəkkəblik və mücərrədliklə səciyyələnən Füzuli nitqinin lorusaya qatı hələ də tamamilə açıqlanmayıb.

Özünü arayan və özünü axtaran Füzuli Məninin ifadəsi üçün yalınlıq, açıqlıq, bəsitlik və hətta sadəlik belə kifayət etmir.

Çünki mətləbin qəlizliyi, hadisənin qəlizliyi, iç dünyanın dolanbaclığı Füzuli mürəkkəbliyini doğurur. Bu mürəkkəbliyi zəruriləşdirir.

Farsca Divanının dibaçəsində şair bu fəziləti belə açıqlayır: «Lakin çətin anlaşılan ibarələrə və məzmun incəliyinə qarşı yaradılışımda bir məhəbbət vardır» (III, 20).

«Özünü rüzigarın yeganəsi görmək istəyən» şair – söz Peyğəmbəri Əhdi – cədiddən gələn «Ilk əvvəl Söz olmuşdur; Söz Allahındır və Söz – Allahdır. O əzəl başda Allahınkı idi. Hər şey onun vasitəsiylə yarandı və var olan hər şey onsuz olmadı».

Həyat Onun idi. Və həyat da insanların nuru idi. Nur zülmət içində parlasa da «zülmət onu anlamadı…» (Incil, Yəhyanın müjdəsi, I fəsil, 1-5).

Sözə bu sayğı və sitayiş Şərq ədəbiyyatının ruhunu təşkil edir. Və Füzulinin söz-ruhunda türklük duyğusu böyük sivilizasiyadan gen yaddaşınacan, adicə bir şirin, munis ifadədən dünya mənzərəsinəcək uzanan sonsuz bir yoldur. Şair yazır: «Bəzən türkcə şer meydanında at çapdım və türk zəriflərinə türkcə şerin gözəllikləri ilə zövq verdim. Bu da məni o qədər təşvişə salmadı, çünki türkcə Şer mənim əslimin səliqəsinə uyğundur» (III, 20).

Dildə frazeoloji birləşmələr ikinci nominasiya – adlandırma anlamındadır. Yəni bir mənada olan sözün məcazi yükü başqa anlamlı sözü ekspressiv yolla yenidən adlandırır, yəni daha dəqiq, daha qüvvətli münasibət funksiyası forma və məzmunca yeni dil vahidini ortaya çıxarır. Sözün məcazi gücü, potensial imkanı frazeoloji vahid üçün ilkin zəmindir.

Fəlsəfi yön, metaforik deyim tərzi, fərdi poetik deyim üslubu, özünəməxsus ifadəlilik, milli-etnik ekspressivlik, münasibət biheyviorizmi frazeoloji vahidlərin yaranmasının əsas motivləridir.

Füzuli deyimlərinin özünəməxsusluğu da məhz bu nəzəri kontekstdə dəyərləndirilə bilər.

Örnəklərin bir qisminə diqqət yetirək:

Ləli-nabin həvəsi bağrımı qan eylədiyin,
Ah kim, qanlı yaşım qılmadı izhar sana…

Bunca kim, guh sifət başimə daşlar urulur,
Dideyi-bəxtim oyanmaz, nə ağır uyğuludur…

Od çıxar ağzından, etməzmi həzər kim yanə şəm…

Xunabə töküb dideyi-giryanımdan
Sənsiz boyadım yer üzün öz qanımdan…
Siz dəxi mənim oduna yanman…
Ayaq basdım dəri ümmidə, sərgərdanlıq əl verdi…

Canını canana verməkdir kəmali aşiqin,
Verməyən can etiraf etmək gərək nöqsanını…

Dilbərin canə imiş qəsdi, Füzuli, gəl kim,
Can verib dilbərə, minnət qoyalım canimizə…

Zülmət ziyayə oldu qalib,
Yandırdı məşailin kəvakib…

Səndən xəciləm, üzüm qaradır,
Bəsdir mənə çəkdiyim xəcalət…

Əşk ləli rahi-eşqində tutubdur ətəyim,
Qorxuluqdur, necə salıb gedəlim yoldaşı…

Məlhəm qoyub önərmə sinəmdə qanlı dağı,
Söndürmə öz əlinlə yandırdığın çırağı…

Tabi-suzi-sinədən əksilməsəydi göz nəmi
Göz yumub-açınca seylabə verərdim aləmi.

Bu örnəklər Füzuli deyim işlətmə tərzinin kiçik bir fraqmentidir. Poetik vüsəti Füzuli sözünə xas çoxmənalılıq, incəlik və zəriflik tək bir örnək əsasında da açıqlana bilər.

Füzuli sözünün genişliyi Füzuli dünyagörüşündən qidalandığı üçün verilən örnəklərdəki deyimləri də bu dünyagörüş fəlsəfəsi ilə açıb təhlil etmək olar. Xalq dilində işlənən deyimləri Füzuli iki cür işlədir:

Xalqda olduğu kimi;

Fəallaşdırılaraq, özünəməxsus dəyişmələrlə.

Və bu deyimlərdə həqiqi məna ilə məcazi mənanın vəhdəti Füzuli bədii sözünün iksiri kimi burada da qorunub saxlanır.

Füzuli deyimi öz mənasında məntiqli olduğu kimi, məcaz anlamda – bədii abstraksiyanın ayrı-ayrı mərhələ və məqamlarında da məntiqlidir.

Füzulinin bədii məntiqinin ana xətti deyimlərlə qırılmaz şəkildə bağlıdır.

Füzuli deyimlərinin bir qismini kontektsiz nəzərinizə çatdıraraq əslində Füzuli dilinin lüğətində ayrıca yer tutan bu deyimlər müxtəlif baxımlardan da təhlil oluna bilər, xətt çəkmək, göydən yerə enmək, barmaq qaldırmaq, dəmirdən tən geymək, odlara yanmaq, can vermək, yaman gəlmək, qan-yaş tökmək, bəla çəkmək, əzab vermək, sayə salmaq, baş əymək, könül açmaq, intiqam almaq, qulaq tutmaq, qan uddurmaq, ayağa düşmək, könül vermək, ayaqdan salmaq, halına ağlamaq, heyrətdə qalmaq, yerə vurmaq, suya salmaq, ayağın çəkmək, imana gəlmək, həyat bulmaq, qəm çəkmək, üzünə durmaq, könlü açılmaq, nitqi tutulmaq, xərac almaq, yaxasın yırtmaq, başına yığmaq, yaxasın qurtarmaq, qanlını qan tutmaq, qan ağlamaq, can vermək, can alıcı, özün göstərmək, qan saçılmaq, əldən-ələ gəzdirmək, vəfa görmək, oduna yanmaq, qayğı çəkmək, hörmətin tutmaq, baş qoymaq, minnət çəkmək, üz döndərmək, yolun azmaq, dəva bulmaq, məlamət çəkmək, güdəza ver-

mək, heyrətdə qalmaq, bağrı qan eyləmək, göyə baş çəkmək, divanəliyə düşmək, xof çəkmək, növbət bəkləmək, könül yıxmaq, könül almaq, yuxusu haram olmaq, dərdə dəva bulmaq, ümid kəsmək, qürbət çəkmək, canı çıxmaq, dışraya salmaq, nəfəs çıxarmaq, könül bağlamaq, göz yığmaq, qəhrin çəkmək, eşqə düşmək, qan içmək, günü günə bərabər etmək, nəzərdən qeyb olmaq, bel bağlamaq, canın tapşırmaq, vəbalın boynuna qoymaq, gülünü yelə vermək, vücudundan keçmək…

Bu deyimlər Füzuli deyimlərinin kiçik bir qismidir.

Əhatə və ya yuva üsulu ilə bu deyimlərin tədqiqi dil tariximiz üçün çox əhəmiyyətlidir.

Füzuli böyük Islam şairidir. Bunu heç kəs inkar etməz.

Əslində, Füzuli bütün dinlərin şairidir.

Füzuli türk dilinin əvəzolunmaz ustadıdır.

Füzuli, əslində, bütün dillərin – insan dilinin ustadıdır.

Füzuli deyimlərində görünən bir həqiqət də budur.

FÜZULININ ŞER DILI

Azərbaycan dili tarixinin elə bir səhifəsi var ki, onda dilin bütün təcrübəsini, dünənini, bu gününü və sabahını görmək, oxumaq və dərk etmək mümkündür. Bu, Füzuli səhifəsidir.

Füzuli özünə qədərki edilmişləri, görülmüşləri bir qırağa qoymadan, onlara söykənə-söykənə Azərbaycan yazılı ədəbi dilini yeni imkanlar, yeni fikir, yeni dünyagörüş meydanına çıxarmışdır. Şer və elm, dil və insan anlayışlarını təcrübi və nəzəri şəkildə həll edən Füzuli duyğu dünyasının sonsuz çalarlarını yaşaya-yaşaya onun doğma dildəki bənzərsiz ifadəsini, səslənməsini almış və bu dildə maddiləşən hər şeyin elmi ölçüsünü kəşf etmişdir. Deyilə bilinməyən, sözə gəlməyən insan aləmi sözə gəldikcə, deyim bildikcə dilin Füzuli üfüqləri başlayır. Füzuli sözü deyilmişlərin deyil, deyilə biləcək Azərbaycanın xəritəsidir. Azərbaycan dilinin hər hansı problemindən danışırıqsa-danışaq, gəlib o yaddaşın, o məbədin qabağında dayanırıq ki, onun adı Füzulidir.

Füzulidən yazılan hər əsər özlüyündə bir cəsarətdir. Füzuli dünyasına girmək və bu dünyadan danışmaq cəsarəti hər adama qismət olmur. Bu gün haqqında danışacağımız kitab məhz belə bir cəsarətin ifadəsidir.

Uzun illər Füzuli sözünə vurğunluğun, gecəli-gündüzlü əməyin bəhrəsi olan bu kitab (S.Əlizadə, «Azərbaycan ədəbi dili tarixindən praktikum – Füzulinin şer dili: mətnlər, lüğət, şərhlər», Bakı, 1983) bir neçə cəhətdən qiymətli, çoxdan gözlənilən bir əsər kimi maraqlıdır. Burası da hamıya məlumdur ki, Füzulinin dilindən istər SSRI-də, istərsə də xaricdə xeyli iş yazılsa da, bu dilin sirrini tam açan, onun böyüklüyünü elmi məntiqlə təsdiq edən ciddi elmi araşdırma yoxdur. Elə bəri başdan deyək ki, bu kitab da həmin böyük ehtiyacı ödəmir. Ancaq bu kitabı oxuduqca, müəlliflə fikir bölüşə-bölüşə Füzuli söz dünyasında dolaşdıqca istər-istəməz fikirləşirsən ki, bu yol, bu üsul Füzulini açmaq, dərk etməkdə ağla qida verir, inandırır və gələcək işlərə ruhlandırır.

…Füzulini şərh edən müəllif ondan başlamışdır ki, böyük şairin yazdıqları təhrif olunmadan, ehtiyat və elmi qənaətlə təqdim olunmalıdır. Hər imla xətası, hər durğu işarəsinin yerində qoyulmaması Füzulidən uzaq düşməkdir. Çünki Füzuli kimi həssas bir şairi anlamaq üçün onu düz oxumalı, düzgün bilməlisən. Bu, Füzuli əsərlərinin tekstoloji tədqiqi və elmi-tənqidi mətninin dürüstlüyü, dəqiqliyi ilə bağlıdır.

Müəllif mətnin səhih-düzgün anlaşılmasını əsas prinsip kimi irəli sürür. Şerin lüğəti mənası birinci semantik plandır ki, onsuz növbəti qatların yolu bağlıdır. Bunun üçün müəllif «hər hansı beytin məzmununu oxuculara tədricən, pillə-pillə çatdırmağ»ı nəzərdə tutmuş və bu işin öhdəsindən lazımınca gəlmişdir. Ardıcıl lüğət və nəsrlə «çevirmə» Füzuli sözünün birinci mənasını aşkarlayır. Məhz bunlardan sonra Füzulinin geniş kontekstdə təhlili, anlaşılması gəlir ki, burada artıq Füzulini əhatə etmək qeyri-mümkündür; sadəcə olaraq, şairin sözündəki böyük məna və səslənmə, musiqi ecazkarlığı yalnız qismən, ancaq əsas ana xətləri ilə şərh edilir.

Maraqlıdır ki, tədqiqatçı, Füzuliyə münasibətdə olduqca realistdir. Realist alim gözü sehr dalında azmır, sehr kimi yolları arayıb-axtarır. «Füzuli sehrkar deyildi və öz ürəyinin qanı, dərin zəkası, gözünün nuru, fitri istedadı hesabına yaratdığı sənət incilərini layiqincə, ədalətlə qiymətləndirə bilməyən, çarəsizlikdən «sehr» adlandıran, onun özünü isə «əcaib üslublu» təbiri ilə səciyyələndirən müasirlərindən – adi oxuculardan tutmuş təzkirəçilərə qədər bir çoxlarından narazı idi». Ədalətli fikirdir və realist düşüncənin məhsuludur. Doğru-

dan da, cazibə qüvvəsinə sehr deyib rahatlanmaq, onu öyrənib dərk etməkdən olduqca asandır. Və sehr demək Füzuli sözünün böyüklüyündən çıxış yolu sayıla bilməz. Ancaq real görünən bir şey adamın gözü qabağında ağlasığmaz dərəcədə gözəllik, ahəngdar bir qüdrət qazanırsa, elə bu özü möcüzə deyilmi? Müəllif sözünə davam edərək yazır: «Lakin qəribədir, bu günün qədirbilən oxucuları da bəzən ona sehrkar kimi baxır, onun ucaltdığı möhtəşəm söz binasında hər bir daşın ülvi mükəmməlliklə cilalandığını görüb heyran qalırlar. Bu mənada Füzuli misra-misra, beyt-beyt böyükdür. Onun beytlərində qəfil bir şimşəyin parıltısı, əlçatmaz zirvələrin qüdsiyyəti var». Və bu sözləri oxuya-oxuya başa düşürük ki, Füzuli sehri insan əlinin, insan ağlının sehridir, gündə danışdığımız sözlərin möcüzəsidir.

Füzulinin özündən gələn bir sıra həqiqətlər var ki, onlarsız Füzuli sözünü başa düşmək mümkün deyil. Folklordan, özündən əvvəlki Şərq klassik ədəbiyyatından, dindən, fəlsəfədən, tarixdən aldığı işığı yeni bir işığa çevirən Füzuli insan ağlının və hissinin yeni hüdudlarına yetmək, dünyanın idrak yolunun yeni davamını tapmaq üçün üzünü doğma dilinə söykəmiş və doğma dil ona arzuladığı qüdrəti, umduğu gücü vermişdir. Araşdırıcı, Füzulinin gücünü ana dilində, ana dilinin gücünü Füzulidə axtarmış və tapdıqları ilə bizi sevindirmişdir. Nəvai və Nəsimi ilə aparılan müqayisələr, bədii təfəkkür tərzinin təkrarsızlığını göstərən dəlillər inandırıcıdır və ümid yaranır ki, gələcək tədqiqatlarında bu müqayisə meydanını genişləndirəcək, daha dərin qatlara enəcəkdir.

Müəllif bizim diqqətimizi o nöqtələrə cəlb edir ki, həmin nöqtələrdən yeni Füzuli görünür və əslində, bu, yeni Füzuli yox, yeni oxucudur ki, əzəli və əbədi Füzulini özü üçün yenidən tapır. Məsələn, Füzuli dilindəki obrazlılığı açan tədqiqatçının qeydlərinə diqqət yetirək:

«…Füzuli dili mücərrəd və konkret məfhum bildirən sözlərin obrazlılıq məqamında bir-birinə «çevrilməsi»… baxımından məhdudiyyət bilmir – nəinki cansız predmetlər şəxsləndirilir, canlı əşya məfhumunu ifadə edir, hətta sırf mücərrəd olan məfhumlar da reallaşdırıb konkretləşdirilir…»; «Füzuli isə belə ifadələr hesabına ədəbi dilin yaradıcılıq qüvvəsini artırdı, bədii dil üçün yeni üfüqlər açdı və nəticə etibarı ilə leksik-semantik, semantik-üslubi imkanların gələcək inkişafı üçün tam şərait yaratdı»; «Füzuli… sözün (məfhumun) məna sərhədini genişləndirdi…»

Kiçik bir qismini verdiyimiz bu fikirlər Füzuli dilinin elmi tədqiqi üçün, sırf poetik araşdırma üçün olduqca vacib məsələlərdir. Çünki «Füzuli ifadəsi», «Füzulinin gözəl ifadəsi», «dahiyanə məcazı» demək asandır, Füzuli sözünün, məcazının anatomiyasını açmaq çətin…

Təsadüfi deyil ki, müəllif heyrət və tərəddüdünü də gizlətmir, sənətkar intuisiyası, qanunauyğunluq dilemması qarşısında dayanır və öz fikirlərini məntiqlə sübuta yetirməyə çalışır. Füzuli dilini geniş kontekstdə, ədəbi dilimizin inkişaf qanunauyğunluğunda alıb götürdüyü üçün tədqiqat ciddi, sanballı təsir bağışlayır.

Kitabın konkret təhlilə həsr olunan hissəsi də orijinal təsir bağışlayır. Belə ki, müəllif burada ayrı-ayrı qəzəlləri (müxtəlif baxımdan seçmə qəzəlləri) beyt-beyt sıralayır, çətin anlaşılan sözlərin lüğətini elə oradaca verir və sonra beytin müstəqil və məcazi mənalarını açır. Istər orta məktəb, istərsə də ali məktəb təcrübəsi bu sahədə ciddi çatışmazlığın olduğunu göstərir. Füzulini sevmək, özünü Füzuli şerinə hazırlamaq, böyük şairin dünyasını dərk etmək üçün onu anlamalısan, ilkin çətinliyə dözməlisən. Məhz təcrübə baxımından bu sayaq

təqdimat uğurludur. Arzu olunur ki, gələcəkdə də Füzulinin Azərbaycan dilindəki Divanı, poema və qəsidələri belə bir şəkildə çap olunsun, hər halda, nümunə çox maraqlıdır. Təbii ki, Füzulini açmaq, hüdudlu olmadığı üçün əsas məna-məzmun xüsusiyyətlərini göstərmək bu işdə başlıca məqsəddir və növbəti işlər bu mərhələdən sonra başlayır.

Nümunə üçün bu beytlərdən birinin şərhinə diqqət yetirək:

«Dəhrdə həmta sənə var pərirux desəm,

Var gözəl çox, vəli sən kimi xunxarə yox».

«Dünyada sənə tay pəri üzlü var desəm, çox gözəl var, amma sənin kimi qaniçəni yoxdur».

«Qaniçən» sözünü məcazi – «amansız» kimi başa düşmək lazımdır. Lakin beytin məzmunu göstərir ki, «qaniçən» obrazı gözələ mənfi münasibəti bildirmir. Demək, obrazı doğuran real şərait təsəvvür edilməlidir. Daha doğrusu, həmin gözəl aşiqin ürəyində daima yer tutmuşsa, ürəkdən də həmişə qan keçirsə – gözəl qaniçəndir; yaxud gözəlin surəti əbədi olaraq aşiqin qanlı yaşlar axan gözündə əks olunmuşsa, onda gözəl yenə qaniçən olur. Əslində, aşiq demək istəyir ki, gözəl çoxdur, lakin könlümdə, gözümdə bir sənsən. Bayatıda olduğu kimi: «Gözdə, könüldə sənsən, düşərmi kimsə yada?»

Üç yüzdən yuxarı beytin dəqiqliklə izahı, Füzuliyə yaxınlığı, Füzuli ilə yaşamağı göstərən dəlildir.

Sonda verilmiş sual və tapşırıqlar və ərəb əlifbası ilə verilmiş nümunələr də maraqlıdır.

Ibrətli kitab o kitabdır ki, onun son cümləsində nəsə bitsin və nəsə başlasın. Bir dünyanın, bir təbiətin bitdiyi yerdən o biri dünya, o biri təbiət bitsin, cücərib kök salsın. Biz S.Əlizadənin bəhs etdiyimiz kitabını oxuyanda hiss etdik ki, ibrətli kitabla üz-üzə dayanmışıq. Və biz bunu da açıq-aydın hiss etdik ki, Füzulini bildikcə az bildiyimizi, öyrəndikcə az öyrəndiyimizi, dərk etdikcə az dərk etdiyimizi gizlətməyə ehtiyac yoxdur. Füzuli sözü tükənməzdir və bu tükənməzlik yaradıcılıq eşqi, zəhmət eşqi istəyir.

…Cəmi beş çap vərəqi həcmi olan bu kitabı biz bir neçə aya oxuyub başa çatdıq. Ona görə yox ki, tənbəllik etdik. Əvvəla, ona görə ki, hər cümlədən sonra düşündükdə kitab o qədər də tez oxunmur. Oxucu müəlliflə söhbət edir, mübahisəyə qalxır, Füzulini nədəsə müdafiə edir, nədəsə Füzulini haqlı bilir, nədəsə müəllifi qınayır, nəyi isə özü yazmaq istəyir və çox şeyləri fikirləşərkən dərindən nəfəs alıb rahatlanır ki, nə yaxşı bizim Füzulidən süzülüb və ürəyində Füzuli gücünü söz-söz saxlayıb. Füzuli yaddaşı olan dil sonsuz imkanlarını görən, ona inanan və müqəddəslik adlı ucalığa yüksələ bilən, torpaq adlı doğmalığa enə bilən qüdrəti tanımaqdır, bilməkdir…

Və bu kitabı oxuduqca müəllifin yazmadığı fikirləri, demədiyi mətləbləri, şərh etmədiyi beytləri, misraları da oxuduq. Bizə elə gəldi ki, böyük bir kitab oxuduq. Çox istərdik ki, istedadı və sevgisi, zəhmətsevərliyi və inadı belə bir fundamental kitabını yazmağa bəs edəcək füzulişünas. Samət Əlizadənin indi yarpaq-yarpaq yazılmaqda olan gələcək kitabını tezliklə görək, sevinə-sevinə alaq və uzun zaman oxuyaq.

Yazı 1983-cü ildə qələmə alınıb. Allah böyük Füzulişünas-alim S.Əlizadəyə qəni-qəni rəhmət eləsin.

ORTAQ SÖZ SƏRVƏTIMIZ HAQQINDA SÖZ

Azərbaycan xalqının zəngin şifahi və yazılı ədəbiyyatının sərhədlərini indiki Azərbaycan Respublikasının hüdudları ilə ölçmək olmaz. Kökü ortak türk ədəbiyyatı ilə bağlı olan ədəbiyyatımızın qan yaddaşı olduqca dərin və zəngindir. Qədim şumer ədəbiyyatından – ölməz «Qılqamış» dastanından nəşət tapan qədim iskit və hun dövründən Göytürk zamanına qədər pillə-pillə irəliləyən bu ədəbiyyatın yalnız folklor nişanələri zamanımıza gəlib çatmışdır. Acı savaşlar, fasiləsiz köçlər, mərhəmətsiz düşmənlər bizim abidələrimizi, yaddaşımızı məhv etmək, itirmək üçün əlindən gələn hər şeyi etmişdir. Əlyazmalar, salnamələr yandırılmış, qan yaddaşı isə yanmamış zaman-zaman, yaşayaraq türk xalqının mənəvi qüdrətini, mədəni vüsətini, daxili həyəcanlarını, iztirablarını, ümidlərini və sevinclərini yaşatmışdır.

Türk xalqlarının və ümumən türk dünyasının ortaq dəyərləri hər bir türk xalqı üçün doğmadır. Orta Asiyada qələmə alınan Kaşqarlı Mahmud «Divan»ı Azərbaycan türkcəsi, Azərbaycan ədəbiyyatı üçün nə qədər dəyərlidirsə, Azərbaycan coğrafiyasında formalaşan Dədə Qorqud oğuznamələri də bütün türk xalqları üçün o qədər əziz və doğmadır. Və bu gün özbək, türkmən, tatar, qırğız, qazax, Azərbaycan… türklərinin ortaq dəyərləri deyərkən ortaq mifologiya, dastan ədəbiyyatı, folklor ortaq yazılı abidələri əhatə edən sözdə, dildə reallaşan mədəniyyət sisteminin bütövlüyü nəzərdə tutulur.

Qədim dövrə getdikcə izolə edilmiş mütləq anlayış kimi «Azərbaycan mifologiyası», «Azərbaycan mədəniyyəti», «Azərbaycan dili…» anlayışları özünü doğrultmur. Türk dilləri tarixi inkişafının ulu türk (prayazık) və kök dil (protoyazık) mərhələsində heç bir konkret türk dilindən söhbət gedə bilməz. Ən qədim türk düşüncə, təfəkkür sisteminin formalaşması məhz ulu türk dövrünə bağlıdır.

Yalnız şərti mənada işlənilə bilən Azərbaycan mifologiyası termini yalnız çağdaş təsəvvür, coğrafiya, ölkə mənasında bir növ ictimai-siyasi səciyyə daşıyır və şübhəsiz ki, mifoloji sistemin bərpası, tarixi, formalaşması anlamında yalnız türk mifologiyası («Tyurkskaya mifoloqiya») termini doğrudur. 30-cu illərə qədər (Stalin rejimi ilə bağlı) gen-bol işlənən və Füzulidə, Mirzə Fətəlidə, Üzeyir bəydə, Mirzə Cəlildə və yüzlərcə qaynaqlarda türk sözü ümumtürk anlayışı ilə bərabər, konkret türk etnosunu – Azərbaycan türklərinin də adını ifadə etmişdir.

Firudin bəy Köçərlinin 1903-cü ildə çap olunan «Azərbaycan türklərinin ədəbiyyatı» kitabı Azərbaycan ədəbiyyatı tarixinin başlanğıcıdır. Və böyük ədəbiyyatşünasın «Azərbaycan ədəbiyyatı tarixi materialları» adı ilə məşhur olan və «Azərbaycan ədəbiyyatı» adı ilə çap olunmuş ikicildliyinin əvvəlində («Bir neçə söz») müəllifin qeydləri xüsusilə qiymətlidir. Onların çox az bir qisminə diqqət yetirək.

«Amma bilmək gərəkdir ki, hər bir millət öz məkanından istmal etdiyi sözlərin icad və ixtirası üçün uzun ömürlərə sərf edəndir».

«Azərbaycan türklərinin dəxi özlərinə məxsus ədəbiyyatı vardır. Bu türklər Zaqafqaziyanın şərq və cənubunda sükna edən Şəki, Şirvan, Səlyan, Bakı, Gəncə, Qazax, Qarabağ, Irəvan və Naxçıvan əhalisindən və Iran dövlətinin şimali-şərqində güzəran edən əqvali və tə-

vayifdən ibarətdir. Azərbaycan türklərinin danışdığı dilin şivəsi çox isə də, *«binası və kökü birdir»* (kursiv bizimdir – K.V.).

Biz də «kökü və binası bir olan» ümumtürk ədəbiyyatının zənginliyini ortaya qoyarkən heç bir şey itirmirik. Əksinə, söz sənətinin əbədi birliyinin, dərinliyinin, vəhdətinin mənzərəsini alırıq. Və bu kök üzərində formalaşan Azərbaycan ədəbiyyatı türk dünyasının ayrılmaz hissəsidir. 20-ci illər Azərbaycan şerinə Tofiq Fikrətin, 60-cı illər Azərbaycan nəsrinə R.N.Güntəkinin, müasir poeziyamıza N.Hikmətin təsirini kim inkar edə bilər?

Ümumtürk şerinə Sabirin, türk satirasına «Molla Nəsrəddin»in təsirini danmaq olar? Əbdüllah Hamid və Hüseyn Cavid yaradıcılığını ayrı-ayrılıqda təhlil etmək düzgündürmü?

Çağdaş türk şerinə sərbəst vəzn və ağ şer üslubuna R.Rzanın təməl yolu və təsirini inkar etmək olarmı?

M.Şeyxzadənin müasir özbək ədəbiyyatındakı rolunu və ya Çingiz Aytmatovun müasir ümumtürk nəsrinə təsiri geniş şəkildə araşdırılması zəruri olan mövzulardır.

Bu mənada sərhədsiz söz sərvəti anlayışı yalnız Güney və Quzey Azərbaycana deyil, kökü Orxon abidələrinə, K.Mahmuda, Y.X.Balasaqunluya, «Kitabi-Dədə Qorqud»a, Əhməd Yasəviyə, Ə.Yuqnəkiyə, Y.Əmrəyə, Nəsimiyə, Babura, Nəvaiyə, Füzuliyə, Mahtımquluya, eləcə də «Manas»a, «Alpamış»a, «Koroğlu»ya, «Koblandı Batar»a, Qaracaoğlana, Aşıq Ələsgərə… söykənən türk dünyası ədəbiyyatını əhatə etməlidir.

Azərbaycan ədəbiyyatının özünəməxsusluğu, öz fenomen rolu və XIX əsrdən bu günə qədər dünya ədəbiyyatının tərkib hissəsi kimi təqdim etdiyi zəngin örnəklər ümumtürk dəyərlərin şakəri dyil, bilavasitə təsdiqidir.

Bu mənada milli ədəbiyyat və milli elm bəşəri elmdən ayrılmazdır və bəşəri mədəniyyətin dərki milli özünüidrakdan başlayır.

Milli özünüidrakda epos mədəniyyəti önəmli bir yerə, rola malikdir.

Əlbəttə ki, Azərbaycan ədəbiyyatı anlayışını elə bir əhatədə götürmək lazımdır ki, mühacir ədəbiyyatı və zəngin Cənubi Azərbaycan ədəbiyyatı onun dışında qalmasın. Azərbaycan istiqlalı uğrunda böyük bir mücadilə yolu keçən Almas Ildırım, Kərim Odər, Əbdül vahab Yurdsevər, Əhməd Cavad… kimi sənətkarlar, M.Ə.Rəsulzadə, Mirzə Vali, Ə.Cəfəroğlu… kimi siyasətçi-alimlərin əsərləri Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslığının qızıl fondunu təşkil edir.

Ə.Cəfəroğlu hələ 1931-1932-ci illərdə yazdığı «Azəri ədəbiyyatında istiklal mücadiləsi izləri», eləcə də «Modern Azərbaycan ədəbiyyatına toplu bir baxışı» seriya məqalələri baxımdan diqqəti cəlb edir.

M.Ə.Rəsulzadənin onlarca məqalələri və «Əsrimizin Səyavuşu», «Çağdaş Azərbaycan ədəbiyyatı», «Çağdaş Azərbaycan tarixi» kitablarında Azərbaycanın məhkum siyasi həyatının təsviri ilə yanaşı, milli ədəbiyyatımızın mahiyyəti, mövcud durumu, geniş şəkildə şərh və təhlil edilmişdir.

Böyük öndər M.Ə.Rəsulzadənin aşağıdakı sözləri onun bütöv şəxsiyyətini, siyasi qətiyyətini tamamladığı kimi, «Sovet rejimlərində Nizaminin türklüyü niyə öyrənilmir?» sualını qoyan və həmin suala böyük bir monoqrafiya ilə cavab verən ciddi və kəsərli qələm sahibi kimi səciyyələndirir: «Dünya tarixinin xülasəsi» haqq ilə batil, hürriyyətlə əsarət mübarizəsinin bir ifadəsidir. Bir yandan hürriyyət və demokratiya, o biri yandan isə totalitarizm

ilə kommunizm cəbhəsinə ayrılan bugünkü dünya mənzərəsi həmin mübarizənin yeni böyük qarşılaşması deməkdir. Bu da son qarşılaşmadır. Bu mübarizədə həqiqi ədib və şairlərin vicdanına tərcüman olan böyük şərhçilərə görə vətən, hurriyyət və istiqlal ideallarına bağlı qaldığını güclü surətdə elan edən milli Azərbaycan türklüyünün yeri çoxdan təyin olunmuşdur. Müqəddəratını hürriyyətsevər millətlərin və mədəniyyət dünyasının müqəddəratı ilə bağlamış Azərbaycan hürriyyət və demokratiya cəbhəsinin son və qəti zəfərinə əsla şübhə etməz! Duyduğu min bir iztirabdan sonra arzuladığı hürriyyət və istiqlalına qovuşacaq, şair Gültəkinin bu beytini zəfər sevincləri içində təkrar edəcək:

Sən bizimsən, bizimsən, durduqca bədəndə can,

Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!.. (M.Ə.Rəsulzadə)

* * *

Türk xalqlarının tarixini və mədəniyyətini əks etdirən qaynaqlar daha çox şifahi yaddaşla- ağızdan-ağıza keçə-keçə yaşayan söz sənəti örnəkləri ilə bağlıdır. Yandırılan salnamələr, yasalar, kitabələr, bitiklər, unudulan qayaüstü cizgilər və rəsmlər, damğa və yazı gələnəyi folklorla çiyin-çiyinə yaşayaraq xalqın tarixini, mənəviyyatını yaşatmışdır. Bu abidələrin sırasında oğuznamələr ayrıca bir yer tutur. Oğuznamələr – türk xalqının həyatını, mübarizəsini, mənəviyatını obrazlar, bədii lövhələrlə əks etdirən ədəbi-tarixi qaynaqlardır. Oğuz tarixi, oğuz düşüncəsi ilə oğuz epik ənənəsini üzvi şəkildə birləşdirən oğuznamələri yaradan qam-şaman-ozan-baxşı-akın deyilən qədim söz ustaları, mənəviyyat aləmini sənətdə yaşadan «haqq təala könlünə ilham etmiş» ustadlar olub. Üç oğuz, altı oğuz, doqquz oğuz, dış oğuz, iç oğuz adı ilə məşhur olan Göytürk xaqanlığının aparıcı qolları kimi yabqu ünvanı ilə ad-san qazanıb Oğuz yabqu dövlətini quran iyirmi dörd sapcaq bəyinin birliyini təmsil edən və Oğuz Ataya bağlı bu türk tayfalarının VII-VIII yüzilliklərdə Tula çayı sahillərində, IX-XII əsrlərdə Sir Dərya sahillərində və Türküstan çöllərində, V-VI yüzilliklərdə, sonra IX-XI əsrlərdən başlayaraq Qafqazda Azərbaycana vaxtaşırı axınları və öz həmdilləri oyraq türklərlə birgə Azərbaycan xalqının soykökünün əsasında dayanması tarixin danılmaz faktıdır. Qədim və orta əsrlər dünyasında Azərbaycanın oynadığı geosiyasi rol, iqtisadi-mədəni əlaqələrdə daşıdığı funksiya türk dilini Azərbaycan üçün (sonralar bütün Avroasiya üçün) vahid ünsiyyət dilinə çevirmişdi.

Ictimai-siyasi dominant olması, mədəni-iqtisadi imkanların türk dilinin gələcək taleyi üçün təmsil olmuşdur.

Türk mifoloji düzümünü zaman-zaman saxlayan oğuznamələr türk epik ənənəsinin, etnomədəni sisteminin daşıyıcısı kimi istər Şərq (Türkistan, Sibir), istərsə də Qərb (Azərbaycan, Ön Asiya) variantlarında Mete haqqında verilən yarıtarixi, yarıəfsanəvi yadigarları, Oğuz Kağan dastanını, eləcə də Rəşidəddinin (XIV əsr), Yazıçıoğlu Əlinin (XV əsr), Hafiz Abrunun (XV əsr), Həsən Bayatlının (XV əsr), Salır Babanın (XVI əsr)… əsərlərindəki ayrı-ayrı hissələr, qeydlər, eləcə də Çin, ərəb və fars dillərindəki mənqabələr, qaynaqlar oğuznamələrə işıq salan ədəbi-tarixi mənbələrdir.

Bu oğuznamələrin rəmzə çevrilmiş örnəyi «Kitabi-Dədə Qorqud» dastanlarıdır.

Bugünümzə gəlib çatan bir müqəddimə, on iki boy – on iki oğuznamə böyük oğuznamə mədəniyyətini əks etdirən ensiklopedik səciyyəli, çoxsaylı, çoxqatlı nadir bir ədəbi-tarixi

qaynaqdır. Dastanların əlyazması üzərində yazılmış «Kitabi-Dədəm Qorqud - əla-lisani-taifeyi-oğuzan» (Oğuz tayfalarının dilində olan «Dədəm Qorqud Kitabı») adı oğuznamələrin etnik-mədəni mənsubiyyətini dəqiq ifadə edir.

Şübhəsiz ki, oğuznamələr çox olmuş, Türkistanda, Qafqazda, Sibirdə, Ön Asiyada dildəndilə gəzmişdir. Fəqət bizə Drezden və Vatikan əlyazmalarında gəlib çatan XV əsrdə başqa əlyazmalarından köçürülməsinə təxmin edilən «Dədə Qorqud kitabı» Azərbaycan ərazisində formalaşan və coğrafiya, dil-üslub baxımından daha çox Azərbaycan türk dili olan ədəbi abidədir.

Oğuz-Azərbaycan, Cincavad ağzı və tərəkəmə ləhcələrini daha çox əhatə edən bu böyük abidə oğuz yazılı və şifahi ədəbiyyat ənənəsinin böyük yadigarıdır.

Çoxlaylı, çoxqatlı abidə olan «Dədə Qorqud kitabı»nda:

Mifik qat;

Yazıyaqədərki inkişaf və formalaşma qatları;

Yazıyaalınma qatı

- nəzərə almadan araşdırma aparmaq, dərk etmək mümkün deyil.

Bu mənada qazax türkləri arasında Qorqudun küyləri (nəğmələri) bugünəcən dolaşırsa, türkmən türkcəsi Dədə Qorqudun məğzini ifadə edən deyimlərlə, dil-üslub özəllikləri ilə zəngindirsə, Sibir türklərində şaman-qam Dədə Qorqudun adı keçirsə, Kiçik Asiya – Türkiyə ərazisində yüzlərlə Dədə Qorqud motivlərini, süjetlərini əks etdirən folklor örnəkləri yaşayırsa, özbək, qırğız, tatar dastanları Dədə Qorqud ruhunu birbaşa və dolayı şəkildə saxlayırsa, bu böyük abidəni məhdud coğrafiyada anlamağa heç bir elmi əsas tapmaq olmaz. Əslində, buna ehtiyac da yoxdur. Çünki «Dədə Qorqud kitabı»nın dincə, coğrafiyaca Azərbaycan ağırlığı onun ümumtürk, ümumoğuz sanbalını inkar etmir, əksinə, təsdiq edir.

Yuxarıda qeyd etdiyimiz çoxlaylılığı və oğuznamələrin bizə gəlib çatmayan onlarla, yüzlərlə örnəyinin olması «Dədə Qorqud kitabı»nın zaman və məkan kontekstini dinamik və dialektik şəkildə götürüb qavramağa yardım edir.

Görkəmli qorqudşünas X.Koroğlu «Oğuz qəhrəmanlıq eposu» adlı dəyərli əsərində hər boyun təxmin tarixini və boyların yaranma xronologiyasını müəyyən edir ki, bəzi mübahisəli məsələlər olsa da, bu prinsip elmi baxımdan tamamilə obyektiv və məqbuldur.

Abidənin kitab adlandırılması əsərin ozan-aşıq ağzında deyil, yazıdan (neçə dəfələrlə) köçürüldüyünü sübut edir.

«Dədə Qorqud kitabı»ndakı obrazlar, süjet və kompozisiya, poetik sistem də çoxqatlı məntiqin prinsipləri ilə araşdırılmalıdır. Maraqlısı budur ki, boyların, obraz və poetik sistemin çoxqatlı tərzini ümumi bir bağlılığı, üzvi vəhdəti təsdiq edir.

Məsələn, Dədə Qorqud obrazında şamanlıq, ozanlıq, el ağsaqqallığı, müdriklik kimi xüsusiyyətlər ayrı-ayrı funksional göstəricilər kimi vahid obrazın semantik çoxşaxəliliyini ifadə edir. Üstəlik Dədə Qorqud bu boyların yazarı-müəllifi, eyni zamanda hadisələrin iştirakçısıdır. Bu cəhət «Dədə Qorqud kitabı»nın mifik zamanı ilə real zamanı arasındakı məsafəni dərk etməyə yardım etməklə yanaşı, oğuznamələrin yazıyaqədərki və yazıdan sonrakı taleyini əks etdirir. Dastanların kitablaşma-yazıya alınma prosesi diqqətdən kənarda qala bilməz. «Dədə Qorqud kitabı»nın etnomədəni sistemi, dastanlarda ifadə olunan ictimai-siyasi baxışlar, hüquqa və dövlətçilik prinsipləri, dini baxışlar, ailə tərbiyəsi, etik, estetik, psixo-

loji baxışların ardıcıl inikası abidənin tarixi rolunu açıqlayır. Bu mənada görkəmli ədəbiyyatşünas F.Köprülünün «Kitabi-Dədə Qorqud»u tərəzinin bir gözünə, bütün türk ədəbiyyatını o biri gözünə qoysaq yenə də «Dədə Qorqud» tərəf ağır gələr» fikri tamamilə dəqiq təsir bağışlayır.

Ədəbiyyatımızda ana abidə kimi dəyərləndirilən «Dədə Qorqud kitabı» Azərbaycan ədəbiyyatının ictimai-sosioloji, estetik-poetik özəlliklərini incələmək, izləmək üçün əvəzsiz örnəkdir.

Xalq həyatının, düşüncəsinin, təfəkkür tərzinin ilkin aydın ifadə forması kimi diqqətdaşıyandır. Batal döyüş-savaş səhnələri, məhrum insani duyğular, etnik düşüncə ilə bağlı detal və təfərrüat, Vətənə, yurda bağlılıq, qəhrəmanlıq və sədaqət, nifrət və məhəbbət, sevgi və ayrılıq, ölüm və olum fəlsəfəsi dürüst və aydın şəkildə ifadə edən qiymətli söz sənəti abidəsidir. Xalqımızın incə yumor hissini, kinayə tərzini, qədim adət-ənənəsini, mifik fəlsəfəsini, dürlü-dürlü mərasimlərini parlaq və dolğun boyalarla ifadə edən «Dədə Qorqud kitabı» ölümsüz bir əsərdir.

«Dədə Qorqud kitabı» zəngin bədii-poetik palitrası ilə də fenomendir. «Dədə Qorqud»da poetik əhvali-ruhiyyə elə qurulub ki, hər şey iç-içədir, daşıyıcı bədii vasitələr yalnız bir-birini izləmir, tamamlamır, eyni zamanda, birgə gəlir, bütöv, monolit təsir bağışlayır. Bədii təəssüratın ifadə vasitələri dəqiqliyi, şəffaflığı ilə seçilir. «Dədə Qorqud kitabı» sadəlik və aydınlıq poeziyasıdır, dinamik üslub, dərin, tutarlı bədii dil nümunəsidir.

Dastanların dilinə başdan-başa hopan özünəməxsus nəfəs-ritm və intonasiya, təkrarlar sistemi, səslərin, sözlərin, sintaktik biçimlərin ardıcıl təkrarı, xüsusilə, allitarasiya və paralellik, bədii formulalar, özünəxas metafozalar və bədii təşbehlər elə bir hava, mühit, istilik yaradır ki, «Dədə Qorqud» dünyasına daxil olan hər kəs üçün unudulmaz təsir bağışlayır. Bu bədii-poetik vasitələrin yaratdığı kosmos zamansız mif ölçüsü ilə ən real, bəşəri duyğuları, münasibətləri fantastik bir dəqiqliklə ifadə edir.

Qədim türklərin sözə inamı, sözün magik qüvvəsi şeri, yəni xüsusi ağrısı ilə, deyim tərzi ilə adi danışıqdan seçilən söz düzümünü yaratmışdır. «Dədə Qorqud kitabı»ndan gəlib çatan on iki dastan və ustadnamələrin qədim şəkli olan müqəddimə – atalar sözləri ona görə süjetin ayrılmaz hissəsidir, informativ-semantik yük daşıyır ki, sonrakı hissələrlə onun sistemi eyni olub. Sadəcə yazıyasalınana qədərki dövrəcən adı təhkiyə süjetin müəyyən hissələrini, daha çox özününküləşdirmiş, şer həddindən çıxararaq təhkiyələşdirmişdir. Bu, məzmun planı ilə bağlıdır. Yəni o yerdə ki şer səviyyəsində məqamlar var (intizar, tələş, sevgi, sevinc, kədər, qəriblik…), orada ozanı şer kökündən aşağı salmaq mümkün olmayıb. Qopuzun nümunəsində musiqi də burada öz rolunu oynayıb. Müqayisə etsək görərik ki, sonrakı dastanlarımızda da, məsələn, «Koroğlu»da yalnız şerlər musiqi ilə – sazla oxunur, digər hissələr isə şer səviyyəsində təqdim oolunur.

«Dədə Qorqud» boylarının vaxtilə başdan-başa şer olması fikri hipotezdir. Mövcud mətndə yalnız səxili nəsrdən və ya özünəməxsus Qorqud şerindən söhbət gedə bilər. Müasir ağ şer, sərbəst şer anlayışından fərqli olaraq bu şer öz poetik ölçüləri olan (ritm, ahəng, vurğu, qafiyə, allitorasiya…) şerdir. Öz ifadə və məzmun planı, müstəvisi olan «Dədə Qorqud» şeri yalnız «Qılqamış», «Incil», «Avesta», «Turan» ilə tipoloji-poetik müqayisəyə gələn nadir söz sənəti örnəyidir.

Artıq rus, alman, ingilis, fars, gürcü, latış, serb… dillərinə tərcümə olunmuş və dünya türkologiyasının tədqiqat predmeti kimi geniş şəkildə öyrənilməkdə olan «Dədə Qorqud kita-

bı» milli hüdudları aşaraq beynəlmiləl ölçü və vüsət qazanmışdır. Bu baxımdan Avropa-rus alimlərindən V.V.Bartold, K.I.Inostratsev, A.K.Soloynoviç, P.S.Spridonov, I.V.Aniçkov, V.V.Velyaminov-Zernov, A.Y.Yakubovski, V.M.Jirmunski, A.N.Kononov, E.Rossi, O.Honser, O.Spies, F.Batinger, L.Bazen, V.Eberhard, Y.Kunoş, V.Minorskiy… Türkiyə alimlərindən Kilisli Müəllim Rifət, O.Ş.Gökyay, M.Ergin, F.Kırzıoğlu, P.M.Baratov, C.Öztelli, N.S.Banarlı, B.Ögəl, Ə.B.Ərzilasun, O.Sərtqaya, F.Türkmən…, Azərbaycan alimlərindən B.Çobanzadə, Ə.Abid, Ə.Dəmirçizadə, Ə.Sultanlı, H.Araslı, M.Təhmasib, M.Seyidov, H.Mirzəzadə, X.Koroğlu, Ş.Cəmşidov, T.Hacıyev, S.Əliyarlı, V.Aslanov, F.Zeynalov, P.Xəlilov, S.Əlizadə, C.Heyət, K.Abdullayev, H.Məmmədov, N.Mehdiyev, R.Bədəlov, B.Abdullayev, M.Əlizadə, I.Məmmədov, Ə.Fərzəli və başqalarının «Dədə Qorqud kitabı»nın müxtəlif problemlərinə həsr olunmuş əsərlərlə bir kitabxana təşkil edəcək qədər zəngindir. Yazıçı Anarın «Dədə Qorqud dünyası» adlı esse-traktatı araşdırma və bədii-emosional tutumu ilə seçilən ciddi əsərdir. «Dədə Qorqud»un rus dilinə bədii tərcüməsi kimi A.Axundovanın nəşri diqqəti cəlb edir. «Dədə Qorqud» mövzusu bədii ədəbiyyatda özü ayrıca bir mövzudur. Z.Gökalp, Səhənd, M.Təhmasib, Ə.Dəmirçizadə, Anar, N.Xəzri, Ə.Muğanlı… bu mövzuda maraqlı bədii əsərlərin müəllifidir.

* * *

Azərbaycan xalqının Dədə Qorqud Kitabı Ana kitabı «Dədə Qorqud kitabı»dır. Kökümüzü, mənşəyimizi, mənliyimizi, yurdsevərliyimizi, dövlət hissimizi, dostumuzu, düşmənimizi açıb göstərən, könül dünyamızı, qan yaddaşımızı, dünənimizi, bugünümüzü və sabahımızı bizə göstərən «Dədə Qorqud kitabı» yalnız Azərbaycan ədəbiyyatının deyil, bütün Türk dünyasının altun kitabı kimi ölməzdir.

HƏQIQƏTIN SONSUZLUĞUNA DAHA BIR SƏYAHƏT

(R.Mirhəşimlinin «Allah dostları» kitabına ön söz)

Keçmiş tələbəm, indi qələm və fikir dostum Rəsul Mirhəşimlinin yazılarını mətbuatda diqqətlə izləyirəm.

Bu yazıların janrını dəqiq müəyyənləşdirmək çətindir. Onlara düşüncə, esse, portretə cizgilər, elmi-kütləvi mülahizələr də demək olar, sadəcə, Rəsulun öz janrı, öz yazıları da. Formasından, janrından asılı olmayaraq bu yazılar həqiqət axtarışı, daha doğrusu, həqiqət dünyasına səyahətin eskizləridir.

Geniş mütaliəsi, ixtisas savadı olan Rəsul bəyi bu mövzuya – həqiqət arayışlarına çəkən ilk növbədə, onun ziyalı narahatlığı, cavabsız suallara cavab aramaq cəhdidir. Insanlığın ən qədim tarixindən bu günümüzə qədər dinlərin, ilahiyyatçıların, filosofların, yazıçıların minlərlə əsəri bu suallara cavab vermişlər. Fəqət həyat davam edir, hər doğulan insan yeni bir həyat yaşayır. Bu «yeni», yalnız unudulmuş köhnə deyil, həm də fərqli bir «yenidir». Insan yalnız öz ata-anasının deyil, yaşadığı zamanın övladı olduğu üçün bu yeni zaman və Şumer, nə Midiya, nə Göytürk, nə Osmanlı, nə Səfəvi, nə Rus imperatorluğu… zamanıdır.

Insan həm dəyişən, həm də dəyişməyən varlıqdır. Dəyişmə ilə dəyişməmənin dialektikası olduqca mürəkkəbdir. Bu mürəkkəbliyin mexanizmi və mahiyyəti sadə olsa da, dərk və izah olunmayan çox şey var. Əslində yazı sənətinin, elmi və bədii yazının missiyası deyilmişləri demək deyil, yazılmışları yazmaq deyil, əksinə, yaşayanı, indini yazmaq, bu günlə əbədiyyət arasında körpü qurmaqdır. Sözün bu mənasında yazı özü də əbədidir, çünki zaman, həyat, insan əbədidir.

Rəsul bəy Mövlanədən yazarkən Mövlanəni təkrar etmir, onu sitatlaşdırmır. Mövlanədən gələn işıqla bir köşənilik küncü aydınladır. «Mənim Mövlanəm» yalnız Mövlanənin özü deyil, Mövlanəyə qarışmıq onda qərq olmuş Rəsuldur – bu gündür.

Hər yazının bir mütləq tərəfi və tələbi var, bir də nisbi tərəfi və tələbi. Mütləq tərəf yazdığını bilmək, dərk etməkdir. Nisbi tərəf isə yazdığınla sənət arasında olan münasibətdir. Bu münasibət geniş anlayışdır. Onun içində sevgi də var, məhəbbət də, şikayət, iztirab da, dərd-kədər də.

Quran da, Tövrat da, Mövlanə də, Füzuli də bizim üçün dayaq nöqtələridir. Mənəvi kainatın başlığında bu dayaqlar bizim həyatımızı, hərəkətimizi, sükunətimizi təyin edir. O dayaqlar bizə ünsiyyət, dil, özünüifadə öyrədir. Sözün də genetik yaddaşı var. O yaddaş olmasa, sözün gücü, enerjisi olmaz. Bizə Mövlanədən, Füzulidən gələn yalnız hava, istilik deyil, eyni zamanda minilliklərdən gələn qohumluq, doğmalıq enerjisidir. Biz nə olduğumuzu ilahi və dünyəvi missiyamızı bu idrakdan sonra gerçəkləşdiririk. Füzuli üstəgəl Mən – artıq başqa bir kəmiyyət olduğu kimi, həm də başqa keyfiyyətdir. Bu baxımdan yanaşdıqda, Rəsul bəyin nəinki klassiklərdən, eləcə də müasirlərimizdən yazdıqları anlaşılır. Mənəviyyat problemləri kifayət qədər ağır problemlərdir. Ilahi ölçü ilə dünyəvi ölçünün nisbətinin tapılması, döngəsinin, tarazlığının müəyyənləşdirilməsi çətindir. Etik olanla estetik olanın, ədəbi ilə keçicinin, fiziki olanla mənəvi, ruhi olanın nisbətinin tapılması və bu bağlamda çağdaş təhlil aparılması heç kəsə asan gəlməsin.

Söhbət Alim Qasımovun səsinin gözəlliyindən, ustadlığından getmir. Söhbət Alimin ilahi varlıqdan aldığı paydan, bu payı bizə verib bizi haradan haraya gətirməsindən gedir.

Müdriklik yalnız hər şeyin səbəbini bilmək deyil, səbəbsizliyi, əlaqəsizliyi də görmək və onların səbəbini, əlaqəsini araşdırmaqdır.

Bəzən araşdırma deyərkən elmi təhlil nəzərdə tutulur. Bədii, publisistik araşdırma bəlkə araşdırmaların ən ağırıdır.

Məncə, Rəsul bəy bu tipli araşdırmalarda kifayət qədər uğurludur. Çünki bu yazılar bildiklərimizi və ya bilmiş hesab etdiklərimizi bizə bir daha öyrədir. Bu yazılar eyni zamanda bizdə münaqişə, intriqa hissi oyadır. Mənə elə gəlir ki, hər hansı yazının əsas məqsədlərindən biri də bu hissi oyatmaqdır. Rəsul bəyin bu kitaba toplanmış yazılarını oxucuları məmnun edəcəyinə şübhəm yoxdur. Bu, qarışıq, ala-bula dünyada həqiqət arayışına, səyahətinə çıxmaqdan gözəl nə ola bilər. Inanıram ki, bu səyahət maraqlı keçəcək. Buna da inanıram ki, bu yazılar kitabın oxucularında da bəhs edilən mətləblərdən yazmağa, oxumağa böyük həvəs, maraq yaradar.

O gün olsun ki, oxucuların həvəsi, marağı eşqə çevrilsin.

Və Rəsul bəyin eşqi kimi əsrarlı, mübhəm, gözəl olsun.

FÜZULİ SƏNƏTİNƏ YENİ BAXIŞ

Füzuli yaradıcılığından xeyli əsər yazılıb. Ancaq nə qədər deyilməmiş, dərk olunmamış, açılınamış Füzuli mətləbləri yatıb qalır...
Füzuli yaradıcılığı ilə uzun illərdən bəri məşğul olan Sabir Əliyevin əlinə qələm alıb Füzuli sehrini açıb aydınlaşdırmaq istəyi, Füzuli sənətinə böyük məhəbbəti bu araşdırmanın məhək daşıdır. Həmin o etibarlı daşın üzərində "Füzuli poetikası" adlı ciddi elıni-tədqiqat işinin ucaldığını görəndə adam təəccüblənınir. Çünki o sağlam istəkdən, o dönınəz məhəbbətdən yalnız ciddi, sanballı elıni iş törəyə bilərdi.
Sabir Əliyev Füzuli sənətinin qapısını açmaq üçün zəruri-mütləq proqramı dərindən mənimsəmiş tədqiqatçıdır: ana dilini, fars və ərəb dillərini bilir, Qərb və Şərq poetika nəzəriyyəsinə yaxından bələddir, gözəl əruzşünasdır və s.
Bu biliklə, bu savadla Füzuli dərgahına daxil olan araşdırıcı belə bir yəqinlik hasil edib ki, Füzuli sehrini, qismən də olsa, açmaq üçün o sənətin köklərini, fəlsəfəsini, məna və formasını dərindən incələmək lazımdır. Və bu amalla da Füzuli dünyasına baş vuran tədqiqatçı estetika, poetika elınlərinin məlum məşhur kateqoriyalarına uyğun Füzuli nümunələri axtarmamış, əksinə Füzulidən gələn, doğuluşu və inkişafı Füzuli sənətində olan qanunauyğnluqları aramış, tapmış və tapdıqları ilə füzulişünaslığı zənginləşdirmişdir. Füzulinin sələfləri və xələfləri konteksində olan müəllif Füzuli sənətinin novator mahiyyətini şer ənənəsi zəminində aydınlaşdırır. Və bu kitabı oxuduqca bildiyimiz bir həqiqəti sübuta yetıniş şəkildə daha aydın şəkildə dərk edirik ki, alim Füzulini şair Füzulidən ayırmaq olınaz. Füzuli şeri bütöv elıni konsepsiyaya nəzəri və təcrübi şəkildə söykənən böyük intellektual poeziyadır. Insanın tükənınəz səslərinə, sözlərinə, cümlələrinə qədər elıni əsasları olan qüdrətli poeziya gətirmişdir. Bu poeziya insana qayıdan renesansın Füzuli mərhələsidir ki, onunla Azərbaycan dilində yeni müasir şer məktəbi yaranır.
Füzuli alimdən baxıb Füzuli şairi, Füzuli şairdən baxıb Füzuli alimi görən araşdırıcı elə bir estetik konsepsiyanı təsvir edir ki, biz klassik ədəbiyyatımızı yenidən görürük, Füzulini yeni gözlə oxuyuruq və sevirik.

FÜZULININ TÜRKCƏ DIVANININ DIBAÇƏSI
(«Dibaçeyi – divani – türki – mövlana Füzuli)

Şərq ədəbiyyatının incəliklərini dərindən-dərinə öyrənməkdə dibaçələrin böyük rolu var. Şərq poetikasında dibaçə kitabın müqqədiməsi və naxışlarla bəzəkli, zərli olan ilk səhifələri anlamında işlənib.

Bütövlükdə dibaçə şairin ədəbi-estetik kredosunu əks etdirən bir müqəddimədir. Eyni zamanda, dibaçə, şair öz tərcümeyi-halı, mühiti, ədəbi şəxsiyyəti haqqında məlumat verir.

Sənətkar və zaman, sənətkar və hökmdar, sənətkar və sənət, sənətkar və dil… kimi problemlər dibaçə də açıqlanır.

Öz elmi-nəzəri, ədəbi-estetik fikirləri ilə özünə, əsərlərinə, obrazlarına, poetik dünyasına işıq tutan Füzuli, əslində, yığcam, lakonik şəkildə Azərbaycan türk dilinin ilk poetikasını yazmışdır. Obrazla söylənən fikirlərin içindəki elmi təhlil, nəzəri müəyyənləşdirmə və qarşılıqlı əlaqələndirmə o qədər güclüdür ki, bu dibaçəyə söykənərək müasir elmi konsepsiya əsasında bütöv bir poetika əsəri yazmaq mümkündür. Füzuli divanlarındakı (ərəb, fars, türk) və bəzi poemalarındakı dibaçələr həm obrazlı fikrin maraqlı örnəkləri, həm də elmi risalələr, poetika traktatlarıdır. Məlumdur ki, Füzuli Ə.Nəvai və ya Z.Babur kimi poetikadan ayrıca, məxsusi bir elmi əsər yazmamışdır. Buna baxmayaraq, dibaçələrdə Füzuli dünyagörüşünün sənətlə bağlı ədəbi-estetik xarakterli müddəaları və bütöv konsepsiyası bütün genişliyi ilə əksini tapmışdır.

Bu dibaçələrin içərisində türkcə divanın dibaçəsi xüsusi önəm və dəyər daşıyır.

Ilk öncə ona görə ki, ana dilimizdə şer toplusu yaratmaq – divan sistemini ortaya qoymaq çox böyük hünər – «dikəndən bərgi-gül izhar» edən «tövfiq» idi.

Ikinci bir tərəfdən, fars və ərəb dilində olan divanlar çox böyük dəyər daşısalar da, o dillərin ən yaxşılarının sıradan biridir. Türkcə divan isə türk dilinin əşrəfi – fenomenidir, əlçatmaz ucalığıdır.

Və nəhayət, Füzulinin dəfələrlə üz-üzə gəldiyi çətinliklərin başında gələn ana dili və əruz vəzni probleminin həlli, şer və yazı, şer və bədii oxu kimi məsələlərə bədii baxış sisteminin ifadəsi baxımından da türkcə divanın dibaçəsi müstəsna əhəmiyyətə malikdir.

Türk dili poetika tarixinin incələnməsi zəruri olan məsələlərinin qoyuluşu baxımından dibaçə çox mühüm rol oynayır. Bunu da qeyd etməmək olmaz ki, ərəb və xüsusilə fars divanının dibaçələri ilə türkcə divanın dibaçəsi arasında, eləcə də başqa dibaçələrin məzmunu arasında çox yaxın mövzu, amal birliyi (bütöv), bir nəzəri konsepsiya diqqəti çəkir.

Elmi dəyəri baxımından Aristotelin məşhur «Poetika», Bualonun «Poeziya sənəti», A.Dantenin «Iki dilin dialoqu», Ə.Nəvainin «Mühakəmətul-lüğateyn», Z.Baburun əruz haqqında traktatı ilə müqayisə edilə biləcək səviyyədə yazılmış türkcə divanın dibaçəsi nəinki poetika tarixini, eyni zamanda Füzuli dünyagörüşünü, Şərq ədəbiyyatının incəliklərini öyrənmək baxımından çox dəyərli qaynaq kimi böyük əhəmiyyət daşıyır.

Klassik poetikanın bir sıra kateqoriyalarının, mətləb və anlayışlarının şərhi baxımından da dibaçə (digər dibaçələrlə bir sırada və bir qat ucada) dəyərlidir. Bu anlayış və kateqoriyalar, əsasən, aşağıdakılardır:

- şer və Quran, şair və Allah kəlamı;

- eşq və poeziya, məhəbbət və şer;
- poeziyanın ictimai-sosial funksiyası, şer və cəmiyyət;
- sənət və elm, poeziya və janr;
- şair və təxəllüs;
- forma və məzmun;
- ənənə və novatorluq;
- şer və dil;
- poetik norma;
- şer və katiblik mədəniyyəti;
- şer və səslənmə, oxu-qiraət səviyyəsi;
- sözün sehri və bədii ucalıq və s.

Qeyd edək ki, türkcə divanın dibaçəsi türk dillərinin heç birində çağdaşlaşdırılmamışdır. Füzulişünas alimlər (S.Mazıoğlu, Ə.N.Tərlan, H.Araslı, M.Quluzadə, T.Hacıyev, S.Əlizadə, S.Əliyev) öz təhlil və araşdırmalarında türkcə divanın dibaçəsinə dəfələrlə müraciət etmişlər.

Çağdaş Azərbaycan türkcəsinə çevirməklə (və ya sadələşdirməklə) bu sərvəti geniş oxucu kütləsinə çatdırmağı özümüzə borc bildik. Bu məramla Füzuli sözünün sehrini saxlamaq cədi ilə bilgi səviyyəsində informasiya tutumunu ifadə və ehtiva etməyi qarşıya məqsəd qoyduq. Füzuli üslubunu, dəst-xəttini, imkanımız daxilində saxlamağa çalışdıq.

Ulu Füzuli sözü köməyimiz olsun!

Amin.

DIBAÇƏ

Sonsuz şükürlər olsun Allahın o kəlam söyləyən natiqinə ki, ümid gəmisi nəzm dənizlərinin bəhrlər sükanı «şairlərin dalınca gedənlər yoldan azanlardır» ayəsində çalxınıb suyun girdabında qərq olarkən istisna zəncirində «iman gətirənlərdən başqa» hamını buraxıb səhih islam şairlərini sağ-salamat nicat sahilinə çəkmişdir. Və çox şükür o yer-göy naziminə ki, nəzmin bismillahını – kökünü, bünövrəsini fərqlənənlərin başının tacı edib, ariflərin – irfan əhlinin qəlblərinin torpağına biçimli kəlamların məhəbbət fidanlarını sancmışdır.

QITƏ

(türkcə)

Zəhi sane ki, lövhi-canə kilki-
hüsni-tövfiqi,
Əzəldən iqtizayi-nəzmi-canpərvər
rəqəm qılmış.

Kəmali-şer kəsbi mümkün olmaz

bimədəd ondan,

Ona minnət ki, təbi-nəzm lütf qılmış.

O yaradan sənətkar ki, hər şeyə vaqif gözəllik qələmi ilə can lövhəsinə əzəldən ruha zövq verən nəzm zəruriliyi yazmışdır, şerin yetkinlik kəsb etməsi onun köməyi olmadan mümkün deyil. Ona minnət ki, nəzm təbini lütf etmiş, mərhəmət göstərmişdir.

QITƏ

(farsca)

Mübdii kəz xameyi-tofiqi-u darəd

rəqəm,

Səfheyi-idraki-ərbabi-süxən nəqşi-

xəyal.

Təbi-mövzun öz əlamәthayi-lütfi-

xasi-ust,

Nist çün elmi digər məquri-kəsbi-

in kəmal.

Bir yaradıcı ki, tövfiq qələmindən söz sahiblərinin idrak səhifəsinə xəyalı o nəqş edir, ahəngdar təb onun xüsusi lütfünün əlamətlərindəndir. Bu kamalı öyrənməkdən qiymətli elm yoxdur.

QITƏ

(ərəbcə)

Nüsəbbihü mən əhdən-nüfusə

ilәl-məna

Və qəddərə əşkalәl-ümuri və həlliha.

Nüqəddisü mən lovla ianətü fəzlihi,

Ləma əlləməl-əsmaə, Adəmə kəlləha.

Insanları arzusuna çatdırana və işlərin müqqədaratını qurub həll edənə hörmət bəsləyirik. Öz nemət və köməyi ilə bütün adların sirrini öyrədəni müqəddəs sayırıq.

Və hədsiz salamlar olsun o möcüzə dolu kəlamları söyləyənə ki, şer sənətini «biz ona şairlik öyrətmədik» ayəsinin məzmununa tabe olub qəbul edərkən hikmət bəyan eləyən dili «şer içində, əlbəttə, hikmət vardır» ayəsinin ürəyəyatmalı təqdimi ilə onu hal əhlinin qəlbləri üçün qəbul olunmuş hesab etmişdir. Xülasə, o peyğəmbərlərə yazılmış şerlərin qafiyələri səmimi tərifl ərdir ki, gözəlliyinin olmamağından şerin ucalığı təhqir, etinasızlıq ayağında qalmışkən şərəfli səadət sahiblərinin silsilələri etibar dərəcəsinə yüksəlmişdir.

NƏZM

(türkcə)

Ol düri-dürci-«ənə əfsəh» ki,

hikmət dayəsi,

Şer şəhdilə ləbi-canpərvərin

tər qılmamış.

Şer bir ziyvərdir, əmma biz kimi

naqislərə,

Ol ki, kamildir, onu möhtaci-

ziyvər-qılmamış.

Daha fəsahətli mücrü dürrü ki, hikmət dayəsi ürək sevən dodaqlarını şer balı ilə tər etməyib. Şer bizim kimi naqislər, yarımçıqlar üçün bəzəkdir, ziynətdir. O ki kamildir, bütövdür, bəzəyə möhtac qalmamışdır. (Şer Peyğəmbər üçün deyil, naqis insanlar üçündür – K.V.).

NƏZM

(farsca)

Əhmədi-mürsəl on ki, dər adəm

Hərçi başəd tüfeyli-xilqəti-üst,

Rütbeyi-şer həm əz ust büləND,

Məhəki-cövhəpi-nübüvvəti-ust.

O Əhmədi-mürsəl ki, dünyada hər nə varsa, onun yaradılışının tüfeylisidir, şerin dərəcəsi ondan yüksəldi və onun peyğəmbərlik cövhərinin məhək daşı oldu.

NƏZM

(ərəbcə)

Əsna əla xeyril-ənami Mühəmmədin

Kəşəfəd-düca biziyai-bədri-

cəmalihi.

Bisənaihi rüfiət mədaricü qədrina

Xüssət təhiyyətüna əleyhi və alihi.

Insanların xeyirlisi olan Məhəmmədə sənalar edirəm. Onun gözəllik ayının işığı ilə gecənin qaranlıq pərdəsi açıldı. Onu tərifləməklə bizim hörmət və etibar dərəcəmiz artdı. Ona və onun övladına hörmət və salamımız olsun.

Amma sonra üsyan səhifələrinin yazıları ilə biçarə Füzuli bü tərzdə halını bəyan etdi və bu yol ilə ürəyini şərğ etdi ki, vücudunun qayığı təbiətən uşaqlığın qəflət dəryasında duyma idrakının sahilinə yetdi və təhrik həvəsi ilə alovlanan ilkin gənclik atəşini tapıb hərarəti ilə cana və canana təsir etdi. Və mənəvi kamalın lazımi təlimçisi taleyin səyriyən atının cilovunun ədəb qazanmaq xüsusiyyətlərinə diqqətlə qulaq kəsildi, hikmət günəşi təbimin cövhərinə maarif təhsilinin təsirini saldı. Ədəb qazanmağa rəğbət etdikdə, bəxtimin güclü hü-

nər şövqü ilə açıldıqda kamalımın kəsb etdiyi cəvahirlər mədəni bir cənnətsayaq mədrəsə idi ki, onun gözəl həyəti cavanların səfləri ilə behiştdən xəbər verirdi. Və taleyin doğan ulduzunun məramı, istəyi ilə bir pak məkəb ili ki, uca, şərəfli fəzası sərv qədli sənəmlər ilə cana cənnət müjdəsini yetirirdi.

QITƏ

(farsca)

Səhni-lətifü dər vey xuban nişəsiə

səf-səf,

Didari-şan mübapək həmçün süturi-

müshəf.

Xurşidlövh çün hər ek nihadə

dər piş,

Bərgi-kitab çün gül hər ek giriftə

dər kəf.

Lətif bir səhn, orada gözəllər səf-səf oturmuşlar. Onların görünüşü Quran sətirləri kimi gözəldir. Hər birisi lövhə günəşini ay qarşısına qoymuşdur, kitab vərəqini gül kimi əlində tutmuşdur.

Amma hələ o yeniyetmələrə nəzakət təbindən elmlərin incəliklərini qazanmaq zəhməti və rəsmi hüdud həqiqətlərinin təlimini məşəqqət gücü olmamağın rahat behişt yığıncaqlarında həmişə aşiqanə şerlərdən başqa heç nə oxunmazdı. Və mütaliə etdikləri vərəqlərdə ciyəryandıran qəzəllərdən başqa bir xətt tapılmazdı.

BEYT

(türkcə)

Şer bir məşuqdir, hüsni-ibarət

zifvəri,

Canü dildən nazənin məhbublar

aşiqləri.

Şer elə bir məşuqdur ki, ibarə gözəlliyi ziynətidir (bəzəyidir). Nazənin .özəllər (məhbublar) canü dildən aşiqləridir

O dəyərli tayfa şer sənətinin sürüğ getməsi və sözün gözəlliyinə can atması ilə həm gözəllik halətinə və həm də eşq kamalına vaqif olmuşlar.

QITƏ

Ey xoş ol Kim təbi-mövzunilə bəhsi-

şer edib,

Xübrulər vaqifi-məzmüni-əşar
olalar.
Demədən fəhm edələr keyfiyyəti-
əsrari-eşq,
Aşiqi-biçarə halindən xəbardar
olalar.

O kəslər xoşbəxtdir ki, mütənasib təbiəti ilə şer bəhsi edib ki, gözəllər şerlərinin məzmununa vaqif olalar. Söz demədən eşq sirlərini duyalar. Biçarə aşiqin halından xəbərdar olalar.

Mənim ki, xilqətimin səhifələrində - xislətimin dərin qatlarında əzəl gündən başlanğıcda hərf qəzasının qələmi ilə nəzm məhəbbəti yazılmışdır və xilqət bağçamın fitrətində sevgi toxumu və ahəngdarlıq, mütənasiblik əkilmişdi, o, təbiətimin fidanının calağının buludu nəm çəkib, nəzm istedadının izhar-ifadə olunmasına səbəb oldu. Və o yığıncağın qaynayıb-qarışması havası xilqətimin gül ağacını təravətləndirib təbiətimin - şövqümün tarlasında şer zövqünün gülü bitdi.

QITƏ

Şahidi-nəzm sərapərdeyi-qüvvətdə
ikən,
Qıldı ol bəzm görüb, fel fəzaisinə
xuram.
Ğönçələr könlünü açmağa lətayif
birlə,
Bülbülə verdi səba rüxsəti-təqriri-
kəlam.

«Nəzm gözəli şahanə otaqda qüvvətdə
ikən
O məclisi görüb hərəkət fəzasına
daxil oldu.
Qönçələr gözəlliklə könüllərini
açdı,
Səba (yüngül meh) söz izharının
rüsxətini-icazəsini
bülbülə verdi».

Xülasə, vurğun bülbül kimi məst oldum. Və fitrət istedadından o gülləri tərənnüm etməyə icazə aldım. Təbimin üfüqündə gözəllik ayı doğdu. O günəşüzlülərdən şövq işığı almağım günü-gündən artaraq elə bir dərəcəyə çatdı ki, az bir müddətdə nəzm işığımın şüaları çox vilayətlərə və şəhrlərə saçıldı.

QITƏ

Seyti-fəsahət ilə sözüm tutbu Aləmi,

Mən məhdi-etibardə tifli-zəbun

hənuz.

Buyi-xoşumla oldu müəttər dimağlər,

Mən nafəyi-vücudda bir qətrə xun

hənuz.

Fəsahət, gözəl söyləmə şöhrəti ilə sözüm aləmi tutdu. Mən nüfuz beşiyində hələ cocuq ikən ətir verən vücudumda bir damla qan olsa da, xoş ətrimlə damağlar çağ oldu, beyinlər ətirləndi.

Zaman-zaman şer sevdası, digər hərəkətlərimlə qalib gəldi və dəstə-dəstə Leyliüzlülər Məcnun kimi şer eşitmək üçün başıma yığışdı, şairliyim qərarlaşdı. Bütün Aləm nəzmimin avazı ilə dolu və tamamilə şöhrət tapdı.

Təbiət şöhreyi-şəhr olmağa

meyli-təmam etdi,

Nə pinhan eyləyim, sövda məni

rüsvayi-am etdi.

Təbiət şəhərlərin şöhrəti olmağa tamamilə meyl etdi. Nə gizlədim, sevda məni xalqın qarşısında rüsvay etdi.

Bu halətlə bərabər bu cəhd rəva görmədi ki, nəzmimin gözəlliyinin örtüyü maarif pərdəsindən xali olsun. Zamanın zühurundan – dünyanın zahir olmasından cilvələnən və yüksəkliyin ucalıq istedadının sərrafı razı olmadı ki, şer düzümüm elm cəvahiri ilə təmizlənərək aləmin bəzəyi ola. Çünki elmsiz şer əsası yox divar olur. Əsassız divar isə nəticədə etibarsız olur. Şerimin bünövrəsinin elm bəzəyindən məhrum olmağını özümə təhqir və xəyanət bilib, elmsiz şerdən cansız bir qəlib, müttəva kimi çiyrindim. Bir müddət həyatımı təbiət və cəmiyyət elmlərinin qazanılmasına sərf etdim və ömrümün bir hissəsini fəlsəfə və riyaziyyat elmlərindən faydalanmağa həsr etdim, zaman-zaman şer gözəlimə sənətkarlıq incilərindən ziynətlər vurdum. Və tədricən təfsirləri, hadisələri araşdırmağa başladım, şer fəzilətinə məzəmmətin töhmətə isnad olduğunun həqiqətini bildim.

QITƏ

Şer zövqindən olmayan agah

Əhli-nəzmi məzəmmət eyləməsin.

Kəndi cəhlinə etiraf etsin,

Hər kəramətə sehr söyləməsin.

Şer zövqündən agah olmayan nəzm əhlini məzəmmət eyləməsin, öz cahilliyini etiraf etsin. Hər kəramətə (hər hərəkətə) sehr söyləməsin.

Xülasə, nəzm elminin kəşfinin səbəbləri cəm olub, əsərlərin zühurunun vacib olduğu zamanlarda ki, hər zaman qüdrət əlim sənət əsərini yaradan kainatın boynuna bir həmayil asardı və hər saat təbiətimin səyyahı nadir yazılmış əsərin bağçasına – bir gülüstana qədəm basardı; bir gün bir qara qaşlı gözəl ki, xalının hər birinə Xütən ətri, mişki demək xəta idi və saçlarına qəbtədən tatar nadəsinin günü qara idi, nazənin sərv kimi xuraman-xuraman mən düşkünə mərhəmət kölgəsi saldı, şirin-şirin sözləri ilə xatirimi sorub könlümü aldı. Söhbət əsnasında sözarası dedi: «Ey fəsahət bağının gülü və ey söz gözəlliyinin baharının nöhrəsi, Allaha şükr ki, sübhanın yardım iradəsi və ilahinin yardım məşiyyəti nəzm və nəsr fənlərinin məmləkətini zəbt etməyi sənə müyəssər etmişdir və söz ölkəsinə başçılıq növbəsi tədriclə sənə çatmışdır. Ərəbdə, əcəmdə (farslarda) və türkdə kamil insanlar çoxdur, amma sənin kimi bütün dillərə və nəzm və nəsr elminə qadir yoxdur. Indi ki, dilinin açarı zamanın üzünə feyz qapılarını açmaqdadır və təbinin üzgüçüsü fəsahət dənizindən bəlağət cəvahirlərini çıxarıb aləmə nur saçmaqdadır, əhli-aləm yaratdığın incilərdən və müəmmalarından dəryaca zövq almışlar və bəzi məsnəvi ilə qəsidlərindən ləzzət, zövq tapmışlar, bəzi farsca qəzəllərini ürəklərinə nəqş etmişlər, bəzi ərəbcə rəcəzlərinin (metonimiya) zövqünə çatmışlar, allah göstərməsin ki, türk əzizləri nəzmin feyzindən fayda ala bilməyənlər, türk tayfalarının zövq əhli kəlam gülzarından qəzəl divanının şükufəsini tapmayanlar. Bu səbəbdən təbiətinin binasının rəsmi qüsurlu olar və bu vasitədən kamalının istedadının təməli zədə-ziyan tapar.

QITƏ

Ğəzəldir səfabəxşi-əhli-nəhər,
Ğəzəldir güli-bustani-hünər.
Ğəzali-ğəzəl seydi asan degil,
Ğəzəl münkiri əhli-irfan degil.
Ğəzəl bildirir şairin qüdrətin,
Ğəzəl artırır nazimin şöhrətini.
Könül, gərçi əşarə çox rəsm var,
Ğəzəl rəsmin et cümlədən ixtiyar
Ki, hər məhfilin ziynətidir ğəzəl,
Xirədməndlər sənətidir ğəzəl,
Ğəzəl de ki, mşhuri-dövran ola,
Oxumaq da, yazmaq da asan ola.

«Fikir əhlinə səfa bəxş eyləyən
qəzəldir,
Hünər çəməninin gülü qəzəldir.
Qəzəldə qəzəl (dağ keçisi, ceyran) ovu
asan deyil.
Qəzəl ürfan əhlini inkar etmir.

Şairin qüdrətini qəzəl bildirir,
Nazimin şöhrətini qəzəl artırır.
Könül, hərçənd şerə çox rəsmiyyət var,
Könül, qəzəl rəsmini cümlədən ixtiyar et.
(Qəzəlin rəsmini, ixtiyarını tamamilə ələ al!)

Çünki hər bir məclisin bəzəyi
qəzəldir.
Qəzəl alimlər sənətidir.
Qəzəl de ki, dövranda məşhur ola,
Oxumaq da, yazmaq da asan ola».

Doğrusu, bu sevimli kəlamları ki, o misilsizdən eşitdim, kəlamının məzmununu məhz nəsihət görüb onun vacib xahişinə lazımlı olduğu üçün təşəbbüs etdim. Amma zamanın tələbi yetkin kamala rüsxət vermədi ki, ağıl sərrafı qiymətli vaxtını mötəbər təsniflərə sərf etməkdə ikən, belə xırda işlərə zay edə. Və təbiətin tərlanı əzəmətli, böyük ovlar gözləyərkən bir kiçik şikar dalınca gedə. Etibarımın təxti-rəvanında naçar qalaraq, «bu ibarə lazımdır» deyib, uşaqlıq zamanından zahir olub pərən-pərən dağınıq olan qəzəllərdən bir müxtəsər divan cəm etmək fikrinə gəldim. Və o vaxtlar məndən xahişlə alanlardan xahişlə də geri aldım. Bütün surətlərini ixtisarla tamama yetirdim. Ümidliyəm ki, fəsahət və bəlağət sahibləri müşahidə və mütaliə etdikdə mənşəyim və doğulduğum yerin Iraqi-Ərəb (Ərəb Iraqı) olduğunu, bütün ömrüm boyu başqa məmləkətlərə səyahət etmədiyimə vaqif olduqda bü qüsuru etibarımın süqutunun səbəbi bilməyələr. Və yerimə, mahalıma görə istedadımın rütbəsinə həqarətlə baxmayalar. Çünki vətənin mötəbərliyi şəxsin istedadına təsir etməz. Və torpaqda yatmaqla qızılın cilası getməz. Nə şəhər əhli olmaqla nadan qəbul sahibi olur, nə də biyabanlarda dayanıb durmaqla alim vəhşiliyi qəbul edir.

NƏZM

(farsca)

Əgər ömpha məpdümi-bədsirişt
Büvəd həmdəmi-huriyani-behişt,
Dər on məhfili-pürsəfa ruzü şəb,
Zi Cibril xanəd fünuni-ədəb,
Bər on etiqadəm ki, əncami-kar,
Nagərdəd əzu cüz bədi aşikar.
Və gar salha gövhəri-tabnak,
Fitəd xarü biqədr bər ruyi-xak,
Bər Anəm ki, kəmtər nişinəd ğübar,
Zi xakəş bər ayineyi-etibar,

Çü əz xak xizəd, həman govhərəst,
Şəhanra bərazəndeyi-əfsərəst.
«Pis təbiətli adam bütün ömrünü
Behişt hurilərilə həmdəm ola;
O səfalı yerdə gecə-gündüz
Cəbraildən ədəb elmi gyrənə,
Bu etiqaddayam ki, işin sonunda
Ondan pislikdən başqa bir şey
aşkar olmaz.
Əgər işıqlı gövhər illərcə
Qiymətsiz olub torpaq üzərinə düşə,
Inanıram ki, onun etibar ayinəsinə
Torpaqdan az toz qonar.
Əgər torpaqdan götürülsə yenə həmən
gövhəridir,
Şahların tacının zinətidir».

Ümumən, izzəti-etibar sahibi olan əhalidən, xüsusən, Rum bilginlərindən və fəsihlərindən təvəqqəm budur ki, əgər mənim dilimin hüsnunun gözəlində o diyarın söz və ifadələrindən bəzək olmasa və nəzm pərdəsi o mülkləri lətif zərb-məsəllərindən ziynət tapmasa, mən günahkarı məzür tutsunlar. Çünki mülkün əhalisinə müvəqqəti olmaqdan, birovuzluqdan ar gəlir və hər tayfadan hər nə vapsa, öyrənməyi qeyrət səbəbi bilib bu diyarın istilahlarının qeyriləri kimi olmadığı üçün üzrxahıq. Nahaq sataşmaqdan nə çıxar? Allahın böyüklüyünə min şükür ki, Kərbəla torpağının başqa məmləkətlərin cəvahirllərindən yüksək olduğu məlumdur. Şerimin rütbəsini hər yerdə uca edən həqiqət də budur.

Ilahi! Bu məşhur məhəbbət kitabı və bu aşiq ürəyinin əziz övladı ki, füsunkar təbin törəməsi və sehrli idrakının nəticəsidir, izzət-niyaz məhsulu və yanıb-qovrulma bələdçiliyi ilə qürbətə getdi. Və məna cəvahiri verib gözəl qumaşlar almağa aləmin fəzasına ticarət yükü yetirdi. Necə ki, qayğı, yaxşılıq bacarığını yoldaşlıq edib ölüm keçidindən vücud seyrəngahına gətirdin və mərhəmət qüvvətini yardımçı edib qeyb vadisindən şahid nadirlərə yetirdin ki, hansı diyara, hansı vilayətə getsə, şərafətlə qədəmlərini mübarək və səadətli, gözəl başlanğıcını bəyənilmiş və uğurlu edəsən. Ilahi, bu zinətli sevgilini və gözəl rənanı ki, lütfünün bəzəkçisi üzünə zinət vermişdir və müvafiq zinətin hüsn bəzəyini kamal rütbəsinə yetirmişdir, ümumən üç alçaq tayfadan uzaq edib qoruyasan, toxunulmaz edəsən.

Biri qabiliyyətsiz katib və cahil yazandır – imla sahibidir ki, müxalif yazan qələmi maarif binasının külüngüdür. Və küdurət təsirli qələmdir ki, saxta rəngli bina memarıdır. Gah bir nöqtə ilə məhəbbəti möhnət göstərir, gah da bir hərf ilə neməti nəqmət oxudar.

QITƏ

(ərəbcə)

Təbbət yəda katibin lövlahü
ma xəribət,
Məmurətün üssiət bil elmi
vəl-ədəbi.
Ərda minəl-xəmri fi ifsadi-
nüsxətihi
Təstəzhir ül-eybə təğyirin min
əl-inəbi.

Şil olsun o katibin əlləri ki, o olmasaydı ədəbiyyat və el milə qurulmuş olan abadan ölkələr dağılmazdı. Fasidlikdə onun nüsxəsi (varlığı) çaxırdan da müfsiddir.

QITƏ

(türkcə)

Qələm olsun əl iol katibi-bəd
təhririn,
Ki, fəsadi-rəqəmi sözümüzü Şur eylər
Gah bir hərf süqutilə qılır
nadiri nar.
Gah bir nüqtə qüsurilə gözü kur eylər.

«Çox pis təhrifə yol verən katibi
əli qələm olsun
(şil olsun, qırılsın),
Çünki rəqəm fəsadı
sözümüzü Şur eylər
Gah bir hərf süqutu ilə
nadiri nar edir,
Gah bir nöqtə qüsuri ilə
gözü kor eylər»

QITƏ

(farsca)

Bad sərgəştə bəsani-qələm on

bisərü pa

Ki, büvəd tişeyi-bünyani-məarif

qələməş.

Ziynəti-surəti-ləfzəst xətəş,

leyk çi sud,

Pərdeyi-şahidi-mənist səvadi-

rəqəməş.

O adam qələm kimi avara olsun ki, onun qələmi maarif binasının külüngüdür. Xətti ləfzin surətində bəzəkdir. Lakin nə fayda, yazısının qaralığı məna gözəlinə pərdədir.

Və biri savadsız naqisdir ki, vəznsiz təbi ilə məclis və yığıncaqlarda istedad ricası qılıb, şer oxuduqca nəzmdən nəsri seçilməyə və süst ədası ilə məna gözəlinin üzündən niqab (üz örtüsü) açılmaya.

NƏZM

(ərəbcə)

Kəm min lisanin səqimin min

təsərrüfihi

Sarət ləali-iqudin-nəzmi-mənsura.

Ərəl-qəzaya ənil-əntaci məntiqühu

Təsrifühu qəlləbəl-məzmumə məksura.

Bacarışsız şer deyənin pəltək dili lal olsun ki, ondan şer inciləri səpələnmişdir. Onun məntiqi qəziyyələri nəticə verməkdən ari etmiş, onun təsrifi zəmməli sözləri kəsrəli etmiş.

NƏZM

(farsca)

Büridə bad zəbani ki, dər fəzayi-soxən

Əzu məbaniyi-əfkar münhədim gərdəd.

Zi inqilabi təsarifi-ləhceyi-bədi-u

Vücudi-hüsni-ibarat münədim gərdəd.

O dil kəsilsin ki, söz fəzasında ondan fikir sarayları uçulur. Onun pis ləhcəsinin inqilabından ibarələr gözəlliyinin vücudunu məhv olur.

NƏZM

(türkcə)

Binəsib olsun nəimi-xülddən ol
zişt kim,
Namülayim ləhcəsi mövzunu
namövzun edər.
Tişeyi ləfzi binayi-nəzmi
viran eyləyib,
Süst göftari fəsahət əhlini
məğbun edər.

«O çirkin adama behişt neməti nəsib
olmasın ki,
Mülayim olmayan ləhcəsi mövzunu
mövzunsuz edir.
Söz külüngü nəzm binasını
viran eləyir,
Süst dili fəsahət əhlini
məğmun edir».

Biri də o cəfa çəkən paxıl və xəta düşünən inadcıldır ki, namövzun təbi ilə şer davası edə. Amma şer həqiqətləri şüuruna sahib olmaya və zəif idrakı ilə nəzm uydura, şer sözləri deyə. Amma söz həqiqətinə yiyələnmək yolunu tapmaya. Xülasə, həsəd insaf gözünü kor edib idrakına güvənən cahillər hüzurunda mənasız-mənasız müdaxilələr edə və hərzə-hərzə şerə girişə, ta ki, şerdən dinləmə zövqu gedə.

NƏZM

(ərəbcə)

Məasimü hüssadil-kəlami əzimətün,
Bəsirətühüm məhzüz-zəlalti
fil-məla.
Təzyiü müraatüs-sənaei beynəhüm,
Tüsəddədə minhacəl-vüsuli iləl-üla.

Sözə həsəd aparanların günahı böyükdür, onların bəsirət gözləri varlıq aləmində zəlalətdir. Sənətkarlıq hüququ onlar arasında itər, onlar yüksəkliyə doğru gedən yolu bağlarlar.

NƏZM

(farsca)

Ah əz on badiyəpeymayi-biyabani-həsəd
Ki, nədarəd dili-zülmaniyəş əz
irfan nur.
Çün ənakib be do beyti ki, bəhəm
mibafəd,
Xişra didə beh əz beniyi-beyt-ül-
məmur.
Eyb başəd həməca mətrəhi-məddi-
nəzərəş,
Gərdəd əz gərdi-həsəd dideyi-
insafəş gur.

Mənasız yerə həsəd aparandan dad, onun qaranlıq ürəyində irfan nuru yoxdur. Hörümçək kimi bir-iki beyt toxuduqda özünü Beytül-Məmur banisindən usta sanar. Onun dünyagörüşü tamamilə eyibdir. Paxıllıq tozundan onun insaf gözü kor olar.

NƏZM

(türkcə)

Xəzandır gülşəni-irfanə hasid,
Ilahi, hasidi xar eylə daim.
Işidir mərifət əhlinə azar,
Ilahi, hasidi zar eylə daim.

«Həsəd çəkən ariflərin gülşəninin
xəzanıdır,
Ilahi, həsəd çəkənləri daima xar eylə.
Mərifət əhlinə azar yetirmək onun
işidir,
Ilahi, həsəd çəkənləri daima zar eylə».

Pak etiqadlı halal insanlara Allah rəhmət eləsin ki, bu yeniyetmə gözəlləri müşahidə qıldıqca bəzənilən bir yaraşıqla əlasının camalına və kamalına ziynət yetirə və alçağının mürüvvət, mərhəmət darağı ilə xəta zəlfündən eyib boyunbağısını çıxara, qüdrət aynasından sığal ehsanı ilə nöqsan tozunu götürə.

DÜŞÜNCƏLƏR

Azərbaycan tarixinin qana bulaşmış qara səhifələrindən birinin də adı Mir Cəfər Bağırovdur.

Ondan müsbət qəhrəman düzəltmək istəyənlər yanılırlar. Nə başında Lenin-Stalin dayanmış qanlı-fəlakətli ümumsovet sistemi, nə Azərbaycanı sovetləşməyə, ruslaşmağa sürükləyən onlarca bolşevikin aradan götürülüb məhv edilməsi, nə Azərbaycanın köçürülməsi barədə Stalin-Mikoyan planının aradan qaldırılması, nə birləşmiş Bütöv Azərbaycan ideyasının ardıcıl müdafiəsi və bu birlik üçün bütün cəhdlərin edilməsi Mir Cəfər Bağırovun qara səhifə olduğunu dəyişə bilməz.

Minlərlə, on minlərlə Azərbaycanlının soyqırımının, genosidinin başında Mir Cəfər Bağırov dayanıb. Söhbət Cavid, Müşfiq, Çobanzadə… - Mir Cəfər Bağırov alternativlərindən gedirsə, haqq, insaf, ədalət və şübhəsiz ki, Allah Cavidlərin, Müşfiqlərin, Çobanzadələrin tərəfindədir.

Yalan yarımçıq ola bilər, həqiqət yarımçıq ola bilməz. Iki əks yolun, əqidənin biri düz ola bilər.

Fəqət bir gerçəyi deməmək olmaz. Və bu gerçəklər qara səhifəyə haqq qazandırmaq üçün deyil, həqiqəti daha geniş perspektivdə görmək üçündür.

Mir Cəfər Bağırov ziddiyyətli, faciəvi şəxsiyyətdir. Bu faciə həm də Zamanın faciəsidir.

Və Mir Cəfər Bağırov bizim türklük, Azərbaycançılıq, demokratiya, millətçilik idealları-mızla oynamamış, onları lafçılığa, mənasızlığa çevirməmişdir; Mir Cəfər Azərbaycanı rüşvət və korrupsiya, tayfaçılıq, yerliçilik bataqlığında boğmamışdır. Bu sözlər Mir Cəfər Bağırova bəraət deyil, sadəcə insaf xatirinə söylənmiş gerçəklikdir.

* * *

Mənasız adamların intriqası da mənasız olur.

Allah adamın düşmənini də özünə layiq eləsin.

* * *

Kiçik düşmənçiliklər iç savaşlara böyük düşmənin əsarətini, zülmünü əbədiləşdirməkdir.

* * *

«Bəşəriyyət ictimai başlanğıc üçün mifologiyaya, fəlsəfəyə, dinə borcludur. Fərdi başlanğıc üçünsə söz sənətinə borcludur».

* * *

Islam dini MƏN və ALLAH konsepsiyasının dünyaya gəlişidir.

* * *

XX əsrin 60-70-ci illərin tənqidi 60-70-ci illərin ədəbiyyatının rəsmiləşməsi, ictimai fikir səviyyəsinə qalxması üçün əlindən gələni etdi.

XXI əsrdə bu ədəbiyyat öz ölümünə, tənəzzülə gedirsə, heç bir tənqid onu qoruyub saxlaya bilməz. Zamanın qazdığı qəbri insan torpaqla deyil, ölənlərlə doldurur.

* * *

Bizim Azərbaycanımızı, bizim millətimizi birləşdirən ən böyük amillərdən biri Mirzə Cəlil, Sabir Sözü, Üzeyir bəy Musiqisidir.

* * *

Şair insanları yalnız Sözlə özünə təslim edə bilmir. Başqa hər nə varsa boş şeydir – şerdən qaçmaqdır.

* * *

Ulduzlar hər gecə işıq dilində məni özlərinə çağırır.

* * *

Insan yaddaşının ən böyük qəribəliklərindən biri də budur ki, ən ağrılı, ən acılı nöqtə bir zaman gəlir ki, ən əziz, əvəzedilməz bir dəyərə çevrilir.

* * *

Sevgi də, nifrət də enerjidir, gücdür. Əgər o bölünürsə, xırdalanırsa, heç vaxt hədəfinə çata bilməz.

* * *

Namaz qılıb yalan danışan, fəsad quraşdıran Allahı deyil, öz zavallı canını aldadır. Gec-tez cavabını da alır.

Allah ağıllı adamın ağlından alıb onun yerinə cəsarət versin.

* * *

Istedadlı adam millətin arzusu, təxəyyülüdürsə, namuslu adam millətin əxlaqıdır.

* * *

Erməni muğamat oxuya bilməz. Çünki nə Allah, nə Təbiət, Qarabağ təbiəti ermənіyə oxumaq üçün boğaz verməyib. Erməni muğamatı yalnız çala bilər. Bu ifa səsin alət dilinə tərcüməsidir, özü, əsli deyil. Insan səsinə ən yaxın alətin səsi belə insan səsi deyil – imitasiyadır.

* * *

Doğma və yadlığından asılı olmayaraq başqasıınn əzabını, ağrısını, acısını çəkə bilmək – vicdan adlı şeyin özüdür.

* * *

Qadın qadınlıq adlanan cildindən çıxırsa, o başqa birinin cildinə girməyə gedir.

* * *

Bülbülə səsi Şuşanın havası, Rəşidə səsi Şuşanın suyu bağışlayıb. Bu hava, bu səs Bülbüldə, Rəşiddə yenidən doğulub.

* * *

Hərdən ulduzların səsini eşidirəm. Onların nə isə dediyini o qədər aydın hiss edirəm ki, bu aydınlıqdakı səsi anamdan doğulduğum evin həyətindəki yeganə tut ağacından eşitmişəm. Ulduzların ulduz dilində dediyi sözlər, aşıladığı uyum, varlığıma, ruhuma gözəllik, sakitlik, sərinlik gətirir. Nə dediklərini anlamasam da, nə söylədiyini bilməsəm də.

* * *

Günəşin qovurduğu, küləyin sovurduğu yerdə tək Allaha – tək Yaradana inamın toxumları yarandı.

* * *

Alimi yamanlayan sənətçi yazıqdan yazıqdır. Onun illərlə bir damla yığdığını Alim muğam yolunun hər addımında sini-sini yığır.

Zavallı sənətçi anlamır ki, Alim onun şərh etmədiyi muğamı oxuyur, onun bilmədiyi və heç vaxt bilməyəcəyi dildə danışır. Və onun görmədiyini görür.

Muğamı mıxla yerə mıxlayan yer adamları üçün uçan muğam, rəng-rəng dəyişən muğam anlayışı göylər qədər uzaq, ulduzlar qədər kiçikdir.

O zavallı hardan bilsin ki, dəyişən dəyərlər dəyişməyənin mahiyyətini ifadə edir.

Yaşayan dəyişməzin və yaşamayan dəyişənin dəyər fərqini anlamayan Alimi hardan anlaya bilər?

Anlamaq da bir fəzilətdir. Hər şeyi hamı anlasa, dünyanın duzu-dadı olmazdı.

Alim muğamı oxuduğu qədər də muğam Alimi oxuyur…

* * *

«Sən məndən ağıllısan, yəni öz işini bilənsən, dostla-düşmənlə davranış mədəniyyətinin ustadısan, deputat bala. Sən məndən daha çox öz zəmanənə oxşayırsan, oğul bala».

Cəmiyyət də meşə kimidir, bəlkə də özünəməxsus bir cəngəllikdir.

Taktika incəliyi, ən az enerji itkisi ilə mənən çox qazanmaq sənəti, səmimi və üzəvari dostluq və səmimi və üzəvari düşmənçilik qabiliyyəti sənin ağıllı olduğunu təsdiq edəcək. Şübhəsiz ki, ağılın öz mənası bu deyil. Amma ağılın zəmanəyə uyğunluğu, çeviklik, dəyişmə, oyun oynamaq istedadı da bir gerçəklikdir; yaşam dəyəri onunla müəyyənləşir.

Bu ağılın ana qanunları var; bir neçəsini desəm, nədən söhbət getdiyi bəlli olar:

- münasibətlərdə əyləc mühüm yer tutur. Yazım olanda basmalısan, lap saatda 200-lə getsən də;

- çoxları üçün önəmli olan mənfəətdir; çünki yer üzündə ən anlaşıqlı, universal dil dolların, qızılın dilidir, sən buna aldanma;

- intellektual göstərici dil-dil ötməkdir (fərqi nədir, düzdür, yoxsa səhv, dərindir, ya dayaz…), ingiliscə ala-babat bilməkdir, kompüterdə qurdalanmaqdır, ağ köynək, qalstuk, qara kostyum ilə cins geyim dəstinin vaxta görə uyarlığıdır. Idmançı görkəmi heç unutma;

- evləndiyin adam ağıllı (sənin kimi) zəngin və imkan daxilində namuslu olmalıdır. Nə edirsə etsin gözə girməsin, dilə düşməsin, oyun (oxu: həyat) yolunda ən azı sənə inam olmasın, ən çoxu səndən yaxşı oynasın;

- Bakı küləyi kimi olacaqsan. Küləyin istiqamətini mövcud durum müəyyənləşdirəcək (siyasət, rəhbərlik, yer, tayfa, vəzifə… prinsipləri və s.);

- daimi dost, daimi düşmən anlayışını ləğv edəcəksən və birdəfəlik daimi mənafe prinsipini qəbul edəcəksən;

Karnegini oxuyacaqsan, Brzejinsikini, Kissenceri… şəxsi həyatına tətbiq edəcəksən;

- «atam ilə atanı deyincə özüm ilə özünü de» prinsipinin pərdəarxası prinsiplərini tətbiq edəcəksən;

- həyat şahmat oyunudur, bu oyunu mükəmməd oynayacaqsan, ən azı qrossmeystr səviyyəsində;

- dost, sədaqət, millət, qeyrət, vicdan, əqidə, kişilik, mərdlik, təmizlik… kimi anlayışlar (arxaik və mənasız anlayışlar) yerinə görə tətbiq edilən anlamsız etiketlər, jestlər, kəlamlar səviyyəsindədir. Vəssalam.

- işlərini həll etmək üçüm qadın dünyası açardır; bu açarla istədiyin qapını açacaqsan və təbiidii ki, istədiyini də bağlayacaqsan;

- yolda qalmayacaqsan, düz mənzilbaşına cibidolü, evidolu «ağıllı», «mənalı», «abırlı», «təmiz», «gözəl» gedəcəksən.

- unutma ki, uşaqların səndən daha yaxşı oyunçu olmalıdır. Əgər bunu bacarmasan, demək sən düzgün yaşamamısan. Bunu da unutma ki, uşaqlara zəmanə verdiyindən daha çox verməlisən ki, gələcək sənin olsun…

Vəssalam, şüttəmam. Təfərrüata getmirəm, hər şeyi demirəm, əslində sən məndən yaxşı bilirsən, oğul bala, çox vaxt gedər, bilirəm vaxt sənin üçün qızıldır.

Deputat bala, həyat belədir. Sənə söylədiyim ağılın məntiq dünyası ilə atalarımız babalarımızdan, biz atalarımızdan, sizin nəsil bizdən, mənim oğlumun nəsli də sizdən ağıllı olacaq. Intellektual-praqmatik məktəb zaman-zaman öz qələbəsini çalacaq.

Və həyat belə-belə öz ölümünə gedəcək. Bəşəriyyət günlərin bir günü yox olacaq. Elə o şahmat taxtasının arxasında».

P.S. Bağışla, başağrısı verdim.

Hardansa yadıma dostum Azər Abdullanın «Məzələnmə» əsəri düşdü. Bu əsəri Azər bəy hələ çap etdirməyib. Yəqin ki, etiraf gücünə dözümü olmayacaq adamları, vəzifəli «dostları» nəzərə alıb. Fərqi nədir? Bir gün çap olunacaq və yaxın tariximizin bir namuslu mənzərəsi də bu əsər olacaq.

Mən bir oxucu kimi öz müəllifinə oxşayan yazıları daha çox sevirəm və qəbul edirəm. Bu mənada Azərin «Məzələnmə» roman-xatirəsi o qədər özünə bənzəyir ki, müəllifinə bü qədər bənzəyən çox az əsər tapmaq olar.

Romanı oxuduqca xəyalımda mənim öz tanıdığım Azər canlandı: həqiqəti arxasınca ömrü boyu inadla gedən iddiasız əsgər.

Əsgər dedim, rəhmətlik Vidadi Məmmədovun Azər haqqında dediyi bir fikri xatırladım: «Azər böyük bir ordunu qırğına verib döyüşü uduzan qürurlu qəhrəmana oxşayır».

Doğrudan da, Azər minlərlə əsgəri qurban verən qürurlu qəhrəmana çox bənzəyirdi. Amma bu minlərlə əsgər onun öz içində olan, həyat enerjisi, sağlamlığı, gəncliyi idi.

Nədənsə mənə həmişə elə gəlib ki, naxalstroyda əlində bel özünə ev tikən Azərin, iki balasını şərəflə böyüdən, az yazan, az danışan, çox çalışıb az qazanan Azərin sərvəti, pulu ol-

saydı dünyanın ürəyinə, daşına-canına ziyan gələrdi. Heç vaxt heç kəsə ağız açmayan Azərin məğrur kasıblığı çoxlarının ümid yeri idi.

Nə isə, sözümüzə davam edək. Əlbəttə ki, dünyada ideal mənada iddiasız adam yoxdur. Azərin iddiası isə onun öz içindəki dəyərlərlə bağlıdır. Bu bəlkə də Don Kixotçuluqdur. Bəlkə də çağdaş dərvişliyin bir şəklidir. Kim bilir, bəlkə də bizim bilmədiyimiz başqa bir şeydir.

Hər nədirsə, bu, həyat prinsipidir; dəyişən dünyaya, zəmanəyə etirazdır, inad və cəsarətdir. Cəsarətdir, ona görə ki, Azər bu prinsiplər uğrunda dünyada ona ən yaxın olan adamlarla da üz-üzə gəlib, üz-göz olub, mücadilə aparmaq məcburiyyətində qalıb. Hər kəs bilir ki, yer üzündə ən çətin mübarizə doğmalarla olan mücadilədir. Çünki onlar elə insanın özü kimi bir şeydir.

Və şübhəsiz ki, Azərin ən böyük mübarizəsi elə özü ilə olub.

Mən özü ilə amansız mübarizə aparan bir neçə adam tanıyıram (rəhmətlik Əbülfəz bəy, Əli Kərim, Aydın Məmmədov, az adamın tanıdığı Vidadi Paşayev, Tanqo (Tanrıverdi)… Vidadi Məmmədov, Natiq Səfərli.

Azər bəy də bu adamların sırasına daxildir. Dəxli yoxdur ki, bu adamların özü ilə mübarizədə nəticə necə olub.

Dünyada elə şeylər olur ki, onun nəticəsi heç kimə maraqlı deyil.

Mənim vurğulamaq istədiyim özü ilə mübarizənin, barışmazlığın nə olduğudur.

Onlarla asan, firavan yol Əbülfəz bəyi özünə çağırırdı. Əbülfəz bəy onların hamısından imtina etdi və faktiki olaraq ən romantik olanı – mümkünsüzlük yolunu seçdi. Bu seçim özü ilə mücadilənin qanlı müharibələrinin sonucu idi.

Mümkünsüzlüyün mümkün ola bilməsi isə Allahın işidir, bəndə məntiqinin dışında olan bir şeydir.

Azərin ikinci özəlliyi öz yazı üslubuna, yəni özünə sadiqliyidir. Yazı qəribə bir şeydir. Elə ki, əlinə qələm alıb ilk sözü yazırsan, tanıdığın, bildiyin minlərlə üslubdan dəvət alırsan, hamı səni öz yanına çağırır, hər kəs sənin ondan olmağını istəyir. Azər bəlkə öz istədiyi səviyyədə yazıçı ola bilməyib. Ancaq o öz üslubuna sadiq olub və öz istədiyi sadəlikdə, aydınlıqda, sərtlikdə və sayalıqda yazıb…

«Məzələnmə»ni oxuyanda bunu bir daha anladım ki, yalnız adamların ən yaxın dostu da özləri olur. Nə qədər dalaşsan da, küssən də, barışsan da o səni sənin kimi bilən, duyan, dərk edən geyanə varlıqdır.

Azərin «Məzələnmə»sini oxuyandan 5-6 il sonra bir səhər hardansa onu xatırladım və kiçik qeydlərini yazmağı özümə borc bildim. Sağlıq olsun.

P.S. Mənim kənddəki toyuma bir gün əvvəl gələn Azər Abudlla elə bu toyun özü kimi yadımda qalıb: gözəl, inadcıl, nikbin, işıqlı, mərd, kədərli və kədərli olduğu qədər də ümidli.

Bəlkə də insanı yaşadan məchul xoşbəxtlik, məchul gözəllik və məchul ümiddir.

Romantiklər olmasa dünya maraqsız olardı.

Allah yer üzünün bütün gerçəkçi romantiklərinə yardımçı olsun!

* * *

Söz sənətinin ən böyük məqsədi sözsüzlüyə getməkdir. Söz tapmamaq, matı-qutu qurumaq, dili lal olmaq bəlkə də ən böyük və təkrarsız Sözdür.

Füzuli özünə «Əbsəm! Əbsəm!» («Yal ol!», «Yal ol!») deyərkən bu sözsüzlüyün dəhşətini ifadə edib…

* * *

…Insanın ilk Sözü çığırıb ağlamaqdır. Insanın son sözü gözü ilə, üzü ilə dediyi sözsüz Sözdür.

* * *

Azərbaycanda bir varis virusu dolaşmaqdadır…

* * *

Naməlum qüvvələr dünyanın baş şəhərinin baş evlərini bombaladı. Məlum qüvvələr naməlum qüvvənin acığını dinc əhalidən çıxmaq istəyir. Bunun adı absurddur.

* * *

«Ənənəvi ruhda hücum modern müdafiədən yaxşıdır».

* * *

Azadlıqdan yüksək olan şey yenə AZADLIQdır!

* * *

Hamıdan geri qalmaqla hamıdan irəli getməyin prinsipcə elə bir fərqi yoxdur. Hər iki vəziyyətdə hamı ilə bir yerdə olmursan.

* * *

Yerin altı şeytana məxsusdur. Yerin altındakılar da. Neft şeytanın ən əziz varlığıdır. Çünki şeytanın əsli atəşdir.

Məhz buna görə də harda neft varsa, orda ölüm, savaş, diktator var, qanun yoxdur, ədliyyə, əmniyyət yoxdur.

Şeytan sevdiyi əlindən alındığı üçün ən amansız şəkildə qisas alır. Və qisas uzanır.

* * *

Əbülfəz bəyin xəyal dünyasında hələ ilk gəncliyindən yaratdığı böyük, əzəmətli, sirli-soraqlı bəyaz və gözəl Türk dünyası var idi (çox-çox sonralar bəlli oldu ki, elə bu böyük və işıqlı dünya da Əbülfəz bəyi yaradıbmış).

Bu dünyanın Türküstanı, Idilboyu, Sibiri, Təbrizi, Dərbəndi, Kərkükü var idi.

Bu dünyanın masmavi qəhrəmanlıq tarixi Mətədən, Atilladan, Babəkdən, Çingiz xandan, Koroğludan, Səttarxandan başlayırdı.

Bu dünyanın ağappaq bilgəliyi-müdrikliyi Dədə Qorqud, Molla Nəsrəddin, Fərabi, Ibn Sina, Urməvi, Əcəmi, Marağayi beynindən keçirdi.

Bu dünyanın yamyaşıl sənəti Mövlanə, Yunus Əmrə, Nəvai, Füzuli, Mahtımqulu, Memar Sinan, Aşıq Ələsgər, Abay, Sabir, Mirzə Cəlil ürəyindən keçirdi.

Bu dünyanın şəffaf əqidəsi Kaşğarlı, Qaspırali, Əli bəy Hüseynzadə, Ziya Gökalp, Atatürk, Məhəmməd Əmin, Xiyabani, Elçibəy dönməzliyindən qurulub.

Bu dünyanın rəng-rəng Ipək yolu – cahan yoludur.

Qopuzu qopuz, qılıncı qılınc, xalısı xalı, muğamı muğamdır.

Mədəniyyət və dövlət, Azadlıq və Şərəf bu dünyanın özüdür.

Əbülfəz bəyin türk dünyası xəyalların mif dünyası deyildi, gerçəklərin Var dünyasıydı.

Əbülfəz Elçibəy bu dünyada əsgər kimi doğuldu. Son xaqanı, bilgəsi kimi dünyadan əbədiyyətə köçdü.

Tanrı Türkü qorusun!

* * *

Şer – minlərlə, yüzminlərlə insanın hiss etdiyi, ancaq deyə bilmədiyi duyğudur, fikirdir.

Şer – həm də minlərlə, yüzminlərlə insanın hiss etdiyi, düşündüyü, ancaq demədiyi duyğu, fikirdir.

Və şer minlərlə, yüzminlərlə insanı duymayacağı, düşünməyəcəyi və deyə bilməyəcəyi, deməyəcəyi duyğular və fikirlərdir.

* * *

Bütün savaşlar sülhlə bitir. Bütün sülhlər savaşla pozulur.

* * *

Sənin gözəlliyin səviyyəsində sözüm, sənin səbrin, iradən səviyyəsində gücüm yoxdur.

* * *

Ayrı-ayrı zamanların adamı olmaq və sevişmək, ayrı-ayrı dünyalardan olub bir-birini sevmək qədər uydurma, mümkünsüzdür.

* * *

Bu sevgidən qaçmaq öz Allahından qaçmaq qədər imkansızdır.

* * *

Həyatımın ən ağır zamanında bu sevgini Allah mənə son təsəlli kimi göndərmişdi.

* * *

Aydınlıq qaranlığın içindədir.

* * *

Insan böyüdükcə Allah da böyüyür. Insan dünyanın sonsuzluğunu, hüdudsuzluğunu anlayır.

* * *

Mədəniyyət çökə bilər, ancaq ölə bilməz.

* * *

Bir Çin atalar sözünü unuda bilmirəm: Xoşbəxtlik də, bədbəxtlik də çağrılan məcburi qonaqlardır.

* * *

Inanmaq deyil, düşünmək insanı xilas edir.

* * *

Allahın verdiyi ilə bəndənin qazandığını müəyyənləşdirə bilsək, ədəbiyyatda çox şeyləri qətiləşdirə bilərik.

* * *

Intibah – köhnə zamana söykənib yeni zaman yaratmaq hərəkatıdır. Avropanın renessansı; Şərqin renessansı deyil. Özünə sahib çıxan, mənliyini kəşf edən insan dünyaya sahib çıxmaq üçün bütün bağları qırmalı idi. Bağların qırılması Azadlığın astanası idi.

Yenidən doğuş dünyanın yenidən insanın gizli dünyasının kəşfi idi.

Yenidən doğuş xəyalları gerçəkləşdirmə cəhdidir.

Yenidən doğuş sənətdə idealı, elmdə realı tapdı.

Allah bu dünyanı idarə etmək, yaşatmaq və yaşamaq üçün insanı yaradıb – bu həqiqət də intibah həqiqətidir.

Insanın özü-özünü kəşf etməsi renessansı maarifçiliyin və intellektual çağın ortaq zəfər yoludur.

* * *

A.Tarkovski onu əzən ölkədən, dövlətdə üz çevirib, bu ölkənin, bu dövlətin adamlarının həsrəti ilə öldü.

* * *

«Nostalji» A.Tarkovskinin son nəğməsi idi. O, bu nəğməni özü üçün oxudu.

* * *

Üzeyir bəyin musiqisini yalnız Şuşa – Qarabağ təbiəti, havası, suyu ilə bağlamaq birtərəfli baxışdır. Üzeyir bəy əxlaqı, əqidəsi, mənəviyyatı – Azərbaycan maarifçiləri (M.F.Axundov, H.B.Zərdabi, Mirzə Cəlil, Sabir, Ə.Hüseynzadə…) tərəfindən formalaşdırılmış Azərbaycan millətinin ruh halının duyğu-hiss dünyasının ifadəsidir!

Allah Millətin bu boşluğunu doldurmaq üçün Üzeyir bəyi yaratmışdı. Üzeyir bəy isə sözdə tapmadığı dünyanı səsdə tapdı. Azərbaycan, XX əsrinin adı Üzeyir Hacıbəylidir.

* * *

Sovet rejimi Mirzə Cəlili cismən deyil, amma ruhən yeyə bilmədi.

Bu rejim Üzeyir bəyi yedi, amma həzm edə bilmədi.

Bu rejim Müşfiqi cavan ov əti kimi yedi. Ləzzətdən bayıldı.

* * *

Sabir xoşbəxtdir ki, sovet dövrünü görmədi və Mirzə Cəlil yaşadıqlarını yaşamadı.

* * *

Biz Cavidi deyil, Cavid obrazını sevirik. Sevilən şair deyil, şair taleyidir.

* * *

Mirzə Cəlil bütün felyetonlarını vətəndaş kimi başlayır, yazıçı kimi bitirir.

Mirzə Cəlil bütün hekayələrini yazıçı kimi başlayır, vətəndaş kimi bitirir.

* * *

Mirzə Cəlilin başı üstündəki göy üzü ayağının altındakı yer üzündən çox genişdir.

* * *

Mirzə Cəlil, Sabir imperiya yazıçısı deyil. Imperiya dövründə yaşadıb, yaradıb Mirzə Cəlil. Və o imperiya Mirzə Cəlil, Sabir, Ə.Hüseynzadə, Ə.Ağaoğlu dövrünün imperiyasıdır.

* * *

Tomas Mann Dostoyevski sözünün sirrini yazıçının bioloji-fizioloji varlığı ilə açır. Epilepsiya yazıçı bədahətini müəyyənləşdirir – qənaətinə gəlir.

Nə qədər düz olduğunu demək çətindir. Amma dünyanın son peyğəmbəri də Allahın son kitabını epilepsiya anlarında zaman-zaman alıb.

Ekstaz, epilepsiya qam-şaman sirrinin də açarıdır.

Əcəba…

* * *

Irakli Andronnikovun Lermontovu Marinova Svetayevanın Puşkinindən çox kiçikdir.

Əslində, bir-birindən kiçik və ya böyük olmayan bu iki dahi şair iki başlanğıcın söz ustadıdır. Puşkin nizamın, harmoniyanın, kosmosun, Lermontov nizamsızlığın, disharmoniyanın, xaosun şairidir.

I.Andronnikovun yozumu Lermontovu nizamladığı üçün, M.Svetayevanın yozumu Puşkini nizamsızlaşdırdığı üçün dəyərlər dəyişir və tərs mütənasiblik doğulur.

* * *

XXI əsrdə Allah rəhmə gəlib insana bir-iki sirr də deyəcək.

Bir baxışda da proqramlaşmış Allah olan insan üçün bu sirri dünyanın özü qədər də, söz dünyasına təsir edəcək.

Başqa planetdən gələnlərin ədəbiyyatı ilə ilk tanışlıq bu əsrdə olacaq.

Yüz minlərlə söz öləcək. Yüz minlərlə söz doğulacaq. Doğulanlar ölənlərdən az olacaq. Sözün meydanı daralacaq.

Söz yenidən mifləşəcək, simvollaşacaq. Bu əxlaqsızlaşma deyil, əxlaq ölçüsü olmayan söz varlığı olacaq.

Sözün parametrləri bizim bilmədiyimiz şəkildə dəyişəcək.

Söz deyə bilmədiyindən çox şey deyəcək və deyə bilmədiyi qədər də deyilməzlik dəyərini maddiləşdirəcək.

Ədəbiyyatın rolu azalacaq. Bu rolu sən eli, ilahiyyat biləcək.

Əsrin böyük bir qismi Söz böhranı olacaq.

Daha sonra əsrin dahisi yetişəcək. Əsrin dahisi Asiyadan, Afrikadan çıxacaq.

Ədəbiyyat öz keçmişində daha çox qalacaq və gələcəyə gönəlik bütün enerjini keçmişdən almağa çalışacaq.

Ancaq bütün güc və enerji keçmişdən deyil, kosmosdan gələcək. Kosmik enerji keçmişlə gələcəyin sintezidir.

* * *

Ədəbiyyat üçüncü minilliyə gəlib çatdı. Bu minilliyin fəlsəfəst, rəmzləri hələ dünyaya gəlməyib. Keçən əsrin sonlarında yetişən dəyərlər hələ öz real gerçəkliyinə çata bilməyib. Çatmasa da, bəzi əlamətlər, işarələr yeni əsrin hansı yolla gedəcəyi haqqında mücərrəd və qeyri-müəyyən olsa da, bəzi təsəvvürlər yaradır. Yenə də təhtəlşüur, sezgi altıncı hiss arayışları, yuxu və insanın görünməz dünyası.

Insanın Allahın zərrəsi və ya şeytanın zərrəsi olması mübahisəsi davam edəcək.

Ədəbiyyatın diş musiqisi dilinə yaxınlaşacaq.

Informativlik, riyazilik irrasiona bədii dəyər daşıyacaq.

Məlumdan naməluma, məchula gedən yol tərsinə olacaq.

Yeni əsrdə bütün şeytanlar, mələklər ədəbiyyatdan qovulacaq. Anlayışlar dəyişəcək.

Ədəbiyyatda hər şey sadələşəcək. Çünki insan özü sadələşmə dövrünə girəcək. Sadələşmə mürəkkəbləşmənin yeni dövrü olacaq.

* * *

Sağlığında nifrət etdiyi adama, heç saymadığı qələm, heç saymadığı qələm əhlinə difiramb yazıb xal qazanan yazar kimi isə söymək üçün ölü ruhunu bəhanə alması iqtidarsızlıq kompleksindən başqa bir şey deyil. Ölüyə yalançı sevgi, diriyə nifrəti izharı üçün bəhanədirsə, belə yazara nə deyəsən. Nə deyəsən ki, Allaha xoş getsin.

* * *

Başqasına gəda demək hələ deyənin gəda olmamağının sübutu deyil.

* * *

Ən böyük şərəfsizlik və alçaqlıq millətinin haqqını asılı olduğu hökmdara satmaqdır.

Bəli, mənim üçün böyük şücaət alçaqlığına və şərəfsizliyinə inandığım Adama, vəzifəli, rütbəli, dəstəli, arxalı Adama salam verməməkdir. Indiki ağır vəziyyətdə Allah qarşısında o adamın heç bir şeyə ləyaqəti olmadığını söyləməkdir.

Salam verməmək yalnız incimək, küsmək deyil, həm də iyrəndiyinə tüpürmək, özündən ən dinc üsulla rədd etməkdir.

* * *

Arvad sifətli kişilər qadın ləyaqətini, xanım ucalığını anlaya bilməz.

Arvad sifəti qadın sifəti, qadın xaraketri deyil, təhrif olunmuş cinssizlik və ya çoxcinsililik əlamətidir. Mənəvi qısırlı hökmdar qarşısında tam aydınlığı ilə görünən fiziki və mənəvi eybəcərlikdir.

* * *

Disidentlik ilk növbədə özünə qarşı çıxmaq bacarığıdır. Rejim tərəfindən və ya mütləq çoxluq tərəfindən mənimsənilmiş gücünlə (bəzən gücsüzlüyünlə) rejimlə üç-üzə dayanmaq ləyaqətlidir. Özünə qarşı ola bilməyənin dissident ola bilməsi çətindir, bəlkə də mümkün deyil.

* * *

Yaddaşa ayrı-ayrı rakusrlardan baxış reallığın, nə qədər irreal olduğunu anlamaq üçün əhəmiyyətlidir.

* * *

Yaratmaq qabiliyyətini itirən yaradıcı Adam yarada bilən və yarada bilməyən adamlarla normal birgəyaşayış qabiliyyətini itirir.

Yarada bilməyən adamın yeganə çarəsi intihardır.

* * *

Hər hansı məşhur Adam özünün Kim olduğunu bilmirsə, küçəyə çıxıb özü haqqında on adamın fikrini bilsə, özü haqqında fikrini dəqiqləşdirə bilər.

* * *

Yaxşı ki, ruhun dərisi yox idi, yoxsa saman təpərdilər.

* * *

Hər kəs həyatında bir dəfə, bir yaşda öz şəklini alır. Bu şəkil onun ruhunun şəklidir. Kimi 5, kimi 18, kimi 40, kimi də 80 yaşında.

Ruhun öz şəkli hər kəsdə yaşın hansı birində olur.

* * *

60-cı illər Azərbaycan nəsrinin poetik-texnoloji axtarışlarının yekunu Y.Səmədoğlunun «Qətl günü» romanıdır.

* * *

Y.Səmədoğlunun «Bayatı-Şiraz» hekayəsi Mirzə Cəlil nəsrinin yeni havada, yeni zamanda dirilməsidir.

* * *

Böyük bir yazıçı olmaq üçün doğulmuş insanın öz-özünü aldadaraq yolunu sapması və adi yazıçı kimi ölməsi tarixini oxumaq istəyirsinizsə, M.Qorkini oxuyun.

* * *

Mayakovski özündə boğulmuş üzgüçüdür. Üzə bilmədiyi üçün deyil, suyu mundarladığı üçün mahir üzgüçü özü-özündə boğuldu.

* * *

B.Pasternak namusun və əqidənin ədəbiyyatlaşmasıdır. Istedadın ədəbiyyatlaşması göylər üçün, namusun, əqidənin ədəbiyyatlaşması yer üçündür.

* * *

L.Tolstoy dünyanın ən böyük şairi Tütçevi sayırdı. Tütçev Tolstoyun uydurması, xülyası idi. Və şıltaq dahiyə bir şair uydurmaq bir gözəl qadın uydurmaq kimi bir şey idi. Nə üçün? Həm bilirəm, həm də bilmirəm.

* * *

Somavi dinlərin yerdəki istinad nöqtəsi əsl şerdir. Əsl şer nəsrdən və şerdən yuxarı olan Şerdir.

* * *

Sözün qurtardığı yer söz olmayan, söz olmağa vaxtı çatmayan və ehtiyacı olmayan səsdir.

* * *

Səs sözün qabığı, evi olduğu kimi, söz də səsin yaratdığı övladdır.

* * *

Səslər bəşəri, sözlər millidir.

* * *

Sözün mənası səsin dumanında xaosda yaranmış düzəndir, kosmosdur.

* * *

Sevgi haqqında ən gözəl əsər yazmaq ən bəsit şəkildə Allahın işinə qarışmaqdır.

Hətta Füzuli, Dostoyevski səviyyəsində də belədir.

* * *

Sözü müqəddəsləşdirmək böyük Müqəddəs gedən yolu arayıb axtarmaqdır.

* * *

Müqəddəs mətnlər müqəddəs dilləri bilənlər üçün qapısını açır.

Havası çatmayıb boğulan sözlər mətndən asılı qalmışdı.

* * *

O marginal sahələrdə, üç nöqtələrdə oynayır və sənətkarlığı, riski və dəqiq hesablamaları ilə udurdu.

* * *

Şəhərdə zaman yoxdur. Axşamın və səhərin toran çağı şəhərdə itib. Zamanın xaosundan kosmosuna keçid yoxdur. Zamanın bütün bu kəsimləri kənddədir. Kənddə zaman fiziki olaraq görünür və hiss edilir.

* * *

Pul almağın da, pul verməyin də klassik formalarını tapmışdı təmiz adam. Lazım olanda istədiyi qədər pul alırdı: nazirdən, şeyxdən, raykomdan. «Xəstəmiz var», «Kino çəkirəm», «Kitab çıxmalıdır…» formulaları (müxtəlif variant və variasiyalarda) istənilən məbləği gətirir, təmiz ad imicini də saxlayırdı.

Lap böyükdən ev, qohumlara vəzifə alırdı. «Vallah, uşaq böyüyüb», «Kitablarım bir evə sığmır», «Bizə də ev-muzey lazımdır», «Nəvələrə də ev lazımdır, kürəkənə də, yeznəyə

də», «Uşaq xaricdə işləmək istəyir», «Yazıq qohumun əməlli-başlı işi yoxdur…» formulaları sehrli söz kimi istəkləri yerinə yetirirdi.

Xahişlər, təmənnalar… hamı üçün ayrı-ayrılıqda hesablanmışdı. «Qohumun oğlu instituta girməlidir», «Dayıoğlunun qızı işə düzəlməlidir, kimsəsi yoxdur». Işlər düzəlir, tələbələr oxuyur, qohumlar harda lazımdırsa, orda cabəca düzəlirdi. Xaricdəkilər də, daxildəkilər də.

Amma adam mələk kimi təmiz adam idi. Mundar suya qoy iç.

Dəli Domrul kimi körpüdən keçəndən də alır, keçməyəndən də.

Verməyi də bacarırdı. Onun da öz formulaları var idi, təmiz adamın təmiz münasibətlərinə toz da qondurmaq mümkün deyildi.

Təmiz adam bir gün Istanbulda vəzifəli qadına iş üçün hədiyyə-pul təklif edərkən formula yerimədi. Üzünə tüpürüb ona qapını göstərdilər.

«Al molla»da heç vaxt ilişməyən təmiz adam bir gün «ver molla»da ilişdi.

Ancaq nə qəm. Xaricdə nə təmiz, nə kirli. Əsas Vətəndir.

Vəzifə vətəndə, pul vətəndə, dəyişən iqtidarlar vətəndə, təmiz adam oyunu vətəndə.

Yaşasın Vətən!

* * *

Ruhu bu dünyadan insan kimi köçüb kəpənək kimi gələnlərin insanlara, kəpənək kimi köçüb insan kimi gələnlərin kəpənəklərə yazığı gəlirdi.

* * *

Qara qarğanın ala qarğadan fərqi yalnız rənglərində deyildi, həm də dünyabaxışlarında, taktiki, strateji baxışlarında idi.

* * *

Sənin pıçhapıçla, xəlvət danışdığın sözün danışdığın adam tərəfindən car çəkilib ucadan danışıla biləcəyini unutma.

* * *

Özündən aşağı adamları özündən yuxarı görəndə heç üzülmə. Yuxarıda olan tək varlıq Allahdır. Sonra aşağıdakılar gəlir. Aşağıdakılardan kimin yuxarıda, kiminsə aşağıda olması nəyi dəyişir ki? Aşağılar aşağı-yuxarı problemi əsl yuxarını dərk edənlərdir. Sonra hər şey düzəlir, hər şey öz rəngini, öz səsini alır. Başqa nə ola bilər ki…

* * *

Naməlum yerdə, naməlum adamla naməlum hissləri bölüşmək məlum məntiqi dəmir qanunları ilə idarə olunmazsa, dünya tarazlığını itirər.

* * *

Əbülfəz Elçibəy yeni əxlaqın toxumun səpirdi. Bu əxlaq ona Azərbaycan-türk maarifçiliyinin mirası idi. Dünya demokratik fikrinin davamçılarından idi Əbülfəz Elçibəy. O, demokratik dünyanın əxlaq toxumunun bizim torpaqda bitməsini, cücərməsini istəyirdi.

O, Quran tolerantlığını, əxlaq saflığını qəbul etmişdi və bu əxlaqı türk törəsindən, türk fəsləfəsindən gələn insanlıqla, vicdan və mənəviyyat qanunları ilə birləşdirmişdi. O, Azərbaycanda bu əxlaqın həyat norması olmağını arzu edirdi, çalışırdı.

Sovet diktatura rejiminin dəmir yumruq, zor və qaba güclə idarə məntiqi ona yad idi.

Bu idarə üsulu ona qapılarını açıb, hər cür məqsədə çatmaq üçün geniş imkanlar yaradırdı.

Alışılmış, beyinlərə hopmuş məntiqlə idarə günlük problemləri həll etsə də, çətinliklərə son qoysa da, Elçibəyin əxlaqına, dövlət idarə fəlsəfəsinə zidd idi.

Ya beş-üç nəfərin başına güllə sıxdırıb, 50-60 adamı həbsə atmalı, polis rejimi ilə hakimiyyətdə qalmalı, ya da ideala – demokratik idarə əxlaqına, qanuna söykəli dövlət fəlsəfəsinə sadiq qalmalı, məhz o yolu müdafiə etməli idi.

Elçibəy özünü, dostlarını qurban vermə bahasına ikinci yolu seçdi.

…Bir gün gələcək. Sonrakı nəsillər Milli-Azadlıq Hərəkatının Liderinin birillik hakimiyyətini dərindən araşdıracaq, əsərlər yazacaqlar.

Hakimiyyətdə qalmağın və qalmamağın mümkün nəzəri modellərini, ehtimal və versiyaları təhlil edəcəklər.

Və nəhayət, bu nəticəyə gələcəklər ki, mənəviyyata, əxlaqa, idarə fəlsəfəsinə qurban verilən hakimiyyət yalnız Azərbaycan üçün deyil, bütün dünya üçün alternativi olmayan uğurlu gedişdir.

Acı qurbanlar bahasına olsa da…

* * *

Allah bəndəsinə, ürəyində Allahı gəzdirən və yaşadan adama xarakter göstərənlər, dava açanlar Şeytanın yolunu tutub, Şeytanı ürəyində əbədi yaşadanların qabağında diz çökdü, təslim oldu.

Bu bizim ən yaxın tariximizin acı mənzərəsidir…

* * *

Avropalaşan Asiya Rusiyası həm Avropalı, həm Asiyalı tipini, psixologiyasını ortaya qoyurdu. Mədəniyyətlər də, qan da qarışırdı. Qarışdıqca bambaşqa insan xarakteri, insan fəlsəfəsi doğurdu. Qarışıqlığın doğurduğu mürəkkəblik, ölçüyəgəlməzlik ədəbiyyatda öz əksini tapmağa başladı. Puşkin bunun əsasını qoydu. Tolstoy, Dostoyevski, Çexov bu sosiobioloji mənzərəni dünya səviyyəsinə çıxardı. Ədəbiyyatda insan harmoniyasının və disharmoniyasının yeni bədii örnəkləri yarandı.

Rus pravoslav dini islam dünyagörüşü ilə qarışıb yeni mistik baxışların zühuruna təkan verdi. Islam dini xristian dininə, yeni baxışın əsasını qoydu. Sivilizasiyaların kəsişmə sahəsində rus sivilizasiyası yarandı.

Rus imperiyası imperiya ədəbiyyatını yaratmadı. Imperiyada mədəniyyətlərin, dinlərin, dillərin, düşüncə və baxışların qovşağında, burulğanında yeni ədəbiyyat, yeni mədəniyyət formalaşdı.

Fransa inqilabı, alman fəlsəfəsi, ingilis iqtisadiyyat elmi, bütövlükdə Avropa texnokratiyası və Avropa təfəkkür tərzi Rusiyanın çətin dəyişən mühafizəkar varlığını dəyişdi.

Dünyaya Rusiya mədəniyyəti adlı çoxüzlü, çoxtərəfli mürəkkəb bir fenomen gəldi.

Özündə böyüklüyü və kiçikliyi, genişliyi və məhdudluğu, gözəlliyi və çirkinliyi, zülmü və mərhəməti, simasızlığı və ədaləti birləşdirən bu fenomen bir tərəfdən dünya mədəniyyətinin dəyərlərinə dəyər qatdı, o biri tərəfdən dünya dəyərlərini çeynədi və yıpratdı.

Bu, Rusiyanın taleyi idi. Bu, həm də dünya sivilizasiyasının taleyi idi.

* * *

Dünyada rəng, səs… yazarı yoxdur. Rəng də, səs də, ətir də, duz da, cazibə də, hərəkət də, ləhgər də, xof da Sözdədir. Dünyada bu Sözü yazmağı bacaran və ya bacarmayan yazıçı var. Dinindən, irqindən, yerindən, yurdundan, zümrəsindən… asılı olmayaraq.

* * *

Ölü sözlər vağam güllər kimi yerə sərilmişdi.

* * *

Bütün həyatı boyu özünü çəkən, özünü yaradan insanlar var. Onların içində yazıçısı, alimi olanlar az deyil. Özünü çəkən, özünü yaradan alim ölənə qədər hər şeyi gözəldir, qüsursuzdur. Öldükdən sonra bu ağır zəhmətin nə qədər anlamsız olduğunu hamı görəcək. Uydurulmuş Adamı dünya neyləyir ki?

* * *

Dünyada elə mənzərələr, elə halətlər, elə mənəvi anlar var ki, onlar konkret yazıçılarla bağlıdır. Allah bu dünyanı yaratdığı kimi o anları, o mənzərələri həmin yazıçılar yaradıblar.

* * *

Insanın özünü unutması ölümün birinci, həyatın sonuncu əlamətidir.

* * *

Təbii ölüm mənəvi prosesdir – bu prosesin sonucudur. Fiziki əlamət, xəstəlik mənəvi prosesin şəkli, zahiri əlamətidir.

* * *

Keçmişim yadıma düşəndə tir-tir əsirəm. Allah mənə bir də belə yaşamağı qismən eləsə yəgin ki, yaşamaram.

* * *

Romanovlara həsr olunmuş film yalnız bir ailənin deyil, bir imperiyanın, bir millətin faciəsi haqqında kədərli bir elegiyadır. «Incil»ə köklənmiş filmdə çar hz.Isanın əzablarını yaşayır və tarixin qurbanı kimi əbədiyyətə köçür. Çar Nikolayın kiçik oğlu, hz.Isanın əhya edilmiş zərrəsidir.

Filmdə dini-tarixi-fəlsəfi ruh iç-içə vəhdətdir. Çar Nikolayın xanımına «Mən səni də, övladlarımı da, Rusiyanı da məhv etdim» kəlamı etirafdan daha çox özünüittihamdır.

Çar Nikolayın təmiz qızları mənə vurduqdan sonra ağacın dibinə tökülmüş nakam nar çiçəklərini xatırlatdı.

Gecə göz yaşları içində Allaha səcdə edib yalvaran çar Nikolay balalarının xilası üçün Tanrıya son dəfə ümidlə baxan göyərçin kimidir. Amma Allah qərar verdikdən sonra insanı eşitmir.

Kədərli filmdir, olduqca kədərli.

* * *

Gücünün rəngi və uzun məsafəyə hesablanmış gücsərfetmə taktikası onu hamıdan fərqləndirirdi. O sprinter deyildi, daha çox marafonçu idi. Ağ-qara rənglərlə deyil, bütün rənglərlə oynayırdı. Zahirən kəndçi natarazlıgı ilə güc yarışına girsə də, gücünü daxilən gözəl idarə edirdi. Ən qatı düşməninə də dost kimi baxmağı bacarırdı. Aldatdığı fəndləri çox vaxt özünə qarşı çevrilsə də, mahiyyətcə düşmən üçün idi. Yerini, mövqeyini tez-tez dəyişirdi. Şirin tülküdən zəif özəlliklərini aradan qaldırmaq üçün «şir+tülkü» modeli ilə oynamaq onun idealı idi.

Ən böyük üstünlüyü – qadınlara münasibəti idi.

Qadınlar onun nə rəqibi idi, nə də müttəfiqi idi. Bir qayda olaraq qadınlarla intriqaya girmirdi. Qadın onun üçün ya bacı, yaxud da məşuqə idi. Üçüncü yol yox idi. Bu onun həm üstünlüyü, həm də zəifliyi idi.

Mahiyyətcə rasionalist, formaca şair idi.

Idealında təmiz idi.

Ideala gedən yolda vasitə kimi hər şeyə üz tutmağı bacarırdı.

Allahdan və ideal mənəviyyat dəyərlərindən başqa heç bir şeyə və heç bir kəsə sədaqətli deyildi.

Hər hansı sürət üçün ideal əyləci var idi. Istədiyi anda sağa və ya sola dönmək onun üçün problem deyildi.

Üzündəki nur və əliaçıqlıq onun ən dəhşətli silahı idi. Zəhmətkeş, istedadlı və lovğa idi. Lovğalığı heç kəsə qarşı çevrilməmişdi. Xəyanətkarı bağışlamırdı. Məhv edənə qədər rəqibindən əl çəkmirdi. Onun üçün sevgi ilə öldürməklə nifrətlə öldürməyin heç bir fərqi yox idi.

Çılğın hissləri, odlu həzzləri, sönməz ehtirası ona öz qanı, öz varlığı verirdi. Süni olan hər şeyi rədd edirdi.

Siqaretə, alkoqola, narkotizmə düşmən idi. Və ömrü boyu şeytan əməli kimi onları rədd etdi.

Allahı çox sevirdi, ürəyində Allah sevgisini sona kimi bütün müqəddəsliyi, paklığı ilə yaşatdı. Yazı, söhbət, dərs, xeyir əməl, yaxşılıq – onun üçün Allaha dua idi.

Dini ritualları sevmirdi. Və bunun üçün özünü danlamırdı. Allahın onu bağışlayacağına inanırdı.

Ailəsini çox sevirdi. Övladları üçün gombul, mənasız bir lağlağıçı idi. Övladları üçün dahi olmağı özündə çox uzaq saxlayırdı.

Xanımı onun bu dünyada ən böyük dayağı idi. Ən böyük davalarda yuxarıda Allaha, aşağıda xanımına söykəndi. Və həmişə uddu. Uduzunda belə.

Içində başqa sevgi də saxladı və onu heç kəsə, hətta sevdiyi adama da söyləmədi. Bu, sevgidən daha çox özünütəsdiq idi. Bir az platonik eşq, bir az da güc, enerji qaynağı. O adam eşqsiz yaşaya bilməzdi. Hər cür keçici ehtiraslar, isti tufanlar onu ideya-eşqdən ayıra bilməzdi. Orta yaşdan başladı və onu ölümə qədər həmin eşq apardı.

Hər yerdə tənha idi. Tənhalığı sevməsə də. Ataya, anaya, övlada, ailəyə, qohum-əqrəbaya borcunu verdi. Borclu qaldığı adam xanımı və sevgilisi oldu. Hər ikisi üçün bir ömür yaşamaq o qədər az və mənasız idi ki…

Müəllimlərini çox sevdi, birini xüsusilə. Tələbələrini də çox sevdi. Xüsusilə birini.

Dünyadan doymadı. Yazmaq istədiklərini yazmadı. Demək istədiklərinin hamısını deyə bilmədi.

Ölümdən qorxmadı.

Və öz ölümsüzlüyünə, dünyaya bir daha gələcəyinə, bir daha gələndə etdiyi səhvləri etməyəcəyinə inandı.

Dünyadan bir adam da belə keçib getdi.

Əcəba, çox yaxşı tanıdığım bu adam kimdir?

Bilmirəm. Yarızarafat, yarıciddi.

* * *

Almaniyada yaşayan dostumuz, Bütöv Azərbaycan yolunun əsgərlərindən professor Nemət bəy Rəhməti məşhur alman rəssamı Robert Şneyderin Bakıətrafı neft mövzusuna həsr olunmuş 40-a qədər rəngli tablolarının fotoreproduksiyalarını mənə verdi.

Janrca fəlakət rəssamı olan R.Şneyder iki il öncə Bakıya gəlmiş, bütün Abşeronu gəzib dolaşmış, gecə-gündüz işləmiş və Bakı ekoloji fəlakətini boya dili ilə ifadə etmişdir. Bu rəsmlərin hamısının tək bir adı var: «Bakı». Çürüyən borular, sərt və doğma Abşeron peyzajının neft buruqlarında ifadə olunmuş zavallı simvolu, neft gölməçələri, qara fonda neft mədənləri arasında zarıyan hüznlü inəklər, səliqəsiz əşya yığınını xatırladan xəndəklər, çağdaş şəhərin fonunda zalım bir kabusu xatırladan neft texnika avadanlıqlarının gözü yandıran sərt mənzərəsi, diri-diri ölmüş qəribə alətlər, dənizin maviliyinə qovuşan qəhvəyi neft dairəcikləri, dəhşətli ağacsızlıq, yaşılsızlığın qəribə bir dünyası və Səttar Bəhlulzadənin üzünü xatırladan qocalmış, heydən düşmüş Abşeron torpağı və son mənzil – qəbristanlıq.

Insandan çox təbiətin, tarixin qəbirlərini xatırladan bu sərt baş daşlarının yaxın gələcəyin ən diri simvolu olacağı şübhəsizdir.

Torpağıma, Vətənimə yazığım gəlir. Nədənsə Tahir Salahovun «Təmirçilər»ini xatırlayıram, bir də dünyanı xatırlayıram, bir də dünyanın sonu haqqında insanlara ən acı həqiqəti söyləyən Andrey Tarkovskinin filmlərini.

Doğrudan da, hər şey keçib gedəcək.

Yaddaşımın qatlarında Füzulinin bir beyti dirildi:

Ey xoş ol məst ki, bilməz gəmi-aləm nə imiş,

Nə çəkər aləm üçün gəm, nə bilir gəm nə imiş.

P.S. Gün o gün olsun ki, bu dahi rəssamın – Robert Şneyderin əsərlərinin sərgisi Bakıda açılsın.

* * *

18 sentyabr. Üzeyir bəyin doğum günü. Bu əsrin ilk opera-operetta mövsumu «Arşın mal alan» tamaşası ilə başladı.

Musiqinin elə ilk nidası – skripkaların fəryadı hamını alıb başqa bir dünyaya apardı. Torpaqlarımızın faciəsini, durumumuzun acılığını, bölünmüşlüyümüzün, uduzmAdığımızın üzgünlüyünü unutdurdu. Türk musiqisinin məhz Qarabağ ləhcəsində (sonralar bu ləhcə musiqimizin ədəbi dili oldu) söylənən hər şey gözəlliyi, zərifliyi ilə təkrarsız idi. Amma, məncə, sirr yalnız bunda deyildi.

Çox saya, gülməli, atmacalı, sadə və təmtəraqsız dialoqlar və lirik-romantik yüklü monoloq – romanslar, ricətlər məni sonsuz dərəcədə sevindirdiyi qədər də, sonsuz dərəcədə kədərləndirdi. Bir gözümlə ağladım, bir gözümlə güldüm. Və ən dəhşətlisi budur ki, Üzeyir bəyin musiqisində Azərbaycanımı Bütöv gördüm, Bütöv duydum. Bu musiqidə sərhəd, hüdud yoxdur. Bu geniş musiqi mənə yaxın-uzaq gələcəyin şəffaf yaşıllığını gün kimi aydın göstərdi.

Yaralı Vətənimin yarasını sarıdı Üzeyir bəy.

Bu eşqin mənim Vətənimi sağaldacağına rəhmətlik Əli Kərim demişkən, «dəli ümidini» bir daha oyatdı.

P.S. Tamaşaya baxa-baxa rəhmətlik Rəşid Behbudovun unudulmaz Əsgərini oynadığı eyni adlı filmin heç vaxt unudulmayacaq ilk çəkilişini, rəhmətlik Niyazinin ölümündən bir az əvvəl orkestrləşdirdiyi parlaq radio-tamaşanı (Fidan və Xuraman Qasımova bacılarının gözəl ifasında!) xatırladım, bu gün Üzeyir bəy ruhunu canlandıran rejissor Hafiz Hacıyevə, təkrarsız aktyorumuz Yaşar Nuriyə, istedadlı cavan müğənnimiz Azər Zeynallıya, Şahlar bəyə, bütün ifaçılara təşəkkür etməyi özümə borc bildim. Rəhmətlik Elçibəy demişkən. Allah Üzeyir bəyin ruhunu bu millətin başı üstündən əksik etməsin!

* * *

Bu yaxınlarda dostlarım Rəşid Süleymanlı və Adil Cavadovla «Leyli və Məcnun» operasına baxdıq. Opera mövsümü açılırdı. Aygün Bayramova Leylini (ilk dəfə!), Mənsum Ibrahimov Məcnunu oynayırdı. Gözəl tamaşa idi. Rejissor Hafiz Hacıyevin zəhməti, xüsusilə, diqqətdaşıyan idi. Üzeyir bəyin hamını sehrləyən musiqisi Allahın verdiyi möcüzədir.

…Xaricilər diqqətlə qulaq asır, səbrlə dinləyir, əl çalırdılar. Birdən mən anladım ki, onlar Leyli-Məcnunun məlum faciəsini, ekzotik Şərq musiqisini deyil, terror adlı dəhşətin anatomiyasını, müsəlman-Şərq dünyasının bilinməzliyini, gözlənilməzliyini dərk etmək istəyirlər.

* * *

Bu gün uzun illər oynanan teatr tamaşasının oyunçuları kimiyik. Biz bir-birimizi hələ çox görəcəyik. Amma bu tamaşa içində, bu ortamda heç vaxt birgə olmayacağıq.

Həyatın özünü xatırladan bu məhzun səhnə ayrılığın başqa bir adı kimi kədərli idi.

* * *

Sənin yoxluğunu mənim varlığım qədər duyan canlı, bu yer üzünə gəlməyib.

* * *

Itirdiklərimi axtara-axtara, itirmədiyim ən böyük sərvətə qovuşdum. Ölümü tapdım.

* * *

Şəxsiyyəti yazıçı olmağa yaradılmayan adamlar yazıçı ola bilmir.

Şəxsiyyət burada güclü, böyük şəxsin əsas mənəvi keyfiyyətləri kimi anlaşılmasın, yazıçı şəxsiyyəti özünəməxsus məxməri, zərif, təkrarsız şəxsiyyətdir.

Yazıçı şəxsiyyəti yazıçı istedadı ilə qırılmaz şəkildə bağlıdır.

* * *

Əli Kərimin «Pillələr» romanı şairin nəsr eksperimentidir. Nə qədər qəribə olsa da, çağdaş Azərbaycan nəsrinə bu eksperimentin ciddi təsiri olub. Assosiativ (çağrışımlı) nəsrin bədii nəsr kimi o qədər də qüvvətli olmasa da, yeni təcrübə kimi çox dəyərli olan «Pillələr» romanı oxucu üçün deyil, əslində, yazıçı üçün yazılmış əsərlərdəndir.

* * *

Insan əgər özündən utanmırsa, o heç kəsdən utanmaz.

* * *

Insan Allahdan utanmır. O, Allahdan qorxur və ya onu sevir.

* * *

Mədəniyyətsiz qadın mədəniyyətsiz kişidən dəhşətli və iyrəncdir.

* * *

Ədəbiyyat – insanın son çarəsidir. Ədəbiyyat elə insanlığın son çarəsidir.

Əgər dünya Sözdən başlayıbsa, bu çarə niyə son olsun?

Söz əzəli və əbədidirsə, son çarə olmaq ədəbiyyatın hansı məntiqlə Söz olmadığını sübut edir. Yozumlar çox, yozumlar sonsuz.

Məncə, Söz ədəbiyyatdan çox geniş anlayışdır. Söz – mif, Söz – inanc, Söz – gündəlik yaşam, biçim; Söz – ədəbiyyat olduğu qədər də, Söz qeyri-ədəbiyyatdır.

Sanki Söz ədəbiyyat olmaq üçün yüzminillər boyu bizə doğru gələn ulduzun axışıdır. Və ədəbiyyat olmaq Sözün vəzifələrindən yalnızca biridir. Sözün ədəbiyyat olması, suyun içilməsi, havanın udulması, çiçəyin ətrinin bir insana aid olması kimidir.

Və son çarə ədəbiyyatdır. Uzun yol gedib yollar yorğunu olan insanlığın çarəsi ədəbiyyatdır.

* * *

Daha heç kəs bu qədər gözəl danışmayacaq. Bu qədər gözəl dayanmayacaq. Və bu qədər gözəl ağlamayacaq.

BƏYIN ölümü ən gözəl sözlərin, ən gözəl duruşun, baxışın, ağlayışın ölümü idi!

* * *

Həyat bitməyincə heç kəs haqqında bitkin danışmaq mümkün deyil.

Su kimi axıb gedən həyat durmayınca, var olduğu kimi bütöv, bütün görünmür.

Görünür, var olmuşun gerçəkləşə bilməsi üçün yox olmaq taleyin yazısıdır.

* * *

Təkallahlılığın dərki tək Allahın dərkindən başqa, həm də tək insanın – fərdin dərkidir. Təkallahlılıq Allah+insan ünsiyyətindəki təkcəliyin də dərkidir.

Təkallahlılığın dərki müasir sivilizasiyanın başlanmasıdır. Və ümumən insan düşüncəsinin, bəşəri və ilahi mədəniyyətin ikinci və sonuncu mərhələsidir.

Birinci mərhələnin adı da sadədir: təkallahlılığa qədərki insan düşüncəsi və mədəniyyəti.

* * *

Allahı göydə axtarmaq, göydə olduğunu qəbul etmək insanın ən qədim yeni düşüncəsidir. Allahı hər yerdə görmək insanın ən yeni qədim düşüncəsidir.

* * *

Şəhərdə yaşayan bir şair dostumun anası kənddə ağır xəstələnir. Qoca anasını görmək üçün kəndə yollanan şair anasına çata bilmir. Dostlar, məclislər başını qatır. Sonra vacib iş üçün şəhərə dönməli olur. Anası haqqında, ana mövzusunda bir kədərli şer yazıb «Ədəbiyyat qəzeti»ndə çap etdirməklə vicdanından ağrını ya atır, ya da azaldır.

Mən şair dostumu anlamağa çalışdım. Və ən qəribəsi budur ki, onu hətta bir az anladım da. Dünya öz böyüklüyünü, insan öz qəribəliyini min bir şəkildə ifadə edirsə, təəccüblü nə var ki…

* * *

Dostum – gözəl alim, zəhmətkeş, intizamlı, iradəli, ziyalı – Təbrizli balası, indii Almaniyada – Hamburq Universitetində çalışan professor Nemət Rəhmaninin «Azərbaycan türkcəsi və Almanca» lüğətini sevə-sevə oxudum, incələdim. Və çox sevindim. Dillərin bir-birinə açılan qapıları mənə barıt qoxusundan daha çox çörək ətrini xatırlatdı. Bu duyğu tarixin dolanbaclarından keçib gələn səmimi, məhrəm bir duyğu idi.

Dilçilikdə ən çətin şey lüğət və qrammatika yazmaqdır.

Nemət bəy belə lüğətlərdən birini yazmış və Azərbaycan türkcəsinin dünyagörüşünə bir üfüq də açmışdır.

Bu kitaba görə müəllifə böyük təşəkkür borcumuz var – öz yerində.

Amma bir mühüm özəllik var ki, bu cəhət kitablardan fərqləndirir. Nemət bəyin bu kitabı Quzey Azərbaycan türkcəsi ilə hüdudlu deyil. Müəllif elə kitabın üst səhifəsində Millətimizin, Vətənimizin iki yüz illik ayrılıq faciəsini dilə gətirmiş və aramsız qanı axan bu tarixi yaraya məlhəm qoymuşdur. Bu məlhəmin adını «Quzey-Güney Azərbaycan türkcəsi və Almanca» adlandırmaqla yalnız yaramızı sarımamış, həm də çox böyük bir boşluğu doldurmuşdur.

Inanırıq ki, Azərbaycan türkcəsinin bütün dünyaya, dünya dillərinə açılan bütün qapıları Quzeyli-Güneyli Azərbaycandan – Bütöv Azərbaycandan açılacaq!

Addımların qutlu olsun, Nemət bəy!

Allah sənə rəhmət eləsin, qəbrin nurla dolsun, Əbülfəz Elçibəy!

* * *

Amerikanı vurdular. Iki yağlı sillə – biri sağ üzündən tutdu, o biri sol üzündən. O sillənin səsinə diksinən ay qanrılıb günə baxmaq istədi. Əlbəttə ki, günü görə bilmədi. Ah çəkib əlini üzündəki ləkəyə sürtdü və neçə minillər öncəki şapalağı xatırladı.

Amerikanı vurdular. Iki yağlı sillənin səsi ərşi-ələya yayıldı.

Bu gerçəkdir.

Əlbəttə ki, Amerika o silləni vuranın əlini kəsəcək, dilini kəsəcək, ürəyini, ciyərini kəsəcək. Amerika böyük dövlətdir, Amerika qüdrətli dövlətdir.

Amma o amansız şapalağın ləkəsi neçə minillər boyu Amerikanın üzündə qalacaq.

Bu da bir gerçəkdir.

* * *

Insan haqlı olduğunu və bu haqqın özü üçün deyil, bütün insanlıq və ya bir millət, bir dövlət üçün zəruri olduğunu sübut etməkdən mƏəhkum ola bilər, yaxud da sadəcə ölüb gedə bilər.

Ancaq bu o demək deyil ki, zaman o insanı haqlı sayacaq. Belə olmaya da bilər. Zaman o haqqın gerçəkliyini sübut edə bilər. Və o haqlı adam heç kəsin yadına belə düşməyə bilər.

Dünyanın gerçəklərindən biri də budur.

* * *

Gözəl ətirli çiçəklər əkib zəhərli otlar dərən kəsimin cəmiyyət və tarixdəki adı kommunizm və faşizmdir.

* * *

Səsin söz olduğu bir zamanlar insan daha bəxtəvər idi.

* * *

Insan ana bətnindəki rahatlığı, uyumu bütün ömrü boyu arayıb axtarır, nəhayət, onu qəbirdə tapır.

* * *

Insan üçün insan həyatı əngəldirsə, bunun əzabını bütün insanlıq çəkməli olur.

* * *

Lenin, Stalin, Mao, Ənvər, Xoca… guya peyğəmbər kimi öldü. Peyğəmbərlər kimi dəfn edildilər. Zaman onların peyğəmbər deyil, qatil olduqlarını sübut etdi.

* * *

Yaxın məsafədə – istər zaman, istər məkan, - gerçək bilinməz.

Tarixin səbri Allahın öz səbridir.

* * *

Şair dostum Ramiz Rövşənin ölüb getmiş ədəbi dəyərləri sübut etməyə çalışması məni həm təəccübləndirir, həm də ağrıdır. Bütün ölmüş dəyərlər kimi, ölmüş ədəbi dəyərlər də, ölmüş ədəbi şəxsiyyətlər də (fiziki olaraq yaşasalar belə) uzaq zamanda qalmış arxaik alətləri xatırladır. Bu alətlər bir öz zamanları üçün, bir də şairin öz xatirələri üçün maraqlıdır. Vəssalam.

* * *

Ölünü diriltmək haqqında düşünməkdənsə, ölünü anlamaq məsləhətdir. Elə Allaha da bu xoş gedər. Bəndəyə bu xoş gedə də bilər, getməyə də bilər.

* * *

Sözü Allah yaradıb. Insanı, Şeytanı da Allah yaradıb. Hər iki dünyanı Allah yaradıb. Həyatı da, Ölümü də.

Öncə Allah olub.

Sonrasa Allah nəfəsi – Hava.

Bu nəfəsdən Söz yaranıb.

Söz elə havanın özüdür.

Allahdan sonra Söz olub.

Sonra su.

Sonra atəş.

Sonra torpaq.

Daha sonra Allah atəşdən Şeytanı, torpaqdan Insanı yaratdı.

Onların arasındakı zaman bizim bilmədiyimiz və bilməyəcəyimiz zamandır. Bu Zaman Allahın öz zamanıdır.

Dünyanı zərrəyə, zərrəni dünyaya sığışdırdı Allah.

Yaratmağı insana öyrətdi.

Özü ilə insan arasında dünyanın ən uzaq və ən yaxın yolunu yaratdı.

Insana inandı. Inandığını sınağa çəkdi. Şeytanı bu sınaq meydanına saldı.

Və insan aldığı ilk nəfəsdən sınaq yoluna qədəm qoydu, son nəfəsəcən bu yolda oldu.

* * *

Canlı təbiət ifadəsi yanlışdır. Təbiət sözünün özündə can, ruh, yaşam var. Canlı təyinini ona artırmaq trivial həqiqəti bir daha sübut etmək kimi mənasızdır.

* * *

Söz var göydən düşüb.

Söz var yerdən çıxıb.

Söz var suda yaranıb.

Söz var qanı-canı var.

Söz var nəfəs alır.

Söz var ölüdür – daş kimi düşüb qalıb Zamanın qırağında.

* * *

Sözlərin də ruhu var. Ölü sözlərin də, diri sözlərin də ruhu bizimlədir. Görsək də, görməsək də, bilsək də, bilməsək də bu ruhlar bizim varlığımızda, canımızda, qanımızdadır.

Və sözlərin ruhu ölməzdir.

* * *

Qəribə idi. Bu məmləkətdə kimi dindirsən ümumi namusdan, nəzəri millətsevərlikdən, mücərrəd vətənsevərlikdən danışır.

Heç kəs Vətənin konkret ağrıyan yarasından, millətin konkret namusundan, yurdun ağrılı nöqtələrindən, böhranın hər kəsin gördüyü bəlasından, çıxış yolundan danışmır.

Hər şeyi bilirik. Hər şeyi dərk edirik. Heç bir şey edə bilmirik.

Və belə getsə, heç bir şey edə bilməyəcəyik.

Tarixin ironiyası budur bəlkə?

* * *

Başqa millət tərəfindən əzilən tayfa öz millətinə dönməyə məcbur oldu. Hirsini, kinini, qəzəbini öz millətinə tökdü. Özgə millətin intiqamını özününkülərdən aldı.

Və rahatlandı.

* * *

Bəxti gətirməyən millətlər millətçi olur.

* * *

Bildiyim həqiqətlər danışmaq, şərh etmək, yaşamaq üçün deyil.

Bildiyim həqiqətlər gizlənmək, uyumaq, azmaq, itmək, sirr içində qalmaq və ölmək üçündür. Mənə bu həqiqətlər dünyaya gəlmək, dünyada yaşamaq üçün verilməyib.

Bu həqiqətlər mənə dünyadan getmək üçün verilib.

* * *

Allah onun gözəl ölümünü bəyəndi və bir daha gözəl ölmək üçün onu dünyaya gətirmək qərarına gəldi.

* * *

Onun üzündəki şəffaf gözəlliyin dibindəki bir zərrə qara xal mənə dünyanın günahını boynuna çəkib günahsızlar, qəhrəmanlar yaradan adsız qurbanları xatırlatdı.

* * *

Öz gözəlliyindən və bakirəliyindən utanan qızın o anı dünyanın ən gözəl şeri idi.

* * *

Allah insanın adını onun üzünə yazıb. Allah insandan qabaq onun adını yaradıb. Bu dünyanın özü də bir addan başqa bir şey deyil.

Insanın adı üzündə yazılır. O adı insan poza bilməz. Insan o adı şərəfli və ya ləkəli edə bilər, fəqət poza bilməz.

Ərəblər adlarını ata və oğul adları arasında yaşadır. Ad əbədi olan iki ad arasında yaşayır və özü də əbədiləşir.

Yaponlar adı uşağın üzünə, o uşaq haqqında ən gözəl arzuları da onun bədəninə yazırlar.

Türklər adı əməli, hünəri ilə alıblar. Dörd ad bir ömürdə verilən və qazanılan adların məcmusudur. Onlar üçün ad həyat və mücadilədir.

Elə xalqlar var ki, adı dillərinə gətirməyiblər, onu qutsal, toxunulmaz biliblər.

Dünya dəyişib, ad dəyişməyib.

Millətlər ölüb, adlar ölməyib.

Dillər ölüb, adlar ölən dillərin ruhu kimi yaşayıb.

Ilk dəfə sevdiyim qızın adını qarın üstünə yazmışam. Sonra silmişəm.

Həmin adı kitab vərəqlərinin qırağına yazmışam. Onların da üstünü bərk-bərk qaralamışam.

Amma ürəyimin bir yerinə yazılan o adı neçə-neçə onillər belə poza bilmədi.

Anladım ki, göydən yazılan adlar pozulmur: bu yazılara pozu yoxdur.

Adlar da qismətdir. Sənin qismətin olan adlar var, onlar sənindir. Sənin qismətin olmayan adlar var, onlar sənin deyil.

Adlar çevrilmir. Adları çevirmək günahdır. Adlar dünyanın müxtəlif dillərində, əlifbalarında rəsm olunur.

«Qərəz bir ad imiş dünyada…» deyən Füzuli bu hikməti anlayıb.

Mən adımın dalınca bu dünyaya gəldim. Adımı aldım. Və adımı Bu dünyada qoyub O dünyaya getdim.

* * *

Bizim nəsil iki sahili olan ərazidir. Bir dəniz bizdə bitir. Başqa dəniz bizdən başlayır.

Köhnə bizdə qurtarır, yeni bizdə başlayır.

Marksizmlə yetişib, marksizmdə qurtaran nəsil bizik.

Məhəmməd Əminlə başlayan, Elçibəylə bir dövrdə yaşayan, Elçibəydə Elçibəyçiliyi tapan nəsil də bizik.

Bizim nəsil tarixin həm sonudur, həm əvvəli.

* * *

Şəhərlə zəhərlənmiş adamın kənddə yaşamaq cəhdi mənasız bir oyundur. Bu oyun özünü aldatmaqdan çox başqasını aldatmaqdan başqa bir şey deyil.

Yay istirahətini kənddəki villasında keçirən yazıçı bunu, az qala, disidentlik fəaliyyətinin zirvəsi kimi qələmə verməyə çalışır.

Unudur ki, xəyanəti nə keçmiş xidmətlər, nə də indiki uşağa hesablanmış oyunlar yuyub təmizləyə bilməz. Bu bəlkə də xəyanətin aid olduğu insana birmənalı şəkildə sədaqəti, etibarıdır.

* * *

Isa Qəmbər tarixin və taleyin Azərbaycana verdiyi son fürsətdir!

* * *

Elçibəyin ruhu bu ruhun sahibinə qəsd edənlərin ruhunu göylərə buraxmayacaq!

* * *

Azərbaycana zülm edənin ruhu lənətlənmiş ruhdur! Lənətlənmiş ruhun taleyini, aqibətini müqəddəs kitablar verib.

Açıb oxuya bilərsiniz.

* * *

Nemət Pənahlı, Ə.Əylisli… kəndə gedir ki, ruhən təmizlənsin. Həmin təbiət onların cəmiyyətdən gələn və içlərinə dolan çirki-çirkabı, xıltı yusun. Bu adamlar inanmır ki, elə çirk var ki, onu təbiət yox, Allah özü də yuya bilməz.

* * *

Elçinin son hekayəsini («Qırmızı qərənfil gülləri», «Pera Palas» otelində qaldı) səmimi bir etiraf kimi oxudum. Bu etiraf şəxsə, nəslə, dəyərləndirənlərə deyil, Zamana olan etirafdır. Zamanda və Zamandan görünən etirafın acılığını, az qala, damağımda hiss etdim. Özünüittiham, özünəgülüş özünüyamanlamağa və özünəağlamağa qarışmış hekayə tragikomediyanın orijinal bir örnəyidir. Həm avtobioqrafikdir, həm də hər kəs üçün ibrətli olan bədii gerçəkdir. Yalanın dediyi gerçək – özündən də gerçəyin.

Okeanda üzməyi bacaran mahir üzgüçü balaca bir hovuzda boğulursa, günah kimdədir?

Üzgüçü boğulmağına boğulub, ancaq o suda, hovuzda və ya okeanda deyil, özündə boğulub.

Özündə boğulanlar özünü öldürənlər kimidir. Onları ittiham etmək üçün gərək özündə boğulmaq yolundan keçəsən.

Keçmədiyin yolu hardan anlayacaqsan ki?

* * *

Rauf Denktaş mənə böyük bir ordu ilə tək vuruşan cəngavəri xatırlatdı. Nə çoxluq, nə güc, nə hərbə-zorba onu qorxutmur.

O haqqa inanır və adı azadlıq olan o haqq üçün çarpışır, yorulmur, əzilmir, ruhdan düşmür.

O Ana Vətənə, Türklüyə, Tanrıya, damarlarında axan təmiz qana inanır.

* * *

AZADLIQ – birdən qazanılıb tədricən ölən Allah vergisidir.

* * *

Bağban uzun qış gecələrində, sərin yay səhərlərində ağacların göylərə duasını eşidirdi. Ağacların yarpaq dodaqlarından qopan kəlmələr bağbanı hər gün bu dünyadan ayırıb o duaların getdiyi sonsuz ucalığa aparırdı.

* * *

Tənha Allah eşqdən ləzzət, zövq almaq üçün insanı yaratdı. Və tənhalığı unutdu.

* * *

Allahsızlara baxıb Mövlananın bir sözünü xatırladım: «Allahım, illərdir ki, sənin süfrənin çörəyini yeyirəm. Məni çörəyinə bağışla, Allahım».

* * *

Ilahi duyğular insanın əzablarını azaldır.

* * *

«Qəzəbinə, hirsinə qalib gələni Allah sevər» - deyir Uca Kitab. Qəzəb – hissin azğınlığıdır. Ağlın azlığı, üzünü idarənin çıxmaza girməsi – qəzəbdir. «Hirsli başda ağıl olmaz», - deyib atalar.

* * *

Qəzəb-kin qusan adam eşq və gözəllik haqqında düşünməz. Qəzəbin əlacı səbr və təhəmmüldür.

Yaradılmışda yaradanı hiss edən, hər şeyin səbəbini bilir. Və qəzəblənmir. Kamil adam qəzəbini içində boğandır.

* * *

Allahım, məni düşmənini sevən insan səviyyəsinə qaldır.

* * *

Isa Hüseynov yeni dövr Azərbaycan nəsrində sovet sözünün buzunu sındırmışdır.

* * *

F.Fukuyama Hegelə Marksın pəncərəsindən baxanlara gülür.

Mən istəyirəm Hegelə bir az irəlidən – Füzulidən və Mövlanadan baxım. Görüm ordan Hegel necə görünür. Və ümumiyyətlə, görünürmü?

* * *

Sözlər – sonsuzluğun qapısıdır.

* * *

Ritm – insandan, canlıdan, təbiətdən keçən zamandır.

Ritm – zaman ayarlı hərəkətdir.

Ritm – yaşamaq, mövcud olmaq formasıdır.

«Ritm – zərurətdir» (Nitşe).

* * *

Əhd nədir? Əhd –müjdə, müqavilə, saziş, bağ, mesaj, əmr, xəbər, kəsmət, buyruq, niyyət sözləri ilə ifadə olunan həm mücərrəd, həm də konkret anlayışdır. «Əhdi-ətiq» - Əhdi-cədid» kontekstində «Köhnə müjdə», «Yeni müjdə» desək də, müjdə sözünün bu anlamı verməyə gücü çatmır.

Dilimizdə işlənən «əhd-peyman bağlamaq» ifadəsi Allahla insanın, insanla insanın, insanla çoxluğun arasındakı hüquqi-mənəvi sazişdir.

Elə Əhdi-ətiqdə də Allahla insan arasındakı hüquqi-mənəvi münasibətdən, razılaşmadan, əhddən söhbət gedir.

Sözləri qəlibə salmaq olmaz. Sözlər anlayışların sonsuzluğundan gələn əks-sədadır. Biz bu əks-səda ilə əks olunanın özünü deyil, əksin özünü almaq istəyirik.

Bu təcrübə insanın mümkün bildiyi və min illər boyu gerçəkləşdirdiyi mümkünsüzlükdür.

Suda görünən insan əksi, daha sonra güzgüdəki insan əksi nə qədər insanın özüdürsə, Söz də o qədər ifadə etdiyi anlayışdır.

* * *

Əgər Zaman hər şeyi amansızcasına keçmiş edirsə, xatırlamaqdan gözəl nə ola bilər?

Artıq yalnız keçmiş deyil, gələcək də mənim üçün xatirədən başqa bir şey deyil.

* * *

Əgər sən mənim sağımdasansa, mən sənin solundayam. Dünyada ən uzaq da, ən yaxın da bizik – biz ikimizik.

* * *

Bəyin gədələşməsi dəyərlərin dəyişməsidir. Gədənin bəyləşməsi dəyərləri daşıyan dünyanın dəyişməsidir.

* * *

Özünə qalib gəlmək uğurun açarıdır. Fəqət bu qələbə nəfs üzərində qələbədirsə, uğurun açarıdır. Özündə olan inama, imana və işıqlı olan hər şeyə qalib gəlirsənsə, bu, zülmətin, şərin, nəfsin qələbəsidir.

* * *

Elçibəy bütövü qoruyaraq hissə uğrunda mübarizə aparırdı. Onun məqsədi Bütövü qorumaq, yolu, inamı, ülkünü xilas etmək olduğu üçün qarşısındakı rəqiblər onu anlamırdılar. O hissə uğrunda mübarizədə Bəy uda da bilərdi, uduza da bilərdi.

Fəqət Elçibəy bütövü, bütünü, ülkünü, amalı heç vaxt uduzmurdu. Özünə, yaxınlarına nə qədər ağır başa gəlsə belə.

* * *

Quran dil möcüzəsidir. Yalnız ərəbcənin deyil, insan dilinin möcüzəsidir. Sözün birini seçmək, düzümün birini seçmək idealı Qurandır.

Sözün ən düzgün, ən təmiz, ən elmi, ən duyğulu deyimi, adekvat ifadəsi Qurandır.

Göydən gəlmiş səma kitabı 51899 ad və feldən ibarətdir. Burada əks mənalı sözlər bərabər işlənib (məsələn, 115 dünya -115 axirət, 68 mələk, 68 şeytan, 145 həyat – 145 ölüm və s.).

Quranda hər sözün, hər şəkilçinin, hər cümlənin, hər mətnin öz vəzifəsi, öz tutumu, öz yeri var.

Allah kitabına heç bir şey əlavə edilməz, heç bir şey ixtisar edilməz.

Tanrı Sözü ölməzdir.

* * *

Ikinci sinifi qəsəbədə deyil, kənddə oxuyurdum. Nənəm və atamla qalırdım.

Evində qaldığımız qohumumuz Ayna xalanın oğul-uşağı yox idi. Oğlu müharibədən qayıtmamış, qızı uşaq üstə ölmüşdü.

Ayna xala zirək, şirindil, istiqanlı bir insan idi. Bizə olmazın hörmət göstərirdi. Ikigözlü evinin birini bizə vermişdi. Hərdən öz-özünə danışırdı. Mən təəccüb edirdim, bir az da üşənirdim. Gövhər nənəm yavaşca deyirdi: «Qorxma, Ayna xalan oğlu ilə danışır». Amma mən qorxurdum. Qorxurdum ki, Ayna xala gecə gəlib mənim başımın üstündə danışarsa, mən də öləcəm. Ayna xala tez-tez yaxın kəndə belində şələsi piyada gedib gələrdi. Tanış maşınların heç birinə minməzdi.

Atam bir gün dedi ki, yaxşı ki, bu yol var, yoxsa arvadın ürəyi çoxdan çatlardı.

Ayna xalanın ürəyini çatlamağa qoymayan yolda öz-özü ilə, əslində oğlu, qızı ilə söhbəti idi.

Yolda sürətlə yeriyən bu uzun, arıq qadın heç kimin üzünə baxmadan birnəfəsə 8-9 kilometri gedir, axşam dönürdü. Getdiyi yer qohumları idi. Orada Ayna xalanın nə etdiyini bilmirdim. Amma hiss edirdim ki, Ayna xala qonşu kənddə bura üçün, burda qonşu kəndə can atırdı, yola çıxmağa tələsirdi.

Sonralar anladım ki, əslində, Ayna xala nə evi üçün, nə də qonşu kənddəki qohum evi üçün darıxmırdı. O, yol üçün darıxırdı. Bu yol onun nakam getmiş balaları idi. Çox sonra eşitdim ki, Ayna xala elə yolda da dünyasını dəyişib.

* * *

Xoruzlara yazığım jəlir. Qırmızıgöz, kipriksiz məğrur xoruzlar dünyanın hər yerində qonşu həyətin xoruzlarını sevmir, yastı-yapalaq toyuqların qarşısında məğrur-məğrur gəzir. Və bu toyuqlar qarşısındakının qürurunu, ölməzliyini öz ölümü ilə təsdiq edər, ölümə gedən ölməz xoruzları yastı-yapalaq toyuqlar eyni məhəbbət və itaətlə qarşılayardı. Yalnız rəngləri dəyişən xoruzların ədası, iddiası, rəhmi, hökmü dəyişməzdi. Xoruzlar sanki yalnız toyuqların deyil, bütün həyətin kişisi kimi gəzərdilər.

Və ev sahibi bıçağı həyətin kişisinin boğazına çəkəndə sanki rahatlanır, içindəki dilsiz qısqanclığın boğazını üzürdü. Yastı-yapalaq toyuqlarsa bir az qaqqıldaşıb təzə xoruzun yolunu gözləyirdilər.

* * *

Özünü satan adamın bəraəti özünü satmayan naəlac adamın ölümüdür.

* * *

Dadı götürüb ada satan padşah məmləkətindən olduqca razı idi.

* * *

Düzgün qidalanmadan həvəslə danışan bu təmiz inanın varlığı iblisdən, mələkdən ucsuz-bucaqsız əliaçıqlıqla danışan şairin varlığından qat-qat uca və əlçatmaz idi. Bayağılaşmış sözlər yalnız mənasız və ucuz ədəbiyyat professorunu aldada bilərdi.

* * *

Uşaqlıq illərindən könüllü əl çəkmədim. O illərdən qovuldum və bir daha ora dbnməyəcəyim haqqında dilimdən iltizam verdim. Sonra dözmədim, şikayət etdim və haqsız qovulduğumu sübut etmək üçün bütün hüquq prosedurlarına baş vurdum. Axırda xəyallarda ora dönmək haqqımı özümə qaytardım.

Və xoşbəxt oldum.

* * *

Azərbaycan boyda həbsxanada məhkum olmaq dünya boyda həbsxanada məhkum olmaqdan daha rahatdır.

* * *

Insan oğlunun gerçək xəyalı cənnəti cəhənnəmə çevirməyə üstünlük verir. Insan ruhu cəhənnəmi cənnətə çevirməyi haqq sayar.

* * *

Yazıçı danışır, danışır, danışırdı.

Yaza bilməyən yazıçının qəddarlığı, riyakarlığı ekran boyunca yayılır. Bic, məkpli sözlər, etirafdan uzaq yalanlar, süçlamalar özündən uzaq düşən, uzaq düşdükcə də yazıqlaşan, mənasızlaşan zavallı təsiri bağışlayır.

Sənət də qadın kimidir. Dəyişə-dəyişə dəyişməz dəyərləri qoruyub saxlayır. Dəblər, geyimlər, yerişlər, baxışlar zaman-zaman dəyişir, ancaq qadın gözəlliyinin təməl meyarları dəyişmir.

Ədəbiyyatda hava yaradan, geyimi, dəbi dəyişən ədəbi dəyərləri deyil, konkret zamanın zövq meyarlarını, etalonları dəyişə bilir, ancaq 10-15 ildən sonra kiçik zaman böyük zamanın içində qeyb olur. Kiçik zamanın üslubu, manerası, balaca meyarları da itib gedir. Təzə dəblər, təzə meyarlar, təzə sənət texnolojisi öz zamanının havasını yaradır.

Insana sevgisi azalan yazıçının tövşüyə-tövşüyə deyə bilmədiyi həqiqət acı və gerçəkdir. Zamandan düşənləri heç kəs qoruyub saxlamayacaq.

Allahın gözünün içinə yalan deyən yazıçı, əslində, Allahı deyil, özünü aldadır. Bəlkə də bizi aldadır. Ürəyinin bir yerində satıldığı boşluqda boyulur.

Insan hara gedirsə getsin, dərdini özü ilə aparır. Dərdi azdırmaq olmaz.

Harda olursa ol, fərq etməz.

* * *

«Bir ağacdan min kibrit çıxar, bir kibrit min ağac yandırar» - deyiblər.

Nə qədər paradkosal olsa da, dəyər dəyişmir.

* * *

O, Vətən üçün ölümü sevməyi öyrətdi.

Indikilər sərvət, hakimiyyət üçün Vətəni peşkəş etməyi öyrədir.

* * *

Füzulinin onlarca, yüzlərcə ifadələri, metaforaları, simvolları, poetik mənzərəli var ki, onlar məhz Füzulicədir, Füzulisayağıdır, Füzulininkidir.

Payıbəndi-lütf olub bir yerdə sakin

Bulmadım

Dəsti-heyrətdə tərəddüdən yorulmuş

Könlümü

(Füzuli)

Heyrət çölündə tərəddüddən yorulmuş könlümün gözəllik, rahatlıq içində bir yerdə dayanıb sakitləşdiyini görmədim. Çağdaş Azərbaycan türkcəsində «tərəddüd etmək» feli geniş işlənir. «Heyrət çölü, heyrət səhrası» şairin yeni ifadəsi-metaforasıdır. Bütün bunlar öz yerində.

«Heyrət çölündə tərəddüdlər içində yorulmuş könül» ifadəsi bugünkü dilimiz, bədii təfəkkürümüz üçün moderndir.

Və ümumən Füzulinin bütün zamanların modern şair olaraq qalacağına inanıram.

Modern olmaq yalnız təzə, yeni, isti olmaq deyil, modern olmaq düşüncənin çevrilməsidir, baxış bucağının gözlənilməz dəyişməsidir, görünməyəni görmək, görünəni görünməz etmək bacarığıdır.

Bütün elm-sənət sahələrində bəşəriyyətin bütün əsl böyük modernnistləri üçün zaman hüdudu yoxdür. Onlar həmişə modernist olaraq qalacaqlar.

* * *

Canlılar arasında qəribə bir ədalətsizlik var.

Qurdu qurd, şiri şir, ilanı ilan öldürürsə, bu bir növ təbiidir, təbii seçmənin mənzərəsidir.

Yox əgər, qurdu şir, şiri fil öldürürsə, bu bir qəzadır, ədalətsiz mücadilənin sonucudur.

Insan aləmi də belədir.

* * *

Maraqlı olan budur ki, yazıçı ilə yazıçının, alim ilə alimin, jurnalist ilə jurnalistin mücadiləsinə, KQB sədri, Məclis sədri, Baş nazir, Baş prokuror və ya prezident qarışır.

Arxasında prezident və dövlət gücü dayanan yazıçıya arxasında qələmi, yazdıqları, tərcümeyi-halı dayanan yazıçı nə edə bilər?

Maddi məhrumiyyət, təhqir, təqib, həbs və ölüm tərəzinin bir gözündə, təltif, ənam, ad, sərvət, prestij tərəzinin o biri gözündə.

Bu, canlılar arasında ədalətsizliyin örnəyidir.

* * *

Sənət əsərinin bir sirrini gizlətmək olmaz: oxucuya, tamaşaçıya, dinləyiciyə nifrət.

Rejissor, şair (və ya yazıçı), rəssam, bəstəçi nifrətinin birbaşa hədəfi oxucudur.

Hər şey sanki bədii mətnin çərçivəsində (zamanından, məkanından, hərəkət axarından) çıxır və birbaşa oxucunu (tamaşaçını, dinləyicini…) əzir, məhv edir.

Oxucuya (tamaşaçıya, dinləyiciyə) yönəlmiş sənəti qəbul etmirəm.

* * *

Mən əbədi olan Allahın belə bir həqiqətinə inanıram ki, bağışlayan haqlıdır. Çünki əsl günahkar 10-15 il bir yerdə, bir mübarizədə olanları «təqsim-təqsim ayıranlar», «çörəklə, gündəlik ruzi ilə insanları imtahana çəkənlərdir».

Mövlanə varlı-zəngin bir kişinin oğlu olsa da, əl açıb dilənmək səviyyəsinə də endi (yüksəldi!). Mənliyini, təkəbbürünü Allah-Taala yanında heç etməyi bacardı. Allah da onun könlünə ilham verdi, fəzilətin qapısını ona açdı. Əslində, açılan onun könül qapıları idi. O, nəfsinə, təkəbbürünə qalib gəlmiş, şeytanın yolunu əbədi olaraq bağlaya bilmişdi.

O Haqqa qovuşmaq yolunu tapmışdı.

* * *

Ən dəhşətli, ən murdar, ən ağır səhnələr oxucunu (tamaşaçını, dinləyicini) təmizləmək, alışdırmaq və xilas etmək üçündür.

* * *

Sənət texnologiyasının texniki mexanizmini bilmədən və onu nəzərə almadan onun mahiyyətini, fəlsəfəsini açmaq mümkün deyil.

* * *

Xoşbəxt adam xoşbəxt olan adam deyil. Başqalarını da xoşbəxt edən və onlarla birgə xoşbəxtliyi yaşayan insandır.

* * *

Tarix torpağın həm anası, həm də övladıdır.

* * *

Hər kəs öz içindəki diktaturanı dağıtmasa, diktatura sistemi dağılmaz.

* * *

Biz yalnız Sözə təslim oluruq.

* * *

Xalqın Ən böyük yaradıcılığı onun öz dilidir.

* * *

Insan həyatı bir şahmat oyunudur. Və hər oyun ayrı-ayrı oyunların məcmusudur.

Bu oyunu insan bütün ömrü boyu oynayır.

Uduzduğum oyunlar da var. Uduzduğum oyunları zəif oynadığım üçün uduzmamışam. Oyunçu namusu və oyun şərəfi mənim uduzmağımın səbəbidir.

Bir neçə oyun təxirə salınıb. Onları 10-15 ilə birdən oynayıb məsələni asanlıqla həll edəcəyəm.

Bu seans-oyunun qarşı oyunçuları var.

Bunlar heç.

Başqa təxirə salınmış ayrı-ayrı oyunlar var ki, onlar mənim üstünlüyümlə təxirə düşüb. Rəqiblər… heç önəmli deyil.

Heç-heçə oynayacağım oyunçular var: Əslində, heç onlar da önəmli deyil.

Bir əsas oyun var ki, həmin oyun çox uzun zamandır ki, çox mürəkkəb vəziyyətlərdə davam edir. Adını çəkmək istəmədiyim oyunçu olduqca məkrli, təcrübəli və qəddardır. Qarşıdakının kiçik bir səhvini belə əfv etmir. Realist, praqmatik və sərtdir. Allahla heç bir əlaqəsi yoxdur. Şeytanla nəfəs-nəfəsə işləyir. Müasir və klassik oyunların hamısını bilir. Hər hansı romantik gedişin qənimidir. Oyunda əxlaqsızlığın həm atası, həm də anasıdır. Oyundankənar murdarlığın dahisidir.

Ya ona verən Allah, ya mənə.

Oyun zamanı kənarda dayanıb tərbiyəsizlik edən gədə-güdələr var ki, onların adını çəkmirəm. Onların Adı yazılmağa belə layiq deyil. Yəqin ki, onlar da əfv edilməyəcək.

…Insan həyatı bir böyük şahmat oyunudur. Bu oyunu bütün həyat boyu oynayırsan. Nəhayət, son gedişi edirsən və Allaha təslim olursan.

Vəssalam. Bu da son.

* * *

Insan bir-birini kəşf edə-edə yaşamasa, yaşaya bilməz. Bir gün eşq bitər, ehtiyac bitər, keyf dolu həyat bitər. Insanın sonsuzluğu bitməz.

Bu sonsuzluqda yeriyən insanın insanlığı bir-birini kəşf etməkdir.

Həyatın sehri də elə budur.

* * *

Insanın kimdənsə yardım gözləməsi onun şəxsiyyətini zədələyir.

* * *

Dünya özünün payızına gəlib çıxdı. Allah qışdan gözləsin.

* * *

Hindlilər bəşəriyyətin qocalığı, çinlilər, türklər və ərəblər orta yaş çağı, avropalılar cavanlığı, amerikanlar isə uşaqlıq çağıdır.

Mən bunu həmin xalqların incəsənətindən, mədəniyyətindən öyrəndim.

* * *

Karlar ucadan, qışqıra-qışqıra danışan da səni anlamaz. Onlar kəlmələrin tək-tək, birər-birər deyilməyini anlarlar.

* * *

Cavanlıqda yoxsulluq fəlakət deyil. Qocalıqda yoxsulluq əsl fəlakətdir.

* * *

Insanların çoxunun cənnətdə deyil, bu dünyada yaşamaq istədiyini anlaya bilmirəm.

Insanın sonsuzluğa qədər yaşamaq istəməyini də anlamıram.

Bu dünyanın əzablarının insan üçün niyə bu qədər xoş olduğunu da anlamıram.

* * *

Ruh sözünü və ruh anlamını şairlər o qədər ucuzlaşdırıb ki, bu sözü işlətməyə utanmıram. Müqəddəs sözlər çox deyilməz. Sözlərlə oynamayın, qardaşlar.

* * *

Dəli olub ağıldan yazmaqdansa, ağıllı olub dəlilikdən yazmaq yaxşıdır.

* * *

Bədii əsər dilindəki sözlərin sayı ilə dəyərləndirilə bilməz. Çünki böyük sənətkarlarda söz dediyindən daha çox deyir və sözün yaratdığı mühit sözün lüğəti mənasından daha genişdir.

* * *

Yaxşı Şer uzun müddət özü ilə danışan, özü ilə deyişən adamın nəticəsi - etirafıdır.

* * *

Üzərində təzyiq olan yazıçı yaradıcılığı üçün mənəvi təkan qazanır.

Azadlıq yazmaq, yaratmaq ehtirasını azaldır.

Çünki yazmaq, yaratmaq - azadlığı əldə etmək üçündür. Azadlıq uğrunda mücadilə azadlığın özündən də gözəldir. Xüsüsusən yaradanlar üçün.

* * *

Padşah sizə rəhmət cibindən çıxan ancaq çıxdığı cib haqqında səmimi yaza bilər.

* * *

Allah sizə rəhmət eləsin Həmidə xanım Məmmədquluzadə, Qulam Məmmədli. Min rəhmət. Ədəbiyyat əllamələrinin, ucuz söz dəllallarının cızma-qaralarını anlamaqda meyar Sizsiniz.

* * *

Musiqi haqqında səviyyəsiz söhbətlər, tamada müstəvisindən qalxa bilməyən ibarəbazdlıq bizi yordu. Yorub əldən saldı.

* * *

Ilahi, bu dünyada nə qədər savadlı avamlar var.

* * *

Əzizim, imkan ver sənin sözünün çığırtısından qurtarım, Cavidin, Müşfiqin öz dərdini eşidim. Axı, sənin qızarmış-bozarmış sürtük sözlərin o bakirə aləmi ləkələyir, ona yad, yabançı bir ortam doğurur.

Əl çək, əl çək, qardaşım. Imkan ver, Cavidlə, Müşfiqlə baş-başa qalaq.

* * *

Namussuzun bəraəti namusdan yazmaq olmadığı kimi, şərəfsizin bəraəti şərəfdən və şərəfli insanlardan, yaltağın da bəraəti qürurlu, mərd insanlardan yazmaq ola bilməz.

* * *

Ölünün dalınca danışan canlı ölüdən də zavallı kim ola bilər?

* * *

Təzə doğulmuş kiçik şiri çaqqal da yeyə bilir. Zaman keçir, süd içən şir ət yeyən şirə çevrilir. Böyük meşə, çöl dünyasında ən güclü heyvan şir olur. Heyvanların şahının heç bir rəqibi olmur.

Rəqibsizlik, qorxusuzluq, fəaliyyətsizlik şiri tənbəlləşdirir və gec-tez məhv edir.

* * *

Xəstə şir heç kimə lazım deyil. Güclü şirşirdir, zəif, xəstə şirşir deyil, nə isə lazımsız bir canlıdır.

Bu da təbiətin qanunudur. O qanunu kimsə dəyişə bilməz.

* * *

Güc şirin pəncəsində deyil, gözündədir. Şirin gücü gözünə toplanır və bu şir baxışı çox şeyi döyüşsüz həll edir.

* * *

Tısbağa qınından çıxıb qınını bəyənməyəndə ona təzə qın vermirlər. Köhnəni də alıb lütüryan qoyurlar.

* * *

Gün olaraq qalib gəlmək olar. Rəqibi təslim və hətta məhv etmək də olar.

Amma bu qələbə Çun qələbəsi olacaq. Əbədiyyət qələbəsi rəqibin olacaq. Çünki sən onun dilində danışmağa, onun yolunda yeriməyə məhkumsan.

* * *

Azərbaycan ədəbiyyatı yalnız filankəslərdən ibarət deyil (adlarını siz məndən yaxşı bilərsiniz).

Onların rolunu, yolunu, xidmətini inkar etmək olmaz.

Amma yerdə qalan oğulsuzları, oğlu-qızı imkansızları, əsərindən başqa heç nəyi olmayan rəhmətlikləri də unutmayın, bəylər.

Ata kompleksini ədəbiyyat kompleksinə çevirməyin, bəy yazarlar.

Millət seçkinlərini seçilmiş ailələrlə əvəz etməyin, rütbəli, arxalı bəylər.

Lütfən yapmayın.

* * *

«Salxım xanımın danələri» filmi hay-küyə səbəb oldu.

Azınlıq (etnik azlıq) vergisi adlı II Dünya savaşında Türkiyədə tətbiq olunan və bir xeyli yəhudi və erməni iş adamını müflisliyə, sürgünlüyə sürükləyən vergini tənqid edən bu film Yılmaz Qarqayonlunun (əski ANAP-lı millət vəkili və nazir) zamanı əsasında çəkilib.

Bir az sol qafa ilə (Yılmaz Güneyin filmləri kimi) çəkilmiş bu film sənət baxımından deyil (yenə Yılmaz Güneyin filmləri kimi), ideoloji baxımdan kəskin tənqid olundu. Istedadlı və vicdan sahibi Huliki Cevizoğlunun «Ceviz qabığı» proqramında uzun dartışmanın (5-6 saat) obyekti oldu. Millət vəkili Əhməd Çakar (əski MHP millət vəkili) iddiaları haqlı olsa da, səviyyəsi (əsasən hüquqi və tarixi bilgisi) yüksək olmadığı üçün məsələlər açılmadı.

Əhməd bəy sübut eləyə bilmədi ki, yazılan bu zaman, çəkilən bu film Avropa bazarı üçündür. Ölkənin qanayan yarasını bazara çıxarmaq hələ demokratiya deyil.

Kürd sorununu körükləyən, PKK-nı dəstəkləyən Avropa mərkəzlərinə yaxın tarixin problemini təhrif edilmiş şəkildə çıxarırsansa, onda sən məşhur lətifədə deyildiyi kimi mənim dayımsan, yoxsa ayının?

Erməni məkrinin altını, bugününü, sabahını görməyən millət vəkili türkcə gözəl bildiyini, gözəl üslubu olduğunu söyləməklə nəyə haqq qazandırır? Etnik bölücülüyə, yoxsa bunları körükləyənlərə?

Azınlıq vergisinin mahiyyəti yazıçı və ssenaristlər tərəfindən anlaşılıb və ya anlaşılmayıb kimi məsələlər cavabsız qalıb.

Hər şey keçib gedir. Bu da keçib gedəcək. Qəm yemə.

* * *

Nağıl – həmişə uşaqlıq deməkdir. Hətta yetkin, ərkən yaşda da uşaqlıq intibahlarını əyaniləşdirir.

* * *

Mif insanların inandığı yalandır. Mif eyni zamanda insanın öz yaratdığına inamdır. Mif gerçəkliyin Allahlaşdırılması, cansızların canlandırılması, canlıların əbədiləşdirilməsidir.

Mif – yalan üstə qurulmuş gerçəklikdir. Və sadəcə gerçəklik deyil, insanın ilk sadəlövh filosofluğudur.

Və nə qədər inam var, mif gerçəkdir. Insanların inamı ölən yerdə mifin yalanlığı başlayır.

Füzuli mənə cənnətin də, cəhənnəmin də insan daxilinin təzahürü olduğunu anlatdı.

* * *

Əxlaq – əxlaqsızlığın dərkidir. Bunu mənə Lev Tolstoy öyrətdi.

* * *

Oblomovçuluq tənbəlliyin ruh halının düşdüyü çıxılmazlıq haqqında kədərli fəlsəfədir.

* * *

Hər dövrün öz sənəti var. Sənət o dövrdən sonra bitir. O sənətin əbədiləşməsi və ya əbədiləşməməsi artıq başqa bir prosesdir. Və başqa qanunlarla tənzim olunur.

* * *

Mirzə Fətəlinin 6 komediyasından müasir Azərbaycan türk şerri, nəsri, dramaturgiyası – çağdaş düşüncə sistemi doğdu.

* * *

Mirzə Cəlilin genişliyi yalnız sənət möcüzəsi deyil. Daha çox əxlaq və mənəviyyatdakı genişlikdir.

* * *

Mirzə Cəlil Quran əxlaqı ilə Tövrat əxlaqını bir yerdə qəbul eləmiş maarifçidir – islahatçı və inqilabçıdır.

* * *

Ədəbiyyatda konfliktin içəridən həlli sənətdə inqilabdır.

* * *

Sabir Füzulinin tam tərsi ola-ola onun tam davamı və təsdiqidir.

* * *

Üzeyir bəy sözdə tapmadığı ilahi ruhu səsdə tapdı.

* * *

Mirzə Cəlil ədəbiyyatı olmasaydı, Azərbaycan Xalq Cümhuriyyəti – Şərqdə ilk demokratik dövlət olmazdı. Birbaşa əlaqəsi olmayan bu bağlılıq dünyada bir-birini doğuran və dünyanı saxlayan fiziki-bioloji şərtlər kimidir.

* * *

R.Rövşən konstruktiv şairdir. Sözlərin, hisslərin riyaziyyatı üzərində qurulmuş şerdə ağırlıq bütün şerə elə paylanıb ki, orda ağırlıq mərkəzi tapmaq olduqca çətindir.

* * *

Bütün qadınlar kişi kimi yazırlar. Mən bunu bir istedadlı qadın yazdığını oxuduqda anladım. Afaq qadından qadın kimi deyil, kişi kimi yazır. Ümumən ədəbiyyatda qadın olan yazıçı elə bir qadınlığından xəcalət çəkir. Qətiyyən cinsi anlam daşıyan bu özgələşmə ilahi başlanğıcla şeytan başlanğıcının ilğım kimi bir-birinə yaxın olmasıdır və hətta zaman-zaman bir-birinə qarışmasıdır.

Kişinin qadın haqqında təsəvvürü, təxəyyülü və fəlsəfəsi qadının qadın haqqında və qadının kişi haqqında təsəvvüründən təxəyyülündən və fəlsəfəsindən qat-qat dərindir.

Şüur altında və şüur üstündə qadın qadın deyil, qadın kişi üçün mövcuddur. Məncə xanım yazıçı bu möcüzəni yazmağa çalışır.

* * *

Məncə, xanım yazıçının xanımın düşüncə və duyğularına ən çox mane olan ədəbiyyatdır. Ədəbiyyatın sırtıq səsi içəridən gələn bir əsl səsə o şəkildə mane olur ki, adam əsəbiləşir və şeytana lənət oxuyur.

* * *

Yazılması yasaq olan şeylər çoxdur. Bu qadın yasaq yazıları yazmaq əzabı yaşayır. Insanın özünə belə deməyə utandığı şeyləri yazmaq ya ədəbiyyatın altı, ya da üstüdür. Hər halda, ədəbiyyatın özü deyil. O bilir ki, yüksək mədəniyyət sandığının içində hər şeyi gizlətmək olar.

Yasaq olanı yazmaq gizli, mübhəm olanı yazmaq deyil. Heç sirli olanı da yazmaq deyil.

Yasaq mövzuların ətrafında minillərlə dolaşırlar. Amma yazmırlar.

Bəlkə bu da insanla insan olmayanların fərqidir?

* * *

Ədəbi istedad hər kəsə verilir. Amma bu istedad çox nadir hallarda yazmaq üçün verilir. Ədəbi istedad sadəcə yaşamaq üçün verilmiş enerjidir.

* * *

Mətndə yeganə cümləni, cümlədə yeganə sözü tapmaq şahmatda yeganə gedişi tapmaq kimidir.

* * *

Sözü sözün yanına elə düzmək lazımdır ki, söz sözü incitməsin, söz sözün canında, qanında olsun. Sözün söz yanında düzümü yeganə düzüm olmalıdır. Fərqli düzüm yanlış düzüm deməkdir.

* * *

Ədəbiyyatın tarixi Sözün tarixidir. Sözün işlənmə, dərinləşmə, bütövləşmə, mücərrədləşmə, məcazlaşma, deyimləşmə tarixidir.

Ideoloji Sözün tarixini təhrif edir. Ideoloji (fəlsəfə, din, fikriyyət…) sözün içindəki təlatümü, söz varlığını ifadə edirsə və ya onu aşkar etməyə təkandırsa – bu Söz hadisəsidir. Söz fikrin ifadəsi, ideolojinin vasitəsindən başqa bir şey deyilsə, bu, sözün deyil, ideolojinin tarixidir.

Füzuli Sözü içində din də, mədəniyyət də, məfkurə də əriyib Sözün faktı, Sözün ontolojisi kimi gerçəkləşir.

Nəsimidə Söz vasitədir. Ideoloji ön plandadır. Xətainin əksər şerləri fikir sənətidir. Sözlə təlqindir, sözlə ideyanın həyata gətirilməsidir.

Sabirdə fikirlə söz varlıq fəlsəfəsinin təmasındadır. Amma yenə Söz üstündür.

Müşfiqdə də Sözün taleyi ideolojilərin taleyinin üstündədir.

* * *

Lev Tolstoyun ömrünün son günü qəzəblə evdən çıxmasını və stansiya skamyasında həyata vida deməsini televizorda danışan Viktor Şklovski, göz yaşları içində boğulurdu. O, Tolstoyun evdən deyil, bu dünyadan getdiyinə ağlayırdı. Evindən deyil, dünyadan küsən Tolstoyu anladırdı. Böyük alim ömrünün payızında öz ölümünü də yaşayırdı.

* * *

«O dünyada görüşlər» («Po tu storonnie vstreçi») kitabının müəllifi Lev Ginzburq ilə Moskvada Yazıçılar evinin alt qatındakı «Qadyuşnaya» adlı zirzəmi-kafesində səhər-səhər görüşdük. Əsərin Azərbaycan türkcəsində ön sözünü gətirmişdi. Xeyli söhbət etdik. Kofe və konyak içirdi. Nədənsə mənə 12 həvaridən birini xatırladan bu sinli yəhudi yazarı kitabından bir kəlmə də danışmadı. Kitabının ana mövzusu olan III Reyxin taleyindən nə qədər sual verdimsə, hər dəfə yayındı. O, kitabından deyil, kitabının mövzusundan iyrənirdi. Sanki kitab yazmaqla bu murdar və məşəqqətli dünyadan canını qurtarmışdı. Ayrılanda tək bir cümlə dedi: «Kitabı dilinizə tərcümə etməklə yaxşı iş görmüsünüz. Bəşəriyyətin ibrət dərslərini unutsaq yenə fəlakətlərlə üzləşəcəyik».

Bu söhbətdən bir neçə ay sonra qoca yəhudi yazıçı vəfat etdi. Dediyi son cümləni unuda bilmirəm.

* * *

Yusif Səmədoğlu «Qətl günü» romanı ilə Azərbaycan nəsrinə yeni yazı mədəniyyəti gətirdi.

Tikinti texnolojisi ilə müqayisə etsək, burada alaçıq da var, çovustan da, bişmiş kərpic də, daş ev də, dəmir-beton konstruksiyalı göydələn də.

* * *

Sovet dövrü bitdikdən sonra sovet yazıçılarının da bitməsi mənim üçün bir sirri-xudadır, Mirzə Cəlil sovet dövründə də yaşadı, ancaq sovet yazıçısı ola bilmədi. C.Cabbarlı Mirzə Cəlildən fərqli olaraq olmaq istədi, fəqət o da ola bilmədi. Cavidin olması mümkün deyildi və olmadı. Sovet ədəbiyyatı M.S.Ordubadi ilə, S.Vurğunla, S.Rüstəmlə, S.Rəhimovla, R.Rza ilə, Əbülhəsənlə, M.Rahimlə başladı və formalaşdı. Dövr öz ədəbiyyatını yaratdı. Istedadlısı ilə, istedadsızı ilə. Ədəbiyyatın qanındakı yaddaşla sovet ideologiyasının gətirdikləri bir yerdə yaşadı, böyüdü və sovet ədəbiyyatı adlı bir dövrü yaratdı. Ə.Məmmədxanlı, I.Əfəndiyev imkanın çatdığı yerə qədər sözün yaddaş sirrini saxlamağa çalışdı. Bu da sovet ədəbiyyatının bir rəngi idi. Bu rəngin adını qəti demək çətindir, çünki çox qarışıqdır. Rənglərin qarışmasında da bəlli bir rəngin yaşantısı var. Adını demək çətin olsa da.

Sovet dövrü dəyişdikcə ədəbiyyat da dəyişirdi. I.Şıxlı, S.Əhmədli, I.Hüseynov dövrün gətirdiyi havanı yaratdı. Amma bu yenə sovet ədəbiyyatı içindəki yeni hava idi… R.Rza, B.Vahabzadə ədəbiyyatı əxlaqca çox dəyişdi.

Daha sonra dövrün çalxantıları yeni havanın – yeni övladlarını dünyaya gətirdi. Azərbaycan sovet ədəbiyyatı sovet ədəbiyyatının son mərhələsinə daxil oldu.

Ə.Kərim, Anar, I.Məlikzadə, Y.Səmədoğlu, X.Rza, F.Qoca, F.Sadıq, Ə.Salahzadə, Elçin, I.Ismayılzadə, Ə.Əylisli, V.Səmədoğlu, Ç.Əlioğlu, Ə.Nicat, F.Kərimzadə, S.Rüstəmxanlı, S.Səxavət, E.Baxış, V.Bəhmənli… və adlarını çəkmədiyim onlarca qələm əhli sovet ədəbiyyatının rus, gürcü, latış, erməni, moldav… şəkilləri kimi bir sürəci – oyanış sürəcini yaşamaq dönəminə girdi.

Bu ədəbiyyat Sözün qan yaddaşından, sağlam qandan, keçid metamorfozundan və başlıcası dövrün özündən doğan ədəbiyyat idi. Və həmin ədəbiyyat dövrün fatihəsini verir, yeni dövrün sovet olmayan mücərrəd, idealist, xəyali dünyasını yaradırdı.

Bu dövrə il olaraq 60-cılar deyirlər. Əslində, həmin dövrün adı dağıtma, ifşaetmə, çıxılmazlıq, mavi gələcək, ədəbiyyatdan, kinodan, radiodan görünən və əlbəttə, ilham alan idillik-azad dünya ədəbiyyatı idi. Totalitar və avtoritar cəmiyyətlərin azadlıq eşqi azad cəmiyyətlərdəki azadlıq eşqindən qat-qat qüvvətlidir. Bu, ədəbiyyatda da belədir.

Milli-azadlıq hərəkatı başladı və 80-cı illərin sonu adı azadlıq, demokratiya, müstəqillik, özünəqayıdış dövrünün təməlini qoydu.

Ölmüş dövr oldu sovet dövrü. Sovet ədəbiyyatı ideologiyası da öldü. Ölən dövrün ədəbiyyatının da ölüm sancıları başladı. Zaman güzəştsiz, rəhmsiz və amansızdır.

Jurnalistika ədəbiyyatın funksiyasını yerinə yetirməyə başladı. Və qəzetçilik, xəbərçilik anlayışından daha geniş araşdırıcı jurnalistika, yazıçı-jurnalist epoxası başladı. Şer və yavaş-yavaş nəsr yeni dövrün ideoloji ədəbiyyatını yaratmağa başladı.

Bu prosesdə ölənlə yaşayanın sərhəddini qəti şəkildə bəlirləmək çətindir, bəlkə də mümkün deyil.

Hər cür təməl əsasları, insaniliyi, poetik axtarışları, yenilikləri ilə yanaşı, keçid ədəbiyyatı və ya sovet ədəbiyyatının sonu bitir, yeni dövrün öz ədəbiyyatı yaranmağa başlayırdı. Bu bir istedadsızlıq, ilhamsızlıq, tənbəllik deyil, dövrün özündən gələn və insanlardan asılı olmayan yaşam və düşüncə, duyğu və sezgi əsri idi.

Əlbəttə ki, sözün elə dəyərləri var ki, onun ayarı nə sovet dövrü, nə də sovet cəmiyyətidir. Bu ayarı itirmədən və unutmadan yeni dövrün gəldiyini, yeni ədəbiyyatın ayaq səslərinin eşidildiyini açıq-aydın göstərir.

R.Rövşən, V.Bayatlı Odər, R.Behrudi, V.Əlixanlı, Şahmar, B.Vəziroğlu, A.Məsud, A.Abdulla, M.Oruc, M.Vəzir, Eldəniz, S.Səxavət, A.Səməd, Q.Ağsəs, S.Qaraçöp, R.Tağı… onların ardınca Hacı Zamin, Elçin Hüseynbəyli, Mahir, M.Qarayev kimi şairlərin, yazıçıların varlığı dövrün dışında deyil. Bu ədəbiyyatın sənətkarlıq ayarı da eyni deyil və fərdi təhlil, araşdırma istəyir.

Bütövlükdə götürdükdə sovet dövrü, sovet ədəbiyyatı ölmüş, yeni ədəbiyyat hələ yaranmamışdır.

Ədəbiyyat özünün əbədi dəyərləri qədər də, öz dövrünə bağlıdır. Və ədəbiyyatın inqilabı cəmiyyətdəki inqilablara bənzəmir.

Yeni dövrün, yeni düşüncənin ədəbiyyatı çox-çox sonralar da yarana bilər. Yeni dövr mövqeyini, səngərini də seçmək olar. Hətta atışmaq da olar. Sevilmək də olar. Ancaq yeni ədəbiyyat missiyasını ortaya qoymaq çətindir. O qədər çətindir ki, onu bütün təfərrüatı ilə şərh etmək qədər mümkünsüzdür.

Gedən gedəcək, gələn gələcək. Həyatın, cəmiyyətin qanunları ilə, həqiqəti ilə ədəbiyyatın qanunları ya kəsişəcək, ya da kəsişməyəcək. «Hər şey axır, hər şey dəyişir» gerçəyi «hər şey keçib gedir» gerçəyinə qovuşacaq.

Əbədi olan Allahdır.

Ədəbiyyat haqqında bu sözləri yaza-yaza düşünürəm. Bəşəri ədəbiyyat nə vaxt yaranıb? Homer zamanı cənnət idimi? Şekspir bərabərlik cəmiyyətində yaşayırdımı? Füzuli zamanı qurd qoyunla otlayırdımı? Dostoyevski bərabər hüququn zirvəsində məskən salmışdımı?

Bəs Mirzə Cəlil? Sabir?

Söhbət italyan filosofu Kompanellinin Günəş şəhərindən, Nizaminin ideal cəmiyyətindən, Sen-Simon, Ş.Fürye, Ouen ideal toplumundan getmir. Söhbət heç Tövrat, Quran düzənindən də getmir.

Söhbət az-çox normal cəmiyyətdən gedir. Kommunizm və faşizm zəhəri ilə zəhərlənməyən, mənasız yalanlar, faciələr, soyqırımlar, sömürülər olmayan məmləkətdən, bu məmləkətin yazılarından, yazarlarından gedir.

Homos sovetukus yalnız sovet adamı tipi deyil, həm də yeni ictimai-bioloji tipdir, düşüncə, şüur arxetipidir.

Bu tipli yazıçı, alim, məmur, fəhlə, kəndli tipi əcaib bir şeydir.

Hələ radiosu, televiziyası, plenumu, qurultayı, açıq və qapalı partiya iclası, QULAQ-ı sürgünü, təqibi…

Kimsə bir ağıllı adam gözəl deyib: «Biz SSRI-dən çıxmışıq, SSRI bizdən çıxmayıb».

Doğrudan da. Ən azı yuxularda, kluarlarda, «bəlkə də qaytardılar»da yaşayır SSRI.

Həzrəti Musa xilas etmək istədiyi mifik xalq bəlkə elə bizik. Bəlkə elə günü bugün bu mifi yaşayırıq.

Uzun-uzaq yolun bitməyinə necə ölüm qalıb? Sonuncu öləndən başlayacaq həyata, ədəbiyyata Mərhəba və əlbəttə, əlvida…

* * *

Metod (sosializm realizmi), tip (sovet adamı, kolxozçu, fəhlə, sovet ziyalısı, inqilabçı…), mövzu (zavod, kolxoz, kənd, şəhər…), nostalji-nisgil (tarixi köklər, qədim adət-ənənələr, bayramlar…), milli duyğular, vətənsevərlik hissləri… sovet ədəbiyyatının hər dönəmində (bütün təsnifatlara görə) fərqli rənglərlə, çalarlarla gerçəklənməsə də ana modellər, demək olar ki, dəyişməmişdir.

Nə mühacirət ədəbiyyatı, nə ikiyə bölünmüş Güneyli, Quzeyli ədəbiyyatı, havanı, psixo-sosioloji durumu bir az dəyişsə, ümumi vəziyyəti dəyişə bilməmişdir.

21 Azər hərəkatından sonra məğlub olan Güney Azərbaycan ədəbiyyatının Şimala gələn nümayəndələrinin sovetləşməsi, sollaşması və müsbəti ilə, mənfisi ilə sovet ədəbiyyatı kontekstinə girməsidir.

Şəhriyarın dilə, folklora, kökə dayalı şeri sovet ədəbiyyatının əxlaqını dəyişə bilmədi və dəyişə də bilməzdi.

Nə qədər dəhşətli olsa da Çingiz Aytmatov bütün milli, mütərəqqi özəllikləri, dünyəvi şöhrəti ilə yanaşı sovet ədəbiyyatının nəhəngi idi (Soljenitsın, Belov…). Bütün metropol ədəbiyyatı (F.Isgəndər, A.Bitov…) da sovet dövrü, sovet ədəbiyyatı metropolu idi.

* * *

Hər kəs yaşadığı qədər deyil, ola bildiyi qədər sovet adamı, sovet yazıçısı olub. Sovet yazıçısı olmağın əzabını çəkən və ömrü boyu bunun mücadiləsini verən, ilan kimi qabıq qoyan, həyatını qurbanlıq edən Ənvər Məmmədxanlı da var. Bu zamanı 10-15 il yaşamış genetik sovet adamı – paranoid də var – iddiası, hikkəsi, zəhəri, namərdliyi ilə.

Bizə ictimai yalanı, rüşvəti, sosial əxlaqsızlığı sistem kimi gətirən, rejim «Bir mədəniyyətdə iki mədəniyyət var (Lenin)» tezisi çoxdan murdarlanmış çürük tezisdir. Bir qaşıq nəcis üstəgəl bir vedrə təmiz su bərabərdir natəmizlik, murdarlıq.

Cavad xan səngərdə Gəncənin mücadiləsini verdi.

Bir zavod əxlaqsız qadının Gəncəyə vurduğu zərbənin qarşısında hansı Cavad xan dayana bilər?

Bir aliminium zavodu bacasının zəhərli tüstüsünə bir şəhər qurban getdi. O tüstü ordusunun qabağında kim dayana bilər.

10 ildir müstəqillik rejiminin pazı başımızda, canımızda, ruhumuzda.

Məktəbimizdə, dilimizdə, qeyrətimizdə, torpağımızda paz rejim yaşayır.

Sazın pazlaşması, qələmin zopalaşması rejimin vəbalaşmasıdır.

Yazıçı (adam var anlamında) var, o rejimdən keçib, yazıçı var rejim ondan keçib. Və yaxud keçib qurtarmayıb.

* * *

Indi Azərbaycan türkcəsinin, «qeyrətini çəkənlər»in yaddaş xəstəliyi heyrət doğurur.

Evdə, ailəsində rusca danışan, məktəbdə uşaqlarını rusca oxudanlar, ana dilini balalarına xala-xətrin qalmasın deyə qətrə-qətrə öyrədənlər, Güneydə 30-35 milyon Azərbaycan türkünün haqqını görməməzliyə vuranlar, rəsmi məclislərdə rusca bəlağəti şərəf bilənlər, evində iti, pişiyi ilə rusca danışanlar yaxın keçmişlərini niyə unudub, görəsən?

Onlar rusca bar-bar bağıranda R.Rza, B.Vahabzadə, Ə.Kərim, X.Rza, M.Araz… Azərbaycanın Quzeyində, Şəhriyar, Səhənd… Azərbaycanın Güneyində ana dilinin şərəfini, namusunu, haqqını qorudu.

M.Ibrahimovun rəsmi idarələrdə ana dili mücadiləsi bir kommunist milliyyətçisinin təşəbbüsü olsa da, şübhəsiz ki, təqdirəlayiq idi.

Ə.Məmmədxanlının, I.Əfəndiyevin, I.Şıxlının, I.Hüseynovun, S.Əhmədlinin, H.Abbaszadənin, B.Bayramovun, Y.Səmədoğlunun, Anarın, Ə.Əylislinin, Elçinin, I.Məlikzadənin, F.Kərimzadənin… apardıqları dil mücadiləsi M.Fətəli, M.Cəlil, Sabir, Ə.Hüseynzadə, Ə.Ağacoğlu… köklərinə bağlı idi. O saf və zəngin kökün üstündə hər şey yaratmaq mümkün idi.

Abbas Zamanov, Məmməd Cəfər, Muxtar Hüseynzadə, Ə.Dəmirçizadə, Xudu Məmmədov, Səlim Cəfərov, Əlövsət Abdullayev… dil-ədəbiyyat cəbhəsində mücadiləni kiminlə aparırdılar?

Əlbəttə ki, ruslarla, rus yanlılarla, kommunist liderləri ilə, KQB yetkililəri ilə. Bu iş qısa şəkildə belədir. Təfərrüatı ilə… inşallah görüşərik.

* * *

Hövsələmi basıb «Azərbaycan dili» adlı televiziya proqramına baxdım, alimləri dinlədim. Anladıqlarım bunlar oldu:

- Heydər Əliyev olmasa idi, Azərbaycan dili;

- Heydər Əliyevin fərmanları olmasa idi, Azərbaycan dili olmazdı;

- Heydər Əliyev, Heydər Əliyev və yenə Heydər Əliyev...

Naftalin qoxusu otağı başına götürmüşdü. Yalan danışan populist alimlərə yazığım gəldi. Onlara bir söz tapa bildim: Bədbəxt xoşbəxtlər.

* * *

Övladların ataların namin aldığı intiqam müqəddəs qisasdır. Əzizə Mustafazadə atası Vaqif Mustafazadənin, Paşa, Azər, Orxan ataları Əli Kərimin intiqamını aldı. Bu intiqam haqsız cəmiyyətdən, haqsız qoluzorlulardan, hansız qulluq adamlarından alındı.

Sadəcə sənətlə, elmlə, şəxsiyyətlə.

Ölənlərin ruhu şad oldu.

Qalanlara halal oldu.

Atalarının sərvətini, hörmətini, ləyaqətini eninə-boyuna xərcləyənlər o qədər çoxdur ki, onları sayıb qurtarmaq çətindir.

Onlara ar oldu.

* * *

Mərhum Əli Kərimin bəxti yenə gətirmədi.

Allahın işinə bax.

Ad-san payını, maddi-mənəvi haqqını ala bilməyən və sovet dövrünün qurbanı, Azərbaycan yazıçılarının çox az olan şəhidlərindən biri nə yubiley gördü, nə orden, nə medal, nə dövlət təqaüdü, nə xarici səfər, nə təmtəraqlı ev-eşik, maşın və dürlü-dürlü hökumət güzəştləri.

Illər keçdi. Azərbaycan müstəqil oldu. Amma Əli Kərim ruhu yenə nə yubiley gördü, nə də dirilərə rəva bilinən üstünlükləri.

Sentyabrın 28-də Göyçayda Müsavatçılar Əli Kərimin məzarı başına toplaşıb Vətənin dərdlərini onunla bölüşmək istədilər. Fəqət hökumətimiz bunu Əli Kərimə də, Isa Qəmbərə də, minlərlə Əli Kərimsevərə, Məhəmmədəminsevərə, Elçibəysevərə çox gördü.

Bu da bir tarixdir.

Bu da bir taledir.

Taleyin qutlu, tarixin uğurlu olsun, Əli Kərim!

Diri-diri ölülər, pullu-pullu «kişilər» əli tapançalı rəhbərlər dünən olduğu kimi, bu gün də sənin yanında miskindir, zavallıdır və əslində, heç nədir.

Qəmin kəm, Əli Kərim!

* * *

Qələmdən çıxmış bədii əsər doğulmuş uşaq kimidir. Bu uşağı olduğundan artıq gözəl, sağlam etmək mümkün deyil. Uşağın gen gücünü, potensial imkanını açmaq mümkünsüzdür. Bədii əsəri yenidən yazmaq onun bakirəliyinə toxunmaqdır. Kəpənək qanadlarını yenidən yaratmaqdır.

Bu təşəbbüsdə bulunanlara hətta xəstə, zəif əsərə belə toxunmamağı məsləhət bilirəm.

Yaranışın, doğuluşun öz fəlsəfəsi var. Bu, yalnız Allahın yaratdıqlarına deyil, insanın yaratdıqlarına da aiddir.

* * *

Ən qəribəsi budur ki, ən murdar adamdan da yaxşı yaza bilmək haqqını əlindən ala bilməzsən.

* * *

Yazıçının gecə yazdığı düşüncələrinin yaxşısı da var idi, pisi də, dəyərlisi də, mənasızı da. Yaxşılar, dəyərlilər elə o gecənin övladları idi. Pislər, mənasızlar isə gündüz əməllərinin yazılı davamı idi.

Bütövlükdə gecə yazıçısı bir adam, gündüz yazıçısı tamam başqa bir adam idi. Bu da bir taledir.

* * *

Dünyanı zənginləşdirməyin yolu təhsil və elmdən keçir.

Insanın maddi və mənəvi zənginliyinin yolu təhsil və elmdən keçir.

* * *

XX əsrdə dünyanın əhalisi iki dəfə artdı. Insan ömrü (ortalama 40-dan 80-ə yüksəldi).

XX əsrdə insanlığın düşmənləri də artdı: silahlanma, təbiətin çirklənməsi, uyuşdurucu, kasıblıq, xəstəliklər…

XX əsr bitmiş. Fəqət XX əsrin bəlaları bitməmişdir.

* * *

Füzuli yüzlərlə şer yazmış, milyonlarla şerin toxumunu Sözün dünyasına səpib getmişdir.

* * *

Şəhidlər qəbristanlığında qoşa yatan sevgililər yalnız Azərbaycan xalqının AZADLIQ eşqinin deyil, həm də Füzuli eşqinin, Leyli-Məcnun ölməzliyinin abidəsidir.

* * *

Hər şeyin başladığı yer hər şeyin sonu olmuşdu.

* * *

Bu səfalət və vəhşilik içində müqəddəs olan bir şey var idi: bu gül kimi təmiz qızcığaz kimi isə sevməli, ərə getməli və uşaq doğmalı idi.

* * *

Televizora baxdım və qəti qərara gəldim ki, Stalin ölüb, stalinizm ölməyib. Əsla ölməyib. Və bu Stalinsayağı məclisdə ən yazıq, ən məsum və ən zavallı iki yazıçıya rəhmim gəldi. Onların bu ağır təhqirə layiq olmadığını ilk dəfə gördüm. Hər halda, onlar diktatorluq, totalitar rejim haqqında ən çox bilən, bu barədə ən çox yazan qələm sahibləri idi. Bilənin dərdi bilməyəndən qat-qat çoxdur.

* * *

Ürəkdə alışan tək bir qığılcım insanı məğlubedilməz edə bilər.

* * *

Əxlaqsızlıq rus qızının gözlərindəki ucsuz-bucaqsız maviliyin içində əriyib gedirdi.

* * *

Padşah ona yaltaqlanan nazirlərdən, alimlərdən, şairlərdən bezmişdi. Padşah, əslində, hər şeydən bezib doymuşdu.

Əzrayılı gözləyirdi.

Əzrayıl hardasa qalmışdı, gəlmək bilmirdi ki, bilmirdi.

* * *

Insan həyatı iki dövrdən ibarətdir: öyrənmə və unutma.

Uşaqlıq və cavanlıq – öyrənmə dövrüdür, qocalıq – unutma.

* * *

Ehtiyac içində yaşayan insanlar küçədə bir-birinə baxmağa utanırdı.

* * *

Ac və əlacsız xalqa bu xalqın tox və xoşbəxt olduğunu söyləmək, bu söyləmələri teleşouda hamının gözünə həyasızcasına soxmaq mənə gücün, haqsızlığın törətdiyi ən böyük faciə təsiri bağışladı. Insanların bu qədər ağır təhqirə layiq olmadığını bilməyin nə faydası?

* * *

Sürgündən, həbsdən, faciələrdən sonra dünyanın gözəl şeyləri haqqında ucuz şerlər yazan bu adam dünyanın – metamarfozası idi.

* * *

Həyatı boyu AZADLIQ üçün vuruşan insan elə bu azadlığın içində də boğuldu.

* * *

Dünyaya gəldi. Vətəni, Milləti seçdi, sevdi, özünü müqəddəs bildiyi bu iki varlığa həsr etdi!

Təqibə, sıxıntıya, zülmə, həbsə dözdü!

Vətəninin, Millətinin azadlığından başqa heç nə istəmədi!

Və Vətəninin, Millətinin AZADLIQını qazandı!

Tanrı sevdiklərinə onların sevdiyini verir

Tanrı Elçibəyi sevdi!

* * *

Hüququn üstünlüyünə söykənən, insan haqlarını qoruyan demokratik milli dövlət – Bütöv Azərbaycan Dövləti Elçibəyin ülküsü – idealı oldu! Bütöv Azərbaycan Bütöv Türk Dünyasının mayası, təməlidir. Elçibəy düşüncəsinin, məfkurəsinin canıdır!

MILLƏTLƏŞMƏ, DÖVLƏTLƏŞMƏ, BÜTÖVLƏŞMƏ – bu üç kəlmədə Elçibəyin düşündüyü, uğrunda həyatı boyu mücadilə apardığı hər şey var!

* * *

Türklük – yaşam biçimi, düşüncə tərzi, həyat fəlsəfəsidir. Türklük mədəniyyətə söykənən çox böyük bir anlayışdır. Irq, qan, baş ölçüləri türklüyün meyarı deyil. Türklük irqçilikdən çox uzaq bir anlayış olub.

* * *

Köhnə qəzetləri kədər və təəssüf hissyilə vərəqləyirəm.

O illərin donmuş ehtirasları saralmış vərəqlərin arasından mənə kədərlə baxır. Polemikaların, hücumların, hərbə-zorbaların buz kimi donuq baxışları həyat elementini illərdir ki, itirib, qeyb eləyib.

Təriflər, mədhiyyələr «vağam güllər kimi» (R.Rza) sərilib, səpilib. Köhnə qəzetləri vərəqləyirəm. Tozlu sözlər boğazımı gicişdirir.

Nə qədər hüznlü olsa da, düşünürəm ki, yazıya pozu yoxdur.

Bu baş məqaləni bütün vaxtların və bütün prezidentlərin əziz-xələfi Nifrət də, iftira da, şərəfsizlik də qalır, namus da, səmimiyyət də, böyük zəhmətin bir damla olsa belə, sevinc, xoşbəxt payı da.

…Bu yazı millətin gizli dərdlərini eyhamla başa salır.

Küncdəki yazı ifşa məqaləsidir, asıb-kəsir.

Ortadakı iri şəkilli yazı rusları tərif edir. Guya rus xalqı, rus mədəniyyəti olmasaydı, dünyada Azərbaycan adlı bir millət olmayacaqmış.

Qara haşiyəli yazını kəsiblər. Allah bilir nə üçün.

Son səhifədəki kiçik məlumat yeni tapılmış türk əlyazması haqqındadır.

Köhnə qəzetlər köhnə güllər, köhnə dostlar, köhnə düşmənlər kimidir.

Baxıram və xatırlayıram. Yaddaşın ibrət dərsini köhnə qəzetlərdən alıram.

* * *

Şeri gündəlik kimi də yazmaq olar. Bu şerlər günün şerləri olacaq: sakit, təmənnasız, iddiasız. Amma o şerlərdən ilahi vəhy gözləmə. O şerlər beyində çaxan ildırım da olmayacaq. Sadəcə günün şerləri olacaq. Və eləcə axıb gedəcək.

* * *

O hər şeyini mübahisə meydanlarında tapmışdı. Qızğın polemikalarda, odlu-alovlu söhbətlərdə, silahlı atışmanı xatırladan dialoqlarda.

Və qəribəsi burası idi ki, o bu mübahisə meydanlarında tapdıqlarını yalnız mübahisə meydanları üçün tapmışdı. Başqa heç yerdə nə deyə bilirdi, nə də yazıb ayan edə bilirdi.

Görünür, qızğınlığın öz həddi yetişməyincə o fikirlər dünyaya gələ bilmir; doğula bilmədiyi kimi, yaşaya da bilmir.

* * *

Ailə quran qadın öz ərinin qadın haqqında təsəvvürlərini yüzə-səksən, yüzə-yetmiş dəyişə bilmirsə, nə o qadın, nə də o kişi xoşbəxt ola bilməz.

* * *

Neyin qərib səsi dərdə alışıqdır. Şaqraq musiqi neyə yabançıdır, ona yaraşmır. Neyin dili dərd dili, səsi qəm-qüssə, kədər səsidir.

* * *

Həyatı anlara görə yaşayanların böyük əksəriyyəti avara, çox az qismi qəhrəman olur.

* * *

Bulvarın əvvəlindən sonuna doğru gedirəm. Neçə-neçə sevgidən keçirəm. Insanların sevgisi ağacların, dənizin sevgisinə qarışıb. Sevgi gölündə üzə-üzə gedirəm, qərib sevgisizliyim məni gözləyir. Bu qədər sevginin içində onu necə tapacağam, Allahım?

* * *

Müsəlman kimliklə, türk olmaqla Avropalı olmaq məcburiyyətindəyik.

* * *

Və Zaman keçdi. Bu böyük tarixdən, bu qüdrətli insanlardan qalan tək bir əfsanə oldu.

* * *

Ümiddən ümid kəsilməz – deyirlər. Bəs ümidin özü olmasa necə?

* * *

Universitetin filologiya fakültəsinin professorlarından mərhum Musa Adilov çox ciddi dilçi alim idi. Xasiyyətcə kobud və adamayovuşmaz olan Musa müəllimlə münasibətlərimiz

soyuq idi. Mən cavan müəllimlə oturuşmuş dilçi professorun soyuq münasibətlərinin içində elə bir isti səhifə var ki, gecənin bu vaxtında onu xatırlamaya bilmirəm.

Bir gün təsadüfən məndən yaşlı olan kafedra yoldaşım dilçi Rəsul Xəlilovgilə getdim. O zaman universitetdə mən yaşda müəllim çox az olduğu üçün özümdən dostluq etməyə məcbur idim.

Niyyətim onun sadə və istiqanlı evində bir-iki stəkan çay içib, onun musiqi plastinkalarını dinləmək idi. O zamanlar bu mənim üçün böyük xoşbəxtlik idi.

Qapının zəngini basdım, açdılar. Içəri girəndə Musa müəllimi də orda gördüm. Artıq gec idi, qayıda bilməzdim. Xudmani bir içki masası açılmışdı və iki qədim dost ürək söhbəti eləyirdi.

Xoş-beşdən sonra Rəsul müəllimin həyat yoldaşı Kəklik bacı ətirli çayını gətirdi. Rəsul müəllim maqnitafonu işə saldı. Qulu Əsgərov və Rübabə Muradovanın unudulmaz səsləri Leyli-Məcnunun ağrılı, iniltili musiqisini ətrafa yaydıqca Musa müəllim tutulurdu.

Məşhur xorun ürək dağlayan musiqisi başlayanda Musa müəllim hönkürtü ilə ağlamağa başladı.

Biz susurduq. Musa müəllim doyunca ağladı. Sonra heç nə demədən üzr istəyib getdi.

Rəsul müəllim üzümə baxıb:

- Həmişə belədir. Dinləyir, dinləyir, o xor başlayıb «Leyli, Leyli…» deyincə özünü saxlaya bilmir, ağlayır.

O gündən sonra mən Musa müəllimin məqalələrini başqa gözlə oxumağa başladım və soyuq münasibətə görə özümü danladım.

Musa müəllimin Füzuli sözünə, Üzeyir musiqisinə göz yaşları ilə ifadə etdiyi mərhəm, doğma münasibət onun ürəyinin aynası idi. Füzulinin kədərli rəsmi həkk olunmuş o ayna mənə ömürlük dərs verdi.

Allah rəhmət eləsin.

Qəbri nurla dolsun…

* * *

Sənətkar və zaman, sənətkar və hökmdar, sənətkar və onun gündəlik həyatı… mövzusunda az yazılmayıb. Nə qədər yazılsa da, düşünüləsi, öyrəniləsi dərslər çoxdur və görünür, insan yaşadıqca bu problemlərin min rəngini, min özünəməxsusluğunu görəcək.

…Piroq yeyib aclıqdan, keyf məclislərində qəzib məhbus həyatından, firavanlıq içində yaşayıb aclıqdan, səfalətdən, əyrilik, fırıldaq mühitində ömür sürüb ədalətdən, düzlükdən, əxlaqdan yazmaq olarmı?

Əlbəttə ki, olar. Yazıblar, yazırlar və yazacaqlar.

Məncə, onları yazmaq olar, ancaq oxumaq olmaz. Mahiyyətcə yalan olan o əsərlər ucuz oxucu zövqünə hesablanıb. Içində, varlığında o hissin, o duyğunun, o halətin, o durumun min bir incəliyini yaşamayan yazıçı həbs görməmiş həbsxananı, aclığı yaşamadan aclığı necə yaza bilər?

Ədalətdən yazan qələm əhli çirkab içində özünə mənəvi haqq tapıb o dəyərdən yazırsa, ən böyük əxlaqsızlığı etmiş olur.

Məqsəd oxucunu aldatmaq, insanlığın min illər boyu qəbul etdiyi mənəvi dəyərlərdən bəhrələnmək, onları mənimsəmək, ən müqəddəs anlayışlara bazar psixologiyası ilə yanaşmaqdır.

Bu gün Azərbaycanda yaxın tariximizin faciələrindən – millətin yaralarından yazan oğlan bilmir ki, prezidentin (və onun oğlunun) qucağında oturub Caviddən, Ərtoğruldan, Müşfiqdən yazmaq olmaz. Heç olmasa, onların adını dəyişmək lazımdır. Axı, mənim müqəddəs adların bu yaşam tərzi ilə, bu seçimlə, bu kriterii ilə nə əlaqəsi var?!

Qan ağlayan milləti görməmək və xalqı bu faciəyə salanı ilahiləşdirib, sonra Cavid faciəsindən yazmaq özünü aldadıb, sonra bütün milləti aldadıb dolamaq deyil, bəs nədir?

Tarixin və həyatın elə mətləbləri var ki, onları sadəcə danışmaq və ya sənədlərini göstərmək kifayətdir.

Mirzə Cəlilin həyatının salnaməsi (Allah Qulam Məmmədliyə rəhmət eləsin!) ən böyük tarixi dastandır. Bu həyatı üslubla bəzəmək, sözçülüklə rəngləmək əslində mənasız bir işdir. Həmidə xanım Məmmədquluzadə Mirzə Cəlilin həyatını və faciəsini doğrudan-doğruya yazıbsa, bir də bunu üslub burulğanından keçirmək ədəbiyyat fabrikatorluğu (və ya sənayesi!) deyil, bəs nədir?

Rəhmətlik Abbas Zamanov Həmidə xanımın xatirələrini çap eləyəndə senzura ən qiymətli məqalələri ixtisar edib. Rusca yazılmış bu əsərin yenidən çevrilməsi, çap edilməsi qayğısına bəs kim qalacaq?

Nə qədər bu milləti suyunun suyu ilə qandıracağıq?

KQB generalına yaltaqlana-yaltaqlana KQB-nin 20-30-cu illər faciəsini yazmaq üçün yazıçının mənəvi bəraəti olmalıdır!

Şah Ismayılı dizinin üstündə oturduğu prezidentlə həyasızcasına müqayisə edib eyniləşdirən alimlə özünü satan əxlaqsızın nə fərqi varmış?!

Adını çəkdiyim və çəkmədiyim kişilərdən elmi, yaxud bədii əsər yazıb çörək sahibi olanları bəlkə bağışlamaq olar. Ancaq bunu böyük yazıçı, böyük alim iddiası ilə edib meydana atılanlara bircə bunu demək olar ki, millətin ağır günündə millətin yanında deyil, milləti bu günə qoyanların yanında və qulluğunda olmaq, onu mədh edib tarixi faciələrimizdən yazmaq haramdır! Dünyanın ən böyük haramı!

30 milyonluq Güney Azərbaycanlının «Əlifba» kitabı yoxdur. Bu «Əlifba» onun üçün yazılmalıdır. Ayı 500 ABŞ dollarına oxuyan milyonçu uşaqları üçün yox!

Dərdimiz çoxdur. Millət və dərd pərdəsi arxasında gizlənən «yazıçılara», «alimlərə» də sözümüz az deyil. Hələ divar uzanır. Divar bitdikdən sonra, kimin kim olduğu aydınlığa qovuşacaq.

Yaşayarıq, görərik. Füzulinin katiblər üçün dediyi bu cızmaqaraçılar üçün də bir gerçək:

Qələm olsun əl iol katibi-bədtəhririn,

Ki fəsadi-qələmi sözümüzü şur eylər…

* * *

Tanınmış, gözəl yazıçımız Çingiz Hüseynovla görüş məndə dərin izlər qoydu. 70-ci illərdən təmiz, istedadlı və maraqlı insan kimi tanıdığım Çingiz Hüseynovun sadəliyi, təmkini, müdrikliyi ən böyük tərifə layiqdir.

Sözə zaldan başladı (Köhnə Inturist, 3-cü qat). 1956-cı ildə burda Səməd Vurğuna yubiley keçirilib. Şair özü ağır xəstə olduğu üçün yubileydə olmayıb. O ağır günlərdə şairdən şikayət yazan R.Rza, S.Rüstəm, M.Rahim orda imiş və yəqin ki, Vurğunun sağlığına vururmuşlar. Necə ki, Vurğun Cavid və Müşfiq haqqında ən ağır ittihamlar yazıb Muğana ova getmişdi. Tarixin və taleyin ironiyasına nə deyəsən?

Sonra yazıçı yeni bitirdiyi «Məhəmməd» romanından danışdı. Üç hissəlik roman (Həyat, Merac, Quran) bəlkə dünyanın ən ağır mövzusudur. Çingiz müəllim 2 strateji amili vurğuladı: birinci amil, Quranın Məhəmməd Həzrətlərinə (s.ə.s.) verildiyi xronologiya ilə təqdimi Quranın bəşəri dəyəri üçün çox əhəmiyyətlidir. Osmanın zamanında yazılmış 4 nüsxənin surə düzümü vəhy tarixləri üzrə deyil (qəribədir, «Dədə Qorqud» boylarının düzümü də tarixi xronologiya üzrə deyil…).

Ikinci amil, «Quran» vəhyi, başqa sözlə, «Quran» mətni ərəbcə olmayıb. O vəhyləri Allahdan alan həzrəti Rəsulumuz ərəb olduğu üçün ərəbcədir.

Maraqlıdır. Mən tamamilə inanıram. Ekstaz vəziyyətdə alınan bilgi (xəbər, vəhz, əmr) insan oğlunun hələ bilmədiyi vasitə ilə (əsəb qıcıqlanmaları, əzələ titrəmələri və s.) verilməsi təbiidir. Bu siqnalı (qıcığı, əzələ titrəmələrini…) qəbul edən ekstaz vəziyyətindən sonra eşitdiyi bilgini danışdığı dildə – ərəbcə başqalarına deyir, fiziki-bioloji siqnalı – Allah dilini insan dilinə (bildiyi dilə!) tərcümə edir!!.

Bu Allah dilini zamanında Adəm öz dilində, Ibrahim öz dilində, Musa öz dilində, Isa da öz dilində anlamış və anlatmışdır. Bu missiya elçi missiyasıdır, Peyğəmbər missiyasıdır.

Çingiz müəllim cihadın 3 növünü açıqladı: kiçik (vətənə, torpağa, dinə, ölkəyə qarşı), orta (azadlıq uğrunda, zülmə qarşı), böyük (özünə qarşı) cihad. Nədənsə yalnız kiçik cihad üzərində durulur. Nə üçün? Bilinmir.

Şəhidlər də üç çeşiddir və üç cihada uyğundur.

Çingiz müəllim maraqlı bir mesaj verdi: Quranı dərindən araşdıran və özü öz içində çabalayan adam da şəhiddir.

Çingiz bəy çox şeydən danışdı. Rusiya məsələsində onu anlamaq çətin idi. Ordumuz yoxdur, Azərbaycanlılar vuruşa bilmir, Nəriman Nərimanovdan da öyrənmək lazımdır, yalnız M.Ə.Rəsulzadə kifayət etmək, Şah Ismayıl Iran hökmdarıdır, Iranın iç işinə qarışmaq və siyasi Bütöv Azərbaycan konsepsiyası yanlışdır, ruslaşdırma rus dövlətinin siyasəti olmayıb, ruslaşan, ruslaşmaya meylli olan ruslaşıb… kimi fikirlər etiraz doğurdu. Sovetlər Birliyi öz-özünə dağıldı kimi havadan asılı fikirlər milli-mənəvi mücadiləni, dissident hərəkatını, mühacir mübarizəsini inkar etmək deyil, bəs nədir?

Hanqtinqton və Fukuyama iddialarına qarşı Ç.Hüseynovun «Məhəmməd» romanı ən gözəl cavabdır. Dialoq və monoloq formasında yazılmış roman müasir nəsr poetikası baxımından yenilik gətirəcək və böyük mübahisələrin predmeti olacaq.

Azərbaycanlılar dövlət milləti deyildir fikri maraqlıdır.

«Müsəlman kimliyi, Türk kimliyi, çağdaş kimlik bir-birini inkar etmir, təsdiq edir. Çoxadlılıqdan qorxmayaq və ondan istifadə edək» fikri diqqətiçəkəndir.

Rusiya, Iran, Türkiyə, eləcə də Qərb faktoru strateji baxımdan geniş açılmadı.

Mən də danışdım. Bu böyük yazıçıya təşəkkürümü bildirdim. Böyük xidmətlərini xatırladım.

Mübahisəli məqamlara diqqət çəkdim.

Ağıllı adamlar həmişə qapını açıq qoyur. Bu qapı fikir, bilgi qapısıdır. Insanlar bir-birindən öyrənir. Hətta öyrənmək istəməsə də.

P.S. Öz millətini, bu millətin mücadilə yolunu, şəhidlərini inkar edə-edə, sata-sata, müstəqilliyi qazanmış insanların qanı-canı hesabına yaranmış dövlətin parlamentində (özü də əldəqayırma parlamentdə!) oturub bir ailənin milçəyini qovan rusdilli Maqsud Ibrahimbəyovun Çingiz Hüseynova yazdığı məktubu oxudum. Özünə, əməllərinə, ailəsinə yaraşan məktub yazıb. Və min illərdir ki, karvan keçib gedir…

* * *

Sami dillərində ruh – nəfəs deməkdir. Hər nəfəsdə Allaha iki can borcluyuq. Nəfəs almasaq yaşaya bilmərik, nəfəs verməsək də. Nəfəs havadır. Ruh – insanın içində Hz.Isa kimi çarmıxa çəkilmiş Lavadır. Son nəfəs Ruhun azadlığıdır. Və söz özü də havadan yarandığı üçün hardasa ruh sözdür. Ilkin söz olmuşdur, gerçəyin dolayı yolla ilkin hava olmuşdur həqiqətinin ifadəsidir.

* * *

Maddə yoxdur. Maddə xəyaldır. Ruh var. Və insan Ruhun sirrini bilmir və bilməməlidir. Mütləq varlıq maddə deyil. Maddə özü də xəyalidir, sanaldır.

Insan duyğularının sərhədləri sonsuzdur. Insan həyatı kölgədir. Bəlkə də kölgənin kölgəsi. Yeganə mütləq varlıq Allahdır. Quranın «Qaf» surəsi də elə bunu deyir.

* * *

Kafir - müsəlman olmayan deməkdir. Kafir - müsəlmanla düşmənçilik edən deməkdir. Yalnız bumu?

Azərbaycan türkcəsində 1400 ildir ki, kafir sözü qara qutu kimidir – mənfi, olumsuz, hər şeyin atıldığı qara qutu.

Dil qəribədir. Yaratmaq istədiyi hər şeyi yaradır və yükləmək istədiyi hər şeyi yükləyir. Dil işarələrinin bu cür yüklənmə sistemi dilin mahiyyətini açır. Amma bizim məqsədimiz bu mahiyyəti açmaq deyil.

Məqsəd Kafirstan sözündəki qaranlığı, dibsizliyi və çıxılmazlığı açmaqdır.

Kafirstan bir xəyali-sand yer adıdır. Bu yer həm də dövlətin adıdır. Xalqın və xalqın danışdığı dilin adı da eynidir.

Qurani-Kərimdə işarə vurulur ki, Yəcuc-məcuclar – yəni atəşpərəstlər, bütpərəstlər bu yerə gələndə əhali Islamdan imdad diləmişdir.

Kafirstan. La hükme illa lillah

«Hökm Allaha aiddir» («Quran»dan)

* * *

Allah gecənizi ona görə belə qaraltdı ki, sübhün, gündüzün gözəlliyini hamıdan yaxşı biz görə bilək.

* * *

Keçmiş günlər yaşanmış hisslər, ölmüş duyğular deməkdir. Onları geri qaytarmaq zamanı tərsinə çevirmək imkansızlığıdır.

* * *

Allahın bizim üçün ulduzlarla, günəşlə, ayla bəzədiyi göylər - Kainatdır, dibsiz, sonsuz fəzadır. Insan gözüylə bəzək kimi qavrananlar Allah insanın kainatda böyüklüyünü təsbit etməkdir.

* * *

Yaşamaq cəsarətini, qəhrəmanlığını göstərə bilmək hər kəsə müyəssər olmur. Yaşamamaq bütün yığdıqlarını yandırıb onun oduna qızınmaqdır. Orada bizi böyük kədərimiz gözləyir. Yaşamağı seçək, böyük kədərimizin içində yanıb qovrulmayaq.

* * *

…Dostum Azər Abdulla son yazılarının birində deyir: «Ramiz Rövşənin qurtardığı yerdə Vaqif Bayatlı Odər başlayır". Məncə, məntiqsiz və əsassızdır. Əvvəla Ramiz Rövşən bitməyib, qurtarmayıb. Vaqif Bayatlı da Ramizdən deyil, Füzulidən, Dədə Qorquddan başlayıb. Söhbət hansısa üstünlükdən gedə bilərmi? Allahın verdiyi ilahi verginin bir parçası Ramizdə, bir parçası da Vaqifdədir. Gözümüzü cücərdən Füzuli toxumlarına qıymayaq.

* * *

Bir insanın tənha qalması bütün insanlığın tənha qalmasıdır.

* * *

Təhlükənin qorxusu sənin qorxduğun qədərdir.

* * *

Allahımı tapıb ona sığındım. Və minlərlə insanın məscidlərdə namazını, Allaha itaətini, bağlılığını görəndə öz Allahımı onlara qısqandım. Mənim Allahımı öz Allahı bilən insanların itaəti, məhəbbəti məni qısqanclıqla sarsıtdı.

Məqalələr, portretə ştrixlər, çevirmələr

TARIN MÖCÜZƏSI VƏ YA ATAMIN MƏDƏNIYYƏT PAYI

Toy günümdə «Atası böyük adamdır, yoxsa Kamil» fəlsəfi atalar-oğullar mübahisəsini aparan dostlarım mərhum Əbülfəz Elçibəyə və Ramiz Rövşənə sayqılarla

Simli alətlərin içərisində tarın vurğunuyam. Tar mənim atamın sənətidir – bəlkə buna görə. Bəlkə də məni və ailəmizi böyüdən çörək ağacı tar olub – buna görə. Bəlkə də tarın qanıma keçmiş dilində musiqini daha gözəl qavrayıram – ona görə. Ustad Sadıqcan XIX əsrdə diz üstündə çalınan tarı sinə üstünə qaldırıb – ürəyə yaxınlaşdırıb.

Tarın sazdan doğulmasına da şübhəm-filanım yoxdur.

Amma tar, oxumamış atanın oxumuş, savad-bilik sahibi olmuş övladı kimidir. Kim bilir, bəlkə oxumamışlıq oxumuşluqdan daha təmizdir, genişdir, təbiidir və müdrikdir.

Amma oxumuşluğun da öz yolu, öz göy üzü var.

Sazdan doğan övladların ən fərasətlisi, ağıllısı, elə, deyəsən, tar olub. Doğrudur, dütarın, udun, tənburun… da öz yeri var.

Amma tar Şərqlə Qərbi birləşdirib bəşəri fəzaya yüksələn alətlərin başında gəlir.

Qəribə şeydir – bizim qonşularımızın da öz musiqisi var və həmhüdud ortaqlıqlar da yox deyildir. Gürcu kamança çalanda və ya erməni qara zurna və ya balaban çalanda heyran olduğumuzu inkar etmək çətindir. Qarabağda - Hadrutda bir erməni tütəkçalan var idi. O çalanda quşlar susar, sonra o tütəklə səs-səsə verib oxuyardular.

Bu, gerçəklikdir. Amma o gerçəkliyin bir astar üzü də var. O üz artıq insanın deyil, Allahın verdiyidir. O erməni də, o gürcü qardaş da balabanda və ya kamançada çaldığını boğazla oxuya bilməz. Çünki Allah nə ermənіyə, nə də gürcüyə (eləcə də başqalarına) muğam oxumaq üçün səs, boğaz, xirtdək verməyib. Bu da Allahın bir lütfüdür. Muğamı çala bilərsən, amma oxuya bilməzsən, qonşu!

Üzeyir bəy yazılarının birində insan səsinə ən yaxın alətin kamança olduğunu yazıb. Haqq söz deyib böyük KIŞI.

Tarın səsi insan səsindən daha genişdir. Bu səs təbiətin (maddi olanın) və Ruhun (maddi olmayanın) vəhdətidir. Suyun, küləyin, yağışın və eşqin, nifrətin, kədərin səsi tarda o qədər açıq və aydın şəkildə birləşib ki, bunu sübut etməyə ehtiyac yoxdur.

Tar çalınanda ev ilanının damdan aşağı sallanmasını gözümlə görməsəm, bunu yalan sayardım.

Tarın səsi ilə idarə olunan kamançanın və müğənninin yaratdığı möcüzənin də sübuta ehtiyacı yoxdur (əgər tarçalan sənətkardırsa!).

Tarı ilk dəfə orkestrə qoşan Üzeyir bəy tar dilini universallaşdırmış, onun sonsuz imkanlarının mühüm bir hissəsini ortaya çıxarmışdır.

Qurban Pirimovun tar sənəti ümumən musiqimizin, ifaçılıq sənətimizin xoşbəxt taleyilir. Çağdaş tar sənətinin məktəbini yaradan Qurban kişi texnika ilə bədahəti, ustalıqla bilginin vəhdətini yaratdı.

Tarın çağdaş dili Qurban kişinin ölməz sənəti ilə bağlıdır.

Atam deyirdi ki, *Bəhram Mansurovun* çaldığı muğamın mizrablarının sayını demək olar. Dən-dən vurulan bu mizrab – ilmələrin toxuduğu xalı heyrətini doğurur.

Hacı Məmmədovun biləyindəki gücün tarın fəryadına çevrilməsi sehr deyil, bəs nədir?

Əhsən Dadaşovun bal axan barmaqları O dünyadan Bu dünyaya gələn ilahi səsin özü olmağına şübhə edən varmı?

Həbib Bayramovun ədəb, mərifət, olğunluq saçan ifasını unutmaq olarmı?

Ifalarına vurğun olduğum Firuzun, Ağasəlimin gözəllik, zəriflik daman mizrabları Azərbaycan muğamına əbədiyyət qazandırmırmı?

Ramiz Quluyevin Qurban kişinin tarından su içən ustalığı genişlik, dərinlik mənasında o məktəbin yeni bir təsdiqidir.

…Mən həmişə *Rəmişi* dinləyəndə beynimdə gitaranın səsini tarın səsinə tərcümə edirəm və ifaları tarın səsi kimi dərk edirəm. Və içimdən təəssüf nidası qopur.

Bu dahi improvizator tarın canından gedib. Onun gitaraya nələr qazandırdığı aydındır. Amma itirən Azərbaycan tarı olub. Heyf…

Şübhəsiz ki, Rəmiş daşı daşa vursa da, elə Rəmiş olacaqdı. Çünki onun çaldığı, Ruh səsidir, bu dünyanın o biri üzündəki səsdir.

Əgər bu səslər tardan qopsaydı, tarı sinəyə qaldıran Sadıqcan qəbirdə ürəkdən rahat nəfəs alacaqdı.

Ancaq neyləyəsən ki, sən saydığını say, gör fələk nə sayır…

…Mənim doğulduğum Cəbrayıl Qarabağın ucudur. Bu uc Qarabağda insanlar musiqi ilə yaşayır, musiqi ilə nəfəs alanlardan idi.

Atam Nəriman kişi sadə və aydın bir tarzən idi.

Xasiyyəti, təbiəti dupduru su kimi şəffaf olan Nəriman kişi tarı sinəsində o qədər hörmətlə, izzətlə saxlayıb dilləndirirdi ki, elə bilirdin tar yox, o özü mərifətlə, ədəblə keçmişindən, cavanlığından, sevməyindən, evlənməyindən, atasından, anasından danışır.

Tar ilə Nəriman kişi arasında tül kimi nazik bir hörmət, ədəb pərdəsi var idi. Nəriman kişi bütün həyatı boyu o abır, həya pərdəsini keçmədi. Mən indi də tar çalınanda elə bilirəm ki, atam nə isə danışır, dua edir və ya nəvəsini səvələyib oxşayır…

Uşaqlığımızın uzaq dünyasındaydıq. Anam atamı danladı ki, oğlanlarına (yəni mənə və məndən 4 yaş kiçik qardaşım Farizə) tar çalmağı niyə öyrətmir?

Atam sakit və yorğun görkəmdə üzünü mənə tutub: – «Tarı götür görüm» – dedi.

Mən tələsik tarı çıxarıb sinəmə qaldırdım.

Atam başını buladı: – «Yox arvad, sənin böyük oğlun heç vaxt tar çalmayacaq». Pərt oldum və ömrüm boyu çox istəsəm də, tar çala bilmədim.

Sonra atam qardaşıma üz tutdu: – «Indi sən götür görüm».

Fariz tez tarı sinəsinə qaldırdı. Atam: – «Arvad, balaca özü tar çalacaq, mənə ehtiyacı yoxdur. Özü də yaxşı çalacaq. Bizim kirvə Mübariz kimi».

Elə də oldu. Illər keçdi, iki ali məktəb qurtaran, əslində, mühəndis olan Fariz gözəl tarzən oldu. Indi də musiqi məktəbinin müdiridir, taleyini bu sənətə bağlayıb.

Cəbrayılda bir də Zahid müəllim var idi. gözəl tar çalardı. Amma onun tar çalmağı ilə atamın tar çalmağı çox fərqlənirdi. Atamın tar çalmağı ibadət kimi bir şey idi. O, tarın vasitəsilə Allahla danışırdı, Allaha yalvarırdı, altı balası üçün için-için dua çalırdı.

Zahid müəllim də böyük usta idi. Amma onun Allahla heç bir əlaqəsi yox idi. Tarın başına bir oyun açırdı ki, adamın tara yazığı gəlirdi. Əyilib bükülür, başını tarın yanağına sürtür, sanki tar ilə sevişirdi. Barmaqlar gödək olduğu üçün «Yetim Segah»ın yanıqlı pərdələrini çeçələ barmağı ilə vururdu.

Cəbrayıllılar ixtisasca aqronom olan Zahidi çox sevirdi. Çünki onun tar ifası bir tamaşa idi, indiki terminlə şou idi. Insanların çoxu musiqidən daha artıq tamaşanı, şounu sevir.

Amma mən uşaqlıq illərində belə, Zahid müəllimi qısqanmırdım. Çünki atamda zərrə qədər də qısqınclıq yox idi və mənə elə gəlirdi ki, hətta yanıqlı «Yetim Segah»ı çalanda atam onu dinləmirdi, sadəcə seyr edirdi.

Böyük müğənni *Ağabala Abdullayev* Cəbrayıla toy məclisinə gələndə onu atam müşayiət edirdi, o özü belə istəyirdi. Çünki atam *Ağabala Abdullayev* ifa dahiliyi üçün maneə deyildi, onun şəffaf müşayiəti küləyin səsi, ağacın yarpaqlarının xışıltısı kimiydi.

Atamı heç vaxt evdə tar çalan görmədim. Sanki bizdən, anamdan utanırdı. Amma mən ömrüm boyu istəmişəm ki, atamı evimizdə dinləyim, qismət olmayıb.

Sanki o tarda onun ilk sevgisi, anama olan eşqi gizlənmişdi. Çalsaydı o sirr faş olardı…

Atam 45 yaşına qədər içkiyə yox deməyib. Mən ömrümdə bir damla içki içməmişəm. Babam dindar olub, o da içməyib. Mənim uşalarım içəcək, içməyəcək, bilmirəm. Amma bu gen yaddaşı (qan yaddaşı dəqiq ifadə deyil, çünki süd yaddaşını əhatə etmir) heç vaxt itmir. Məndə atamın sənətindən yadigar, sözə münasibət qalıb.

Az və çox olduğunu bilmirəm, amma mən «Segah»ı, «Cahargah»ı sözün içində anlayıb duyuram.

Sözün rəngini eşidirəm, sözün səsini görürəm. Və hər dəfə atamın mənə tələqin etdiyi əlifba ilə dünyanı, insanı oxuyuram.

Əslində, ata kompleksindən uzağam. Hər namazda ona və anama rəhmət duası oxumaq borcumdur. Ilk yazımdır ki, atamı bir az geniş xatırlayıram. Yuxuda da tez-tez görmürəm.

Atama sonsuz dərəcədə minnətdaram, onun Ruhu qarşısında borcluyam.

Amma elə hesab edirəm ki, hər kəs atası çevrəsində dünyanı dərk etsə, dünya donub qalar, anlamını itirər.

Atamdan mənə düşmən qalmayıb, məndən övladlarıma bir xeyli düşmən qalacaq...

Mən bunu yeni keyfiyyət, yeni dəyər hesab edirəm.

Əgər məndən də oğlanlarıma düşmən qalmayacaqsa, dünya bir qara qəpiyə dəyməzdi.

Oxucum məni bağışlasın, tardan başladım, atamdan danışdım. Əslində, elə tar da mənim atamdır.

Mənə ulu babamdan, keçmişimdən, torpağımdan, sonsuz arzularımdan, ümidlərdən danışan tarın doğma atamdan fərqi nədir ki?

Ataları məşhur yazıçı, alim, dövlət xadimi olan məşhur oğullar atalarını o qədər göylərə qaldırırlar ki, sanki Azərbaycan mədəniyyətinin bütün ağırlığı onların çiynində olub.

Şübhəsiz ki, xidməti inkar etmək olmaz.

Ataların xəyanət payını, satqınlıq mirasını gizlətmək də mümkün deyil. Bu, məşhur olmayan atalara da aiddir.

Ancaq Azərbaycan mədəniyyətində atamın hökumətdən bir döş nişanı almayan, lakin olduğu çevrədə, bölgədə «təmiz adam», «yaxşı kişi», «gözəl sənətkar» kimi tanınması mənim üçün ən böyük sərvətdir. Və buna da qətiyyətlə inanıram ki, Azərbaycan mədəniyyətində bir damla pay da atama düşür. Məşhur, adlı-sanlı olmasa belə…

Əgər hər şey məhv olub yer üzündə Azərbaycanı xatırladan tək tar qalsaydı, Azərbaycan mədəniyyətini təsəvvür və təsvir etmək olardı.

…Bir də mənə elə gəlir ki, yer üzündəki bütün tarları evimizin həyətindəki ağ tut ağacından hazırlayıblar.

Nə isə…

Allah atama qəni-qəni rəhmət eləsin, ruhu şad olsun!

Allah tarın yaratdıqlarını qorusun!

Amin!

P.S. Az qala, unutmuşdum. Əbülfəz bəy haqlı imiş – atam məndən çox böyük adam imiş. Komplekssiz.

P.P.S. Atamın tarı etibarlı əllərdədir, nəvəsi Altaydadır – qardaşım oğlunda.

RƏNGLƏRIN IMPRESSIYASI

(SƏTTAR BƏHLULZADƏ HAQQINDA SÖZ VƏ YA ƏZAB YANĞISI)

«Gəl təcrübə eylə mən zəifi»

(Füzuli)

«Mən öz xoşbəxtliyimə qarğış etməyi təcrübə etdim»

(F.Nitşe)

ÖN SÖZ ƏVƏZI

Bu yazını yazanda xatırladıqlarım:

… Van Qoqun gündəlikləri

… Viktor Hüqonun «Paris Notrdam kilsəsi» əsəri.

… Anarın «Bu, Səttar Bəhlulzadədir» sənədli filmi, xüsusilə, filmin sonluğu: şüşə arxasında öz çəkdiklərinə qarışıb itən və əbədiyyətə qovuşan Səttar Bəhlulzadə.

… Dostum, hüquqşünas-professor Ramiz Isgəndərovun Səttarın şəkillərindən ibarət şəxsi kolleksiyası.

…Dostum Ilham Rəhimlinin maraqlı və mübahisəli məqamlardan da xali olmayan «Səttar dünyası» kitabı (məsələn: III mərhələ (1970-1974)).

«…Səttarın Tanrılıq zirvəsi (bəlkə Tanrıya qovuşma həsrəti və ya rolu? – K.V.). Rəssamın fırçası rəng dünyasında baş alıb gedir. Sərbəst, adi, qeyri-adi, həyati, heyrətamiz, möcüzəli (düz sözə nə deyəsən? – K.V.)».

Mən Səttar Bəhlulzadəni qətiyyən sufi təriqəti ilə bağlamaq fikrində deyiləm (niyə? – K.V.). Hətta bu fikirdə olsam da, məqsədim çox gülünc görünər (Axı niyə? – K.V.). Ancaq onu demək istəyirəm ki, əqidəsinə tapınmaq üçün ilğımlı düzdə sufi necə baş alıb gedirsə, Səttarın dühası da beləcə nəhayətsizliklərə doğru qanadlanır (gözəldir!). Onun üçün rəng yaxısında, forma biçimində, elementlərin kompozisiyada yerləşdirilməsində heç bir qadağa yoxdur (Doğrudur – K.V.)…

… «Qobustan» sənət toplusunda 1960-1970-ci illərdə gedən dəyərli yazılar.

… Mən Anarın yerinə olsaydım, «Dədə Qorqud» filmi çəkilərkən Dədə Qorqudun rolunu Səttar Bəhlulzadənin oynamasına çalışardım.

* * *

…Və əlbəttə ki, Səttarı yetirən Əmircan torpağı, bu torpağın insanları, kədərli əhval-ruhiyyəsi…

Işıq və kölgə rəssam üçün çox mühümdür. Ilin və günün vaxtı (zaman!) işıq-kölgə nisbətini müəyyənləşdirmək üçün əsasdır.

Insan əhvali-ruhiyyəsi, psixologiyası rənglərin içində, işığın və zülmətin nisbəti içində görünür.

Səttar Bəhlulzadə zamandan sıyrılıb çıxıb zamanı görə bilmişlərdəndir. Zamanın rəngini də, onun işığını və kölgəsini də görə bilmək üçün zamandan dışarı çıxmaq şərtdir. Fəqət zamandan çıxıb zamandışı olmağı bacaran dünyada tək-təkdir.

Bu özəllik Səttarı başqa-başqa insanlardan və hətta rəssamlardan ayırır.

Səttar dünyanın gördüyü yuxunun rəssamıdır.

Suyun yuxusunun, adamın, buludun, günəşin, ulduzun yuxusunun.

Qara-ağ yuxuları, rəng-rəng yuxuları insanlara danışmaq missiyası Allah-təala tərəfindən Səttara verilmişdi.

Və o, bu yuxunu dünyanın özünə danışmaq üçün başqa sözə yox, rənglərə üz tutdu.

Gözün görmədiy,i sözün deyə bilmədiyi şeyləri axtarırdı Səttar. Bu «şey» dediyim rəng-dirmi, xəttdirmi, cizgidirmi, həcmdirmi, istidirmi, soyuqdurmu – bilmirəm.

…Nədənsə bayatı sözü mənim yadıma Səttarın gözlərini, barmaqlarını, özünü, çəkdiklərini xatırladır. Bayatı deyəndə 1953-cü il martın 5-də doğma Cəbrayılda xəstəxananın həyətində rəhmətlik Şamama xalanın bayatı oxuya-oxuya canı-dildən ağladığını xatırlayıram. Biz, 6-7 yaşlı uşaqlar da bu yanıqlı bayatıları dinləyə-dinləyə ağlaşırdıq.

Mən elə bilirdim ki, atamı tutacaqlar, anamı öldürəcəklər, evimizi dağıdacaqlar, bütün dünya dağılacaq.

Stalin yoldaşın əlində güclə saxladığı bu dünya külli-küf olacaq. Hər halda, üstünə qara yaylıq bağlanmış qırmızı bayraq dik boynunu məlul-məlul əymişdisə və Şamama xala kimi deyib-gülən gözəl insan belə yanıqlı-yanıqlı bayatı-ağı çağırırdısa, demək, dünyanın axırı gəlib çatmışdı.

O zaman mən özümü çox böyük hesab etsəm də, bu dünyadan heç cürə ayrılmaq istəmirdim. Lap Stalin yoldaş ölsə də…

Illər keçdi. Stalinə tökülən göz yaşlarının mənası olmadığı anlaşıldı. Bir cəllad üçün ağlayan qurbanların balaca nümayəndəsi kimi hər şeyi unutdum, ancaq Şamama xalanın kədərli bayatılarını unuda bilmədim.

…Gördüyüm rəngləri duymuram. Bu rənglər mənim üçün cazibəli, çəkici deyil.

Içində olduğum şərtlər, ölçülər istədiyimi mənə göstərə bilmir.

Mən başqa bir göz, başqa dünyalşarı görən bir göz təşnəsi idim.

Gördüklərimi gördüyüm kimi görmək istəmirdim.

Gördüklərimi heç kəsin görmədiyi kimi görmək və öz gördüklərimi dünyaya bəyan etmək istəyirdim.

…O, hər şeyi əl havasına bilirdi və əl havasına da çəkirdi.

Əl havası şüurun altı, dibi, ağlın olmadığı yersizlik, əşyasızlıq, havasızlıq deməkdir.

«Eşq adlı bir hissi, dəli bir fırtınanı, ölüm içində ölümsüzlüyü çox tez anladım».

Füzuliyə qapandım və oxuduqca oxudum. Hər yarpaqda, hər misrada eşqin bir ayrı rəngini gördüm, bir başqa səsini eşitdim.

Vücudumu unutdum. Vücudumun eşqə cavabsız olduğunu anladım. İçimdəki odun-atəşin insanlardakı normal ifadəsi məndə yox idi. Anladım, ağladım, Allaha üsyan etdim, dünyaya vida etmək istədim… Hamısı keçib getdi. Asi olduğum Allah bir gecə əlini başıma çəkdi, görmədiyim gözlərini gözümün içinə dikib: «Sənə eşqin özünü verdim. Səni eşqin özündən yaratdım. Mənim övladım olmadığı kimi, sənin də övladın, cinsin olmayacaq.

Səni bu dünyada hamının aldığı ləzzətdən məhrum etdim. Nə yeməkdən, nə içməkdən, nə cinsəllikdən zövz-ləzzət alacaqsan. Rəzildən, çirkindən, alçaqdan da zövq alacaqsan. Onların əməli, fiziki varlığı bir kölgədən başqa bir şey deyil. Görən, danışan, ağlayan, gülən insan möcüzənin özüdür.

Sənə hər şeyin xəyalını görmək fitrəti verdim.

Sənə yaratmaq xassəsi verdim.

Sənə görünən dünyadan o taydakı görünməyən dünyanı görmək, onu yaşamaq, yaşatmaq xoşbəxtliyi verdim» - dedi.

Dedi və göylərə çəkildi.

Məni tər basmışdı.

Od içində yanırdım.

Eşitdiyim sözlərin yanğısı canıma, qanıma hopmuşdu.

Görmədiyim gözlərin işıq, sehr, eşq dolu cazibəsi içində yaşadığım həyatın son, yaşayacağım həyatın ilk gününə girdim.

Başımı qaldırıb Aya baxdım. Hər gün gördüyüm Aydan tamamilə fərqli bir Ay gördüm. Ulduzlara baxdım. Heç vaxt görmədiyim başqa ulduzları gördüm.

Özümü və hər şeyi unutdum. Özümü ruhuma təslim etdim».

Dünyanın ən çirkin və ən gözəl adamı odur. O, yəni Səttar Bəhlulzadə.

O gözlər yalnız ilanda var.

O barmaqlar ancaq əncir ağacındadır.

O saçlar yalnız buluddadır.

O dodaqlar yalnız balıqdadır.

Sonsuzluq qədər uzun olan bu gözəlliyi çirkin görmək də mümkündür.

Gözəllik də, çirkinlik də insanın öz içindədir.

Əslində, sən dışarda kim dyil, öz içindəkini görürsən.

An-an, zaman-zaman dəyişən bu duyğu Səttarı həm gözəl, həm çirkin göstərirdi.

«Gözəl olan Allahdır» - deyir Tövrat. Süleyman peyğəmbərin nəğmələr nəğməsi Allaha söylənmiş gözəllik, eşq şeridir.

«Səni yaradan Tanrı nə qədər böyükdür» - deyir Həzrəti Peyğəmbərimiz. Tanrı özü də gözəllikdə dincəlir.

Sufilər ilahi eşqi nəhayətsizliyin sonu bilmişlər. Və bildiklərini də sevmişlər.

Eşqi, qara sevdanı xəstəlik bilənlər də az deyil.

Real dünyanın dilində bundan doğru daha nə ola bilər?

Dayanmışam. Səttarın «Günəş» şəklinə baxıram. Yalnız uşağın və dəlinin çəkəcəyi bu şəkil Günəşin özüdür. Əgər özü deyilsə, Günəşin özündən də gözəldir.

Bu şəkil Günəşin xəyalıdır, nisgilidir, tənhalığıdır.

Bu Günəş Günəşi bir dəfə də olsun görməyən korun uydurduğu bir Günəşdir.

Və bu Günəş Səttarın gözünün içindəki Günəşdir. Onu görüb, onu da çəkib.

Və daha sonralar anladım ki, Şamama xala o bayatını Stalin yoldaşın tuncdan tökülmüş qızıl rəngli büstünə baxa-baxa, qısqanclıq üzündən özünü yandırıb öldürən bir-iki ilin gəlini, həkim Ziba üçün oxuyurmuş…

…Orta məktəbdə ədəbiyyat müəllimim rəhmətlik Qabil Hacıyev «külli-Qarabağın abı-həyatı, nərmü-nazik bayatıdır, bayatı» - deyib ala gözlərini harasa uzaqlara, sonsuzluğa dikirdi. Ucaboylu, yaraşıqlı, savadlı ədəbiyyat müəllimim susub düşüncələrə qapılanda fikirləşirdim ki, yəqin Qarabağ da Şamama xalanın səsi kimi ağlamalı, kədərli məmləkətdir. Axı niyə kədərli, axı niyə ağlamalı? Çox-çox sonradan tarixi oxudum, yaxın tarixi yaşadım və Qarabağın nərmü-nazik, qüssəli bayatı olduğunu anlayıb dərk etdim.

…Bayatı xalq ədəbiyyatının oğuzların Bayat boyu ilə simvollaşan poetik janrıdır. Öz ölçübiçisi var. 4 misralıq söz möcüzəsi – bayatı insan kədəri, düşüncəsi, ağrısı, sevgisi, sevinci haqqındadır. Bayatılar təmənnasız, iddiasız sözün bədii-poetik yüksəkliyi, ucalığıdır.

Bayatı – bədii yalanın ən gerçək həqiqətidir. Bayatı Səttarın fırçasından süzülən rəng dünyasıdır.

Bu «Günəş» Səttarın içindəki qaranlığın, alatoranın həsrətidir.

Gözündə yaş bu dünyaya baxmayan və bu dünyanı görməyən, Səttarı anlamaz.

Ağacın Allaha necə ibadət etdiyini görməyən, Səttarı necə anlasın?

Dünyanın fiziki ölçülərini unudub ilahi ölçülərə tapınmayan, Səttarı anlamaz.

An içində əbədiyyəti, əbədiyyət içində anı görməyən, duymayan, Səttarı anlamaz.

Suda balığın üzdüyünü görməyən, göy üzündə qartalın süzdüyünü görməyən, Səttarı anlamaz.

Möcüzəyə inanmayan, Allahın varlığını dərk etməyən, Səttarı anlamaz.

Rəng duyğusunu kəlam olaraq Allahdan alan Səttar bu rənglərin əsrarını, mahiyyətini daşlardan, otlardan, ağaclardan aldı.

Rəng-rəng daş yığardı. Saatlarca ovcundakı daşlara baxıb daşlara deyil, Allahına şükr edərdi.

Yaşıl yarpağı yaşılın min bir çalarında, sarını, qırmızını, göyü… dillə deyilməyəcək, sayla sayılmayacaq rənglərdə görürdü.

Gözlə görmədiklərini xəyalının gözü ilə görürdü.

Səhərin sübhündə Göygölə, Ilan dağına, Şahdağa saatlarca baxardı.

Günəşin qürubu onun üçün on minlərlə rəng, çalar idi.

Füzulinin Sözdə axtardığını, tapdığını, Səttar rənglərdə, çalarlarda arayıb axtarırdı.

O, Kəpəzin göz yaşlarını, Qarabağ, Naxçıvan, Gəncə, Şirvan, Quba, Bakı… mənzərələrini çəkə-çəkə Allaha doğru gedirdi.

O, küll halında Allahın təbiətdəki təcəllisini, təcəssümünü çəkirdi.

O, cismi olmayan ilahi varlığın – mütləq ruhun şəkilsiz şəklini yaradırdı.

O, əncir ağacında, günəşdə, ayda, dağda, daşda, suda gördüyü ilahi ruhun mənzərələrini gözə, ürəyə, cana gətirirdi.

Səttar xalı naxışlarındakı, rənglərindəki sirri, gizlinci açırdı. Rəmzlərin rəmzini yaratdığı kimi, metafizik varlıqları ilahi varlığa çevirən əl-kimyanı açıb göstərirdi.

O ən mürəkkəbi sadəyə çevirir, ən sadəni ən mürəkkəbə, üzvini qeyri-üzviyə, qeyri-üzvünü üzvüyə, canlını cansıza, cansızı canlıya çevirirdi. Bu metamarfoza, dəyişmə həm inqilab, həm də təkamül idi. Fəqət Səttar Bəhlulzadə nə bu inqilabın, nə də bu təkamülün fərqində deyildi. O, çəkirdi, o yaradırdı.

O öz dünyasını yaradırdı. Onun dünyası həm bu dünyanın özü idi, həm də bu dünyanın özü deyildi. Bu dünya dünyanın özü qədər sonsuz və gözəl idi.

Bu dünya dünyanın özündən də gözəl idi.

Səttarın da dünyasında o dünya vardı, fani vardı, əbədi vardı…

O, dünyanın son dərvişi idi.

O, Dədə Qorqudun son şəkli idi.

O, səhradakı Məcnunun son təcəssümüydü.

Səttar özü də Allahın çəkdiyi şəkil idi.

Həzrəti Peyğəmbərə daş atanlar Səttar Bəhlulzadəyə də daş atdılar. Qısqanıb ona əl qaldıran dilənçilər onu dilənçi bildilər.

Səttar Bəhlulzadə dünyanın ən zəngin adamına sədəqə vermək istəyən bəndələrə qucaq açıb, onları bağrına basdı. Insanın insana sevgisini insanın Allaha sevgisinin bir parçası kimi görən başqa nə edə bilərdi ki?

Sevgilisini qısqanan aşiqin «Üzündə göz izi var, sənə kim baxdı, yarım?» fəryadı söz abidəsi kimi dilimizdə qalıb. «Dünya bir pəncərədir, hər gələn baxıb gedir» misraları dünyanın faniliyi və əbədiliyi haqqında tikilmiş söz məbədidir.

Bülbül üşüdü gəldi,

Dərdə tuşudu gəldi.

Bülbül gül havasına

Hələ qış idi gəldi…

Bu Kərkük bayatısı eşqin heç bir təbiət və cəmiyyət qanunlarına sığmadığı haqqındadır…

Bayatılar şerin şeri, sözün qaymağı, elat dünyasının yovşan ətirli sehridir.

Mənə elə gəlir ki, bayatını gücənib yazmaq olmaz. Bayatıda əllamələk etmək də olmaz. Olarsa, əl yeri bilinər, o, quraşdırılan bayatı olmaqdan çıxar. Səttarın rəng bayatıları boya möcüzəsidir. Boyasını boy çiçəyindən alan Səttar, dünyaya, insanlara yeni həyat, yeni enerji, yeni duyum, yeni görüm, yeni sevgi gətirdi. Dünyaya yeni sevgi gətirənlərə qalan olsun!

Ziyafətlərdən, dəbdəbələrdən qaça bildiyi qədər qaçdı.

O, cəmiyyətin fəlakətlərini təbiətin bağrında azdırmaq istədi. O, bədxahlığı, xəyanəti, ikiüzlülüyü, namərdliyi, dünyagirliyi, şöhrətpərəstliyi əncir ağacının dibində basdırmaq, nar çiçəyinin içində əritmək, Kəpəzin sularında yumaq istədi.

O, dünyanın ömrünü uzatdı.

Füzuli uzatdığı qədər.

Mirzə Cəlil, Üzeyir bəy dünyanı xilas etdiyi qədər, Səttar Bəhlulzadə də bu dünyaya ömür bağışladı.

Əməllərin ən ərdəmlisi, fəzilətlisi Allah üçün sevmək, Allahı sevməkdir.

Insan Allahın zərrəsidir.

Insan Kainatın zərrəsidir.

Insan proqramlaşdırılmış Kainatın özüdür.

Səttarın çəkdiyi rəsmlər Allahla onun arasında körpü idi.

O, bu körpüləri keçə-keçə Allaha doğru gedirdi.

O, Allaha susamışdı, o, Allaha can atırdı. Zərrənin küllə qovuşmaq eşqi onu rənglərin şairi etmişdi.

Rənglər dilə gəlmişdi. Səttar rəngləri söz-söz oxuyurdu.

Rənglərin naləsi Səttarın barmaqlarından daşıb ağ kətana axırdı. Haqqa qovuşan rənglər Səttarı da Haqqa aparırdı.

Səttar bu günahlı dünyanın günahsız uşağıydı.

O, günaha batmadı.

Şeytan Səttardan uzaq oldu.

O, bu günahlı dünyadan elə uşaq kimi də günahsız, suçsuz getdi.

Gəldi, baxdı, çəkdi, getdi.

Dünyanı bir az da günahsızlaşdırdı. Insanların dərdini azaltdı.

Işıq gətirdi. Qaranlıq apardı.

Bayatı gül-çiçək kimi açır, ağac kimi yarpaqlayır.

Və bayatı cəmiyyət, ədəbiyyat hadisəsindən daha çox təbiət hadisəsidir.

...Mən bayatı haqqında danışarkən dilimizin incilərini toplayan rəhmətliklər Salman Mümtazı, Asya xanım Məmmədovanı, Həsən Qasımovu, bayatılarımızı Türkiyədə (heyf ki, Türkiyədə gül kimi bayatıya mani deyirlər) yayınlayan Günay Karaağacı, Xəlil Açıqgözü şükranla yad edib minnətdarlıq duyğularımı ifadə etmək istəyirəm.

Bayatı qoşan xalq aşığı Sarı Aşıq (Aşıq Abdulla) həm bayatı toplayıb, həm də bayatı yaradıb.

Bayatı haqqında gözəl bir əsər yazan cavan alim Asif Hacılıya da təşəkkürümü bildirirəm.

Vaxtilə rus dilində maraqlı ədəbiyyat televerilişi hazırlayan Intiqam Qasımzadəni və Aleksandr Qriçi də salamlayıram.

...Sevdiyim bayatı? Bütün bayatıları sevirəm. Onları bir-birindən ayırmaq istəmirəm.

Bir də ki, hər şey ovqatdan, əhval-ruhiyyədən asılıdır.

Dərdlənəndə dərd bayatısı, sevinəndə sevinc, duyğulananda duyğu, düşünəndə düşüncə bayatısı gözəldir. Nə yaxşı ki, bayatı adlı mənəvi sərvətimiz var. Nə yaxşı ki, incə qız barmaqları ilə hörülmüş tikməni, toxunmuş ipək xalçanı xatırladan, dinəndə sənlə dillənən, susanda sənlə susan, sevəndə səninlə sevən, yaşayanda səninlə yaşayan, öləndə səninlə ölməyən bayatımız var, nərmü-nazik Azərbaycan bayatısı. Səttarın rəng bayatısı söz bayatısının əkiz qardaşıdır. Bir yerdə doğulublar, bir yerdə ölməyəcəklər.

…Səttarın rənglərinin içindəki işıq heç kəsdə olmayan qədərdir.

Işıqlı qırmızı, narıncı, sarı işıqlı yaşıl, işıq dolu mavi Səttarın şəkillərinə bir şeriyyət, həzinlik, aydınlıq gətirdi.

Bu rənglərin işıqı onun rənglərinin bakirəliyidir.

Səttar da rənglərə əbədilik, müqəddəslik gətirənlər oldu. O rənglərə ibadət, namus, əxlaq gətirdi.

Səttar da ayrılığı seçdi. Ayrılıq iztirabı onu Allahla əbədi birliyə çağırdı.

Səttar da həm uzaqda, həm də yaxında olmağa qane oldu.

O, yer üzündəki hər dürlü vüsaldan qaçdı, Allahın vüsalına can atdı. Eşqlə eşqə doğru ucaldı.

Və Allaha qovuşdu.

SON SÖZ ƏVƏZI

Mən Içərişəhərdə sabah əzanı oxunanda və gecənin tən yarısı bütün şəhər uyuyanda Səttar Bəhlulzadənin ruhunu hiss edirəm.

Muğamatın dibsiz, sahilsiz dünyasındayam. Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Ağabala Abdullayevin, Rübabə Muradovanın, Alim Qasımovun, Zahid Quluyevin dərdli-ələmli səsində Səttar kişini görürəm.

Və mənə elə gəlir ki, əncir ağacının müqəddəs budaqları, yarpaqları elə Səttar Bəhlulzadənin özüdür.

…Deyirlər ki, Səttar gecələr şəkil çəkəndə bir ovuc işıq pəncərədən Içərişəhərə düşüb gizli-gizli, məhrəm-məhrəm gəzirmiş. Səttar fırçanı saxlayıb uyuyanda o işıq da qeyb olurmuş.

Rəng-rəng daşlar Səttar kişinin əlindən tökülüb, dağılıb sahilə.

Şəhərlərin, kəndlərin də ruhu var.

Ağacların, çiçəklərin, otların da ruhu var.

Dağların, daşların, suların, səhraların da ruhu var.

Olayların, hadisələrin də.

Tarixin də.

Insan ruhu bu ruh dünyasının bir parçasıdır, bir zərrəsidir. Və şəhərlərin, kəndlərin, ağacların, çiçəklərin, otların, dağların, daşların, suların, səhraların, hadisələrin, tarixin ruhu insan Ruhunun təzahürü, təcəssümüdür.

Səttar Bəhlulzadənin Ruhu Axərbaycanın öz Ruhudur.

Əlbəttə ki, Ruh ölmür. Və onun sirrini kimsə bilmir…

TƏNHALIĞIN SONU

(dostum Natiq Səfər haqqında düşüncələrim)

Artıq bu dünyada Natiq yoxdur. Və bu yoxluq dünyanın vecinə də deyil. Elə insanların və dostların da – beş-üç nəfəri çıxmaq şərti ilə, özümü dünyadan – onun hay-küyündən, siyasətindən, toyundan-yasından, televizoru-radiosundan çoxdan uzağa çəkmiş Natiq özünün yoxluğuna hamını ölümündən xeyli əvvəl öyrətmişdi. Bu dünyanın hər üzünü bilən və çox üzünü görən müdrik insan üçün dünya çoxdan öz marağını, cazibəsini itirmişdi. Bu bəlkə də insan müdrikliyinin sonu, nəhayətidir: «Ey dünya! Nə sənin məndə bir şeyin qalıb, nə də mənim səndə. Sən sağ, mən salamat. Sən qaları, mən gedəri, ay gidi dünya…»

… Məni ilk dəfə Natiqlə Dilsuz dostumuz tanış etdi: «Bu kişi mənim xatirimə Oljasın «Az -Ya» əsərini ruscadan Azərbaycan türkcəsinə çevirib». Balaca, iti baxışlı sərt və acı oğlan: «Sən də onu hələ oxumamısan», - deyib sərtliyim yaraşmayan bir zarafatla əl verib mənimlə görüşdü: «Heç sizi universitetdə görməmişəm. Axı mən oranı qiyabi bitirdim».

Çəkinə-çəkinə dedim ki, mən də təzə bitirmişəm. Müəllimlərim məni universitetdə saxlayıb. Indi dərs deyirəm.

Məmnunluqla qarşıladı, yəqin ki, nəzakət xatirinə. Ancaq nə universitet, nə də mənim gənc müəllimliyim onun umurunda deyildi. Mədəni adam olduğu hər sözündən bəlli olan bu oğlan əyalətdə, evdə yetişmiş və Bakıya elə yetkin gəlmiş şəxsiyyətlərdən idi.

Yaxından tanışlıqdan və sonrakı dostluqdan sonra zənnimdə yanılmadığımı gördüm.

Naxçıvanda doğulmuş bu oğlanda Naxçıvan təbiətinin kəskin kontinentallığı həkk olunmuşdu. Istisi isti, soyuğu soyuq Naxçıvanın sərt iqlimi onun xarakterinin rəngi, siması idi.

Sonra mən bildim ki, mən Natiqlə tanış olanda bir xeyli sevinmişəm və sevinc Natiqə çox xoş gəlib. Bu cür tanışlıq mənim həyatımda cəmi iki dəfə olub. Bir mərhum dostum Vidadi Məmmədovla, bir də Natiqlə tanış olanda.

Rəhmətlik Vidadi qəhqəhə çəkib deyirdi ki, müəllim, sən mənimlə tanış olandan sonra bir həftə sevindiyimdən yata bilməmişəm…

Doğru sözə nə deyəsən, bir həftə yatmamağım hənək olsa da, sevindiyim, özü də çox sevindiyim bir gerçək idi.

Mənim təbiətimdə qeyri-adi olan hər şeyə, o cümlədən qeyri-adi insana qarşı sonsuz bir maraq var. Bu marağı çox gözəl bir qıza vurulmaqla müqayisə etmək olar. Əlbəttə, burada söhbət marağın şiddətindən, doğurduğu həyəcanın ölçüsündən gedir.

Vidadinin istedadı, Natiqin ağlı və maarifi məni həqiqətən heyran etmişdi.

Bu iki dostum öz münasibətləri kifayət qədər doğma və doğma olduğu qədər də mürəkkəb idi.

Bir dəfə onların hansı isə o birisi haqqında dedi ki, mən onu o qədər yaxşı tanıyıram ki, bir adamın başqa bir adamı bu qədər dərindən tanıması əxlaqsızlıqdır.

Kimin deməyindən asılı olmayaraq, onların münasibətləri üçün kifayət qədər dəqiq sözdür. Onlar ailəvi dost olsalar da, heç vaxt doğma ola bilmədilər. Məncə, bu, iki nadir yaradıcı insanın münasibətlərinin daxili mürəkkəbliyi ilə bağlı idi.

Onların hər ikisi çox istedadlı idi. Və heç biri də öz qabığına sığmırdı.

Vidadinin istedadı çox mütəhərrik, dinamik, çox hissi, duyğusal və sabun kimi sürüşkən, oynaq idi.

Natiqin istedadı elmə söykənirdi. Təbii elmə söykənirdi. Təbii elm və düşüncə, onun stixiyası idi. Geniş mütaliəsi və incə müşahidəsi onun elmin dünyagörüşünü cilalamış və ona təkrarsız biçim vermişdi.

Hər ikisi təmənnasız olan bu iki yaradıcı şəxsiyyəti birləşdirən ən mühüm amil onların təmənnasızlığı, dərvişxislətliyi idi.

Onları birləşdirən başqa bir təkrarsız özəllik özünə gülməyi bacarmaq, özünə qəhqəhə çəkmək istedadı idi.

Özündən obraz yaratmağın qatı düşməni bu iki şəxs iki dost iki ayrı-ayrı başlanğıcdan gəlib yolda rastlaşan yolçu kimiydi. Bu görüşün 1 saat, 10 ay, yaxud 15-20 çəkməsi önəmli deyil.

Natiq Vidadidən daha çox çap olunmuşdu. Folknerdən, Qrantdan etdiyi tərcümələr 70-ci illərin kumiri idi. Qeyri-rəsmi ədəbi dairələrdə Vidadi ilə hesablaşanlar çox olsa da, tərcümə, publisistika, elmi jurnalistika sahəsində Natiq əvəzsiz idi.

Rəhmətlik Tofiq Rüstəmovu çox sevirdi, ona zarafatla öz aralarında «uçitel» deyirdi. Tofiq müəllim də ona çox sayqı göstərirdi və bir çox böyük vəzifələrdə olanda belə Natiqlə gecələr Yasamal gölünün ətrafında gəzəndə özünü bəxtiyar sanardı. Görünür, Natiqin təbiəti, dünyagörüşü, təmənnasız xarakteri onun dincəlmə, rahatlıq sahəsi imiş.

Bəzən dostluğu xasiyyətlərin eyniliyi deyil, bir-birini tamamlamaq baxımından əksliyi, ziddliyi birləşdirir.

Həyat yoldaşı Zümrüd xanımla radioda işləyirdilər. Bu illər bəlkə də onların həyatının ən gözəl illəri idi.

Natiq balon plaşda qışı keçirir, gecə-gündüz yazır, tərcümə edir və xanımı Zümrüdlə birlikdə iki qız övladlarını – Sevinci və Günayı böyüdürdülər.

Natiq radioda Valid Sənani, Nailə Muradxanova, Rauf Ismayılov kimi avtoritetlərdən idi. savad da işıq kimi bir şeydir. Hətta sevməsən də bu işığın cazibəsi səni özünə çəkir.

Natiqin savadı kitabdangəlmə bilik, savad deyildi. Az qala rus dilini anadangəlmə bilən bu adam Azərbaycan türkcəsini də iliyinəcən bilirdi, duyurdu.

Məncə, bu istedad yeddi arxa dönəndən gələn nadir bir vergi idi. Bir az boyunu bəsləsən, bir az intizam, sərhəd qoysan və ağır zəhmətə qatlaşsa, bu istedad dahiliyə gedir.

Allah Natiqə (elə Vidadiyə də) dahi olmaq üçün ilkin şərtləri vermiş, ancaq onlar Allahın verdiklərini yerə salıb sındırmışdılar.

Bu istedadın ən təhlükəli məqamı şəxsiyyəti yerindən qoparmaq və insanı boğub batırmaqdır.

Yer üzündə əksər dahilərin və istedadların bəlası elə bu olub.

Şeytanın ağuşunda olan məqamlarda Natiqdən inciyənlər var idi. Onlar dostlar, doğmalar idi.

Indi Natiqin yoxluğunda anlayıram ki, Natiqdən incimək ən böyük haqsızlıq imiş.

Bu məqamı, görünür, hamımızdan çox anlayan dostumuz Azər Abdulla və yazıçı Afaq Məsud imiş.

Natiqin son dostu hüquqşünas filosof Şahbaz idi. Onun Natiqə etibarı və sevgisi kiçik qardaşın böyük qardaşa sevgisi, məhəbbəti idi.

Bir insanda şeytanla Allahın davasını mən rəhmətlik Aydın Məmmədovda, Vidadi Məmmədovda və Natiq Səfərdə görmüşəm.

Görünür, bu adamlarda şeytanı güclü çıxaran bir də sosial şərtlər olub. Dolanışıq və məişət çətinlikləri girdabı şeytanın meydanıdır. Allah verdiyini verib, şeytan da aldığını alıb.

Insanın bu ruh halı elə bir duman, elə bir zülmətdir ki, onu açıqlamaq, şərh etmək mümkün deyil. Genetik yaddaş, damarda axan qan, alın yazısı, tale, qismət… elə anlayışlardır ki, onları incəliyi ilə şərt etmək, açıqlamaq imkandan xaricdir. Bəlkə bu durumu onların özü yoza bilərdi. Ancaq dünyada elə şeylər var ki, o yazılmır. Heç şerlə də...

Natiqin daimi dostluğa səbri çatmırdı. Dostluq ritualı ona saxta görünürdü. Bəzən ayrı-ayrı adamlarla dostluğa özünü zorlasa da, sonda öz təbiətinə zidd getmirdi. Amma zərrə qədər heç kəsi aldatmazdı, hər kəsə layiq olduğundan çox sayqı bəslərdi.

Yaxın dostlara kəskin söz söyləməkdən də çəkinməzdi. Ikiüzlülüyə, riyakarlığa düşmən idi.

Natiq səmimi ailə dostu idi. Uşaqla uşaq, böyüklə-böyük idi. Müsahibi ilə eyniləşmək, ona mənən qovuşmaq onun xasiyyəti idi.

Xəstələndiyi vaxt onunla Yaltaya, qardaşı Abbasgilə getdik. Hərbçi-həkim qardaşı Natiqi şirin Naxçıvan ləhcəsində elə zarafatla qarşıladı ki, Natiq elə orda sağalmağa başladı və sonra Moskvaya gedib o zaman orda Kino Institutunun aspiranturasında oxuyan Ramiz Rövşənlə də tanış olub, büsbütün sağaldı…

Anadangəlmə antisovet olan Natiq Mirzə Cəlillə nəfəs alır, bütün dissident ədəbiyyatı oxuyurdu.

Natiq dissident düşüncənin Ilf-Petrovla başlayan kökünü gözəl bilir və açıq fikrini gizlətmirdi.

Natiqi sevməyənlərin ona baxışlarında bu ayrı cür düşünmə başlıca amil idi.

Natiqin antisovet, dissident təbiətini zaman özü yaratmışdı. Yaşadığı sovet acınacaqlığı, böyük vəzifələrdə çalışmış atası rəhmətlik Əli kişinin gecələr xəlvətcə Türkiyə radiolarını dinləməsi və onun Natiqdən həmişəlik gizlətdiyi gizli mənliyi, rəhmətlik qardaşının faciəli ölümü, 60-70 yaşlı atasının Natiqin dosdoğma anasına «Xanım bacı, mən səni daha sevmirəm. Allah səni xoşbəxt eləsin» deməsi və öz üz cizgilərində, hərəkətlərində əsilzadəliyini qoruyub saxlayan Xanım nənənin onun ardınca öz-özünə heyrətlə: «Qoydun ki, xoşbəxt olum, ay Əli» deməsi və neçə-neçə Naxçıvan, Bakı olayları və xüsusilə passionar Naxçıvan mühiti, tanış olduğu qeyri-rəsmi qəribə ziyalılar, oxuduğu kitablar, gördüyü və ilk gəncliyində dərk etdiyi həqiqətlər Natiqi antisovet etmişdi. Mənim bir cümləyə sığışdırmaq istədiyim bu ağır psixoloji prosesin uzun gecələri, uzun gündüzləri yayılmış mənzərəsi, əlbəttə ki, daha mürəkkəbdir və haradasa anlaşılması da çətindir.

Və sovet rejimi dağılıb çökəndən sonra Natiq və Natiq kimi fikir, xəyal dissidentləri çətin vəziyyətə düşdü. Başqa cür düşünmənin təməli yox olub getmişdi və anlaşılması zor olan yeni bir zaman başlamışdı… Natiq və Natiqkimilər üçün həyat öz mənasını itirmişdi.

Bu inkar bəlkə də zahiri sovet rejimi olan, əslində isə çox şeyin, ilahi ədalət adlanan mifin rəddi idi, ona qarşı daxili üsyan idi.

Biz bəzən bunu anlamırıq və ya anlamaq istəmirik ki, sovet adamı yalnız sovet rejimini sevən, sovetpərəst deyil, eyni zamanda antisovet də sovet adamıdır. Özündə təsir və əks-təsiri, inkar və təsdiqi birləşdirən acı gerçəklik budur.

Və Natiq nəyinsə sonu idi. Natiqin fiziki, bioloji, psixoloji varlığı, durumu, qeyri-adiliyi bəlkə də bu nəyinsə sonu olmaq idi. Bu son Natiqin ölümündən xeyli əvvəl gəlmişdi, Natiq bu sonu qarşılamağa bəlkə bir 10-12 il gecikmişdi, bəlkə də bu son özü 10-12 il hardasa yubanmışdı.

Təhrif olunmuş Zaman proyeksiyasında Natiq bir lakmus kağızı idi. Göydən düşən bir damla su o zamana bu lakmus kağızı vasitəsilə öz rəngini görsətmişdi. Öz rəngini görmək zaman üçün xoş deyilmiş.

Həmin Zamanın içindəkilər üçünsə də bu rəngin özünü görmək əsl faciə imiş.

Zamandan və zamanın içindəkilərdən dışlanmış, uzaqlaşdırılmış Natiq Səfər dünyanın ən yalqız adamı idi.

Bu yalqızlığa şeytandan da başqa heç kəs yaxın gələ bilməzdi.

Və şeytan da yaxın gəldi. Allahın nəzarət etmədiyi ərazinin hökmdarı şeytan idi.

Şeytan Natiqə qırmızı alov içində lənət gətirmişdi.

Allah şeytana lənət eləsin!

Dünyanın son dərvişlərindən birini o aldatdı.

Natiqin ədəbiyyat zövgü çox yüksək idi. Bunu qiymətləndirmək istəməyən bəzən adlı-sanlı «yazıçılar» öz cılız fikirləri ilə Natiqin balaca boyundan qat-qat kiçik və gülməli idilər.

Əbülfəz Elçibəyin Natiqə xüsusi dost hörməti var idi. Natiq Əbülfəz bəylə ləyaqətli mübahisə edən şəxsiyyət idi.

Natiq dəhşətli dərəcədə rəhmətlik anasına bənzəyirdi. Zadiqin qoca anası ilə Natiqin münasibətləri qələmə gəlməyən kədərli və gözəl bir münasibət idi.

Uzun qış gecələri, isti yay gecələri Natiqlə keçirdiyim günlər, onun evində yediyim halal çörək, öyrəndiyim hər şey hər an Natiqi, onun ailəsini, balalarını mənə xatırladır. Mən heç doğma qardaşımın, bacımın evində görmədiyim səmimiyyəti, insanlığı Natiqin ocağında görmüşəm.

Bunun üçün mən onun ruhu qarşısında baş əyirəm, Allahdan ona rəhmətlər diləyirəm.

Dua etməkdən başqa əlimizdən nə gəlir?

Nə edək?

Nə millətimizi, yurdumuzu, cəmiyyətimizi xilas edə bildik, nə dostlarımızı, qohum-əqrəbamızı.

Bu da bir taledir, qismətdir.

Bu gün onu sevənlərə, onu dəyərləndirənlərə, ailəsinə, qohumlarına hüznlə başsağlığı verir, göz yaşları içərisində onlara təskinlik verirəm.

Allah bilən məsləhətdir…

O, özünü inandırmışdı ki, uzun yaşamayacaq. Gələn hər ili təəccüblə qarşılayır, hər yeni ilə qüssəli-qüssəli gülümsəyirdi. O, yaşamaqdan yorulmuşdu. Onun beynində, ürəyində milyon yeri parçalayan hissələr, duyğular, fikirlər onu bezdirmiş, heydən salmışdı.

O, ölmək istəyirdi. Bunu demək nə qədər ağır olsa da, bu belə idi. Bu acı həqiqəti heç kəs, heç nə dəyişə bilməzdi.

…Və. Elə bil Natiq həmişə üşüyürdü. Ya bəlkə ona elə gəlirdi ki, üşüyür. Üşüyüb bürüşmək, özündə itmək, görünməmək və hamını görmək onun təbii halı idi.

Və bu soyuq ömrün sonu bitib tükənməyən istilik, alov imiş. Şeytan onu alova büküb sonsuzluğa aparmaq istədi. Amma bacarmadı.

Allah onun külünü şeytanın əlindən ehmalca alıb öz evinə apardı. O külə o evdə bir damla yaş düşdü. Kim bilir, bəlkə də o bir damla yaş Allahın öz yaşı idi. Bəlkə də yağış yağırdı.

Bəlkə də bir qız uşağının göz yaşlarının bir damlasını külək o evə gətirib çıxarımışdı.

Kim bilir?..

ÖLÜMLƏ ZARAFAT ELƏYƏN ADAM

(Vidadi Məmmədov haqqında söz)

Onu ölümündən iki gün əvvəl gördüyüm heç vaxt yadımdan çıxmaz. Ağır qəzadan sonra qəfil xəbəri eşidlib xəstəxanaya getmişdik. Mən lap yanında dayanmışdım. Əlindən tutdum. Qəflətən gözünü açdı, düz gözlərimin içinə baxdı və gülümsədi. Bu ağrının, məşəqqətin içində bu gülümsəmənin mənasını indi də doğru-dürüst dərk edə bilmirəm. Sonra da gözlərini əbədi olaraq yumdu. Iki gün sonra biz onu torpağa tapşırdıq.

Onun dodağındakı son təbəssüm həm həyatla vidalaşma, həm uşaqlarını tapşırma, həm də ilahi bir ünsiyyət idi. O, son dəfə keçdiyi qəribə həyat yoluna da gülümsəyirdi, öz ölümünə də. Çox yaxşı tanıdığım bu adamın ölümü çox şeylərin qurtardığını, nələrinsə başlandığını göstərən qəribə bir sərhəd idi. Bu sərhəddən o yana – bizim nəslin cavanlığı, xoşbəxtliyi, arzuları, ümidləri, kədərləri; o sərhəddən bu yana – yaşayanların həyatının sonrakı – yerdə qalanla var idi.

Insanı ana doğur. Bu, bir bioloji qanundur. Ancaq anadan sonra insanı şərait, mühit, zaman yenidən doğur, bəzən dəfələrlə doğur. Birini 15, birini 19, birini 29, birini də 45 yaşında. Biri aşiq kimi, biri alim kimi, biri avara kimi, biri də ictimai xadim kimi doğulur. Ömrünün ayrı-ayrı vaxtlarında doğulan bu adamların sayı o qədər çoxdur ki, öz anasından doğulub, öz anasının övladı kimi O dünyaya köçənlər barmaqla sayılacaq qədər azdır. Allahınmı, şeytanınmı seçdiyi bu adamlar ana bətnindən torpağın bətninə keçənlərdir. Mənim tanıdığım Vidadi Məmmədov bu cür seçilmişlərdən biri idi. Bu cür həyatı da ona Allah seçmişdi. Təpədən dırnağa istedad, fəhm olan bu insan dolu ürəyini ağ kağıza boşaltmadan köçdü. Yazmaq istədiklərini yaza bilmədi. Ürəyini dostlarına, məclislərə, yollara səpdi. Onun doğulduğu Bərdədə Tərtər çayı qurumuşdusa, Vidadinin yazmamağı da Allahın, təbiətin işi kimi bir şey idi. Əslində, yazmaq-yazmamaq məsələsi normal məntiqin o üzündə o qədər şərtidir ki, bəlkə də bu yazılmayanlar o qədər də təəssüf doğurmamalıdır. Tanıyıb bildiyi adamların olmasının ürəyində bir Vidadi hekayəsi var. Həyatı, zarafatı, atmacası, ciddiliyi, qeyri-ciddiliyi ilə bir yerdə bu hekayə dünyanın ən kədərli, ən ibrətli hekayələrindən biri idi. Məncə o, bir az ədəbiyyat çərçivəsindən kənarda bir insanıydı. Ona yalnız yazıçı kimi yanaşmaq yanlış olardı. Çünki istedad payı yalnız yaradıcı adamlara aid deyil. Ömründə bir kərə bədii əsər yazmayan, ümumən, sənət əsəri yaratmayan o qədər istedadlı adamlar var ki… Sözün bu mənasında sənətkar və sənətkar olmayanların bir qəribə taleyi də Vidadinin payına düşmüşdü. Onun hər təbəqədən hər cür dostu var idi: alimlər, yazıçılar, sürücülər, cavanlar, yaşlılar. Bu adamların hamısının bir Vidadisi var idi və bu adamların hamısı insan idi. Fərqinə varmadan oturub-durduğu bu adamlar Vidadinin yaşadığı həyatın saatları, günləri, ayları idi. Bu saatlar, günlər və aylar içərisində o öz həyatını yaşayırdı, öz çörəyini yeyirdi, öz sözünü deyirdi. Ürəyinin qanunlarına qarşı getmirdi. Dərdini, kədərini də bir təbəssümə, zarafata çevirib insanlara paylayırdı.

Yazıdan danışanda utanırdı. Yazanların da yerinə utanırdı, yazmayanların da. Yazmamağın yaza bilməmək bəhanəsi var, bəs gecə-gündüz cild-cild kitab yazmağın bəhanəsi nədir görəsin? Cəmi iki hekayəsi işıq üzür gördü: «Çarpaz oxucular» və «Vağzalda». Işsiz qaldığı vaxtlarda xeyli radio verilişləri yazdı. Onun ağzından çıxanları, birbaşa diqtə etdiyi məqalələr, hekayələr, hətta kitablar başqa adamların adına çıxdı. Bu barədə danışmağı sevməzdi. Sehrli, bədii sözü, sirli insan ürəyini, təbii, gerçək adamları sevirdi. Və heç bir şeyə

ədəbiyyat kimi yanaşmırdı. Ədəbiyyatın özünü isə ürəyinin ən mübhəm yerində bir sirr kimi qoruyub saxlayırdı.

Balaca, dar otağında bir «Çalıquşu» romanı vardı, bir də M.Qorkinin gündəlikləri olan cild. Hərdən götürüb bir cümlə oxuyurdu. Özünəməxsus qəribə bir hissiyatla sözləri, ifadələri açırdı. Sözlər onun üçün diri adam kimi idi. O, Sözdən danışanda canlı adamlar kimi onları danışdırır, lap sözün ürəyinə girirdi.

Bu həssas, duyğulu insanın yalnız bir silahı vardı; əslində, o, silahdan daha çox mağaraya, evə bənzəyirdi. Bu ev zarafat idi, özünəməxsus zarafatı ilə taleyini yaşayırdı. Şübhəsiz ki, onun gizlətdikləri daha çox idi. Danışıqlarından bu açıq-aydın bilinirdi. Iki-üç dəfə Universitetə daxil olmuşdu, heç birində də oxumamışdı. Heç ali təhsili-filanı da yox idi. Mərhum Niyazi haqqında gözəl bir yazı yazmışdı. Maestro «Ulduz» jurnalına gəlib sevincdən gözləri yaşarmış halda onun boynunu qucaqladı. Çıxanda dedi ki, «Dünyada hər nə işin olsa, mənə müraciət edə bilərsən. Eşitmişəm səni Universitetdən qovublar (oxumadığı üçün yox, dərsə getmədiyi üçün). Nazirlə danışıb səni bərpa etdirərəm». Başını aşağı dikib günahkar kimi dayanan Vidadi maestro gedəndən sonra yavaşca mənə dedi: «Nə təmiz adamdır. Elə bilir mənim dərdim oxumaq dərdidir».

Kasıb şairlərin, yazıçıların evinə əlidolu gedən, onların uşaqlarını sevindirən bu adam üçün dünyada ən qiymətli şey adamların sevindiyini görmək idi. Bir dəfə gülə-gülə dedi: «Arvada pul verirəm ki, get, bazarlıq elə, axşam gəlib görürəm ki, povidla ilə pryanikdən başqa bir şey almayıb. Bədbəxt qızı müharibədə o qədər aclıq görüb ki, bunlardan qiymətli şey tanımır».

Tez-tez o vaxt ağır şəraitdə yaşayan Abbas Abdullagilə gedərdi. Səhər tezdən bazarlıq edib Abbasgilə dəyəndən sonra işə gələrdi. Gülə-gülə deyirdi: «Abbas səhər-səhər saqqalını, saçını, yorğan-döşəyin içindən özünü tapana qədər bir saat keçdi».

Vidadinin gəlişi dostları üçün, hər bir ailə üçün qəribə bir zarafat, sevinc idi. Səhər saat 6-da əlində qarpız və ya gecə saat 12-də əlində bir banka pomidor tutması gülümsəyə-gülümsəyə içəri girirdisə, o evin ab-havası təmizlənir, gülüş, zarafat hər şeyi yuyub aparırdı. Dostlarını bəzəmək onun şakəri idi və hər bir kəsə özünə uyğun, öz təbiətinə müvafiq rəng verərdi. Bir dostuna «prezident» (o, doğrudan da sonra prezident oldu), başqa dostuna «general» (o vaxt kiçik leytenant olan dostumuz da indi generaldır), mənə «kiçik hədiyyələrin böyük ustası» deyirdi. Universitetdə ona dərs deyən yoxsul bir professoru tez-tez soruşurdu: «Sən Allah, o özünə ayaqqabı alıb, yoxsa yox?» Bir dəfə çayxanada gəlib ondan bir dostumuzu soruşdular. Gülə-gülə dedi ki, «Həyatın etibarsızlığı və bivəfalığı haqqında bir neçə kəlam dedim, ağlaya-ağlaya getdi».

Çox ciddi redaktəsi var idi. Çox sevdiyi şey yaxın bildiyi adamın yazısı ilə məzələnmək idi. Bu tipli zarafatı ən çox mərhum Aydın Məmmədovla eləyərdi. Ciddi ədəbiyyatı, yazını həyatı qədər sevirdi. Dilsuzun gözəl bir hekayəsi çap olunmuşdu («Yol» hekayəsi nəzərdə tutulur – red.). O hekayənin şərəfinə böyük bir qonaqlıq verdi. Sonralar mənə dedi ki, çox gözəl hekayədir, ancaq tale hekayəsidir; bu cür yazılar yazıçının həyatında təkrar olunmur, bir dəfə yazılır. Ramiz Rövşənin, Vaqif Bayatlı Odərin, Eldar Baxışın, Vaqif Bəhmənlinin, Vaqif Nəsibin, Seyran Səxavətin, Camal Yusifoğlunun, Tofiq Abdinin, Səyavuş Sərxanlının, Nüsrət Kəsəmənlinin şerlərini, rəhmətlik Şahmarın hekayələrini, rəhmətlik Aydın Məmmədovun, Kamal Abdullayevin, Nadir Cabbarovun tənqidi əsərlərini əlyazmasında oxuyub ilk söz deyən, sevinən o idi. Ələkbər Salahzadənin, Isa Ismayılzadənin, Əkrəm

Əylislinin, Mövlud Süleymanlının, Anarın, Isi Məlikzadənin yaradıcılığını öz yaradıcılığı kimi doğma bilir və çayxana müzakirələrində ən sərt və ən səmimi sözü də o deyirdi.

* * *

Vidadini çayxanasız, çayxananı isə Vidadisiz təsəvvür etmək qeyri-mümkündür. Çayxana tamam başqa bir aləm idi. Bizim nəslin ilk universiteti məhz çayxana olub. Ədəbi məktəbin, siyasi məktəbin ocağı qala dibində rəhmətlik Zülfünün çayxanası idi. Sonra metronun arxasında rəhmətlik Kəbleyinin, sonra Azneftə söykənən, rəhmətlik Gülmuradın çayxanası və nəhayət, Elmanın Bahar çayxanası…

Əbülfəz bəyin başına siyasətçilər yığışardı. KQB-nin qorxusundan o məclisə hər adam yaxın düşməzdi. Və həqiqətən Azərbaycanda Milli-azadlıq hərəkatının, dissident dünyagörüşünün ocağı olan çayxana ziyalıların görüş yeri, ünsiyyət yeri idi. Meydan hərəkatı bu zəmin üstündə yaranmışdı ki, bu ayrıca bir söhbətin mövzusudur.

Maraqsız ədəbiyyat dərslərindən min dəfə maraqlı olan çayxana ədəbi diskussiyalarının liderlərindən biri Vidadi idi.

Tarkovski və Folkner, Rilke və Svetayeva, Füzuli, Dədə Qorqud, Freyd, Nitsşe mübahisələri burada gedirdi. Bu mübahisələrin liderləri, sonralar ədəbi, elmi, ictimai fikrin aparıcı adamları oldular.

Vidadi çayxanaya ibtidai məktəb deyirdi. Başqa qatlara keçmək üçün gərək bu qatı keçə idin.

Bütün bu cür adamların, demək olar ki, sutka boyu birliyi, topluluğu içərisində Vidadi tənha adam idi. Tənhalıq onun içində, bağrında bir səssiz-səmirsiz mina kimi yaşayırdı. Onun qorxduğu yeganə şey tənha qalmaq idi. Və dəhşətli burası idi ki, o həmişə tənha idi.

Qəribə gözləri var idi. Bu gözlərə gözlə görünməyən, yalnız arabir sayrışan bir kədər çökmüşdü. Bəlkə də bu kədər ağzı, burnu, saçı kimi anadan gəlmə idi. Bu kədər onunla bir yerdə doğulmuşdu, onunla bir yerdə də dünyasını dəyişdi.

Rəhmətlik anası ilə də zarafatı var idi, hamıdan çox istədiyi bacısı ilə də, həyat yoldaşı ilə də, uşaqları ilə də. Bu zarafat onun ala bilmədiyi evin, maşının, pal-paltarın, rahatlığın əvəzi id.

Bir dəfə o, bəstəboylu dostumuz və mən ağacın dibində dayanıb söhbət edirdik. Bir də gördük ki, söykəndiyimiz ağacdan çoxlu qarışqa daraşıb bədənimizə. Vidadi dedi: «Qarışqalar yaman dilxor oldu». Dedim: «Niyə?» «Necə niyə, dostumuzun bədənini səyahətə çıxan qarışqalar dilxor oldu ki, belə də adam olar, gəzməyə çıxmağımızla başa çıxmağımız bir oldu, nə tez qurtardı bu adam». Güldük. Məni göstərib dedi: «Eybi yoxdur, müəllimi eninə gəzib yaxşıca dincələrlər».

Göy-göyərtini, ələlxüsus keşnişi çox sevərdi. Deyərdi ki, keşniş ev xanımı kimidir, cəfəri, kəvər kimi restoranlara ayaq açmayıb.

Əl yeri bilinən sənətin heç bir növünü sevməzdi.

Qarabağ qızlarını, onların abır-həyasını, haqdan gələn gözəlliyini ideallaşdırmışdı.

Iki dost sözləşib üz-üzə gələndə gözləri yaşarırdı: «Bəs bu dünyada kimə etibar eləyək» - deyərdi.

«Pullu adamlar bir az pul versəydi, bir az sayardıq, ürəyimiz sakitləşərdi» - deyib şaqqanaq çəkərdi.

Hərdən bir dosta baxıb yavaşca deyərdi: «Qardaş, niyə mənfi qəhrəmanlar kimi geyinmisən?».

Başqa bir dostumuza belə demişdi: «Qiyamət oğlansan. Amma tərbiyəndə bir az qüsur var. Uşaq vaxtı ən azı iki il yiyəsiz qalmısan».

Bir yazıçı dostumuzu rayonların birinə uzaq səfərdə o qədər doladı ki, gülməkdən az qala ürəyimiz gedirdi. Elə ki Qobustana çatdıq, kənd yazıçısı kimi məşhur olan dostumuza:

- Qardaş, mən ağacın, otun, torpağın gücü ilə danışırdım. Elə ki mazutlu qoyunlar, ağaclar, düz başladı, sənin dünyan başladı. Indi nə deyirsən de…

Ali məktəb dostumuz çay içəndə harasa getdi. Yerini soruşanda Vidadi dedi:

- Gözlədi, avqust (qəbul imtahanları ayı) gəlmədi. Özü getdi avqusta.

…Cavan bir yazıçını uzun mübahisə və mübarizələrdən sonra həbsdən azad etmişdilər. Hər gün Yazıçılar Ittifaqına gəlib mənasız-mənasız söhbətlərlə ədəb-ərkan gözləməyən o cavan haqqında dedi:

- Iti, pişiyi tünlük yerdə azdırarlar. Bu gözəl oğlanı da Anar müəllim gəlib Yazıçılar Ittifaqında azdırdı. O da ora-bura baxıb gördü ki, burada Yusif Səmədoğludan simpatik adam yoxdu. Yapışdı onun ətəyindən…

Rəhmətlik Isaq müəllim Vidadinin xətrini çox istəyirdi. Bir dəfə Vidadi dedi:

- Isaq müəllim, niyə siz hər şeyi – ədəbiyyatı, tarixi, təbabəti belə gözəl bilirsiniz?

Isam müəllim gülə-gülə:

- Vidadi müəllim, hər gün qəzet oxuyuram.

- Ay Isaq müəllim, gündə qəzet oxumağa qalsa, onda mənim hər gün domino oynadığım şofer Həsən akademik olardı. Gündə bir qom qəzet oxuyur.

Bir gün mart ayında «Ulduz» jurnalında yüngül məclis qurulmuşdu. Vidadidən bu məclisin səbəbini soruşduqda dedi:

- Heç, dostumuz Ədalət bu il ölməyib müvəffəqiyyətlə yaza çıxdı.

Həyatda qiymətləndirdiyi bir ülvi hiss onun üçün müqəddəs idi. Bu, insan sevgisi, eşqi id. Doğma yurdunda bilmədiyimiz, tanımadığımız bərdəli qız onun yolunu nə qədər gözləyib, ya gözləməyib, deyə bilmərəm. Onu deyə bilərəm ki, bu eşqin ağrısı axşamın dar vaxtının xəfif nisgili kimi onun ürəyində idi.

Həssas idi, çox həssas. Ondan bir dostumuzu soruşdum ki, necə adamdır, tanımırsan ki? Güldü. «Vallah, o qədər gözəl tanıyıram ki, adamın adamı bu qədər dərindən tanıması, bəlkə də əxlaqsızlıqdır».

Istedadlı-istedadsız, köklü-köksüz adamı göydə tanıyırdı. Adam tanımaqda misli-bərabəri yox idi.

Sevmədiyi adamla qətiyyən zarafat eləməzdi. Və elə adam dayanan yerdə dayanmazdı. Dəfələrlə adlı-sanlı yazıçıların, alimlərin yanından dinməzcə ayrılıb sürücülərin otağına çəkilər, saatlarla onlarla domino oynayar, zarafatlaşar, üns tutardı.

Yazıçı Sabir Əhmədovun şəxsiyyətinə çox dərin hörmət edirdi. Dəfələrdə demişdi: «Mən Sabir müəllimlə 5-6 il bir yerdə işlədim. Bir dəfə də o evi ilə, xanımı ilə adam arasında telefonla danışmadı. Lazım olanda heç kəs olmadığı otaqdan evi ilə danışırdı».

Insanlarda mənəvi incəliyin, hissiyatın vurğunu idi Vidadi. Kobudluq, ürəyə, qəlbə toxunmaq onun üçün əfvedilməz yara idi. Bu yaraya görə o neçə-neçə şöhrət pilləsini itələyib birdəfəlik getmişdi. Bu da onun öz taleyi idi.

Ədəbiyyatda assosiativ düşüncəyə üstünlük verirdi. Bu assosiativlik onun öz təfəkküründə də mayası idi. Insan xasiyyəti, hərəkəti və ümumən həyatın fasiləsizliyi içində bir an və bu anın poetik mənzərəsi onun düşüncə tərzini hamıdan ayırırdı. Bəlkə də şahmatdan futbola, dominodan nərdə qədər hər cür oyuna qızğın marağı onun təbiətindəki dünya modelinə qızğın maraqdan, insanı və həyatı mücərrədləşdirən şərtlərdən irəli gəlirdi. Bir dəfə dostlarımızdan biri ona maraqlı fəlsəfi bir yazı oxudu. Bəyəndi və özünəməxsus yumorla dedi: «Müəllim, çox fəlsəfi yazmısan. Ancaq sənin fəlsəfən kənd filosofluğuna bənzəyir. Məktəb keçmədiyin üçün bir kənd filosofundan başqa bir şey gözləmək olmaz səndən. Amma bu sadədil filosofluğun da öz ləzzəti var».

Həyatda həssas adamlar tez sınırlar. Yüksək mənsəbə çatmış dostun etinasızlığı, doğma adamın kobudluğu həssas adamı ömürlük küsdürə bilər. Vidadi də kimdənsə ömürlük küsmüş adam idi. Bəlkə də küsdüyü real bir adam deyildi, öz taleyi, öz bəxti idi. Amma bu küskünlük insanlara ağırlıq, hüzn deyil, əksinə, qəribə bir işıq, yüngüllük, rahatlıq gətirirdi. O, dərdini heç kəslə bölmürdü. Bölünməyən dərd yalnız onun özü üçün idi. Bu məqamda o heç kəsə güzəştə getmirdi. O, bəstəkar olsaydı, bəlkə də dünyanın çox böyük improvizatoru olardı. Sözün improvizasiyası onda o qədər çevik və təbii idi ki, heyran qalmaya bilmirdi.

Evə həmişə gec gəldiyi üçün bir dəfə xanımı onu danlayır:

- O qədər gec gəlirsən ki, qonşuların üzünə baxa bilmirəm. Gecələr harada olursan?

- Ay xanım, sən ki mənim vəziyyətimi hamıdan yaxşı bilirsən, niyə nigaran qalırsan? Qonşular deyirsə, qoy desinlər, başımızın ucalığıdır.

Özü-özü ilə zarafat etməkdə, özünə şəbədə qoşmaqda Vidadini yalnız yazıçı Isi Məlikzadə ilə müqayisə etmək olar. Onun zövqü ilə, qiyməti ilə həmişə hesablaşırdılar. Əslində, Yazıçılar Ittifaqının altqurumuna, qeyri-rəsmi fəaliyətinə Vidadi rəhbərlik edirdi. Bu rəhbərliyə qısqanan rəsmi adamların bir çoxunun onu görməyə gözü yox idi. Bu rəsmi ədəbiyyat çinovnikləri Yazıçılar Ittifaqının Stalin modelini qoruyan «mötəbər» adamlar idi. Mahiyyət və əqidəcə mürtəce olan bu adamların taleyi indii gözümüzün qabağındadır. Əfsuslar olsun ki, Vidadi bu günləri görmədi.

Hər hansı bir tənqidçi ilə beş dəqiqəlik söhbət kifayət idi ki, o, müəllifi çapdan asılı olmayaraq, razı salsın. Hər kəsin səviyyəsini, dilini gözəl bilirdi. Birinə acımış xəmir, birinə bilmədiyi şeylərin mütəxəssisi, başqasına lal, digərinə Allahla heç bir əlaqəsi olmayan məxluq deyirdi. Bizim keçdiyimiz məktəbi o bizdən 7-8 il əvvəl mərhum yaşıdı VIDADI PAŞAYEVLƏ çoxdan keçmişdi.

Dişsiz şair dostu Sabir Sadiqə «ağzına ikiyüzlük lampa çəkdirəcək, işıqlansın» - deyəndə, gözünün yaxşı görməyi ilə lovğalanan dostumuza «səndən yaxşı mehtər çıxar, çünki atı-atdan yaxşı seçirsən» - deyəndə, tərcüməçi dostumuz Natiq Səfər «Qabaqdan gələn bayramınız mübarək» deyərkən, «Çox sağ ol, Natiq müəllim, Miladdan bəri bu bayramın arxadan

deyil, qabaqdan gəldiyini sən müəyyənləşdirdin» deyəndə, evində qonaq ola-ola «Sovetski sport» qəzetini acgözlüklə oxuyub qonağı unudanda – ondan heç kəs incimədi. DÜNYAYA DÜNYANIN DƏRDINI AZALTMAQ ÜÇÜN GƏLƏN təmənnasız adam-dan kim inciyər ki…

Istedad güclü olduğu qədər də gücsüzdür. Güc müəyyən zaman-məkan ölçüsündə hərəkət-də, sürətdə, ölçülərin nisbiləşməsindədir. Gücsüzlük istedadın dünyadan küsməsidir, zərif-liyi udan boz havanın olmasıdır.

Bu mənada Vidadi güclü olduğu qədər də gücsüz, çarəsiz idi. Nə qədər ağır olsa da, belə idi. Və bu qəzavü-qədəri dəyişməyə bizim heç birimizin gücü çatmazdı.

…Qəbrinin üstündə mərmərdə şəklin var. Gülümsəyirsən. Həyata, ölümə gülümsəyirsən. Həyatdan köçdüyün bu üç il ərzində üzündən təbəssüm əskilməyib.

Bəlkə hər gün bizimləsən. Bəlkə hər gün sözün, özün yada düşürsən, ona görə.

Bəlkə biz sənə yaxınlaşırıq ondandır.

Hər nədən olursa-olsun, şəxsən mən səni bu dünyadan köçmüş bilmirəm. Özünün dediyin kimi, cənnətlə cəhənnəm sərhədində dayanıb hər ikisinə gəlmiş və gələcək dostlarını göz-ləyirsən.

O qədər deyilmiş sözlərin qalıb ki...

Ölümə gülümsəyən, ölümlə də zarafat eləyən adam. Sənin kimi adamlar olmasaydı, bu dünya bir qara qəpiyə dəyməzdi, Vidadi!..

TALE MƏNƏ YAR OLMASA

(Vidadi Məmmədovun ölümünə ağı)

Bu sözləri sənin yoxluğuna yazıram, qardaşım. Doğma Bərdəndən gəlib oraya heç vaxt geri dönmədin. Bir dəfə Bərdədən yolüstü keçəndə çox böyük kədərlə söylədin ki, Allah mənə elə tale qismət elədi ki, vətənimə qayıda bilmədim, mən bu torpağa ayrı cür qayıtmalıydım… Qəflətən, üsulluca, heç kəsi incitmədən, umu-küsü etmədən getdin. Sənin təmənnasız, iddiasız həyatın qeyri-adi istedadından heç bir bəhrə görmədi. Bu, taledir, qardaş. Almadığın ev, almadığın mükafatlar, yazmadığın kitablar üçün özünü günahkar bilirdin.

Hələ tələbə vaxtları qələmə aldığın «Vağzalda», «Çarpaz bucaqlar» adlı hekayələrin çoxlarının yazılmayan əsərlərinin səbəbkarıdır. Dostlarının çoxu yazanda səni gözlərinin qabağına gətirib qələmə əl atıb; ya yazıb, ya da yazmayıb. Sənin sözün çoxları üçün meyar olub. Çünki sən ədəbiyyatda o qədər vicdanlı idin ki, özünə də, dostlarına da güzəştə getmirdin. Və qəribə burası idi ki, sən nə həlledici naşir idin, nə də ixtisar sahibi. Sən sadəcə qələmə namus kimi baxan, Azərbaycan sözünü qeyrət hesab eləyən ədəbiyyat mücahidi idin. Təbiətin sənə verdiyi qeyri-adi hissiyyat, misilsiz istedad, bitməz-tükənməz yumor, heç kimin incimədiyi zarafatlar dostlar üçün idi.

Yazılarını redaktə etdiyin, dönə-dönə düzəltdiyin adlı-sanlı yazıçılarla, alimlərlə utana-utana danışırdın. Sanki bu yazıları cilalamaq, təshih etmək, bəzən adam dilinə çevirmək də sənin günahın idi. Hamıdan aşağı dayanıb hamıdan çox görmək, hamıdan çox duymaq, hamıdan çox yanmaq sənin qismətin idi. Sənin böyük istedadında və böyük ürəyində hər şeyə, hamıya yer vardı. Təbiət səni belə yaratmışdı.

Bizim üçün folklora çevrilən söhbətlərində, atmacalarında, zarafatlarında o qədər böyük duyğu, sənət həssaslığı və insanlıq var idi ki, tanıyan hər kəs səni sevməli, heç vaxt unutmamalı idi. Heyrətlənən, qəzəblənən dostlarına, nə üçün yazmırsan deyən hər kimsəyə «Yazacam, vallah, yazacam» deyirdin. Ancaq yazmırdın. Işığın bir özün düşmürdü. Bir dəfə dedin ki, mən Rübabənin səsinin gücündə yazmalıyam. Quruyan Tərtərin kədəri dolu yazmalıyam… Indi anlayıram ki, öz dünyasının havası ilə yaşayan dostumuzun məntiqini anlamaq üçün o qədər həssaslıq, o qədər daxili mükəmməllik heç birimizdə yox idi. Həyatı və insanı gözə görünən, ələ toxunan reallıqla qiymətləndirmək olmaz. Insanlığın, sənətə bağlılığın, istedad nurunun ölçüsü nədir, heç kəs bilmir. Qardaşım, sən yaşıdların, dostların üçün məhz belə bir ölçü idin. Qeyri-adi fəhmini, duyğunu, istedadını adiliyinin gündəlik qayğılarının içində elə gizlədirdin ki, elə bil belə doğulduğun üçün də günahkarsan. Söz anlayan, dərd bilən yanında nə qədər güclü, gözəl idinsə, anlamaz yanında bir o qədər zəif, aciz idin… Qayğılarını, acılarını xəstə ürəyində elə gizləyib saxlayırdın ki, mən bu gücdə adam tanımıram, ağac, dağ-daş tanıyıram. Ürəyinə toxunan olanda gözlərin dolurdu. Həmişə, hər yerdə özünü təqsirkar bilirdin. Biz o müdrikliyi dərk etmək səviyyəsinə çatmamışıq, qardaş. Sən dünyaya tez gəlmişdin, tez də getdin.

Indi başqa-başqa dünyalarda yaşayırıq. Sənin duzlu zarafatlarında «O dünya» obrazı da var idi. Həmin «O dünya» da sənin özün kimi təbii, saf zarafatlı və isti idi. Indi sən Ordasan. Ruhun şad olsun!

Qoşa Balan bizim balamızdı. Yazdıqların da, yazmadıqların da, danışdıqların da bizimdir. Sənin yoxluğunla bizim varlığımızı birləşdirən saata kimi, qardaş!

TAHIRSIZ MOSKVA NƏ TAHIR HAQQINDA DÜŞÜNCƏLƏRIM

Bu da Moskva. Ucsuz-bucaqsız, nəhəng şəhər. Əski imperiyanın başkəndi, qanlı-şanlı metropolis… Elə yetişcək və ilk xidmət məmuru rus qadınını görcək 12 ilin ayrılığından sonrakı Moskvanın məlum sifətini xatırladım. Dəyişməyən Moskva dəyişən Moskvanın içində əriyib getsə də, yenə də nəhəngliyi qoruyub saxlamışdı. Elə dəyərlər və əlamətlər var ki, zaman onu dəyişmir və ya çox az dəyihir.

Bizim ideya düşmənimiz köhnə Moskva ilə yeni Moskvanın elə bir fərqi yox idi. Farslar demiş «Xər həmin xərəsi, çuli digərəst». «Şeremetyevdən şəhərə 50 dollardır» – deyən sürücü bu 50 dollardan köhnə 50 qəpik kimi danışırdı. Yenə Moskvanın dünyanın ən bahalı şəhərlərindən biri olduğunu anlayıb Allaha dua elədim ki, köhnə dostum şəhərdə olsun, yoxsa əməlli-başlı biabırçılıq olacaq.

Qəribədir, ilk dəfə 1972-ci ildə getdiyim Moskva imperiyanın paytaxtı və bizim fərdi azadlığımızın, özbaşınalığımızın şəhəri idi. Bu şəhərdə etdiyimiz keyflər, keçirdiyimiz mənalı-mənasız günlər ömrümüzə-günümüzə yazılsın deyə millətçi dostların məni yanlış anlamasınlar. Fəsad, zülm, qan paytaxtı həm də uyuşdurucu bir keyf, mədəniyyət və nisbi azadlıq paytxatı idisə, bunun fəlsəfəsinə getmədən olanları olduğu kimi yazmaq, bizim borcumuzdur. Bu borc kiminsə qarşısında yox, öz vicdanımız qarşısındadır.

Böyük teatrın, Lenin Kitabxanasının, xarici kitabxananın, Mərkəzi Ədəbiyyatlar Evinin, Jurnalistlər Evinin, MDU-nun, Akademiyanın Dilçilik Institutunun, Kino-film və tamaşa salonlarının, Ədəbiyyat Institutunun və «qadyuşni» adlanan Yazıçılar Birliyinin mənə verdiyi dəyərləri hesablayıb qurtara bilmərəm.

Yox, bu bir nostalji, keçib gedən ömür ağrısı deyil, gerçəklikdir.

Bizim nəslin Moskvadan aldıqlarını itirmək ən azı böyük nankorluq və naşükürlük olardı.

Mədəniyyət qəribə bir şeydir. Mahiyyətcə siyasətdən fərqli olaraq birgəliyə, insani olan hər şeyə canatma, görüb-götürmə, qaynayıb-qarışma mədəniyyətin bünövrəsindədir. Ordu, silah, zor ilə qalib gəlib mədəniyyətə təslim olan örnəklər tarixdə onlarcadır.

Türklərdən qan-can alıb yeni irq olan slavyanlar dövlət və ordu sistemini, mətbəx-məişət, sənət-elm bünövrəsini onlardan aldılar.

Rus dili tarix boyunca türk dilinin təsiri altında formalaşdı və dünyanın böyük dili kimi yetişdi. Bütün bunlar tarixdir və tarixi kimsə inkar edə bilməz.

Rusların mitinqində «atan ilə atamı deyincə özün ilə özümü de» ata sözündən yola çıxaraq məsələyə yenidən yanaşsaq, Azərbaycan siyasi baxımdan, iqtisadi baxımdan müstəqil olmadı, Qarabağ yarası onu üzüb məhv etməli, şikəst yaşamağa məcbur etməlidir.

Qərbyönümlü Azərbaycanı içindən çökdürmək Moskvanın başlıca qayğısıdır. Transqafqazın güneyi yağlı bir tikə kimi Amerika ilə Rusiya arasında qalmaqdadır.

Putin sistemi ilə yenidən özünü və imperiya maraqlarını bərpa etmək istəyən Rusiya vaxtilə Soljenitsinin yazdığı proqramdan çıxınca uduzur. Yazısı siyasətçi deyil, ancaq yazıçı fəhminin və ilahi verginin dediyini görməzdən gəlmək faciələrə aparır.

Bahalıq içində alışıb yanan və yanma halına öyrəşən Rusiya içində ayrı bir Moskva milləti yarandığı açıqca hiss olunur. Sovet zamanından qalma başqa millətləri nifrət, yuxarıdanbaxma, hər şeyi alıb-satma, al-ver, korrupsiya, fırıldaq – normal Moskva məntiqidir. Oraya

yığışan gürcü də, azərbaycanlı da, özbək də, ukraynalı da eyni mitinqin içindədir. Böyük təbii sərvət ölkəsi Rusiyanın qan damarı Moskvada atır.

Və indiki Moskvanın gecələri gündüzlərindən xeyli uzundur. Moskvanın gecə əhalisi Moskvanın simasıdır. Arbat boyunca düzülmüş və bütün Moskvanı ağuşuna almış kazinolar, gecə klubları yenə Moskvanın köhnə Paris, Nyu-York həyatını yenidən yaşadığını göstərir. Zahiri qaydasızlığı, azadlığı və sərbəstliyi içində daxili qaydaları, sərt normaları olan Paris, Nyu-Yorkdan fərqli olaraq Moskva hər şeyi öz çılpaqlığı ilə yaşayır.

Burada qaydaları mafiya və qismən polis müəyyən edir.

Moskva artıq siyasi şəhər deyil – bu hər şeydən açıq-aydın bilinir.

Moskvada müxtəlif nəsillər və sosial təbəqələr (onlara sinif demək olmaz, ümumən bu sinif terminini birdəfəlik rədd eləmək lazımdır) ayrı-ayrı həyatı yaşayan heyvanlar kimidir. Iyerarxiya hər heyvanın mənliyini, özyaşamını məhv etmədiyi kimi, Moskvada təbəqələr də öz məntiqi, öz imkanları ilə yaşayır. Bahalı kirayələr, gəlib-gedənlərin biznes qalıqları orta və aşağı tərbiyə üçün yetərlidir. Alkaqol alışqanlığı əsla azalmayıb, bir az formasını, bir az da məzmununu dəyişib.

Fahişəlik bir az daha hörmətli olub. Qədim tarixi və ənənələri olan rus fahişəliyi indi bu peşəni öyrənən etnoslardan daha abırlı və özünə hörmət edirlər.

Minlərcə didərgin, qaçqın, aş və iş dalınca gələnlərin qatı qarışığında bir Moskva oliqarxiyası hökmranlıq edir.

Moskva mağazalarında rus malı görməsən təəccüb etmə. Qərb, Çin, Şərqi Avropa malları Moskvanı bürüyüb. Moskva bazarı beynəlxalq alış-veriş meydanıdır.

Qızıl meydanda Leninin mavzoleyi önündəki əsgəri förm yoxdur, tarixi qarışıb itib.

O meydandakı saysız-hesabsız qarğalar da yoxa çıxıb. Elə bir 10-15 il öncə bu imperiyanı yıxmağa gələn qarğalar işlərini bitirib başqa məmləkətə yollanıblar.

Və Moskva yenə kədərlidir. Bu kədər Puşkinin heykəlinin dibində, Lenin kitabxanasının oxu salonlarında və sadə Moskvalı qadının gözlərindədir.

Bu kədəri gizlədən və məhv edən o qədər çox şey var ki, onları sayıb qurtarmaq olmaz.

Moskva yenə oxuyur! Metroda, yolda, hər yerdə.

Yenə Moskva növbəsiz Moskvadır.

MDU-nun polis həlqəsi də boşalıb və dünyada əsas polisli universiteti kimi tanınan qədim elm və təhsil mərkəzi sanki azadlığa qovuşub.

Bütün bu həngamənin içində Moskva rus demokratiyasının mərkəzçilik və postsovet məkanının ən demokratik məkanlarından biridir.

Bu bəlkə paradoksdur, ancaq belədir.

Moskvanın yeganə təhlükəsi terrordur. Eynən Nyu-York, Paris, London və Madrid kimi Fitili Çeçenistanda, Iraqda, Əfqanıstanda yandırılan bombaların indi Moskvada partlaması təbiidir. Amma bu, təbii olmaq demək deyil.

Terror belədir. Və bu bəlanı əkənlər özü biçir.

Hər hansı terror aktının içində bir özbaşınalıq, haqsızlıq, basqı, qan və qoxu var.

Bu borcu sadə moskvalı fəhlə və ya məktəbli qız uşağı ödəyirsə, nə yazıq insanlığa, nə yazıq insana.

Terror isterikası hər yerdə hiss olunur. Buna müsəlman, çeçen… adı qoyanlar səhv edir. Terrorun da mafiya kimi milləti və dini yoxdur.

Ancaq bu xəmirin çox su aparacağı da bəllidir.

Öz millətini zorlayıb istədiyini edən diktatkorlardan intiqam almayınca millət millət ola bilmir.

Bu həm sosioloji, həm də bioloji qanundur.

Rusiya bu prosesi yaşayan və uğurlu sona gedən dövlətdir. Metamorfoza – çevrilmə prosesinin nə qədər sürəcəyini Allah bilir.

Nəhəng canlıların ölümü təbiətin dəngəsini bir müddət pozur və cəmiyyətdəki böyük zəlzələlər cəmiyyətin ahəngini uzun müddət məhv edir.

Moskva bu ağır prosesi yaşayan əski imperiya başkəndi və yeni dövlətin baş şəhəridir. Sosial, siyasi, iqtisadi kataklizmləri yaşayan Moskvaya yenə hər gün yağış yağır, bürkülər olur.

Moskva yayı adamı Moskva altındakı meşəliklərə çağırır.

Meşəlik dedim, yadıma Peredelkina, oradakı yazıçıların yaradıcılıq evi düşdü.

Azərbaycan yazıçısının da bir sığınacağı elə bu Peredelkina idi - rahatlığı, səliqəsi, ucuzluğu, yazı-pozu üçün ideal şəraiti ilə.

Bu bir nostalji deyil, rahatlıq yanğısıdır.

Və ən dəhşətlisi də budur ki, Peredelkina da, Moskva da indi Tahirsizdir. Tahir Aslan – orta yaşlarında qəzada həlak olmuş Azərbaycan şairi, gözəl insan, təkrarsız dost və qəribə oğlan.

Həyatı boyu hər şeyi macəra üslubunda edən və bu macəra romanının baş qəhrəmanının həyatını yaşayan Tahir Aslan Qubanına, Çiçi kəndində müəllim ailəsində doğulub, Bakıda oxuyub, sonra Moskvada ədəbiyyat institutunda təhsilini davam etdirib və mənəvi taleyini Azərbaycanla, fiziki taleyini Moskva ilə bağlayıb.

Qəribərdir ki, Moskvada oxuyub təhsil alanlar öz daxili azadlıqları üçün bu şəhərə borclu sayırlar və bu şəhərdə özlərini daha sərbəst, daha azad hiss edirlər. Görünür bu imperiya paytaxtı ilə müstəmləkə ölkənin paytaxtı arasındakı fərq qədər böyük məsələdir. Rəhmətlik Aydın Məmmədov Moskvada sanki başqa bir adam olurdu. O, sanki Moskvada ayaqla dolaşmır, uçurdu. Dostum Cəlil Nağıyevdə, müəllimim Süleyman Əliyarlıda da eyni harmanoiyanı müşahidə etmişəm.

Mən Moskvada ən çox qalanda 3-4 ay qalmışam və bu hissi özümdə də duymuşam.

… Ey gidi Moskva, sən Tahirsiz də olarmışsan.

12 il ayrılıqdan sonra Moskvaya qədəm qoyduğum ilk andan bivəfa dünyanın bivəfa Moskvası ürəyimi sıxdı, qəlbimə toxundu. Tahiri yeyib ağzını əlinin dalı ilə silən bu nəhəng şəhərin heç bir haqq-hesabı unutmadığına məəttəl qaldım.

Moskva onun sinəsində cövlan edən bu Qubalı balasına dözmüşdü və onun tüklük yollarına tərs gedişlə Tahir Aslanlıdan, şair Tahirdən intiqam almışdı.

Bütün intim görüşlərini Puşkinin heykəlinin dibinə verən, bütün işgüzar görüşlərini Hammer evi adlanan interkontinentalda keçirən Tahir üçün Moskva o qədər də böyük deyildi. Moskvanın rəsmi, ədəbi, işgüzar və intim dairələri əlinin içi kimi aydın idi Tahirə. Əslində, Tahir öz sürəti və manevrləri ilə Moskvanı kiçildib balaca bir şəhərə çevirilmişdir.

Moskva bir qazan idi, Tahir bir çömçə. Moskva ət rəngli bir qısaqol köynək idi. Tahir onu hər gün əyninə geyib kürreyi-ərzə çıxırdı.

Redaksiya heyətinin üzvü olduğu sovet - bolqar «Drujba» jurnalı, Ukrayna, Rossiya, Moskva otelləri, teatrlar, nəşriyyatlar… hər yer ona açıq idi.

Tahirin qoltuq cibindən nadir hallarda çıxardığı onlarca sənəd, buraxılış vərəqəsi dəmir qapıları belə ona açıq eləmişdi.

Tahirin qabağında tab gətirən rus qızını Allah yaratmamışdır.

Ucaboy, hərəkətli, qara bığlı, uzunburun, eynəyi burnunun üstünə sürüşmüş bu şirin oğlanın şık geyimi, şirin dili, əliaçıqlığı və hüdudsuz imkanlar qarşısında dayanmaq, nəinki qadının, heç bir oğlanın da işi deyildi.

Bütün şuxluğu, zarafatı ilə sərt xasiyyətli bu oğlanın KQB mənsublarına, ingilis nəfərlərinə vurduğu sillələrin sayını bilmək çətindir.

Həbsə də düşmüş və haqlı olduğunu 8 gün aclıqdan sonra sübut edib azadlığa çıxmışdı.

Tahir mənim üçün yalnız bir dost, istedadlı şair deyil, sovet rejimi məngənəsinə sığmayan, dişləri ilə bu məngənəni doğrayan, gələcəyi yaradan adamlardan biri idi. Siyasətdən danışmağı sevməzdi, millətçilikdən də uzun-uzadı danışmazdı. O, rejimi düşməni idi, siyasi əqidəsini bakirə saxlamağı sevirdi. Arabir ürəyində nələr cövlan etdiyini gizlədə bilmirdi. Moskva dissidentləri ilə görüşür, onların kitablarını, «samizdatları» alıb bizə də verirdi. Rəhmətlik Əbülfəz Elçibəy sovet zamanı Moskvada staj keçərkən Tahirlə də tanış olmuşdu. Tahir haqqında dediyi söz yaxşı yadımdadır: «Millətə belə oğul da lazımdır. Belə kişilər olmasa, millət buxovlarının hamısını qıra bilməz».

Əbülfəz bəy prezident olandan sonra Moskvada Tahir bəyin əvvəllər dediyi sözə dedim. Tahir özünəməxsus şəkildə gülümsəyib: «Amma siz, bu dövləti saxlaya bilməyəcəksiniz. Bu qədər idealist düşüncə ilə dövləti saxlamaq olmaz. Əbülfəz bəyi aldadacaqlar. Bu bərrat dünya siz düşündüyünüz kimi sadə deyil».

Əlbəttə, o zaman mən Tahirlə razılaşmadım və mübahisə etdik.

Zaman keçəndən və 15 oktyabr arasından sonra mən Tahiri daha yaxşı anladım. Allah rəhmət eləsin. Dünyaya bir nöqtədən baxmaq insanı aldadır və çıxmaza aparır.

Dövlət düşüncəsi idealist təfəkkürdən genişdir, əlini qan ilə yumağı, hətta bu qanı lazım gələrsə içməyə hazır olmayan bir adam, böyüklüyündən asılı olmayaraq dövləti saxlaya bilməz.

Əbülfəz bəyin dahiliyi insanlığında, milli azadlıq duyğusunda, hərəkata rəhbərliyində idi.

Əbülfəz bəydə dövlətçilik üçün zəruri olan alçaqlıq və namərdlik çatışmadı. Amma çatışmalı idi! Insanlıq hər şeyin bəhanəsi ola bilməz.

Və Tahir bir qədər sadəlövh, bir qədər praktik baxışlı öz fikrini demişdi.

Bu fikri mən sonralar çoxlarından eşitdim.

Zaman ən yaxşı müəllimdir. Bütün yaraları sarıyır. Elə yaralar da var ki, heç vaxt sağalmır. Insan o yaranı özü ilə qara torpağa aparır.

Hər halda, peyğəmbərlərin olduğu kimi böyük insanların da öz missiyası var. Bu missiyanı anlamamaq ictimai fikirdə anlaşılmazlığa səbəb olur.

Tarixi aldatmaq olmaz. Tarix hər şeyi olduğu kimi öz yerinə qoyur.

Tahirin pulu olmayanda elə hesab etməliydin ki, sənin pulun onundur. Əgər belə hesab etməsəm, onsuz da Tahir o pulu minbir yolla səndən alacaqdı.

Bu bir Allah vergisi idi.

Tahirin pulu olanda isə elə hesab etməliydik ki, o pul sənindir. Çünki o pulu hər hansı bir şəkildə sənə xərcləyəcəkdi. Bu da bir vergi idi.

Tahir puldan intiqam alırdı.

Kasıb millətin atasının, tələbə oğlanın, çətinliklə ailə quran gəncin qisasını alırdı. Külli miqdarda pulu qısa zamanda xərcləyib yox eləmək onun əsas əlaməti idi.

Hərdən mənə elə gəlir ki, sovet rejimini ideya ilə dağıtmaq olmazdı. Bu rejimi içindən çökdürən viruslar olmasa idi, çətin dağılardı.

Dissident hərəkatı özünüqurban məktəbi idi. Yəhudi mafiyası, iqtisadi fəndlərlə açıq bazar savaşı yaratmaq isə rejimi çürütmək, onun mexanizmini laxlatmaq idi.

Tahir şair ürəyi ilə bacarmadığı sistemdən başqa cür intiqam alır və bu yolu haqlı sayırdı.

Hərdən mənə şerlərini oxuyurdu. O, rusca və Azərbaycanca şerlər yazırdı. Şer oxuyanda gözləri olduqca kədərli olardı, baxışlarının dərinliyində gizlənən zəifliyi və zərifliyi gizlədə bilmirdi. Bu onun şerini yarıda kəsib gücünü özünə qaytarırdı, deyib gülür, gözlənilməz gedişləri ilə baş gicəlləndirirdi.

Insanın təbii istedadı olmasa, bu qədər mürəkkəbliyin içindcən çıxa bilməzdi.

Tahiri cəsarəti, qətiyyəti, mərdliyi xilas edirdi.

Moskva Tahiri dəlicəsinə sevirdi. O, çevik oğlan Moskvanın gülü idi, maşından maşına dəyişən, ən gözəl restoranlarda ən böyük çinovniklərin qızları ilə keyf eləyən bu qəribə oğlan günlərlə yavan çörək yeməyə məcbur olanda heç qamətini əymir, təslim olmurdu.

Moskva Tahirə nifrət edirdi. Bu nifrət də dəlicəsinə idi. Moskva onu barmağına dolayan bu yadellidən, yaddillidən intiqam almağa fürsət gözləyirdi.

Və bu fürsət yetişdi. Tərs yola girən avtomobil ağır yük maşınının altında xıncım-xıncım oldu. Sükan arxasında olan Tahirin son gördüyü yəqin ki, bu ağır yük maşını olub. Son eşitdiyi yanındakı qızın qışqırtısı olub.

Tahirin son düşündüyü, son dediyi nə olub. Bunu Allah bilir. O balaca qızını çox sevirdi. Həyat yoldaşı öz xalası qızı idi. Və ailədə Tahir uşaq kimi məsum idi.

Birlikdə, ailəvi Türkiyədə olmuşduq dəfələrlə.

Tahirin ailəyə bağlılığını, doğma balasını necə sevdiyini təsvir etməkdə acizəm.

Dünya namərd dünyadır. Heç Tahirə də qıyarlarmı, ay qoca dünya.

Vəfatından 10 il keçib. Bu 10 ildə Moskva da 10 il cavanlaşıb.

…Çiçidə atası bizi Tahirin dəfn edildiyi qəbristana apardı. Böyük qara mərmər üstündə ayaq üstə dayanmış Tahir bizə baxıb gülümsəyirdi. Sanki deyirdi «Yenə gəlib çıxdınız Moskvaya. Xoş gəldiniz».

Ağladıq. Söz dedik və geri döndük. Dönəndə qəflətən səs eşitdim, Tahirin xurma gözlərinə baxdım. O dərd dolu gözlər açıq-aydın şəkildə tək bir cümlə dedi: «Ay etibarsızlar, məni qoyub hara gedirsiniz?!.»

Bu sözləri yazanda iki damla göz yaşım ağ vərəqə düşdü və dostumuz mərhum Vidadi Məmmədovun bir sözünü xatırladım: «Tahir bu dünyada bir dəfə yaşayıb».

Tahir Aslan bizimdir. Bizdəndir, Bizimlədir.

Moskva bizim deyil! Bizdən də deyil!..

Bizimlə də deyil!

ŞƏHİD ŞAİRİ ÖLÜM SEVDİ, ÖLÜM SEÇDİ

Dünyada öz ölümünü axtaran insanlar az olmayıb. Şair niyə bəs öz ölümünü axtarsın ki? Ölüm də sevilərmi? Bəs ölüm özü cavan yaşında şairi sevib seçsin?

Bu suallara cavab vermək o qədər də asan deyil. Şair yaza bilmirsə, ölüm seçə bilər.

Ölüm şairi seçibsə, şair də ölümü seçə bilər.

Əzab-əziyyət, çıxılmazlıq qarşısında da ölüm seçilər.

Ölüm etiraz, protest də ola bilər.

Mən ölümü seçmiş bir şairin taleyindən bəhs etinək istəmirəm. Məqsədim ölümün seçdiyi şairdən bəhs etinəkdir. Bu şair Əli Kərimdir. Ədəbiyyatımızın, sözümüzün şəhidi Əli Kərim və ya yaşıdlarının, həyat yoldaşının dediyi kimi, eləsadəcə Əli...

60-cı illər Azərbaycana bütün sovet məkanına ağır-ağır gəldi, boynunda neçə-neçə onilliklərin, repressiyaların ağrısı, yükü, zəhəri. İnsan mənəviyyatını tapdalayan, təhrif edən sovet rejimi yediyini yemiş, yaraladığını yaralamış, qorxudacağını qorxutınuş, murdarlayacağını murdarlaya bildiyi qədər murdarlamışdı. Rejim sazağı Mirzə Cəlilin soyuq otağından H.Cavidin Sibir adlı soyuqxanasına qədər uzanırdı. Bu soyuqxana Vətənindən didərgin düşənlərin son mənzili idi.

Müşfiq sözündən asılınış, Çobanzadə elmindən çarmıxa çəkilmişdi. Seyid Hüseyn, Tağı Şahbazi təmizliyinə, böyük əməllərinə görə qızıl gülləyə tuş edilmiş, C.Cabbarlının ürəyi vaxtsız dayandırılınış, Ə.Cavad, M.Əmin didərgin düşmüşdü. Səməd Vurğun göz dustağı, Rəsul Rza könül dustağı olmuş, zamanın dolanbac yollarında azdırılmışdı. Məcburi mövzular, məcburi ideyalar şair kimi doğulanları, yazıçı, yaradıcı kimi dünyaya gələnləri yançidar etmişdir.

Namusuna, əqidəsinə sığınanlar Ana dilini, Ana Vətəni, əlifbanı, milli mənəviyyatı repressiya edənlərə qarşı acizləşdirilmiş, çıxılmaz dalana pərçim edilmişdi. Kökünə, soyuna, dilinə, qan yaddaşına söykənən qələm əhli totalitar rejimin çəkici ilə zindanı arasında qalmış, həyatı deyil, hər cür yalanı, ilğımı yaşamağa məcbur olmuşdu. Parçalanmış, bölünmüş Azərbaycanın Bakı dərdi Təbriz dərdinə, Qarabağ dərdi Dərbənd dərdinə, Borçalı dərdi Zəngəzur, Vedi, Göyçə dərdinə qarışmışdı. "Bu dərd o dərddən yaxşıdır" təsəlli fəlsəfəsi bölünmə, parçalanma faciəsini nə ovuda bilirdi, nə də soyuda.

Nəhayət, Stalin öldü (bəzən ölüm o qədər gecikir ki...) rejim çatladı. "Ottepel" yetişdi, buzlar əriməyə, dəmir divarlar laxlamağa başladı.

Yeni havanın ilk nəfəsi M.İbrahimovun ana dili - dövlət dili olmalıdır mücadiləsində, Rəsul Rzanın ikinci nəfəs kimi açılan şerlərində, Ənvər Məmmədxanlının, Bəxtiyar Vahabzadənin, İlyas Əfəndiyevin, İsmayıl

Şıxlının, İsa Hüseynovun, Sabir Əhmədovun torpaq, insan, millət qoxulu əsərlərində duyuldu. Yeni zaman yetişmişdi və bu zaman öz ədəbiyyatını, sənətini yaradırdı. Həmin zamanın yeni nəslinin şərti adı 60-cılar idi.

Ə.Kərim, Y.Səmədoğlu, Anar, Elçin, Ə.Əylisli, İ.Məlikzadə, F.Kərimzadə, Ə.Nicat, İ.İsmayılzadə, Ə.Salahzadə, V.Səmədoğlu, A.Abdulla, F.Sadıq, F.Qoca, Y.Qarayev, A.Hüseynov... 60-cılar kimi ilk addımlarını atırdılar.

Yeni nəsil yeni missiyanı yerinə yetirməli idi. Bu yeni nəslin və yeni missiyanın iki düşməni var idi: gerici, mürtəce ədəbi mühit və hələ yıxılınamı? qosqocaman Sovet-rus diktatura rejimi.

Bu nəslin öndəri Əli Kərim idi. Bu nəslin ilk şəhidi də Əli Kərim oldu.

Şəhid şair ölümünü könüllü seçmişdi. Kimsə qurban getməli idi. Azadlığın siyasi yolu kimi, ədəbi yolu, sənət yolu da qurban istəyir. Sözü azad olunmayan millətin, Vətənin özü azad ola bilınəz.

Dünya ədəbiyyatının yeni havasını alan, öz kökünü, tarixi varlığını şerdə ədəbiyyatda təsdiq etınək haqqının daşıyıcılarının önündə gedən Ə.Kərimin çiyninə düşən ağırlıq daha çox idi. Qoy heç kimsə inciməsin və yanlış da anlamasın. Əli Kərim nə Səməd Vurğunun, nə Rəsul Rzanın, nə də İlyas Əfəndiyevin evində böyüməmişdi. Əlbəttə, bu evlərin də öz dərdi, öz faciəsi var idi. Hər halda əkilən toxumlar var, bir də təsadüfdən, havadan, göydən düşən toxumlar var. Onları ayırmasaq, haqsızlıq olar. Göyçayda xoşbəxt ay, xoşbəxt gündə doğulan (şəhiddən xoşbəxt kim ola bilər ki?!) Əli Kərimin bir ev də Müşfiq, Cavid, Vurğun, R.Rza, İ.Əfəndiyev... sözü idi. O, Söz dünyasına Söz yaratmaq üçün gəlmişdi. El ədəbiyyatından, Füzulidən, Sabirdən, Mirzə Cəlildən... güc-təpə almışdı. Dünya ədəbiyyatını oxumuş, öyrənmişdi. Tarixi də, poetikanı da çağdaş dünya şerini də gözəl bilirdi.

İnsana yaxın, doğma olan Azərbaycan sözünü bəlağətdən, hay-küydən yanlış ideolojidən, yalandan xilas etmək kimi şərəfli borc Əli Kərimin boynuna daha çox duşmuşdu.

Bu yükü daşıyan şair ən böyük hədəflərdən biri idi. Təhlükəli hədəf həmişə böyük hədəf olur.

Əli Kərim yaratdığı sözün ağrısından daha çox, sözbazların, sözü tutmuş, zəbt etmiş sahibkarların əzabını çəkməyə məhkum idi. Sözü zəbt etmək yalnız rejim hökmü, şərti kimi anlaşılmır. Doğrudur, zaman-zaman keçirilən ədəbi məhkəmələr, Yazıçılar Birliyi adlı qurumun yaranına səbəbi (bu o demək deyil ki, Yazıçılar Birliyi düşmən təşkilat olub. Söhbət yüzlərlə yazıçının üzv olduğu qələm sahiblərindən deyil, bu qurumun Stalin tərəfindən düşünülmüş sistemindən gedir), KQB-nin Yazıçılar Birliyinin təşkilatiçi və təşkilatdışı fəaliyyətinə nəzarət edən kuratorluq aparatından, Mərkəzi Komitənin ideoloji idarəetınə mexanizmindən gedir. Bir vaxt gələcək Kommunist Partiyası Mərkəzi Komitəsinin gizli və açıq qərarları KQB-nin arxiv materialları və Yazıçılar Birliyinin bütün protokolları çap olunacaq, o zaman həqiqət bütün aydınlığı ilə ortaya çıxacaq.

Sözü zəbt etməyin başqa bir şəkli ədəbiyyatpərdazlıq, ədəbiyyatı əvəz edən söz yığınının, söz surroqatının tüğyanıdır. Bu bütün dünyada özünü göstərən fıkir, söz vəbasıdır.

Əli hər iki tərəfdən ağır zərbə alırdı. Hər zərbə təzə ağrı, təzə iztirab idi. Əli Kərim də öz ölümünü görən köhnə ədəbiyyat kürəyini rejimə söykəyib hələ heç bir dayağı olmayan yeni və iddialı gəncliyi əzməli, suyunu çıxarmalı idi. Göz dağı kimi nəsillərə ibrət dərsi olmalıydı. Nə İsgəndərsayağı keflilik, nə iclasdan, hakim idarəçilik torundan yayınınalar Əli Kərimi xilas edə bilmədi. Edə bilməzdi. Ortaboylu, qaraqaş, qaragöz ciddi oğlanın qalası bir sözü, bir də doğma evi idi. O qalada onun ömür-gün yoldaşı Elza xanım və üç şah misrası Paşa, Azər və Orxan balası yaşayırdı. O qalada onun çox erkən ağrıyan ürəyi yaşayırdı. Vaqif küçəsindəki bu zirzəmi-qalada bu üç misranın və saçı hələ cavankən ağarmağa başlayan Elza xanımın işığı Əlini qorxunc zərbələrdən, şər-şəbədədən, tənqid-tüğyandan qoruyub saxlayırdı. Sözünə və evinə sığınan şair cismən, hissə-hissə ölürdü.

İnsanın fiziki varlığı daş, qaya deyil ki... Qəhrəmanlıq yalnız ani qərarla sinəni pulemyota çevirmək, qranatı əlində sıxmaq deyil.

Bir də uzun gecələrin, uzun gündüzlərin qəhrəmanlığı var ki, onun adı yalnız qəhrəmanlıq deyil, həm də cəfadır, dözüm və səbirdir. Dözə-dözə, ağrıya-ağrıya, ölə-ölə gözə görünınəyən dəyərləri xilas edirsən. Əli Kərim 40 yaşa çatmayan ömür içində Sözün namusunu, qeyrətini, ismətini xilas edirdi. 0, heç kəsə söz verməmişdi, öhdəliyi filan yox idi. Missiya deyib hayqırmırdı da. O qanından, soyundan, əqidəsindən, vicdanından gələn bir borcu yerinə yetirirdi. Təmənnasız, əvəzsiz, şərtsiz-fılansız. Nə orden umurdu, nə tərif, nə xaric, nə sərvət. Onun istədiyi nə idi?!

Sadəcə, bir udum hava, bir loxına çörək, bir də heç nəyin, heç kimin əvəz etınədiyi, əvəz edə bilməyəcəyi AZADLIQ. Sözün, fikrin Azadlığı. Ailə, ehtiyac rejimi insanı sıxmaq, boğmaq üçün ələ keçirdiyi bir hulqumdur. Usta rejim və ustad diktatorlar bu hulqumu sıxmağın min bir yolunu bilir. Lazım gələrsə, doğma qardaş, doğma övlad belə hulqumu sıxır. Həll isə rejimin öz əlində idi. İstəsə, elə sıxar, istərsə belə sıxar. Bu sözləri yaza-yaza özbək dissidenti böyük mübariz Baymirzə Haytın öz doğma oğlunun ittihamına ürcah olduğunu və sonra uşağın vicdan ağrısından necə öldüyünü göz yaşları içində danışdığını xatırlayıram.

Səməd Vurğun ailəsinə qarşı bütöv bir sistemin qurduğu tələlər, duzaxlar yadıma düşür.

Rəsul Rzanın illərlə beşiyi başında durub araya-ərsəyə gətirdiyi Azərbaycan ensiklopediyasının bütün nüsxələrinin necə yandırıldığının ağrısı canımı yandırır.

Universitetlərdən, işdən qovulan Xəlil Rza, Asif Əfəndiyev, özünə qəsd etınəyə məcbur olan Məsud Əlioğlu, Sərdar Əsəd və neçə-neçə ədəbiyyat, mənəviyyat şəhidləri, qurbanları gözümün önünə gəlir.

Bir millət olaraq biz niyə məhv olınadıq? Niyə ruslaşıb manqurtluq qazanında qaynamadıq? Füzuli, Nəsimi, Sabir, Mirzə Cəlil sözünü necə saxlaya bildik? Bu suallarm bir cavabı da Əli Kərimin nakam həyatıdır.

Əli Kərim ailəsi hər cür çətinliyə dözdü. Əli Kərim ailəsi ehtiyaca boyun əymədi. Əli Kərim ailəsi evin sahibinin fıziki-cismani varlığını itirdi. Bu, tale itkisiydi.

Fəqət ailə Əli Kərim rahunu itirmədi. Bu ruhla yaşadı. Bu ruha sığındı. Bu ruha sığınan tək bir ailə deyildi.

Elə görünınəz mənəvi dayaqlar var ki, onlarsız nə ailə ailədir, nə ədəbiyyat ədəbiyyat, nə də millət millət.

Əli Kərim ruhu ailənin, ədəbiyyatın, millətin dayağıdır.

Əli siyasətçi deyildi. Sadəcə, bir şair idi - mənəviyyat, əxlaq adamı idi. Əli Kərim sözü, Əli Kərim həyatı olınasaydı, bugünkü müstəqil Azərbaycan, onlarla siyasətçi, azad fikir, azad mətbuat olınazdı.

Əli Kərimin davamı yalnız Ramiz Rövşən, Vaqif Bayatlı Önər, Eldar Baxış, deyil. Əbülfəz Elçibəy, İsa Qəmbər, E.Məmmədov, Ə.Kərimov, M.Fəttayev, A.Hacıyev, F.Qəzənfəroğlu, S.Cəlaloğlu, P.Hüseynov, Z.Əlizadə də onun davamı, mənəvi övladlarıdır. İstərdim ki, bu məntiqi aydın başa düşək, birtərəfli anlamayaq.

Əli Kərimin davamı simvolik anlam daşıyır və özündə Cavidi də, Müşfiqi də, Cavadı da, 60-cı illərin fikir-əqidə mücahidlərini də birləşdirib təmsil edir.

Əli Kərimin nakam həyatı, namuslu sözü, ədəbiyyat əqidəsi yalnız Əli Kərim demək deyil, həm də bütün əzabkeşlər, şəhidlərdir.

Əli Kərim "Vəsiyyət" şeri ölümündən bir xeyli əvvəl yazılıb. Bu şer yalnız bir ailəyə vəsiyyət deyil. XX əsrin son əsrlər yaşayacaq Azərbaycan türk Sözünə, Azərbaycan gəncliyinə vəsiyyətdir.

Və mən Əli Kərimin hər gözəl şerdə, namuslu sözdə dirildiyinə inanıram, özü inandığı qədər inanıram.

Əli Kərimin şerləri, məsələn "Qayıt" şeri 50-ci illərdə qələmə alınıb. Bu şer cavan bir şairin necə şer yazdığını əks etdirməklə bərabər, onlarla şairin necə şer yaza bilmədiyini, üstəlik bu yolla gələcək onlarla şairin necə şer yazacağını göstərir.

Əli Kərim Azərbaycan sözünün yeni qapısını açan çox az şairlərdən biridir. Yeni qapı açmaq, qapı dəyişdirmək, taxta qapını dəmir qapı ilə əvəz etmək deyil. Yeni qapı yeni hava, yeni ifadə, deyim tərzi, dilin yeni imkanlarının gerçəkləşməsi deməkdir.

Azərbaycan türk şerinin modernləşdirilməsində Əli Kərim mərhələsi ayrı bir araşdırma mövzusudur.

Əli Kərim mənim yadıma həmişə Müşfiqi salır. Bu doğmalıq yalnız nakamlıq, həyata doymadan ona vida demək deyilm. Nisbətən yaxın tarixin iki qeyri-adi istedalı şairini birləşdirən əsas keyfiyyət şerin sənətkarlıq ərazisinə gətirdiyi yeniliklə, modern poetik təfəkkürlə bağlıdır.

Onlar həyatda da, yaradıcılıqda da istədiklərini, duyduqlarını tamamilə

ifadə etməyiblər. Fəqət onların poeziyaya gətirdikləri yalnız özləri üçün deyil,

özlərindən sonra gələnlər üçün də yoldur - təkrarsız, qəribə, incə, aydın

olduğu qədər də bir az dumanlı-mücərrəd olduğu qədər də aydın. Müşfıqi, Əli

Kərimi Sözün qan qardaşı kimi doğmalaşdırıb.

Hər iki şair rejim üçün arzuedilınəz sayılıb. Müxtəlif şəkildə götürülüb. Hər şeyi deməsəm də və hər şeyi bilınəsəm də inanıram ki, illər keçəcək ədəbiyyat Müşfıqə, Əli Kərimə əyiləcək, onları dinləcəyək və bütün gerçəyi biləcək.

O, ömrünü bizə, ədəbiyyata, Azərbaycan Sözünə bağışladı.

Yaşasaydı 70 yaşı olacaqdı. Amma indi onun yaşı yoxdur. Nə qədər Azərbaycan türk dili var, nə qədər şer-sənət var, nə qədər bu dəniz, bu dağ, bu ağaclar, çiçəklər, otlar var və nə qədər İnsan var, Əli Kərim də var.

Şəhidlər ölmür. Bozluqda, ağrıda, əzabda əriyib yox olan şəhid şairin - Əli Kərimin 70 yaşı qutlu olsun!

Üzümü ruhuna tuturam, Əli bəy! İndi sənin yuvanın başında Əlisiz solmuş və heç vaxt öz rənginialmayacaq Elza xanımı dayanır.

Birinci misran Paşa ədəbiyyat alimidir. Elmi yazıları, tərcümələri ilə məşhurdur.

İkinci misran Azər riyaziyyat professorudur. Türkiyənin məşhur Bilkənd Universitetinin alim-müəllimidir.

Üçüncü misran Orxan iqtisadiyyat alimidir. Yazıları sevilə-sevilə oxunur. Sənin misran əvvəlcə 6 misra oldu. Ocağına ailənə layiq gəlinlər gəldi. Misralardan misralar

doğdu törədi. İndi 5 misra da o 6 misraya qoşulub. Sən baba oldun, Elza xanım nənə. Üzünü görmədiyin nəvələrin sənin şəklinlə, sözünlə böyüyür. Onlara sənin müqəddəs adın və büllur kimi şerlərin qalıb onlar böyüyəcək və günlərin günü şəkildən onlara baxan kişinin kim olduğunu, nəyə qurban getdiyini, nələr etdiyini anlayacaqlar.

Təkcə nəvələr deyil, Sözün gələcək nəsli səndən keçəcək, səndən süzüləcək və ondan sonra daşıyacağı gerçək, ədəbi anlamı qazanacaq.

Hər gün anılırsan, hər gün xatırlanırsan. "Həsrət qoxuyan evinin" hər yerində sən varsan. İndi evində hər şey var: ad-san da, şöhrət də, ata rahatlığı da.

Mərhum Nigar xanım ağrılar içində dediyi kimi , "Təkcə sən yoxsan əzizim". Heyf, çox heyf.

Sözü vətəndaş kimi qorumağın, ədəbiyyatın Vətənin yüksək mənəvi dəyəri kimi keşiyində durmağın insanlıq, milli əxlaq üçün nə qədər əhəmiyyətli olduğunu geniş şərh etinəyə ehtiyac yoxdur.

Amma bir də Sözü sözün içindən, mayasından gələn müdafiə var. Bu müdafiə övladın öz atasını müdafiəyə bənzəmir. Namusu qorumağa da bənzəmir.

Sözü qorumaq bəndənin Allahı qorumağına daha çox bənzəyir. Milyonlarla, milyardlarla canlını, insanı, varı-yoxu yaradanın müdafiəsinə bir bəndə qalxır. Yaradanla yaranan arasındakı sonsuz fərqə, məntiq ardıcıllığına baxmayaraq, Allahın da bəndənin müdafıəsinə ehtiyacı var. Çünki o bəndə Allahın bir zərrəsidir. Allahın özünü qoramağa ehtiyacı var. Allah varlıqdır. Allah varlıq olduğu qədər də yoxluqdur. Allah həm də varlıq və yoxluqdan başqa da bir şeydir ki, onu biz bilmirik və billə bilmərik.

Əli Kərim bu anlamda Sözü qorudu və özünü rejimə deyil, Sözə qurban verdi ki, bu da tamam başqa bir mətləbdir, açılması o qədər də asan deyil.

Son sözüm rejimin yaşaması üçün minlərlə adamın ölməsi zərurətdir. Ölümlər cürbəcürdür: tədrici, qəfıl, təbii, qeyri-təbii... Biri əlyazmasını yandırıb son dəfə isinib ölür, o biri yeni il gecəsi gözünü əbədi yumaraq ölür-ürək ağrısından əbədi qurtarmaq üçün, o biri Sibirdə, birisi də zirzəmidə....

Nə fərqi var... mahiyyət ki, dəyişmir.

Əcəlini qabaqlayıb ölüm seçən şəhidlərə, ölümün özünün sevib-seçdiyi şəhidlərə min rəhmət...

KİTABLARDAN GÖRÜNƏN ƏNVƏR MƏMMƏDXANLI

Yazıçıya baxışın ən uğurlu məqamı onun yazdıqlarıdır. Və bu mənada mərhum sənətkarımız Ənvər Məmmədxanlının obrazı ilk növbədə onun öz əsərləridir. Bütöv bir ömrün yadigarı olan roman və povestlər, hekayə, dram əsərləri, gündəliklər və xatirələrə yalnız Ənvər müəllimin, tənha bir ziyalının deyil, itirilmiş bir nəslin, zamanın faciəsini əks etdirən sənədlərdir. Bədii gücü, metamorfik səviyyəsi ilə yanaşı, bu əsərlər həm də dövrün, insanların sənədidir. İllər, əsrlər keçəcək bu sənədlərin ən namusluları, ən doğruları əsasında biz zamanın məhkəməsinə çəkiləcəyik. Və bu zaman mühakiməsinin

ittihamları, cəzaları və əfvləri haqqında bir şey deyə bilmərik. Deyə biləcəyimiz odur ki, uzaq gələcəyin məhkəməsində ortada olan sənədlərin içərisində Ənvər Məmmədxanlının əsərləri də olacaq.

Tanıyanlar, bilənlər üçün Ənvər Məmmədxanlı şəxsiyyəti təkrarsız bir fenomendir. Sözün fiziki-bioloji anlamında və fəlsəfı mənasında tənha yaşayan bir insan dağ başında bitən yalqız ağaca bənzəyirdi. Heç kəsdən, heç nədən umacağı, təmənnası olmayan bu yalqız insan nədənsə mənə pir ağacları xatırladır. Dərdlilərin, uşaq həsrətində olanların gəlib ziyarət etdiyi bu ağac qədim Tanrıçılığın, ağaca sitayişin yadigarı idi. Cəbrayılda Ağoğlaqda müsəlınanların da, xristianların da ziyarət elədiyi, çit parça düyünlədiyi, mıx çaldığı, şam yandırdığı bu əzabkeş, xeyirxah ağaca çox bənzəyirdi Ənvər müəllim. Mən uşaq vaxtı elə bilirdim ki, bu ağaclar gecələr adam olur, gündüzlər ağac. Bir də elə bilirdim ki, bu ağac həmişə ağlayır - bizim üçünI ağlayır. Amma onun göz yaşlarını heç kəs görmürdü. Mən də görmürdüm, amma ürəyimin bir yerində yəqin bilirdim ki, o ağlayır, elə hey için-için ağlayır. Bəlkə sinəsinə, qollarına, ayaqlarına vurulan mıxlar onu İsa peyğəmbər kimi incidirdi. Bilək budaqlarına bağlanmış al-əlvan çit əskilər onun yarpaqlarını boğurdu. Bilmirdim və indi də bilmirəm. Onu bilirəm ki, dərdini deməyən dərdlilər, hamının dərdini, yalnız dərdini yox, xəcalətini çəkən insanlar belə yalqız, dilsiz-ağızsız olur.

Mən Ənvər müəllimlə cəmi 5-6 dəfə görüşmüşəm. Elə ilk görüşdə o zarafatla dedi ki, bu gün mənim 70 yaşım tamam olur. Ancaq mən fevralın 29-da doğulmuşam. Mənim ad günüm dörd ildən bir olur, deməli mənim vur-tut 17-18 yaşım olar. Dedi və xeyli güldü. Qəribə tale, şübhəsiz ki, göylərlə bağlıdır. Yerlə heç bir əlaqəsi olmayan o qədər şeylər var ki...

Ənvər müəllimin qeyri-adi adam olduğu ilk andan hiss olunurdu. Onda müdriklik ağlı və gənclik həvəsi elə qəribə şəkildə birləşmişdi ki, istər-istəməz "zamanın hərəkət olduğunu" (Aristotel) anlayırdı. Zaman hüdudu Ənvər müəllim üçün çox şərti idi. O, 30-cu illərin ağır xatirələrindən də danışırdı, fransız postimpressionizmindən də, mərhum müəllimimiz Abbas Zamanovun qəribə sadəlövhlüyündən də, yeni Azərbaycan şeri - Ramiz Rövşən və Vaqif Bayatlıdan da, qədim şumer mədəniyyətinin əzəlliyindən də. O, təbiətcə filosof idi, alim, həm də böyük şair idi. Onun təfəkkürü assosiativ olduğundan müxtəlif mövzular qəribə bir şəkildə dolanırdı. Və dolana-dolana dünya, insan haqqında eşitdiklərin eşidirdi, oxumadıqlarını duyurdu.

Sonralar bildim ki, Ənvər müəllim həddən artıq çox yazan yazıçılardanmış. Amma o, bədii əsər yazmağı məqsəd hesab etməmişdi. Nə yazırsa yazsın, istər gündəlik olsun, istər adicə qeyd və ya xatirə, ya elə-belə bir yazı, o, böyük və mürəkkəb bir şəkli çəkməklə məşğul olmuşdu. Bu şəklin nə olduğunu mən konkret deyə bilmərəm. Çünki bu şəkil özü konkret deyil. Bu şəkil bəlkə də Tanrının şəklidir, bəlkə də insan ürəyinin şəklidir, kim bilir, bəlkə də bizim görmədiyimiz ağacın şəklidir, ya da Ənvər müəllimin öz şəklidir. Bu şəklin rəngləri onun öz həyatı, öz yazdıqları qədər çoxdur, müxtəlifdir. Bu şəklin həcmi onun gördükləri, duyduqları qədər intəhasızdır.

Hərdən Ənvər müəllimin gözündə elə bir kədər olurdu ki, o kədər əgər bir azca da uzansa, davam etsə, o kədərə heç nə, heç kəs tab gətirə bilməzdi. Amma o dərin kədər bir anda bir uşaq gözünün duruluğu-kədərsizliyi ilə əvəz olunurdu. Və qatı dumanı yuyub aparırdı.

Mənə elə gəlir ki, Ənvər müəllim bir neçə saatlıq mürəkkəb bir tənhalıq həyatı yaşayırdı. Sözün mütləq mənasında heç Tanrı özü də tənha deyil. Çünki təklik - tənhalıq deyil. Hər bir insan ürəyində olan varlıq necə tənha ola bilər. Bu yerin, göyün, sonsuzluğun dərdi içində (əslində dışında) tənha olmaq mümkündürmü? Həmişə öz Tanrısı, öz yaratdıqları ilə mübhəm olan Tanrı tənhalığının bir parçası da bəzən onun o birilərinə qismət olur. Bu mənada dünyada ən tənha adam bəlkə də Füzuli olub. Tənhalıq Kafkanın, Kamyunun, Folknerin də qisməti olub. Van Qoq, Tange, Debüssi, Nitşe, Dürremat, Fellini, Tarkovski dahi tənhalığı yaşayanlardır. Minlərlə insanın içində, saraylarda yaşayan Napaleon, Hitler, Stalin yalqız, tənha olmayıbmı?

Tənhalıq sirrdir. Bu sirrin məlum olan tərəfi onun qat-qat olmasıdır. Və Ənvər müəllimin də bu tənhalıq qatlarının ayrı-ayrı olmasına şübhəsi olmayıb.

Bu qatların birində və şübhəsiz, birincisində - ən ucasında Tanrı ilə - öz Tanrısı ilə görüşüb. Qatların o birilərində kimlərlə görüşüb Ənvər müəllim? Doğma anası iləmi, itirdyi və itirmədiyi dostlarıylamı, üzünü görmədiyi dahilərləmi, sərkərdələrləmi, müqəddəslərləmi? Bilmirəm. Amma bir şeyi qəti bilirəm ki, Ənvər müəllimin sirli-sehrli tənhalığının ən yaxını kitablar olub. Və bu yerdə kitab haqqında ürək sözümü deməyə bilmirəm.

Qalibin də, məğlubun da, xoşbəxtin də, bədbəxtin də, gözəlin də, çirkinin də könül dostu kitablardır. Tarixin yaddaşı da kitabdır. Yer üzünün ən təmənnasız müəllimi də, yaman günün dostu da kitabdır. Bir köhnə nağıl yadıma düşür: ölkəni düşmən viran qoyur, əsgərlər məmləkətin daşını daş üstə qoymur. Oədim kitablar küçələrə səpələnir. Yağış yağır, hər tərəf suya bürünür. Qədim kitablar suyun içində qalır. Və irigözlü bir uşaq üzü üstə uzanıb bu qədim kitabı oxumağa başlayır. Uşaq kitabı oxuduqca tarix yenidən dəyişir, dünya yenidən doğulur, günəş təzədən doğur, ay təzədən çıxır.

Ənvər muəllimin kitabxanasını aralıdan görmüşdüm. Böyük sənətkar vəfat edəndən sonra "bizdəki soyuq qanları neylərdin, ilahi" məntiqi ilə bu kitabxana dağılıb.

Və Allah kömək eləmiş Anarın sayəsində bu kitabların bir qisminin də xilas yolu Yazıçılar Birliyinə gətirilmək olub.

Və o kitabların faciəli günü, mən görməsəm də, Anarın keçirdiyi sarsıntını -çox yaxından hiss edirəm.

Həmin kitablardan, jurnallardan 20-30-nu da mən götürdüm. Vərəqlədim. Diqqətlə titrək, səliqəli xətlər çəkilmiş səhifələri görəndə onlara dərindən diqqət yetirdikdə bir balaca yazmağı özümə borc bildim. Ənvər müəllimin böyük insanlığının, böyük sənətkarlığının ayrılmaz parçası olan kitablara məhəbbəti, kitab mədəniyyəti haqqında danışmamaq olmaz.

Ənvər müəllimin bu yanğılı kitab tutqusu - vurğunluğu bəlkə lap aşaqlıqdan, cavanlıqdan başlayıb. Dünyanın gözəllikləri göydəki ulduzların dan üzü yaxınlaşdıqca yox olub getməsi onun kitaba sevgisini zaman-zaman artırmışdı. Və qara şəvə saçlar, ağardıqca ucaboy qocaldıqca, əyildikcə, tədricən kiçildikcə, ruh dünyasının etibarlı dostu - kitablar Ənvər müəllimə daha da doğma olmuşdu. Bu kitablar evini, ailəsini, bütün dərd-sərini, övladını əvəz etmişdi Ənvər müəllim üçün. Bu cümlənin altındakı gerçəyi duymaq,dərk etmək çox çətindir, olduqca sətin.

Əlimə gəlib çatan kitabları vərəqləyib, ordakı xətləri, qeydləri oxuduqca, inandım ki, Ənvər müəllim sevinəndə də, qəzəblənəndə də, öyrənəndə də, duyğulananda da da kitablara ata olub, qardaş olub, dost olub, ər olub, oğul olub.

Bu kitabların timsalında böyük bir hiss, duyğu, fıkir dünyasının içində olub.

Ənvər müəllimin kitabları mövzu və məzmunca çox geniş, rəngarəng olub.Ədəblyyat, tarix, coğrafıya, fəlsəfə, məntiq, psixologiya, türkologiya, şərqşünaslıq, linqvistika, elmşünaslıq...

Qərb-Sərq dünyasının şumer çağından modern səviyyəsinə kimi böyük bir zamanı əhatə edən müxtəlif kitablar Ənvər müəllimin dünyagörüşünü, onun dünya modelini təsəvvür etməyə imkan verir, bu kitabların kiçik qisminin mövzusuna diqqət yetirək: Çəmənzəminlinin "Qızlar bulağı", Füzuli haqqında monoqrafiya, frazologiya haqqında əsər, sənət və elmin qarşılıqlı əlaqəsi haqqında fəlsəfi əsər, zaman və məkan haqqında kitab, Cənubi Azərbaycanda çap olunmuş jurnallar, peyğəmbərlər haqqında bir kitab, Radlovun 10 cildliyi, cavan bir şairin ilk kitabı, Şərq tarixi haqqmda kitablar.

Ənvər müəllim bu kitabları elə diqqətlə, həvəslə oxuyurdu ki, onun qeydləri bu həvəsi, məhəbbəti açıq-aydın qoruyub saxlayıb.

Müəllif elm və sənət sahələrinə aid olan bu kitabların bir qismi 70-80-ci illərdə çap olunub. Yaşının günbatar çağında bu kitabları Ənvər müəllim gənclik həvəsi, doymaz bir ehtirasla oxuyub. O, kitablardakı gerçəkliklə yalanlarla bəhsə girib, könül meydanında dəfələrlə toqquşub, bölüşüb, dostlaşıb və ya onlara düşmən kəsilib.

İslam dininin halallıq anlayışının maddi mənası ilə yanaşı, bir də mənəvi, ruhi anlamı var. Oxuduğu kitabları Ənvər müəllim səmimiyyəti, təmizliyi və zəhməti ilə halallaşdırıb.

Bəşəriyyətin özünün qazandığı mənəvi dəyərlər xəzinəsinə hamının yolu açıqdır. Amma bu yolu hamı gedirmi?

Bəşəriyyətin özünün qazandıqlarından başqa bir də Allahın insana yetirdiyi böyük mənəvi sərvətlər toplusu var: "Tövrat", "İncil", "Zəbur", "Quran".

Bir də bəşəriyyətin keçdiyi və yaşadığı tarix var.

Və bir də bəşəriyyətin seçmə adamlarının Allaha can atıb ondan duyduqlarını, birbaşa aldıqlarını insana yetirdikləri var.

Ənvər müəllim bu ilahi və bəşəri sərvətlərin qədrini-qiymətini o qədər gözəl bilib ki, insan adına yeni sayğı, yeni pərəstiş gətirənlərdən olub.

Vərəqləri saralmış bu kitablarin sətirləri arasındakı ağ boşluqda Ənvər müəllim nələr yazıb, nələr düşünüb - bilmirəm. Amma o ağ boşluq mənə kosmosdakı boşluq kimi sonsuz-intəhasız görünür.

Yaradıcı, qurucu insan üçün kitab oxumaq həm də müəllifin əzabını bölüşməkdir. Ənvər müəllim oxuduğu kitabların müəllifləri ilə bölüşdüyü əzabı öz əzabına qatmışdır.

Əzab çəkmək, əzabkeşlik peyğəmbər sənətidir. Peyğəmbərin profesionallığı bu əzabın dərinliyi ilə ölçülür.

Yazanların, yaradanların çəkdiyi əzab peyğəmbərlərdən gələn işıqdır. Bu əzab - xoşbəxtliyə nəsib olan Ənvər müəllim oxumaqla, fasiləsiz mütaliə etməklə həmin əzabın

zamanını uzatmış, bəlkə də zamana macal vermişdir ki, o bu dünyanın gündəlik qayğılarını çəksin.

Yazıçı Allahla İnsan arasında vasitəçidir.

Amma təəssüf ki, yazıçı həmişə Allahla İnsan arasında ola bilmir. Bu qədər yazıçı-insanın gücü yoxdur...

Və şübhəsiz ki, son uçuş ölümdür. Sevgi qədər əbədi, sevgi qədər dəli, sevgi qədər anlaşılan ölüm.

Bu son uçuşa Ənvər müəllim həmişə hazır olmuşdu. Tənhalıq adlı hava alanından son uçuşa qalxanda Ənvər müəllim yəqin ki, son dəfə özünün ən yaxın dostlarına - Sokrata, Kaşğariyə, İbn Fədlana, Rumiyə, Füzuliyə, Şekspirə, Hegelə, Dostoyevskiyə, Tolstoya, Pasternaka, Rilkeyə, Folknerə baxmşdır və bəlkə də ürəyinin bir yerində özünə təskinlik vermiş, "gəlirəm, yanınıza gəlirəm. Yaxın görüşəcən" - demişdir.

Ənvər müəllim, kitablardan başımı qaldırıb sənin üzünə baxıram. Gözlərini görürəm. Ruhunu çox yaxında hiss edirəm. Sizin ruhunuz da, başqa bir ruhdur: Ruhların ən təmənnasızı, ruh dünyasının ən ziyansızı, ən bakirələrindən biri.

Ənvər müəllim, Siz də, adını çəkmədiyim bir insan da bir başqa dünyanın adamlarısınız. Bu dünyaya gəlməkdə min il, ya da bir neçə min il səhv etmisiniz. Bu dünya Sizlər üçün deyilmiş.

O dünya Sizin olsun!..

SÖZÜN MƏCNUNU

(Ramiz Rövşənin 50 yaşına)

Dünyada Sözü sevənlər yəqin ki, Allahı, qadını, övladı sevənlərdən sonra gəlir. Bəlkə daha sonra. Söz sevgisi, söz eşqi, söz tutqusu dünyanı əbədiləşdirmək ehtirasıdır. Rəngləri, səsləri, quşları, böcəkləri, dərdləri, bəlaları ilə, hər şeyi ilə əbədiləşdirmək. Dünyaya baxıb gözlərini yumması, insanın gözünün içində qalan dünyanı Sözdə maddiləşdirmək istəyi Allahın xassəsidir. Allahın yaratdıqlarına verdiyi bu xassə, bu xasiyyətin adı Yaratmaqdır.

Və Peyğəmbərin alternativi, Allahın müxalifəti olan yaradanlar içində Şair sözü başda gəlir. Əgər "İkin Söz olmuşdursa", Allahdan sonra ilk yaradan da Şair olmuşdur.

Salam Şair!

Salam Ramiz Rövşən!

Ramiz mənim yaxın dostumdur. Xoşqılıq, isti, uşaq kimi təmiz, həmişəcavan, ağıllı, bir az da dəli, fikirli, sevncli Ramiz Rövşən.

Mənim dostum yerdəki Ramizdir. İlk Sözü, ilk misranı deyib ayrılan, təklənən, yalqızlaşan Ramiz mənim dostum deyil. Tənha, yalqız adamın nə dostu var, nə düşməni. Onlar hamısı

yerdə qaldı. Sözün qanadlarında Ramiz Rövşən Allaha can atan Yerlidir; Göylə Yer arasında yaşayan bu adam-mələk Dünya yaradan, Dünya qurandır.

Bəs Yerdə nə qaldı? Bəs Yerdən nə qaldı? Bəs Yer, Yer?.. Yerdə əzizlər qaldı, sevgilər, sevinclər qaldı. Yerdə dərdlər, kədərlər, iztirablar qaldı. Yerdə Söz qaldı. Yerdə yaddaş qaldı.

Göydə unudulınayan Yer Sözə büründü, Sözləndi, Sözün özü oldu. ...Hələ gözü açılmayan ilan günün altında par-par parıldayan soyuq canıyla üşüyə-üşüyə anasını axtarır. Balaca haça dilini çıxarıb bir doğma istilik arayır. Bir anda görünən, itən o haça dil balaca ildırıma bənzəyir. Zülmət gecədə çaxıb keçir. Taleyini Allah yazmış bu gözəllər gözəli güldən, çiçəkdən, otdan aldığı hər şeyi zəhərə çevirəcək. Aman, İlahi. dünyanın belə bir gözəlliyi də var imiş. Öldürən və sağaldan zəhəri hər ilan balasının canına yığırmış. Karvan keçməz, quşlar uçmaz yer-yurdları dolaşacaq ilan, balası zəhəri gözündən başqa hər yerə yığacaq. Gözləri dumduru, qarışmaz qalacaq. Bu gözlər qəflətən dimdik qalxıb dünyaya yuxarıdan baxacaq.

O, sevgiyə atılacaq, o, gülləyə atılacaq, o, gözəl bir qız sevəcək, o, bütün ilanlar kimi çalacaq, zəhərini tökəcək, o, bənövşə hıçqırtısı ilə ağlayacaq, canavar gücüylə ulayacaq. O, ilan ömrü yaşayacaq, özü boyda yol gedəcək. Getdikcə gedəcək.

Başı kəsik gözəl kötük.

Qoyun olmaya-olmaya qoyun olmaq faciəsi

Bir az uzun çəkdi ömrüm, deyəsən,

Deyəsən, dostlar da darıxdı bir az...

Bir yalan gülüşlə örtdüm üzümü,

Gizləndim üzümün astar üzündə

Arvadlı-kişili, itli-pişikli,

Bir gün görəcəksən uçdu bu dünya...

.. .Çiçəklər doğulur bu yaz gecəsi,

Bu yaz gecəsində sevməyə nə var?

Özünə qayıdır hər şey, özünə,

Gözümə qayıdır göz yaşlarım da...

...Bətnində körpəmi gəzdirən qadın,

Bətnin qəbrimdi mənim...

...Qaranlıqsa solu-sağı,

Yanan şamın nə günahı?!

.. .Bütün yollar gedib çıxır

Ömrümüzün axırına.

Peyğəmbər - Allahın elçisidir. Allah kəlamın insana yetirən insandır.

Şair - Allahın dediyini özü anladığı kimi yozandır. Yozub insanlara söyləyəndir.

Öz sözünü bilən Tanrıya Şairi dinləmək daha maraqlıdır. Çünki bu yorum, bu yozum dünyanın taleyi üçün çox şeydir. Şair, Allahın sirrini açandır.

Allah-təala sirlərinin açılmasını istəyirmi?

Allahın sirrini açan Yunus, Şekspir, Füzuli, Rilke, Nazim... Sizə boylanıram. Boylandığım yerdə səni görürəm, qardaşım Ramiz. Dumduru gözlərinlə mənə baxırsan. Səttar Bəhlulzadənin gözəl gözləri kimi rəngini dəyişən baxışlarından da Söz qoxusu gəlir.

Bu Söz qoxusu bir az süd qoxusuna, bir az bənövşə ətrinə bənzəyir, bir az da barıt qoxusuna. Bir az da Qədirin "Sona bülbüllər"inə, bir az Qubadlıdakı tənha yemşan ağacının qoxusuna bənzəyən bu Söz qoxusu həm də Söz qorxusu, Söz dəhşəti, Söz faciəsidir.

Mən inanıram ki, sən Sözdən qorxmamısan. Sözün gözünə dik baxmaq

bəraətini sənə tərcümeyi-halın, əqidən, sənət namusun verib. Ancaq bu olub

ki, özünü bəzən Sözə layiq bilinəmisən. Sözdən düşdüyün günlərdə, aylarda

çox adi, çox sıravi bir adam olınusan. Oturmusan ata ocağında, saat-saat, gün-

gün qocalmısan.

Aman Allah, bu qocalmaq nə qədər Sən deyilsən. Bu Sözsüzlük nə qədər Sənə yaraşmır.

Söz sənə yaraşır, Şair. O Söz ki, Füzuli qələmindən süzülüb, sən onun özün demişkən, tozunu almısan. Yox, bu, sadəcə, toz məsələsi deyil, qardaşım, Sənin Söz peyğəmbərinə sayğı ilə dediyin bu fikrin arxasında nələr dayandığını uzun-uzadı sadalamağa, sübut etməyə də lüzum yoxdur.

Dostun, oxucun kimi məni sənin şerlərini sevməyə məcbur edən (sözün poetik mənasında) qüvvənin nə olduğunu qəti deməyə çətinlik çəkirəm.

Bu, sənin şerlərindəki ilahilikdirmi?

Sözə sonsuzluq dərəcəsində səmimiyyətindirmi?

Fəlsəfi düşüncən, beyninin tapdıqlarının müdrikliyidimi?

Paradoksal təfəkkürün, əks qütblü düşüncə tərzindirmi?

Bəlkə şair uçuşun?

Bəlkə su kimi şəffaf sözlərin?

Bəlkə hisslərindəki dərin elmilik, rasionallıq, elmiliyindəki dibsiz-tükənməz hissiyyat?

Bəlkə bunların hamısı?

Tam səmimyyətlə deyirəm ki, bilmirəm.

Amma deyəsən, Ramiz bəy, sənin Sözün fanatikti olmağın mənə daha artıq doğmadır. Bunun dəqiq elmi adı fantasmaqoriyadır. Sözü zamansız və məkansız təsəvvür etmək çətindir. Sənin sözündə maddiləşən Zaman, şərtləşən Məkan var. Eyni zamanda yuxu məntiqi ilə yaşayan insanlar, bu insanların dərdi, sevinci, xatirəsi Sənin sözündə rəng-rəng, səs-səs yaşayır.

Sən şerindəki, nəsrindəki, kinossenarilərindəki insanlarla, duyğularla, fikirlərlə bir yerdə yaşayan bir dünyasan. Bu balaca və ya böyük dünya kosmosda tək yaşayır; Günəşin ətrafında - Sözün çevrəsində dolanır.

Sözün də öz riyaziyyatı var. Bu riyaziyyat rəqəm, hesab deyil, abstrakt düşüncədir.

Sözün öz memarlığı var.

Bu memarlıq sadəcə tikinti deyil, əzəmətlidə zəriflik ayarı tapma, qurma, düzmə istedadıdır.

Sözün öz bəstəkarlığı var.

Bu, bəstə sözün harmoniyası, cümlənin hərəkətidir. Sözün məqsədi birgəyaşayış musiqisini görmək, duymaq, insanlara çatdırmaqdır.

Ramiz Rövşən Şairdir. Riyaziyyat da, memarlıq da, bəstəkarlıq da Şairliyin içində, görünməzliyindədir. Görünən Sözdür. Görünən dünyanın o biri üzüdür.

Ramiz bəy, Sən həm də siyasətçisən, Ziyalılıq borcu, namus, vicdan ağrısı səni zorən siyasətçi olınağa məcbur edib. Özün yaxşı deyirsən ki, millət mövqeyində dayanan şair yeri müqəddəs yerdir. Dostların qorxub qaçdığı o müqəddəs yeri boş qoymaq olmaz. Bu illərdə orada dayanmaq şərəfı sənin də

boynuna düşüb. Şer üçün böyük zərbə olsa da, millətin şərəfı üçün zəruri olan bu girov Vətən üçün, namuslu insanlar və haqq üçün hava-su qədər zəruridir.

Dostlar yaxsı deyir ki, Ramiz siyasətlə yox siyasətçilərlə, məşğuldur..

Görünür, Zaman şair üçün yeni vəzifə müəyyənləşdirə bilərmiş.

Bu günlərdə Sumqayıtda polis sənlə görüşə ciddi müqavimət göstərib və görüş baş tutmayıb. Yadıma Roma prokatorunun Həzrəti İsaya münasibəti düşdü. O zaman prokator İsanı dəhşətli düşmən kimi tanıdanlara "Bu ki şair imiş", - deyib.

Ondan sonra biz Ramizlə Qubaya görüşə getdik. Orada başqa "tədbirə" əl atmışdılar. Daha "ağıllı" olan bu tədbirə orta, kiçik yaşlı məktəblilər və 5-10 nəfər yaşlı adam gəlmişdi.

Nə olar, o uşaqlar da bizim balamızdı və şair onlarla da çox səmimi söhbət etdi.

Bəxtimizdən görüşə gələn polis zabiti də şair idi. MTN zabiti də ziyalı adam idi. Nə isə..

Orda verilən bir sual belə idi.

- Niyə Ramiz Rövşənlə görüşlərə mane olurlar?

O suala mən cavab verdim ki, Ramizdən qorxan öz vicdanından, haqq səsindən qorxur. Əgər qorxursa, qoy qorxsun. Allah köməyi olsun.

Hər qaranlıq gecənin bir aydın səhəri var.

Nə olar, Sən 50 yaşında atanın tikdiyi evin zirzəmisində yaşaya bilərsən. Ailən də, balaların da buna dözər.

Şair, sənin evin də Sözdədir, imarətin də. Bu bir romantika, xülya deyil.

Çox böyük bir gerçəkdir.

Mənim fikrimcə, Cavidi sürgündə öldürən, Müşfiqi qızıl qanında boğan əxlaqla Eldar Baxışı çərlədən, Ramizi evsiz-eşiksiz qoyan əxlaq arasında elə bir keyfiyyət fərqi yoxdur. Fərman həmin fərmandır, fərq Zamandadır.

Qab dibi yalayan "ziyalı-məddaholoqların" tərif deməkdən yorulmayan dilinə sağlıq.

Nə isə...

Deyəsən, söhbətin səviyyəsini aşağı saldıq. Dünya ilə əlləşən şairi bir ölkənin problemləri ilə məhdudlaşdırmaq özü də yanlışdır.

Şair, sən demişkən, özümüzü basdıra-basdıra gedirik.

Bir zamanlar qanadlı olduğumuzu da unutmuşuq. Hərdən yuxuda uçanda diksinirik.

Möcüzə gözləyirik. Həyatda, təbiətdə nə isə olacağına "dəli bir ümidimiz" var.

Və yenə, özün demişkən, dəhşətli bir dondurma istəyirik.

Bu dəhşətli dünyada dondurma dəhşəti nədir ki...

50 yaşa ləyaqətlə, şərəflə gəlmisən. Yediyin də halal olub, geydiyin də, dediyin də.

Ədəbiyyat namusunu öz namusun bilmisən.

Söz sənə xəyanət etmədiyi kimi, Sən də Sözə xəyanət etməmisən.

...Ay işığından şikayətlisən. " - Burax gedim, ay işığı, Vallah, mən sən deyən deyiləm" - deyən Şair bir şeyi aydın bilməlidir ki, Ay işığı onun üçün gəlib. Ay işığı onu tapıb, onun üstünə gəlib. Bu işıq Allahdan gələn işıqdır.

Haqdan gələn işıq sönməz.

Şair, bu dünyadakı arzularından biri də budur ki, üç hissəlik bir kitab yazım. Bu hissələrdən biri "Əbülfəz ELÇİBƏY", o biri "Alim Qasımov", üçüncüsü "Ramiz Rövşən" adlanacaq.

Yazılacaq kitabın ana xətti Azadlıqdır. "Şer yazmaq azad olmaqdır" - bu sənin sözündür. Kitabın adı da "Azadlıq" olacaq. Ancaq nə üçün yazdığımı və nə vaxt yazacağımı özüm bilirəm, İnşallah.

Söhbət İnsanın, Ürəyin, Sənətin, Vətənin, Millətin, Ruhun azadlığından gedəcək. Sizin sələflərinizin - Füzuli, Mirzə Cəlil, Məhəmməd Əmin Rəsulzadə bu mətləbi açmaqda mənə də, sizə də, oxucuya da kömək edəcək. Allah onlara min rəhmət eləsin.

Ancaq bu kitab yazılsa da olar, yazılmasa da. Sən öz kitabını mütləq yaz.

Elçibəyin, sənin, Alimin yazacağı kitab (sözün hər mənasında) olmasa, Azərbaycan Azərbaycan olmaz, qardaşım.

Şair, səni bağrıma basıb öpürəm. Neçə-neçə 50 illər arzulayıb, can sağlığı, xoşbəxtlik arzulayıram.

50 yaşın mübarək, əziz qardaşım!

RAMIZ RÖVŞƏNIN «101 NƏĞMƏSI» HAQQINDA SÖZ

Bu «101 nəğmə» Ramizin nəğmə dediyi şerlər toplusudr.

Mən inanıram ki, Allah ilk dəfə nəğmə dilində Ramizə şer yazmağı öyrədib. Ramiz böyüyüb və nəğməni Kiçik bilib. Böyük şerlər yazıb. Hərdən gördüyü yuxunu yozub – nəğmə dilində. Hərdən pıçıldayıb, sonra ağ kağıza köçürüb. Hərdən diksinib, hərdən heyrətdən donub. Hərdən şerin içində yorulanda nəğmə yazıb. Yorğun anların, sevgili-duyğulu dəqiqələrin şeri nəğmə olub. Hərdən mənə elə gəlir ki, Ramiz bu nəğmələrdən gündə istəsə bir neçəsini yaza bilər. Və hərdən mənə elə gəlir ki, Ramiz istəsə ömrü boyu nəğmə dilində danışar. Əlbəttə ki, bu belə deyil. Əl yeri bilinməyən xalçalar ən çətin toxunan xalçalardır. Ən mürəkkəb rəng ağdır. Bütün rənglər ağın bətnindədir. Ən mürəkkəb fəza şəffaf fəzadır.

Bütün dünya dillərində nəğmələr təbiətin özü kimidir. Bütün nəğmələr uşaq yaşındadır. Bütün nəğmələr Tanrı qrammatikası ilə düzülüb qoşulub.

Mən Ramizin nəğmələrini çox dinləmişəm; yüz dəfə, min dəfə. Hərdən ritmi, intonasiyanı birinci misrada tutmuşam. Bəzən Ramiz bir misranı deyəndə o biri misra əks-səda kimi elə bil mənim öz ürəyimdən qopub. Bu, nəğmənin sehridir, sirridir. Bu, təbiiliyin, sadəliyin möcüzəsidir. Sözlər su kimi axıb gedir və bu axın sənin içini, varlığını oyadır, onunla həmahəng, həmyoldaş olur.

Əlbəttə ki, bütün bunlar nəğmələrin formasıdır - poetik şəklidir.

Nəğmələrin mətləbi şəkli kimi deyil. Nəğmələrin məzmunu, qayəsi dünyanın özü kimi müəmmalı, gizli, şübhəlidir. Nəğmələr uşaq kimidir. Cəmi 2-3 ilə uşaq bəşəriyyətin neçə

min illər yaratdığı dili öyrənir. Nəğmələr uşaq dilində qoca loğman düşüncəsidir. Doğulan uşağın ilk çığırtısı ilə ölən qocanın son nəfəsi arasındakı yol bir nəğmə yoludur.

Nəğmə bizi irəlidə gözləyən məchulluq, bir də heç vaxt geri dönməyəcək məlumluqdur. Nəğmə məlumla məchul arasındakı sonsuzluqdur. Nəğmə, şair demişkən, öz dibinə işıq salmayan şamdır. Füzuli nəğmə yazmayıb. Amma nəğmə gücündə şer yazıb. Füzuli nəğmə təcrübəsini türk şerinə gətirən qüdrətli şairdir.

Nəğmə hava kimidir. Çatışmayanda bilirəm. Nəğmə təmənnası olmayan su kimidir – axıb gedir. Nəğmə ömür kimidir. Itirən anda itirdiyinin nə olduğunu bilirsən.

…Ramizin nəğmə poeziyasının açarı ölüm sözüdür. Amma bu poeziyanın qıfılı da ölüm sözüdür. Bu qıfılın-açarın yiyəsi Tanrı özüdür. Şair ölümlə Tanrının bir varlıq olduğunu duyub dilə gətirir. «Ölüm-Allahdır, Allah-Ölümdür» nəğməsi Tanrının ən çox yazdığı və heç vaxt yazmadığı həqiqətdir.

Nəğmə Həqiqətin Sözdəki əks-sədasıdır. Həqiqət Allahın, əks-səda şairindir.

…Ədəbiyyatda inkişaf yoxdur. Həyat, cəmiyyət, texnika inkişaf edir. Ədəbiyyatda inkişaf deyil, əvəzlənmə var. Əvəzlənmə minlərlə itki, minlərlə qurban deməkdir. Ramizin nəğmələri türk dilinin, türk sözünün yeni mənzərəsi, yeni əxlaqıdır. Bu nəğmələrdə şair Zamanın dışına çıxmış, dışarıdan Zamana baxmış, Zamana zamansızlığın sözünü demişdir.

…Sözün də öz fiziki tərkibi, kimyəvi tərkibi var. Nəğmə sözündə fiziki, kimyəvi tərkibdən daha çox bir əl-kimya var. Bu əl-kimya bildiklərimizdən bilmədiklərimizin doğulmasıdır. Bir də görünən hər şeydəki görünməzlikdir.

Nəğmə gücü Ramizin öz doğma gücüdür. Arı min çiçəkdən bir damla bal yığır. Şair min əzabdan bir nəğmə doğur.

101 nəğmə 101 əzabın gözəl-göyçək bəlasıdır.

101 nəğmə Allahın şairə 101 dəfə baxmasıdır.

101 nəğmə Türk dilinin 101 gözəl mənzərəsidir.

Nəğmə – kosmik ahəngdir.

Nəğmə – şerin şeridir.

Şerin şerini yazıb kosmik ahəng yaratmaq bir missiyadır. Bu, Ramiz Rövşənin missiyasıdır.

BIR HƏFTƏ HƏMID NITQI ILƏ

Atatürk Dil, Kültür, Tarix Qurumunun fəxri üzvlüyünün diplomunu almaq üçün Ankaraya yollandım. Və bir həftə həmin ada layiq görülən beş xarici nümayəndənin biri kimi Ingiltərə Edinburq universitetinin professoru, görkəmli fikir adamı, böyük sənətkar Həmid Nitqi ilə bir mehmanxanada yaşadıq. Gecə oldu. Və mən bu böyük insanı özüm üçün bir daha kəşf etdim.

Təkərli arabacıqda xanımının köməyi ilə hərəkət edən, dözülməz ağrılara qatlaşan bu böyük insanda insana, həyata sevgi zərrə qədər də əskilməmişdi. Içindəki böyük dünya Həmid bəyin mənəvi arxası idi. Şərq və Qərb mədəniyyətinin incəliklərinə yiyələnən bu insanın daxilində hər şey canlıdır, diridir. Mövlana da, Hafiz də, Sədi də, Füzuli də, Şekspir də, Çoser də… Xoş, mülayim və gözəl gözləri, səmimi, parlaq, nur dolu sifəti insana enerji, güc, istilik verir. Üzün də öz şəfası var imiş. H.Nitqinin üzündə bilik, şəfqət, məhəbbət, istedad, qayğı, səmimiyyət elə birləşib ki, onları ayırmaq yox, ayrı təsəvvür etmək belə adamın ağlına gəlmir.

Dünyada elə şeylər var ki, onları insan özü qazanır. Zəhməti, əməyi, səyi ilə. Bir də dünyada elə güc-qüdrət, sirri-xuda var ki, onları insana Allah-təala özü verir. Həmid Nitqi ustadda Allahın verdiyi ilə insanın qazandığı elə üzviləşib ki, onların sərhəddi itib-batıb. Müdrikləri, bilginləri adi insanlardan ayıran çox şey var. Onların başında öz dünyasının qanunlarını gerçək dünyadan uca tutmaq və ona ömürlük sədaqətli olmaqdır.

Həmid Nitqi dünyası bərabərlik dünyasıdır. Haqqı sevgisi qədər olan bu dünya varlıqları səmavidir. Mən bir həftə ərzində bir kimsənin əleyhinə bir kəlmə ağır söz, töhmət, tənə eşitmədim. Anladım ki, Həmid bəy üçün pislik, bədxahlıq, məlunluq, satqınlıq anlayışları var, onların daşıyıcıları Həmid bəy üçün olduqca maraqsız və mənasızdır. Ustad heç onlar haqqında fikirləşmir də. Ancaq fanatizm, laqeydlik, mankurtluq və bu mənəvi xəstəlikləri görən, onlar haqqında düşünən ustad üçün qurbanlarla yanaşı, bu qurbanları çəkən girdab daha maraqlıdır. Və ustad bütün varlığını, gücünü, elmini, sənətini millətə, mədəniyyətə, insanlığa, gözəlliyə düşmən olan dibsiz girdabla mübarizəyə həsr edib. bu mübarizənin özü bir fəlsəfədir. Insan özü ilə mübarizə aparmasa, bu dəyərlərə çətin sahib olsun. Özündən Allah yol arayan yalnız sufilər, hürufilər, mövləvilər, bəktaşilər olmayıb. Servantes də, Rabl də bu yolu arayıb. Russo, Hegel, Kant, Folkner, Marges, Borxes də bu yolun yolçuları olub. Hafiz deyirdi: «Həqiqəti görmədilər və əfsanə dünyasına getdilər». Hafizin gözü ilə dünyanı araşdırır, özünəməxsus incəliklə, duyğu və temperamentlə Hafizi, Sədini türkcəyə çevirir və bəşəri dəyərləri açıqlayır…

Dünyada bundan gözəl nə ola bilər? Sözü gül kimi qoxulayan, sözdən sərxoş olan bir müdrik sənə ululların, ucaların duyğularını, düşüncələrini açıqlayır, özündə görünən Füzulini, öz Nəsimisini, öz Yunisini sənə göstərir, öz yozumunu sadə, təmənnasız, iddiasız bir şəkildə səsn verir. Səni aydınladır, səni xəbərdar edir, səni gözəlləşdirir.

Xətaları görməyən, xətakarları saymayan gözü ilə Həmid Nitqi böyüklüyü, ülviliyi görür və şeytana ən böyük zərbə vurursa, bu da bir məktəbdir.

Əlyazması və xatirəsi qalan oğuznamələr «Dədə Qorqud» dastanları haqqında heç bir kitabda, yazıda olmayan fikirlər söyləyir.

«Dədə Qorqud» həmişə məni iki baxımdan heyran edib. Əvvələ öz şəxsiyyəti ilə. Bir də içi dolu fəlsəfəsi xoşgörüsü ilə.

Bu qan-qada deyil, insanlıq fəlsəfəsidir. Mifik qəhrəmanların çılğın cəhənnəmi ilə deyil, oğuzun bilgə-müdrik babası ilə üzbəüz qalırıq. Əfsanəvi oğuzlarla üzbəüz qalmaqdan zövq alıram.

…Oğuznamələr də hardasa nağıllar kimidir. Dəyişmiş, üslub itmiş, içi qalmışdır. Silsilə ilə dəyişmə həlqələrinin itib-batanı da var, bizə gəlib çatanı da. Böyük dünyanın böyük abidəsidir.

Mən «Dədə Qorqud»dan yazmağa, danışmağa qorxuram. Adamı qorxudan böyüklük, dərinlik, sahilsizlikdir. «Dədə Qorqud»dan yazmaq üçün fələklər güclü, mələklər qədər duyğulu, məhəbbətli olmaq gərək».

Dili, üslubu gözəl duyan, bilən ustad «gedəmmirəm, gedə bilmirəm, gedəmiyorum» sözləri üzərində dayanıb analitik və sintetik biçimlərin məna-semantik incəliyini elə açdı ki, hamımız heyran qaldıq.

Orxon-Yenisey abidələrindəki qalın-incə, dodaqlanan-dodaqlanmayan, sait ahəngi, eləcə də əlifbada reallaşan samit-sait, samit ahəngi üzərində dayandı. Əlifba biliyinin siyasi zəruriliyini açıqladı. Ustadın dil düşüncələri quru təmizləmə deyil, çoxrənglilik, incələşmə, çevikləşmə hesabına dil-üslub, poetika zənginliyi üzərində daha çox dayandı. Ustad üçün dil canlı, yaşayan bir fenomendir. Təmizləmə insanı, oxucuları diksindirməməli, bədiyyat dünyasına saxtalıq gətirməməli. Saxta «təmiz» dil türk ellərini birləşdirməz, ayırar. Eldən, kökdən, qaynaqdan gələn sözlər öz yerini alacaq. Məsələn, birdəfəlik sözü iki anlamdadır. «Həmişəlik» anlamı ilə qarışdırmamaq üçün birovuz gəlməsini seçmək olar… Və Azərbaycanın güneyində işlənən onlarca belə söz saydı.

Yadıma 22-23 yaşında yazdığım «Ana dili təmiz olmalıdır» adlı məqaləm düşdü. Inqilabi narahatlığımı xatırladım. Bir də məni sakit edən «Dil bostan deyil ki, onu alaq otundan təmizləyəsən» (Mirzə Cəlil) fikrini, bir də Füzulinin, Sabirin, Müşfiqin, S.Vurğunun… dilini xatırladım. Təmizliklə zənginliyi üz-üzə qoymağın birtərəfliyini, dilin güclü, qadir, dolğun, çoxrəngli, çoxşəkilli olmağının zəruriliyini anladım.

Dil düşüncə olduğu qədər də tarixdir, düşüncə tarixi, adət-ənənə, təfəkkür tarixidir.

Həmid Nitqinin dilin fəlsəfəsi, sözün şüurla çevrəsi ilə şüuraltı çevrəsi altındakı əlaqə haqqında söhbətləri də ibrətli idi. Bütöv Azərbaycanın türk ədəbi dili haqqında ustad düşüncələri bütün yönləri ilə açıqlanmalı, öyrədilməlidir.

«Varlıq» jurnalında ustadın çox yazılarını oxumuşdum.

Ancaq bu söhbətlər o qədər canlı, çevik və gözəl idi ki, uzun zaman, bəlkə həmişəlik o söhbətin cazibəsindən çıxmaq mümkün deyil.

Ustadın xanımı, oğlu, iki qızı və nəvəsi də mərasimə gəlmişdi. Ustad öz ailəsi içərisində həm ataya, həm də kövrək övlada bənzəyirdi.

Ağır xəstəlik böyük ustadın qarşısında acizdən aciz idi.

Dostumuz Seyfəddin Altaylının evində qonaq olduq. Azərbaycan türk süfrəsi ətrafındakı səmimi söhbət Vətən, millət və ədəbiyyat haqqında idi. Və bu söhbətlərin şah dammarı Həmid Nitqinin gözəl sözləri idi. Yeməyi də, içməyi də, sözü-söhbəti də gözəl, arı-duru olan bu insan mənə Azərbaycan potensialının bir örnəyi kimi xüsusilə qiymətliydi. Təbii

sərvətləri də, dili də, sənəti də, insanları da bənzərsiz olan Azərbaycan türkünün Həmid Nitqi, Cavad Heyət, Savalan, Səhənd… qolu dünyanı çox heyrətləndirəcək. Bağlı qapılar, gizli görünməzlərdən, qatı qaranlıqlardan çox kişilər, çox ərlər, çox bilginlər çıxacaq. Buna əmin olmaq üçün Həmid Nitqinin bircə söhbətində olmaq kifayətdir.

Ixtisasca hüquqşünas ilətişimçi-kommunikasiya uzmanı olan Həmid Nitqinin bəxt ulduzu Sözdə parlayıb. Çörək ağacı olan o biri sənətlər əsl sənəti qorumağa, hifz etməyə xidmətkar olar. Bu da bir taledir. Həmid Nitqi taleyi. Türkiyə humanitar akademiyasının fəxri üzvü adını alan iki kişi evinə qayıtmırdı – qayıda bilməzdi. Həmid Nitqi və bir yaşlı özbək mücahidi H.Babamirzə. Ancaq Həmid Nitqi həmişə öz vətənində yaşayan böyük adamlardandır. Bu vətən onun Sözüdür. Türk dilinin türk sözü Həmid Nitqinin əbədi Vətənidir. Əslində həmişə bu Vətəndə yaşayıb, Dünyaya bu Vətəndən baxır və sevir. Həmid Nitqi yalqız yaşayan bülbülə bənzəyir. Və bir bənzətmədən çox gerçəklikdir. Bülbül kimi dərdli, bülbül kimi şaqraq, bülbül kimi Vətənli, bülbül kimi Vətənsiz, bülbül kimi təkrarsız və bülbül kimi gözəldir.

Təkərli arabacığı aparan xanım – özünü gözəlliyə həsr edən uca xislət getdikcə uzaqlaşır. Uzaqlaşan arabacıq deyil, dilini anlamaya-anlamaya dəlicəsinə sevdiyimiz bülbüldür. Dərd dili, sevgi dili hələ açılmayıb. Açılan bir nalədir, dərd naləsi, sevgi naləsi. Bu nalə dilinin dünyanın o biri üzündə yaşayanlar, yaşayacaqlar anlayır.

Həmid Nitqi dünyanın o biri üzündə oxuyan bülbül kimi qanadlarını çırpıb uçmağa hazırlaşır.

Və uçdu.

Yazıq bizlərə…

QƏDİR ƏZABI

Dünyada bir Qədir Rüstəmov əzabı var. Qədir Rüstəmov dərdinin səsə çevrilıniş, varlığı yox olanların, itirilənlərin əzab harayı, hönkürtüsü.

Bu yaxınlarda bəlkə neçə mininci dəfə "Sona bülbüllər"i dinlədim. Yenə heyrətləndim, yenə hövlləndim, yenə sarsıldım. Qədirin səsindəki tale qaçınınazlığı məni yenidən böldü, parçaladı və bu bölünmə parçalanm mənə yeni qapılar açdı. Neçə min il bundan əvvəl dünyada bir dərd olub. Bu dərdi Sona bülbüllər bilib. Bildiklərini kimsəyə danışmayıblar. Dərd dilində oxuyublar, ötüblər. Və dərd dünyasına dərdlə təsəlli veriblər.

Dərdi dərdlə tutuşdurub dərdsizləşmək, dərdə qarışmaq və dərdlə canbir olmaq onu ruhun bir parçasına çevirmək də bir əlacdı... Allah insana sonsuz dərd verdiyi kimi, sonsuz da əlac verib. Füzuli əzabının Füzuli əlacı var. Qədir əzabının da əlacı elə Qədir özüdür.

Qədir, əslində, sona bülbüllərin dilindən səsə çevirdiyi naləni bir dəfə çəkib. O nalə bəlkə yuxuda olub, bəlkə ana bətnində olub, bəlkə axar çay suya baxanda olub. Bilmirəm. Amma o dərd təşnəliyi dünyaya bir dəfə gələn, bir dəfə gəlməsini Tanrının özünün qərarlaşdırdığı vergidir, ilahi vəhydir. Bizim eşitdiyimiz "Sona bülbüllər" Qədirin o vəhydən yadında qalanları çox çətinliklə, fiziki, bioloji ağrı ilə çatdırdıqlarıdır. Səs yaddaşındakıları deyə bilməyən Qədirin bir dəfə olanı büsbütün, olduğu kimi danışmaq gücüdür. Yuxunu danışmaq mümkün deyil. Onun öz dili unudulub, yoxdur. İndi Qədirin danışdığı tərcümədir. Yadda qalanın ifadə gücü o qədərdir. Var olmuş bütünlüklə ifadə arasındakı ziddiyyət, fərq Qədiri ağladır, inlədir. Və Qədir çox çalışır, çox cəhd edir, çarpmır, qıvrılır ki, xəyalındakı ana bətninin özü kimi uzaq olan o uyumu, o rahatlığı bizə danışsın, bizə çatdırsın. İlahi, o uyum insanlara çatsa, necə rahatlıq, dinclik gələcək. İnsan nələrdən qurtulacaq.

Qədir hiss edir, duyur. Ancaq dərk edə bilmir. İdrakin o üzünü kim dərk edir ki? İdraka gələn yolları kim görür ki?

Qədir əzabı ruhun axtarışından gəlir. Ruh axtarır və tapmır. Ruh böyüyüb dünya boyda olur, kiçilib bir ürək boyda da olur. Ruh öz əbədiyyətindəki kəsik-kəsik keçəriliklərdən keçdikcə kəsik-kəsik də bölünür.

Ruhun sarsıntılarında yaranan çatlar bu əbədiyyətin özünə köçür.

Bəlkə bu bir möcüzədir, olmazlıqdır, ilğımdır, mümkünsüzlükdür. Əgər belədirsə, o yuxu niyə unudulmur? Əgər belədirsə, axıb keçən axar su niyə hər dəfə o vəhydən danışır? Belədirsə, içimə çökən o yanğı niyə sönmür? Niyə məni didib-dağıdır? Niyə məni sökür? O yaşıl taladakı balaca bəlkə yadda qalan gələcəkdən gələndir? Unudulan və unudulmağı mümkünsüz olan o dərd tale yüküdür, taleyin özüdür.

O taleyi Tanrı çoxmu adama söylədi?

Bilmirəm.

O taleyi bir yaz gecəsi yuxusunda görənlərdəndir Qədir. Qədir o yuxunu bu hayküyün, uğultunun, bağırtının içində danışmaq istəyir. O çiçək yuxusunu, o sona bülbül dilini tərcümə etmək istəyir.

Bu dərd o dərddən deyil. Cənnət də var, cəhənnəm də. Bir də o böyük varlığa gedən yol var. Bir də bu yolun əzabı var.

Yox, Qədir kişi, sənin o zəif cüssən bu ağırlığı çəkə bilməz. Allah özü oxutmasa, sənin oxumağın müşkül məsələdir. Allah-təalanın öz əmri var. Bu çiyin bu yükü çəkəcək!

Dünyada Şekspir yükünü Şekspir çəkib, Füzuli yükünü də Füzuli. Qədir yükünü Qədir, Alim yükünü Alim çəkməlidir. Dünyanın ən böyük qəbahəti odur ki, kimsə kiminsə yükünü çəkmək istəyir və ya çəkməli olur. Onda işin tərsliyi - dünyanın tərsliyi başlayır. Bu bir tarix, tale missiyasıdır. Tale missiyası qaçınılmazdır.

Bu dərdin dəhşəti sirrindədir. Sirr kimə bəyandı ki, Allahdan başqa? Dünyada nə çox dünya sirri arayıb axtaranlar var. Uzağa gedən uzaq sirri, yaxına gedən yaxın sirri arayır.

Qədir kişi özünü tanıyanda səsini tapıb. Səsini tapandan özünü tanıyıb. Və

bığ yeri yenicə tərləmiş Qədir "Sona bülbüllər"ə doğru çox uzaq yol keçib.

"Sona bülbüllər"dən sonra da bir xeyli yol gedib. "Sona bülbüllər" tək Qədirin

deyil, Azərbaycan musiqisinin bölünmə məqamı - sərhəddidir: "Sona

bülbüllər"ə qədər və "Sona bülbüllər"dən sonra.

Oxuya-oxuya qıvrılan Qədir ürəyinin bir yerində Allaha hesabat verir. Tövbə dediyimiz bu hesabat güclü leysan yağışında Göylə Yerin göz-gözə, nəfəs-nəfəsə görüşünə bənzəyir.

Bu ilahi səs Haqqdan xəbər verir. Qədir "Sona bülbüllər" adlı dərd mələyini dünyanın o başından öz yanına çağırır.

Bəzən heç dilini bilınədiyin insanın bir ahı, bir naləsi bir kitab sözdən daha çox şey deyir.

Qədirin bir kənd toyunda dostları üçün musiqisiz-filansız oxuduğu bir muğam yadımdadır.

Qədirin, ürəyiyaralı dostunun oğul toyunda oxuduğu muğam da yaxşı yadımdadır.

Dostum Aqil Abbasın Qədir haqqında yazdığı ürək sözləri də yadımdadır. Qəlyanını sümürə-sümürə bu qəribə dünyaya yuxulu-yuxulu baxıb heyrət içində düşünən Qədir də yadımdadır.

Qədir dünyası yağışlı-yağmurlu dünyadır. Bir üzü qız, bir üzü-gəlin dünya, dərdini Qədirə tapşırıb, sevincini, şadlığını dünyanın yerdə qalan adamlarının çoxuna.

Qoy bu dünyanın dərdini çəkənlər çəksin.

Elçibəy çəksin. Ramiz Rövşən çəksin, Alim Qasımov çəksin. Qoy bu dünyanın dərdini Rəmiş çəksin.

Və bu dünyanın dərdini Qədir Rüstəmov çəksin.

Çərxin çevrilsin, ay dünya... Qədiri Vətənsiz qoymağa gücün çatdı. Qədirə o torpaqdan düşən bir loxma çörəyi, beş damla suyu çox gördün.

Sirrinimi açdı Qədir, ay dünya? Bir sirrə bir Qarabağ intiqamı çox deyilmi, ay gidi dünya?

Qədir sirri kefindən açmadı, dərdindən açdı.

O sirrin açarı min il bundan qabaq Qədirin qismətinə düşmüşdü. Qismətdən qaçmaq olınaz.

Qədirin dünyanın bütün oxuyanlarından bir fərqi var. Bu fərq Qədirlə yer üzünün bütün oxuyanlarını ayırır. Hamı O dünyadan xəbər gətirir. Qədir Bu dünyadan O dünyaya xəbər aparır. Hamı gəlir, Qədir gedir.

Bu da Qədirin öz taleyidir. Həm xoşbətxtliyi, həm də bədbəxtliyidir.

Bu da ağ ciyərdən gələn səsin ürəyin yanından qorxa-qorxa keçib, yanğından qaçan uşaq kimi azadlığa atılmasıdır. Bu da səsin bayramıdır. Bu, bir udum havanın bəxtidir.

Bəxt dedim, yadıma bəxtsizlik düşdü, dərd dedim, yadıma dərdsizlik düşdü.

Və bəxtsiz, dərdsiz, Qədirsiz dünyanı mənasız, duzsuz-dadsız gördüm.

Deyirlər Qədir balıq tutmağı çox sevir. Hirsini, hikkəsini sularda azdırır. Kim bilir, bəlkə də Qədir özü də o xırçın sularda "Sona bülbüllər"! düşünür.

Sular axıb keçdikcə suların dibindəki daşlar bir az da gözəlləşib. Qədir başını qaldırıb göy üzündəki ulduzlara baxanda bəlkə "Sona bülbüllər"in bir daha qayıtmayacağını bilib. "Sona bülbüllər" adlı əmanəti insanlara çatdırıb. Nə qədər gücü varsa, o qədər çatdırıb. "Sona bülbüllər"! Allah Qədirə verdiyi gücdə-qüdrətdə heç kəs oxumayacaq. Və heç kəs "Sona bülbüllər"in sirrini bilməyəcək.

Hər kəsin bildiyi o nalə, o əfğan olacaq.

Hər kəsin bildiyi, qıvrıla-qıvrıla fəğan edən o kişi olacaq.

Hər kəsin bildiyi, heç kəsin bilmədiyi Qədir olacaq.

XX yüzilliyin sonlarında Qarabağsız yaşayan Qarabağlı Qədir Rüstəmov.

...Yüz ildən, min ildən sonra yerdə yaşayan, göy oğlu Qədir Rüstəmov dünyaya gəldi, "Sona bülbüllər"i oxudu və dünyadan köçdü.

Allah ömür versin!

ŞAH ISMAYIL – SULTAN SƏLIM SAVAŞI:

TARIXI ZƏRURƏT, YOXSA TALEYIN KINAYƏSI?

Çaldıran savaşından 490 il keçdi…

Bir vəqt Şah Ismayilü Sultan Səlim,
Məftun olaraq eylədik islami dünimə
Qoyduq iki tazə adı bir dini-qədim
Saldı bu təşəyya, bu təsənnun bizi bimə…
Qaldıqca bu halətə səzayi-əsəsiz biz!
Öz dinimizin başına əngəlkələfiz biz!

(M.Ə.Sabir)

Dünyada elə sərhədlər var ki, o sərhədləri kimin nə üçün qoyduğu bilinmir.

Elə sərhədlər var ki, orada faciə ilə komediyanı, fəlakətlə günün adiliyini ayırmaq çətindir.

Tarix də belədir. Tarixin də sərhədləri kifayət qədər qeyri-müəyyən və mücərrəddir.

Tarixi mənalandıran, onda fəlsəfə, məntiq, mahiyyət axtaran insandır.

Insan tarixə qayıtmaqla özünü, əslini, qayəsini axtarır, öz davamını təsdiq edir.

…Mən bu yazını ürəyimin hökmü ilə yazdım. Nə sünni, nə də şiə kimi yazdım, müsəlman türk kimi qələmə aldım. Məqsədim məhkəmə məclisi qurmaq da deyil. Doğrudur, tarixi mühakimə etmək-soruşdurmaq mənim də haqqımdır. Ancaq mən bu məqsəddən uzağam. Yavuz Sultan da, Şah Ismayıl da mənim babalarımdır. Mənim qanımda onların da qanı var, şah, sultan olmayan onlarca, yüzlərcə insanın da … Mən öz qanımı özüm sorğuya çəkirəm. Özüm öz tarixi taleyimə baxıram və içimdəki şəxsiyyətlərə baxıram, onların taleyindəki (yəni mənim öz taleyimdəki) nə üçünlərə cavab vermək istəyirəm. Hadisələr mənim üçün o şədər də əhəmiyyətli deyil. Minlərlə tarix kitabını elədən belə, belədən elə çevirmişəm. Mənim üçün Yavuz Sultan adı babamla Şah Ismayıl adı babamın tariz fəlsəfəsi, dövlətçilik dünyagörüşü, onların olduqca diqqətçəkən tale oyunları maraqlıdır.

Iç Oğuz və Dış Oğuz, Teymur və Ildırım Bəyazit, Ağqoyunlu və Qaraqoyunlu …toqquşmaları, savaşlarının fitvasını kim verdi ? nədən qardaş qardaşa qənim kəsildi ? Ikiləşən dünyada özünə cahad Allahın hökmüdür, ya şeytanın?

Sual çox, cavab az…. Dünya dərin, insan mürəkkəb. Olaylar çözümlü olaylar çözümsüz.

Şübhəsiz ki, tarixi yaradan, imperatorluqları, dövlətləri quran böyük xalqlardan biri də türk xalqı türk millətidir.

Tarix, dövlət, mədəniyyət yaradan türk millətinin taleyi, genetik kodu hər bir türkdə yaşayır. Hər bir türkün yaddaş tarixi bu Böyük tarixdən yogrulub. Və mənim də bir türk kimi öz yaddaşıma enmək,öz yaddaşıma dolanacaq, öz tarixi fəaliyyətimin şüarında və şüurüstündəki varlığı üzərində düşünmək haqqım var.

Mən bu yazını haqqım üçün yazdım.

…Tarixi yazmaq zərurətdimi? Onu yazmaq kimin haqqıdır? Əsl tarix nədir? Tarixə baxış bucaqları tarixin gerçək üzünü göstərirmi? Tarixin idrakı nə vaxt başlayır?

Bu suallara tam, dəqiq cavab vermək çətindir. Çox güman ki, tarixi yazmaq ilk növbədə tarixi yaradanların doğal haqqıdır. Əgər türkləri tarix yaradan xalq kimi qəbul edirsə, o, tarixi yazan xalq kimi də gerçəkləşdirməlidir. Tarixi yazmaq, əlbəttə ki, yalnız qaliblərin haqqı deyil. Məğlubların da tarix yazmaq haqqı danılmazdır.

Tarixi yalnız tarixçilər yazmır. Və ümumən tarix yalnız tarix dilində olmur.

Türkün tarixi xalçada da yazılıb, qaya üstündə də, memarlıqda da, musiqi dilində də, rəng dilində. Türkün bir tarixi də oğuznamələr – Dədə Qorqudnamələrdir. Başqa bir tarixi – Mövlana, Yunus Əmrə, Nəsimi, Xətai və Füzuli qələmə alıb. Fərabi, Kaşqarlı, Balasaqunlu, Ibn Sinan, Marağalı, Urməvi, Sinan… da tarix yazıb.

Əslində hər bir fənd – türkün öz türk, ümumi türk tarixi var və gerçək türk tarixi bütün türklərin həyatından, beynindən, ürəyindən keçib gedən tarixdir… Baxış bucaqları tarixin də insanın görünən və görünməyən üzləridir.

Türk tarixi bəşər tarixinin ayrılmaz bir parçasıdır, insan da bəşəriyyətin. Bu da bir baxışdır.

Yavuz Sultan da, Şah Ismayıl da doğulmamış onların taleyi dünyaya gəlmişdir. Insan öz taleyinin ardınca gedir. Ortaq tarix Səlcuqlarından sonra bir daha haçalandı (Ilahi, neçənci dəfə).

Mənim babalarım Osmanlı dövləti yaratdı. Osman Qazinin türk dövləti dünyanın ən böyük dövlətlərindən biri, əbədi tarix, böyük dərs olacaqdır. Azərbaycan ərazisində də milli-entik zəmində dövlətlər yaranacaq.

Elxanilərdən sonra dünya dəyişəcək. Zaman çalxalanacaq. Yeni dünyanın yeni günəşi doğacaq.

Və Şah Ismayıl Sultan Səlimə deyil, Zamana təslim olacaq. Bir Zaman gələcək başqa bir Zaman Osmanlı dövlətini təslim edəcək.

Dövlət-dəyişən, dövr edən deməkdir. Hər dövrün öz dövləti var. Hər dövlətin öz Zamanı var. Və hər Zamanın da öz dövləti.

Insan doğulduğu zamana oxşayır.

Insan doğulduğu, yaşadığı təbiətə də çox oxşardır. Insan həm də içində doğulduğu Dövlətə bənzəyir. Bu dövlətin xarakteri insanlara köçür.

Qabilin Habili öldürdüyündən uzun illər keçmişdi. Keçən bu neçə minilliklərdə çox qardaş qardaşı, ata oğulu, oğul atanı qətlə yetirmişdi.

Və dünyada böyük Allahdan-yaradandan başqa, birdə üsyançı şeytan var idi. Onu da Allah yaratmışdı. Insanı torpaqdan, şeytanı atəşdən yaratmışdı.

Atəşdən yaranan şeytan asi idi. O, Allaha üsyan etmişdi. O, böyük yaradan kimi Allahı qəbul edirdi. Onun qəbul etmədiyi və aşağıladığı varlıq insan idi.

O, Allaha sübut etmək istəyirdi ki, insan sənin zərrən deyil, o naqisdir və heç vaxt kamil olmayacaq. Bu sübut üçün Allah Şeytana sonsuz imkanları vermişdi. Allah onu sevməsə

də, lənətləsə də Allahın qoruduğu bu sonsuz dünyada şeytana da ehtiyac var idi. Bu dünya teatrını yaradan Tanrı şeytan obrazı ilə yaratdığı dünyanı bitkin görürdü.

Allah baxır, idarə edir. Dünya yaşayır. Insan ömür sürür. Şeytan onu imtahana çəkirdi. Bu sonsuz oyunda gah şeytan udur, gah insan.

Allahın səbri böyükdür. Bu böyük səbrin içində Allahın altında, torpağın üstündə bir dünya yaşayırdı.

Insan sevir, əkir, biçir, qurur, dünya içində dünya yaradır – şeytan dişini dişinə qıcayır, cin atına minirdi.

Savaşlar başlayır, kin-küdurət, nifrət dünyanı başına götürür.

Qardaş qardaşı öldürür. Şeytan gülümsəyir və bic-bic: «Budurmu sən tərif etdiyin varlıq? Budurmu insanlıq?».

Allah dinmir. Allahın səbri böyükdür. Allah yaratdıqlarından fərqli olaraq hər şeyi bilən-dir.

Və hər şeyin yaratdıqları tərəfindən anlaşılacağına, dərk ediləcəyinə inanandır.

Allahın bu inamı sonsuzdur. Hər şeyi bilən, hər şeydən xəbərdar Allah özüdür. Onun şəriki yoxdur.

Habil Qabili öldürdü. Qardaş qanı torpağa töküldü. Bu torpaqda qıpqırmızı qan rəngində qızılgül bitdi.

Ay ötdü, il dolandı. Dünya gəlib XVI yüzilliyə çatdı.

Dünyanın bir tərəfində bir qardaşın taxt-tacı, o biri başqasında digər qardaşın zəfər tacı.

Ortada şeytan.

Və ağır addımlarıyla dünyaya XVI yüzillik gəlirdi. Göydə Allah, yerdə iki qardaş, ortada şeytan.

* * *

…Orta Asiya – Türküstan ilə Kiçik Asiya – Qafqaz arasındakı daha çox uzaq keçmişlərə gedir. Bu davamın din, millət, etnik, təriqət… əsası yoxdur. Sayılanlar bu dava və ziddiyyətlərin zahiri pərdəsidir.

Türklərə türklərin, müsəlmanlara müsəlmanların tarixi savaşlarının kökündə, mayasında etnos və ya din deyil, geopolitik savaş dayanır. Hər Zamanın geostrateji iddiaları bu davaların gerçəkləşməsinin başlıca səbəbidir.

Kiçik Asiya – Aralıq dənizi, Orta Asiya – Hind Okeanı Asiyaya, Avropaya, Afrikaya – yəni dünyaya ağalığın açan məkandır. Istər Soqdia, Baktriya, Bizans, Samanilər olsun, istərsə də Mavərənnəhr, Osmanlı, Səlcuqlu… olsun.

Qafqaz bu iki geostrateji mərkəzin keçid sahəsidir.

Doğrudan da hələ XVI əsr düşüncəsində «dünya iki hökmdar arasında bölüşəcək qədər böyük deyil» (S.Səlim).

* * *

…XV-XVI əsrlərdə Avropa renessans mərhələsi yaşadı. Mədəniyyətin bütün sahələrinə nüfuz edən bu dirçəliş, yenidən oyanma (antik dövrdən sonrakı oyanma) Avropanı yenidən doğdu. Dəniz hökmranlığı, Amerikanın kəşfi, Hindistana yeni yol tapılması geostrateji an-

layışları dəyişdiyi kimi, bu ortamda Avropanın (özəlliklə Ingiltərənin, Almaniyanın, Fransanın, Portuqaliyanın, Ispaniyanın) rolunu, yerini, önəmini də dəyişdi. Elm və texnologiya tamamilə yeni inkişaf yoluna girdi. Praqmatizm və utilatarçılıqla idealist və materialist baxışın sintezi yeni dəyər qazandı.

Bu texnologiya silahları, mənqliyyatı, sənayeni, kənd təsərrüfatını yenidən dəyişdiyi kimi, mədəniyyəti, idarəçiliyi, mənəvi sistemləri də dəyişməyə başladı.

Din – inkvizisiya mərhələsi keçmiş Avropa üçün buxova çevrilmədi. Bütün fəsadları ilə bitdi.

Dövlətin dünyəvi yönü dünyaya verə bilməyəcəyini verdi və din bu yolda əngəl olmadı.

Avropanın yüksəlişi Şərqin, Asiyanın tənəzzülü ilə bərabər getdi.

Şərq geriyə, Qərb irəliyə…

Osmanlı dövləti zamanı haqlaya bilmədi. Zaman onu haqladı. Irəliləyən Zamanın içində Avropa var idi. Geriyə qalan zaman Şərqin zamanı idi.

Mədəniyyətdən, fəlsəfədən başlayan yeniləşmə öz yerini texnika və texnologiyaya verdi. Bir imperiyanın bitdiyi yerdə başqa imperiyanın gələcək həyatı başladı.

Qəribədir ki, tarixin böyük fatehlərinin, inqilabçılarının mayasında intiqam, qisas hissi olub, atasının, anasının, qardaş-bacısının, övladının intiqamını alan fatehlərin mayasındakı bu qisas kompleksi bəlkə bu böyük savaşların, devrimlərin ilk qığılcımıdır?

Bəlkə o maya, cövhər dediyimiz şüurun ayrılmaz bir parçasıdır?

Öz əli ilə öldürüldükləri atalarının və əlləri ilə boğduqları övladlarının intiqamını dünyadan alan hökmdarlar azmıdır? Dövlət naminə edilən bu addımların mahiyyətindəki intiqamın, qisasın bir adı da özündənqisasalma, özündənintiqamalma idi.

Və Şah Ismayıl atasının, babasının, ulu babasının intiqamını alırdı.

Əlbəttə ki, bu intiqamın böyük dövlət quruculuğuna gələn yollarını görmək və dəyərləndirmək şərti ilə bu amil də yersiz deyil.

Hökmdarlar da şair idi. Şairlərin yanında böyük şairlər də var idi. Bir ucu Çin səddi, səddi-Dərbənddən səddi-Çinə uzanan Ipək yolu həm də şer, sənət, mədəniyyət yolu idi. Bu yollarda muğamlar oxunur, şer məclisləri qurulur, könül duyğuları xalı-xalça üstündü dünyanı gəzirdi.

Dünyanın yorğun şəhərləri yollar yorğunu karvanların, tacirlərin, əsgərlərin, səyyahların alın təriylə islanmış, ayaq tozu ilə tozlanmışdı.

Yol boyundakı şəhərlərdəki, kəndlərdəki, karvansaralardakı, çadırlardakı insanlar yollar yorğunu insanlara baxa-baxa yorğun düşmüş, yorula-yorula qocalmışdı.

Yollar mədəniyyət, ticarət yaşadığı kimi, döyüşlər, savaşlar da yaşayırdı.

Yollardan bərəkət də, qan-qada da axıb-azıb gedirdi…

Şah Ismayılın sufiliyi, şairliyi qılınc çalan Şah Ismayılın qan tökən, baş kəsən fiziki gücündən ayrılmazdır.

Bu, şəxsiyyətin ikiləşməsi kimi, anlaşıla bilər. Vahid şəxsiyyətin bir-birini görməyən iki üzü təbiətin özü kimidir: qışı da var, yazı da, gözəli də var, çirkini də. Bu ikilik yaranışın əsasıdır.

Hökmdar Şah Ismayıl şair Şah Ismayıla təslim olmur, şair Şah Ismayıl da hökmdara.

Bu iki üz bir şəxsiyyətin tamamlanmış rəsmidir.

Tarixdə tarixin rəsmləri qalır.

Bu rəsmləri Allah özü çəkir: ağaca, daşa, qayaya, yarpağa.

…Babası Şeyx Səbahəddin gecələri Şah Ismayıla pıçıldayırdı: - Cavanım, niyə bu dünyanın hərbə-zorbasına getdin? Bizim savaşımız könül savaşıydı… Sən nədən könül savaşından uzaq düşüb dünya savaşına çıxdın? Bu dünyanın yalanlığını bilmədinmi? Dərviş ruhunu unudub padşahlığı seçdin. Yoxluq kimi görünən varlığı sən də görmədinmi?

O dünyanı sənin Sözün tuturdu. Insanlar Sözünə gəlirdi. Dünya Sözündə əriyirdi.

Nədən Sözü unutdun?

Sultanın fars sözü Sənin türk sözünə təslim olmuşdu. Təslim olanla niyə üz-üzə gəldin? Nədən farsa? Heç bunu düşündünmü? Bu farscanın duyğu, şer dili olmağındandırmı? Ərəb dilinin, Quran dilinin xofundan qaçıb o cazibədən qurtarmaq cəhdimi? Allah bilir… Sözünə top-tüfənglə gəldilər. Səni bu dünyaya qaytardılar. Ilahi olan gerçək gördülər. Gerçəyi məğlub etməyə nə var ki? Ilahi tarixdən enməməliydim. Endin və yendin. Çəkəcəyini çək. Sənə ən çox çəkdirən səndən törənənlər olacaqdır. Dünyanı itirmisən. Itmiş dünyanın intiqamı yaman olur, övladım. Mənim şah övladım…

* * *

…Dünyada ən zavalı çiçəklər özü-özünü tozlayan çiçəklərdir. O çiçəklər həm erkəkdir, həm dişi.

Insanın içindəki hüdudlarda da bəzən hüdudsuzluq yaranır.

Insan öz içində cins sərhədlərini itirir.

Əli qılınclı, pələnc bilkli Şah Ismayıl erkəkdir, kişidir. Erkək şirdir.

Əli qələmli Şah Ismayıl özü-özünü tozlayan çiçək kimidir. Ruhun ilahi davranışı cins bölgüsü tanımır. Eşqin qadın-kişi hüdudu yoxdur.

Və Şah Ismayıl şah olmazdan neçə yüz il öncə şah olmuşdu. Doğularkən üç dəfə söylənən Şah kəlməsi ona əcdaddan gələn şahlıq vermişdi.

Həzrəti Əlinin şahlığı bütün şahlıqlardan ucadır, ucadır.

Şah Ismayıl əlinə qələm alıb sözləri yan-yana düzəndə, öz yaratdığı könül dünyasının şahı olurdu.

Sözlərin, duyğuların, düşüncələrin şahı – Şah Ismayıl.

* * *

…Tarix tarixi – türk düşüncəsinin, tarix fəlsəfəsinin özüdür.

Türk tarixi türk coğrafiyasının, türk iqtisadiyyatının tarixidir.

Türk tarixi – türk ailəsinin, türk zövqünün, Türk gözəlliyinin, türk qəhrəmanlığının… tarixidir.

Və nəhayət, Türk tarixi – türk Dili tarixidir.

* * *

Bu baxış bucaqları dəyişdikcə tarixin görünməyən üzləri görünür, gerçək tarixin boyutları, rənglər cilvələri olduğu kimi öz mənzərəsini alır.

Rejimlər bu tarixi yazmağa yasaq qoymuşdur. Işğalçı rejimlərin ən böyük qorxusu gerçək tarix olmuşdur.

Doğrudan da: «Görəsən, Azərbaycan tarixini gerçək yazmaq üçün «idealissevərlik və millətsevərlik» nəyə gərəkdir? Əsl bəla elə burasındadır. Axı, Brokkelman, Mess, Kinross, Bartold, Çibb… ərəb və türklərin tarixini yazarkən ona idealissevərlik, ərəb ya da türk millətpərvərliyi lazım olmayıb, öüz də gerçək yazıb, ona alimliyi kifayət edib. Bəs nə üçün biz öz tariximizi gerçək yazmaq istəyəndə bizdən alimlikdən əlavə fədakarlıq, milli qeyrət, daha nə bilim nə tələb olunur? Çox acınacaqlı olsa da, bu belədir. Biz öz gerçək tariximizi yazmaq istəyəndə (yazandan sonra yox, belə olsaydı dərd yarıydı) ömür boyu ba tarixi saxtalaşdıran, arxasını hansısa siyasətə dirəyən yeddi qolu (başı yox) «əydahalarla» üz-üzə gəlirik.

«Ümumi qədim türk tarixi öyrənilməyincə Azərbaycan tarixi düzgün araşdırıla bilməz» (Ə.Elçibəy). Və elmi metodoloji olmayınca türk tarixi nağıldan, cəhalətdən xilas ola bilməz.

Bu, məsələnin bir tərəfidir. Təəssüf ki, milli tarixinə və ya yalnız Osmanlı tarixinə indeksləşən müstəqil Türkiyə tarixçilik elmi də türk tarixinin böyük problemlərini metod və sistem baxımından obyektiv və dərin təhlil apara bilməmişdir.

Dövlət – sözü ərəb kəlməsidir. Beş-altı mənada işlənən sözün dövretmə, tədavü, zənginlik, ağıl-idrak anlamları indiki mənaların əsasında dayanır. Dövlətin türkcə qarşılığı il (el)dir. Kəlmənin anlamı dövlət olsa da, millət mənasını daşıyır.

Əgər millət və dövlət anlayışları bir kəlmədə toplana bilirsə, bu çoxanlamlılıq tarixi gerçəkliyi ifadə edir. Ilteris xaqanın adına diqqət edək: il – dövlət, millət, teris – nizamlayan, ahəngdar vəziyyətə salan deməkdir. Dövlətin başçısı elin, dövlətin nizamlayıcısıdır. Indi ingiliscə National kəlməsi həm millət, həm də dövdət anlamını ifadə edirsə, təsadüfi deyil. Bu bir tipoloji bənzərlik deyil, dövlət mexanizminin mahiyyətindəki potensialın tamam başqa bir tarixi məqamda gerçəkləşməsidir.

Türklər dünyanın dövlət quran xalqı kimi dünyada məşhurdur. 2500 illik dövlətçilik tarixini türklərin cahan dövləti qurmaq ideyasının əsasında türk tarixi, türk mənəviyyatı, türk fəlsəfəsi dayanır.

Iskit, Hun, Uyğur, Xəzər, Göytürk, Qarahanlı, Səlcuq, Osmanlı, Elxani, Eldəgiz, Atabəy, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi, Teymur, Qızıl Orda… dövlətlərinin tarixi türk dövlətçilik tarixidir. Dövlət qurmaq, dövləti qorumaq, dünyanın özü qədər genişləndirmək Tanrının türklərə verdiyi missiyadır.

Hun hökmdarı Mode və Atilla Tanrı buyruğunu yerinə yetirir. Təsadüfi deyil ki, Mode – göylərin təyin etdiyi hökmdar (çinlilərdə olduğu kimi), Atilla isə «Tanrı qırmancı»dır, Çingizin Göyoğlu adlanması da bu sistemin sonucudur.

Orxon-Yenisey abidələrində Qut (ruh, xeyir, bərəkət, xoşbəxtlik), Güc (qüdrət) və Ülüq (törəyiş) dövlətin əsasıdır.

«Qutadqu bilik»də Qarahanlı dövlətinin əsasındakı siyasi, iqtisadi, mənəvi azadlığın əsasında Gün doğdu obrazında simvollaşan ədalət, hüquq, toxluq, dinclik dövlətdəki Qutun

vəsfidir. Bu qutu toy Tanrı verir. Sağ əlində qılınc, sol əlində bərəkət tutan hökmdar türk dövlət başçısının rəmzidir.

Oğuz Kağan dastanı da el idarəetmə sistemini və cahan dövləti ideyasını əks etdirən bədii-tarixi abidədir. 24 Oğuz boyunun (altı, on iki, iyirmi dörd) sağ-sol (bozok-üçok) sistemi sosial-iyerarxix sistemi və demokratik tabeçiliyi əks etdirir. Burada qəbilə-tayfa təşkilat quruluşu ilə hərbi-inzibati sistem üst-üstə düşür.

Qanuni Sultan Süleymanın aşağıdakı beytini xatırlamadan fikrimi davam edə bilmirəm:

Xalq içində mötəbər bir nəsnə yox dövlət kimi,

Olmaya dövlət cahanda bir nəfəs səhhət kimi…

Yavuz Sultanla Şah Ismayılın tarixi faciə olan savaşının dövlət amilini nəzərə almadan açmaq mümkün deyil.

Türklərin bir millət olaraq daşıdığı sosial-etnik dəyərlər içində dövlətçilik və fütuhatçılıq önəmli bir yer tutur.

Türk dövlətinin başlıca tarixi özəlliyi onun hamının mənafeyini təmsil etməsidir. El (il) ilarəetmə sisteminin əsasında hərbi-demokratik prinsip dayanırdı. Dövlətin zirvəsi Kağan, ordunun başında təkin (tiqin), inzibati (hərbi) bölünmələrin başında şad dayanırdı.

Şad, təxminən marşal rütbəsi idi.

Tayfa bəyləri də bu funksiyanı yerinə yetirirdi.

Atlı-köçəri sistem üçün tipik olan bu sosial model-dövlət tipində bozqır-çöl həyat tərzinin qaraçı köçəriliyindən fərqini əsaslı şəkildə vurğulamaq gərəkdir.

Türk köçəriliyi qanunçuluq təsərrüfat tərzi ilə qırılmaz şəkildə bağlı idi və şəhərlərin ətrafında hərəkətli şəkildə yaşam sürdürürdü (yaylaq, qışlaq yaşam tərzi, yayvari şəkildə gündoğandan günbatana və əksinə hərəkət tərzi…).

Oğuzlarda ali idarəedici orqan toy və onun məhdud forması kənqəş idi (gənəşmək, məsləhətləşmək, kökündən kənqəş, yeni məsləhət yeri, məşvərət məclisi). Toy bütün eli, kənqəğ isə ağsaqqalları əhatə edir. monqollardan sonra Oğuz dastanlarında işlənən bu termini qurultay termini əvəz edir.

* * *

Yeri gəlmişkən, qeyd edim ki, ayrı-ayrı problemləri Z.Q.Toğan, I.Qəfəoğlu, B.Ögəl, L.Qumilyev, I.Miziyev, M.Seyidov, F.Buyat… tərəfindən araşdırılan, açıqlığa qovuşdurulan türk dövlətinin mahiyyətini bilmədən türk tarixinin çox böyük problemlərini açmaq qeyri-mümkündür.

Oğuz dastanında ali dövlət məclisi – kənqəş (toy) ilk dəfə çağırılır, iki dəfə Oğuz dünyanı fəth etmək üçün hazırlaşanda, ikinci dəfə binar şad-sel bölgülü ərazi idarəetmə, hərbi strukturunu müəyyənləşdirmək üçün. Toyun başında Ulu Türk, Kənqəş bəylərinin başında Irkil (Arkıl) Qoca dururdu. «Dədə Qorqud» oğuznamələrində (hərbi-demokratik idarə sisteminin son pilləsi) Bayandır xan xanlar xanıdır. Qazan xan hərbi rəhbərdir (bir növ Genel Kurmay Başkanı və ya Ali Baş Ştab rəisi), Aruz Qoca altı qocanın – tayfa başçısının (Aruz Qoca, Qazılıq Qoca, Kanqlı Qoca, Duxa Qoca, Uzun Qoca, Ənsə Qoca) iştirak etdiyi ağsaqqallar sırasına rəhbərlik edir.

Hökmdarın mütləqlik sürəsinin müxtəlif səviyyələri türk dövlətlərində (eləcə də abidələrində) öz əksini tapıb.

Hökmdarın Tanrı oğlu olması hökmdarın toplumda (və əlbəttə ki, dövlətdə) qultlaşması ilə bağlıdır.

Yeri gəlmişkən, Şah Ismayıl Xətainin soy kökünün Həzrət Əli ilə bağlanması və Sahibəzzaman Imam Mehdi ilə eyniləşdirilməsi həmin o mütləqləşdirmənin inkasıdır.

Səlcuqlar və sonralar Osmanlılar ikta torpaqları hesabına köçəri həyat tərzindən oturaq həyata keçməyə başladı.

Oturaq həyat nizami daimi ordu demək idi. Və nəhayət, bu ictimai-siyasi tendensiya hərbi-demokratik dövlətdən feodal dövlət tipinə keçid idi. Şübhəsiz ki, idarəetmə sistemində tayfa başçısının rolu azalır, hökmdarın rolu artmış olur.

Törə sistemi yalnız anayasa, qanunvericilik sistemi deyil, həm də adət-ənənə, hüquqlu idarəetmə, etnik psixologiya demək idi. Islamın qəbulundan sonra şəriətlə əvəzlənsə də, dövlət fəlsəfəsində mühüm yer tutan törə türk dövlətlərinin biri olmuşdur. Törə və hökmdar münasibətləri çox maraqlıdır, tarixən dəyişən ictimai-siyasi kateqoriyadır. Fütuhat ideologiyası türk etnosunun passionar (Y.Qumilyv) sosial-bioloji gücü ilə bağlı olmuşdur. Oğuzçuluq və fütuhat ideologiyası bir medalın iki üzü kimidir. Bu ideologiya özündə həm hücum, həm də özünümüdafiə sistemini birləşdirir. Türkün mövcudluğunu dövlətdən ayrı düşünməmək mümkün olmadığı üçün, xüsusilə, Batı oğuzlarında fütuhat ideyası açıq-aydın bir şəkildədir.

Bu ictimai-siyasi kontekstdə Səfəvilər dövlətinə (eləcə də Qaraman bəyliyinin, Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin) atlı-köçəri sistemlə, yəni köçəri həyat tərzi ilə bağlı açıq-aydın şəkildə ortaya çıxır.

* * *

Bütövlükdə ordu olan türklər ortaq olduqdan sonra yeniçər tipli daimi ordu yarandı. Köçəri türklər oturaq həyatı qəbul edə bilirdi. Neçə minillik ənənəni dəyişmək etnik-psixoloji baxımdan çox çətin idi. Əkin-biçin, oturaq həyat köçəri türk üçün ölüm sayılırdı («Yata-yata yanım qurudu, dura-dura belim qurudu. Yürüyəlim, a bəylər!») («Kitabi-Dədə Qorqud»).

Şah Ismayıl fenomeni məhz bu ictimai qorxunun, təhlükənin nəticəsi kimi meydana çıxmışdır. Sünni-şiyə qarşıdurması, əslində, zahiri-şərti xarakter daşıyırdı. Çünki babaları sünni olan Şah Ismayılın belə bir müxalif məfkurə mövqeyi seçməsi Şeyx Səfiəddindən sonra yanarmağa başlayan şeyxlik hərəkatının və ana-babası, güclü dini-siyasi məfkurə mərkəzləşməsi passonar bir dinamika qazanmışdı. Qızıl başlıq kolonizator dərvişlərin ən fəal və o dövr üçün müasir şəkil idi. Oğurçuluq şiə pərdəsi yeni vüsət tapmışdı.

Ana dili türkcə yazıb-yaradan qəhrəman, gənc-gözəl Şah Ismayılın dalbadal qələbələri, xüsusilə Şeybanixan üzərində böyük qələbəsi ona dünya şöhrəti qazandırmışdır.

Ana dilinin odlu kəlmələri könüllərə od salır, qılıcların görmədiyi işi görürdü. Anadolu mənən fəth edilirdi. Sufi-şiyə dərvişlər Anadoluda meydan sulayır, gənc Xətainin şerləri dalğa-dalğa yayılırdı.

Dədə-baba törəsini bərpa etmək çox cazib ideyadır.

Ana dilində yazmaq və türkcəni dövlət dili kimi rəsmiləşdirmək də böyük tarixi hünər idi.

Xalq şerinin ana qaynaqlarından, Yunis Əmrədən, Nəsimidən, Qurbanidən gələn sadəlik, doğmalıq, aydan arı, sudan duru təmizlik Xətainin 14 yaş kiçik olan böyük söz hökmdarı Füzuliyə açdığı yol idi. Mənsur Həllacdan gələn sufilik ideyası V-VIII əsrin yadigarıdır. Əhməd Yəsəvi türk müsəlmanlıq ideyasını və mütəsəvviq türk şerini yeni səviyyəyə qaldırdı. Sonra Yunis fəlsəfi və aydınlığı, Bəktaşi fikir və söz sərvəti, Nəsimi fəlsəfəsi və söz gücü Xətaidən keçid Füzuliyə gedəcək böyük yol idi. Bu yolun ən parlaq ulduzlarından biri hökmdar-şeyx-şair Şah Ismayıl Xətai idi.

Şaman-qam və Islam kodunda Mehdi xilaskarlığı, sünni məzhəki ilə qarşı-qarşıya dayanan qızılbaş ideologiyası Şah Ismayılın başlıca kredosu idi. Qaziliyin tərənnümü alplığın yeni biçimdə təsdiqi idi.

Fəqət tarixin öz qanunauyğunluğu, öz axarı, öz paradoksları var.

Osmanlı dövləti Səlcuqlardan sonra yeni tipli dövlət kimi formalaşmağa başladı. Teymura məğlub olub əsir düşsə də, Ibrahim Bəyazid üzərində qələbə çaldığı Avropa xaç yürüşlərindən az şey öyrənməmişdi.

Çingizdən, Teymurdan, Orxan Qazidən gələn Qərb-Şərq dövlət, ordu təcrübəsinin klassik şəxsiyyəti Yavuz Sultanın babası Mehmet Fateh idi. Mehmet Fateh Istanbulu fəth edən qüdrətli hökmdar idi. II Bəyazidin yumşaq siyasəti 44 yaşlı Yavuzu cin atına mindirdi. Və onun ilk qələbəsi atasının başından tacı almaq, qardaşlarını kənara itələyib, hökmdar taxtına çıxmaq oldu.

Avropa tipli dövlət olan feodal Osmanlı dövləti dünyanın tarix boyunca gördüyü çox böyük dövlət idi.

Bu dövlətə imperatorluq demək insafsızlıq və ədalətsizlikdir. Ən başlıcası elmi həqiqətə ziddir.

«Dünya bir padşaha girən kimi girdim», - dedi Şah Ismayıl.

Sultan Səlim əsasən farsa yazdı, ümmət dedi, böyük türk dövlət qurdu.

Şah Ismayıl türkcə yazdı, türk dilini dövlət dili səviyyəsinə qaldırdı. Millət, elat dəyərlərini ucaltdı.

Üz-üzə gələn iki hökmdar dünyanın taleyini həll etdi.

Türk dünyası nələrisə qazandı.

Türk dünyası çox şey itirdi.

* * *

…Çaldıran Azərbaycanın Güneyində Makunun cənubunda, Xoy və Çors şəhərləri arasında böyük bir ovalığın adıdır.

Iki qardaşın qanına boyanmış Çaldıran və Vaterloodur, nə də Poltava, Kulikovo…

Düz 490 il bundan öncə 23 avqust 1514-cü ildə Avropadan gətirilmiş yeniçələr Osmanlı ordusu ovdan və əyləncədən məst olmuş, başı uğurlardan gicəllənmiş Şah Ismayılın Səfəvi ordusuna qarşı çıxarır.

Sözlə Anadolunu fəth dən Qızılbaş dərvişlər könüllüləri fəth etmsəklə yeni inanc yolunun yeni uğurlarını qazanmışdı.

Osmanlı hökmdarı Bəyazidin səbri və toleransı Anadoluda şiə mənəvi futuhatına yol açmadı.

Fəqət ataların yolu həmişə oğulların yolu olmur. Oğul Sultan Səlim hakimiyyətinin ikinci ilində Anadoluda 40.000 qızılbaş qılıncdan keçirdi, həbslərin sayı hədəqədən keçdi.

Bu göz dağı, könül dağı Çaldıranda üz-üzə dayanış iki qardaş ordunu əks etdirən miniatürdə öz əksini tapıb. Eyni doğma dildə danışan bu iki ordu bir az sonra səfər yorğunluğunu çıxarmamış Osmanlı ordusu və özündən əmin cəngavər Səfəvi ordusu bir-birini qanına qəltan etmək üçün savaşa başlayacaq.

Mən həmişə bu miniatürə baxanda sünni-şiə qarşıdurmasını, Osmanlı – Səfəvi düşmənliyini deyil, eyni müqəddəs kitabı oxuyub, eyni dildə danışan, eyni musiqidən, xalçadan, yeməklərdən, içkilərdən zövq alan vahid milləti – Türk millətinin böyüklüyünü xatırlayıram.

Xırda hesablarla üz-üzə gətirilən bir millətin iki dövləti cahan hökmranlığını bir yana qoyub bir-birinə girdi.

Avropa rahat nəfəs aldı.

Türk və Islam düşmənlərinin şadlığı yerə-göyə sığmaz oldu.

…Əvvəla top atəşi başladı. Yeniçərlərin önündə arabalar və dəvələr sipər çəkib dayanmışdı. Bir-birinə zəncirlə bağlanmış 500 top Şah Ismayılın süvari ordusunun başına od ələməyə başladı. Qılınc, şeşpər, nizə, qalcan məsafəsi bir anın içində yox olub getdi. Gözlənilməz yaylım və top atəşindən sarsılıb səfi dağılan Səfəvi ordusu qanlı savaşa girdi. Sultan Səlim Osmanlı ordusunun mərkəzində idi. Vəzirləri ilə döyüşü seyr edirdi. Qısa və sərt nitqi ilə sözünü demiş hökmdar zor dilində dediyini sübut etməli idi.

Osmanlının sağ qanadındakı Xadim Sinan paşanın rəhbərlik etdiyi Anadolu və Qaraman əsgərləri, sol qanadında isə Hasan paşanın rəhbərlik etdiyi Rumeli əsgərləri düzülmüşdü. Yeniçərlər əllərində füfruq sipər çəkmişdilər.

Zəncirlərlə bir-birinə bağlı toplar arxada idi, türkmənlərin sərkərdəsi Əli bəy Dulqadiri öncü, Sədi paşa isə ehtiyat qoşununa başçılıq edirdi.

Bu ordu nizamı alışılmış mutad-nizam idi.

2500-3000 illik Osmanlı ordusu artıq Avropaya meydan oxuyaraq ordu quruculuğunu sınaqdan keçirirdi.

Əksəriyyəti Ustaclı, Varsaq, Rumlu, Qacar və Qaramanlı türkmənləri olan Şah ordusu sağ və sol qanaddan ibarət idi. Sağ qola Şah Ismayıl özü, sol qola Ustaclı Məhəmməd xan sərkərdəlik edirdi. Baş vəzir Nemətulla və seyid Əskər mərkəzdə qərar tapmışdı.

* * *

Şah Ismayılın məqsədi Osmanlı ordusunda hər iki qanaddan ildırım sürətli zərbə vurmaq və rəqibin arxasına keçərək mühasirəyə salmaq idi. Osmanlı ordusu içində qızılbaşlar var idi və Şah Ismayıl onların rolunu da nəzərə almışdı.

Əksəriyyəti süvarilərdən ibarət olan şah Ordusuna top atəşi pərxaşlıq salmışdı. 40.000 seçkin süvari taktiki və strateji həcmlə imkanlarını itirmişdi.

Ümid fərdi qəhrəmanlığa və fövqəladə döyüş fədakarlığına qalmışdı.

Bu fədakarlığı Şah Ismayıl və onun sərkərdələri göstərirdi.

Döyüş meydanında Şah Ismayıl görünməmiş döyüş qəhrəmanlığı göstərirdi.

Sultan Süleymanla üzbəüz savaş eşqi ilə yanıb-yaxılan Şah Ismayıl yanılmışdı.

Cəngavərlik bitmişdi. Odlu silahlarla yeni zaman, yeni müharibə çağı başlamışdı.

Və Sultan Səlim hündürdən bu mənzərəni seyr edib artıq Şah Ismayıla yox, uzaq Vyanaya, Avropa yollarına, müqəddəs Islam torpaqlarına baxırdı.

Axşama doğru döyüş bitmək üzrə idi və bitdi.

Çaldıran üzü «Şah mənəm» deyib Şah Ismayılı meydandan qaçıran əsgərlərin igidliyi sayəsində xilas oldu.

Sultan Səlim qələbə çaldı. Türk dünyası uduzdu. Şah Ismayıl bir şəxsiyyət kimi yaşasa da, tarixə qovuşdu.

Təbrizə ruh bədənə girən kimi daxil olan Şah Ismayıl Təbrizdən ruh bədəndən çıxan kimi çıxdı…

Bu acı döyüş haqqında çox şey yazmaq istədim. Ancaq qələm yazmadı.

Çaldıran nə marafondur, Vaterloudur, nə də Borodino, nə də ki Qrünvald, Port-Artur…

Dünyanın düz məşhur döyüşündə də Çaldıranın adı keçmir.

Çaldına ibrət döyüşüdür, iki qardaşın qanı tökküldüyü Habil-Qabil savaşının davamıdır.

Belə döyüşlərə Allahın da qəzəbi tutur.

Bu gün ana dilinin rəsmiyyəti olmayan Təbriz torpağının beşdə biri, düşmən ayaqları altında olan Şimali Azərbaycan müqəddəs torpaqlardan Vyana qapılarına uzanan cahan dövləti əvəzinə Anadoluda bir ovuc kürdlə boğuşan Osmanlı dövləti varisləri, yanış Kərkük, qərib Dərbənd, Borçalı, Göyçə… Çaldırandan başlayan fəlakəti yaşamaqdadır.

Çaldıranın yarasından süzülən qan qurumayıb. Tanrı lənəti Çaldıranda qırmızı lalələr kimi bitib. Hər lalə bir qardaşın tər damla qanıdır. Çaldıran hər ilin yazında bu lalə gölündəki qıpqırmızı qan ilə çimir.

Heyhat!

* * *

…Çaldıran döyüşünün bir mənzərəsi də «Koroğlu» dastanıdır. Koroğlunun qocalığı yeni zamanla köhnə zamanın final səhnəsidir:

Axır əcəl gəldi yatdı hay-haray!

Çəkdiyim qovğalar bitdi hay-haray!

Tüfəng çıxdı, mərdlik getdi hay-haray!

Mənmi qocalmışam, ya zamanamı?

Koroğlu misri qılıncı belindən açıb atdı yerə.

Dedi: «Indi bic əyyamdı. Bundan sonra igidlik bir qara pula dəyməz. Mən bu gündən Koroğluluğu yerə qoyuram».

«Koroğlu»nu başqa dastanlardan ayıran da elə bu Zaman hüdudlanmasıdır: mifdən odlu silahın çıxmasına qədər uzanan zaman yolu bitir. Çaldıran döyüşü və ümumtürk faciəsinin bir dövrünün dastan dilindəki ifadəsi «Koroğlu»dur. Bəşəriyyətin inkişafı yalnız mədəniyyət dəyəri ilə ölçülmür, həm də gərgin silahın gücü və miqyası ilə ölçülür…

…Yavuz Sultan yorulmuşdu. Özünkülər üzərində qələbə ona zövq vermirdi. Öz qanından olan insanlara odlu silah qabağında kişi kimi ölüm seçməsi onun içindəki bilmədiyi yerə od salıb yandırırdı.

Yavuz atın başını çevirdi günbatana.

Nə qıtlıq, nə aclıq, nə yorğunluq, nə Avropa şövqü, nə yeniçər düşkünlüyü… Yox. Qardaş qanı onu vurdu.

O qandan gözlə görünməyən bir zərrənin mində biri onun bədənində qaldı. Illər keçdi, fütuhat gərdişində o zərrə qan bir tabaq oldu və fatehi öldürdü.

Qardaş qanı dünya cahangirinə möhlət verməsi.

* * *

…Qardaş yarası sağalmır. Zaman keçdikcə sağalmış kimi görünür, ancaq o yaraların yaratdığı çatlar, şikəstliklər sağalmır ki, sağalmır. Yalnız Şərqdə deyil, bütün Avrasiyada, yəni o zamanın bütün mədəni dünyasında yeni dünya düzəni türklərin əlində olmuşdu. Fərət qan qardaşlarının dövlət qardaşı olmaması böyük strategiyaplarını məhv etdi. Osmanlı imperatorluğunun XIV yüzillikdən başlayıb XX əsrin əvvəllərində sona çatan böyük böhranının və süqutunun səbəbi bu qardaş savaşı idi.

Azərbaycanda Səfəvilərdən sonra beli bükülən, hətta Nadir şah, Qacar dövründə belə düzəlməyən və süquta, bölünməyə, parçalanmaya aparan yolun əsas toxumları XVI əsrdə əkilmişdi.

Türk tarixinin faciəsi budur. Bu faciənin fəlsəfəsi də yox deyildir. Bu barədə bir az sonra.

Düz 10 il Şah tənha yaşadı.

Düz 10 il Şax Xətai oldu.

Şah Ismayıl Çaldıran döyüşündə həlak olmuşdu. Bir qələm qalmışdı, bir söz, bir ürək. Qələm yazdı, söz qubarlandı, ürək ağladı.

«Günahkarın günahından keçərlər».

Şah Xətai Şah Ismayılın günahından keçmədi. Çünki o, günahın nə olduğunu bilmədi.

Illər keçdikcə o, tənhalığını da hiss etmirdi. Məğlubiyyət yarasının gündən-günə artaq ağrısı, sızım-sızım sızlayan eşq yarasının ağrısına qovuşur, onu bu dünyanın dərdindən, sevgisindən, həsrətindən alıb uzaqlara aparırdı.

Həzrəti peyğəmbərin ali qənşərinə, Həzrəti Əlinin, Əhməd Yasəvinin, Mənsur Həllacın hüzuruna aparırdı.

Onlarla xəyali söhbətlər gecələr olur, gündüzlər uzanır, gündüzlər olub, gecələr davam edirdi. Şah bu dünyanı unutmuşdu. Bu dünya Şah üçün bir uşaq oyuncağı qədər anlam daşımırdı.

Hərdən atının qarşısında yay kimi dartılıb şahə qalxan dağ ceyranı, kol dibindəki boynubükük qan bənövşə onun yadına kimlərisə salırdı. Gözəllik onun beynində ildırım kimi çaxırdı. Ancaq bir an. Və bircə andan sonra Şah yenidən öz dünyasına dönür, bu dünyanın gözəlliyini görməz olurdu.

Üz-üzə gəldiyi vəhşilərlə canlı savaş ona yaxınlaşan illərin savaşını xatırladır, böyük zəfərlərin yovşan ətrinə bənzəyən qoxusu burnuna gəldikcə diksinirdi Şah. Amma o da tez keçirdi. Şah iç dünyasından daha böyük döyüşlərə, daha qanlı savaşlara dönürdü.

Şah tənha idi. Şah bu böyük sarayda yüzlərlə insanın içində sabahın açılmasını gözləyən yalqız ulduz kimi tənha idi. Dünya Şahı unutmuşdu, Şah da dünyanı…

Sonra düz on il səfər etmədi, savaş yapmadı.

Öcünü ovdan aldı. Öldürdüyü şir, pələng onu ovutdu. Ürəyində Taclıbəyim yarası, Çaldıran ağrısı.

At belində irəli cumdu, o bilklə o qılıncı çaldı.

Öldürdüyü pələng oldu, şir oldu, ceyran oldu, cüyür oldu.

Düz on Cahanı tutmaq istəyən şah dərdini Sözə dedi. Sözlə ovutdu könlünü.

…Yavuz Səlimlə Şah Ismayılı birləşdirən bir böyük şəxsiyyət Füzulidir. Tarixçilər, siyasətçilər «böyük» təyinini iki hökmdara, iki şairə işlətmədiyim və Füzuliyə müncər etdiyim üçün məndən inciyə bilərlər. Qılınc, dövlət, hakimiyyət anlamında Yavuz Səlim də, Şah Ismayıl da onlan qüdərtlidir.

Və Füzulinin Yavuz Sultan və Şah Ismayıla şerlər, qəsidələr yazması tamamilə təbiidir. Füzulinin türk kimliyi və dövlət kimliyini qarşı-qarşıya dayanmış iki türk hökmdarına, iki türk şairinə bağlamağından doğma nə ola bilər?

Şah Xətainin yazdığı:

Yetdikcə tükənir ərəbin kuhu məskəni,

Bağdad içində hər neçə kim türkmanqopar….

- misraları türk torpağının hüquqlarını genişləndirən, türk dilinin ucalığını rəsmən təsdiq edən hökmdar-şairin ideoloji konsepsiyasıdır. Belə bir hökmdar-şairə necə şer yazmayasan?!

Və Füzuli yazırdı.

Onun yazdıqlarının çox az hissəsi öz zamanının içində, çox böyük hissəsi bu zamanın dışında idi.

Füzuli öz zamanına sığmırdı.

SON SÖZ ƏVƏZI

Həm zərurət, həm istehza. Çaldıran döyüşü.

Tarixin axışını heç kəs dayandırmaq gücündə deyil. Tarix həmişə bədbəxtlikdən xoşbəxtliyə, gücsüzlükdən gücə, qüdrətə yüksəliş də deyil. Bəşəriyyətin inkişafı ilə tarixi dəyişim düz mütənasib deyil. XX əsrin əvvəllərində dünyaya sözdə ədalətli dövlət kimi gələn sovet imperiyası, əsrin ortalarına doğru faşist rejiminin örnəyi oldu, sovetlər dağılandan sonra yalan adı demokratik, əslində avtoritar postsovet dövlətləri zamanın irəliyə doğru inkişafını deyil, çöküşü, geriləməni əks etdirir. Bu tarixi inkişaf deyil, tarixi ziddiyyətdir. Ziddiyyətlərin həll olunmaması fikri də doğru sayıla bilməz. Ziddiyyətləri zamanın axışı, dəyişimi içində milli və bəşəri, mədəniyyət, xoşgörü, tolarans-səbr həll edir.

Tarixi zərurət Sultan Səlimlə Şah Ismayılı üz-üzə gətirdi. Məğlub Türk-Islam Dünyası oldu. Elə qələbələr var ki, onları formal göstəricilərdə dəyərləndirmək yanlışdır.

Sultan Səlimin formal qələbəsi dəyişən zamanın və həll olunmayan ziddiyyətlərin qələbəsi idi.

Bu mənada tarixin kinayəsini görməmək, duymamaq, dərk etməmək də imkan xaricindədir… Ancaq…

Tarix heç vaxt köhnəlmir. Tarixin dərsləri həmişə diri və canlıdır.

Bir müdrikin dediyi kimi «Tarix ölülərlə dirilərin və hələ doğulmamışların birliyi, vəhdətidir».

Və böyük M.Hadi demişkən:

Bəşər tarixi matəmdir,

Bu şer tarixi möhnətdir,

Yazılmış qissələr

Başdan-ayağa hər misibətdir.

Bəzən gözəl sözlər gözəl olmayan həqiqətləri gizlətmək üçün yaranır.

Allah bizi tarixin müsibətlərindən qorusun!

DÜNYANI DƏYIŞƏN NƏDIR?

Dünyanı dəyişmək insanın əzəli ehtiraslarından biridir. Tarix boyunca filosoflar, tarixçilər, ilahiyyatçilər, yazıçılar, sənətçilər dünyanı necə dəyişmək haqqında çox düşünmüş, çox yazmışlar. Yazdıqlarına, düşündüklərinə bəzən inanmış, bəzən də inanmamışlar, bunlardan gerçəkləşən də olmuşdur, gerçəkləşməyən də.

Miflər qədim insanın Allah, Yaradan haqqında düşüncələridir, insan – təbiət – Allah münasibətlərinin əl-kimyasıdır.

Istər Çin, istər hind, istər Misir, istər yunan, istərsə də türk mifi insanın dünyanı dəyişmək gücünün ifadəsidir. Bu güc bəzən gücsüzlük, əlacsızlıq sindromu ilə sonuclansa da, sonsuzluq çevrəsi, dairəvi idrak yolu dünya haqqında təsəvvürləri zənginləşdirmişdir.

Bəşəriyyət min illərdən sonra renessans çağı deyilən zaman yetişəndə insan çox uzaq zamana qayıtmış, çox yaxın təhtəlşüura dönərək Şekspirin, Rafaelin, Leonardo da Vinçinin… simasında dünyanı dəyişməyə yetəcək dayaq nöqtəsi tapmışdı.

Bəşər övladının dini baxışları, təkallahlılığın müqəddəs kitabları dünyanı dəyişmək haqqında ilahi fikirlərin sistemidir.

Dörd müqəddəs kitabda dünyanı dəyişməyin ağıl, idrak, səbr, mənəvi təkamül yolu o qədər dərinliklə, incəliklə verilmişdir ki, dünya nə qədər dəyişərsə dəyişsin, bu bilgi xəzinəsinə borcludur.

Elmin ağır, dolambac yolunda Q.Qalileyin, Nyutonun… elmdə aradığı dəyişmə gücünə kilsə korşaltmağa çalışmış, fəqət "Natural fəlsəfənin riyazi əsasları" elmdə inqilab olmuş, fəqət Eynşteyn fizikası Nyutonu, Lobaçevski həndəsəsi Evklid həndəsəsini kölgədə qoymuşdu.

Dünyanı dəyişmək hissi N.Borda, M.Küridə, Lütfizadədə, Kapitsada… yeni meriadianlara çıxmışdı.

Aristoteli, Sokratı, Platonu, Herakliti, Farabini, Ibn Sinanı, Mövlananı, Kantı zaman-zaman əvəz edən dünya və onu dəyişmək yollarını açıqlamışlar. Heqil Spinoza, Volter, Russo, Rassel…. Filosoflar dünyanı dəyişmək üçün elmi, rasional təfəkkürü, texnikanı, bilgini... təməl bilmişlər.

"Filosoflar dünyanın necə olduğunu göstərmişlər. Bizim məqsədimiz onu dəyişməkdir" deyən marksistlər dəyişim üçün inqilaba önəm verdilər. Sinif nəzəriyyəsinə söykənən bu baxış fransız inqilabını örnək götürərək çox yorum yapmış və sonrakı sosialist inqilablarının nəzəriyyəsini yaratmışlar.

"Dünyanı siyasət dəyişir" fikri dünyanın din, sənət, elm tərəfindən dəyişiləcəyinə uzun müddət nöqtə qoydu.

Tolstoyu, Mayakovskini, Qorkini örnək götürən Lenin dünyanı dəyişməyin ədəbiyyat təməlinə istinad etmişdir. Dünyanı dəyişməyin Dostoyevski, Çexov gücü unudulmuşdur. Yanlış baxış yanlış nəticələr doğurmuşdur.

Fransız inqilabının ədəbiyyat, fəlsəfə təməli Volter, Didro, Russo… idi. Fransada inqilabı doğan ədəbiyyat idi. bu ədəbiyyata mamaça kimi yox, körpəni doğan ana kimi qəbut elmək daha çox həqiqətdir.

Burcua inqilabları bəşəriyyətin iqtisadi, sosial, mənəvi inkişafının təbii ifadəsidir.

Sosialist və proletar inqilabları cəmiyyətə zorən pərçim edilmiş süni inqilablardır. Zor, qan, təzyiq, ölüm… bu inqilabın dilidir. Bu inqilabların doğduğu cəmiyyətlər həmin zorun, qanın, təzyiqin, ölümün davamıdır, ifadəsidir. Anarxistlərin qan qardaşı olan marksistlərin təbir davamının Lenin, Stalin olması təsadüf deyil.

Fransız inqilabının qanının rəngi ilə sosialist inqilablarının qanı eyni deyil.

Şübhə edənlər Fransız inqilabından sonrakı Fransaya, sosialist inqilabından sonrakı əski Sovetlər Birliyinə və ya Kubaya baxıb incələmə apara bilər.

Çağdaş inqilablar demokratik inqilablardır. Bu inqilablar rənglidir (narıncı, bənövşəyi…), dincdir – məxməridir. Yaxud da az və ya çox az güc tətbiqi ilə gerçəkləşən sosial devrimlərdir.

Gürcüstan, Ukrayna, Qırğızıstan inqabları əski sosialist Şərqi Avropa dövlətlərinin, Pribaltika ölkələrinin inqilabının bu və ya digər şəkildə təkrarıdır, yaxud da təkrarda təkrarsızlığıdır.

Inqilablar sıra sosioloji qanunauyğuqluğa tabedir. Və bu qanunauyğunluq davamlıdır. Bu sırada Azərbaycanın, Qazaxstanın, Türkmənistanın olması yazdan sonra yayın, yaydan sonra payızın, qışın gəlməsi qədər təbiidir.

Dünyanı dəyişməyin sosialist, proletar modeli köhnəlib və tarixin arxivində qalıb.

Dünya demokratiya prosesi uluslararasıdır. Sərhədlər mədəniyyəti buxovlaya bilmədiyi kimi, rejimlər də demokratiya sürəcini dayandıra bilmək gücündə deyil. Qloballaşan dünya üçün terror, dini cəhalət, avtoritarizm, korrupsiya, hüquqsuzluq… daimi, keçilməz əngəl deyil. Demokratiya fərdin dəyişmə gücünün tükənməzliyini, azadlığı, hüquq dövlətini, sosial ədaləti bərpa edir, yaradır və mühafizə edir.

Demokratiya ədəbiyyatın, sənətin, elmin, dini baxışın sağlam varlığını üzviləşdirir, bir vəhdət şəklində bütövləşdirir.

Dünyanı dəyişən nədir?

Əlbəttə ki, insani ədalət, intellekt, fiziki, bioloji, mənəvi gücdür.

Dünyanı dəyişən insandır. Çağdaş, milli, demokratik dəyərləri özündə birləşdirən insan.

Dünyanı, özünü, Allahını dərk edən insan.

Dünyanı dəyişən gözəllik, qəhrəmanlıq, cəsarət, ədalətdir.

Dünyanı dəyişən kökü min illərə uzanan demokratik düşüncə, demokratik fəlsəfə, tolerans, humanizmdir.

- Dünya dəyişməlidirmi?

-Mütlət dəyişməlidir.

Dünyanın dəyişməməsi onun ölməsi deməkdir.

Dünya ölməyəcək. Insanlıq da.

Dəyişə-dəyişə yaşayacaq.

ALIM QASIMOV –
INSAN, SƏNƏT, DÜNYA HAQQINDA DÜŞÜNCƏLƏR

Səs

«Səs insanın xasiyyətini, xarakterini güzgü kimi göstərir». Bu sözləri çox-çox illər bundan qabaq bir dostum söyləyib.

Əlbəttə, bu söz bütün insanlara – danışanlara aiddir. Amma mənim haqqında söhbət açmaq istədiyim səs adi səs deyil, müğənni səsidir, oxuyan insan səsidir.

Bu səs Alim Qasımovun səsidir. Mən Alim haqqında, onun səsi və sənəti haqqında danışanda səs haqqında, oxuyan insan səsi haqqında bildiklərim, duyduqlarım fikrimdə vərəq-vərəq çevrilir və balaca radiomuzda uzaq, tənha Cəbrayılda eşitdiyim səslər bədənimdə, qanımda iynə-iynə gəzir.

Yalın başında Həqiqətin, bacısı 10-12 yaşlı Yaqutun səsi, «Qazamat istidir, yata bilmirəm» deyən, hamını ağladan Zalxa Rüstəmovanın səsi, bizim yerlərin ürəyimdə ağrı-acı qəmi qalan dağlarının, daşının, suyunun, ağacının gücündə oxuyan Ağabala kişinin «Zabul segah»ı, ona Arazın o tayından hər gün saat 12-yə 15 dəqiqə qalmış əks-səda verən Mustafa Payanın səsi.

Sonra balaca radiomuzda nalə kimi titrəyən Rübabənin səsi, Yaqubun, Rəşidin, Bülbülün səsi…

Qədir Rüstəmovun dünyanın bu başından o başına, işıqdan qaranlığa, ölçüdən ölçüsüzlüyə, var olandan yox olana uzanan zülmət rəngli məchul səsi.

Hər mahnısı bir hekayə olan Zəki Mürenin səsi, mələklərin ünsiyyətini xatırladan Emel Sayının səsi.

Və bu səslərin içində Alimin səsi. Bu səslərin davamı olan Alimin səsi.

Alimin səsi vəcdin, bayğınlığın, özünü unudub şüurundan o tərəfə olanlara qovuşmanın səsidir.

Alimin oxumalarında bir məqam gəlir ki, fiziki-bioloji şəkildə hiss edirsən, duyursan və varından yox olursan.

Hələ sənin üçün var olan gücün, gerçək olan fikrin, sözün sənin ixtiyarından çıxıb başqa bir anlamadığın, dərk etmədiyin varlığın gücünə, fikrinə, sözünə çevrilir. Hiss edirsən ki, o səs gözünü bağlayıb öz dünyasındakılardan söhbət açа-açа səni də oralara aparıb. Sən də o dünyanın, o zamanın, o məkanın adamısan. Özündə deyil, oralısan, oranın vətəndaşısan.

O səs sənin xatirəndir. Ancaq bu xatirə hadisələr insanlarla deyil. Bu xatirə yaz günü ilk dəfə qoxladığım bənövşənin xatirəsidir. Itkin düşən oğlunu gözləyə-gözləyə ağlını itirib dəli olan Hüsnü arvadın xırıltılı qəhqəhəsinin səsidir. Bu səs qarşı dağa dəyib yenidən geri qayıdan Ağoğlan dağından Arazacan axıb gedir. Bu səs həm də yeniyetmə oğlunu şəhərə pulsuz-pənəsiz yola salan bir ananın «Özündən muğayat ol, bala, Allahdan başqa heç kimimiz yoxdur, Allah səni qada-baladan qorusun» səsidir.

Bütün bunları Alim bilirdi, ya bilmirdi – demək çətindir. Amma Alim çiynini sıxıb, gözlərini yumub qavalına qısılanda onun içindən qopan səs bütün bunları o qədər gözəl

danışır ki, inanmaya bilmirsən ki, Alim bütün bunları sənin kimi, sənin yanında olub görüb. Deyirlər, hər şey kimi dünyada səs də itmir. Bəlkə o səslər bir vəhy kimi Alimin səsində yaşamağa qismətli olub? Bəlkə Alimin səsi keçmiş, olmuş əhvalatların, insanların tarixi deyil, onların tarixidir, onların səsidir…

Alimin səsi vicdan səsi, vətən səsi kimidir. Hərdən mənə elə gəlir ki, bütün bunlar bəlkə heç olmayıb. Bəlkə o səslər də olmayıb.

Və ya bəlkə bütün bunlar yüz dəfə, min dəfə, yüz minlərlə, milyonlar dəfə olub. Ey tək Allahım, nə yaxşı ki, Sən hər şeyə şahidsən. Sən olmayan yerdə şeytanın, iblisin etdiyini Sənə bu səslər xəbər verib. Bu səslər dünyanı dağılmaqdan qoruyub. Minlər, milyonlarla insanı, ananı, balanı qoruyub, yüzlərlə vətəni, milləti qoruyub. Bu səslər olmasa, nələr olarmış, Ilahi. Şükür böyüklüyünə, böyük Tanrım. Çox şükür. Böyüklüyünə qurban olum.

Ermənilər Cəbrayılı alanda gecənin zülmətinə günahsız insanların qarğışı, nəhayətsiz, ölçüsüz əzabı, məşəqqəti, ağrısı, vida səsi, dua səsi, ölüm səsi qarışır. Hər şey unudulur, səs qalır.

Işıq

…Alim danışır. Özündən, atasından, anasından, övladlarından, sənətindən.

Televizorda çox az danışan Alimi danışdıran aparıcı qız heç Alimin ruhundakı adam deyil. Sualın biri ala dağdan, o biri qara dağdan… Sensasiya, reytinq davasından çox uzaqda olan Alim öz səmimiyyətinə, öz ürəyinə sadiqdir. Və əslində aparıcı qızla yox, özü ilə danışır Alim. Insanın özündən yaxşı müsahibi kim ola bilər?

«Oxuyanda özümdən asılı olmayaraq gözümü yumuram. Və özümdən başqa heç kəsi görmürəm. Öz aləmimin, öz dünyamın qonağı oluram. Hərdən qaranlıq içində işıq görürəm. O işıq məni özünə çəkir, durmadan özünə çağırır. Bir dəfə o işığa doğru getdim. Çox yaxına getdim. Az qaldım ki, o işığa çatıb ona qovuşum. Sonra birdən üşəndim, öz-özümə dedim ki, ay zalım, hara gedirsən. Və geri döndüm. Indi dönməyimə peşmanam».

O qaranlığın içindəki ölümdürmü, həyatdırmı, o biri dünyanın başlanğıcı və ya bu dünyanın sonudurmu, deyə bilmərəm.

Amma hər kəsin gözünə görünməyən o işığın bir gün Alimi öz ilə aparacağını qəti bilirəm. Əslində o işıq Alimi doğub. Həmin işıq da Alimi aparmalıdır. Oxuyanda, ucalanda, yrdən üzüləndə o işıq görünür. Olumun və ölümün özüdür o işıq.

* * *

Alim qardaş, könül istər sənin səsinin işığına düşüb bir qərib məchul yola girsin.

Bu yolda ömür yolumuzun yol yoldaşlarından bir neçəsi haqqında söz demək fürsətini itirmək insafdan deyil.

Sənin «Cahargah»ın mənim yadıma mərhum dostum Vidadi Məmmədovu salır. O Vidadi ki, «Tərtər quruyub, mən necə yazım» deyib için-için ağlayırdı. Mən Tərtərə baxıb dünyanı duydum, yuxulu-yuxulu dörd bir yana baxıb ürəyimə dnyanı, insanları yığdım. Tərtərin üstündə bir qız sevdim. Indi Tərtər quruyub. Tərtərlə birgə yaddaşım, xatirələrim, varlığım quruyub. Bu dünya dərdinən doğulub. Ağabala Abdullayev oxuduğu gücdə yazmıramsa, niyə yazmalıyam?..

Bir gün dünyanın ən dərdli və ən dərdsiz insanı olan Vidadi o zamanlar qəbul imtahanlarının keçirildiyi avqustu nəzərdə tutaraq universitet müəllimi dostunu tələsən görüb «Deyəsən avqustu gözləməyə səbrin çatmadı, özün avqusta gedirsən» deyib ürəkdən, kinsiz-xıltsız güləndə onun gözlərindəki dibsiz, nəhayətsiz dərdi o qədər aydın gördüm ki, o aydınlıq həmişəlik yadımda qalıb. «Məni də başqalarının xəcalətini çəkmək öldürəcək» - deyən Vidadi Ağabalanın «Zabul»una, Qədirin «Sonna bülbüllər»inə, Alimin muğamlarına qulaq asanda özündə olmurdu.

Handan-hana «Qardaş, Allah Adama elə istedad qismət edəydi ki, bu səsin gücündə yazaydı. Ilahi, o səsin gedib qayıtdığı yerə çata biləydim» deyirdi…

Alimin səsi mənimlə türk şerinin böyük səsi Ramiz Rövşənin görüşüdür. Alimin səsindəki insanın özünün o tayına hayqırışı nədənsə mənə hamıdan çox Ramizi xatırladır.

Ramiz də Alim kimi vaxtilə quş kimi qanadlı olub uçan adamların sonuncularındandır. Adamın uçmağı, əlbəttə ki, təyyarənin uçmağından fərqli bir şeydir. Adamın uçmağı yalnız məkanla-fəza ilə bağlı deyil. Bu uçuş zamanla məkanın, fəzanın birləşməsidir. Zamanda əriyən isə yalnız təbiətin oğlu deyil, o, həm də Allahın seçdiyidir. Bu uçuşda Allahın insana lütf edib verdiyi çox şey var. Və Ramizin hər uçuşu yerə göndərilən vəhylərin səsidir. Bu səs nə deyir bizə? Bu səsin pıçıltıdan hayqırışa səslənən varlığında nələr var və ya nələr yoxdur? Bütün bunları söyləmək, xırdalamaq o qədər də asan deyil.

Muğamın mürəkkəb əlvanlığı ilə şerin çoxqatlı, çoxlaylı zənginliyi bir ilahi başlanğıcda və bir ilahi sonluqda birləşib üst-üstə düşür.

Səslə sözün ilahi birliyi Füzulidən gələn birlikdəlikdir.

Alimlə Ramizin birliyi haqqa canatmanın, içəridən ucalmağın, Allaha doğru uçuşun birliyidir. Bu uçuşda zaman məkandır, məkan da zaman. Bu uçuş zərifliyin, incəliyin güc üzərindəki qələbəsidir.

Və nəhayət, Alimin səsində mənim gördüyüm insan əqidə mücahididir. Həyatını, varlığını millətinin yolunda qurban qoyan böyük insan Əbülfəz Elçibəydir. Alimin «Rast»ında çox şeylə yanaşı, bir dövlət əzəməti, bir milli qürur da yaşayır. Bu səs Vətən oğlunun səsidir. Bu səs azadlığa əsrlərcə susamış böyük bir xalqın səsidir. Alimin səsindəki həzinlik, qəriblik, dərd, kədər öz içinə qapanan millətin özünə tapınması, yığılmasıdır. «Rast»ın bu əzəmətini duymadan əqidə adamını anlamayacaqsan. Doğma balalarını elinin azadlığına qurban deyən böyük əzabkeş bu gündən çox-çox qabaqlara baxır. Baxdıqca çox şey görür. Gördükcə sevinir.

Millətin qanı hesabına qazanılan böyük Azadlığın özü kimi səslənir.

Bu böyük siyasi mücahidin sufi təbiəti, təmənnasız təmizliyi, zora sevgi cavabı Alimin səsindəki dupduru təmizliklə, şəlalə çağlayışı ilə səslənir.

Yenə də Alimin səsindəki etirafın poetik-fəlsəfi gücü, siqləti o siyasi mücahidin sınaq dolu ağır həyatının şəklidir, ideala həsr olunmuş insan ömrünün mənzərəsidir.

Tarixi ilə, insanı ilə, mübarizə yolu ilə, əzmi, qüdrəti ilə Azadlığa layiq olan Azərbaycan xalqının müstəqil dövlətçilik yolunun canlı mücəssəməsi olan mücahidin ağır, şərəfli həyatı Alimin oxuduğu bütöv bir muğam kimi dərin, anlamlı və ibrətamizdir.

Sevgisi xalqının Azadlığı olan inanın ürəyində yatan Füzuli eşqi, Nəsimi fədailiyi, Qorqud müdrikliyi Alimin muğamatını dinlədikcə gözəl görünür, yalnız qulaqla eşidilmir, könüllə, ürəklə duyulur.

Özgə cür düşünmək, dissidentlik sözlə, fəaliyyətlə bağlıdır. Söz sənəti ilə bağlı olan dissidentliyin «suçunu» sovet dövründə şairlər, yazıçılar daşımışlar və bunun olmazın cəzalarını da almışlar.

Musiqidə dissidentlik ələ gəlmir, göz ilə görünmür və mücərrəd olduğu üçün ittiham dəlilinə çevrilə bilmir. Dövrün naləsi olan dərviş musiqi də, muğam da elədir. Ahı, naləni, fəryadı əl ilə yaxalamaq müşkül məsələdir. Əgər bu mümkün olsaydı, Arazın bu tayında rəhmətlik Ağabala Abdullayevin, «Zabul segah»ı, o tayında Mustafa Payanın hicran yanğısı ilə dolu «Segah»ı həbs edilib zindanlıq olaydı. Bu qərib səsləşmə bir-birindən ayrı düşmüş iki doğma qardaşın, Azərbaycan türkünün nalə-nisgil dialoqu tarixin dəhşəti kimi yaşayacaq. Rəhmətlik Rübabə Muradovanın ürək dolu, sinə dolu oxuduğu «Qaragilə»si, ayrılığın, bölüşdürülməyin fəryadı yaşayacaq.

Rəşid Behbudovun və Ququş xanımın fəraq himni kimi oxuduğu «Ayrılıq» yaraya basılmış duz deyil, bəs nədir?

Qəbrimin üstündə Ədalət «Yanıq Kərəmi», Kamandar «Baş Surutel» çalsın deyən rəhmətlik Firudin Şuşinski deyə bilmədiyi, yaza bilmədiyi həyəcanı, qiyamı ifadə etməmişmi?..

Qara Qarayevin parlaq musiqisi rejimin təsdiqindən daha çox inkarıdır.

Alimin səsi…

Alimin səsi yaddaş ağrısıdır. Bütövlük həsrətidir. Azadlıq yanğısıdır. Xoşbəxt olmaq üçün yaradılmış millətin bədbəxtlikdən səadətə canatmasıdır.

Alimin səsi dar ağacı altında dayanan mücahidin düşüncə, duyğu selidir.

Alimin səsi uğursuz sevgi naləsidir.

Qara sevda təşnəliyidir.

Alimin səsi ayrılıq yanğısıdır. Bölünən Vətən, bölünən millət, bölünən insan fəryadıdır.

Alimin səsi sənin, mənim, onun içində yetişən duyğu tumurcuğu, fikir fidanıdır. Bu səs mən qədər, sən qədər, onun qədər böyüyə biləcək böyüklükdə, uzana biləcək uzunluqda, gözəlləyə biləcək gözəllikdədir.

Bu səs əcdad səsidir, kökdən gələn el, ulus səsidir. İçində at, qopuz, qımız, saz, alaçıq olan dünyanın səsidir. Bir də bus əs dünyada itən varlıqların taleyidir.

Uçmaq, Allaha yaxınlaşmaq cəhdidir. Allaha oxşamaq, ona uyğunlaşmaq tələşıdır. Uçmaq bir də Allahla ünsiyyətin nadir yollarından biridir.

Və Alimin zilində bu ünsiyyətin bir monoloq – hayqırışı var. Cavab həsrətli, söhbət ehtiramlı bu cəhd həmişə monoloq olaraq qalacaq yəqin ki. Və yerə enən sonsuzluğun göylərlə körpüsü olacaq.

Yerdə – bəmdə yaşamaq da göy təşnəliyinin yerdəki halətidir. Qızmış dəmirin üstünə tökülən su onu qızğın varlığından ayırır, ancaq soyuq dəmirin yaddaşında qalır. Bəndə

söylənən sözlər zildəki kəlmələrin kölgəsidir: titrək, qərib, soyuq. Zildən bəmə düşən epilepsiyalı xəstənin (və ya tövqəlbəşərin) transdan adi, normal hala keçməsidir.

Amma bir ümid qalır, dili bir ümid: göylər bizim göylərdir, qaynarlıq, istilik bizim istilikdir. O göylər də, o istilik də bizi gözləyir. Və heç vaxt bizi atmayacaq. Çox şükür. Nə yaxşı ki, göylər var, yeri-göyü yaradan var, bütövlük, iç-içəlik, vəhdət-ilahi vəhdət var.

Kiçik zəkada Böyük Zəkaya, zərrədən küllə gedən yolda Alimin səsi də var.

Trans halətində, şüurumuzun, hissimizin bizim alışmadığımız biçimində Alim fəzdan Böyük Zəka bilgilərini alınşaman dərviş ekstazı, coşqusu ilə bizlərə çatdırır.

Təbiətin sirrini açan, insanın mübhəmliyini ortaya qoyan bu səs beyinlərin gizli qapılarını o biri dünyaya – ilahi dünyaya açır.

Alimin səsinin əks-sədası, dinləyənin ürəyidir. Bu səs həmin ürəkdə rəngini alır, axtardığını tapı rvə ona qoşulur. Nitşe, buna «qarşılıqlı əzabduyma» deyir. Alim deyir ki, bu fəryad sənin fəryadındır, mən gətirmişəm.

Insanın ən çox unutduğu və unutmaq istədiyi şey yaşadığı zamandır – yaşdır. Insanın Zamanı aldatmaq istəyi imkansızdır. Zaman amansızdır. O heç kəsə güzəşt etmir. Zaman insanın deyil, Allahın halıdır.

Füzulidən Alimə, Alimdən Füzuliyə

Ulu Füzuli Məcnun dünyaya gələndə ağlamasına «Axır günün əvvəl eyləyib yad, axıtdı sirişkü, qıldı fəryad» - deyə qəzavü qədər anlamı verirsə, bir pərivəşin körpəni sakitləşdirmək üçün onu qucağına alıb bağrına basmasını və həmin anda uşağın ovunub sakitləşməsini «Zatında çün var idi məhəbbət, Məhbubu görüncə tutdu ülfət» - deyə mənalandırır.

Əslində – zatında məhəbbət, eşq olmayan Füzulini anlamaz.

Dərdinin dərmanı dərd olan Füzulini normal, adi temperamentlə oxumaq olmaz. Belə ifa günahdır. «Leyli və Məcnun»u yazamağa başlarkən şairin fikir – xəyal içində məchul yola baxıb «Düşdü səfərim diyari-dərdə» deməsi dərdsizləri öz vətənlərindən dərd məmləkətinə göndərməsidir.

Ən böyük dərd və ən böyük təhlükə bilməkdir. Bilmək – qapılarını dərdin üzünə açmaqdır. «Bilmək bu yetər ki, bilmək olmaz…»

Məcnunun maddi dünyanın sərvətlərindən məhrumiyyət xoşbəxtliyi «Bir zövqə iki cahan vermir» də ifadə olunan, pərvanı sədaqəti onun ikiqat (bu dünyadan məhrumiyyət – ölüm, özünü öldürmək o dünyadan məhrumiyyət - ölüm) eşq şəhidliyidir. Bu eşq sevincini, ölüm qədərini Alimin zəngulələri, təfilələrarası dünya boşluğunu andıran sükutu, yenidən çağlaması, inləməsi eşq girdabını anlatmaqdır.

«Söz darəsi deyil bu əhval». Sözə sığmayana səsi sığdırmaq ehtirası Füzulidən Alimə uzanan yolun bir dayanacağıdır. «Dərdü ələm dənizi aşıb-daşan» Məcnun səhra gecəsində ay işığı ilə danışır:

Yandı canım hicr ilə, vəslü rüxiyar istərəm,

Dərdməndi – firqətəm dərmani- didar istərəm…

Bu yanğı Alimin səsində sağalmaz könül yarasının ağrısıdır – dərddir, möhnətdir, məşəqqətdir. «Bu bir kitab sözdür fəhm edən əhli-halə». Zatında məhəbbət mayası olmayan nə bu sözü, nə bu səsi anlamayacaq.

Bu dünyasını da, o dünyasını da yandırıb kül-kül Məcnun –

Bir görməyə yarı can verərsən,

Bir zövqə iki cahan verərsən…

məntiqi içində xoşbəxtdir.

Məcnun sağalmalığının, ölümü ilə öpüşən Leyli bəxtəvərliyinin fəzası, məkanı dərd deyilən şeyin özüdür.

Getdin o yerə ki, getmək olmaz,

Yetdin o yerə ki, yetmək olmaz.

Alimin özünü də dərd içində boğan o səs hardan gəlir, ilahi?!

«Bu heyran olduğundandır ki, heyran olduğun bilməz…»

Gecələrdən bir gecə

O gecə anladım ki, muğamatın yanından keçib getmək olmaz. Muğamatın fəlsəfəsinə dalmadan Şərqi anlamaq olmaz.

Muğamın içindən keçib getməklə Şərqə ulaşa bilərsən.

Muğam bir güzgüdür. Baxıb özünü görürsən. Bəzən də görə bilmirsən. Muğam bir ibadətdir.

Həyatın gözəlliyindən yazmaq asandır, həyatın gücündən, qüdrətindən, qəhrəmanlıqlardan yazmaq da çətin deyil.

Ölümün gözəlliyindən, dərdin hüsnündən, məhrumiyyətlərin xoşbəxtliyindən yazmaq çətindir. Çətindən çətin. Hissə-hissə, qəlpə ölməsən, ölümün gözəlliyini yarada bilməzsən. Füzulinin yaratdığı ölüm gözəlliyi – eşq dastanı Alimin səsində ölüm təntənəsi, eşq apafeozudur.

…Alimin konsert gecəsində bir məşhur ispan motodorunun bir sözünü xatırladım: «Bu iki yüz min adam öküzün ölməyinə yox, mənim ölməyimə baxmağa gəlib. Başqa bir ehtiras onları bir yerə yığa bilməz». O gün qəfəsdəki quş kimi çırpınıb səs-səs, xanə-xanə ölən Alimi gördüm. Biz də o böyük salona Alimin ölümündən zövq almaq üçün yığılmışdıq. Alim nə qədər ölürdüsə, biz o qədər dirilirdik. Alimin öz beyninin damarlarına bir-bir necə kəsdiyinin xırcıltısını eşidirdim. Dünyaya min Tellə bağlı olan bizlər bu xırıltının səsindən də zövq alırdıq.

Səhnədə üç döşəkə qoyulmuşdu. Ortada Alim, özündən solda kaman, sağda tar.

Alimin əlində qaval var. Vəcdin-ekstazın bir məqamında o qaval da ---- ağırlıq elədi. O zaman əlindəki qavalı da yerə qoyub, barmaqlarının, əlinin gücü ilə oxumağına davam edir.

Qulağı eşitməyən adam bu əlin, barmaqların hərəkəti ilə o səsi eşidir.

Əlin, qolun, barmaqların, vücudun hərəkətləri insanı varından yox edir. Hər kəs özünü o səsin, hərəkətin kosmosunda hiss edir. Bir salon Leyli, bir salon Məcnun Alimin

ixtiyarındadır. Ramizin bir şerini xatırlayıram. Insanın vaxtı ilə qanadları olub, yurddan-yurda, eldən-elə uçub. Sonra qanadların yandırıb, göylərə həsrət qalıb. Indi çabalaya-çabayala göylər həsrəti ilə uçmağa can atan Alim mənə uçan insanı xatırladır və Ruhun qanadlarını Alimin çiyinlərində görürəm.

Insan nə etdi ki, Allahın qarğışına gəldi, qanadların yerinə qol bitdi. Atın da qanadları töküldü. Dəvəquşu ət yeyib canavar oldu. It olan qurdluğa əlvida dedi. Qurd qanadların göydə arayıb gecələr uladı. It qanadsızlığına inandı. Insan yuxularında uçdu. Və Alim o gecə uçmaq üçün yanıb-yaxıldı. Qurd kimi uladı, ilan kimi qabıq qoydu, bülbül dilində nalə çəkdi, gül dilində için-için ağladı, «ölümümə sizi inandıracağam» dedi, «ölümümə sizi inandıracağam» dedi, «ölümümə sizi sevindirəcəyəm» dedi. Dedi və inandırdı. Inandırdı ki, o buralı deyil, oralıdır. Ora haradır, ay Allah?! Ora həm yerdir, məkandır, fəzadır, səmadır, göy üzüdür, ucsuz-bucaqsızdır. Ora həm də zamandır, vaxtdır, min il öncədir, əxlaqəqədərki keçmişdir, yuxudakı saatdır, bir ulduz axması qədər andır, göz qırpımıdır, bir nəfəslik hərəkətdir. Ora muğamatın zamanı və məkanıdır. Ora Alimin can atdığı Vaxtdır, Çağdır, Yerdir, Məkandır.

Ilahi, bu ölüm nə qədər gözəl idi! Insanın bədənindən axıb suya qarışan qanın açdığı qapı kimi gözəl. Ucalarda uçub sonsuzluğun ağuşuna düşən ölüm kimi gözəl. Ölə-ölə bu gözəlliyin dadını bizə anlatmaq istəyən Alim.

…Öncə ustadlarına salam verdi. Bunu bilənlər bildi. «Zabul segah»ın ustadları rəhmətlik Ağabala Abdullayevə salam verdi. Segah Islamın, Yaqubun, Qədirin, Rübabə xanımın, Şövkət xanımın, Ağaxanın salamını verdi: səsinin batinində xalları kəsişdiyi yerdə. Böyük ustad Seyid Əzimin sözlərinə büründü. Nə dedisə, «idi» ilə bitirdi. Yəni olub bitən, olub indi olmayan, olub olmamış kimi yox olan…

…Sonra hamının getdiyi yolu özü getdiyi kimi getdi.

Daha sonra çiçək kimi açdı, su kimi axdı, quş kimi uçdu. Çiçəyin, suyun, quşun sirrini faş etdi, açıb ağartdı.

Qəribədir, sənətin iki dahiyanə qütbü var. Bir qütbdə dahinin dediyi dildən-dilə düşür, sanki hamının bildiyini bir kimsə ilk dəfə açıb və hamının bildiyini söyləyib. Fikri, əxlaqı, zövqü dəyişib, bir addım irəli aparıb. O biri qütbdə hamının deyə bilməyəcəyi, heç vaxt təkrarlanmayanı deyəndir. Onlar da öz təkrarsızlıqları ilə insan əxlaqını, zövqünü, fikrini bir addım irəli aparanlardır. Bu təkrarsızlığın bir faciəsi də (bəlkə də xoşbəxtliyi) ondadır ki, onu yazan, oxuyan da o yazdığını, oxuduğunu bir də oxuya bilməz, yaza bilməz. Bu, bir qəzavü-qədərdir.

Sənətdə özü olmaq cəsarəti hər kəsə qismət deyil. Ustadlara verdiyi salam və düşdüyü yol (məsələn, «Zabul-segah» yolu) istisna olmaqla, hər şey Alimin özüdür. Öz canı, öz qanıdır, öz əti, öz sümüyüdür. Və başlıcası, öz ruhudur. Alimin ruhu Alimə qədər kimin canında olubsa, o, cavan ölüb, ömrünü yaşamayıb, yaşaya bilməyib. Bir şüşə qab kimi onu daşlara çırpıb, uçub gedib. Indi o ruh Alimin canındadır. Və indi Aliməqədərki Alimi axtarır. Amma onu tapa bilmir ki, bilmir.

…Bu bir ilahi monoloq-etirafdır. Mən uşağam, ağılsızam, sevmişəm, oda düşmüşəm, sənə vurğunam. Sənə can atıram. Sənin**əm**, mənim olduğum qədər sənin**əm**. Səni istəyirəm. Sənsiz heç nəyəm, heç nə olmaq imkansız. Hər şey olmaq istəyirəm, sənin olmaq istəyirəm. Səni gələcəkdə, uzaq zamanlarda axtarıram. Səni keçmişdə, uzaq zamanlarda axtarıram. Səni zamansızlıqda, zamanın işığa çevrildiyi məqamda axtarıram.

Məqamda, muğamda, məndə, səndə, hər yerdə…

Bu bir iradə deyil, iradəsizlikdir.

Bu bir canatma deyil, boğulmadır.

Bu bir güc deyil, gücsüzlükdür.

«Zabul segah»da bir dövrə vurdun. Ağacın ətrafına dolandın. Dünyanı dolaşıb başladığın yerə qayıtdın. Günəşə gedib geri döndün. Nə fərq edir ki? Bir dövrə, bir sonsuzluq keçdin. Gözlərin ilan gözlərinə nə qədər bənzəyir sənin. Kədərli və sevən gözlərinlə; ilan gözlərin, ilan sürətin, ilan əlçatmazlığın və ilan məhəbbətinlə.

Yox, Alim bəy, sən olduğun qədər mürəkkəb bir təbiətsən. Sənin içindəki çətin, ağır bir yükdür. Çox çətin.

Sənin səsində sənin bilmədiklərin bildiklərindən bir dünya qədər çoxdur. Bilmədikləri Alimin günahı deyil, qismətidir. Göndərilən əmanətdir. Ruhun əmanəti. Haqqa çatmalıdır. Haqqa gedən yolda çata bildiyi qədər insana çatmalıdır.

Daşın gücünü bilməyə nə var? Çiçəyin gücünü duymaq lazım. Otun gücünü kim biləcək? Suyun gücü yerə-göyə bəllidir. Odun gücü göz önündə. Bir nəfəsin gücünü bilən varmı?

Dünyada xaos və kosmos qarşıdurması var. Alimin səsi xaosdan hərəkət, kosmosa çıxışdır. Dolanbacların, qarşılıqların, qaranlıqların dözümə, sıraya, harmoniyaya çıxışıdır, qovuşmasıdır, daha doğrusu, o sərhədin, o hüdudun özüdür.

Dünyada ən böyük zülm qulun qula işgəncəsidir. Dünyada ən böyük zövq yaratdığından aldığın zövqdür. Ən uzun yol gözün yolu, ən dərin quyu özünə qazdığın quyudur. Ən böyük güc öz gücünü bilməyənin gücüdür.

Məqam - muğam

O məqam əbədiyyət qədər uzun, bir göz qırpımı kimi qısadır.

Hərdən mənə elə gəlir ki, Alim zili ilə bəmi göy ilə yerdir. Yerdən göyə qədər uzanan səs göydən yerə çatıncadır. Təzəcə ayaq açan körpə uşaq pırıltı ilə göyə qalxır. Bir dövrə vurub meşələrin, dağların üstündən uçur. Qolları qanad olur. Göydəki qan yerdəki qan olmur. Daha isti, daha qaynar olur. Və göydən görünən yer nə qədər yazıq, məsum olur. Alimin zili fəza əyrisi kimi əyilib, əyilib sonsuzluq qədər uzaqlaşır, sonsuzluq qədər yerə yaxınlaşır.

Alimin zəngulələrinin bir məqamı var ki, o məqamda mən özümü zamansız və məkansız hesab edirəm. Bu məqamda yaşayan mənim beynim, hissim, varlığım deyil, ruhumdur. Üçölçülü dünyadan fırlayıb çıxan hər zamanla hər məkanlıq ruh təzə bədən tapana kimi və ya köhnə birinə dönənə kimi o məqam nə qədər çəkir, onu Allah bilir. O məqamda mənim iki yaşım var, təzəcə dil açıb ilk sözləri deyirəm. O məqamda 10 yaşım var – dünyanı başıma yığmağa çalışıram. Hər şeyi bildiyimə əminəm.

Sonra 17, sonra 33, sonra 49, sonra 80, 1000… Teleqraf dirəkləri kimi keçən bu yeni hüdudları sürübü çıxır, sanki hər şey əriyib hər şeyə qovuşur. Alimin oxuduğu «Rast» da, «Segah» da, «Çahargah» da, «Bayatı-Şiraz» da, «Mahur» da bizim ifaçılıq tariximizdə qızıl xətlə yazılıb. Bakıdan çox-çox uzaqlarda yayılan bu muğamlar yalnız Alan Daniyeli

kimi dünya musiqisi sərraflarının deyil, onu dinləyən hər kəsin ürəyində bir izh buraxmışdır.

Və Alim bu yaxınlarda Parisdə bir amerikalı caz-folk ustası ilə çıxış etdi… Parisə yalnız getmiş Alim bir caz dünyasında Azərbaycan muğamının səsini bir ayrı biçimdə, bir ayrı duyumda və yozumda dünyaya tanıtdı. Yadıma rəhmətlik Vaqif Mustafazadənin 60-70-ci illərdə muğama köklənən caz interpretasiyaları düşdü. O zaman Vaqifi anlamayanlar yeri düşəndə ağız büzüb ardınca danışanlar indi onu tərifləyirlər. Tərif sırasında möhkəm dayanıblar. Neyləmək olar. Bizim millət zamanında kimi söyməyib ki…

Öz sözü, öz yolu olan hər kəs, özünə və xalqına inamında gərək sarsılmasın. Hər şey gec-tez öz yerini alacaq. Başqa cür mümkün də deyil. Haqq uzanar, ancaq qırılmaz.

Istedad sahibi çox kövrək, çox nazik olur. Mənim aləmimdə bu incəlik, naziklik o biri dünyayla, çox uzaq keçmişlə, çox uzaq gələcəklə ünsiyyət üçün lazımdır. Allah onları belə yaradıb. Istedad sahibi həm də bir ölkənin, bir dövlətin, silahın, ordunun qabağına təkcə çıxan, sinəsini sipər edəndir. Allah onları belə yaradıb.

Alimin səsinin mənə verdiyi ilə oğluma və ya qundaqdakı körpəyə verdiyi eyni deyil.

Alimin səsinin gücü bilinmir. Bu gücü heç nə ilə ölçmək mümkün deyil.

Alim kimi müğənni olubmu, bəlkə Alim bu dünyaya gəlməzdən çox öncə elə bülbül olub?! Bunu bilmirəm. Amma onu bilirəm ki, Alimin səsi yalnız insanlar üçün deyil, quşlar, ağaclar, otlar, çiçəklər üçün də doğmadır.

Alimin səsi təbiətin, birgəyaşayışın səsidir, təlatümün, incəliyin, ucalığın, təmizliyin, bakirəliyin səsidir.

Alimlə bağlı tək bir hadisəni xatırlamaya bilmərəm. Bir neçə dost Şamaxı aşırımında ağacların dibində çay içməyə əyləndik. Ətirli çay günəşli, isti günün yorğunluğunu canımızdan çıxardıqca Alimi dinləmək həvəsi oyanırdı. Amma neyləyəsən ki, Qədir kimi Alim də oxu deyincə oxumağı bacarmır, sadəcə, oxuya bilmir.

Birdən Allah üzümüzə baxdı. Ağaclara qonmuş bülbüllərin ötüşü Alimi oyandırdı, onu oxumağa həvəsləndirdi.

Və Alimlə bülbüllərin söhbəti başladı, nə başladı. Bülbüllər oxuyur. Alim dinləyirdi, Alim oxuyur, bülbüllər dinləyirdi. Bu unudulmaz səhnədə insanla təbiətin bir dillə üns tutduğuna, birgə yaşadığına inandım. Kim bilir, o bülbüllər də bəlkə nə zamansa insan olub.

SON SÖZ

Mən hər dəfə Alimi işıq dolu parlaq yerlərdə görməyən də sevinirəm. Görəndə kədərlənirəm. Sənət ümidsiz, ibadətsiz yaşaya bilməz.

ULU FÜZULI SƏNI GÖZLƏYIR, ALIM QARDAŞ!

(Görkəmli sənətkarımız,
dostum Alim Qasımova açıq məktub)

Əziz dost!

Bu yaxınlarda sənlə Istanbulda – hava alanında görüşdük. Üç saatlıq yol boyu söhbət etdik. Ürəyimdə qubar-qubar dolanan arzularımı sənə danışdım və səndən də gözəl sözlər, gözəl fikirlər eşitdim.

Sən Fransadan, növbəti qastrol səfərindən gəlirdin. Həmişəki kimi hamıdan fərqlənən sadə və səmimi mənliyin məni yenə heyran etdi. Düz Istanbulun Taksim meydanının yanındakı mehmanxanadan Atatürk Hava limanına qədər 30-40 km. yolu 5-6 saata piyada gəlmişdin. Aeroport məscidində yatsı namazını qılıb çay içəndə mən bunu eşidəndə heyrətləndim. O isə heç nə olmamış kimi «Bir az ürəyim sıxıldı. Darıxdım. Dedim yavaş-yavaş Hava limanına gedəcəyəm» - dedi.

Mən Alimin arabir ata-anasının yaşadığı Güzdək kəndinə payi-piyada getdiyini bilirdim. Kiprdə yüksək dövlət məmurlarının iştirak etdiyi seçkin məclisdə oxumaqdan imtina edib, otelin qabağında gecə saat 2.00-da «Cahargah» oxuduğunun şahidiyəm. Alimin nə üçün toylara getmədiyini, balalarına təkrarsız, sadə və gözəl toy etdiyini və daha nələri-nələri bilirəm. Ona görə də Alim qardaşımın bu piyada səyahətinə də təəccüblənmədim.

Sənlə yolboyu söhbətimiz Azərbaycan musiqisindən, sənətimizin yaşadığı problemdən oldu. Sonra bizə qoşulan böyük sənətkar və sadə insan, pianoçu-professor Zöhrab Adıgözəlzadə də musiqi ağrımızdan, dünyada musiqimizin layiq olduğu yerdən və mədəniyyətimizin problemlərindən uzun-uzun danışdıq, dərdləşdik.

Mən səndən nə üzərində işlədiyini sordum. Sən bir proyekt üzərində işlədiyini dedin. Bu sənin proyektin olduğu üçün mən onun adını çəkmirəm. Ancaq orda dediyimi sənə yazmağa məcburam. Çünki bu tarixi iş məhz sənin boynuna düşür.

Bu missiyanı səndən başqa ikinci adam yerinə yetirə bilməz.

Alim qardaş!

Əslində, sənətin bütün növləri içərisində müasir dövrdə – təxminən son 100 ildə bizim üzümüzü məmləkətimizdən kənarda, bütün dünyada ağ edən musiqimizdir.

Allah Üzeyir bəyə rəhmət eləsin. «Leyli-Məcnun»dan başlayıb, «Koroğlu»ya, «Arşın mal alan»a, «Sənsiz»ə, «Sevgili canan»a qədər bu heyrətamiz gözəl və təkrarsız yolu sonsuz zənginliyi olan məktəbdir – çağdaş Azərbaycan musiqi məktəbi.

Bu bünövrənin üzərində ucalan Fikrət Əmirov, Qara Qarayev, Müslüm Maqomayev, Niyazi, Cövdət Hacıyev, Arif Məlikov, Vaqif Mustafazadə, Fərhad Bədəlbəyli, Xuraman-Fidan Qasımova bacıları, Əzizə Mustafazdə… bizim musiqimizin meridianlarını genişlətməklə Üzeyir bəy məktəbini yaşatmış və yenidən yaratmışlardır. O sırada sənin adın da şərəfli yer tutur – bunu hər kəs bilir.

«Tarix təkrardan ibarətdir» deyiblər. Ancaq Əzizə Mustafazadə də, Qara Qarayev də… başqa bir təkrar, başqa bir keyfiyyətdir. Qan və Ruh eyni olsa da, böyük sənətkarlarda yaradıcılıq fərdidir, təkrarsızdır. Təkrarda təkrarsızlıq yaradıcılığın təbii fəlsəfəsidir.

Hər sənətkar özünün yarada biləcəyini yarada bilməsə, bu zənginlik yaşaya bilməz.

Bu mənada mən sənin bir missiyanın da muğamın bir hüdudunu tapmaq, onu dünyaca tanıtmaq olduğunu sanıram. 25-30 il bundan öncə Bakıya dostu mərhum ustad tarzən Bəhram Mənsurovun yanına gəlib muğam fəlsəfəsini araşdıran Alan Daniyelu «Rəqs, musiqi, ekstaz» yazısında Afrikadan Asiyaya, Amerikaya və Avropaya qədər insan özünüifadə işinin orijinal və təkrarsız örnəyi olan musiqidən danışarkən muğamlara ayrı bir önəm verir.

Bu elmi baxış böyük şairimiz Bəxtiyar Vahabzadənin «Muğam» poemasındakı poetik baxışla səsləşir. Bu səsləşmə muğamın mahiyyətindən doğur.

Sən Alim Qasımov Azərbaycan musiqisini iki dəfə iki üslubda oxumusan. Kimin necə başa düşməyindən asılı olmayaraq, bu iki ifa tərzi, iki üslub və bu iki dünyaya fərqli baxış təbiidir.

Birinci ifa sistemi mütləq səviyyə daşıyır. Muğam – klassiklərimizin ifasındakı kimi, çox az improvizə ünsürləri ilə.

Sən bütün müğamlarımızı bu mütləq səviyyədə ifa etməklə muğam ifaçılığında tarixi yerini almısan, ən yüksək adları da haqlı olaraq qazanmısan.

Ikinci ifa 35-40 yaşda formalaşan «Alim muğam məktəbi»nin yaranması yoludur. Bu yol Azərbaycan coğrafiyasını çoxdan aşmış, çağdaş caz, muğam cazı inprovizə sənətinin ən parlaq örnəyi kimi YUNESKOnun böyük ödülünü, başlıcası dünyada milyonlarla tamaşaçının məhəbbətini qazanmışdır.

«Dünyanın hər yerində insan ruhunu tutmaq üçün tor toxunur» - hansı bir dahininsə dediyi bu sözün arxasında böyük həqiqət dayanır. Dünya ölçüləri ilə dəyərləndirilən müstəviyə çıxmaq istəyən və çıxan hər sənətkar dünyada nə toxunduğunu və necə toxunduğunu bilməlidir. Böyük professionallıqla içində yaşatdığı saf, təmiz uşağı bir yerdə yaşatmalıdır. Professionallıq böyüməli, qanda-canda yaşayan o uşaq isə elə o təmizlikdə, o sadəlövhlükdə, təmizlikdə uşaqcığaz olaraq qalmalıdır.

Milli olanın bəşəri olanla birləşməsi o qədər təbii və canlı, diri bir hadisədir (məhz hadisə!) ki, dünyanın özü də, dünyanın mədəniyyəti də, mahiyyəti də bu hadisədən baxanda olduğu kimi görünür.

«Segah»la və ya «Şur», yaxud «Rast»la «Alimin Segahı», «Alimin Şuru», «Alimin Rastı» arasındakı fərq Füzuli ilə Azərbaycan türkcəsi arasındakı fərq qədərdir. Buna mütləq mənada fərq də demək olmaz. Dil ilə nitq arasındakı münasibəti bilənlər «Segah»la «Alimin Segahı»nın fərqini (və ya özünəməxsusluğunu) bilir.

Muğam torpaqdır. Bu torpaqda əkilən ağac həmin ağacı əkənin bağıdır. Həmin torpağın bağı…

Alim, əzizim!

Həyat da, dünya da bivəfadır. Allah sənin ömrünü uzun eləsin, ancaq ömür su kimi axıb gedir. Nə isə yaranırsa, dünyaya gəlirsə o suyun axdığını görürsən, hiss edirsən.

Mən də sənin minlərlə-milyonlarla dinləyicin kimi istərdim ki, sən Füzuli «Leyli-Məcnun»unu başdan-başa oxuyasan.

Üzeyir bəyin «Leyli və Məcnun» operası bizim milli operamızın əzəlidir. Bəlkə də özüdür. «Koroğlu» qüdrətli sənət əsəri olsa da, Avropa musiqi poetikasındadır.

Bizim milli operamız yenidən «Leyli və Məcnun»dan başlayacaq. Əli Kərim demişkən, şəxsən mənim buna dəli bir ümidim var. Amma bu bir xülya da ola bilər.

Şəxsən mənim istədiyim şey «Quran», «Tövrat», «Incil», «Manas», «Mahabharata» kimi Füzuli «Leyli və Məcnun»unun görüntülü (bayram, toy, xalça, miniatür, şəbeh…) və görüntüsüz (söz və səs) şəkildə ifasıdır.

«Leyli və Məcnun»un söz tərəfi ayrı bir zənginlikdir və biz filoloqlar rəhmətlik B.Çobanzadənin, A.Surun, H.Mazıoğlunun, Ə.Çölpınarlının, H.Araslının, S.Əlizadənin, S.Əliyevin, M.Adilovun… təcrübəsinə söykənərək sizin üçün lazım olan hər şeyi etməyə, bir yerdə çalışmağa, hətta həftəlik seminarlar, söhbətlər keçirməyə hazırıq.

Bunu da nəzərə alaq ki, Füzulişünas-alimlər - Sabir Əliyev və Nurəddin Rzayev bu ölməz poemanı nəsrlə çağdaş Azərbaycan türkcəsinə çevirmişlər.

Sən Füzuli sözündən çoxdan su içmiş bir ustad olsan da, bu söhbət və məsləhətlərin faydasız olmayacağını düşünürəm.

Füzuli sözü o qədər dərindir ki, nə qədər getsən ayağın yerə çatmayacaq.

Füzuli sözü yanında biz çox kiçiyik. O ki qaldı məsələnin musiqi tərəfinə, orda musiqiçi-ustad ifaçıların - Arif Babayevin, Yaqub Məmmədovun, Qədir Rüstəmovun, Ağaxan Abdullayevin, Əlibaba Məmmədovun, Islam Rzayevin, eləcə də musiqiçi alimlərimizin köməyinə, çox böyük ehtiyac var.

Vaxtilə, böyük sənətkarımız Bülbülün «Leyli və Məcnun»dan oxuduğu bir parça əslində yeni ifa yolunun başlanğıcıdır.

«Leyli-Məcnun» dastanını oxuyan aşıqlar da bir qaynaqdır.

Üzeyir bəyin «Leyli və Məcnun»unda indiyə qədər oxumuş bütün müğənnilərimiz ayrı bir məktəbdir.

Xalqın dediyi «Füzuli dərd əlindən dağa çıxdı. Dedilər bəxtəvər yaylağa çıxdı» ifadəsi də bir başlanğıcdır.

Qədimlərdən gələn Ə.Marağayi, S.Urməvi, M.Nəvvabdan, Dədə Əfəndidən gələn notlu Şərq musiqi məktəbinin Alimin yaradacağı «Leyli və Məcnun»a işıq salacağı şübhəsizdir.

Amma əsl başlanğıcı böyük muğam ustası sən Alim Qasımov «Leyli-Məcnun»u oxuyarkən tapacaqsan. Bu başlanğıcdan sonra gələn silsilə 25-50 və daha artıq saat toplanacaq hissələrin yaratdığı böyük və monumental sənət əsəri olacaqdır. Hansı parçanın (məsnəvi və ya qəzəl olmağından asılı olmayaraq) hansı muğam üstə hansı ovqat, temperamentlə oxunmasını sənin öz ürəyin tapacaq. Harada nəyin və necə olmasını o ürəkdən yaxşı kim bilər ki?

Sən söhbətində gözəl bir söz dedin. Dedin ki, hərdən oxuyanda səsimin hardan gəldiyini bilmirəm. Bilirəm ki, bu səs ağ ciyərimdən gəlmir. Dünyanın, yerin, göyün hansı tərəfindən gəldiyini anlaşdıra bilmirəm.

Bu muğam – operanın və ya dəsgahın içində oxunacaq təsniflər, çalınacaq zənglər, səslənəcək parçalar (Bülbül, Xan Şuşinski, Əbülhəsən xan…) üzvi şəkildə elə bağlanacaq ki, muğam fəlsəfəsi ilə Füzuli fəlsəfəsi əriş-arğac kimi bir-birinə bağlanacaq.

Bu ifa, əslində, sənin Üzeyir bəylə, Cabbar Qaryağdıoğlu, Şəkili Ələsgərlə, Əlövsət Sadıqovla, Bülbüllə, Seyid Şuşinski ilə, Ağabala Abdullayevlə, Qədir Rüstəmovla, Yaqub Məmmədovla, Zeynəb xanımla, Arif Babayevlə, Səkinə xanımla, Mənsumla, Zahidlə, Səfa ilə salamlaşman, üzbəüz görüşündür.

Tamaşaçı-dinləyici ustadlarına sayğı ilə təzim edən Alim Qasımovla tələbələrinə yeni yol göstərən ustad Alim Qasımovun eyni adam olduğunu görəcəkdir.

Əslində, Nəvainin, Hafizin, Füzulinin… söz kimi yox, muğam kimi oxunması ehtimalı həqiqətə daha çox yaxındır. Söz və musiqi ritminin üzvi bağlılığı Şərq musiqisini səciyyələndirən amillərdəndir.

Haqqı tapmaq üçün gərək haqdan başqa hər şeyi unudasan.

Füzuli dünyasına daxil olmaq üçün gərək Füzulidən başqa hər şeyi unudasan.

Füzuli sözünə düşən «Tovrat», «Incil», «Quran», mif, əfsanə, fəlsəfə işığı Füzuli sözünün içindədir. Füzuli özü heç bir təlimin, baxışın, dinin, təriqətin içində deyil. «Leyli və Məcnun» da belədir, Alim qardaş.

Füzulinin «Leyli və Məcnun»u, əslində, mənzum roman, bədii-poetik xüsusiyyətləri baxımından türkcənin şah əsəridir. Füzulidən sonra qələmə alınmış bütün «Leyli və Məcnun»lar onun təsiri altında yaranmışdır.

Türk modernizminin, psixoloji romanın ilk mükəmməl örnəyi kimi Füzuli «Leyli və Məcnun» dünyanın bir sıra dillərinə çevrilmiş (ingilis, alman, rus…), Şərq poetikasının isnad etdiyi ən böyük qaynaqlardan biri olmuşdur.

«Leyli və Məcnun»un məsnəvi qisminə Füzuli əruzun həzəc bəhrində yazmış, (Məfulü-Məfailün-Fəulün) bu bəhrin variantlarını işlədərək səqti-məlih ahənginin 3054 beytə sığışdırmış, 260 beyt isə üç rübaini, üç qəsidəni, 24 qəzəli, iki mürəbbəni və bir müsəccanı əhatə edir. Poemanın dibaçəsi böyük bir elmi araşdırmanın mövzusu olacaq qədər zəngindir.

Ustadları Əbunəvası, Nizami və Nəvaini xatırlayan Füzuli «Bilmək bu yetər ki, bilmək olmaz» fəlsəfəsi ilə Allahın böyüklüyünü, Allahı idrakın sonsuzluğunu, peyğəmbərlərin əzabını və dünyada insanların yoluna tutduqları işığı vurğulayaraq qədim və yeni, həzin və həyəcanlı, sevinc və kədər dolu hekayətinə başlamış və dünyada misli-bərabəri olmayan eşq dastanını yaratmışdır.

Əziz qardaşım Alim!

Öyrətmək kimi olmasın, səndən mənim bu təklifimin üzərində düşünməyini xahiş edirəm.

Füzulinin «Leyli və Məcnun»unu başdan-başa oxumaq, onu dünyaya bir daha vermək sənin missiyandır.

Allah bu böyük işdə sənin yardımçın olsun.

Böyük hörmət və məhəbbətlə,

P.S. Söhbətimizi yazdığım üçün məni bağışla.

AZƏRBAYCAN TÜRKLƏRININ AZADLIQ ELÇISI – ƏBÜLFƏZ ELÇIBƏY

Müsavat Partiyasının başqanı Isa Qəmbərin Elçibəyin vəfatından təxminən 3 il öncə dediyi bir fikir diqqəti cəlb edir: «XXI əsrdə siyasətçi kimi mütləq qeyd edilməli şəxslər təbii ki, M.Ə.Rəsulzadə – əsrin əvvəlində və Ə.Elçibəydir – əsrin sonunda. Rəsulzadənin ətrafında çox görkəmli şəxslər olub və hər birinin böyük xidmətləri olub tariximizdə. Eləcə də Elçibəyin silahdaşları arasında diqqətəlayiq insanlar az deyillər, yəni tarix onların da qiymətini verəcək. Əsrin simvolu kimi bu iki şəxsin adı tarixə düşəcək» («Araz» dərgisi, Stokholm, 1997, №1 (2)).

Üç ildən sonra amansız tarix bu böyük həqiqəti acı bir ölümlə bir daha təsdiq etdi.

Türk dünyası, dünya demokratik fikri XX yüzilliyin böyük ideoloqlarından birinin, Azərbaycan Milli-Azadlıq Hərəkatının Liderinin, Azərbaycan Xalq Cəbhəsinin dəyişməz Öndərinin, müstəqil, demokratik Azərbaycanın ilk qanuni prezidentinin, fikir və ideya adamının ölümünü xalqın milli matəm günü, dünya demokratiyasının hüzn günü olduğunu əyani şəkildə gerçəyə çevirdi.

Məhəmmədəminçilik, Atatürkçülük, Xiyabaniçilik ideologiyasının öncüllük tapması, bu ideoloqların məktəblərinin yaranması üçün uzun bir mücadilə yolu keçən Əbülfəz bəy nəyinsə əsasını qoyduğunu, hansı fikir və ideyanın müəllifi olduğunu bir dəfə də iddialı şəkildə dilinə gətirməmişdir.

Insanları qaba güc, zor və sərvətlə idarə etmək olmaz. Milli-azadlıq hərəkatını və milli dövlətçilik mənəviyyatını yalnız və yalnız Bəyin gücü, saf ideya və təmənnasız şəxsiyyət fikri ilə idarə etmək olar. Elçibəyin əzab dolu şərəfli həyatı, zəngin, dolğun, orijinal elmi dünyagörüşü və ən başlıcası yaradıcı dühası Elçibəyçilik ideologiyasının mayasında dayanır.

Böyük liderlər böyük inam, iman, yol yaradan insanlardır. Xarizmatik lider olmaq xalqın ürəyində mənəviyyat toxumu səpib onun məhsulunu dərsə də, dərməsə də bu məhsulun olacağına – xalqı xilas edəcəyinə qəti şəkildə inanmaqdır. Və bu gerçəyi lideri olduğu topluma, millətə inandırmasıdır.

Elçibəy dünyagörüşünü üç sözlə ifadə etmək olar: nasionalizm, idealizm, realizm. Ilk baxışda paradoksal görünsə də, bu sözlər böyük insanın təfəkkür tərzi üçün əsas meyarlardır.

Elçibəy ideologiyasının qaynaqları, mərhələləri və tərkib hissəsi ayrı-ayrılıqda böyük araşdırma mövzusudur. Biz onların üzərində qısa şəkildə olsa da dayanaq.

Ilk öncə onu söyləmək gərəkdir ki, Elçibəy ideologiyasının qaynağı türk fikir tarixi, islam dünyagörüşü və fəlsəfəsi, Qərb fəlsəfəsi, liberal-demokrat fikri, Şərq-Qərb milliyyətçilik tarixi, çağdaş dünyanın mənəvi dəyərləridir. Elçibəyi tanıyan hər kəs onun rəsmi toplantılarda, daha çox dost və ailə məclislərində qədim türk, Şərq tarixi, şamanqam inanış sistemi, Qurandan (bilavasitə orijinaldan), hədislərdən, sünnətdən, sufizmdən, fransız inqilabının mahiyyətindən, tarix fəlsəfəsindən, qədim və müasir ədəbiyyatdan, dil və milli təfəkkürdən, ideoloji sistemlər tarixindən, dünya stratejisindən, bəşəriyyətin demokratiya mücadiləsindən… etdiyi söhbətlərin şahidi olub. Qələmə alınanlardan bir damlası «Elçibəylə 13 saat üz-üzə» kitabındadır.

Qaynaqların bu böyük tarixi-mənəvi kontekstini daraltsaq aydın olar ki, Elçibəy ideologiyasının başlıca təməli və sələfi Azərbaycan milli-demokratik maarifçiliyidir. Bu maarifçi-

lik məktəbi M.F.Axundovdan başlayır, H.B.Zərdabi, N.B.Vəzirov, M.Kazım bəy, Mirzə Cəlil, Sabir, Üzeyir Hacıbəyli, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, M.Ə.Rəsulzadə, M.Topçubaşlı… bu böüyk məktəbin davamçıları olublar. Milli kimlik və milli özünüdərki, demokratizm ideologiyasını bu şəxsiyyətlərin əsərlərindən, ortaya qoyduqları fikrilərdən kənarda düşünmək mümkün deyil («Azərbaycan aydınları»).

Şərqdə ilk respublika örnəyinin baş memarı M.Ə.Rəsulzadənin və onun silahdaşlarının ideoloji sistemi Elçibəyin baxışlar sisteminin başlıca təməli, fikir atasıdır.

1988-ci il Meydan hərəkatının ilk günlərində kütlə həyəcanını, hiss və həyəcan dalğalarını milli mücadiləyə, ideya mübarizəsinə çevirməkdə Elçibəyin söylədiyi bir fikir həlledici rol oynadı: «Bizim yolumuz Məhəmməd Əmin Rəsulzadə və Atatürk yoludur!» bu bir cümlədə tarixi yaddaşın böyük bir konsepsiyası tam aydınlığı ilə ortaya qoyuldu. Doğrudan da, müstəmləkəçilik və yarımmüstəmləkəçiliyə qarşı, ideya qalası marksizm-leninizm olan totalitarizmə qarşı dayana bilən ideologiya müsavatçılıq və Atatürkçülük idi. Müsavatçılığı Azərbaycan xalqının tarixi mənəvi ehtiyacının təbii-zəruri ifadəsi kimi dərk edib araşdıran, şərh və təfsir edən Elçibəy müsavatçılıq doktrininin nəzəri və təcrübi platformunu çox dərindən, incəliklə açıqlayır.

M.Ə.Rəsulzadə «Azərbaycan təşəkkülündə Müsavat» (1920) əsərində yazırdı: *«Bundan sonra müstəqil və milli Azərbaycanın müqəddəratını sövqi tarixi idarəyə məmur olacaq firqənin adı «Müsavat» olmaya bilər, fəqət o firqənin «müsavatçı» olması zəruridir. Çünki müsavatçılıq qeyd etdiyimiz kimi milliyyətçilik, türkçülük, vətənçilik, azərbaycançılıq, milli dövlətçilik, istiqlalçılıq, cümhuriyyətçilik deməkdir»* Bu sözlər tarixən olduğu kimi, bu gün də diridir, canlıdır.

Məhəmməd Əminin çoxölçülü nəzəri ideoloji sisteminin yenidən klassikdə üçlükdə yuvarlaqlaşdırılması məfkurə hədəfinin simvollaşdırılması baxımından adekvat idi. Özəlliklə bir-birinə yaxın olan ideoloji səviyyələrin birləşdirilməsi ideoloji sərrastlıq baxımından seçilmişdir. Mahiyyəti dəyişməyən prinsiplər zaman-zaman dəyişə bilir, müsavatçılıq çağdaşlaşır. Örnək olaraq ciddi ideoloqlarımızdan X.Ibrahimlinin, N.Nəsibzadənin «Bütöv Azərbaycan» kitabına yazdığı ön sözdən bir fikrə diqqət yetirib daha sonra fikrimizi davam etdirək: *«Müsavatçılıqda milli bütövlük, Vahid Azərbaycan ideyası yenidir. 80-ci illərdən başlayaraq, Azərbaycan siyasi fikrində (əslində dünya siyasi fikrində – K.V.) Vahid Azərbaycan ideyası möhkəmlənməyə başladı. Bu ideyanın siyasi səviyyədə qoyulmusı Əbülfəz Elçibəyin adı ilə bağlıdır».*

Elçibəy ideologiyasının ən böyük sələflərindən biri kimi Atatürk ilkə və inqilabları, Atatürkün dövlət fəlsəfəsi və dövlət təcrübəsi idi.

Bir-biri ilə ana xətlərlə bağlı olan Atatürkçülük və Məhəmmədəminçilik Ziya Gökalplarla, Ismayıl Qaspıralı və Əli bəy Hüseynzadələrlə, Əhməd bəy Ağayevlərlə təməlli olduğu üçün bu baxışlar sisteminin alt yapısı – bünövrəsi eyni idi.

Sözün konkret mənasında Elçibəy çağdaş müsavatçılıq və türk dünyasına yönəlmiş Atatürkçülük ideoloji məktəbinin konsepsiya səviyyəsində əsasını qoymuşdur.

Sovetlər Birliyinin dağılmasından sonra marksizm-leninizm dünyagörüşü çökdü. Yalnız ayrı-ayrı şəxslərdə və məhdud qruplarda ideolojidən daha çox nostalji-həyat tərzi kimi qalan əski dünyagörüşü yeraltı çaylar kimi millət təfəkkürünün təkində – yaddaşında yaşayan mili-demokratik baxışlar sistemi əvəz etməyə başladı. Ağrılı, sancılı keçən bu proses gü-

nün bugünündə bitmiş sayılmasa da, artıq geriyə yol yoxdur. Şübhəsiz ki, müsavatçılıq da sxolastik dəyişməz təlim deyildir.

Ana xətləri dəyişməyən müsavatçılığın dünya şərtlərinə, tarixə, zamana, qüvvələr nisbətinə, yeni təlimlərə uyğun dəyişməsi, müasirləşməsi də şərt idi. Bu ideoloji yeniləşmənin başında Elçibəy dururdu! Hərəkat illərində və sonralar partiyadaxili, partiyadışı fəaliyyətlərdə ideoloji fikrə böyük əhəmiyyət verən Elçibəy bu tədbirlərdə bilavasitə rəhbərlik etməklə Əli Kərimli, Isa Qəmbər, Nəsib Nəsibzadə, Pənah Hüseynli, Arif Hacılı, Rauf Arifoğlu, Cəmil Həsənli, Akif Islamzadə, Qulamhüseyn Əlibəyli, Ədalət Tahirzadə, Aydın Balayev, Nəsiman Yaqublu, Fuad Mustafayev, Fuad Qəhrəmanoğlu, Arif Rəhimoğlu, Nəriman Qasımoğlu, Mais Əlizadə, Füzuli Bayat, Arif Acalov, Niyazi Mehdi kimi yeni yetişmiş ideoloqlar nəslinin xidməti böyük olmuşdur.

Dəyişən siyasi zaman, qloballaşan Dünya, dəyişən tarixi bağlam, dəyişən şərtlər və situasiya XX əsrin sonunda Elçibəyçiliyi zəruriləşdirmişdir.

Bu zəruri proses 1993-cü il iyun qiyamından sonra nə qədər əngəllənsə də, cəmiyyətə ideologiyasızlıq təbliğ və təşviq edilsə də, bir şəxslə bağlı qurama, yalan və təməlsiz sistem qurmaq cəhdləri olsa da, bütün bunlar uğursuz təşəbbüslər kimi tarixin mənasız əşyalar yığılmış anbarına verildi. Məhəmməd Əmin Rəsulzadəyə, onun idologiyasına söykənən siyasi təşkilatlara, şəxsən Elçibəyə, Isa Qəmbərə, digər siyasi xadimlərə nə qədər böyük təzyiqlər olsa da, bu cəhdlər acı gülüşün hədəfi oldu. Son 7-8 ildə buraxılmış bərli-bəzəkli bahalı qalın kitablar fiaskadan başqa bir şey olmadı. Yalan ayaq tutdu, ancaq yeriyə bilmədi.

Nə daxildən dövlət səviyyəsində basqılar, şoular, kompaniyalar, avtoritar əxlaqa söykənən ağır tədbirlər, suçlamalar, nə də xaricdən Rusiya-Iran qaynaqlı ideoloji təxribatlar Məhəmmədəminçilik, Elçibəyçilik təlimini çökdürə bilmədi! Əksinə, onun qarşısında felən təslim oldu. Polis gücü və korrupsiya sərvəti ilə tarixin sınaqlarından çıxmış ideologiyalar susdurula bilməz!

Müsavatçılığın üç sütunu – türkçülük, çağdaşlıq və islam Elçibəylə Əli bəy Hüseynzadə, Ziya Gökalp və Məhəmməd Əmin arasında ən böyük mənəvi-siyasi-ideoloji körpüdür. Bu üç kəlmədə minlərlə kitabın, araşdırmanın mayası, cövhəri var.

Müstəqil demokratik Azərbaycan bayrağında üç rəng var: mavi, qırmızı, yaşıl.

Bu rənglərin simvollaşdırdığı türkçülük, çağdaşlıq, islam zaman-zaman dünyaya gəlmiş, formalaşmış, tarixin ağır sınaqlarından çıxmış dərin anlamlı rəmzdir – dövlət rəmzi – dövlət ideologiyasıdır.

Əli bəy Hüseynzadə bu simvolu yaratdı.

Ziya Gökalp onun siyasi anlamını, mədəniyyət kökünü qətiləşdirdi.

M.Ə.Rəsulzadə bu rəmzi dövlət atributuna – bayrağa çevirdi.

Elçibəy həmin rəmzin fəlsəfi-tarixi mahiyyətini dərinləşdirdi və ikinci - sonuncu dəfə dövlət simvolunu dövlət ideologiyası kimi bərpa etdi.

Elçibəyin məfkurə davasında türkçülük ayrıca bir önəm daşıyır. Geniş təfərrüata varmadan Elçibəyin öz sözlərinə üz tutaq: *«Məfkurəsi, mənəviyyatı, əxlaqı min illər boyunca məhz bu torpaqda təşəkkül tapmış türk etnosu bu ideologiyanın da yaradıcısıdır».*

Bəli, bütün ideoloji axtarışımızın və düşüncə çarpışmalarımızın çıxış nöqtəsi bu özül üzərində qurulmalıdır.

Türkçülüyü bir bütöv kimi qəbul edən və onu nəzəri-təcrübi sistem kimi quran Elçibəy türk milli kimliyi, türk mədəniyyət birliyi, türk dünyası, ortaq əlifba, ortaq ədəbi dil, ortaq dərsliklər və s. kimi mühüm məsələləri siyasi-ideoloji, elmi-tarixi səpkilərdən araşdıran, ortaya bəlli başlı kriterlər qoyan fikir adamı kimi qəbul edilmiş məktəbdir.

Tarixi-məntiqi metodla türk tarixinin öyrənilməsi, Avropa-rus mövqeyindən deyil, türkün öz mövqeyindən bu tarixin yazılması Elçibəy ideoloji konsepsiyasında mühüm yer tutur. Bəy deyir: *«Türk dünyasının intellektual qüvvəsi bu gün bu işin gerçəkləşdirilməsinə yetir, ancaq Türk dövlətlərinin ortaq mədəniyyət siyasəti də olmalıdır. Ümumtürk mədəniyyəti, ümumtürk ədəbiyyatı və ümumtürk ədəbi dilinin yaradılması həmin mədəniyyət siyasətinin tərkib hissəsi olmalıdır».*

Ideologiyada tez-tez ya bilərəkdən, ya bilməyərəkdən qarışdırılan Azərbaycançılıq və türkçülük anlayışlarına ən dəqiq aydınlığı Elçibəy gətirib. Azərbaycana indiki hakimiyyət dairəsinin zirvəsindən gələn Azərbaycançılıq anlayışı və ondan doğan Azərbaycan dili, Azərbaycan milləti və s. qavramlar kommunist milliyyətçilik düşüncəsinin məhsuludur. Halbuki Məhəmməd Əmin vaxtilə yazırdı: «Yalnız «türk» kəlməsi deyil, «Azərbaycan» adı da qazanılmalıdır».

Böyük uzaqgörənliklə söylənən bir fikir «Bütöv Azərbaycan» anlayışı üçün, vətənçilik və dövlətçilik qavramı üçün zəruridir. Fəqət Azərbaycançılığın türkçülüyə qarşı qoyulması coğrafiya ilə millətin və onların dəyərlərinin qarışdırılması ideoloji əksiklik və ayırma siyasətindən başqa bir şey deyildir. Elçibəyin fikri belədir: *«Azərbaycançılıq»da dövlətçilik prinsipi baxımından müəyyən qədər xeyirlidir, ancaq milli mənafeyə zərbə vurur və bu zərbənin altından sonra çıxmaq olmaz».*

Azərbaycan türklərin və türk olmayan etnosların vətənidir. Azərbaycandakı vətəndaş hüquqları bərabərlik prinsipi Anayasada təsbit olunur. Fəqət Azərbaycan vahid türk mədəniyyətinin, mənəviyyatının ayrılmaz bir parçasıdır. Bu mənada Azərbaycançılıq türkçülüyün tərkib hissəsi olub onunla qarşı-qarşıya dayana bilməz.

Azərbaycanda türk olmayanların etnik özünəməxsusluğunun (dil, mədəniyyət…) qorunması üçün də Anayasa imkanlarının olması təbiidir. Elçibəy dövründə MM-də etnik azlıqların mədəniyyətlərinin qorunması və inkişafı haqqında qəbul edilən qanun məhz bu ideoloji fikrin demokratizmini ortaya qoyur.

Elçibəy hakimiyyəti dövründə latın əlifbası ilə çap olunmuş 100-ə qədər dərslik, soyad qanunu, dövlət dilinin adı və s. qanunlar, qərarlar kiçik zaman kəsiyində dövlətində qəbul etdiyi milli ideoloji konsepsiyanın təcrübi qismidir.

Təəssüf ki, bu ideoloji istiqamət 1993-cü iyunundan sonra çıxmaza girdi və təəssüf ki, böyük proqram yarımçıq qaldı…

Çağdaşlıq və ya demokratiya müsavatçılığın əsas sütunlarından biri kimi Elçibəy baxışlarında mühüm yer tutur. Bəyin öz sözlərinə üz tutaq: *«Bizdə deyirlər ki, demokratiya boş şeydir. Ancaq son vaxtlar demokratiyaya aid çoxlu məqalələr, kitablar yazılır, hətta Azərbaycanda liberal demokratiya uğrunda mübarizə gedir. AXCP-də, Müsavat Partiyasında olan liberal demokratlar istəyirlər ki, bu partiyaların proqramlarını dəyişdirib liberal demokratiya üstündü qursunlar. Çağdaş dəyərlərin də, deməli, mütəxəssisləri və müdafiəçiləri yetişir. Hətta millətçilər də özləri bilmədən liberal-demokratlıq edirlər. Məsələn, bu yaxınlarda Avropanın liberal-demokratları bizimlə görüşdülər, onlar ancaq liberal-demokratlarla iş görmək istəyirlər. Mən onlara dedim ki, biz millətçi, milli demokratlarıq.*

Ancaq proqramımızla tanış olduqda gördülər ki, biz də xalqın azadlığını, insanların azadlığını, Azərbaycanda yaşayan azsaylı xalqların azadlığını təmin etməyə çalışırıq və dedilər ki, bunlar liberal dəyərlərdir və siz liberal dəyərləri mənimsəmiş millətçilərsiniz. Buna heç bir etirazımız olmadı, yəni biz çağdaşlığı qəbul edənik, çünki çağdaşlıq bizim müsavatçılığın əsas ideyalarından biridir».

Elçibəy çağdaşlıqla milli, dini dəyərlərin iç-içə, üzvi bağlılığının bir mədəniyyət təzahürü, toplum fikri, insan əqidəsi kimi qəbul edilməsinə dair çox ciddi açıqlamalar vermiş, tarixi faktlarla bu sintezi, vəhdəti şərt etmişdir. O, yapon mədəniyyətində və dünyagörüşündə milli dəyərlə çağdaş dəyərin dialektik münasibətini tez-tez örnək göstərirdi.

Elçibəyin Quran, qədim türk demokratizminə böyük önəm verməsi, qədim yunan, Avropa, Amerika demokratik sistemi ilə Şərq demokratiya düzənini bir müstəviyə gətirməsi onun ideoloji sisteminin əsas həlqələrindən biridir.

Ingiltərənin keçmiş Baş naziri Marqaret Tetçerin - *«Böyük demokrat Əbülfəz Elçibəy»* - deməsi çox ciddi həqiqətlərin açarıdır.

Demokratiya baxımından Elçibəyin Məhəmməd Əmin siyasi məktəbinə və Atatürkə münasibəti, elmi-nəzəri, tarixi-təcrübi açıqlamaları üzərində ayrıca durulması lazım olan böyük, ciddi mətləblərdir və zaman-zaman araşdırılacağına əminik.

Məlumdur ki, Türkiyədə demokratik dövlətin ənənəsi ilə Azərbaycanda demokratik dövlətin ənənəsi və fəlsəfəsi eyni deyil. Təkamül, demokratik islahatlar, inqilabi islahatlar, doqmatik idarəçilik metodları, təkpartiyalılıq və çoxpartiyalılıq, mediya plüralizmi və avtoritar mediyaçılıq ənənələri kimi məsələlər ideologiya tarixinin Azərbaycanda və Türkiyədə gerçəkləşən təzahürü, formalaşma tarixidir. Elçibəy bütün bunların öyrənilməsi üçün aydın tezislər, ip ucları vermiş və gənclik üçün böyük ideologiya platforması yaratmışdır.

Müsavatçılığın üçüncü tərkib hissəsi (sıralama şərtidir) islami dəyərlərdir. Azərbaycan Cümhuriyyəti əsrin əvvəlində dünyəvi-laik dövlət olduğu kimi, əsrin sonunda da dünyəvi-laik dövlət oldu. Azərbaycan maarifçi-demokratlarının beyinlərə səpdiyi toxum yalnız belə məhsul verməli idi. Dinin dövlətdən ayrılığı cümhuriyyətin dövlət quruculuğunun təməl prinsiplərindən biri, hüquq sisteminin, bu sistemlə formalaşan toplumun əsasıdır. Müasir sivill dövləti bu təməl prinsiplər dışında təsəvvür belə etmək olmaz. Öncə Məhəmməd Əminin, 5 il sonra Mustafa Kamalın Şərqdə yaratdıqları iki demokratik Türk respublikası türk dövlətçilik tarixinin çağdaş mərhələsinin başlanğıcıdır. «Hüquq – xalqın iradəsidir» dövlət fəlsəfəsi ateist dövlətlərdə materialist-irq, spiritualist – millət, marksist-ploretariat mahiyyətdə olan metafizik təmələ oturdulmuşdur. Halbuki dünyəvilik insanın, vətəndaşın deyil, dövlətin simasıdır.

Elçibəyin baxışlar sistemində din, Islam dünyagörüşü dövlətin hüquq-idarə sistemində, onun üç ana funksiyasında (qanunvericilik, icraiyyə, məhkəmə) deyil, mədəniyyət komponenti kimi dövlətin fəlsəfəsində öz yerini alır.

Eyni zamanda Anayasa haqlarında hər kəsin din seçmə, dinə tapınma haqqı var. Bu bir vicdan azadlığı, mənəvi dəyər faktorudur. Bu mənada Elçibəy bəşəriyyətin mif, din, elm mərhələlərini geniş şəkildə açıqlayır. Tarixi, siyasi, ideoloji müstəvidə bu fenomenləri aydın bir məntiqlə araşdırır.

Elçibəy islami dünyagörüşlə demokratik çağdaş, eləcə də tükrçülük baxışlarının üzvi bağlılığı, elmi-məntiqi ilişgisinə xüsusi diqqət yetirirdi. Elçibəy söhbətlərinin bir məqamında

deyir: «*Gerçəkdən də Islam elmi, yəni Islamdakı elm, bilik təntənə çalıbdır – məntiqin, fəlsəfənin, tarixşünaslığın inkişafı göz qabağındadır. Deməli, islam elmə qapısını taybatay açıq qoyub… Islamın qapısı elmə açıqdırsa, deməli, demokratiyaya da açıqdır, çünki elm demokratiyanın aparıcı xətlərindən biridir. Elm cəmiyyətin irəli aparıcısı, onu həmişə tərəqqiyə aparan bir qüvvədir.*

Buna görə də müsavatçılığın əsasları incəliklə açıqlanmalı və yanlış fikirlər elmi şəkildə rədd edilməlidir. Bu mənəvi dəyərlər cəmiyyət həyatında özünəlayiq yeri qazananda müsavatçılıq böyük qələbə çala bilər və mən tam arxayınam ki, məhz belə də olacaq!»

Bu sözlərin geniş təfsirinə lüzum yoxdur.

Peyğəmbərlər Tanrı elçiləridir. Onlar xəbərdar etmək, Allah kəlamını yetirmək üçün göndərilmişlərdir. Bütün peyğəmbərlərin möcüzələri olub. Son - Peyğəmbərin Hz.Məhəmmədin (s.a.v.) möcuzəsi ağıl və məntiq sisteminin möcüzəsidir.

Elçibəy Quranın mücərrədliyini, ziddiyyətsizliyini, dərinliyini, demokratizmini, xüsusilə, yüksək qiymətləndirir, cəhalətə, sxolastikaya, bidətçiliyə, xürafata qarşı Islam fəlsəfəsini, Islam praqmatizmini, Quranın yüksək əxlaqi dəyərlərini qoyurdu.

Elçibəyin təriqət fəlsəfəsinə, xüsusilə, sufizmə, hürufiliyə özünəməxsus baxışları və yorumları var. Yunus Əmrə haqqında yazdığı çox qiymətli məqalədə Mövlana, Nəsimi, Xətai, Füzuli… haqqında yazılarında, çıxışlarında, Şərq elmşünaslığına həsr olunmuş araşdırmalarında Əbülfəz bəy təriqətlərin yerli dinlərlə bağlı mənşəyi, humanizm və tolerans – xoşgörü fəlsəfəsini geniş açıqlamışdır.

Elçibəyin şamanizm – tanrıçılıq dini, zərdüştlük – atəşpərəstlik dini haqqında görüşləri də ciddi elmi maraqla bərabər, ciddi ideoloji, elmi-tarixi anlam daşıyır.

Bu istiqamətdə onun əqidə silahdaşları Mirmahmud Fəttayev, Nəriman Qasımoğlu, Rafiq Ismayılov və b. rəhbərlik etdiyi, birgə gördüyü işlər, ideoloji təşkilatçılıq tədbirləri ideoloji baza üçün çox əhəmiyyətli olmuşdur. Iran adlanan dövlətdə dinin aşırı şəkildə siyasiləşdirilməsi, dini-təriqət bölücülüyünün toplum, millət bölücülüyünə çevrilməsi Elçibəy tərəfindən kəskin tənqid edilmişdir.

Elçibəy türk islamı ilə ərəb və fars islamının fərqləndirilməsini vacib sayırdı və türk islamının özəllikləri üzərində ayrıca dayanırdı.

Elçibəy türkçülüyə qarşı strateji mərkəzlərdə hazırlanmış pantürkizm, çağdaşlaşmağa qarşı beynəlmiləlçilik, islamçılığa qarşı panislamizm təliminin mahiyyətini, bölücü, dağıdıcı rolunu dəfələrlə açıqlamış və əslində bütün şüurlu fəaliyyətində bu baxışların mahiyyətindəki məkrli, zəhərli toxumları açmağa çalışmış və öz mücadiləsində buna nail olmuşdur.

Elçibəy ideoloji sisteminin mərhələləri bizcə belədir:

Dissident fəaliyyəti və Milli Azadlıq Hərəkatı dövrü (1960-1989)

AXCP və Bütöv Azərbaycan Birliyinə rəhbərliyi dövrü (1989-2000).

Elçibəyin ideoloji sistemində Bütöv Azərbaycan ideoloji konsepsiyası çox mühüm yer tutur ki, bu, üzərində ayrıca durulacaq müstəqil bir mövzudur. Elçibəyin Bütöv Azərbaycan konsepsiyası istiqlal və mücadilə ideyasını, mücadilə əsgərlərini, təşkilatlanmanı və hərəkat axarını birləşdirən böyük bir sistemdir. *Bütövləşmə, Millətləşmə, Dövlətləşmə* – yolunda dərininə və eninə təşkilatlanmaya böyük önəm verən Elçibəy Bütöv Azərbaycan Birliyinin məramnaməsində və «Bütöv Azərbaycan yolunda» kitabında öz baxışlarını sistemli

şəkildə təqdim etmişdir. Bu konsepsiya çağdaş müsavatçılığın əsaslarından biri kimi gerçəkləşdirilmişdir ki, bu da Elçibəy və onun fikir dostları ilə (Əli Kərimli, I.Qəmbər, P.Hüseyn, T.Yazqan, M.Kəngərli, Ə.Qaraca, C.Ünal, M.Mirəlioğlu, S.Cəlaloğlu, Ç.Göytürk, A.Hacılı, K.V.Nərimanoğlu, Ə.Tahirzadə, N.Nəsibzadə, V.Sultanlı, S.Alkın, S.Altaylı, Y.Akpınar, Y.Tezəl, M.Müştaq, A.Əliqızı, N.Sadıqova, X.Ibrahimli, A.Səmədbəyli, F.Mustafayev, I.Vəliyev) bağlıdır.

Artıq beş ildir ki, Elçibəy dünyasını dəyişmişdir. Ölümün bir anlamı da yenidən doğulmuşdur. Elçibəy fikirlərinin, ideyalarının bütün dünyaya ulaşan ikinci dövrü də doğulmuş, başlamışdır!

Türkiyədə Ankara Universitetinin siyasi bilimlər fakültəsində (yüksək lisans səviyyəsində), başqa universitetlərdə «Elçibəy siyasi sistemi», «Elçibəy dövründə Azərbaycanın xarici siyasəti», «Elçibəy milliyyətçiliyi», «Elçibəy demokratizmi», «Elçibəyin qərarvermə mexanizmi», «Elçibəy və etnik azlıqlar problemi», «Elçibəyin Bütöv Azərbaycan doktrini» mövzusunda elmi işlər yazılır. Amerikada (Texas Universiteti) «Elçibəy və Türk dünyasının maarif-mədəniyyət birliyi problemi», eləcə də Ingiltərədə, Almaniyada, Fransada, Yaponiyada… Elçibəy ideoloji sistemini araşdıran onlarca əsərlər yazılmaqdadır. Türk respublikalarında, Rusiya tərkibindəki türk topluluqlarında, eləcə də Baltikyanı ölkələrdə, Balkan ölkələrində, Islam dövlətlərində Elçibəy nəzəri irsinə maraq getdikcə artmaqdadır.

Artıq dünyada Elçibəy haqqında çap olunmuş kitablar, qəzet və jurnal məqalələri, film və ekran xronikası, Internet materialı bir kitabxana təşkil edəcək əhatə miqyasındadır.

Elçibəy söhbətlərinin birində deyir: «*Elçibəy mücadiləsini indi Elçibəy siyasi məktəbi aparır. Özü də Elçibəyə yaraşan şərəflə, qətiyyətlə, iradə və əzmilə. Yolda qalanlar, dözməyənlər, yorulanlar, satılanlar da yox deyil. Və onlar artıq Elçibəylə də deyil*». «*Mən Azərbaycan türklərinə dünyanın bir neçə böyük şəxsiyyətini öyrənməyi məsləhət bilirəm. Onlardan birincisi bütün zəmanələrin ən böyük dahisi olan Məhəmməd peyğəmbərdir (s.ə.s). Onun həyatını, peyğəmbərlik tarixini, ideyalarını, hədislərini, ümumən dövrünü yaxşı bilmək lazımdır. Ikinci Fərabidir, onun dini və fəlsəfi baxışlarıyla tanışlıq elmimiz üçün olduqca faydalı olar. Üçüncü və dördüncü Məhəmməd Əmin Rəsulzadə ilə Mustafa Kamal Atatürkdür ki, onları bütövlükdə, incəliklə mənimsəməyi hər bir Azərbaycan ziyalısına gərəkli, siyasətçilərimiz üçünsə həyati zərurət sayıram. Yeni, çağdaş dünyanın qapılarını necə açmaqla onların irsi ən dəyərli yardımçınız olacaq*».

Bu tarixi sıralamada beşinci şəxs, şübhəsiz ki, Ə.Elçibəydir!

Şərəfli həyatı, saf əqidəsi, dərin zəkası, ölməz əsərləri, fikirləri, ideyaları ilə. Onun yaratdığı mənəvi övladları. Azərbaycanın gələcəyi olan siyasi məktəblə. Böyük mənəvi sələfləri və ümidverici xələfləri ilə.

Əsrlər, epoxalar illərlə, aylarla deyil, şəxsiyyətlərlə və cahanşümul olaylarla başlayır və bitir.

XX əsr Məhəmməd Əminlə, Atatürklə başladı. Əbülfəz Elçibəylə bitdi.

Və XXI əsr Ə.Elçibəylə başlayacaq! Şübhəsiz ki, zəfər çalacaq!

Bu zəfər Elçibəy və onun sələflərinin, haqqın, ədalətin, insanlığın, türklüyün, Islamın, demokratiyanın, Bütöv Azərbaycanın, Bütöv Türk Dünyasının zəfəri olacaq!

GÖRÜNƏN VƏ GÖRÜNMƏYƏN HEYDƏR ƏLIYEV VƏ ƏLIYEVÇILIK

Mən o fikirdəyəm ki, H.Əliyevi hakimiyyətə şəxslər deyil, zaman özü gətirdi. Kritik zamanların sonucu dürlü-dürlüdür. Bu sonuclardan biri də demokratiyanın, millətsevərliyin, idealizmin çıxmaza girməsi və totalitarizmin alternativ variant kimi ortaya çıxmasıdır. Ədalətli düzən pozulanda onun yerini özbaşınalıq, Xeyirin yerini Şər, qanunçuluğun yerini qanunsuzluq, millətsevərliyin yerini tayfaçılıq, vətənsevərliyin yerini yerliçilik, düzlüyün, səlisliyin yerini rüşvət və korrupsiya tutur. Dünya binadan belə yaranıb, indi də belədir, yəqin ki, belə də olacaq.

Əlbəttə, H.Əliyev yoldaş oturub hakimiyyətin ona doğru gəlişini ayağını ayağının üstünə atıb gözləməyib. Bu cür düşünmək sadəlövhlük olardı. Və bu da sadəlövh düşüncə olardı ki, bir dəstə adam H.Əliyevi fiqura kimi götürüb simvol olaraq hakimiyyətə gətirib.

Bu nağılı yalnız H.Əliyevi yetərincə tanımayanlara danışmaq olar.

H.Əliyev şübhəsiz ki, Azərbaycanın iki xarizmatik liderindən biridir. Elçibəyin alternativi H.Əliyevdir. Xeyir-şər dixotomiyasının klassik modelinin Azərbaycanın yaxın tarixində iki şəxsdə – iki qütbdə mərkəzləşməsi tarixi qanunauyğunluq baxımından təbiidir.

Dağılmış köhnə sovet məkanının elə qanunauyğunluqları var ki, onlar yalnız Azərbaycan deyil, bütün köhnə postsovet məkanı üçün doğrudur. 70 illik sovet rejimi, ideologiyası, əxlaqı, dünyagörüşünün cəmi 2-3 yaşı olan demokratik təfəkkürə, milli kimlik və müstəqil dövlətçilik şüuruna qarşı tətbiq etdiyi gövdə göstərisinin, müxtəlif rəngdə, şəkildə olan təzyiqin və təpkinin təsvirinə ehtiyac yoxdur. Keçmişlə gələcəyin uzun sürəcək mübarizəsinin keçid dövrü öz sürprizlərini ortaya qoydu: etnik çatışmalar, iqtisadi böhranlar, mənəvi çalxantılar, lokal müharibələr…

Zaman H.Əliyevə işlədi. Sovet idarəçilik məktəbinin fenomenlərindən biri olan H.Əliyev cildini dəyişib zahirən antikommunist, millətçi, Atatürkçü oldu. Dəyişməyən böyük təcrübə dəyişən zaman üçün kara gəldi. Milli-azadlıq hərəkatının dividentləri yavaş-yavaş H.Əliyevin əlinə keçməyə başladı.

Ç.Hüseynovun «Ailə sirləri» romanının bəzi məqamlarını xatırlamağa imkanım yoxdur. Ancaq bəzi qlobal məsələlərin psixoloji tərəfini anlamaq üçün oxucudan bu romanın ayrı-ayrı səhnələrini xəyalında canlandırmağı xahiş edirəm. Bu səpgi üzərində geniş dayanmaq mənim mövzuma daxil deyil.

Azərbaycan Xalq Cəbhəsi birinci böyük xətasını yapdı. H.Əliyevi Mütəllibov rejimindən qoruyan AXC oldu.

Böyük tarixi missiyası və rolu olan AXC-nin bu səhvi sadəlövh humanizmdən başqa bir şey deyildir. Zaman keçdikcə bu səhv böyüyüb bütün aydınlığı ilə görsəndi. Amma artıq gec idi. Mütəllibova qarşı «tarixi müttəfiqlik bəhrəsi» ilk demokratik prezident seçimində özünü göstərdi. Əliyevçilərin ideoloqu M.Ələsgərov AXC Ali Məclisinin üzvü ola-ola H.Əliyev komandası yaratmaq tapşırığı almışdı. Tərəfdarlar gülünc dərəcədə az idi. Demokratiya yolu ilə irəliləyən Azərbaycan siyasi fikri üçün H.Əliyev sindromu tamamilə təhlükəsiz görünürdü. Siyasət şahmatında görünənlə görünməyənin dialektikasını yalnız bilənlər bilir. Və bu bilənlərdən birincisi heç şübhəsiz ki, H.Əliyev idi.

…Iki epizodu xatırlatmaya bilmirəm. H.Əliyev bir qrup cəbhəçinin Bakıya gəldiyi 1990-cı illərdə I.Qəmbər mitinqə rəhbərlik edirdi. «Azadlıq» meydanı aşıb-daşırdı. Hər kəlməsi alqışlarla qarşılaşan I.Qəmbərin «H.Əliyev bu gün Moskvadan Bakıya gəldi. Azərbaycan Xalq hərəkatının, demokratik mücadilənin ciddi problemləri də bu gün Bakıya gəldi» cümləsi meydanda soyuq qarşılandı.

…Qiyamdan sonra Surət Hüseynovla birləşən Heydər Əliyev o zamankı dövlət katibi Əli Kərimova birgə işləməyi təklif etdi. Fəqət rədd cavabı aldı. Mahiyyəti, fəlsəfəsi fərqli idarəçilik məktəblərini, dövlətçilik baxışlarını birləşdirməyin mümkün olmadığı ortaya çıxdı.

Əslində, Ə.Kərimli, I.Qəmbər, P.Hüseynli H.Əliyevin anlamadığı, dərk edə bilmədiyi bir məktəb idi - Elçibəy məktəbinin yeni komandası idi. Hətta ayrı-ayrı partiyalarda olsalar belə!

Xalq Cəbhəsindən sonra ikinci humanist addımı, bağışlama cəhdini xalq özü etdi. Xalq da Allahın özü kimi əfv edəndir. Xalq sovet generalını, Kremlin 5-6 böyük adamından birini öz ağır günündə təpki və nifrətlə qarşılamadı. Düzdür, bu qarşılamada və münasibətdə böyük məhəbbət-filan da yox idi. Ancaq böyük oyunçular üçün zərrə qədər şans oyununun sonunda qələbə üçün artıqlaması ilə yetərli olan üstünlük və qələbə idi.

Və H.Əliyev demokratiyadan və millətdən aldığı şansı, zərrə-zərrə artırırdı. Əski kommunistlərin yüksək dövlət məmurlarının səhvləri H.Əliyevə öz qələbəsi üçün zəruri olan təməli yaradırdı. Becan Fərzəliyev, Fəzail Ağamalı… kimi demokratların şüurlu və ya şüursuz buraxdığı səhvlər H.Əliyev üçün açıq-aydın siyasi uduş idi.

Naxçıvan səngəri H.Əliyev üçün Naxçıvan Cəbhəsi, Naxçıvan dövləti rolunu oynamağa başladı. Naxçıvan kartı elə kozır idi ki, bu kozır yerliçilik və mafiya zəminində «Ermənistan türkləri» kartını da gətirdi. Siyasətçinin bir «hünəri» də xalqı aldatmağı bacarmaqdır.

Meydanlarda, müharibədə bölünməyən xalq H.Əliyev tərəfindən tayfa-tayfa, yer-yer bölündü. Xocalı qırğını günü Xocalı «başkanı» Naxçıvanda idi. Nə üçün? Bunu Allah bilir.

Vertolyot qəzası Azərbaycanın kürəyinə saplanmış ağır bıçaq zərbəsi oldu. Bu zərbəni kim vurdu? Bunu da Allah və yapanlar bilir. Bilinməyən, bu cinayətlərin nə vaxt açıqlanacağıdır.

Nemət Pənahlı və Nemət Pənahlı kimilərinin H.Əliyevin ovcuna qoyduğu siyasi dividentlər xalqın qazandıqlarını satmaqdan başqa bir şey deyildir. Ümumən H.Əliyev satanları və satılanları almaq, xərcləmək üzrə ən böyük mütəxəssisdir.

1992-ci ildə Elçibəy prezident seçildi. Ilk demokratik qanuni seçki Azərbaycanın milli-demokratik liderini çox böyük çətinliklərlə hakimiyyətə gətirdi.

1918-1920-ci illərdə cəmi 2 il yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müstəqil demokratik Azərbaycan hökuməti cəmi 1 il duruş gətirə bildi.

Obyektiv və subyektiv səbəblər Elçibəy hökumətini çökdürdü. Elçibəy hökuməti böyük inqilabi tədbirləri, islahatları, qanunçuluğu bu qısa zamanda həyata keçirə bildi. Rus ordusu Azərbaycan dövləti ərazisindən tamamilə çıxarıldı – 200 illik işğal felən sona çatdı, milli valyuta dövriyyəyə buraxıldı, etnik azlıqlar haqqında demokratik qanun qəbul edildi, test imtahanları qəbul imtahanları mafiyasına son verdi, latın əlifbasında 100-ə qədər yeni dərslik hazırlandı, dilimizin tarixi adı bərpa olundu, təhsil qanunu və konsepsiyası qəbul olundu, ləl-cəvahirət fondu yaradıldı, beynəlxalq neft müqaviləsinin -Bakı-Ceyhanın layihəsi hazırlandı, Milli Məclisdə yüzlərlə qanun qəbul edildi, inhisarlaşmaya qarşı qanun qə-

bul edildi, rüşvət və korrupsiyanın qarşısı önəmli şəkildə alındı, gömrük sistemi yaradıldı, Milli ordu quruculuğunda və Qarabağ müharibəsində ciddi addımlar atıldı.

Böyük uğurlar səhvləri istisna etmir. Neft müqaviləsinin birinci altı ay ərzində bağlanması və əski Milli Məclisin buraxılmaması ciddi səhv idi.

Rusiya və Irana qarşı kompromissiz münasibət milli dövlət üçün ciddi təhlükələr yaratdı.

Təcrübəsizlik və kadr boşluğu da az problemlər yaratmadı. Hərəkatın qızğınlığından soyuq dövlətçiliyinə keçid inqilab deyil, təkamül istəyirdi. Təkamül – zaman deməkdir. Bu zaman düzgün hesablanmadığı üçün seytnot vəziyyəti yarandı.

S.Hüseynov qiyamı hakimiyyət üçün sonsuz problemlər yaratmış H.Əliyevin qurduğu ən böyük həmlə oldu.

Üzbəüz mübarizə aparan bir qütbə Ə.Elçibəy başçılıq edirdi. Elçibəyin məqsədi demokratik idarəçilik, milli əsaslı dövlətçilik məktəbi yaratmaq idi. Bu qütb üçün xəyanət, qisas, «nə olursa-olsun mən…» məntiqi, qayəsi yox idi.

H.Əliyevin başçılıq etdiyi o biri qütbün idealı hakimiyyəti nə yolla olursa-olsun ələ keçirmək idi. Bu yolda heç bir güzəşt, rəhm, ədalət yox idi. Elçibəy 5-6 nəfəri öldürüb Rusiya ilə bəzi kompromisə razılaşmaqla hakimiyyətdə qala bilərdi. Elçibəy bu yolu seçmədi. O, qısısa, qurşaqdan aşağı zərbəni, vətəndaq müharibəsinə aparan yolu seçmədi. Tarix üçün, gələcək üçün özünü və komandasını qurban verdi.

Öz siyasi məktəbini yaradan Ə.Elçibəy üzərində formal qələbəni H.Əliyev, tarixi qələbəni isə Ə.Elçibəy qazandı. H.Əliyev Elçibəy siyasi dilini, məntiqini, fəlsəfəsini istəsə də, istəməsə də qəbul etdi.

91-lər yarandı, rüşvət və korrupsiya iddiasında olan sovet ali məktəbinin aparıcı «şəxsiyyətlər» F.Maqsudovun, M.Ələsgərovun rəhbərliyi ilə mübarizə meydanına atıldı. Təəssüf ki, görkəmli alimlər mərhum - Z.Bünyadov, mərhum R.Göyüşov, E.Salayev… irticanın Azərbaycana gəlməsində mühüm rol oynadılar.

Əsərləri bilinməyən «yazıçı» S.Təbrizli, iuda, siyasətçi-demokratlar N.Pənahlının, F.Ağamalının və neçələrinin canfəşanlığı özləri mənən ölü olsalar da, arxivlərdə canlı yaşamaqdadırlar.

Demokratik E.Məmmədovun, Q.Hüseynlinin, R.Quliyevin, V.Quliyevin, Anarın, M.Ibrahimbəyovun, E.Əfəndiyevin… tarixi «xidməti» Elçibəy hökumətini yıxmaq oldu. Becan Fərzəliyevin açdığı qapıdan içəri girənlər Elçibəyi arxadan vurmaq şansı qazandılar.

Bu hökuməti içəridən yıxanlardan R.Qazıyev, R. və M. Cavadovlar, onlara özləri bilə-bilə və bilməyə-bilməyə dəstək verən nazirlər, idarə rəhbərləri, siyasilər açıq-aydın şəkildə H.Əliyevə işləməyə başladı.

Anar, Y.Səmədoğlu, M.Əliyev, Qabil, Ə.Əylisli, F.Qoca… kimi yazıçılar, I.Əliyev, A.Axundov, M.Mərdanov, T.Bünyadov, F.Qasımzadə, Ə.Insanov, V.Əliyev, N.Xudiyev kimi alimlər və neçə-neçə A.Rəhimzadə kimi fürsətçi siyasətçilər, jurnalistlər H.Əliyevi Azərbaycan üçün çıxış yolu bildilər və nə qədər gücləri varsa, o qədər səfərbər olub H.Əliyevi hakimiyyətə gətirmək üçün mübarizə meydanına girdilər.

O zamanlar Türkiyə televiziyasında Azərbaycan ərazisindən fərqli rənglə göstərilən Naxçıvan Muxtar Respublikası Ermənistanla müstəqil danışıqlar aparır və hər fürsətdə H.Əliyev Naxçıvan dövlət başçısı kimi təqdim olunurdu. Türkiyənin sabiq prezidenti, H.Əliye-

vin çox qədim dostu, PKK yaranarkən H.Əliyevi şəxsən tanıyan S.Dəmirəl Azərbaycan Milli dövlətinə və Elçibəyə xəyanət etdi. Ekzimbank yardımı və rəsmi Türkiyə dövlətinin, eləcə də Rusiya hərbi-sənaye kompleksinin, Iranın məlum dairələrinin maddi, mənəvi, siyasi yardımını alan H.Əliyev S.Hüseynov qiyamı vasitəsilə hakimiyyətə gəldi.

Demokratik dövlət idarəçilik məktəbi dağıdıldı. Qazanılmış uğurlardan ailə mənafeyi üçün istifadə edildi.

Azərbaycanın 6 rayonu ermənilərə təslim edildi, Xalq Cəbhəsinin 36 batalyonu buraxıldı, dünən milli-azadlıq hərəkatında canını fəda edənlər, hətta ağır zamanlarda H.Əliyevi müdafiə eləyən Cəbhəçilər siyasi dustaq kimi həbsxanalara salındı.

H.Əliyevi hakimiyyətə bizim günahlarımızı, səhvlərimiz gətirdi – desəm, yuxarıda dediklərimi başqa bir müstəvidən təsdiq etmiş oluram. Pənah Hüseynlinin siyasi etirafı, yaxın tariximizin siyasi sənədi «Cinayətimiz məğlubiyyətimizdir» pamfleti dövrün mürəkkəbliyinə işıq tutmaq baxımından qiymətlidir.

Tarix çox mürəkkəbdir. Görünür, necə olmağından asılı olmayaraq, həmişə gələnin qabağını kəsmək olmur. Və tarix həmişə mütərəqqi inkişaf xətti üzrə gəlişmir. Tarix – həm də ziddiyyətlərin, əksliklərin məcmusudur.

Və H.Əliyevin hakimiyyətə gəlişi və törətdikləri də bəlkə tarixi zərurətdir. Əgər bu zərurət olmasaydı, Elçibəy böyüklüyü bu aydınlıqda görünməzdi, Qüdrət Həsənquliyev, Hafiz Hacıyev, Hidayət Orucov, Məmməd Novruzoğlu kimilərinin iç üzü görünməzdi. Öz dostlarının əlində qan izi axtaranlar bütün cizgiləri ilə gözümüz önündə canlana bilməzdi.

Indi adını müxalifət qoyanların H.Əliyevlə birbaşa və dolaylı iş və əqidə birliyi yaxın tariximizin acı gerçəklərindən biridir.

Amma nə edəsən ki, tarixi tərsinə çevirmək mümkünsüzdür. 1993-cü il iyunun 4-nə kimi cəbhəçi, müsavatçı olub, bu gün H.Əliyevdən hər şeyi qapışdıranlar Elçibəy hökumətində nazir olub sonra Xalq Cəbhəsindən asta qaçan namərddir deyib qaçanlardan, şərəfsizlərdən kim ibrət götürəcək?

Eyni «səmimiyyətlə» Vəzirova, Mütəllibova, Elçibəyə, S.Hüseynova, H.Əliyevə yaltaqlanan zəmanə adamları, tarixçi dekanlar, millət vəkilləri utanmırlar. Axı niyə utansınlar ki, bulanlıq mühitdə utanmaqla utanmamağı kim bir-birindən ayırır?

2003-cü il Azərbaycan tarixinin ən ağır illərindəndir. Məhz bu il ölügizlətmə, siyasi repressiya, saxta seçki ilidir. Hakimiyyəti Kamal ata kürkü kimi atadan oğula ötürənlər korrupsiyaçı, tayfaçı rejimə «hə» dedilər. Azərbaycan tarixinin ən şərəfsiz səhifələrindən biri yazıldı. Ilham Əliyevlər, Kəmaləddin Heydərovlar, Misir Mərdanovlar, Əli Həsənovlar, Bahar Muradovalar, Səyavuş Novruzovlar, Ziyalar, Tağılar… qalib gəldilər. Uduzan Azərbaycan oldu.

«AZADLIQ bloku»nun yaranması Azərbaycan siyasi tarixinin və demokratiya uğrunda mübarizənin yeni səhifəsidir. Azərbaycan Xalq Cəbhəsi, Müsavat və Azərbaycan Demokrat Partiyasının bağladığı saziş yalnız 2005-ci il parlament seçkiləri üçün deyil, Azərbaycanı bu avtoritar, korrupsiyaçı, tayfaçı rejimdən xilas üçündür. «Mən atamın siyasi kursunu davam etdirirəm» deyən oğul Əliyev, əslində, ata Əliyevin rəzalət dolu idarəçilik sistemini ən fərsiz şəkildə davam etdirir.

Bu rejimin Azərbaycanda demokratlara qarşı açdığı cəhal terror Azərbaycan üçün qapı açmaqdır. Cinayətkar hakimiyyət, əslində, ermənilərlə müqavilə bağlayaraq Azərbaycan xal-

qına qarşı müharibə elan edibdir. Bu H.Əliyev ənənəsi bu gün uğurlu davam etdirilir. R.Quliyevin öz Vətəninə gəlişi ilə bağlı öz xalqına qarşı ordu yeridən I.Əliyev Qarabağ problemini həll etməyəcəyini, avtoritar rejimi qoruyacağını bəyan etmiş oldu.

Bunu da bəyan etmiş oldu ki, seçkilər saxtalaşdırılacaq. Ruşaylonun Bakıya gəlişi və seçkilərə fəal müdaxiləsi, azad toplaşma azadlığına qarşı sərt maneə, elementar hüquqlardan ali hüquqa qarşı bütün maddələrin pozulması davam edir. 37 və davam edir Əliyevçilikdən başqa nə adlandırıla bilər.

Işindən uzaqlaşdırılan və həbs edilən Fərhad Əliyev, Əli Insanov, klan davası, hakimiyyət daxili çəkişmədən başqa nə adlana bilər? Sağ əl – Kəmaləddinin əli, sol əli – Fərhad əlini kəsdi. Şərq yönümü Qərb yönümünü yedi, əl də, yön də I.Əliyevindir. Həm ağlamalıdır, həm də gülməli…

Ibn Xəldundan Bzejinskiyə qədər nəzəri və təcrübi sosiologiya qanunları açıq şəkildə sübut edir ki, Azərbaycan sözdə demokratiya, Qərb yönümlüdür. Həqiqətdə, mahiyyətdə isə Iran və Rusiya yönümlü avtoritar rejimlidir. Təhlükə odur ki, demokratiyanın (represiya, həbs, təzyiq…) yerini yeraltı güclər, qaranlıq təriqətçilər (əslində, Islamla heç bir əlaqəsi olmayan təməlçilər) tutur və terror bərqərar olur. Əliyev siyasi məktəbinin məğzi budur!

Görünən və görünməyən H.Əliyevdən çox yazılacaq. Yezid, Müaviyə, Hitler, Rza şah, M.C.Bağırov, S.Hüseyn, Miloşeviç… haqqında yazıldığından da çox.

Bu yazılanlar və yazılacaqlar H.Əliyevin gerçək üzünü olduğu kimi ortaya qoyacaq! Səbr edək. Allahın bir adı da Səbrdir.

Allah şeytana lənət eləsin!

Allah imanımızı kamil eləsin! Amin!

AZƏRBAYCAN DÖVLƏTÇILIYINDƏ MILLI IDEOLOGIYA VƏ MƏDƏNIYYƏT SIYASƏTI

(*konsepsiya ştrixləri*)

Azərbaycan dövlət istiqlaliyyətini bəyan etdikdən sonra milli ideologiyanın bütöv bir sistm kimi formalaşması, dünya ümumsivilizasiya və demokratiya kontekstinə mədəniyyətin və iqtisadiyyatın inteqrasiya, modelləri ilə daxil olması dövlətçilik strategiyasının tərtibi Milli dövlətçilik ideologiya konsepsiyasının hazırlanması yalnız milli-mədəni inkişaf sahəsində yeni, elmi baxımdan əsaslandırılmış dövlət siyasəti nəticəsində mümkündür. Bu məsələnin son dərəcə vacib olması onunla bağlıdır ki, ictimaiyyətin və dövlətin eyni zamanda həm məqsədi, həm də inkişaf vasitəsi olan ideologiya millətin mənəvi potensialını təmin edən iqtisadiyyatda, sosial həyatda, mənəviyyat, əxlaq və psixologiyada yeni strategiyanın əsas amilidir.

Ideoloji təməl, sosiomədəni əlamətlər ictimaiyyətdə silinməz iz qoyur, onun sosial-tarixi gedişinin, əsas istiqamətini müəyyən edir. Buna görə də Azərbaycan dövlətçiliyinin taleyi milli ideologiya yönümünün, mədəniyyət siyasətinin dərk edilməsi və Azərbaycan xalqının gələcəyi optimal sayılan məqsədyönlü inkişafla sıx bağlıdır.

Bu gün Azərbaycanda total böhran vəziyyəti həyatın bütün sahələrində aktual qanun və qərarların qəbul edilməsini zəruri etmişdir. Özü də bu məsələlərin həlli nəzəri-akademik xarakter daşımamalı, birbaşa real-praktik səmtə yönəlməlidir. Konkret olaraq mədəniyyət sahəsində praktik baxımdan özünü nüfuzdan salmış nəzəri, metodoloji və konseptual mühakimələrin əvəzində günün tələblərinə və elmi prinsiplərin standartlarına cavab verən müfəssəl fəaliyyət proqramının tərtibi və bu proqramın həyata keçirilmə mexanizminin hazırlanması zəruridir. Bu zaman bir neçə şərt unudulmamalıdır:

- mədəniyyətə və mədəniyyət elementlərinə basmaqəlib marksist-leninçi üstqurum ünsürləri kimi deyil, dövlətin inkişafının real, rassional bünövrəsi kimi yanaşmaq lazımdır;

- mədəni proseslərin sosial təşkilinə daxil olan, sosiomədəni inkişafın tərkib hissələri sayılan, mənəvi mədəniyyətin bünövrəsində dayanan dilin, ənənələrin, siyasətin, dinin, elmin, incəsənətin normativ əsasnamələrini deyil, ana cizgiləri əhatə edərək siyasətin variativ modellərinin hazırlanması zəruridir;

- mədəniyyətşünaslıq biliyinin yanlış və kortəbii inkişafının əsl elmi təsəvvürlərlə əvəzolunma prosesi üçün elmi biliyi qeyri-elmi bilikdən ayırma meyarlarının dəqiqləşməsi və fəaliyyətin effektiv təşkili nəzəriyyəsi metodlarının cəlb olunması zəruridir.

Bu şərtlərin labüdlüyü onunla izah oluur ki, mədəniyyətin kompleks şəkildə idarə edilməsinin təsirliliyi elmi-nəzəri dərketmənin və əsaslandırmanın səviyyəsilə qavranılır.

Azərbaycanın mənəvi mədəniyyətinin inkişaf yolunun təhlili göstərir ki, bu sahədə mükəməl fəaliyyət proqramının hazırlanması, milli mədəniyyətin dövlət, munisipal və xüsusi-əzəl səviyyələrdə qorunma mexanizimlərinin yaradılması üçün aşağıdakılar tələb olunur:

Yeni mədəniyyətin formalamasında keçmiş mədəni irsin rolunu öyrənmək. Müstəqil Azərbaycanın dövlət, elm və incəsənət xadimlərinin XX əsrin əvvəllərində (20-ci ilə qədər) söylədikləri fikirlərdən faydalanmaq. Azərbaycanın sovet dövründəki mədəni həyatına yenidən baxmaq və diqqəti bu məsələlərə yönəlmək:

- 20-ci illərdə mənəvi mədəniyyətin təkamülü xəttinin süni surətdə qalmasına və dağıdılmasına;

- 30-40-cı illərdə inqilabi mədəniyyətin davamçısı olan totalitar mədəniyyətin meydana çıxmasına, inzibati-amirlik sisteminin tənlimetməsi nəticəsində mənəvi asılılığın və mütiliyin yaranmasına, rəsmi mədəniyyətdə beynəlmiləlçilik şüarı altında həyata keçirilən milli xüsusiyyətlərdən uzaqlaşdırma siyasətinə, milli dəyərlərin yalnız dekorativ səciyyə daşımasına, mədəniyyətin destruktivləşməsinə, total ideologizasiyasına və siyasətləşməsinə, milli dilin dövlət səviyyəsində işlənməsinin aradan qaldırılmasına;

- 50-30-ci illərin ortalarından etibarən milli mədəniyyətin bir çox sahələrinin yox olmasına, mənəvi mədəniyyətə bəsitləşdirilmiş yanaşmanın formalaşdırılmasına;

- 18-20-ci illərdəki milli müstəqilliyin sovet rejimində gizli və açıq təzahürləri ilə disident düşüncə şəklində elmdə və bədii sənətdə ifadəsinin kompleks şəkildə öyrənilməsinə;

- özgə cür düşünmüş yaratdığı milli mədəniyyət konsepsiyasının ana cizgilərin öyrənilməsi və dərk edilməsinə;

- mühacirətdə yaranan mədəniyyətlə milli ideoloji zəminin öyrənilməsinə və bunun ümummilli mədəniyyətin tərkib hissəsi kimi qəbul edilməsinə;

- 80-90-cı illərdə mədəniyyətdə müxtəlif kəskin tənəzzül proseslərinin özünü göstərməsinə və bu prosesin sürətlə artmasına;

2. Keçmişin mənəvi mədəniyyətinin dirçəliş problemini dərk etmək və mənəvi-əxlaqi dəyərləri aktuallaşdırmaq. Ənənələrin və innovasiyaların rolunu müəyyənləşdirmək. Mənəvi mədəniyyətə nadirlik, unikallıq dəyəri əhəmiyyəti verən və onu vahid modellərə salınmaqdan qoruyan ənənələrə milli sərvət kimi qiymət vermək.

3. Mədəniyyətə – millətin psixostrukturundan asılı olan, milli təkrarolunmazlığın humanist mahiyyətinin təzahürü kimi baxmaq. Mənəvi mədəniyyətə açıq, immanent, daxili inkişaf mexanizminə malik olan sistem kimi yanaşmaq, mədəniyyətdə varislik problemlərini təhlil etmək.

4. Azərbaycanın dünya mədəniyyətinə daxil olmaq imkanının meydana çıxması ilə əlaqədar olaraq aktuallaşan, mədəniyyətlərin qarşılıqlı əlaqə və dioloji münasibətlərini araşdırmaq.

Bir ölkənin digərinə mədəni təsirinin artması, mədəniyyətlərin effektliyi, mədəniyyət imperializmi deyilən sömürü mədəniyyətinin yaranması, yaxud daha az sabit olan mədəniyyətin daha güclü və inkişaf etmiş mədəniyyətdə əriməsi təhlükəsini yaradır. Fəal sivilizasiyanın mənəvi nüfuzunun yayılması nəticəsində daha az dinamik olan sivilizasiyada millətin mənəvi və maddi əlamətlərinin tamamilə silinməsi faktlarla sübut olunur. Belə proseslərə yol verməmək üçün yabançı təsirlərin təzyiqinə milli mədəniyyətin özünəməxsus xüsusiyyətlərinin öyrənilməsi dərk edilməsi, siyasət meydanına çıxarılmasıdır. Bu, çox ciddi və mürəkkəb problemdir. Amma həmin məsələyə məhz belə yanaşmaq özgə mədəniyyətlərin diqtəsinin və mədəniyyətimizin deformasiyaya uğramasının qarşısını ala bilər. Inkişaf etmiş ölkələrin mədəniyyət sahəsindəki səriştəsini öyrənəndə alim, mütəxəssis və dövlət xadimlərimizin diqqəti o səmtə yönəlməlidir ki, müxtəlif uyuşmaz və ziddiyyətli şüur sistemləri, mənəvi sərvət oriyentasiyaları, milli psixoloji xüsusiyyət və əlamətlər ekletik, mexaniki şəkildə birləşməsin. Bunun üçün də yabançı təcrübəni təqlid etmək deyil, bütün

müsbət müasir nailiyyətlərdən bəhrələnərək mədəniyyətdə öz mənəvi köklərimizin üstünlüyünü qorumaq şərtilə üzvi sintezə nail olmaq lazımdır.

Milli ənənələrimizi, mənəvi köklərimizi və milli varlıq şüurumuzu bərpa etməklə bərabər, mədəniyyətin inkişaf proqramına kompüterləşdirmə, qloballaşma və mistikləşmə məsələlərini də əsas elementlər kimi daxil etmək nəzərdə tutulmalıdır.

5. Kompüterləşdirmə mədəniyyətin həm texnika və texnologiyanın nailiyyətlərini, mikroelektronikanın uğurlarını, həm də hər bir şəxsin məlumat banklarında yığılıb saxlanan və ona lazım olan informasiyanı əldə etmək imkanını əhatə edir. Kompüterləşdirmə müasir cəmiyyətdə kütləvi kommunikasiya vasitələrinin geniş yayılması və mənəvi sərvətlərin güclü generatoruna və yayıcısına çevrilməsilə sıx bağlıdır. Burada mənəvi mədəniyyətə informasiya strukturlarının təsiri və bu təsirin tənzimlənməsi nəzərə alınmalıdır.

6. Mədəniyyətin qloballaşması onun kürsəlləşməsi anlamını daşıyır və mədəniyyətin industriallaşmasının qarşısını alır. Xüsusən elm sahəsində bu, üç məsələ ilə sıx bağlıdır:

- birincisi, stiyensimzdən (elmi mütləqləşdirilməsindən və fetişləşdirilməsindən) imtina etmək;

- ikincisi, elmi nailiyyətləri praktikaya tətbiq etmək üçün şərait yaratmaq;

- üçüncüsü, elmdə texnokratizmdən humanizasiyaya doğru istiqaməti dəyişmək.

7. Mədəniyyətin mistifikasiyası dini sərvətlərin qaytarılması ilə bağlıdır. Əxlaqi keyfiyyətlərin azalması və silinməsi dini idealların köməyilə aradan qaldırıla bilər. Buna görə də dinin dünyəvi dövlətdə yerini, imkanlarını və rolunu dəqiqləşdirmək lazımdır.

Uzun illər boyu ağır zərbələr altında qalan mənəvi mədəniyyətimiz dirçələrək cəmiyyətin və dövlətin mövcudluğunun son dərəcə vacib və əvəzolunmaz təməlinə çevrilməlidir.

Yaxşı məlumdur ki, dünya səviyyəli istehsalat mədəniyyətini idxal etmək mümkün deyil. Bunun əsas səbəblərindən biri də odur ki, bu mədəniyyətin arxasında həmişə həmin istehsalatın daşıyıcılarının daxili mədəniyyəti, mənəvi varlığın spesifik xüsusiyyətləri, zəngin və təkrarolunmaz mühit durur. Şərq və Qərb texnologiyalarının nailiyyətləri həmin cəmiyyətlərin obrazlarını formalaşdıran mənəvi kontekstdən ayrılmazdır. Buradan da milli mənəviyyatın dərin qatlarından, Azərbaycan mentallığından doğan, açıq və qabaqcıl dünya təcrübəsini mənimsəməyə qadir olan iqtisad mədəniyyətini yaratmaq zərurəti tamamilə aydın olur. Bu səbəbdən də xalqın mənəviyyatında əsas xüsusiyyəti, unikal etnopsixoloji spesifikliyi axtarıb tapmaq, dərk etmək, sintezləşdirmək və işlətmək lazımdır ki, o, Qərbi Avropa kapitalizminin protestant təsərrüfat etikasına, yaxud Cənubi Koreya iqtisadiyyatındakı möcüzənin əsası sayılan konfusian ənənəsinə bənzər rol oynaya bilsin.

Bütün bunlar mənəvi mədəniyyətin millətin özünü qorumasında əsas mexanizm olduğunu, dövlətçiliyin yararlı işləməsində və sivilizasiyalılığın təmin edilməsində əhəmiyyətini təsdiq edir.

Sovet sisteminin dağılmasından sonra ortalığa atılan ideologiyasızlaşdırma siyasəti bəzilərində belə bir fikir yaradırdı ki, hər hansı bir cəmiyyət ideoloji dayaqlar olmadan da uğurla inkişaf edə bilər. Belə bir yanlış fikir yalnız və yalnız dağıdıcı funksiyanı yerinə yetirir. Söhbət hətta, ideoloji funksiyanı daşıyan bir təlimin başqası ilə əvəz olunmasından da getmir. Məsələ ideologiyanı konkret təlimin inhisarından qurtarmaq, rəsmi siyasət səviyyəsindən çıxarmaq və onun cəmiyyətdə özünəməxsus yer tutmasını təmin etməkdən ibarətdir. Eyni zamanda ideologiyanı yeni dayaqlar üzərində formalaşdırmaq çağdaş postsosia-

list cəmiyyətinin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Ümumbəşəri dəyələr kimi təqdim olunan həmin dayaqlar yalnız və yalnız humanizm prinsiplərinə əsaslanır və cəmiyyətdə yeni ideoloji xəttin təməlini təşkil edir. Bu baxımdan yenidənqurma siyasətinin müəllifləri «ideoloji siyasət» terminindən imtina edərək, onun «humanitar siyasət» terminilə əvəz olunmasını üstün tutublar. Lakin söhbət anlayışların müqayisəsindən deyil, onların mahiyyətindən gedir. Tarixin müasir mərhələsində bütün keçmiş sovet respublikalarında yeni mənəvi mühitin formalaşması qarşıda duran ən məsuliyyətli prolblemlərdəndir. Dövlətlərin aydın, elmi və hüquqi əsaslara arxalanan ardıcıl siyasəti bu işin əsas təminatıdır.

Keçmişdən miras qalmış köləliyi aradan qaldırmaq və əsl mənada yeni keyfiyyətli təfəkkürə malik olmaq ictimai şüurda köklü dönüş yaratmağı tələb edir. Bu məqsəd yalnız aydın və konkret prinsiplər üzərində qurulmuş mənalı və dürüst ideoloji siyasət əsasında təmin oluna bilər.

Milli ideologiyanın bütün sahələrində olan çatışmazlıqlar dövlət siyasətinə və dövlətçiliyin özünə güclü zərbələr vurur. Milli ideologiya jurnalistika səviyyəsindən kənara çıxmadıqda siyasi şərhlərin, partiya mübarizələrinin kölgəsində qalır. Ziyalıların, elm və mədəniyyət xadimlərinin dövlət quruculuğunda görəcəyi iş əvəzedilməzdir. Bu işi heç bir hüquqşünas və ya dövlət məmuru görə bilməz. Milli təfəkkürün qorunmasında və yaşamasında onların gördükləri iş hər partiya fəaliyyətindən üstün, milli məqsədə söykənən, azadlıq və müstəqillik ideyası ilə birbaşa bağlı olan əməli və zəruri işdir.

Azərbaycan dövlətinin məqsəd və məramı Xalq hərəkatının məntiqi davamı və yekunu olan dövlət məfkurəsində yekunlaşmalıdır. Heç bir tədbir milli konseptual məsələləri əvəz edə bilməz. Bu gün Azərbaycanda milli ideologiyanın ana xətlərinin yaradılması zəruridir. Bu ideologiyanın əsas mənbələri məlumdur:

- Türk dünyasının demokratik fikir tarixi;
- Türk dünyası dövlətçilik tarixi;
- Türk dünyası məfkurə tarixi;
- Islam-türk ideologiyasının ana xətləri;
- Azərbaycançılıq məfkurəsi;
- Azərbaycanın demokratik fikir tarixi;
- Azərbaycanın siyasi mübarizə tarixi;
- Cənubi Azərbaycanın inqilabi-siyasi fikir tarixi. Ş.M.Xiyabani, Səttarxan məfkurəsi;
- Azərbaycan Xalq Cümhuriyyətinin Məfkurə proqramı;
- M.Ə.Rəsulzadə və onun silahdaşlarının əsərləri və ideyaları;
- Ümumdünya demokratik fikir tarixi;
- Azərbaycan milli hərəkatının yeni dövr tarixinin məfkurə məsələləri;
- Azərbaycanda mövcud partiyaların ideoloji konsepsiyaları və bu konsepsiyalara münasibət;
- Ə.Elçibəyin baxışlar sistemi.

Bu ideoloji konsepsiyanın hazırlanmasında ümumtürk mədəniyyəti klassiklərinin əsərləri, xüsusilə, türklük hərəkatının liderləri - Ə.Hüseynzadənin, I.Qaspıralının, Ə.Ağaoğlunun,

Z.Göyalpın, Z.V.Toqanın, R.R.Aratın, Y.Akçuranın, Ə.Cəfəroğlunun, M.Erginin və başqalarının əsərlərinin də böyük rolu var.

Azərbaycan artıq öz tarixinin yeni bir mərhələsinə qədəm qoymuşdur. Mənəvi yaddaşa, özünəqayıtma dövrünə üz tutan Azərbaycan xalqı marksizm-leninizm istilasından, bolşevizm boyunduruğundan sonra milli ruhun oyanışı mərhələsinə qədəm qoyub. Imperiyaların dağılan tifaqları, əkinsiz çöllər, içilməyən sular dünyaya təkrarsız mədəniyyət və məfkurə qoyub gedir. Bu varlıq bir ruh kimi dünyaya çöküb qanunların və şahların yapmadığı və yapa bilmədiyi əbədi səltənət qurur, təbii yaddaş kimi havada, torpaqda, suda yaşayır.

Vahid vətəni, dili, iqtisadi sistemi, düşüncə və təfəkkür tərzi olan xalqlardan biri də türk xalqıdır. Türk xalqı zaman keçdikcə türk xalqlarına çevrilib. Bu, təbii-tarixi prosesdir. Müxtəlif türk dövlətlərinin tarixi türk tarixinin bütövlüyünü əks etdirir. Birliyi və parçalanması ilə, vəhdəti və ziddiyyətlərilə türk tarixi dünya tarixinin ən şərəfli səhifələrində özünəməxsus yer tutur.

Türk məfkurəsi və mədəniyyəti probleminin elmi şəkildə açıqlanması ilk növbədə türk dövlətçilik tarixinin dərindən dərk olunması ilə, eləcə də türk siyasəti və mədəniyyət tarixinin görkəmli şəxsiyyətlərinin elmi və bədii yaradıcılığını köklü şəkildə öyrənib dərk edilməsilə bağlıdır. Türklük ideologiyası bütün türk xalqlarının və dövlətlərinin təməlində dayanır. Şumer, iskit, hun, Göytürk, uyğur, Qaraxanlı, Qəznəvi, Səlcuq, Xarəzmşahlar, Qızıl Orda, Babur, Səfəvi, Osmanlı… Teymur, Ağqoyunlu, Qaraqoyunlu dövlət və imperatorlularının ideologiya və mədəniyyət siyasəti bütün türk xalqlarının ortaq mənəvi yaddaşı – tarixidir. Bu tarixsiz hər şey yarımçıq və natamamdır.

Türk ideologiyası və mədəniyyət tarixinin kökü, qaynaqları, mənbəyi olan çağdaş baxımdan yanaşmanın yönlərini və formalarını müəyyənləşdirir, ümumən türk təfəkkür tərzini və türk düşüncəsinin ana xətlərini bilmədən bu mədəniyyətə açar tapmaq və onu öz axarında qoruyub saxlamaq çox çətindir.

Mədəniyyətlərin rolu birxətli, birmənalı deyil. Türkü türkə düşmən və yağı kimi göstərmək düşmənin ən qədim və bu gün də uğurla həyata keçirdiyi bir fənddir. Ətrafımızdakı dövlətlərin təbliğat maşını, eləcə də müxtəlif dini təəssübkeşlik məramı ilə həyata keçirilən tədbirlər, avropasentrist mərkəzlərin antitürk təbliğatı üçün külli miqdarda vəsait sərf etməsi heç də təsadüfi deyil. Ortaya atılan şüarlar, təxribat aktları əsasən ideologiya ilə bağlıdır. Tarixi qan yaddaşını unutdurmağa çalışan, qan qardaşlığına siyasi don geydirən bu mərkəzlər yayılmaqda və güclənməkdə olan türklüyü boğmağa və türk dövlətçiliyini zəiflətməyə çalışırlar.

Bozqurd hərəkatını etnik təfəkkür – psixologiya kökündən ayıraraq ona faşist rəngi vuran antitürk mərkəzlərin cəhdi, əslində, mənasızdır. Hər halda, dövlət ideologiyasının strategiyası bu amilləri doğuran səbəbləri və onlardan törənən nəticələri dəqiqliyilə bilməli, buna qarşı lazımi tədbirlər görməlidir.

Türk mədəniyyətinin dominantlığı özünü iki planda göstərir:

Birincisi, əlaqədə olduğu barış və savaş yolunda, münasibətlər sistemində, içində olduğu mədəniyyətlər kontekstində. Qeyd etmək lazımdır ki, əlifbası dəfələrlə dəyişsə də, dəfələrlə eyni din qəbul etsə də, musiqisi, söz sənəti, rəssamlığı, sənətin ayrı-ayrı qolları assimilyasiya olunsa da, bu qədim binanın divarları sarsılmamışdır;

Ikincisi, dominantlıq doğma qan qohumluğu olan türk xalqlarının adı ilə bağlıdır. Qərbi və Şərqi hunlardan başlayıb indiki konkret xalqlara qədər parçalana-parçalana müstəqilləşən və ya müstəqilliyini nisbi mənada saxlayan türk xalqlarının dominant mədəniyyəti anlayışı ulu türk mədəniyyətinin nə qədər saxlanması və nə qədər əslinə müvafiq olması ilə bağlıdır. Bu mənada çağdaş türk, Azərbaycan, özbək, tuva, başqırd, türkmən mədəniyyətində dominantlıq ulu türk mədəniyyəti əsasında müəyyənləşdirilir.

Tarixi təcrübə mədəniyyətlərin əmsalını dəyişmişdir. Burada vacib olan ölçü – türk mədəniyyətlərinin qeyri-bərabər inkişaf qanunu əsasında fəaliyyət göstərməsinin nəzərə alınmasıdır. Dilçilər bu sahədə inkişafı dilin qrammatik quruluşuna da şamil etdilər, dilin daxili quruluşu ilə bağlı olan, mədəniyyətlərə nisbətən daha çox qapalı xarakter daşıyan dil qeyri-bərabər inkişafı özündə əks etdirirsə, açıq sistem örnəyi olan mədəniyyət həmin qeyri-bərabərliyi daha çox praktik baxımdan reallaşdırır. Bu postulat daxilində türk mədəniyyətinin mənzərəsi düzgün və səhih qiymətini alır. Bu mənada aparılan təsnifat qardaş mədəniyyətlər arasında konfranstasiya yarada bilər və nəticədə «kim yaxşıdır, kim pisdir» kimi sual ortaya çıxar. Ancaq elmi obyektivlik ölçü tələb edir və bu amil yaddan çıxmamalıdır.

Mədəniyyəti azadlıqdan kənarda düşünmək olmaz. Yalnız azad, hür olan, yüksək mədəniyyət sahibi ola bilər. Mədəniyyətin yolu azadlıqdan keçəndə inkişafa və özünüdərketməyə çevrilə bilər. Tarixi dünənə və sabaha söykənən xalq xoşbəxt xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan mədəniyyətinə gətirdiyi azadlıq havasını yalnız Şah Ismayıl Xətai zəmanəsinin siyasi, mədəni iqlimi ilə müqayisə etmək olar.

Vahid xalqı ayıran qılınclar dindən, əqidədən və mədəniyyətdən istifadə edirsə, milli mədəniyyətə zərbə vurulur. Islam dini öz elmi əsasları, mədəniyyət dünyası ilə sünni-şiə məzhəbçiliyindən çox-çox uzaq olan inam fəlsəfəsidir. Bu gün türk xalqları Islamaqədərki və Islamdansonrakı türk mədəniyyətinin tarixini öyrənib özünə dönəcək, özünə dönəndə özünü tanıyacaq, özünü tanıyanda basılmaz və məğlubedilməz olacaq.

Xalqın qanında yaşayan böyük mədəniyyəti heç kəs məhv edə bilməz. Türk mədəniyyəti tarix boyu hər cür basqıya məruz qalsa da, yeniləşə-yeniləşə kökünə daha bərk bağlanmışdır.

Türk mədəniyyətini bütün dünya mədəniyyətlərinə qarşı qoymaq, yalnız onun mövcudluğunu, onun böyüklüyünü iddia etmək yanlış olar. Yumuq göz, fanatik baxışla dünya meydanına çıxmaq olmaz. Mədəniyyətlərin yalnız inkar aspektini qəbul etmək türk ruhuna yaddır. Qədim Çin, Bizans, Iran, Hindistan, Avropa və rus mədəniyyətlərindən müxtəlif nisbətlərdə alınmış mədəniyyət örnəkləri Azərbaycan mədəniyyətində doğmalaşırsa, bu həqiqəti də qəbul etmək lazımdır. Əgər Avropada, Amerikada türk izlərini arayıb axtarırıqsa, qədim dünyanın türk mirasını aşkar etmək üçün qüvvə sərf ediriksə, eyni zamanda çağdaş mədəniyyət haqqında düşünmək də zəruridir.

Milli Azərbaycan bayrağında olan qırmızı rəng çağdaşlıq zərurətini təmin etməklə türkləşmə və islamlaşma ilə səsləşir. Bəşəriyyətin inkişafı fonunda texniki mədəniyyətin izlənməsi və onun etiraf edilməsi belə bir nəticə çıxarmaq üçün əsas verir ki, milli mədəniyyətlərin inkişafında çağdaş elmi-texniki tərəqqinin xüsusi rolu var. Insan beyninin qırışlarının sayı və abstraksiyası, yəni mücərrədləşmə dərəcəsi, insanın özünü və ətraf mühiti dərk etməsi, dünyanı qavraması çətin ki, Nizami, Dante, Şekspir, Mövlana, Füzuli səviyyəsinə çatsın. Texnika dövründə inkişaf yolu və qələbə ilk növbədə texniki mədəniyyətin qələbəsi və üstünlüyüdür. Kosmosa uçuş, elektronika və atom nəzəriyyəsinin kəşfi insanın göstərdiyi

möcüzə deyil, texnikada olan kəşflərdir. Bu, insan ağlının dünya ilə qarşıdurmasıdır. Bu uğurların artması da inkişafın bir tərəfi kimi zəruridir.

Mədəniyyətin milli təhsil və tərbiyə işindəki rolu əvəzedilməzdir. Müəllimdən və tərbiyəçidən fərqli olaraq həm də müəllim və tərbiyəçi olan milli mədəniyyət adamının vəzifəsi vətən övladına vətənin milli mədəniyyətinə sönməz istək və məhəbbət tərbiyə etməkdir. Uşaq hər gün göz açanda özünü bu mədəniyyətin tərkib hissəsi saymalıdır. Gərək hər bir uşaq bu mədəniyyətə layiq olması ilə qürur duysun, bu mədəniyyətin əsgəri, varisi və davamçısı olmaq şərəfini duysun. Hər bir gəncə türk mədəniyyətinin böyüklüyünü aşılamaq, bu mədəniyyətin təkrarsızlığını başa salmaq mədəniyyət adamının şərəf işidir. Türk mədəniyyəti hər bir türk üçün hava, su, əqidə və amaldır. Bunsuz milli məfkurə yoxdur.

Orta və ali məktəb dərsliklərində uzun illər boyu milli mədəniyyət adına şüurlara yeridilən saxta və yalançı ünsürlər özülsüz bir imperiya mədəniyyətinin formalaşdırılmasına yönəlmişdi. Bu yolda milli sayılan hər nə varsa, məhvə məhkum edilmiş, tapdanmış və xalqın maddi ehtiyaclarının mənəvi ehtiyaclarını üstələməsi yolu ilə milli mədəniyyətlə zorlanmışdır. Məhəmməd Əminlərin, Yusif Vəzirlərin, Əhməd Ağaoğluların, Zəki Vəlidilərin, Əhməd Cavadların, Almas Ildırımların cəlayi-vətən edildikləri gün Azərbaycan, ümumilikdə türk mədəniyyəti zərbə almışdır. Xalqı təbəəliyə alışdırmaq istəyənlər ilk növbədə həmin xalqın düşünən beyinlərini, sənət və mədəniyyət adamlarını məhv etməyə çalışmışdır. Qul psixologiyası ilə sənət yaranmayıb! Ilhamı dağa-daşa sığmayan türk sənətkarlarını qul olmağa məcbur ediblər. Ana dilli ədəbiyyata cahad elan edilib, xalqın adı dəyişdirilib, soyadlar unutdurulub, mədəniyyətə divan tutulub. Böyük siyasət türk mədəniyyətinə güclü zərbələr vurub.

Azərbaycan türklərinin doğma adı dilin adı ilə özünə qaytarılsa da (1922), manqurt təfəkkür bunu qəbul edə bilmir. Stalin diktaturasının 1937-ci ildən başlayaraq yer adını millət adı kimi qələmə verməsi qəddar «ayır-buyur» siyasətinin nəticəsi idi. Müstəmləkəçi sovet ideoloji məktəbinin hazırladığı belə siyasət türklüyə və türk mədəniyyəti üzərinə Səlib yürüşü idi. Sonu görünməyən bu qovğa bu gün də davam etmədədir.

Mədəniyyət inqilabın sərt qanunlarını işıqlandırır və insanın yaddaşı qarşısındakı borcunu, qəhrəmanlıq tarixini. Yəni onun sabahının azadlıq adlı yeganə ümid dünyasını yaradır. Azadlıq uğrunda mübarizə bir də mədəniyyətdən ona görə ayrılmazdır ki, qan içində, süngü qabağında, aclıq və səfalətdə Dədə Qorqud, Cavanşir, Koroğlu yenidən həyata qayıdır, gələcəkdən bu günə baxır. Mədəniyyətin ideoloji gücu bundadır.

Dövlətçilik siyasətində hər şey milli mədəniyyəti doğmalaşdırmaq üçün bu mədəniyyətdən istifadə etməklə dünyaya öz kökü ilə bağlanmalıdır. Azərbaycan Ana yasası, çağdaş qanunlar qəbul edilərkən milli mədəniyyət göz önünə alınmalı, xalqın min illər boyu yaşatdığı milli mənəvi dəyərlər onun milli dövlətçiliyində, bu dövlətin qanunlarında və yasalarında öz əksini tapmalıdır. Azərbaycan öz qədim mədəniyyətinin varisi kimi özünü təsdiq etməlidir. Özü də bu təsdiq müasir qavrama və məntiqə əsaslanmalıdır. Bu mənada Azərbaycanın qədim dövlətçilik ənənələrini öyrənmək və mədəniyyət konsepsiyasında, humanitar dövlət siyasətində əks etdirmək zəruridir.

Biz tarixə yeni baxış yaratmalıyıq, yəni söhbət yalnız öz məntiqimizlə tarixin yazılmasından deyil, mədəniyyət mərkəzlərinin, ayrı-ayrı mədəniyyət xadimlərinin tarixə münasibətində yeni sistemin müəyyənləşdirilməsindən getməlidir.

Türk dövlətini, türk xalqlarını və bu xalqların mədəniyyətlərini ayırıb parçalamağa çalışan imperiyalar musiqinin qarşısında həmişə aciz olublar. Bölünüb parçalanmış Azərbaycan türklərini də həmişə musiqi birləşdirib.

Türk mədəniyyətinin məhək daşı türk miflərıdir. Qədim sivilizasiyanın son yadigarı kimi miflər diqqəti cəlb edir. Türk dünyasının gələcəki zəfəri üçün miflər böyük məna və dəyər daşıyır. Miflər bu gün bizə türk psixologiyasının daxili hərəkətini anlamaq, toplumu bir həqiqətə çağırmaq və bir vəzifəyə yönəltmək üçün lazımdır. Mifin geriyə, zaman boyu hərəkəti irəli getməyimiz üçün zəruridir. Mif fəlsəfəsinin yəhudi və Avropa fəlsəfəsindən və dünyagörüşündən fərqi qədim dünyagörüşünün kənar sütunudur. Bu sütunun başında türk mifologiyası durur.

Salnamələr, daş kitabələr, eposlar, dəriüstü və qayaüstü yazılı abidələr xalqın öz tarixini maddiləşdirmək, yaşatmaq təcrübəsidir. «Hər xalq öz dilində görünür» deyənlər həqiqətə daha yaxın olmuşlar. Xalqın tarixini təfəkkür tərzi kimi dil tarixi özünəməxsus cizgilərlə əks etdirir. Nəzərə alınsa ki, qayaüstü rəsmlər, damğalar, simvollar, arxeoloji materiallar, təsviri və tətbiqi sənət də bir dildir, onda dildən kənarda tarix təsəvvür etməyin mümkünsüzlüyü də aydın olar.

Hər bir milli mədəniyyətin əsasında milli ideologiya dayanır. Bu ideologiyanın bəzi cəhətləri Avropa elmi və mədəniyyətilə bağlıdır. Azərbaycanın mədəniyyət konsepsiyasında və milli ideologiyanın tərkib hissəsində Güney Azərbaycanın mədəniyyəti xüsusi yer tutmalıdır. Burada Azərbaycan bir körpü olmaqla mühüm rola malikdir. Azərbaycan Kiçik Asiya ilə Orta Asiyanı, Türkistanla Türkiyəni bağlayan əsas geopolitik sahədədir. Bu mənada istər Azərbaycan çevrəsində, istərsə də türk dünyasındakı mədəniyyət və məfkurə baxımından Azərbaycanın çiyinlərinə böyük məsuliyyət düşür.

Azərbaycan ərazisində Azərbaycan türklərilə çiyin-çiyinə yaşayan xalqların mənəviyyatı və mədəniyyəti də bizə doğmadır. Bu ərazidə yaşayan xırda xalqları, etnik qrupları Islam dini, vahid ortaq adət-ənənə, psixologiya, ortaq ünsiyyət vasitəsi olan Azərbaycan türkcəsi birləşdirir. Bununla yanaşı həmin xalqların öz dillərinin, etnik mədəniyyətlərinin çiçəklənməsi də demokratik mədəniyyət siyasətinin tərkib hissəsidir. Mədəni muxtariyət qanunu bu baxımdan ən demokratik və mütərəqqi yoldur.

Milli ideologiyanın yaranan dövlətçiliyimizin əsası üçün iqtidar və müxalifəti birləşdirən idealdır, başlıca hədəfdir.

Bu böyük və mürəkkəb sahədə hər cür mübahisə və fikir müxtəlifliyi ümummilli dəyərlərə, dövlətçilik strategiyasına xidmət etmişdir. Siyasi partiyaları, ayrı-ayrı ictimai-siyasi qurumlara baxışları, demokratik müstəqil Azərbaycanı çağdaş dünyada yerini aydınlaşdıran prinsiprləri açıqlayır və vahid ümummilli məqsədə xidmət edir.

Totalitar ideologiyadan, avtoritar məfkurədən demokratik liberal, milli-müstəqil dövlətçilik ideologiyasına keçidi mürəkkəb və dolanbac yollar təbii reallıqdan gələn obyektiv ziddiyyətlərdən doğur.

Bu ziddiyyətlərin açıqlanması, müstəqil demokratik düşüncə günün zəruri tələbidir. Bütün çətinliklərə, obyektiv, subyektiv əngəl və maneələrə baxmayaraq, Azərbaycan milli ideoloji konsepsiyası onun tərkib hissəsi, mədəniyyət konsepsiyası və mədəniyyət qanunu yaradılmışdır. Bunu bizdən millət və milli-müstəqil dövlət-düşüncəsi, fəlsəfəsi tələb edir.

BÜTÖV AZƏRBAYCAN MƏDƏNIYYƏT KONSEPSIYASININ ANA CIZGILƏRI

"Türkiye Cumhuriyyeti Devletinin temeli yüksek Türk
Kahramanlığı ve yüksek Türk Kültürüdür"

(*M.K.Atatürk*)

"Mədəniyyətin qayəsi siyasəti elmə tabe etməkdir"

(*M.Ə.Rəsulzadə*)

1. Milli-demokratik gücün milli-demokratik istiqamətə yönəldilməsinin ana yolu mədəniyyətdən keçir. Milli-mədəni birlik ideyası parçalanmış, bölünmüş Azərbaycanın təməl yoludur. Birlik və bütövlük 200 il öncə bir olan, bütöv olan millətin tarixi varlığının bərpasıdır. Mədəniyyət-millətin ən qədim çağlardan zamanımıza qədər yığılıb toplanan, təkmilləşən maddi-mənəvi dəyərlər toplusudur. Mədəniyyət daxili və xarici təsirlərin əsasında formalaşan açıq, dinamik sistemdir.

2. Azərbaycançılıq türkçülüyün tərkib hissəsidir. Vətənçilik və dövlətçilik anlamında Azərbaycançılıq türkçülüyün təsdiqidir. «Yalnız türk kəlməsi deyil, «Azərbaycan» adı da qazanılmışdır» (M.Ə.Rəsulzadə). Bu anlamda Azərbaycan mədəniyyəti ümumtürk mədəniyyətinin üzvi tərkibidir. Istər Dədə Qorqudda simvollaşan ozan-aşıq-baxşı-akin mədəniyyəti, istərsə də Füzuli ilə simvollaşan divan ədəbiyyatı, qopuzda, sazda, tarda, kamanda yaşayan, muğamatda və türkülərdə gerçəkləşən türk musiqisi, Dünyaya ün salan türk memarlığı, xalça sənəti, rəng-boya-mişətür sənətkarlığı, el-oba oyunları, xalq tamaşaları bir coğrafiya ilə hüdudlanmayan milli dəyərlər kimi minilliklər boyu formalaşmış maddi və mənəvi mədəniyyətin ölümsüzlüyünün təsdiqidir. Bu mənada Azərbaycan söz sənəti, musiqisi, rənggarlıqığ, memarlığı, xalça sənəti ümumtürk sənətinin, ümumtürk mədəniyyətinin aparıcı qollarından biridir. Bu sənətin heç bir növü kökündən, qol-budağından ayrılaraq təcrid olunmuş şəkildə dərk edilə bilməz. Azərbaycan mədəniyyəti tarixən bir coğrafiyada, bir dövlətdə, bir Vətəndə formalaşan, özünəməxsus çalarları ilə dünyaya gələn, Azərbaycan türklərinin tarixi kimliyini, mənəvi ruhunu ifadə edən dəyərlər toplusudur. Bu dəyərlər toplusu türk dünyasının ortaqlığının, bütövlüyünün təsdiqidir. Azərbaycan türkü mədəniyyətdə də öz əbədiliyini arayıb axtarmış, keçəri-fani olan hər şeyi mədəniyyət dili ilə yaşarılaşdırmışdır. *Sözün, səsin, rəngin, daşın* möcüzəsi ilə öz varlığının dünyasını yaradan Azərbaycan türkü ulu yaddaş yaratmışdır. Bu yaddaş həm tarixi gerçəklikdir, həm də duyğu dolu təxəyyül, həm böyük sənətdir, həm də böyük elm. Ağıl gücü ilə ürək gücünü birləşdirən türk yaddaşı ilk növbədə mədəniyyətdə öz bütövlüyünü qoruyub saxlamışdır.

Bir tarixi amili nəzərə almamaq olmaz ki, Azərbaycan mədəniyyəti anlayışı, Azərbaycan mədəniyyəti mentaliteti Şərqdə, Türk dünyasında nüfuzu, cazibəsi, özünəməxsusluğu ilə seçilmişdir.

Azərbaycan mədəniyyəti faktoru Azərbaycanın tarixi coğrafiyasından çox-çox genişdir. Və Azərbaycan mədəniyyəti missiyası, mentaliteti bu ölçü və miqyas daxilində dəyərləndirilməlidir.

Azərbaycan mədəniyyətinin məkan-şəhər simvollaşması bütövlük prinsipini ödəyəcək səviyyədə olmalıdır (məsələn, aşıq musiqisində Şirvan-Təbriz məktəbi, Təbri-Naxçıvan məktəbi və ya mədəniyyətin ayrı-ayrı növlərində (Urmiya, Marağa, Ərdəbil, Şəki, Şirvan, Muğan, Şəbüstər… məktəbləri…).

3. Məqsəd bu bütövlüyün gerçəkləşdirilməsidir. XVIII yüzilliyin sonu XIX yüzilliyin ilk onillikləri Azərbaycan türkünün imperiyalarla qanlı mücadilə illəridir. 1828-ci il bədnam Türkmənçay sülh müqaviləsi iki imperiyanın – Rusiyanın və Iranın maraqlarının təminatı oldu. Azərbaycan türkləri iki rejimin əsarəti altına düşdü. Parçalanmış Vətən, ikiyə bölünmüş Dövlət və Millət öz bütövlüyünü tarixi yaddaşda, mədəniyyətdə qoruyub saxladı. Bu anlamda Azərbaycan mədəniyyəti yalnız estetik dəyərlər toplusu deyil, həm də özünü qoruyan, özünü yaşada-yaşada təkmilləşdirən, öz siyasəti ilə öz varlığını hifz edən dəyərlər sistemidir. Sərhədsiz mənəviyyat sərvəti olan bu dəyərlər sistemi özünün mədəniyyət siyasətini formalaşdırdı. Bu mədəniyyət siyasəti ümumi siyasətin demokratiya, milliyyətçilik siyasətinin, ümummilli ideologiyamızın tərkib hissəsdir. Qarşıdurma, savaş, təmənna, tamah, işğal, zəbt siyasətindən fərqli olaraq Azərbaycanın bütöv mədəniyyət siyasəti barış, həmrəylik, həmdərdlik, həmsevinclik siyasətidir. Inam və iman siyasəti olan bu mədəniyyət siyasəti mənəviyyat dəyərlərini antimədəniyyət, antiinsan hücumlardan, dağılmalardan, aşınmalardan qorumaq və inkişaf strategiyasının taktikasını müəyyənləşdirən baxışlar konsepsiyasını yaratmaq üçündür.

4. Siyasi, sosial, iqtisadi birliyin bütövlüyün başında mənəviyyat birliyi, mədəniyyət bütövlüyü dayanır. Mədəniyyət bütövlüyü yalnız tarixi ortaqlıq deyil, strateji gələcəkdir. Yeni dünya modeli ayrılmış, parçalanmış millətlərin çağdaş demokratik prinsipləri birliyini, bütövlüyünü tələb edir. Bu birliyin körpüsü, şübhəsiz ki, mədəniyyətdir. XX yüzilliyin son on ilində görkəmli mədəniyyət nəzəriyyəçiləri F.Fukiyamanın, S.Nenqtinqtonun araşdırmaları mədəniyyətin daşıdığı önəmli funksiyanı ortaya qoydu. Yeni dünya düzəninin əsas problemi və mübarizə meydanı sözün geniş mənasında mədəniyyətlə bağlı olacaqdır. Qlobal siyasətin mədəniyyətlə mübarizənin qovşağında qərarlaşması təbiiləşəcəkdir. «Bu mübarizə çağdaş dünyadakı qarşıdurmanın son mərhələsi olacaq» (S.Hunqtinqton).

5. Azərbaycan mədəniyyətinin uzaq tarixlərdən gətirdiyi fərqliliyin özü bir zənginlikdir. Bir dövlətdə yaşayan xalqların, etnik qrupların mədəniyyət özünəməxsusluğu vahid, bütöv mədəniyyətin tərkib hissəsidir. Azərbaycanda türklərin mədəniyyət dominantlığı-aparıcılığı kəmiyyət və keyfiyyət amilidir. Mədəniyyətin hər çeşidində, forma və məzmununda özünü göstərən bu dominantlıq bir mədəniyyət əsarətinin təməli, bəlirtisi deyil, mədəniyyətdəki demokratiyanın əksidir. Yüzilliklər boyu birgə yaşayan etnik boyların və qrupların dominant türk mədəniyyəti ətrafında toplanmış güc və sərvətidir.

6. *Türklük, demokratiya, çağdaşlıq, islamlaşma* prinsipləri Bütöv Azərbaycan mədəniyyətinin əsasında dayanır. Ortaq düşüncə və inanclara söykənən Azərbaycan toplumunun formalaşması iki istiqamətdə həyata keçirilir: 1. Hədəf-məqsəd kimi; 2. Gündəlik fəaliyyət, çağdaş vəzifə kimi. Strateji hədəflə gündəlik fəaliyyət, çağdaş hadisələr bir-birini dialektik şəkildə tamamlayır.

7. Bütöv Azərbaycan mədəniyyətinin başında ana dili siyasəti dayanır. a) vahid latın əsaslı əlifbaya keçilməsi Azərbaycanın Güneyini və Quzeyini birləşdirən ən böyük mənəviyyat körpüsüdür; b) ortaq ədəbi dilin formalaşması və yaylması ana dili siyasətinin tərkib hissəsidir. Azərbaycan Quzeyində yayılmış və az-çox uğurları olan ədəbi dilin, Azərbaycanın Güneyindəki dil zənginliyi, dolğunluğu ilə birləşdirilməsi təbii-tarixi prosesdir. Quzeydəki

rus təsirinin, Güneydəki fars təsirinin müəyyənləşdirilməsi, yanlışların heçə endirilməsi millətin intellektual potensialı ilə həll edilmişdir. Elm və sənət elitasının gücündən, imkanından maksimum istifadə etməklə Azərbaycan türkcəsinin imkanları, üslubları, dərin qatları reallaşmalı, güclü və zəngin Azərbaycan türk ədəbi dili dünyanın böyük dillərindən biri kimi fəaliyyət göstərməlidir; v) Azərbaycan türkcəsinin ortaq termin fondu yaradılmalı, dərsliklər, dərs vəsaitləri bu zəminə söykənməlidir; q) Ana dilində nəşriyyat və mətbuat işi genişləndirilməlidir. Çap olunan qəzetlər, jurnallar, kitablar, radio və televiziya verilişləri mədəniyyətin, elmin bütün sahələrini əhatə edəcək genişlikdə olmalıdır. ğ) Milli, demokratik, çağdaş, dünyəvi mədəniyyətin təməl daşı olan ana dili siyasəti dövlət siyasətinin, ideologiyasının ana xətti olmalıdır.

8. Ana dilində ibtidai, orta və ali məktəblərin vahid sistemi yaradılmalı və təhsil konsepsiyası strateji əhatədə, miqyasda olmalıdır. Quzeylə Güney arasında tələb mübadiləsinin gücləmməsi milli birlik və bərabərlik şüarının gücləndirməlidir. Dərsliklərin türk tarixi, ədəbiyyatı, mədəniyyəti təməlləri əsasında qurulması, istiqlalçılıq, demokratiya, milliyyətçilik konsepsiyası ilə hazırlanması Bütöv Azərbaycan vətəndaşının hazırlığı üçün başlıca şərtdir.

9. Azərbaycan tarixinin elmi zəmində yaradılması tarix elmində uzun illər hökm sürən müstəmləkə kompleksinə, təslimçiliyə, yanlış metodoloji sapmalara son verməlidir. Yurd, ölkə tarixi milli tarixlə əvəzlənməlidir. Torpaq, coğrafiya, Vətən anlayışı milli ölçülərdən, milli tarixdən təcrid edilməməlidir. Hətta adı Azərbaycan tarixi, Azərbaycan mədəniyyət tarixi olan kitablar, əsərlər, dərsliklər milli tarixi, milli-dövlətçilik zəminini istisna etməməlidir. Azərbaycan tarixi indiki coğrafiyadan, mənəvi hüdudlardan çox genişdir. Müstəqilliyin ideoloji prinsipləri tarix elmində bərqərar olmalıdır.

10. Dini dünyagörüş, din mədəniyyəti, din fəlsəfəsi məzhəbçilikdən, dini ifratçılıqdan, fanatizmdən, xürafatdan, ateizmdən təmizlənməli islamlaşma prinsipini mədəniyyətin təməlinə dayamalıdır. Dünyəvilik və islamlaşma bir-birini inkar deyil, təsdiq etməlidir.

11. Azərbaycanı (eləcə də türk dünyasını) birləşdirən bayramlar, məclislər, adət-ənənələr bərpa edilməli, kütləviləşməli və daşıdığı milli dəyəri bütünlüyü ilə gerçəkləşdirməlidir. Novruz, Xıdır Ilyas, Ramazan, Ərgənokən bayramları milli bayram vüsəti qazanmalıdır.

12. Bütöv Azərbaycanın tarixi, ədəbiyyat tarixi, dil tarixi, memarlıq tarixi, rənggarlıq tarixi, musiqi tarixi, xalça mədəniyyəti, tətbiqi sənət tarixi vahid konsepsiya ilə təqdim edilməli, bu sahədəki elmi-nəzəri, təcrübi boşluq doldurulmalıdır.

13. Bütöv Azərbaycan ensiklopediyası yaradılmalıdır. Bu ensiklopediya Azərbaycanın tarixi, coğrafiyası, ədəbiyyatı, abidələri, şəxsiyyətləri haqqında bütöv bilgi qaynağı olmalıdır.

14. Çağdaş kompüter və Internet sistemi Bütöv Azərbaycanın elmi şəkildə öyrənilməsi işinə yönəldilməlidir.

15. Bütöv Azərbaycan və Ipək yolu, Türk dünyası və Ipək Yolu problemləri müxtəlif aspektlərdən öyrənilməli, təqdim edilməlidir.

16. Bütöv Azərbaycan problemlərinin mədəniyyət aspekti Təbrizdə, Ərdəbildə, Gəncədə, Urmiyada, Naxçıvanda… keçirilən konqres və simpoziumların elmi araşdırma, dialoqların mövzusuna çevrilməlidir.

17. Bütöv mədəniyyətin siyasi, fəlsəfi, tarixi aspektləri fundamental şəkildə öyrənilməli. Ümumtürk dövlətçilik mədəniyyətinin bir qolu olan Azərbaycan dövlətçilik mədəniyyəti, hüquq və dövlətçilik mədəniyyəti bütün yolları ilə araşdırılmalıdır. Azərbaycan mədəniyyətinin Nəsimi, Ş.I.Xətai, S.Urməvi, Bəhmənyar, Q.Bürhanəddin, N.Tusi, Ə.Marağayi, Füzuli, Vaqif, Heyran xanım, M.F.Axundov, H.B.Zərdabi, M.Cəlil, M.Möcüz, Sabir, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Üzeyir bəy, Şəhriyar, R.Rza, S.Vurğun, S.Bəhlulzadə, B.Vahabzadə, Q.Qarayev, T.Salayev, Cavad Heyət, X.Məmmədov, X.Rza, S.Əhmədli, Səhənd, H.Nitqi, I.Hüseynov, I.Şıxlı… kimi şəxsiyyətləri Azərbaycan mədəniyyətinin inkişafında, dünyaya tanıdılmasında müstəsna xidmətləri olan insanlardır. Məhz bu adamlar mədəniyyət təməli və körpüsü rolunu oynayanlardır.

Məhəmməd Əmin Rəsulzadə və Elçibəy əsrin əvvəlində və sonunda istiqlal bayrağıın göylərə ucaltdılar! Bu bayrağın üç rəngi və üç rəngin hormonik nisbəti Azərbaycan ideologiyasının rəmzidir! Günlük siyasət bu təməl milli-demokratik dəyərləri dəyişmək gücündə deyil!

“AZADLIQ” RADIOSU VƏ AZƏRBAYCAN MƏDƏNIYYƏTI

«Azadlıq» radiosunun fəaliyyətə başlaması əski Sovetlər Birliyində yeni mənəviyyatın, yeni əxlaqın başlanması idi. Yalnız Azərbaycanda deyil, bütün əski sovet və Şərqi Avropa məkanında «Azadlıq» radiosu yeni fikrin, demokratik təfəkkürün böyük yollarından biridir.

Adamların «Azadlıq»ı xəlvət dinləyib ordakı söhbətləri pıçhapıçla bir-birinə danışmasını da xatırlayıram. Stalin öləndə ağlayan nəaləc xalqın məchulluq, qeyri-müəyyənlik içində olan mənəviyyatına «Azadlıq», «Amerikanın səsi», «Azad Avropa», «Bi-Bi-Si» işıq tutdu.

Diktatorun ölümündən sonra başlayan «ottepel» (isinmə) dövrünün xarakterik özəlliyi dünya havasının ölkəyə gəlməsi, tarixin önəmli dəyərlərinin yenidən dirilməsi, mühacir ədəbiyyatının, dissident mənəviyyatının əhyası idi.

«Azadlıq» bizə nə gətirdi? Sualına çox geniş, ətraflı cavab vermək olar. Ən qısa şəkildə desək: «Azadlıq» bizə Azərbaycan maarifçiliyinin təhrif olunmamış ruhunu gətirdi; Azərbaycan Cümhuriyyətinin yeraltı çaylar kimi yaşayan həqiqətinin qayıdıb yerini almasına yardım etdi, ölməz Məhəmməd Əmin Rəsulzadənin Vətəndən uzaq səsini gətirdi; Cavidimizin, Cavadımızın yasaq əsərlərinin sorağını, ətrini, nəfəsini bizə verdi; Türkiyədə, Avropada yaşayan mühacir mədəniyyətimizi bizə qaytardı… «Azadlıq» marksizm-leninizm boyunduruğundan uzaq ideoloji havanı Azərbaycana gətirməklə yeni nəslin yetişməsində, milli-demokratik ruhda yetişən gəncliyin formalaşmasında əvəzsiz rol oynadı. Azərbaycan milli legionunun komandiri F.Düdənginskinin, görkəmli türkoloq Ə.Cəfəroğlunun, Əli Aranın, Məcid Musazadənin, Mirzə Xəzərin ictimai-siyasi verilişlərlə yanaşı, mədəniyyətin müxtəlif sahələrini, dilimizin, ədəbiyyatımızın naməlum, yasaq pərdələrini qaldıran verilişləri, xüsusilə, mühüm önəm kəsb edir.

Əski Sovetlər Birliyinin Baymirzə Hayt, Mustafa Cəmiloğlu, general Qriqoriyenko… kimi tarixi şəxsiyyətlərinin səslərini, sözlərini, ideyalarını «Azadlıq» çatdırdı bizə.

Mədəniyyətdən görünən siyasi mənzərənin açılmasında sovetoloqlardan D.Nissman, P.Qobl, Fuller, xüsusilə, önəmli rol oynamışdır. Azərbaycan Milli-Azadlıq Hərəkatının lideri, dissident hərəkatının fəallarından biri kimi tanınıb sevilən Ə.Elçibəy «Azadlıq» radiosunun 60-70-ci illərdəki təbliğində önəmli rol oynamışdır. O illərin gəncliyi «Azadlıq»ı bir dərs kimi dinləyir və müzakirə edirdi. Təsadüfi deyil ki, Azərbaycan Xalq Cəbhəsinin ilk mükafatı 1990-cı ildə görkəmli jurnalist, yazıçı, tərcüməçi, əslən Azərbaycanlı – xəzər türkü Mirzə Xəzərə verilmişdir. Bu ödül həm də tarixi xidmətlərinə görə Azadlıq hərəkatı təşkilatının – AXC-nin «Azadlıq» radiosunun Azərbaycan türkcəsində yayın yayan verilişinə təqdim edilmişdir. Bizcə, bu ödülün simvolik-tarixi anlamı çox mühümdür.

1990-cı il yanvar qırğını rus tanklarının, kalaşnikovların səsi ilə, ana naləsi və Mirzə Xəzərin kədər və ümid dolu səsi ilə tarixə yazılıb.

Azərbaycan müstəqilliyinə qovuşdu, ağrılı, sevincli günlər yaşadı. Bir gözü ilə ağlayıb, bir gözü ilə gülən Azərbaycanın yol yoldaşı «Azadlıq» oldu.

Mərhum istedadlı jurnalistimiz Elmira Əmrahqızının «Mən jurnalistəm…» sözü ilə başlayan unudulmaz reportajlarının mühüm bir qismi mədəniyyətimizin yaralı yerlərinə, uğurlarına həsr olunub.

Professor Vaqif Sultanlının ədəbiyyat tariximizin, çağdaş Azərbaycan ədəbiyyatının çox mühüm şəxsiyyətlərinə, problemlərinə həsr olunmuş verilişləri yüksək səviyyəsi ilə yaddaşlara yazılıb. Xüsusilə yeni metodologiya ilə ədəbiyyat tariximizə yanaşma, müstəqillik və milli-demokratik dəyərlərin bədii təcəssümünün açıqlanması baxımından Vaqif Sultanlının verilişləri diqqəti cəlb edir.

Mirzə Xəzərin şirin, doğma səsindən dinlədiyimiz M.Ə.Sabir şerləri siyasi publisistikanın təsir gücünü artırma baxımından diqqətəlayiqdir.

B.Vahabzadənin, X.Rzanın, F.Mehdinin, V.Səmədoğlunun, R.Rövşənin, R.Behrudinin, V.B.Önərin, A.Məsudun, M.Vəzirin milli-demokratik zəmində fəaliyyətində, eləcə də Azərbaycanda radio-jurnalistika sahəsində çalışan yüzlərlə yaradıcı gəncin yetişməsində «Azadlıq» radiosu ciddi rol oynamışdır.

Yeni Azərbaycan publisistikasının formalaşmasında, radio-jurnalistikasının uğur qazanmasında «Azadlıq» radiosunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir.

H.Səlimovun, R.Bakılının, K.Kazımoğlunun, Natiqin, Almazın, Hüseynin, Babək Bəkirin, Zərxanım Əhmədlinin verilişləri ədəbi-fəlsəfi publisistik səviyyəsi ilə, forma və məzmun axtarışları ilə seçilir.

Azərbaycan mədəniyyətinin çoxsəpkili problemləri, çağdaş ədəbiyyatın, incəsənətin dolanbac yollarının işıqlandırılmasında «Azadlıq» radiosunun tarixi və müasir rolu, funksiyası çox mühümdür.

Inanırıq ki, «Azadlıq» radiosu Azərbaycan mədəniyyətinin sabahı üçün yeni üfüqlər açacaq, özümüzü özümüzə və dünyaya tanıtmaqda tarixi rolunu davam etdirəcək. Bu böyük və ağır mücadilə, yaradıcılıq yolunda «Azadlıq»a uğurlar arzulayırıq!

BİR DAMLA GÖZ YAŞI

(*Qrant Matevosyana nekroloq əvəzi*)

Keçən ayların, soyuq qış günlərinin birində Qrant Matevosyan vəfat etdi. Qəflətən, ya uzun xəstəlikdən sonra öldüyünü bilınirəm. Bildiyim tək bu: böyük bir yazıçı dünyadan köçüb getdi. Ermənistan-Azərbaycan savaşı və rusların sayəsində işğal olunmuş Azərbaycan torpaqları, bir sözlə, ağır və acı müharibə şərtləri Qrant Matevosyan haqqında yazmağa, heç olmasa bir nekroloq yazmağa imkan vermir. Mən bu nekroloq əvəzini yazmaqla qəhrəmanlıq elədiyimi düşünmürəm. Amma Qrantı tərcümədən və orijinaldan oxuyan ədəbiyyat həvəskarlarının siyasətin, müharibənin, nahaq qanların qalın pərdəsini qapadıb öz vicdanı ilə təkbətək qalanda pıçıltı ilə və bəlkə də elə ürəklərində deyəcəyi bir cümləyə şəkk-şübhəm yoxdur: "Dahi yazıçı öldü... Heyf'. Doğrudan da heyf.

Bu sözləri yazanda ötən əsrin - 70-80-ci illərin Qrant Matevosyanla bağlı qızğın, səngimək bilməyən ədəbi mübahisələrini xatırlayıram. O illərin də qüssəsi içində Aydını, Şahmarı, Vidadini... xatırlayıram.

İcevan rayonunda, bizim Qazax bölgəsinin kəndlərinə yaxın bir yerdə doğulub - iki yaxın bir yerdə doğulub - iki yaxın və doğma (?!) mədəniyyətin qovşağında. Qrantın bəzi hekayələrində səhifə-səhifə türkcə verilir. Yəni Konstitusiyamızın termini ilə -Azərbaycan dilində.

Çobanların dialoqu danışıq dilində, tərəkəmə ləhcəsindədir.

Bu sözlərin mistik ruhu yoxdur. Çobanlar qoyundan, otdan, çomaqdan, atdan danışır.

Qrant üçün erməni dilində, erməni mədəniyyətində və erməni şüurunda bir türkcə heroqlif var. Yəni xalça - heroqlif, muğam - heroqlif, dastan - heroqlif. Bu heroqlifsiz erməni mədəniyyəti yoxdur.

Bunu deyərkən xatırlayıram. Dahi və xəstə Sergey Paracanov "Aşıq Qərib"də və "Suram qalası haqqında əfsanə" fılmində muğam mətnini türkcə məhz Alim Qasımovun ifasında verir.

Tbilisidə (fılmlər orda çəkilib) və İrəvanda olan basqılar onu fikrindən döndərməyib. Alimin ifası və ya cütçülərin vəl sürə-sürə türkcə qap eləməsi olınasaydı, o filmlər də olmazdı, o sənət uğuru da.

Məncə, böyük sənət böyük milli maraqların müdafıəsindən daha çox, böyük insani həqiqətlərin söylənməsi, ortaya çıxarılmasıdır. Bu mistik yolda milli mənafe qurban verilirsə, dartışmaya da ehtiyac yoxdur.

Və Qrant Matevosyan türk-erməni qarşıdurmasında erməni mədəniyyətinin, erməni mənəviyyatının itirdiklərini hamıdan yaxşı görürdü. Onun 1991-ci ildə

"Azadlıq" radiosundakı rusca çıxışını xatırlayıram. "Erməni xalqı bir əsrdə üç sivilizasiya mərkəzini birdəfəlik itirdi: İstanbulu, Tbilisini və Bakını".

Yazıçını dərindən kədərləndirən bu faciə Zori Balayan, Silva Kaputikyan və başqa "yanlar" üçün yüksəliş, şöhrət kartı olanda o, son böyük romanı "Daşkənd"i sinəsinə sıxıb insanlığın getdiyi və qurtula bilməyəcəyi çıxılmazlıq haqqında düşünürdü.

Qrant gözəl bilirdi ki, ideoloji millət anlayışı böyük qüvvələrin əlində vasitə

olmaq deməkdir. Saroyanın çəkdiyi erməni dağları, çölləri, Xaçaturyanın balaban nəfəsində yaratdığı simfoniyalar, operalar gücünü qandan, intiqamdan, faşizmdən deyil, dərddən, ağrıdan, uzun illərin üzüntülərindən alır.

Bilirdi ki, Xaçaturyanın kökündə türk muğamı, türkün türküsü, yallısı var, Üzeyiri var. Saroyanın məğzində türk xalısının rəngləri var...

Və Qrant bunu da bilirdi ki, kilsə şam yandırmaq, ibadət eləmək üçündür, kilsə intiqam, qisas üçün, "ideya milləti" yaratmaq üçün deyil.

Qrant aşqrabarı (qədim erməni dili) qrabara (yeni erməni dilinə) çevirən gücün adının türk dili olduğunu Acaryandan öyrənmişdi və Nəsimidə, "Dədə Qorqud"da ermənicə sözlər axtaran Baqramyanların mənasızlığını görürdü. O, çox şey görürdü və bilirdi, fəqət...

80-ci illərin sonlarına getdikcə və Qarabağ oyunu başlayınca Qrantın "Tövrat" sayağı poetik dünyası qapandı; məhv oldu. Bu dünya işığını itirdi.

Bir əsrdə iki dəfə Qafqaz xalqlarının müstəqilliyinə, azadlığına əngəl törədən erməni şovinizmi, daşnaksütun məkri Qrantı boğur, məhv edirdi.

Öz xalqını, dini dəlicəsinə sevən Mirzə Cəlil "Kamança"nı yazanda, "Usta Zeynal"ı qələmə alanda heç millətçi olmayıb - insan olub və böyük türk kimi ideoloji ermənidən, zəhərlənmiş ermənidən deyil, insan ermənidən yazıb.

Qrant da Mirzə Cəlil kimi Göyçə gölündən bir xışma qum götürüb azərbaycanlı jurnalistə kədərlə deyir: "Siz çoxsunuz, bu qum qədər, bu göldəki balıqlar qədər çoxsunuz..."

Türkün çoxluğu, əbədi varlığı, ermənin rus qucağındakı "qəhrəmanlığı", qocalmış erməni xalqının emiqrant mənliyi Qrantı dərdləndirirdi. Bu qocalmış millətin sabahı ona qaranlıqdan da qaranlıq görünürdü.

O illərin müsahibələrinin birində açıq deyirdi ki, millətimin gözü bulanıb və mən millətimin üzünə baxa bilmirəm.

Millətini istəyən və millətindən heç nə istəməyən yazıçı sayı bilinən xalqını saysız-hesabsız türkün düşməni kimi görmək istəmirdi. "Mən anamı yazıram. Mənim anamdan böyük əzabkeş yoxdur. Mən onun əzabını yazıram" deyən Qrant çəkilən əzabları düşmənçilik kimi deyil, xilas, ümid, yaşama haqqı kimi

mənalandırır. Rusların və farsların hesabına işğal olunmuş Azərbaycan

torpaqlarında hər kəndə bir erməni yerləşdirsən də, yenə erməni çatmaz. Yazıçı bunları bilirdi və bildikləri onu əzirdi.

Anait Bayandurun ermənicədən ruscaya tərcüməsində və bizim Natiq Səfərovun ruscadan Azərbaycan türkcəsinə çevirdiyi Qrant Matevosyan, şübhəsiz ki, dünyanın böyük yazıçılarından biridir. Bu cümləni yazmamağa və keçmiş zamanda yazmağa mənim ixtiyarım yoxdur.

Andrey Bitov dostu Qrant Matevosyanın simasında erməni xalqı üçün "Ermənistan dərsləri" ("Uroki Armenii") kitabını yazanda çox şeyi olduğu kimi görməyib.

Bu istedadlı metropol yazıçı ekzotik Ermənistanla həqiqi Ermənistanı qarışdırıb və bacısına vurulduğu Qrantı bir az Vardges Petrosyan kimi ədəbiyyat möhtəkiri ilə qarışıq salıb.

Nədənsə Şərqə gələn rus yazıçıları Şərqi şərqlilərdən daha yaxşı gördüklərini zənn ediblər və yanılıblar.

Şərqi şərqlidən daha yaxşı görmək, hiss etınək, bilmək mümkün deyil.

Necə ki, Rusiyanı və Avropanı rusiyalılardan və avropalılardan yaxşı bilə bilmərik.

.. .Qrant Matevosyan vəfat etdi. Yəqin ki, millətçilər qədər məşhur olmayan Qrant üçün göz yaşı tökənlər də oldu.

İllər ötəcək. Hay-küylü Qarabağ eyforiyası keçəcək. Rus öz yerində, fars da öz yerində oturacaq. Zavallı xalqı macəralara sürükləyənlər lənətlə xatırlanacaq. Zəhmətkeş sıravi erməni yenə əlində balta daş yonacaq, ev tikəcək, kamança, balaban çalacaq. Türk musiqisi eşidəndə ağlayacaq. Amerikaya, Avropaya... çəkilən "Böyük Ermənistan"lılar balaca Ermənistanda da qalmayacaq. Qarabağda yaşamağa üzləri qalmayacaq.

Və o zaman qəbirdə Qrant Matevosyan adlı yazıçının sümükləri sızlayacaq. "Uzaq ellərin küləkləri" sadə qəbir daşının başı üstündən əsib keçdikcə özü ilə həmin o uzaq ellərə bir damla göz yaşı da aparacaq - Qrant Matevosyanın Vətəni, Milləti üçün axıtdığı göz yaşını.

15 SENTYABR 1918-CI IL – BAKININ XILAS GÜNÜDÜR

Türk – müsəlman, erməni-xristian düşmənçiliyinin kökləri çox qədimlərə gedir. Böyük dövlətlərin dəstəyi ilə Afrikanın, Asiyanın köşələrindən Anadoluya, Azərbaycana köçürülüb himayə edilmiş hay-erməni tayfaları zaman keçdikcə işğalçı dövlətlərin maşasına çevrilən erməni faşistləri bir əsrdə – XX əsrdə üç dəfə – 1905, 1918 və 1987-94-cü illərdə nə-

inki Azərbaycanın, bütün Qafqazın istiqlalına əngəl törətmiş, qətliamlarla öz adlarını dünyanın terror, qəsb, işğal tarixinə yazmışlar.

Erməni işğalı o qədər də dəqiq anlayış deyil. Rus, ingilis, fransız arxalı ermənilər tarix boyu müstəqil olmamış və böhran vaxtlarında içərisində yaşadıqları dövlətlərə, millətlərə xəyanət etmişlər.

Bu həqiqəti bizdən də yaxşı bilən Qrant Matevosyan kimi vicdanını itirməmiş ziyalılardır.

Əzabkeş rolunu oynayan erməni faşistlərinin bir qara səhifəsi də 1918-ci ildə Bakıda, bütün Azərbaycanda törətdikləri qırğınlardır.

…1918-ci ilin yay aylarında alman və bolqar cəbhələrinin dağılması Osmanlı imperiyasının hərbi, siyasi, iqtisadi böhranını daha da dərinləşdirdi. Fələstin, Suriya, Iraq cəbhələrindəki ağır vəziyyət Qafqaz cəbhəsindən də yan keçməmişdi.

Erməni S.Şaumyanın kommunist hökuməti bolşevik terroruna başlamış, vəziyyət dözülməz hal almışdı. 12-15 min Azərbaycanlı şəhid edilmiş, kəndlər, obalar dağıdılmışdı. Rus, ingilis dəstəkli ermənilərin vəhşiliyi gün-gündən artmaqda idi.

Əsrin əvvəllərində Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağayevin, Ziya Gokalpın türklük məfkurəsi Ənvər Paşa, Nuri Paşa, Camal Paşa, Tələt Paşa və Xəlil bəy kimi seçkin simaların, hərbçilərin, dövlət adamlarının bu yolda fəaliyyətinə yol açmışdı. Rusiyadakı türkləri xilas etmək türkçülərin amalına çevrilmişdi. Təşkilatsız, müdafiəsiz Azərbaycan türklərinə qarşı olan bu qətliamlar Anadolu türkləri tərəfindən susqunluqla qarşılana bilməzdi.

15-ci piyada diviziyasının komandiri Nuri Paşa 20 minlik erməni ordusuna qarşı 5.382 nəfərlik tərkibin azlığını nəzərə alıb 1918-ci il 30 iyun tarixli raportunda yazırdı: «Bugünkü hərbi vəziyyətimiz son dərəcə təhlükəlidir. Bolşeviklər irəliləyir, əgər kömək gəlməzsə, nəticə çox təhlükəlidir. Bizə dərhal qoşun göndərməniz mütləq tələb olunur».

Qısa zaman ərzində Qafqaz Islam Ordusuna 38-ci alay, sonra 56-cı alay topçu birlikləri ilə, eləcə də 36-cı diviziyanın 106 və 107-ci alayları göndərildi.

Bakıdakı 30 batalyonluq rus-erməni ordusuna qarşı hərəkata başlayan Qafqaz Islam Ordusunun Gəncə-Bakı istiqamətindəki hərəkətinin, Gəncə, Kürdəmir, Göyçay, Ağsu, Şamaxı… döyüşləri ermənilərə ilk sarsıdıcı zərbəsini vurdu.

Nuri Paşanın rəhbərliyi və təklifləri ilə Azərbaycan milli korpusu ləğv edildi və yeni milli korpus təşkil edildi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci ilin avqustun 13-də qəbul etdiyi qərar Milli Ordunun təməlini qoydu və Azərbaycan, Osmanlı-türk ordusunun erməni-rus işğalından azad olmaq üçün aparacağı birgə döyüşlərə təməl oldu. Həmin təməl Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin də təminatı oldu.

Nuri Paşanın komandası altında Azərbaycan və Osmanlı türk ordusunun zəfər dolu döyüş yolu böyük bir əsərin mövzusudur.

Təəssüf ki, bu dövrü ləkələyən, təhrif edən əsgərlər obyektiv elmi və bədii əsərlərdən müqayisə olunmayacaq qədər çoxdur. Heydər Əliyev rejiminin qeyri-milli ideologiyasının mahiyyəti bu dövrə qarşı etinasızlıq və görməzlikdən gəlməkdir.

O dövrdə Qafqaz Islam Ordusuna Azərbaycan xalqının müraciətini həyəcansız oxumaq mümkün deyil. Bu müraciət belə başlayır: «Bakı deyilən milyon və milyard şəhərinin qapıları önündə günlərdən bəri zəfər quşunun qanadını yaxalamaq istəyən Türk Ordusuna!».

Ilk dəfə Heydər Əliyev tərəfindən deyil, Ə.Elçibəy tərəfindən söylənmiş «Bir Millət, iki Dövlət!» şuarının əsasını yeni çağda o ağır aylar, günlər qoydu.

Bakıya yaxınlaşdıqca döyüşlər də kəskinləşirdi. Qüvvələr nisbəti eyni olmasa da, qəhrəman türk əskərinin rəşadəti qarşısında dayanmaq mümkün deyildi.

Ingilis-rus-erməni birliklərinin dalbadal məğlubiyyəti Bakını azadlığa yaxınlaşdırırdı.

Qanlı döyüşlərdən sonra 15 sentyabrda Bakı azad edildi. Rus kommunist hökuməti, Avropanın maraq dövlətlərini qəzəbləndirən bu tarixi qələbə milli iradəni, azadlıq, qardaşlıq ruhunu ortaya qoydu.

Abdulla Şaiqin 20 sentyabrda «Açıq söz» qəzetində çap olunmuş «Intizar qarşısında niyə belə gecikdin?» misrası ilə başlayan səmimi şeri «Aç yolları, tez gəl ki, qəlbim səni istər!» misrası ilə bitir.

Bu şer Azərbaycan xalqının minnətdarlıq duyğularının ifadəsi, milli həyəcanın ifadəsi idi.

Bakını azad edən Nuri Paşa o zaman 29 yaşında idi…

Osmanlı türk ordusu işğalçı ordu deyildi. Bu xilaskar qardaş ordu öz doğma torpağını Ərzurumda, Ərzincanda, Vanda, Qarabağda, Gəncədə, Salyanda, Bakıda soyqırım həyata keçirən erməni daşnaklarından, rus işğalçılarından xilas etmişdi.

Bakıdan sonra başlayan Qarabağ hərəkatı da bir başqa dastan idi!

…Illər keçdi. Bolşevik Rusiyası Azərbaycanı işğal etdi və bu işğal 1991-ci ilə qədər davam etdi.

Azərbaycan Xalq Hərəkatı Ə.Elçibəyin öndərliyi ilə yenidən azadlığa, müstəqilliyinə qovuşdu. 1993-cü ildə qiyamlı hakimiyyəti ələ keçirən Heydər Əliyev rejimi ölkəni avtoritar rejimə sürükləsə də, tayfa-klan hakimiyyəti bərqərar olsa da, Heydər Əliyev Türkiyə-Azərbaycan dostluğunu poza bilmədi. Xalqın yaddaşında xilaskar ordu kimi qalmış qəhrəman Qafqaz Islam Ordusunun zəfəri tarix oldu – şərəf dolu, qardaşlıq tarixi!

Təəssüflər olsun ki, Bakıda Nuri Paşanın, Ənvər Paşanın, Qafqaz Islam Ordusunun adına küçə, xiyaban, park yoxdur. Sağlığında «Heydər park»ları yaradan korrupsiyaçı prezident, keçmiş KQB generalı həyatı boyu Ənvər Paşa, Nuri Paşa adından qorxmuşdur.

Inanırıq ki, 15 oktyabr seçkiləri xalqın iradəsini ifadə edəcək. Xalq M.Ə.Rəsulzadə-ELÇIBƏY MƏFKURƏSININ DAŞIYICISI ISA QƏMBƏRI PREZIDENT SEÇƏCƏKDIR. Azərbaycan xalqı öncə Heydər Əliyev rejimindən, sonra torpaqlarımıza dil uzadan erməni işğalından xilas olacaqdır Böyük Elçibəyin, ziyalılarımızdan Bəxtiyar Vahabzadənin, Bəxtiyar Ismayıllının, Nəsiman Yaqublunun, Cəmil Əhmədlinin, Şirməmməd Hüseynlinin, Ismayıl Musayevin, Musa Qasımlının, Akif Islamzadənin, Nəriman Qasımoğlunun… təklifi, arzusu ilə Sahil bağı Ənvər Paşanın, böyük xiyabanlardan biri Nuri Paşanın adını daşıyacaq.

Qafqaz Islam Ordusunun xilas tarixi arxiv sənədləri əsasında yenidən yeni gözlə yazılacaq və dərslik kimi orta və ali məktəblərdə keçiləcək.

Qafqaz Islam Ordusu muzeyi yaradılacaq, şəhidlərin heykəlləri ucaldılacaq. Qəhrəman Osmanlı Türk və Azərbaycan əskərinin şərəfinə musiqi, memarlıq, xalça əsərləri yaradılacaq.

Bir sözlə, xalqın tarixi xalqın özünə qaytarılacaq.

O günə çox qalmayıb!

O gün gələcək!

DOSTUM AĞAYAR ŞÜKÜROV HAQQINDA SÖZ

Türklər dünyaya böyük fılosoflar vermişlər, fəlsəfı məktəblər yaratınışlar, ancaq mən nə qədər subyektiv olsa da, türklərin gözəl əsgər, böyük şair, dövlətlər quran vətəndaş olduğuna daha çox inanıram. Bəlkə filosoflar daha çox müşahidəçi olurlar, qapalı şəxslər kimi hərəkətə bağlı olurlar - ondandır, bəlkə də türklərin fəlsəfə gücü şerə, ədəbiyyata, ümumən mədəniyyətə paylanır - türklər nə yunanlar, nə ərəblər qədər fılosof deyildir - qənaəti mənim yanlış və doğru, özüm üçün müəyyənləşdirdiyim sonucdur.

Heç təsadüfi deyil ki, türklərin böyük filosofları - Y.Balasaqunlu, Xaqani, Nizami, Mövlana, Nəsimi, Füzuli, Şəbüstəri və Artta Sührəvetdi... şairlərdir - yəni hikmətə məhəbbəti bədii formada ifadə edənlərdir. Bunlar Hegelin, Kantın, Hötenin, Fixtenin, Şellinqin, Monteskyenin, Volterin... istinad etdikləri şair-fılosoflardır.

Türk modernizminin banilərindən biri Mirzə Fətəli Axundzadə fəlsəfı traktatlar yazsa da, böyük dramaturq, tənqidçidir, yəni yazıçıdır. Yeni çağın tənzimatçıları da, Abay Runanbayevi də, İsmayıl Qaspıralısı da, Əli Bəy Hüseynzadəsi də, Mirzə Cəlili də, Cəmaləddin Əfqanisi də, Əhməd Ağaoğlusu da... dünyaya söz ustası, maarif xadimi kimi gəlmiş fikir, sənət adamlarıdır. Filosofluq onların məqsədi deyil, vasitəsi, dünyabaxışlarının tərkib hissəsidir. "Quran"dan, Dədə Qorquddan, "Manas"dan, Molla (Hoca) Nəsrəddindən gələn filosofluq da, əslində, birbaşa fəlsəfə deyil, sadəcə həyat, düşüncə müdrikliyinin spesifık ifadəsidir.

Marksist klassiklərin Şərqdən daha çox istinad etdikləri İbn Həldun əslində sosioloq-tarixçi, tarixi nəsrə yaxın üslubda qələmə alan fikir adamı olduğunu da vurğulamaq istərdik.

İndiyə qədər mükəmməl şəkildə yazılmayan türk tarix fəlsəfəsinin ortada olmamağının səbəbi də tarixi İbn Həldun baxışının bir kənara qoyulmasıdır. Təəssüf ki, bu sahədə L.Qumilyovun böyük təşəbbüsləri də tam yetərli olmadı. Marksizm elə bir bəladır ki, beyni, düşüncəni ondan azad eləmək müdhiş dərəcədə çətindir.

Mən daha bir subyektiv fıkir söyləyim ki, Şərq-türk fəlsəfəsinin yunan-Avropa yoluna girməsi, modern çağda hətta onu təqlid etməsi, uyqulamağa məcbur olması bizim öz fəlsəfə məktəbimizin qapanmasıdır.

Sokratdan Bertran Rasseləyə uzanan hər dürlü fəlsəfı məktəblər, qanunlar, kateqoriyalar, təhlillər, araşdırmalar nə qədər böyük olursa-olsun mayası bizim olmayan düşüncə yoludur...

Bu uzun şərh tələb edən söhbəti bir kənara qoyub Azərbaycan fəlsəfəsi və dostumuz Ağayar Şükürov haqqında bir neçə kəlmə söz deməyi özümə borc bilirəm.

Sovet sistemində, sovet ideologiyasının ağır şərtləri daxilində Cəmil Əhmədli, Asif Əfəndiyev, Zakir Məmmədov, Əli Abbasov, Ağayar Şükürov kimi filosofların yetişməsi səhra şəraitində yetişən ağaclara bənzəyir. Sərbəst düşüncə özgürlüyünün qısırlaşdırıldığı bir zamanda elmi kommunizmin kəsdiyi başa zaval olmadığı çağlarda filosof olmaq fəlsəfə dərsinin müəllimliyini eləməkdən daha geniş anlayışdır və əslində, tamamilə başqa bir dünyabaxışdır.

Mən Ağayar Şükürovun çoxcildlik "Mifologiya" kitabını oxuyanda inandım ki, fəlsəfəyə, yəni elmə gələn yolun birinci qapısı mifologiyadır. Müəllifin hind, Çin, yunan, Roma, türk... mifologiyasından açdığı geniş söhbətin məğzində dayanan həqiqət insan oğlunun təbiət haqqında metafizik düşüncələrini araşdırmaq, şüuraltının cilovsuz-yüyənsiz axarı içərisində dünyanın yaranması, insan və dünya haqqında hissiyyat fırtınasını dərk etmək təşəbbüsüdür. Yunan fəlsəfəsinin mənbəyi yunan mifologiyasıdır tezisini qəbul etməmək olmaz. Bu baxımdan elmi dünyagörüşəqədərki baxışların sistemi mifoloji baxışların məcmusundadır. Bu baxışları öyrənmədən, dərk etmədən fəlsəfə elmindən danışmaq mümkün deyil. Avropa renessansı - yunan mifologiyasını, ədəbiyyatını və fəlsəfəsini yenidən diriltmək - Allahdan insana enməkdir (İnsan o qədər böyüdüldü ki, Allah yaddan çıxdı...) - L.Tolstoy çox əsəbləşdirən bu yeni bütpərəstlik sənət üçün nə qədər böyük imkanlar yaratsa da, dünyaya Şekspiri, Rableni, Rafaeli, L.da Vinçini... versə də, alınan klassik və fransız ensiklopedist fəlsəfəsi üçün, eləcə də italyan, ingilis, ispan...

fəlsəfəsi üçün geniş imkanlar yaratsa da, aydınlıq çağına qədər olan düşüncəni yalnız yunan-Avropa sərhədləri ilə hüdudlandırmaq doğru deyil.

A.Şükürovun mifologiyanı təhlil və təqdim üslubunda, metodunda mən türk mifologiyasının özümdən, Füzuli Bayatdan, Arif Acaldan fərqli filoloji və ya bədii-poetik perspektivli yanaşmadan fərqlidir. Bu yanaşma fılosof olmaqdan, hadisələrə fəlsəfı baxış bucağından irəli gəlir. Filoloq ilk növbədə sözün möcüzəsini, obrazların dialektikasını axtarır. Filosof sözün arxasındakı "nə üçün'ləri arayır, mahiyyəti incələməyə çalışır.

Və qəribədir ki, Ağayar müəllim bizim ədəbiyyatımızın fəlsəfi dəyərini fəlsəfə elminə daşımaq istəyənlərdən biridir.

Bu məsələ "Mifologiya" kitablarında sırf fəlsəfi kitab və məqalələrdə özünü açıq-aydın şəkildə göstərir.

Bizcə, fəlsəfənin Şərq təməli üzərindəki pərdələrin qalxmasında, eləcə də ədəbiyat və fəlsəfə, mifologiya-fəlsəfə baxışma sistemli yanaşmaq, bu baxışı məktəbləşdirmək baxımından Ağayar Şükürov fərqli bir yeri, önəmi olan filosofdur.

Bu yaxınlarda filosof (həm də filoloq) Niyazi Mehdinin xanımı ilə birgə yazdığı əsəri haqqında jurnalist-araşdırıcı Hüseynbala Səlimovun çox maraqlı yazısını oxudum. Jurnalist qardaşımız haqlı idi: bizim həyatımızı, bizim
düşüncə varlığımızı, idrak və təhlil fəlsəfəmizi kim yazacaq? Bizim fəlsəfəmiz - ifadəsini ümumişlək anlamdan elmi araşdırma müstəvisinə kim gətirəcək?

Məncə, bu yolda olanlardan biri də Ağayar müəllimdir. Bu yol heç kəsə asan görünməsin. Xüsusilə bu elmin ağırlığı altında olmayanlara.

Mən 5-6 il öncə Ankarada bir beynəlxalq konqresdə Ağayar müəllimin xarici alimlərlə polemikasının şahidi olmuşam. Doğrusu, qürur duymuşam. Onun elmi məntiqi, alim təmkini, poemika ehtirası və geniş dünyagörüşü dinləyicilər tərəfindən təqdirlə qarşılanmışdı.

İnanıram ki, yalnız post-sovet və ya Türk Dünyası elmi məkanında deyil, Avropa elmi-fəlsəfı məkanında da Ağayar müəllim Azərbaycanı ləyaqətlə təmsil edə bilər.

Ağayar Şükürov xasiyyəti, tipi etibarilə törəyib artan, tələbələri ilə bir böyük elm ailəsi, məktəbi yaratmağa meylli elm adamıdır. Azərbaycanın bu məktəbə çox böyük ehtiyacı var.

Əgər maddi-mənəvi dayaq, dəstək olarsa, Ağayar müəllimin rəhbərliyi ilə yeni istiqamətlərin işlənəcəyinə, dünya fəlsəfəsi ədəbiyyatının tərcümə genişləndirilinəsinə inanıram.

Fəlsəfənin qloballaşma, modernləşmə, modelləşmə, internetləşmə və s. ilə bağlı problemlərinin işlənməsi sahəsində Ağayar müəllimin təcrübəsindən istifadə etməmək haqsızlıqdır.

Türk tarix fəlsəfəsi, Azərbaycan tarixinin fəlsəfi idrakı baxımından da K.Yaspers, A.Toynbi "boşluğunu" Ağayar Şükürovun yetirmələrinin dolduracağına məndə qəti bir inam var.

Bu yaxınlarda Ağayar müəllimin dostu, siyasətçi-alim dostumuz Pənah Hüseynli ilə söhbətdə fəlsəfədən, xüsusilə, din fəlsəfəsindən xeyli söhbət etdik. Söhbətin başında da, sonunda da Ağayar müəllimin adı hallandı. Uman yerdən küsərlər. Biz Ağayar müəllimdən çox şey umuruq. Azərbaycan fəlsəfı fikri naminə, fəlsəfə axtarışları üçün.

İllər keçir. Keçən illər enerjini azaldır. Fəqət dünyaya təcrübə adlı böyük fenomen gəlir. İnanırıq ki, enerji ilə təcrübə milli heysiyyətlə, məhsuldarlıqla, vətənpərvərliklə

birləşdiyi yerdə gözlənilənlər gerçək olacaq. Hər halda, buna Əli Kərim demişkən, dəli bir ümidimiz var.

Gözəl insan, böyük alim Ağayar Şükürlüyə can sağlığı, daha böyük elmi uğurlar diləyirik!

Tanrı alimləri qorusun!

P.S. Onsuz da biz hamımız fılosofuq. Qoy subaylar başlarının çarəsini qılsın. Arvadın fılosof eləmədiyi kişi qaldımı?!

JORJ BLON VƏ ONUN KÖÇƏRİLƏRİ

Fransız yazıçısı, bioloq Jorj Blon əılinə qələm alanda möcüzə yaratınaq istəməyib. O, sadəcə rast gəldiyi, eşidib bildiyi möcüzələrin səbəbini tapmağa çalışıb. Çalışıb təbitəin qəribə sirrini insanlara çatdırsın. Onun təsvir etdiyi "Böyük köç"ün köçmənləri balıqlar, lemminqlər, qazlar, çəyirtkələrdir (Jorj Blon, "Velikiye koçevye", Moskva 1975).

İldə bir dəfə, yaxud bir neçə dəfə köçən, bəzən bütün bəşəriyyti öz qəribəlikləri ilə heyrətdə qoyan, bəzən hətta öz ölümünə gedən bu canlıları idarə edən qüvvə nədir?

Təbiət özü özünün səbəbidir. Təbiəti öz qanunları ilə açıb-araşdırmaq insanın vəzifəsidir, insanın həyatının əsasıdır. Və təbiəti dərk etdikcə, insan özünü dərk edir, kəşf edir. Bu baxımdan lemminqlər haqqındakı hekayət daha çox diqqəti cəlb edir.

Kütləvi şəkildə ölümə doğru gedən bu zavalı heyvanlar dünyada qorxuların

sonu olan ölümdən çəkinmirlər. Taleyin yazdığı qəhrəmanlığı etməyə məhkum olan lemminqlərin faciəsi belə başlayır. Anaları lemminqləri qorxaq-hürkək doğurlar. Yuvalarından azacıq aralı getməyə ürək eləməyən bu heyvanları nə qədər böyük cəsarət gözləyirmiş...

Onların həyatının bir anı gəlib çatır ki, təbiət onları bütün canlıların doğulandan son mənziləcən dəhşətə gəldiyi amansız bir kabusla - ölümlə üz-üzə qoyur və ən qəribəsi də budur ki, lemminqlər öz həyatlarından belə keçmək dərəcəsində çılğınlaşırlar. Böyük metaforadır. Ancaq bu metafora deyil, təbiətin dilinin müstəqil mənalı cümlələrindən biridir. Öz axarının kortəbii pozulmasına qarşı dəhşətli dərəcədə amansız olan təbiət çoxalıb artan və ulu ahəngi zərrəcə də olsa pozan bu balaca canlıların başına nələr gətirmir: özləri sayda düşmənlərini yaradır, nəsilləri bir-birinə qarşı qoyub ölüm-dirim çarpışması yaradır və nəhayət, günəşin saçaqlarında lemminqlərin qanına-canına hopan elə bir iblis göndərir ki, onları ölümə doğru yürüşə çıxarsın. Və öz ölümündən qorxmamaq instinki əbədi faciəyə gedən yolun başlanğıcı olur.

Müəllif dünyanın görkəmli bioloqlarının fikrinə söykənərək bu faciənin səbəbini, qırğına gedən bu canlıların davranışını yozub şərh edir. Bunu gah həyat enerjisinin nisbətsiz artımı ilə, gah kosmik ahəngin dəyişməsi ilə, gah da ilkin Vətənə - geoloji zamana dönmə ilə... bağlayır. Hardasa oxucunu inandırır, hardasa da inandırmır. Ancaq bunun fərqi yoxdur. İnsan təbiətin daha bir müəmması - tapmacası qarşısında dayanıb onu dərk edirsə, eyni zamanda o özünü də dərk edir, özünü də yozur.

Qəribə keçidlər, poetik mənzərələr, obrazlı dil, təbitin özü kimi yığcamlıq, səlislik, aydınlıq, müdrik bir ağrı Jorj Blon hekayələrini bizə daha da
Doğmalaşdırır. Yazıçı-alimin dəqiqliyi şərtiliyi tamamlayır, şərtilik isə təbiəti dərk etməyin nisbiliyini açır.

Bu sözləri yaza-yaza yadıma düşür nar içindən çıxan qızlar, zəlzələ vaxtı baş alıb gedən siçanar, gözəl qızlara vurulan ilanlar, danışan heyvanlar... Axı biz onların haqqında nə bilirik?.. "Bir qüvvənin min bir ifadəsi" kəlməsi də yadıma düşdü. Anladım ki, təbitin bilmədiyimiz cild-cild kitabı başına qalıb. Çünki bu cild-cild kitabların yazıldığı əlifbaların çoxunu biz hələ bilmirik.

J.Blon bu əlifbalardan birini açmış və bizim üçün oxumağa başlamışdı. Və oxuyanda aydın olmuşdu ki, bu naməlum əlifbanın təqdim etdiyi mətnin başqa yozumu, başqa bir oxunuşu da ola bilər. Norveç dağlarında, yaylaqlarında yaşayan siçansayağı heyvancığazların - lemminqlərin taleyi haqqında qəribə və qüssəli hekayət belədir.

P.S. Oxucu bunu nəzərə alsın ki, tərcümədə qısa ixtisarlar etmişəm.

JORJ BLON

ÖLÜMƏ YÜRÜŞ

Mən lemminqəm. Biz lemminqlər artıq neçənci nəsildir ki, öz yaylamızda xoşbəxt həyat sürürük. Bizim öz gecəmiz, öz gündüzümüz var. Gündüzlər biz ehtiyat üzündən yuvamızdan uzaqlaşmırıq, günün bu çağında biz daha ağıllı, dinc və sakit oluruq. Toran qarışanda yuvadan bir az aralanmaq da olar, ancaq onda da öz təbii sərhədimizdən kənara

çıxmağa cəsarət etmirik. Ot-ələf yeyir, ağacların zoğlarını, ağcaqayının zərif qabığını gəmiririk.
Gecələr soyuq olmayanda xeyli gec qayıdırıq, yem axtarırıq, ya da eləcə ayın-ulduzun altında oynaqlaşırıq. Günlər keçir, həftələr ötür. Getdikcə gün uzanır və bu zamanlar biz dişilərə meyl edirik. Hər lemminqin arzusu odur ki, öz xasiyyətinə uyğun bir sevgili tapsın və burnunu xəfif-xəfif onun burnuna sürtsün. Özü də bu sevgi oyunları rəqabətdən-filandan, qısqanclıq və bu sayaq faciələrdən uzaq olur. Bu uzun gündüzlərdə hər bir lemminqə öz adaxlısından bir, yaxud iki yadigar bala qalır. Sonra yenidən uzun gündüzləri uzun gecələr əvəz edir. Torpaq qarla örtülür. Biz yuvalarımıza çəkilir, torpaq altında soyuqdan gizlənir, bütün qışı otla örtülmüş yuvada yumurlanıb yatırıq. Hərdən lemminqlərdən biri oyanır, toplanmış yem ehtiyatından bir az yeyir, sonra yeraltı yollarla yuxarı çıxıb bayıra boylanır. Oradasa şaxta, qar, zülmətli gecə. Geriyə, tez geriyə! Sonra uzun gündüzlər yenidən geri qayıdır və hər şey təzədən başlayır. Bəli, o zamanlar biz xoşbəxt idik, çox xoşbəxt.
Bəs nə üçün indi hər şey dəyişdi? Niyə bu acı fəlakət canavarları, yırtıcı quşları deyil, bizi, Allahın bu dinc canlılarını haqladı? İndi mənim dayandığım bu yad sahildə bizim böyük tayfamızın qalıqları - cəmi bir neçə lemminq taqətsiz halda sərilib qalıb: ya ölüblər, ya da artıq can üstədirlər. Ola bilsin, bir azdan mən də öləcəyəm. Bizi buraya sürüyüb gətirməyə əgər gücümüz qalsaydı daha uzaqlara qovacaq amansız taleyin qurbanı kimi sizə öz faciəli tarixçəmi danışmaq istəyirəm.

* * *

Bu qeyri-adi şərtiliyə - sözü lemminqə verdiyimə görə qoy oxucum məni bağışlasın. Vaxtı ilə Hamlet bu lemminqlərdən birini görsəydi, "siçovul", "siçovul" - deyə qışqırardı. Zahiri görünüşünə görə onu balaca marmonta da oxşatmaq olar, ancaq lemminq sürünmür, yüngül sıçrayışla hərəkət edir.
İpək kimi yumşaq xəzi, sarı xalla örtülmüş qırmızımtıl pəncələri, açıq rəngli qarnı ona xüsusi yaraşıq verir. Ağıllı, oynaq gözləri var. Ancaq bilmirəm, mənim bu zərif canlını öz dili ilə danışdırmağa haqqım çatırmı?
Əhvalatı bütün təfərrüatı, incəliyi ilə oxucuya çatdırmaq üçün bunu ən yaxşı üsul hesab edirəmsə, nə üçün belə bir şərtiliyə bəraət qazandırmalıyam. Mən belə düşünürəm ki, lemminqlərin ağlasığmaz macəraların əsasında düşüncə, fıkir, ya mücərrəd anlayış deyil, humoral dəyişiklikdən doğan bir hiss, sarsıntı dayanır. Lemminqlərlə bağlı bütün nağılları bir kənara qoysaq (lemminqlərdən yazan ilk müəlliflər onların yağış kimi göydən töküldüyünü iddia edirlər), başqa heyvanlar kimi lemminqlərin səyahət ehtirasınıda endokrinoloji - sinir sisteminin pozulması ilə izah etmək olar. Biz burada yenidən bir sıra tampacalarla qarşılaşırıq. Axı humoral prosesin nəticəsi olan davranışın dəyişməsi həm də bizim, bütün insanların oqismətidir. Öz kiçik qardaşlarımızla birgə biz də bu istibdadın yükünü çəkirik: o, bir anda bizim vurğunluğumuzu qat-qat artıra bilər, bizi lirik bir ovqata kökləyə bilər, bizə cəsarət verər, ağlın bütün hökmlərini boğar, elə bir təhlükəni uydurar ki, adi vəziyyətdə biz onu mütləq hesaba alardıq. Qismən elə buna görə mən lemminqi özümə hekayətçi seçmişəm. Bu xalqa birinci şəxsin dilindən təhkiyə mənə canlı və ifadəli görünür. Yadıma düşəndə ki, görkəmli fransız alimi, balinalar üzrə mütəxəssis, professor Budner öz povestində çəkinmədən sözü qozbel balinaya verib, bu üsulun qanuniliyinə olan son şübhələrim də yoxa çıxdı.

Norveç lemminqləri bu ölkənin ən ucqar şimal hissəsində - dağlarda, yüksək yaylalarda yaşayır. İndi isə sözü öz hekayəçimə verirəm. Hərdən mən bacardıqca gec-gec lemminqin sözünü kəsib, onun duyub seçə bilmədiklərini özüm danışacağam.

* * *

Hər şey ondan başladı ki, biz həddən artıq çoxaldıq. Mən bu barədə çoxdan düşünürdüm. Və yəqin heç vaxt öyrənə bilməyəcəyəm ki, mən anadan olanda və mənim gəncliyimdə biz nə qədərdik. Biz yeraltı keçidlərdə, açıq səma altında görüşürdük, ancaq hamımız birdən yuvamızı tərk eləmirdik. Hər ailənin öz yuvası var idi və hər bir gənc lemminq ərsəyə çatanda valideynlərini tərk edib özünə ayrıca yuva qururdu. Əlbəttə biz mehriban idik, amma çox da yox. Rastlaşanda burnumuzu bir-birinə sürtüb, ələlxüsus cavanlar dostcasına döyüşür, açıq havada oynaqlaşırdı - bizim ictimai həyatımız bundan ibarət idi. Qalan şeylərdə hərə yalnız özü üçün yaşayır, özü üçün çalışırdı. Hətta ən iri yuvada da birgə yaşamağı xoşlamırdıq. Mən yuvadan çıxanda tək-tənha gəzib dolaşmaq istəyirdim. Hər şeydən də çox toran qovuşanda gəzməyi xoşlayırdım. Sönük işıq gözümü qamaşdırmırdı. Bəzən də dörd yanı qatı duman bürüyür, göz-gözü görmürdü. Göydə quşlar uçurdu, amma biz onları görə bilmirdik. Yalnız qanadlarının şappıltısını eşidirdik, lemminqlər göz qırpımında yoxa çıxır, gözlənirdilər. Bu boyda dünyada yalqız qalırdım. Şehli otları qırpır, torpağı eşib bitki köklərini gəmirir, daşların üstündən hoppanıb düşürdüm, o qədər oynaqlayırdım ki, ürəyim şiddətlə döyünməyə başlayırdı, azacıq yorğunluq duyan kimi yuvamıza tələsirdim, çünki xasiyyətimə yaxşı bələd idim, bilirdim ki,yolda qəfildən məni yuxu tuta bilər. Bir neçə saniyəlik
yata bilərəm - belə bir yuxu isə ölümə bərabərdir. Yuvasından uzaq düşüb, yatıb-yuxulamış lemminqləri quduz düşmənlər pusub gözləyirdilər.
Ailə qurandan sonra da tək gəzmək vərdişini tərgidə bilməmişdim. Mənim arvadım körpələrlə məşğul idi, amma o özü də gəzməyə çıxanda təkcə çıxırdı. Balacalar böyüyəndən sonra mən ailədən uzaqlaşır, özümə təzə yuva seçirdim. Beləcə ömür sürürdük, bəlkə də yeknəsək, amma dinc və xoşbəxt yaşayırdıq; özləri barədə danışmağı sevməyən təvazökar adamların həyatına bənzəyirdi bizim həyatımız.
Günlərin bir günü, qışın sonunda yuvamdan çıxıb yeraltı şəhərimizin çıxış qapılarından birinə yollandım. Yuxarıda kolların çox dadlı qabığı var idi, ancaq mən təzə yem üçün darıxmışdım.
Yolda daha üç lemminqlə rastlaşdım, onları tanımaq olmurdu, bir-birini itələyə-itələyə qabağa soxulurdular. Lemminqlərdən biri hətta qəzəblə ciyildədi də. Bu, məni çox təəccübləndirdi. Yuvanın ağzında adət üzrə ayaq saxlayıb vəziyyəti öyrənmək istədim. Qar ay işığı altında parlayırdı, bəzi yerlərdə qar topalarından da yuxarıda iri-iri qayalar qaralırdı. Məndən bir neçə aralıda lemminqlər cırtdan ağcaqayınların kökünü gəmirirdilər. Mən gözləməzdim ki, onları bu qədər çox görəcəyəm. Qar basmış kolların ətrafında toplanmış lemminqlər əvvəllər olduğu kimi sakit, dinc deyil, hay-küylü, əsəbiydilər, itələşə-itələşə, çığırışa-çığırışa ağaca tərəf can atırdılar. Hara baxırdın lemminq idi, harasa tələsir, vurnuxurdular, yuvadan xeyli uzaqlarda, açıqlıqda tullana-tullana gəzirdilər. Ağılsızlığa bax! Əgər sonradan məlum olsaydı ki, bu sarsaqların çoxunun qarnı üstündə ölçüsü qalıb - yorğunluqdan yatıb, donublar, zərrəcə də təəccüblənməzdim.

Yerin təkindən lap yanımdan daha iki lemminq sıçrayıb çıxdı. İrəli cumdular, bir kolu əhatəyə almış lemminq topasının ətrafında bir xeyli hərlənib-fırlanıb çölə sarı qaçmağa üz qoydular və bir azdan gözdən itdilər.

Bu qeyri-adi mənzərəni seyr edəndə ürəyim şiddətlə döyündü. Hələ də tərəddüd içində yuvanın ağzında dayanıb çölə çıxmaq üçün münasib vaxt gözləyirdim, ancaq birdən mən də içimdə uzaqlara qaçmaq, başqa lemminqlər kimi atılıb-düşmək istəyi duydum, buraya təzə yem üçün gəldiyimi artıq unutmuşdum. İndi artıq yeganə bir istəyim var idi: hərəkət eləmək. Məndə indiyəcən keçirmədiyim bir hiss yaranmışdı. Ürəyim şiddətlə döyünürdü. Mən daha dözməyib irəli cumdum, qarın içində atılıb-düşməyə, ora-bura qaçmağa başladım. Sonra qaçıb özümü dəstəyə çırpdım, lemminqləri itələyə-itələyə kolluğa soxuldum ki, ağac qabığı gəmirim. Bir təhər qarnımı doyurdum və geriyə dönüb təzədən dəstənin içindən özümə yol açmağa başladım, o qədər həyəcanlı idim ki, lemminqlərlə birgə necə zingildədiyimi də hiss etmirdim.

Bu çılğın vəziyyətdə nə qədər qaldığımı söyləmək çətindir. Ancaq o yadımdadır ki, qəfildən burnumun donduğunu hiss elədim. Demək, başımı hələ tamam itirməmişdim və bu xəbərdarlıq mənə bir əmr təsiri göstərdi. Mən geriyə dönüb yuvaya dürtüldüm. Bütün keçid mənim kimi yuvasına tələsən lemminqlərlə dolu idi. Üstəlik yuvanın dərinliyindən bizə tərəf lemminq seli axıb gəlirdi. Dəhşətli bir basabas idi. Biz hamımız zülmət içində vurnuxur, bir-birimzi itələyir, çığırırdıq. Yorulub, əldən düşmüş yuvama çatdım və elə o dəqiqə də yuxuya da getdim.

Belə hallar tez-tez təkrarlanmağa başladı. Bir neçə dəfə keçid yollarındakı səsdən və vurnuxmadan oyandım və məndə də yuvadan çıxıb getmək arzusu oyandı. Həmişə yuvaya olduqca yorğun qayıdırdım və elə o anda yatırdım, ancaq xilasedici yuxular get-gedə qısalırdı. Mən tez-tez yuxudan ayılır və dinməzcə uzanıb ətrafdakı qaçhaqaçı, səs-küyü dinləyirdim. Bizim yeraltı şəhərimizin əvvəlki sakitliyindən, qayda-qanunundan əsər-əlamət qalmamışdı. Oraya dönmək üçün məndə istək az, lap az qalmışdı. Xoşbəxt həyatımız sona çatmışdı və biz bunun səbəbini heç cürə anlaya bilmirdik.

Qış çıxmaqda idi. Qarlı yamaclarda günəşin ilk şüaları bərq vururdu. Gecələr qısalır, gündüzlər uzanırdı. Biz alaqaranlıqda yuvadan çıxıb acgözlüklə qar altından boylanan bitkilərin üstünə atılırdıq, amma yenə də vurnuxur, itələşirdik. Ağlını itirib yuvadan xeyli uzaqlaşan lemminqlər isə səssizcə uçan bayquşların, ya da göydən daş kimi tökülən sarların qurbanı olurdu.

Elə o vaxtlar anladım ki, biz tədricən öz şəhərimizdən qopub ayrılırıq: şəhərimiz dolub daşırdı. Qabaqlar - hər birimiz ayrıca yuvada yaşayırdıq, ancaq indi yuvalar xeyli artmışdı və sıxlıq bizi boğurdu. Yeraltı yollar, demək olar, fasiləsiz şəkildə axıb gedən lemminqlərlə dolu idi. Dar keçidləri genəltmək üçün bir torpağı oyur və bəzən özümüz də istəmədən evin divarını, damını söküb uçururduq, beləcə şəhərimizi - indi bu qədər nifrət etdiyimiz şəhəri dağıdırdıq. Bu şəhəri atıb qaçmağa, baş alıb hara gəldi qaçmağa-qurtulmağa can atırdıq. Biz hamımız bayıra çıxanda o qədər çox görünürdük ki, özümüz də qorxurduq. Mən yalnız bu basırıq və səsli-küylü şəhərdən deyil, törəyib artaraq hər tərəfi ağzına almış lemminq kütləsindən də uzağa qaçmaq istəyirdim. İstəyirdim bir vaxtlar yaşadığım sakit dinc həyata qayıdım.

Dinclik istəyi, keçmişin xiffəti məni təbdən çıxarırdı. Hiss eləyirdim ki, o biri lemminqlər də mənim günümdədir. Hamı həyəcanlı, əsəbi və hirsli olmuşdu. Hər bir görüş dava-

dalaşla qurtarırdı. Biz burnumuzu dostcasına bir-birmizə sürtməkdənsə, itələşir, qışqırır, bir-birimizin üzünə tüpürür, dalaşırdıq.
Günün uzanmağı ilə sevgi çağı yetişdi. Əvvəllər bu dövrü çox xoş keçirirdik, indi isə elə bil əsl cəhənnəmə düşmüşdük. Ehtiras bizi dəhşətli bir qüvvə ilə bürümüşdü. Biz onsuz da kiçik bir bəhanə ilə dava-dalaşa hazır idik, indi dişi lemminqlər üstündə gedən döyüşlər müdhiş bir şəkil almışdı, halbuki dişilər kefin istəyən qədər idi. Biz leş və ümumən ət yemirik, ona görə də məğlub olanların cəsədi qalıb çürüyür, ətrafa üfunət yayırdı.
Belə bir dəhşətli mühitdə dünyaya təzə lemminq nəsli gəlirdi. Qəribə olsa da, bu körpələr öz atalarından, babalarından daha tez böyüyür və bizim kimi əsəbi, qorxaq, azğınvə həyasız olurdular. Gör bizim tayfanın başına necə müsibət gəlmişdi ki, lap südəmər lemminqlər özlərinə dişi axtarır və onların uğrunda qəddarlıqla vuruşurdular: ən dəhşətlisi də o idi ki, biz valideynlər də ağlımızı itirmişdik. Biz bu gənc nəsillə rəqabət aparır, onlarla öz tay-tuşumuz kimi çarpışırdıq.
Mənim yaşıdım olan dişi lemminqlər indiyəcən ildə bir, uzaqbaşı iki dəfə bala verirdilərsə, bu yazdan üç, hətta dörd dəfə balalamağa başlamışdılar.
Aydın idi ki, bu cür çox gedə bilməz. Şəhərimizdə yaşamaq tamamilə dözülməz olmuşdu, biz hamımız təlaş içində idik və tək bir şey istəyirdik -qaçmaq, hara olursa-olsun qaçmaq, bu dəhşətli basırıqdan uzaqlaşmaq!
Nəhayət günlərin birində sübh çağında biz yola düşdük. Yuvaların ağzı, dörd bir yan lemminqlərlə dolu idi. Bu dəhşətli basırıqdan bir dəqiqəyə də olsa ayrılmaq üçün mən bir ağacın budağına dırmaşdım - oradan bütün lemminq tayfası ovuc içindəki kimi apaydın görünürdü.
Gülməli və kədərli mənzərə idi. Lemminqlər dörd bir yana yayılaraq çağırışır, bir-birini dişləməyə can atırdılar.
Qəflətən elə mən dayandığım budağın altından lemminq topasının içindən bir erkək lemminq irəli atıldı. Mən onun günbatana doğru tələsdiyini, yamac aşağı cumduğunu gördüm. Əvvəllər heç kəs bizim yaylanı tərk etməmişdi. Ancaq bu lemminq onun sərhədini keçərək geri belə baxmadan irəliləyirdi.
Bu qeyri-adi qəhrəmanlıq dərhal öz təsirini göstərdi. Onun ardınca dörd, sonra on, otuz lemminq də yamac aşağı götürüldü. Onlar dəli kimi irəliyə doğru can atırdılar.
Mən onların ardınca baxıram, ürəyim şiddətlə döyünür. Bir göz qırpımında yerə sıçrayır və yamaca doğru qaçıram. Bir neçə saniyədən sonra, yaylanın lap sərhəddində ayaq saxlayır, geriyə baxıram. Lemminqlər dəstə-dəstə mənə tərəf axışırlar. Bir də onu görməyə macal tapmıram ki, bəzi lemminqlər yuvanın ağzında qalıb, bəziləri isə hətta yuvaya qayıdıb - bundan artıq heç nə görə bilmirəm, lemminq dalğası məni ağzına alıb burulğanlı çay kimi üzü aşağı aparır.

* * *

Bütün əlamətlərinə görə o il adi illərdən olsa da lemminqlər hədsiz dərəcədə artıb törəmişdilər. Bəzi alimlər bunu ilin çox isti keçməsilə izah edirlər, bəziləri isə razılaşmayıb deyirlər ki, lemnıinqlərin hədsiz çoxalması təkcə bununla izah edilə bilməz, çünki bu cür istilər əvvəlki illərdə də olub, ancaq həmin hadisə baş verməyib.
Naməlum səbəbdən - isti-soyuqdan asılı olmayaraq "lemminq ili" gəlir. Bu il qeyri-bərabər nisbətdə təkrar olunur: dörd ildən bir, beş, on və daha çox illərdən bir.

Belə illərdə lemminqlər çox əsəbi və narahat olur, yuvalarındakı basırıqdan yaxa qurtarmaq üçün doğma yurdlarını atıb gedirlər. Əgər lemminqlər bilsələr ki, bu artım zamanı onların sayını nizamlayan qütb bayquşlarının, sarların və başqa yırtıcı quşların yuvasında nələr olur, necə dəhşətə gələrdilər.
Həmin il bu quşların yuvasındakı balalar həmişəkindən qat-qat çox olur. Tüklü dişi sar üç-dördü əvəzinə beş və altı, ağ bayquş beş-altı bala əvəzinə səkkiz-on bala çıxarır. O yerlərin digər quşlarında da eyni vəziyyət müşahidə edilir.
Lemminqlərin yerüstü düşmənlərinin sayının artıb-artmadığını söyləmək isə çətindir, burası da var ki, sincab, şimal tülküsü və qütb dairəsinin digər yırtıcıları öz yuvalarını gizlətməyi bacarırlar. Hər halda yerli əhali bu zamanlar onlara əvvəlki illərdəkindən daha çox rast gəlirlər. Onlar lemminqlərin ardınca öz yaylalarını tərk edib vadi boyunca qərbə doğru gedirlər, bilirlər ki, bomboz lemminq axını gec-tez bu yerlərdən keçəcək. Elə bil lemminqlərin artıq hissəsini məhv etmək üçün gözəgörünməz bir sərkərdə-piyada və hava qüvvələrini çəkib bura gətirir.
"Lemminq ili"ndə daha bir maraqlı hadisə müşahidə edilir. Bizim köçəri lemminqlərlə heç bir əlaqəsi olmayan, bəzi qeyri-yırtıcı quşlar, xırda gəmiricilər də bu vaxtlar həddən artıq çoxalırlar. Elə bil kainatda nəsə qeyri-adi hadisə baş verir və bu hadisənin əks-sədası, sirli şüası planetmizin kiçik bir guşəsinə yetişib hansısa bir həyat enerjisini artırır. Görünür, bu sirli hadisə iqlimə və bitki örtüyünə təsir göstərmir, amma bəzi quşların və heyvanların hədsiz çoxalmasına səbəb olur...
Biz bu söhbəti edərkən lemminqlərin irsi düşmənləri onlara havadan və qurudan hücuma keçməyə hazırlaşırdılar.

* * *

Üzüaşağı düşdüyümüz yamac bizi çox geniş, dümdüz, hamar bir vadiyə çıxardı ki, burada təkcə sıx, top halında deyil, sərbəst şəkildə də hərəkət etmək mümkün idi. Bu, hamıya bir yüngüllük gətirdi. Biz nəm torpağın üstündə cəld hərəkət etsək də, daha dəli kimi irəli can atmırdıq. İrəlidə hamımızdan qabaq yaylanı tərk edən lemminq gedirdi. Onun ardınca on-on iki cərgə, onlardan sonra isə vahid cəbhə kimi yerdə qalan lemminqlər düzülümüşdü.
Bu sayaq biz bütün günü, sonra bütün gecəni yol getdik. Sağımızda çayın şırıltısı eşidilirdi. Səhərlər dincəlmək üçün dayanırdıq. Amma yuva qazmırdıq,
hamı bilirdi ki, qarnımızı bərkidib dincəldikdən sonra yolumuza davam edəcəyik.
Buradakı tərtəzə ot bizim yaylaqdakından xeyli sıx və ləzzətli idi. Bu sayaq bir neçə gün yol getdik, gecələr gedir, səhərlər isə yatıb dincəlmək üçün ayaq saxlayırdıq.
Tezliklə yolumuzu gur bir çay kəsdi. Vadi kəskin şəkildə cənuba sarı əyilirdi, biz isə üzü qərbə doğru yolumuza davam etməliydik. Günəşin ardınca getmək - bu, bizim həyat qanunumuz idi. Yurdumuzu tərk edəndən bu qanunla yaşayırdıq, qırılırdıq, məhv olurduq, ancaq nədənsə bu qanunu heç vaxt pozmurduq.
İrəlidə gedən lemminq bir an belə tərəddüd etmədən suya girdi, qalanları da onun ardınca çaya tullandılar.
Nəmişlik həmişə mənim xoşuma gəlib, ancaq suya girməyə heç vaxt cəsarət etməmişəm. Yazda, payızda yaylamızda nohura rast gələndə mən ondan yan ötməyə çalışırdım: ancaq o gün tərəddüd etmədən özümü çaya atdım və hamı ilə birgə çox sadə, təbii şəkildə üzməyə başladım. Çay çox da iti axmırdı. Hava ilə dolaraq yüngülləşmiş xəz dərimin məni necə üzdə saxladığını hiss edirdim.

Başımı, çiyinlərimi sudan çıxarmışdım. Pəncələrimi avar kimi işlədə-işlədə üzürdüm: az keçmiş o biri lemminqlərlə birgə qarşı sahilə çıxdım.
Bu ilk üzüşümü uzun müddət unuda bilmədim. Sərin su mənə xoş bir gümrahlıq gətirdi. O biri lemminqlər də yəqin ki, belə bir ləzzəti duymuşdular. Silkələnib üstümüzdəki suyu dağıdandan sonra hamımız əmin-amanlıqla sahilə dağılışıb ot-ələf yeyirdik. Heç kəs bir-birini itələmirdi. Hətta bəziləri dostcasına, burun-buruna sürtüşürdü, elə bil keçmiş günlərin mehribanlığı, ötüb gedən səadət dolu anları möcüzəli bir şəkildə geriyə qayıtmışdı. Yolu başa vurmuşduqmu? Yemi bizə həmişəlik bəs edəcək bu vadidə qalacağıqmı? Yox, bu mümkün deyildi. Biz doyunca dincəlib rahatlansaq da irəli getmək ehtirası əvvəlki gücündə qalırdı.
Ertəsi gün dəstə irəliyə, qərbə doğru hərəkətə başladı. Biz vadinin yamacıyla dırmaşaraq meşə ilə örtülmüş, geniş, dərə-təpəli bir yaylaya çıxdıq. Və xeyli müddət yol getdik. Neçə həftə yol yorduq. İrili-xırdalı neçə vadidən keçib getdik, amma yayla uzandıqca uzanır, qurtarmaq bilmirdi. Biz tələsmədən geniş cəbhə boyu hərəkət edirdik, tez-tez dayanır, bəzən bir neçə gün yerimizdən tərpənmirdik. Bu, sürətli bir yürüş deyil, böyük bir tayfanın köç edib getməsiydi. Dişilər yoldaca balalayırdı. Bu vaxt köçün hərəkəti bir az səngiyirdi ki, yanı körpəli analar bizimlə ayaqlaşa bilsinlər.
Yola düşdüyümüz andan bəri düşmənlərimizdən bircəciyi də gözümə dəyməmişdi. Burada, bu dərə-təpəli yaylada da onlar elə bil heç yox idi. Bəlkə də hardasa məndən uzaqlarda lemminqləri qırıb çatırdılar, ancaq mənim bundan xəbərim yox idi. Onu da deyim ki, indi biz az gedib, çox dincəlirdik, çünki gecələr lap qısalmışdı, meşə isə etibarlı bir sığınacaq idi. Səhərin gəlişi ilə hamımız ağacların altında, alt budaqların kölgəsində yer düzəldib yatırdıq.
Ətrafındakı lemminqlərin daha sıx topasını görəndə o saat anladım ki, vəziyyət dəyişib. Yayla kəskin şəkildə daralmış və biz bunun son hüdudlarına yetişmişdik, indi sərt yamacla vadiyə düşməliydik. Çayın axarı bizim solumuzda qalmışdı. Biz yenidən sıx dəstələrlə hərəkət etməli olduq və bu sıxlıq, bu basabas əsəbimizi korlayır, bizi təbdən çıxarırdı. Məgər biz öz yurdumuzu tərk etmiş, bu uzun yolun yolçusu olmuşduqmu? Deyə bilərsiz ki, sizin içərinizdəki ən böyük fərdiyəçilər (əfsus ki, mən də onların sırasmdayam) həmin o dərə-təpəli rahat yaylaya dönə bilərdi, yaxud da yamacla yuxarı qayıdıb özgə çıxış yolu axtara bilərdi. Yox, bunların heç biri mümkün deyildi. Geriyə dönmək heç ağlımıza da gəlmirdi.
Qarşısıalınmaz bir qüvvə bizi başçımızın ardınca qərbə doğru sürükləyirdi. Yol daralanda bizi sıxlaşmağa vadar edən tale hamımızı əzablara düçar etmişdi. Biz əlindən qurtarıb qaçmağa çalışdığımız əzabı da özümüzlə aparırdıq. Lakin tayfamızı qarşıda gözləyən dəhşətlərin yanında bu əzab boş bir şey idi.
Quşların ilk hücumu səhərin sübh çağında biz vadinin döngəsinə yetişib onun yamacı boyu dırmaşanda baş verdi. Birdən mənim sağımdan bağırtı qopdu. İki cüt nəhəng qanadın az qala yerə dəyərək çırpındığını və lemminqlərin qaçıb dörd bir tərəfə dağıldığını gördüm. Quş göydən daş kimi yağırdı. Sağdan, soldan, irəlidən. Lap qabağımda mənə çox iri görünən quş qanadını yerə sinmiş lemminqə çırpıb, dimdiyi ilə onun kəlləsini deşdi. Hamı həyəcanlı bir əzab içindəydi, hər tərəfi dəhşətli çığırtı bürümüşdü.
Birdən duyduq ki, ağlını itirmiş kütlə məni yamaca sıxıb və burnum torpaq divara dirənib. Var qüvvəmlə torpağı oymağa başladım. Arxadan mənim yoldaşlarımın və qənimət ələ keçirmiş sarların çığırtısı eşidilirdi. Mənimlə bir sırada daha bir neçə lemminq də səbrlə torpağı oyurdu. İstəyirdik divarı oyub içində gizlənək.

Torpaqda lağım açmaq bizim üçün bir içim su kimi asan işdir. Ancaq indi bu dəhşətli tünlükdə nəfəs ala bilmir, boğulurduq. Arxamdan çığırtı və hay-küy əbədiyyət qədər uzanırdı. Yırtıcı quşlar dörd yandan üstümüzə hücum çəkmişdilər. Görəsən doymaq üçün onlara nə qədər qurban lazım idi? Havasızlıqdan boğula-boğula, tələsə-tələsə həyəcan içində torpağı oyurdum. Qüvvəm tükənmişdi, arxadan gələn təzyiq bir neçə anın içində zəifləməsəydi yəqin ki, mən yorulub, ya da boğulub öləcəkdim. Dayanıb bir azacıq nəfəs almaq olardı. Arxaya dönəndə mən açdığımız lağımın ağzında işıq gördüm. Heç bir səs eşidilmirdi. Deysən, quşların hücumu kəsilmişdi. Mən elə yorulmuşdum ki, bir saniyənin içindəcə yuxunun yaxaladığı digər lemminqlərlə birgə uyudum. Səs-küyə oyananda o dəqiqə hiss etdim ki, məni yenə divara sıxırlar. Bayırda hələ işıq idi və artıq ikinci hava hücumu başlanmışdı. Məni əhatə edən digər lemminqlərlə birgə yenidən torpağı oymağa başladıq.

Vadinin ətəyində sarların bizə neçə dəfə hücum etdiyini deyə bilmərəm. Əvvəlcə biz torpağı yalnız bütün lemminq kütləsinin təzyiqini hiss edəndə oyub özümüzə yol açırdıq, sonra isə fasiləsiz işləməyə başladıq, yalnız hərdən artıq nəfəsimizi dərmək üçün dayanıb dincəlirdik. Lağımı qərbə doğru qazırdıq. Hətta orada, yerin altında da qanunu pozmurduq, daim günün hərəkəti istiqamətində irəliləyir və bunu aydınca duyub dərk edirik. Qarşımıza bir maneə çıxanda yolu dəyişmir, həmin səddi döngələmə keçib yenə də qərb istiqamətində irəliləyir və bunu aydınca duyub dərk edirdik. Qarşımıza bir maneə çıxanda yolu dəyişmir, həmin səddi döngələmə keçib yenə qərb istiqamətində qazırdıq. Torpağın nəmliyindən və bitkilərin kökündən yerin səthinəcən olan məsafəni müəyyən edirdik. Az keçmiş biz üzüyuxarı oymağa başladıq. Kök-kömrək çoxalır, nəmlik artırdı. Bir az da güc verib yerin səthinə çatdıq. Qaranlıq idi, göydə ulduzlar sayrışırdı. O qədər yorulmuşduq ki, yemək haqqında fikirləşmədən o andaca yuxuya daldıq.

Bu yamac çox dəhşətli yer idi. Biz gecə-gündüz dinclik nə olduğunu bilmirdik. Ot yeməyə çıxanda bayquşlar bizə səssizcə hücuma keçir, şimal tülküləri bizi güdürdü. Şimal tülküsünün kəskin iyi canımıza vəlvələ salırdı və biz gizlənmək üçün lağıma cumanda, yırtıcıların qurbanı oluruq. Onlar doyub sakitcə gedən kimi, o biriləri gəlirdi. Bir neçə gün şəhərimiz mühasirədə qaldı və getdikcə artıb çoxalan şimal tülküləri şəhərimizi dağıtmağa çalışırdılar. İri pənəcələri ilə torpağı qazır, açdığımız yolu uçurub dağıdırdılar.

Yamacda qalmaq təhlükəli idi. Ancaq bu ölümcül təhlükə olmasaydı belə onsuz da çıxıb getməli idik. Lağımdakı sıxlıq bizə əvvəlki şəhərimizi xatırladırdı, irəliyə getmək ehtirası isə qarşısıalınmaz idi. Və günlərin bir günü axşam toran qovuşanda bizim yeni başçımız işarə verdi və bütün lemminq ordusu bir nəfər kimi hərəkətə gəldi. Mühasirə olunmuş şəhərdən çıxmaq dəhşət idi. Şimal tülküləri hər tərəfdən bizə hücuma keçir, yırtıcı quşlar yuxarıdan həmlə edirdilər. Ancaq nə etmək olardı! İndi bizi heç nə, hətta ölüm belə yoldan saxlaya bilməzdi. Biz özümüzdə deyildik. Lemminqlərin əksəriyyəti bu qırğından qorxmur, şimal tülkülərini uzaqdan görəndə qaçıb qurtulmur, öz düşmənlərinə cəsarətlə baxır, qəzəblə onların açıq ağızlarına tüpürür, hətta onların dodaqlarını dişləyirdilər. Bu döyüşlər həmişə lemminqlərin ölümü ilə nəticələnsə də, öz yolumuzdan geri dönməyə məcbur edə bilməzdi.

* * *

Çəmənlikdə küknar kollarının arxasından, açıq mavi gölün sahilində al qırmızı ləkə kimi taxta ev görünür. Evin yanında tövlə və iki pəyə, arxada ağıl. Uzaqda körfəz çaya bənzəyirdi. Suyun üzünə qara-yaşılı təpənin kölgəsi düşüb. Uzun gündüzlər artıb arxada qalıb. Ot, arpa, çovdar yığılıb qurtarıb.
Qoca Katrin öz evində, mətbəxdə oturmuşdu. O, qabarlı əlində əsa kresloda sanki uyumuşdu. Baxışı kor kimi hərəkətsiz idi. Ancaq o, ətrafdakı hər şeyi görürdü. Qulaq kəsilmişdi, dinləyirdi. Qarını yalqız qoyub gedəndən bəri o, yalnız dinləməklə məşğul idi. "Gecəyəcən geri qayıdacağıq, narahat olma. Hər şey qaydasında olacaq. Ancaq sobanı qalama. Uzan yat ki, üşüməyəsən". Gəzməyə getdikləri kənd çox da aralı deyildi. Əlbəttə, hətta qundaqdakı körpəni də apardılar. Cavanlar gərək bir az əylənsinlər. İşləyirsən, yorulursan, günü-günə satırsan, ilahi, bir də gözünü açıb görürsən ki, heç bir şeyə yaramayan, meyit kimi bir qarısan. Adama nə qalır, yalnız quru xatirələr.
- Əlbəttə, əlbəttə, - dedi Katrin qarı, - gedin. Məndən nigaran olmayın. Mən indi uzanıb yatıram.
Ancaq o uzanıb yatmadı, öz kreslosunda lal-dinməz oturub, evin hər guşəsini, sonra tövləni, pəyəni, hini canlı bir şəkildə təsəvvüründə canlandırırdı. Qoca madyan tövlədə tək idi. İki at qoşa çarxlı arabaya qoşuluydu. Yaxşı ki, mal-qara tövlədə idi. Tox inəklərsə pəyədəydilər, kövşək vururdular. Səssizlik idi. Hətta hindəki toyuqların da səsi gəlmirdi. Onlar bu tezlikdə oturalı yatmışdılar. Katrinin fikri dolaşıb evə dönür. Burada ins-cins yoxdur. Mebel durub gəzməyəcəkdi ki, hər şey öz qaydasında olacaq. Evdə, evin yaxınlığında od-filan da yox idi, qorxulası heç nə qalmamışdı.
Katrin qarı qəfildən diksindi: itlərdən biri hürdü. Hə, həyətdə iki it də var, ancaq onların nəyindən qorxasan? Tövlə, pəyə, hin onsuz da həmişə bağlı idi. İt bir də hürdü. Bəlkə kimsə gəlir? Amma kim gəlməli idi, hardan gəlməli idi? Nə at tappıltısı, nə də ikiçarxlı arabanın səsi eşidilirdi. İtlərsə elə hey hürür. Yaxşısı budur, baxım görüm nə olub. Katrin çətinliklə kreslodan qalxıb pəncərəyə yanaşdı. Heç harda heç nə görünmürdü, yol bomboş idi. Ancaq itlər bu tərəfdə deyildi. Katrin o biri pəncərəyə yaxınlaşıb onu açdı. İtlərin hamısı hürə-hürə harasa qaçır və həyətin künc-bucağında gizlənirdilər. Katrin əsasına söykənə-söykənə qapıya yönəlib həyətə çıxdı. Evin ardına çıxanda tövlə, pəyə görünürdü. Katrin ora-bura qaçışan qaratıları seçə bildi. Bunlar keçilər idi. Onlar ora-bura atılır, itlərhürur, hey hürür, elə bil dovşan qovurdular. Axı, keçi ki, dovşandan qorxmur. Bəlkə canavar gəlib? İndiki vaxtda çətin ki, canavar ola. İtlər hürə-hürə canavarın dalınca düşməz. Əlbəttə, yox!
Katrin əlini gözünün üstünə qoyub uzaqlara baxdı, gözləri qaralınca baxdı. Ona elə gəldi ki, keçilər harasa yox oldular. Sakit, boş çöldə yalnız itlərin səsi eşidilirdi. Bu səs də gah kəsilir, gah da yenidən gəlirdi. İndi itlər evə yaxınlaşırdı. Bəli, tamamilə doğrudur, indi onlar yaxınlaşmaqdadır. Qoca Katrin ağılın yanında itləri gördü. Onlar quduzlaşmış kimi hürür, zingildəyir, mırıldayır, bir-birini dişləyirdi. Həyətə iri bir pişik qaçıb girdi. O, dişində nə isə tutmuşdu. Siçovulmu, quşmu? Pişik evin dalında gizləndi. Tapdaq yerin qurtardığı yerdə otlar elə bil titrəyirdi. Bir neçə saniyə sonra tapdaq yerdə nəsə qara ləkələr əmələ gəlməyə başladı. Katrin lemminqləri tanıdı.
Yaşadığı uzun illər ərzində o, lemminqləri azı dörd, ya beş dəfə görmüşdü. Ferma lemminqlərin köç yolu üstündəydi. Neçə dəfə zəmiləri, əkin yerlərini dağıdıb viran qoymuşdular. İndi də qarının ağlına ilkin gələn bu oldu: "Allaha şükür ki, məhsul yığılandan sonra gəlib çıxıblar". Lemminqlər isə artıq bütün həyəti bürümüşdülər. Onları ayağının altında görəndə Katrinin yadına düşdü ki, evin giriş qapısını arxadan bağlamayıb.

Lemminqlər geniş cəbhə boyu çay kimi axıb gəlir, hər iki tərəfdən tikilini bürüyürdülər. Tövlədə madyan kişnədi. Qoca Katrin evə tələsdi, hər tərəfi ağzına almış lemminqlərin arasından özünə çətinliklə yol açа-açа qapıya tərəf yönəldi. Lemminqlər qapının ağzına yığışıb ciyildəyə-ciyildəyə bir-birini sıxışdırırdılar. Hələ də ağıldan itlərin səsi gəlirdi. Nəhayət, Katrin qapının ağzına çatdı. Lemminqlər onun yanından ara verməyən axınla keçib gedirdilər. Soldakı açıq pəncərədən içəri soxulur, qarşıdakı pəncərəninsə iki şüşəsini sındıraraq evə təpilirdilər. Onlar stolların, stulların, döşəmənin üstündə oradan-buraya, buradan-oraya tullanır, bu pəncərədən o pəncərəyə atılır, bir yerdə bir saniyə belə dayanmırdılar.

Katrin elə ki, lemminqlərin iti dişlərinin ayağına yapışdığım hiss elədi, .əsasını qaldırıb açıq pəncərəyə yaxınlaşdı. Lemminqlərdən biri onun önlüyünün ətəyindən sallanmışdı. Yıxılmamaq üçün o, stoldan yapışdı. Lemminqlər ciyildəşir, vurnuxur, az qalırdılar stoldan düz onun üzünə atılsınlar. Katrin geri çəkildi, onun əlləri əsirdi. O bilirdi ki, lemminqlər insan üçün də, heyvan üçün də təhlükəli deyil. Ancaq qarı onlarla bacara bilmirdi. O, pəncərəni açıq qoymuşdu, indi nə edə bilərdi? Cavanlar qayıdanda nə deyəcəklər? İlahi, nə deyəcəklər?

İtlər artıq həyətdə hürürdülər. Dörd it və iki pişik qan içində dəm tutmuş adam kimi qaçışırdı. Lemminqlər hücumu dəf edir, onların dişinə keçməzdən əvvəl müdafiə olunmağa cəhd göstərirdilər. O birilər isə öz yolunu davam etdirir, civildəşirdilər. Pəyədə inəklər böyürür, tövlədən kişnərti səsi gəlirdi. Mal-qara da bu dəhşətli axını hiss eləmişdi. Katrin qapının yan taxtasına sıxılıb ağlayırdı, onun qapalı gözlərindən yaş süzülürdü. Axı, o, yazıq, bədbəxt bir qadındı, - tamam köməksizdi, qorxudan tir-tir əsirdi. Bu dəhşət nə qədər davam edəcək? Lemminqlər saatlarla gəlib keçə bilərdilər. Artıq zülmət düşürdü, indi gecə başlayacaqdı.

Katrin gözlərini açdı. Tövlədən göy gurultusuna bənzər dəhşətli bir səs gəlirdi. Deyəsən, lemminqlər tövləyə girmişdilər. İlahi, onlar tövləyə necə girə bilərdilər? Onlar güman ki, artıq oradadırlar! Madyan şıllaq atır, təpiyini harasa çırpırdı. Katrin donub bu gurultunu dinləyirdi. Ən dəhşətli bir şey baş vermişdi. At özünü o yan-bu yana çırpıb əzəcək, bəlkə də öldürəcəkdi. Onu tez açıb buraxmaq lazım idi.

Qoca Katrin lemminqlərin sıx dəstəsinin arasından keçməyə çalışırdı. Lemminqlər ciyildəyir, itlər hürür, inəklər böyürür və bütün bu hay-küy tövlədən gələn gurultunun içində hərdən eşidilməz olurdu. Və Katrin cəsarətlə bu gurultuya sarı gedirdi.

Tövlənin qapısı lap onun qabağında, bir neçə addımlığında idi. Qapının altından lemminqlər sürüşüb içəri keçirdilər. Onlar özlərinə yol açа bilmişdilər! Yəqin bütün tövləni doldurublar, madyanın ayağmın yanında fırlanırlar!

Katrin əsanı sağ əlindən sol əlinə keçirdi və iri açarı burdu. Hə, hazırdı. Bircə ağac siyirtməni sağa burmaq qalırdı. Bir də qapının sol tayı qalırdı, o biri tay içəridən bağlı idi. Qapının yalnız sol tayı açıldı, o biri tay içəridən bağlı idi. Madyanın ayaqlarının qəzəbli tappıltısı bütün səsləri batırmışdı. Elə bil Katrinin qulağının dibində göy guruldayırdı. Lemminqlər yeriməyə mane olur, onun ayağını dişləyirdilər. O, yavaş-yavaş, olduqca yavaş-yavaş siyirtməni sağa sürüşdürdü. Madyan yəqin ki, kiminsə gəldiyini duymuşdu, ona görə də yerini dəyişib o biri tərəfə keçsə də, ayaqlarını yerə döyməkdə idi. İlahi, indi o, giriş yolunu kəsmişdi. Katrin artıq siyirtməni çəkə bilməzdi. Bu, fəlakət idi! Bu, hər şeyin sonu idi!

Katrin çətinliklə nəfəs alıb tövlə qapısının ortasına yaxınlaşdı. Siyirtmə, demək olar ki, axırıncı oyuqdan da çıxmışdı, ancaq tamamilə yox, atın təzyiqi ilə onun son ucu tərpənirdi.

"Çox saxlaya bilməz", - fıkirləşdi Katrin. Siyirtmə şaqqıltı ilə əyilib aşağı düşdü. Katrin geri çəkildi. O, sağa keçməkdənsə, başını itirib tir-tir titrəyən qapının qabağında dayanmışdı.
Bir an da keçdi, ildırım sürəti ilə o, atın yaralı başını, dəli-divanə gözlərini gördü. Və hər şey burdaca bitdi. Ağır zərbə onun ayaqlarını yerdən üzdü,
Gecə düşmüşdü. Lemminqlərin axını hələ də gecə soyuğunun dolduğu boş evin içindən keçib gedirdi. Daha güclü bir axın həyətə dolurdu. Təngə gəlmiş, yorulmuş itlər susmuşdu. Yalnız qızğınlıqdan bir-birini dişləyən lemminqlərin qulaq batıran çığırtısı və inəklərin həyəcanlı böyürtüsü eşidilirdi. Tövlənin taybatay açılmış qapısı ağzında qoca Katrinin meyidi düşüb qalmışdı. Lemminqlərin axını meyidin yanında haçalanır və meyidi dövrələmə keçib gedirdi.

* * *

Bitib qurtarmayan gündüzlər arxada qalırdı. İndi hər gecədən sonra günəş bir neçə saatlıq səmada görünür, yenidən zülmət düşürdü. Yolumuzun əvvəlində olduğu kimi, biz gecənin qaranlığından istifadə edərək yol gedir, gündüzlər isə dincimizi alırdıq. Ancaq artıq biz hər cür ehtiyatı, sayıqlığı, hətta ağlımızı da itirmişdik.
Biz bəzən yalnız gecə, bəzən də gecəni gündüzə qataraq dincəlmədən, nəfəs dərmədən yuxulu, üzgün halda elə hey yol gedir, hətta günün günorta çağı - hər tərəfdən bizi təhlükə gözləyən bir vaxtda da yola çıxmaqdan çəkinmirdik. Hücumların sonu görünmürdü, tayamızın isə yəqin ki, yarısı qalmışdı. Şimal tülküləri vadi yamaclarına soxularaq bizi yorulmaq bilmədən təqib edirdi. Doyduqları vaxt bir az geriyə qalır, sonra yenidən hücuma keçirdilər. Bəzən şimal tülkülərinə canavarlar hücum edəndə biz bir neçə günlüyə dincəlirdik. Havadan bizə yalnız qədim düşmənlərimiz deyil, tanımadığımız naməlum quşlar da hücum edirdi. Onlar üzü bizə tərəf qərbdən uçub gəlirdilər. Düşmənin sayı-hesabı yox idi.
Ancaq biz baş alıb uzaqlara, uzaqlara gedirik. Dayanmadan, az qala qaça-qaça gedirik, elə gedə-gedə də yeyirik, bunun üçün dayanıb durmuruq. Gözümüz şüşə kimidir, baxışımız bir nöqtəyə zillənib, başdan-ayağa çirk içindəyik. Bizi daim irəliyə qovan qüvvə bizə ayaq saxlamağa imkan vermir. Hamımız xəstəyə oxşayırıq, xəz dərimiz palçığa bulaşıb. Yalnız suyun içinə girib çıxanda babat görkəm alırıq. Yola düşəndən bəri çoxlu çaylar keçmişik, neçə gölü arxada buraxmışıq. Sudan sahilə çıxıb itsayağı silkələnəndə bir az yüngülləşirik, əsəblərimiz dincəlir, gərginlik azalır. Ancaq bu xoş dəqiqələr çox sürmür. Gözəgörünməz qüvvə bizi irəli qovur. Yorğunluğa, təhlükəyə məhəl qoymadan, geriyə baxmadan dəli kimi irəli can atırıq. Bəlkə də, gərək dayanaydıq. Nəfəsimizi dərib bir çayın, ya gölün sahilində qalıb bir neçə günlüyə rahatlanıb dincələydik, onda bəlkə bu divanəlik, qızğınlıq da canımızdan çıxar, həyəcanımız yatardı. Ancaq yox, biz dayana bilməzdik, biz irəliyə getməliydik. Biz heç nəyə məhəl qoymadan, qorxub çəkinmədən qabağımıza çıxan çay atılır, onu üzüb keçir və yolumuza davam edirdik.
Biz kor kimi idik. Lakin indi o günləri xatırlayıb, olub keçənləri yaddaşımda canlandıranda mənə elə gəlir ki, ilk baxışda divanəlik kimi görünən bu yürüşün mahiyyətini uzaqdan-uzağa daha aydın şəkildə izah edirəm. Mən o vaxtlar dumanlı şəkildə də olsa hiss edirdim ki, heç nəyə baxmadan inamla irəli getmək lazımdır, çünki bütün bu münasibətlərin arxasında bizim hələlik dərk etmədiyimiz hansısa bir məqsəd gizlənir. Və biz bu məqsədə doğru can atırıq. Nəyin bahasına olursa-olsun bu məqsədə yetməli və

nəhayt ki, azadlığa qovuşmalıydıq. Yenidən özünə qayıtmalı, sakitləşməli, keçən günlərin itirilmiş xoşbəxtliyini tapmalıydıq. Biz təhlükədən qorxmadan, ölümə məhəl qoymadan dərkolunmaz bir cənnətə, həsrətində olduğumuz bir torpağa doğru irəliləyirdik. Bəli, biz azadlığa doğru gedirdik. Onu nə vaxt, hansı yolla tapacağımızı bilməsək də, əmin idik ki, yolumuzun sonunda mütləq azadlığa qovuşmalıyıq. Bizi, bütün lemminq tayfasını irəli qovan da elə bu inam hissi idi.
Bir neçə dəfə biz adamların yaşadığı yerlərdən keçib getməli olurduq. Əvvəlcə, onlarla görüşdən qorxurduq, lakin sonralar qərbə doğru irəliləmək ehtirası o qədər gücləndi ki, o biri düşmənlərimiz kimi, adamların da bizə dəxli olmadı. Həm də ki. biz onlara gec-gec rast gəlirdik.
Bir dəfə insanların yaşadığı şəhərin yanında yolumuzu daş divar kəsdi. Bu divar hər iki tərəfə sonsuz şəkildə uzandığından biz yeraltı keçid qazmalı olduq. Qazma işi uzun çəkdi. Hər dəfə yerin üzünə yol salmaq istəyəndə nəsə cırmaq səsi eşidir, it iyini duyurduq. İtlərin hürüşü adamların səsinə qarışırdı. Yeraltı divar mane olduğundan biz lap altdan keçməli olurduq, bəzən divardan qopan daşlar lağımın yolunu tuturdu. Orada zülmət içində dəhşətli bir mübarizə gedirdi, faciələr baş verirdi... sağ qalıb qurtulmuş lemminqlər yerin üzünə çıxanda, orada bizi itlər qarşıladı. Mən qulağımın dibindəcə dostlarımın sümüyünün itlərin dişi altında xırçıldadığını eşidirdim. Bu dəfə də tale üzümə güldü, ölümdən xilas oldum və yenidən yola çıxdım.
Yenə də sağ qalmışdım, görəsən, neçənci dəfə idi ki, ölümün caynağından qurtulurdum? Bir vaxt doğma şəhəri tərk etmiş minlər, milyonlarla lemminqdən bu nəhayətsiz əngin suların sahilinə görəsən kimlər gəlib çıxmışdı?
Çoxdan idi ki, çay boyunca gedirdik və bu çay bizi gətirib bu yerlərə - göz işlədikcə üzüaşağı axıb gedən əngin suların sahilinə çıxarmışdı. Biz çay suyuna bənzəməyən bir iy duymuşduq. Yolda törəyib artsaq da, indi biz az idik, çox az. Bütün tayfamız sahil boyu ada-ada yığılmışdı. Ancaq bizim sağımızda və solumuzda çayın ağzındakı qumluq lemminqlərlə dolu idi. Onlar dənizə sarı can atırdılar, elə bil lemminqlərin özü də bir çay idi, dənizə tələsirdi. Müxtəlif yeraltı lemminq şəhərlərinin yolu burada bitirdi. Onların sağ qalmış qalıqları indi bir yerə yığışırdı və hara baxırdınsa şimalda, cənubda - dörd bir tərəfdə dənizə can atan lemminq seli dalğalanırdı.
Nə adamlar var idi, nə şimal tülküləri. Yerin üstündəki bütün düşmənlərimiz nəhayət ki, bizi rahat buraxmışdı. Əvəzində dalğaların üzərində çoxlu dəniz yırtıcıları dolaşırdı. Sahildən bir az aralıda çənli-çiskinli adacıqlar qaralırdı. Və bu adalarla sahil arasındakı su zolağı qonur nöqtələrlə örtülmüşdü - bunlar üzən lemminqlər idi.
Sərt şimal küləyi iliyimizə işləyirdi. Uzun yollarda yorulub əldən düşsək də hamı həyəcan içində idi, suyun iyi isə bizi maqnit kimi özünə çəkirdi. Hansısa bir hiss, duyğu bizi elə hey inandırırdı ki, tez suya girmək lazımdır və bu su bizim həyəcanımızı yuyub aparacaq, bizi buxovlayan qandalı açacaq. Biz ömür boyu bu əngin sulara qovuşmağa can atmışdıq və indi səmada ara vermədən dolaşan qağayıların quduz çığırtısına, dəniz yırtıcılarına məhəl qoymadan böyük nəşə içində dənizin, köpüklü dalğaların qoynuna atıldıq...
Dənizdə üzmək çayda, göldə üzməkdən xeyli asan imiş. Dalğalar aram-aram məni yuxarıya qaldırır, sonra aşağı endirirdi. Mənimlə yanaşı ətrafda çoxlu başqa qollar, çiyinlər də yuxarı qaxlıb aşağı enirdi. Dəniz bizi yırğalayırdı, bizsə pəncələrimizlə avar kimi çəkə-çəkə ləzzət içində üzürdük. Yuxarıdan bizə iri cığırğan quşlar hücum edir, lap suyun üzündə qanadlarını çırpır və dimdiklərində qurbanları ağır-ağır yuxarı qalxırdılar. Bəzən isə yaşıla çalan suyun üzündə hansısa yırtıcının tünd rəngli kürəyi peyda olur, yekə bir

ağız açılıb, yumulur və lemminqlərin biri qəflətən yox olurdu. Ancaq bütün bunları heç vecimə də almırdım. Nəşə içində üzməkdə idim - azad, xoşbəxt və mənə elə gəlirdi ki, balıq kimi yüngülcə üzürəm. Ancaq yox, balıqla bizi müqayisə etmək olmaz. Tezliklə hiss elədim ki, artıq su məni bayaqkı kimi saxlamır. Əvvəllər qupquru havayla dolu xəz dərim indi bədənimə yapışıb məni aşağı çəkirdi. Çiyinlərim artıq suyun altındaydı, bircə başım üzdə idi. İrəlidə adaların qaraltıları güclə seçilirdi. Mən üzür, hey üzürdüm. Ətrafımda elə bil lemminqlər azalmışdı. Bəzilərinin cəsədi suyun üzündə cansız-cansız yırğalanır, köpüklü, soyuq dalğaların qoynunda yalnız qonur belləri görünürdü. Onlar suyun üzündə yırğalana-yırğalana qalmışdılar. Yuxarıdan quşlar, aşağıdan balıqlar onlara hücum edirdi. Mən soyuqdan titrəyirdim, yorulmuşdum. Dənizin ucu-bucağı görünmürdü. Bəzən köpüklü dalğalar başımdan aşırdı. Yaşıl suyun içində ölü lemminqləri, onların boğulub dənizin təkinə necə getdiklərini görürdüm. Hələ də mənim kimi üzməkdə davam edib, yaxın adalara can atan lemminqləri də görürdüm. Bayaq dənizin sahilində səbirsizlikdən alışıb yanırdım və bu sonsuz dənizə böyük sevinclə atılmışdım, indi isə torpaq məni yenidən özünə çəkirdi. Möhkəm torpağın üstündə olmaqdan, pəncərələrə güc verməyib dincəlməkdən, yuxuya dalmaqdan da böyük xoşbəxtlik vardımı?

Yorğunluq və yuxuyla mübarizə - açıq dənizdə narahat və miskin bir həyat naminə gedən mübarizə uzun çəkdi. Ətrafımda dəniz bomboş idi, yalnız arabir tək-tük lemminqlər gözə dəyirdi, qalanları suda boğulmuşdu.

Düz qarşımda günəş üfüqə sarı əyilmişdi. Dalğa məni bir az da yuxarı qaldıranda sarı səmanın fonunda qaralan adaları gördüm. Və get-gedə adalar daha geniş və uca görünsə də, mənə elə gəlirdi heç vaxt oraya çata bilməyəcəyəm. Məni bir ölüm yorğunluğu çulğalamışdı, artıq neçə dəfə idi ki, bir neçə saniyəliyə başımı aşağı salıb mürgüləyir və boğulhaboğulda ayılıb pəncələrimi sürətlə işə salırdım.

Düz qabağımda böyük, hündür adanı görəndə mən yarıyuxulu vəziyyətdə idim. Ətrafı bürümüş qaranlıqda o, bütün əzəmətiylə qarşımda ucalırdı.

Torpağın iyi arabir burnuma dəyir və məni son gücümü toplayıb üzməyə vadar edirdi. Torpaq lap yaxında idi və artıq mən ayağımın altında qumu hiss eləyirdim. Budur, mən öz bədənimin ağırlığını zorla güc gələrək sürünə-sürünə gedirəm. Ətrafı bürümüş alatoranda sahildə qaralan nöqtələr sezirəm və onları o saat iyindən tanıyıram: lemminqlərdir. Dənizi üzüb keçmiş onlarca lemminq orada sahildə uzanıb qalıb. Onların birinə yaxınlaşıb iyləyirəmsə: hələ sağdır. Lemminq yatıb. Mənim özümü də yuxu basır...

Lakin yata bilmirəm. Dəhşətli səs-küyə oyanıram. Quşlar çığırışır. Günəş doğmayıb, ancaq dənizin o tayı gül rəngindədir. Qulaqbatırıcı çığırtılar qayalardan, lap bizim başımızın üstündən gəlir. Bütün bədənim tir-tir əsir, yanımdakı lemminqin də necə titrədiyini duyuram. Tükümüz bədənimizə yapışıb, soyuqdan tir-tir əsirik. İndicə günəş üfüqdən boylanacaq, ancaq bizə hücum etməyə hazırlaşan yırtıcı quşların səsi kəsilmək bilmir. Sağ qalmış bir ovuc lemminqdə şüur qığılcımı közərirdimi? Və bu qığılcım çoxmu qalacaqdı? Soyuqdan ölmək, qanadlı vəhşilərin dimdiyində məhv olmaq, yoxsa yenidən yola davam etmək - bunlardan hansını seçəcəkdilər? Qədimlərdə, çox-çox qədimlərdə lemminqləri görmüş, yaxud onlar haqqında hekayətləri dinləmiş insanlar demişdilər: "Onlar qəsdən dənizə atılırlar ki, boğulsunlar. Bu, özünü öldürməyə gedən yoldur". Bir də bunu demişlər: "Lemminqlərin köçü dənizdə bitir, çünki bura onların qədim, çox-çox qədim məskəni olub, sonralar bu yerlər suyun təkində gizlənsə də, naməlum qüvvə lemminqləri öz qədim Vətəninə çəkib gətirir".

İndi bu cür yozmaları daha eşitməzsən.

* * *

Ümid edirəm ki, balaca aktyorumun köməyi ilə bizim günlərin bir həqiqətini açа bildim: lemminqlər daxili sekresiya vəzilərinin kəskin dəyişməsi ilə əlaqədar gərgin, həyəcanlı vəziyyətə uzun müddət dözə bilmir, baş alıb uzaqlara gedirlər. Uzaqlara çağırış, səyahət edən o biri canlılara nisbətən onlara daha güclü şəkildə təsir edir. Amansız qüvvə onları uzaq dənizə qovur, onlar təzələnmək, rahatlanmaq, dinclik tapmaq ümidilə əbəs bir ümidlə özlərini dənizin qucağına atırlar.
Mən lemminqlərin qərbə doğru yol tutduqlarını danışdım. Bu yolu tutan lemminqlərin heç biri hər cür maneə və təhlükəyə baxmayaraq, yollarından yayınmırlar. Başqa yerlərin lemminqləri özgə istiqamətə də gedirlər, ancaq hansı yolu seçirlərsə seçsinlər, həmin yol mütləq dənizə gəlib çıxmalı və orada da səyahət bitməlidir.
Yolun sonunda lemminqlərin hamısı ölür, ya bir qismi? Ola bilsin ki, hamısı ölür. Skandinaviya təbiətşünası Xeçsterm bir dəfə müşahidə edib ki, bəzi lemminqlər üzüb geri qayıdır. Ancaq bu fakt mübahisəlidir. Çox ehtimal bizim
hekayəçimiz kimi xilas olub adaya, qayalığa çıxan lemminqlər orada məhv olub gedirlər. Növün qorunub saxlanmasını səyahətə çıxmayan, yuvada qalan bir neçə lemminq ailəsi təmin edir. Həmin o çağırışın onlara dəxli yoxdurmu? Bu, növün yaşamaq instinkti ilə bağlıdır, güman ki, başqa səbəblər də var. Necə olur ki, bəzi lemminqləri narahtlıq bürümür? Bunun səbəbini bilmək lazımdır, biz isə bilmirik.
Alimlər çılğınlıq enerjisinin səbəbləri, ayrı-ayrı illərdə lemminqlərlə birgə onların düşmənlərinin və digər heyvanların sürətlə çoxalması ilə əlaqədar suallara cavab axtarırlar. Doktor P.Loran bu problemi "vulkanların püskürməsi", yerin orta temperaturunun dəyişkənliyi, günəş ləkələri kimi böyük dövri hadisələrlə və hətta kosmik səbəblərlə bağlı şəkildə izah etməyə çalışır.
Əgər bu belədirsə onda bəs nə üçün o qüvvələr planetmizin bir yerinin təbii düzülüşünü pozur, digər yerlərə isə təsir etmir? Nə üçün o qüvvələr başqa heyvanlara və insanın özünə təsir etmir? Mən sosioloq olsaydım, "lemminq ili"ndə baş verən hadisələri daha dərindən öyrənər və bəlkə də sübut etmiş olardım ki, bu illərdə hökmdarlar və dövlət xadimləri öz saraylarında daha çox özbaşınalığa yol verir, işbazlar öz idarələrində daha çox alverə qurşanır, yazıçılarsa daha çox və çılğınlıqla yazıb pozurlar. Bəlkə də, heç nəyi sübut edə bilməzdim. Lakin bu sayaq axtarışları mən mənasız və boş bir iş hesab etmirəm.
Biz artıq gördük ki, səma cisimlərinin cazibəsi nəticəsində okeanın qabarma və çəkilməsi təkcə dənizdə yaşayan canılalara deyil, insanın özünə də təsir göstərir. İnsanlar düşündüklərindən də artıq dərəcədə kosmosdan asılıdırlar. Bizdə belə təsəvvür yaranıb ki, planetimizdəki heyvanların sonsuz köçündə insan yalnız kənar bir müşahidəçi kimi iştirak edir. Lakin bu, aldadıcı təsəvvürdür. Hansı bir yollasa biz özümüz də dəyişirik, hətta bir yerdə durub qalsaq belə yenə də durmadan dəyişirik.

SÜLEYMANIN NƏĞMƏLƏR NƏĞMƏSİ

1 PROLOQ

Qoy məni dodaqlarından qopan busələrlə əzizləsin!
Çünki sənin nəvazişin şərabdan da ötədir.
Ətrinin rayihəsindən
Sənin adın ətrafı bürüyən dil qoxusu kimidir.
Qızların səni sevməyi elə ondandır.
Məni cəzb elə, sənin ardınca qaçarıq;
Çar məni kaşanəsinə apardı -
Sənə heyran olacaq və sənə sevinəcəyik.
Sənin nəvazişlərinə şərabdan da çox tərif deyəcəyik.
Səni sənin olduğun qədər sevəcək.

BİRİNCİ POEMA
A. NİŞANLI QIZIN SINAQLARI, İSTƏKLƏRİ

1. BİRİNCİ DİALOQ: NİŞANLI QIZ:

Yerussəlim qızları!
Qarayanız olsam da, gözələm,
Kidar çadırları tək
Süleyman örtüyü tək

Qarayanız olduğuma baxmayın,
Axı məni gün yandırıb:
Anamın oğulları mənə hiddətləniblər,
Üzümlüklərin keşiyini çəkməyi tapşırıblar, -
Mən öz üzüm bağımı qoruya bilmədim.

Söylə mənə, ey qəlbimin bir danəsi
Sürü başında sən haraya gedirsən?
Gün-günorta olanda sən harada dincəlirsən?
Axı, niyə mən sərkərdan olmalıyam?
Yoldaşlarının sürüləri dörd bir yanında,
Söylə hara gedirsən?

Qadınların ən gözəli,
Əgər bunu bilmirsənsə,
Onda qoyunların iziylə get,
Və öz çəpişlərini

çoban çadırlarının yanında otar.

B. QARŞILIQLI BAXIŞMA

1. ADAXLI:
Səni Qaronun cəng arabasındakı madyanıma bənzətdim, sevgilim mənim. Uzun tanalarının altındakı yanaqların, gözəldən də gözəldir. Boynunu bəzəyən boyunbağıdır Sənin üçün qızıl tanalar düzəldəcəyik, Gümüşlərlə bəzək-düzək vuracağıq.

2. NİŞANLI QIZ
Nə qədər ki çar öz yerinə oturmuşdu,
Nərd ətrim ətrafa bürüyürdü
Mirra dəstəsi məndədir, sevgilim mənim:
Döşlərimin düz arasında.
Əngədi üzümlüklərimdəki kına çiçəyinin salxımı kimi
Mənim sevgilim

3. ADAXLI
Ah sən gözəlsən, sevgilim mənim,
Gözəlsən, gözəl!
Gözlərin göyərçin gözləri.

4. NİŞANLI QIZ
Ah, gözəl olan sənsən, sevgilim mənim,
Lütf edən də sən.
Yatağımız - yaşıl otlar; gözəl sevgilim.

5. ADAXLI
Evlərimizin daşı - sidr ağacları,
Tavanlarımız - sərv ağacları.

6. NİŞANLI QIZ
Mən Soron nərgizi,
Vadilərin zanbağıyam!

7. ADAXLI
Qızlar arasında, sevgilim gözəllikdəki
Zanbağa bənzər

B. QARŞILIQLI TƏMAS VƏ SAHİB OLMA

1. NİŞANLI QIZ:
Sevgilim yeniyetmələrin içində
Cır ağaclar arasında alma ağacına bənzər

Nə xoşdur onun kölgəsində oturmaq
Meyvənin dadını ağzında hiss etmək

Məni ziyafət evinə apardı
Başımın üstündə onun bayrağı - eşq

Mənə şərab verin toxtayım,
Alma verin canlanım

An məhəbbət məni taqətdən salıb
Sol əli başımın altında,
Sağ əlilə ağuşuna alıb

2. ADAXLI

Ceyranlara, ahulara and verirəm, ey Yerusəlim qızları: sevgilim özü istəməyincə onu oyatmayın, onu narahat etməyin.

İKİNCİ POEMA

A. QARŞILIQLI BAXIŞMA

1. NİŞANLI QIZIN BİRİNCİ MONOLOQU

Sevgilimin səsi!
Odur, o gəlir.
Dağlardan sara-sara
Təpələrin üzərindən tullanır
Dostum dağ keçisinə, cavan marala bənzər
Odur bax, dayanıb divarın ardında
Pəncərədən boylanır, şəbəkə dalından görünür.

Sevgilim söylədi:
Qalx, sevgilim, bayıra çıx, gözəlim!

Budur artıq qış qurtardı
Yağış keçdi, yağmur bitdi.

Torpaqdan çiçək boylandı,
Nəğmə çağı yetişdi,
Yurdumuzda qumru səsi duyuldu.

Əncir ağacları pöhrələnib və çiçək açan üzüm tənəkləri
Dörd bir yana xoş ətir saçır

Qalx, sevgilim, bayıra çıx, gözəlim!

Mənim göyərçinim qayalar arasında, sıldırım qaya kölgəsində!
Üzünü mənə göstər, qoy səsini eşidim,
Çünki səsin məlahətli, üzün cazibədardır.

Üzümlüklərimizi eşələyib dağıdan tülkülərdir
Tülkü balalarını bizim üçün tutun;
Üzümlüklərimiz çiçək açsın

Sevgilim mənimdir, mən də onunam
O, zanbaqlar arasında sürü otarır.

Elə ki günün sərin nəfəsi var
Kölgələr qaçıb gedir,
Qayıt, dağ yarğanlarındakı axura,
Cavan marala bənzə.

2. SINAQ
Gecə yatağımda qəlbimin sevdiyini axtarırdım,
Axtardım onu və tapa bilmədim.

Qalxıb şəhəri dolaşacağam,
Küçələri, meydanları (gəzəcəyəm)
Və qəlbim sevəni arayacağam.
Axtardım, axtardım, onu tapa bilmədim

Şəhəri dolaşan keşikçilər mənə rast oldular, sordum:
"Varlığımı sevəni görmədiniz ki?"

B. QARŞILIQLI SAHİB OLMA

1. NİŞANLI QIZ
Lakin onlardan aralanan kimi
Ürəyimin sevdiyini tapdım;
Ondan möhkəm yapışdım və buraxmadım,
Onu anamın evinə gətirməyincə
Və valideynimin içəri otağına ötürməyincə
Rahat olmadım.

2. ADAXLI
Sizə and verirəm, Yerusəlim qızları,
Ceyranlara, ahulara;
Sevgilim özü istəyərsə
Onu oyatmayın və narahat etməyin.

3. XOR

A. TÜSTÜ SÜTUNU
Səhradan tüstü sütunu kimi qalxan
Mirra və buxur, hər cür rayihə ilə üfürülən
O qadın kimdir?

B. SÜLEYMANIN TAXTİRƏVANI
Budur onun - Süleymanın taxtirəvanı
İsrail igidlərindən
Altmış qoluzorlu onun yanında

Hər birinin əlində bir qılınc,
Döyüşdə təcrübəli;
Gecənin vahiməsi içində
Qılınc bellərində.

V. SÜLEYMANIN BAŞ ÜZƏRİNDƏ GƏZDİRİLƏN TAXTİRƏVANI

Seleyman padşah Livan anağından özünə baş üzərində gəzdirilən taxtirəvan düzəltdirdi;
Dirəklərini gümüşdən, qoltuqlarını qızıldan, oturacağını al qumaşdan elətdirdi;
İçərisi Yerusəlim qızları şərəfindən məhəbbətlə bəzədildi

Sion qızları, gedin və nikah günü, qəlbü üçün şad bir gündən
Başını anasının qoyduğu tacda olan
Süleyman padşaha baxın.

ÜÇÜNCÜ POEMA

A. ADAXLININ NİŞANLISINI SEYR ETMƏSİ

1. ADAXLININ BİRİNCİ MONOLOQU
Ah, sən gözəlsən, sevgilim mənim,
Sən gözəlsən!
Göyərçin gözlərin tellərin altında,
Saçların Halad dağlarından enən
Keçi sürüləri bənzər;

Dişlərin-sanki sıralanmış təmiz qoyun sürüsü,
Hər qoyunun bir cüt quzusu var
Və aralarında dölsüzü yox;

Dodaqların al rəngli şərid kimi,
Ağzın necə də lütf içində
Zülfün altında yanaqların

İkiyə bölünmüş qırmızı alma;

Boynun - silah üçün ucaldılan
Davud qülləsinə bənzər;
Minlərlə qalxan asılıb ondan –
Hamısı da qüdrət sahiblərininkidir

Qoşa meşələrin - zanbaqlar arasında otlayan,
Cavan ahu əkizləri.

2. XOR
Elə ki, günün sərin nəfəsi var
Və kölgələr əriyib gedəcək
Mirra dağına və buxur təpəsinə gedəcəyəm

3.ADAXLI
Sən başdan-ayağa gözəlsən,
Sevgilim mənim,
Bircə ləkə də yox üzərində!

Mənimlə Livandan, nişanlım, Livandan gəl!
Amana zirvəsindən, Semir və Yerman təpələrindən,
Aslan yuvalarından, bəbir dağlarından enməyə tələs!

Qəlbimi əsir etdin, bacını, nişanlım
Qəlbimə bircə baxışınla hakim kəsildin,
Boynundakı bircə boyunbağıyla

Ah, nəvazişlərin necə də sevimlidir, bacım, nişanlım!
Ah, nəvazişlərin qat-qat şərabdan üstün,
Və sənin ətrin bütün ətirlərdən gözəl!

Ləblərindən bal damır, nişanlım,
Dilinin altında - bal və süd,
Geyimlərinin ətri Livanın ətrinə bənzər!

Bacım mənim, nişanlım bağlı baxça, qapalı quyu,
Ağzı möhürlü bulaqdır

Sənin şitilliklərin - al qırmızı almalı bağ,
Əla bəhərlərilə,
Kina və nard ilə;
Nard və zəfəran,
Air (bataqlıq zanbağı) və darçın hər cür ətirli ağaclarla,
Mirra və alay hər cür ən gözəl ətirlərlə;

Bağçaların bulağı(san) - dirilik suyu quyusu
Və Livandan gələn sellər (sən).

Ey külək, quzeydən qalx
Və geriyə axıb gəl,

Mənim bağıma əs -
Onun raycivələri (ətri) ətrafa axacaq!

B. QARŞILIQLI SAHİBOLMA

1. NİŞANLI QIZ

Qoy sevgilim öz bağına gəlsin
Və onun şirin bəhərlərindən (meyvələrindən) dadsın.

2. ADAXLI

Mən öz bağıma girdim, bağım, nişanlım,
Öz mirramdan və ətirlərimdən topladım,
Öz başımdan yedim və
Öz şərabımla südümdən içdim,

Yeyin, dostlar; yeyin
Və için, sevgililər!

DÖRDÜNCÜ POEMA

A. SEVGİLİNİN GƏLMƏSİ

1. NİŞANLI QIZIN İKİNCİ MONOLOQU

Mən yatmışam, ürəyimsə oyaqdır;
Budur, qapımı döyən sevgilimin səsi:
"Aç qapını, bacım, sevgilim, göyərçinim, bakirəm!
Başım şehdən islanıb, saçlarımı gecənin nəmi isladıb".

Xitonumu çıxarmışam;
Onu yenidən necə geyinim?
Ayaqlarımı yumuşam;
Onları bir də çirkləndirim?

Sevgilim qapı arasından əlini uzatdı
Və vücudum riqqətə gəldi

2. SINAQ

Durdum ki, sevgilimlə qapı açım
Və əllərimdən mirra daşırdı,

Barmaqlarımdan da mirra daşırdı
Qapının dəstəyinin üstünə.

Sevgilimçün qapını açdım,
Sevgilimsə qayıdıb getdi.
O danışanda ruhum canımdan çıxmışdı;
Sevgilimi axtardım, tapmadım;
Çağırdım, fəqət cavab vermədi.

Şəhəri dolaşan keşikçilər
Mənə rast gəldilər;
Məni döydülər, yaraladılar;
Divarları qoruyan örtüyü
Əynimdən soyundular

Sizi and verirəm, Yerusəlim qızları
Sevgilimə rast gəlsəniz
Ona nə deyəcəksiniz?
Deyərsiniz onun eşqindən divanəyəm mən

3. XOR
"Sənin sevgilinin başqa sevgililərdən nəyi üstündür
ey qadınların ən gözəli?"
Sənin sevgilinin başçılarından nəyi gözəldir ki,
Bizə belə and verirsən?"

B. NİŞANLI QIZIN ADAXLINI SEYR ETMƏSİ

Sevgilim ağappaq yanaqlara qar üstünə qan dammış kimi,
On min başqa gözəldən gözəldir

Baş bəzəyi təmiz qızıl; dalğalı saçları
Qarğa kimi qara;

Gözləri - axar su yanında oturub,
Süddə çimmiş, tox göyərçin;
Yanaqları - ətirli güllük,
Ətirsaçan sıra çiçəklər
Dodaqları - zanbaq,
Mirra yağı axır onlardan,

Əlləri - zümrüdlə bəzədilmiş
Lülə-lülə qızıllar
Qarnı - sanki üstü sapfirlərlə örtülmüş
Fil sümüyü;

Baldırları - qızıl altlıq üzərində
Mərmər sütunlar;
Görünüşü Livana bənzər,
Sərv ağacları kimi əzəmətlidir

Ləbləri - şəkər, özü
Başdan-başa iltifat, nəvaziş
Budur mənim sevgilim, budur mənim dostum,
Ey Yerusəlim qızları!

2. XOR
"Sevgilim hara getdi, ey qadınların ən gözəli?
Hara üz tutdu sevgilin sənin?
Biz onu sənինlə birlikdə axtarırıq".

3. SAHİB OLMA
Sevgilim bağlarda sürünü otarmaq
Və zanbaqlar yığmaq üçün
Öz bağına, ətirli güllüklərə getdi.
Mən sevgiliminəm, sevgilimsə mənim
O zanbaqlar arasında öz sürüsünü otarır.

BEŞİNCİ POEMA

A. NİŞANLI QIZIN ADAXLISI TƏRƏFİNDƏN SEYR EDİLMƏSİ

1. ADAXLININ İKİNCİ MONOLOQU
Sevgilim mənim, sən Firsa kimi gözəl,
Yerusəlim kimi lütfkar,
Bayraqları olan olaylar kimi zəhmlisən.
Gözlərini məndən çevir,
Çünki o baxışın məni riqqətə gətirir.

Sənin saçların Haladdan enən
Keçi sürüsünə bənzər;
Dişlərin sanki sıralanmış təmiz qoyun sürüsü,
Hər qoyunun bir cüt quzusu var
Və aralarında dölsüzü yox;

Zülfün altında yanaqların –
İkiyə bölünmüş qırmızı alma

Altmış çariça və səksən kəniz var,
Saysız-hesabsız da bakirə qız

Lakin o - mənim göyərçinim, bakirəm birgə dənədir;
Anasının bircəsidir ki, fərqləndirilib.
Bakirə qızlar onu gördülər - tərifini göylərə qaldırdılar,
Çariçalar və kənizlər gördülər - mədh etdilər

2. XOR
Şəfəq kimi parlayın, Ay kimi gözəl,
Günəş kimi işıqlı,
Bayraqlı alaylar kimi zəhmli olan
O qız kimdir, görəsən?

B. SAHİBOLMA VƏ ADAXLININ SƏSİ

Ərik bağına düşdüm ki,
Vadinin yaşıllıqlarına baxım,
Görüm üzüm tənəyi çiçək açıbmı?
Al qırmızı almalar çiçəklənibmi?

Qəlbimin məni xalqımın adlı-sanlılarının arabalarına
Doğru necə çəkib apardığını duymadım.

ALTINCI POEMA

A. ADAXLININ NİŞANLISINI SEYR ETMƏSİ (ikinci dialoq)

1. XOR
"Geri bax, geri bax, Sulamita;
Geri dön, geri dön və biz sənə baxarıq".

2. ADAXLI
Niyə sulamitaya Manaim rəqsini
Seyr edirmiş kimi baxasınız?

3. XOR
Sandaliya geymiş ayaqların necə də gözəldir,
Ey adı uca, şanı uca gözəl qadın!

Budlarının boyunbağı hamarlığı
Mahir ustadın əsəri;

Göbəyin - dəyirmi fıncan
İçindəki ətirli şərab bitib-tükənməz

Qarnın - ətrafına zanbaqlar düzülmüş
Buğda təpəciyi

İki məmən - bir cüt keçi balası,
Bir cüt könkər əkizi

Boynun - fil sümüyündən yonulmuş sütuna bənzər
Gözlərin - Batrabbima darvazası yanımdakı
Yesevan suları,
Burnun - Dəməşqə yönəlmiş
Livan qülləsi.

Çiyinlərinin üstündə başın Karmil tək,
Və başındakı saçlar al qırmızı;
Hökmdar sənin zülflərinə məftundur.

4. ADAXLI
Sevgilim, gözəl görünüşünlə,
Necə cazibədar, necə gözəlsən!
Qamətin palma ağacına bənzər,
Döşlərin üzüm salxımlarına.

Düşündüm, palmaya dırmaşardım,
Onun budaqlarıdan yapışardım,
Və döşlərin üzüm salxımları olardı
Nəfəsin alma ətri tək
Ləblərin - əla şərab kimi
O (şərab) düz dostuma doğru axır
Yorulanların (taqətdən düşənlər) dodaqlarına ləzzət bəxş edir

B. NİŞANLI QIZIN SƏSİ VƏ QARŞILIQLI SAHİBOLMA

Mən dostuma məxsusam
Və onun istəyi (ehtirası, şəhvəti) mənə yönəlib.

Gəl, sevgilim, Çöllərə çıxaq, Kəndləri dolaşaq,
Səhər çağı üzümlüklərə gedək,
Görək üzüm tənəyi gül açıbmı,
Pöhrələr açılıbmı, al qırmızı almalar çiçəkləyibmi,
Nəvazişlərimi sənə orada bəxş edəcəyəm.

Mandraqoralar artıq ətir saçır,
Və qapımızın ağzında yeni və köhnə əla meyvələr (bəhrələr)
Sevgilim, sənin üçün bunu qorudum (hifz etdim, qoruyub saxladım).

YEDDİNCİ POEMA

A. ÜÇÜNCÜ DİALOQ. NİŞANLI QIZIN SƏSİ:

Ah, əgər sən anamın döşünü əmən
Qardaşım olsaydın!
Onda küçədə rastlaşdığımız zaman səni öpərdim
Və heç kəs mənə tənə etməzdi

Səni özümlə aparar və gətirib
Anamın evinə çıxarardım.
Sən məni öyrədərdin,
Mənsə sənə ətirli şərab
Al qırmızı almaların şirəsini verərdim.

B. QARŞILIQLI SAHİBOLMA

1. NİŞANLI QIZ:
Sol əli başımın altında,
Sağ əli məni qucaqlayıb.

2. ADAXLI
Sizi and verirəm, Yerusəlim qızları,
Sevgilim özü istəməyincə onu oyatmayın
Və narahat etməyin

XOR
Sevgilisinə sığınıb
Səhradan gələn kimdir?
.
4. ADAXLI
Alma ağacı altında oyatdım səni
Səni anan burada doğub,
Valideynin səni burada dünyaya gətirib.

6. NİŞANLI QIZ
Məni möhür kimi ürəyinə bas,
Üzük kimi barmağına tax:
Çünki məhəbbətim ölümtək möhkəmdir;
Qısqanclığım cəhənnəm kimi dəhşətli
Onun oxları od saçar;
O - çox qüvvətli atəşdir.

Dərin sular da məhəbbəti söndürə bilməz
Çaylar da onu qərq edə bilməz
Əgər kimsə evinin bütün var-dövlətini
Məhəbbət əvəzinə versəydi,
Nifrət içində rədd edilərdi.

EPİLOQ

A. KİÇİK BACI

Bir bacımız var ki, hələ kiçikdir
Və məmələri yoxdur;
Bəs bu bacımıza elçi düşsələr
Biz nə edək?

Əgər o divar olsaydı,
Üstündə gümüş otaqlar tikərdik,
Əgər o qapı olsaydı,
Üstünü sərv ağacından tavanlarla örtərdik.

Mən - divaram,
Və məmələrim qüllələr kimi
Odur ki, onun nəzərində
Yetişmiş qız kimiyəm

B. SÜLEYMANIN ÜZÜM BAĞI

Süleymanın Vaal-Hamonda üzümlüyü vardı;
O həmin üzümlüyü qoruqçulara verdi;
Hər biri onun bəhrəsi üçün min gümüş gətirməli idi

Mənim üzümlüyümsə mənimlədir
Qoy min sənin olsun, Süleyman,
İki yüz isə - meyvələri qoruyanların

B. BAĞLAR

Bağlarda yaşayan qız!
Yoldaşların sənin nəğməni dinləyir,
İzn ver, o səsi mən də dinləyim.

Yüyür sevgilim yüyür,
Ətirli dağlardakı dağ keçisinə,
Ya da cavan marala bənzə!

Son söz əvəzi və əlavələr

“BIZ BIR QATAR YOLÇUSUYUQ…”

Bu qatarın yolu bir vaxtlar Arazqırağı çəkilmiş kələ-kötür tikanlı məftillər boyunca uzaqlara gedərdi – üzü Cəbrayıla, Qubadlıya, Ordubada sarı… Indi geriyə boylanıb o xatirələri səhifələyəndə həmin yollar uzunu məftillərin ürəyimizi cızıb cırmaqladığı tikan yerləri təzədən qanamış, göynəmiş kimi olur. Bir zamanlar hələ çox gənc yaşlarımda məni uzaq Qubadlıdan şəhərə gətirən “arzu” qatarı parçalanmış Vətənin həsrət körpüsü Xudafərinin böyründən “ağlaya-ağlaya” ötüb keçəndə, “reyslərin üstündə uğuldayan dəmir təkərlər arzularımın üstündən keçdi” kimi bir hiss yaşamışdım. Sonralar bu acı, ağrılı yaşantını rəssam qardaşıma danışanda onun çox təsirləndiyini duymuşdum. Və bir gün Bakıdan kəndə tətilə dönəndə evdə bir tablo -Xudafərini saran tikanlı məftllər arasından boylanan rəsmimi görmüşdüm… Indi o yollar bağlıdı, o qatarların marşrutu da çoxdan istiqamətini dəyişib. Qardaşımın həmin “Həsrət” tablosu da kim bilir nə olub… Indi orda torpaq əsirdi, yağılar hər şeyi yandırıb külünü göyə sovurublar mənim uşaqlığımın param-parça olmuş xatirələri kimi…O illərdən işıq adına, Bütöv Azərbaycan adına qalan yeganə nişanə Xudafərindi - əsrlərin fırtınasına, qovğasına, sınağına dözüb duran ümid körpüsü Xudafərin.

Qəribə səslənə bilər, amma Kamil müəllimlə hər rastlaşdığımda xatirimə ilk dəfə canlı olaraq gördüyüm Xudafərin gəlir. Bəlkə ona görə ki, doğulduğu Cəbrayıl rayonu düppə-düz Araz çayının qırağında yerləşir və Arazın suyu üstünə sıçrayıb. Bəlkə də ona görə ki, o, Xudafərin boyda, Xudafərin biçimdə bir ümid yeridı, elə Xudafərinin özü kimi bir ümiddi. Elə ümid ki, ondakı işığın adamı son nəfəsdən həyata qaytardığını düşünə bilərsən. Yaşlarındakı böyük fərq belə bu bənzərliyin, bu yaxınlığın, bu doğmalığın üzərini kölgələyə bilmir. Elə müqayisədə ancaq əsrlərin tarixini yaşamış möhtəşəm Xudafərinlə əsrlərin türk tarixini yazmış Kamil Vəli Nərimanoğlunun çəkisi bir tərəziyə gələ bilər. Bu nəhəng söz adamı üçün özgə uğurlu bənzətməni haradan tapacaqdım ki...

“Allah-təala gördü ki, Cəbrayıldan balacaboylu bir uşaq oxumaq - yeni həyat üçün Bakıya gəlir. Allahın ona rəhmi gəldi. Əlini torbasına atıb bir ovuc nur çıxardı, Kamilin üzünə atıb dedi - get yaşa, ay bala!” (Vidadi Məmmədovun zarafatlarından)

Mənim düşüncəmə görə Vətən üçün iki müqəddəs canlı simvol var - əsgər və ziyalı. Bütün zamanlardan gələn savaş və repressiyalarda güllələr birinci onlara tuşlanır. Kamil Vəli Nərimanoğlu kimi ziyalı müəllimin universitet ocağından uzaqlaşdırılması, qapıların üzünə bağlanılması Vətənə sıxılmış güllədi. Bizlərdə isə bu güllələnmə hökmləri nə bitməz, nə tükənməz! Gerçək aydınları ali təhsil ocaqlarından uzaqlaşdırmağın nəticəsidir ki, təhsilimizin bərbad görkəminə adamın ağlamağı gəlir. Bir milləti zəlil etmək üçün onu bisavad gəncliyin ümidinə buraxmaq yetərli sayılar məncə. Yaxın günlərdə Kamil müəllim üçün dostlarının hazırladığı xüsusi buraxılışda qələm dostumuz Azər Qaraçənlinin bir yazısı diqqətimi çox çəkdi. “Professorun qəpik-quruş alması - repressiyadı. Məddahlıq eləməyən ziyalının televiziyaya buraxılmaması - repressiyadı . Ziyalıya məddahlığa görə orden verilməsi - repressiyadı. Minlərlə düşünən beynin xaricə axması - repressiyadı. Azərbaycanda heç kim bu qədər repressiyaya uğramır. Bu ölkədə (bizim Vətənimizdə!) siyasi rəqib kimi də, vətənpərvər siyasi döyüşçü kimi də, fəhlə kimi, sürücü kimi də azdan-çoxdan yaşamaq olur. Ən çətini ziyalı kimi yaşamaqdı. Çünki bu ölkədə (bizim Vətənimizdə!) heç kim ziyalı qədər repressiya olunmur”. Azər bu yazını Kamil müəllim Bakını

tərk edib Kuzey Kıbrısa iş dalınca getdiyi vaxt yazıb. Amma tanıyanlar bilir ki, professorun ürəyi orada çox davam gətirmədi, iki il keçməmiş qayıtdı Bakıya...

Düşüncə idrakın açarıdır…

"Kamil Vəli deyir ki, kiçik məhəbbət böyük nifrətdən güclüdür. Kaş bunu mən demiş olaydım" (Azər Abdulla).

Kamil Vəli "Mənim Füzulim"- "Düşüncələr" adlı əsərində ədəbi-bədii janrın yeni və tamam fərqli bir formasını tapıb.

Bu janr Qərb esse yaradıcılığının görkəmli nümayəndəsi Unamuno Sent Dız, rus nümayəndələri Boris Şıklovski, Irakli Andronnikov, turk bədii və elmi fəlsəfi düşüncəsinin parlaq örnəkləri Nəvainin "Mühakimətül-lügəteyn", Fuzulinin "Dibaçə"si, Mirzə Fətəli Axundovun risalələri, Əli bəy Hüseynzadənin "Qərbin iki dastanı"na "Türk" əsəri və məqalələri, Əhməd Ağaoğlunun yazıları, Üzeyir Hacıbəyovun ədəbi qeydləri və məktubları, Bəkir Çobanzadənin ayrı-ayrı yazılarına yaxındır. Bu sıraya Aydın Məmmədovun, Anarın, Elçinin, Ramiz Rövşənin yazılarını da əlavə etmək olar. Əslində isə Kamil Vəli Qərb essesi ilə Şərq fəlsəfi risalə düşüncəsini birləşdirib bu janrı "düşüncə" adlandıran ilk yazarlardandır. "Düşüncə" - yəni subyektiv baxış, fərdi yorum və dünyagörüşü nə sırf elmi, nə də sırf bədii olan baxış bucağıdır.

Bəlkə də bu janrın ali nümunəsi dünyaya göndərilən ilk müqəddəs kitablar -"Tövrat", "Incil", "Zəbur" və "Quran"dır. Çünki bu ilahi kitablarda da bədii fikrin, fəlsəfi fikrin, elmi bədii düşüncənin sərhədi yoxdur. Onlar bir-biri ilə çulğalaşıb.

Hər kəs buyurub Süleymanın "Nəğmələr nəğməsi"ni, "Quran"dan "Yasin"i bu baxımdan oxusa deyilənlərə əmin ola bilər. Bu ilahi vəyhlər, əmr və xəbərlər hər cür elmi ədəbi formanın üstündədir. Nə onların poetik forması haqqında, nə vəzni haqqında, nə də kəlamların semantikası haqqında Dünya-Yer məntiqi ilə danışmaq şərtidir. Biz yalnız fikrimizi aydınlaşdırmaq üçün müqayisə naminə ona üz tutduq. Yenə Yerə qayıdaq. Yadımıza Qəzalinin və Mövlanənin əsərlərini salaq və yaxud Qərbdə renessans yazarlarını xatırlayaq - Leonardo da Vinçini, Şekspiri, Rableni. Sırf bədii yazılardan başqa bu əsərlərin toxumları, dünyaya yeni ifadə vasitələri, özünüdərkin yeni özünüifadə yollarını gətirmişdir. Bu mənada Qərb və Şərq qaynaqlarından gələn "Mənim Füzulim" və "Düşüncələr"in üzərində dayanaraq söz söyləməyə ehtiyac var...

Kamil Vəlinin "Düşüncələr"ində Füzuli ilahi eşqin, Vətən sevdasının, millət sevgisinin simvoludu. Yazıçı geridə buraxıb gəldiyi ömür yolundakı yaşantılarında, irəlidəki yaşanacaqlarında" özündə Füzulini gördüyü kimi Füzulidə də özünü axtarır". O bu görüntü və tapıntıları bir əsər adına deyil, ömür kitabının səhifələri kimi qələmə alıb gedir. "Əsər yazmaq yalnız müdrikliklə, elmin dərinliyi ilə bağlı deyil. Əsər həm də enerjidir, daxili gücün ifadəsidir" (Kamil Vəli). Oxucuya gerçək olan həqiqətlərin səsini açmaq üçün müəllif nə qədər əzab çəkib, nə qədər enerji sərf edib, bunu bir Allah bilir, bir də Füzulinin ruhu..

Türk insanı üçün bədii anlamda Füzuli "eşq" deyiminin sinonimidir. Kamil Vəlinin "Düşüncələr"ində bu məqam qırmızı xətt üstündədir. Füzulini başından Leyli-Məcnun sevdası keçmiş bir qəhrəman olaraq müəllifin düşüncələrinin obrazı saymaq olar. Müəllif bu

obrazın izincə Qarabğdan - Xudafərindən başladığı yolu, Təbrizə, Təbrizdən Bakıya, Bakıdan Istanbula, Istanbuldan Bağdada-Kərbəlaya kimi gedib çıxır. Füzuli yolu məşəq-qətli yoldu-böyük yoldu, bu yola çıxmağa, bu yolun ucalığını daşımağa hər kəsin hünəri, gücü çatmaz. Bu yolun başlaması var, qurtardığı yoxdu... Kamil Vəli bu yolun harasında olduğunu özü də bilmir. Amma bəlkə də o, bu yolda azad olduğu qədər heç zaman heç yerdə azad olmayıb. Bu azadlıq sözün sehrindən, bu sehrin onun düşüncələrinə işıq tutan nəfəsindən gəlir. Bu axtarışda çox itkiləri arayıb tapmaq , çox gizlincləri üzə çıxarmaq, gecə-gündüz yolunun min bir sualını cavablandırmaq istəyi də var.

Kamil Vəlinin "Düşüncələr"indəki Füzuli Türkün Ana dilidi. Bu böyük KIŞI hələ çox əsr-lər öncə müasirlərinə bir müxaliflik göstərərək bu günümüzə öz doğma dilində sevgi nəğ-mələri göndərib. Müəllifin milli köklərə, dilə, mədəniyyətə bunca bağlılığı, şərə, pisliyə müxalifliyi haradan qaynaqlanması aydınlanır.

Kamil Vəlinin söz anlamında Füzuli şeri müqəddəs Allah, Vətən deyiminə bərabər tutulur. Müəllif görünür ki, bu qənaətə

"Edəməm tərki, Füzuli səri-kuyin yarın,

Vətənimdir, vətənimdir, vətənimdir, vətənim"

– deyə səslənən şairin ürək çırpıntılarını dinləyərək gəlib.

Kamil Vəli düşüncələrində ruhu ilə Füzulinin bir parçasıdı - yarım əsrlik ömür yolunda uzun əsrləri görüb gəlmiş kimi. O, bu əsəri Türk dünyasının nəhəng ictimai-siyasi xadimi Əbülfəz Elçibəyə ithaf edib - güman ki, onu da Füzuli kimi böyük mücadilə, ruh adamı saydığı üçün. Əslində, onun üz tutub söz açdığı böyük obrazların əksərində o böyük ruhdan nəsə tapmaq istəyi duyulur...

Kamil Vəlinin "Düşüncələr"ini fəlsəfi şerlər də adlandırmaq olar. Yalnız ürəyi şair olan insanın düşüncələri bu qədər ürəyəyatımlı, həzin, oxunaqlı ola bilər.

O, bu səhifələrə 20 ildən bəri ürəyinə gələnləri boşaldıb. Inanıram ki, bunları o, özü yazmayıb, bunları ona yazdıran var.. Bunun necə baş verdiyini çox ehtimal ki, özü də bilməyib. Ona görə də "Məni Füzuliyə kökümün, əslimin bir çağırışı apardı - necə apardı, niyə apardı , bilmirəm " - deyir...

* * *

Elm və mücadilə adamı...

Kamil müəllimin gördüyü işlərdən danışmaq böyük bir tarix kitabını oxumaq qədər vaxt aparar. Illər keçsə də biz Kamil müəllimin yanında tələbə mərtəbəsindəyik, onun haqqında Əbülfəz Elçibəydən, Bəxtiyar Vahabzadədən, Oljas Süleymenovdan, Yavuz Bül-ənd Bakulərdən, Vaqif Bayatlıdan, Ramiz Rövşəndən, dünyanın tanınmış elm adamlarından artığını deyə bilməyəcəyik hər halda...O, türk dünyasının say-seçmə alimlərindəndir və bu xidmətlərinə görə Türkiyənin "Ləyaqət medalı"na layiq görülüb.

Insana ləyaqətinə, şərəfinə görə verilən mükafatdan böyük qiymət nə ola bilər ki!.. Bu yaxınlarda Türkiyəyə səfərim müddətində Kamil müəllimin yaxın dostu, tanınmış türkoloq alim Xəlil Açıqgözlə söhbətimiz oldu. Xəlil bəy "Kamil bəy kimi alimi elmdən aralamaq xalqın işığa açılan pəncərəsini qapamaqdır" - dedi. Xəlil bəyin doğru söylədiyini bilsəm də "bəs xalq kimin arxasınca getsin, bizim mübarizə ruhumuzu saxlayan belə ziyalılardır" – cavabını verdim.

Bir vacib məqamı da vurğulamaq istəyirəm ki, Kamil müəllim dərs dediyi gənclərə adi tələbələri kimi deyil, həm də bir övlad, dost nəzəriylə baxan, onlara əl uzadan, irəli çəkən nadir insanlardandı. Indi Azərbaycanın elə bir nöqtəsi tapmaq olmaz ki, orada Kamil müəllimin auditoriyasının nəfəsini duymamış adam olmasın.

Belə insanlardan biri - Məti Osmanoğludan xatirə: "1976-cı ildə, mən birinci kursda oxuyanda maraqlı bir təşəbbüs irəli sürülmüşdü. "Dədə Qorqud " irsini daha dərindən araşdırmaq, "Dədə Qorqud"un gənc araşdırıcılarını yetişdirmək məqsədilə ayrıca "Dədə Qorqud" ixtisas kursu yaradılmışdı. Kursa 12 tələbə cəlb olunmuşdu (yəqin ki, "Dədə Qorqud" boylarının sayına görə). Bizə ilk mühazirəni Kamil müəllim oxudu. Bu, tamamilə fərqli bir dərs idi. "Dədə Qorqud"u yalnız milli filologiya çərçivəsində deyil, beynəlxalq elmi axtarışlar səviyyəsində təqdim edən bu mühazirə o vaxtdan uzun illər keçsə də, öz sanbalı, ən əsası isə təravəti və təzəliyi ilə hələ də yadımdadır. Çox təəssüflər olsun ki, kurs o elə həmin mühazirə ilə qapandı. Səbəbi bizə, tələbələrə aydın olmadı. O vaxt universitetdə siyasi iqlim son dərəcə gərgin idi. Əbülfəz Elçibəyi baxışlarına görə həbs etmişdilər. Divar qəzetlərinə belə, senzura tətbiq olunurdu...

Cəmi bircə dərs ömür sürən kursumuz bağlansa da, Kamil Vəli Nərimanoğlu ilə müəllim-tələbə ünsiyyətimiz davam elədi. Azərbaycanda nadir olan adımın mənşəyi və mənası barədə ilk dəfə mənə Kamil müəllim düzgün məlumat verdi. Onun tövsiyəsi ilə böyük Hun imperatoru Mete xanın tarixi ilə maraqlandım, Lev Qumilyovun əsərlərini oxudum...

2003-cü il 16 oktyabr hadisələrindən sonra qələminə görə repressiya olunanlar arasında Kamil müəllim də vardı. Eyni instansiyadan, eyni motivlə - saxtakar hökuməti ittihama görə məhkəməyə çəkildiyimiz üçün ara-sıra zəngləşib bir-birimizdən xəbər tuturduq. Təbii, belə şəxsiyyətin dəstəyini duymaq div gücü yığmaq kimi bir şeydi. O zaman Kamil müəllimin Kuzey Kıbrısda təhsil alan kiçik oğlu Turalla məktublaşırdıq və ona yazmışdım: "fəxr edə bilərsən ki, şərin at oynatdığı bu dəhşətli günlərdə çəkinmədən ona qarşı gedən azsaylı ziyalılar arasında sənin atan da var". Allah hər zaman haqqın yanındadır və hər şey Kamil müəllimin söylədiyi kimi çıxdı. Biz bircə dəfə də olsun məhkəməyə gedib çıxmadan qələbə qazandıq, daha doğrusu iddiaçı tələbini geri götürdü.

Bizim həmişə onun həm tənqidi fikirlərinə, həm dəstəyinə böyük ehtiyacımız olub. Amma demə bu dağ boyda alimin də qeyd-şərtsiz hesablaşdığı tənqidçi varmış. Seçki təşviqatı çərçivəsində televiziya ilə ilk çıxışından sonra zəng vurub təşəkkür elədim, "Sağ olun, ürəyimizdən tikan çıxardınız" - dedim. "Nəsə, Fatma xanım bəyənməyib" - cavabını verdi. Özgəsinin adı çəkilsə təbii, etirazımı bildirəcəkdim, amma Kamil müəllimin özünün hesablaşdığı bir tənqidçinin adı qarşısında nə deyəcəkdim ki... Əslində isə, uzun və çətin bir ömür yolunda, ona sözün əsl mənasında sadiq dost vəfası göstərən tələbəsi - həyat yoldaşı Fatma xanımın tənqidləriylə hesablaşmağa dəyər!

Kamil müəllimin dünyanı gəzib-dolaşan cild-cild əsərlərindən başqa, iki gözəl canlı əsəri dəToğrulla Turaldı ki, Tural Kuzey Kıbrısda, Toğrul isə Türkiyədə təhsil alıb. Şöhrətli bir

professor uşaqları olmalarına baxmayaraq Kamil müəllimin çox zaman onları çətinliklərlə baş-başa buraxaraq mücadiləyə alışdırdığını bilirəm. Bəlkə çoxları inanmayacaq ki, 5 il evdən uzaqlarda yaşayan bu iki qardaş nə bir dəfə evdən pul istəyib, nə də başqa yardım... Elə indi də oxuma və çalışmalarına əvvəlki düzəndə davam etməkdədirlər.

Bizim Xudafərinin o tayındakı zülmdən baş götürüb qürbət ellərə üz tutmuş gənc bir ozanımız var - Araz Elsəs. Hisslərimlə onun Vətənin dərdlərini anladan "Biz bir qatar yolçusuyuq..." adlı mahnısındakı qatarın mənzil başına lap yaxınlaşdığını duymaqdayam! Kamil müəllimi də o qatarın içində günəşin doğduğu yerə - Azadlıq arxasınca gedənlərin arasında görürəm. Elə bilirəm, bir zamanlar Araz boyu şütüyərək bizi yurd yerinə aparan həmin qatardakı gözətçi kimi indicə kimsə səslənəcək – "Qalxın, Səhərdir! ".

Səadət Qabilqızı,

şair-jurnalist

ƏN QISA HƏYAT TARIXÇƏM – ÖZ KEÇMIŞIM

Mən 1946-cı il avqustun 18-də Cəbrayıl rayonunda doğulmuşam. O Cəbrayıl ki, Naxçıvanla, Güney Azərbaycanla Qarabağ arasında yerləşir, ləhcə kimi də keçid səciyyəlidir, xarakter kimi də. Yəni həm Qarabağdır, həm Naxçıvan, həm də Güney Azərbaycan.

Soyadım Vəlidir, sovet vaxtı Vəliyev gedirdi. Ulu babamın adı Vəliməmməd olub. Vəlini Sədətqulu kişi - babam götürüb, Məmmədi atamın əmisi oğlanları. Böyük nəsil olublar, Azərbaycanın Cənubundan – Xoy tərəflərdən Arazqırağına, oradan da Cəbrayıl qəsəbəsinə köçüb gəliblər. Anam Mirvarinin də əsli Cəbrayıla Cənubdan, bəlkə də Anadoludan, Orta Asiyadan gəlmədir. Onlar 5-6 evli Şahvələdli kəndinə çox uzaqlardan gəliblər. Bunu anama atası öləndən sonra bibisi Səlbi nənəmin həyat yoldaşı Aşurxan kişinin söhbətlərindən bilirəm. Onların Iraq dediyi söz uzaq, çox uzaq anlamındadır. Ailədə dörd bacı, iki qardaş idik. Şükür olsun, indii hamısı ailəlidirlər, oğul-uşaq sahibidirlər və dünyanın müxtəlif yerlərində yaşayırlar.

Anamın anası Xədicə xanımın anası (ulunənəm) Kazan tatarıdır. Qan analizi olmasın, mən tez-tez qanımdakı 1/8% o qədər aydın hiss edirəm ki, hərdən az qalıram tatarca qışqırım: «Men seni yaratam!» yəni «Mən səni sevirəm!».

Sözün cazibəsini, sənətin sehrini ilk dəfə atamdan, nənələrim, Çövhərdən, Səlbidən namazın möcüzəsini, el sözünün hikmətini duymuşam.

Əmim Hilaldan dözüm, səbr öyrənmişəm. Deyirlər uşaq ya atasına, ata tərəfə, yaxud da anasına, ana tərəfə çəkir. Mən anama oxşamışam. Hər gün canımda, qanımda, ruhumda onu hiss edirəm.

Bu yaxınlarda hər ikisini itirdim. 58 yaşında yetim qaldım və anladım ki, 58 yaşla 8 yaşın heç fərqi yox imiş. Onların borcunu verə bilmədim. Ailəcə xoşbəxt olan valideynlərim vətənsizlik dərdini qəbul etməlidir və ona dözməlidirlər.

…Orta məktəbi Cəbrayıl qəsəbəsində bitirmişəm. Gözəl müəllimlərim olub: Əli Əlizadə, Qabil Hacıyev, Islam Məmmədov, Oruc Rzayev, Bahadır Mehdiyev, Əminə və Azad Əbilovlar, Müzəffər Sadıqov, Qorxmaz Bayramov… Allah ölənlərə rəhmət eləsin, qalanlara can sağlığı versin.

1965-ci ildə Bakı Universitetinin filologiya fakültəsinə daxil olub, 1970-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmiş və rəhmətlik əziz müəllimim, böyük alim, gözəl insan Əlövsət Abdullayevin təqdimatı və təkidi ilə təyinatla universitetdə, Azərbaycan dilçiliyi kafedrasında saxlanmışam və elə o ildən də müəllim olmuşam, sonra baş müəllim, dosent, professor və 10 il işə başladığım kafedranın müdiri olmuşam.

Universitet müəllimlərindən Əlövsət Abdullayevi, Muxtar Hüseynzadəni, Samət Əlizadəni, Ziynət Əlizadəni, Mir Cəlalı, Ağaməli Həsənovu, Səlim Cəfərovu, Bəxtiyar Vahabzadəni, Nəsir Məmmədovu, Xədicə Ağalarovanı, Mehdi Məmmədovu heç vaxt unutmayacağam. Allah onlara qəni-qəni rəhmət eləsin. Ilk kitabım «Elimizdən, obamızdan» çıxanda 33 yaşım var idi. Radio və televiziyada «Bulaq», «Ozan», «Jurnal səhifələrində» verilişlərinin ayrı-ayrı vaxtlarda aparıcısı, əsas yazarı olmuşam. Yüzlərlə dəfə ayrı-ayrı verilişlərdə çıxış etmişəm. Bu böyük tribuna üçün mən Mailə xanım Muradxanlıya, Cəmil Əlibəyliyə, Nahid Hacıyevə, Firudin Ağayevə borcluyam.

Elə o illərdə də tənqidçi kimi Aydın Məmmədov, Ramiz Rövşən, Vaqif Bünyatlı ilə birgə Birliyin sədri Imran Qasımovun, katib Isaq Ibrahimovun ağsaqqallığı və təklifi ilə Yazıçılar Birliyinə daxil olmuşam. O zamanlar böyük nüfuzu olan Yazıçılar Birliyi universitetlə

bərabər mənim doğma evim olub – orada yetişmişəm. Dostum rəhmətlik, xeyirxah insan Isaq Ibrahimovun köməyi ilə mənə şəhərin mərkəzində Yazıçılar Evində mənzil verilib və iki il çəkən ev davasında məni Isaq müəllim və Anar müdafiə edib.

O zamanlar Anar, Elçin, Yusif Səmədoğlu, Əkrəm Əylisli ədəbiyyatda mütərəqqi cəbhədə – haqq savaşında dava dostlarımız olub. Ə.Əylislinin təkidi ilə «Azərbaycan» jurnalında redaksiya heyətinin üzvü olan yeganə cavan mən olmuşam.

Sovetlərin son 10 ilində bu insanlara mütərəqqi rolunu və istedad sahibi kimi daşıdıqları dəyəri hər zaman yüksək qiymətləndirmişəm. Mənim onlarla soyuq münasibətim və uzaqlığım siyasi baxışlarımızın fərqli olması ilə bağlıdır.

Mən gənclikdən dost olduğum ELÇIBƏY yolunu seçmişəm, onlar Heydər Əliyevin yolunu. Bu məsələdə kimin haqlı oluğunu buraxaq millətin və tarixin mühakiməsinə:

Mən həyatımda heç çirkə bulaşmamışam ki? Yəqin ki, bulaşmışam. Kim bulaşmayıb ki?.. Insanın bir adı da səhvedəndir. Bəla odur ki, xislətin çirkdən yarana. Zamanın, mühitin çirkinə istəsən də, istəməsən də bulaşacaqsan. Əsas məsələ bu çirki əməlinlə, əqidənlə, ibadətinlə, gərəkərsə, qanınla yumaqdır.

Allah hamıya nicat, amal, əqidə qismət eləsin.

Məni yetişdirən mühitdə Ə.Elçibəydən başqa dostlarım Vidadi Məmmədov, Vidadi Paşayev, Tanrıverdi, Ramiz Rövşən, Natiq Səfərov, Vaqif Bayatlı Odər, Aydın Məmmədov, Dilsuz, Cəfər Qiyasi, Eldar Baxış, Azər Abdulla, Akif Islamzadə, Cavanşir Quliyev böyük rol oynayıblar. Adamı yalnız müəllimləri yox, dostları da yetişdirir.

Qohumlarımdan əmim oğlu həkim Fazil Vəliyevə və dayım Ramiz Şərifova minnətdaram.

Qayınanam Şahzadə xanım əsl müdriklik, analıq, ağbirçəklik məktəbi idi. Allah rəhmət eləsin!

Ümumiyyətlə, özümü qohumlardan yox, dostlardan yarıyanlardan sayıram.

32 yaşımda tələbəm, anasının, atasının pasportunda milliyyəti türk yazılan (Dərbəndli olduğu üçün!) Dərbəndli qızı Fatmaxanım Vəli ilə evlənmişəm. Evlənməyimin səbəbkarı isə xanımım (mənim tələbəm olub) müəllimim Bəxtiyar Vahabzadə olub. Allah ömrünü uzun eləsin. Xoşbəxtəm, Allahıma min şükür.

Fatmaxanım həyat yoldaşım olmaqla bərabər, əqidə dostumdur. 60 yaşda buna da əmin olmuşam ki, arxasında əqidə dostu olanı xanım olan kişiyə qalib gəlmək mümkün deyil. Hər ev bir qaladır. Mənim qalam çox möhkəmdir.

Iki oğlum var. Onlardan çox razıyam. Böyük oğlum Toğrul Vəli Ankara Universitetinin beynəlxalq münasibətlər fakültəsinin doktorantıdır. Təhsildə Türkiyə birincisidir. Kiçik oğlum BP-də işləyir, o da beynəlxalq münasibətlər üzrə mütəxəssisdir, tezliklə təhsilini Amerikada davam etdirəcək. Hər ikisi mənim kimi milliyyətçi demokratdır. Heç biri siyasi partiya üzvü deyil. Mən AXCP sədri Əli Kərimlinin müaviniyəm, bununla fəxr edirəm. Elçibəy məktəbində olan insanların böyük əksəriyyəti ilə dostam. Başqa partiyada olmamışam. Mübarizələr, çalxantılar təbiidir. Elçibəyin vəfatından sonra ortaya çıxan problemlər artıq həll olunmuşdur. Siyasətdə prinsiplərini qəbul etmədiyim adamlar var, düşmənim yoxdur. Düşmənim millətimin düşmənləridir. Mahiyyətcə siyasətçi deyiləm. Siyasət mənim zərurətdən doğan işim, qayəmdir.

Bizi siyasətə Zaman gətirib, yəqin ki, Zaman da lazım bildiyi vaxtda aparacaq. Həyat kimi.

H.Əliyev rejiminə düşmənəm! Səbəb bugünkü xaraba, hüquqsuz Azərbaycandır. Ümidliyəm, Azərbaycanın gələcəyinə inanıram, ona görə də mübarizə aparıram. Indi Yazıçılar Birliyini mübarizə meydanı hesab etmirəm. O meydan artıq mahiyyətini dəyişib və mənim üçün maraqsızlaşıb. Bunu etibarsızlıq hesab edənlər, yanılır, dünya çox dəyişib. Biz də dünyanın içində. Xatirə gerçəklik deyil, amma yaddaşdır. Insan yaddaşsız yaşaya bilməz. Amma yaddaş çox fərdidir və həmişə ictimai deyil və həmişə də ürəkaçan deyil.

Milli hakimiyyət zamanı 4 ay Baş Nazirin müavini olmuşam. Qiyamdan sonra Elçibəyin təkidi ilə 2 ay da işləmişəm və H.Əliyevin fərmanı ilə azad edilmişəm. Bununla da fəxr edirəm ki, bu rejimin barışmaz düşməniyəm.

Elçibəyin prezidentliyi dövründə milli hökumətdə yüksək vəzifədə olmağımla fəxr edirəm. Bir ildə görülmüş işlərin (Qərb yönümünün seçilməsi, rus ordusunun ölkədən çıxarılması, milli valyutanın buraxılması, test imtahanları ilə universitetlərə tələbə qəbulu sisteminin tətbiqi, dilimizin tarixi adının bərpa olunması, təhsil qanununun qəbul edilməsi, yeni dərsliklərin yazılması və çapı, Bakı-Ceyhanın tikintisinin rəsmiləşdirilməsi, milli ordu quruculuğuna başlanması, torpaqların alınması və s.) səbəbkarı və baiskarı millətin iradəsi və bu iradəni gerçəkləşdirən Elçibəy və onun siyasi komandasıdır. H.Əliyev rejimi bu kursun ana xəttini çox təhrif etdi, ancaq dəyişə bilmədi.

1998-1999-cu tədris ilində siyasi baxışlarıma görə öz evim bildyiim universitetdə işləməkdən imtina etmişəm. Bu müqəddəs ocağı çirkləndirmiş, simasızlaşdırmış Murtuz Ələsgərov, Abel Məhərrəmov universitetini yenidən Yusif Məmmədəliyev, Yəhya Məmmədov universiteti edəcəyik! Bu elm, mədəniyyət ocağını xilas etmək mənim həyatımın məqsədlərindən biridir və Azərbaycanı xilasın tərkib hissəsidir!

Təbriz yuxularımın şəhəri, qara sevdamdır!

Gənclikdən çox sevdiyim, vurğunu olduğum Türkiyə ilə bağlıyam. Orada və Kipr Rspublikasında 2 il universitetdə dərs demişəm. Azərbaycanda ala bilmədiyim (verilməyən, nə yaxşı ki, verilməyən) bütün fəxri adları mənə Türkiyə dövləti və milləti verib.

Türkiyə Cümhuriyyətinin yüksək «Şərəf və Ləyaqət nişanı»na layiq görülmüşəm. Türk Dil Qurumunun, Atatürk Kültür Mərkəzinin, Türkiyə Folklor Mərkəzinin fəxri üzvüyəm, Səlcuq Universitetinin fəxri doktoruyam. Fəxr edirəm və minnətdaram.

Bişkekdə Ç.Aytmatov Akademiyasının şərəf üzvü, Qazaxstanda beynəlxalq «Türkologiya» jurnalının redaksiya heyətinin üzvüyəm.

Bir dostumun dəqiq dediyi kimi, mən barış, sülh adamıyam, ancaq hər an, hər cür davaya da hazıram, yəni həm də dava adamıyam. Amma çox istərəm ki, davalarımız böyük davalar olsun. Kiçilməyək, xırdalanmayaq. Vətən üçün, Millət üçün, Haqq üçün, böyük hüquqlar üçün, əsl sənət üçün dava eləyək. Və bu davalarda böyüyək, bir az daha insan olaq, bir az daha millət olaq, bir az daha azad olaq, bir az daha Allaha yaxınlaşaq.

Ramiz Rövşən yazılarının birində mənə «azad insan» deyib. Mən bu sözlərdəki həqiqəti həyatımın ən böyük titulu hesab edirəm.

Kərbala ziyarətində olmuşam. Inşallah Həcc ziyarətində də olmağı əhd eləmişəm. Amin. Islam dini daxili azadlığımın təməlidir.

20 kitabın və 500-dən artıq elmi, publisistik məqalənin müəllifiyəm. Onlarla beynəlxalq konfranslarda məruzə ilə çıxış etmişəm. Vətənimi, xalqımı ləyaqətlə təmsil etməyə çalışmışam.

Həyatımı Türk Dünyasının dilinə, tarixinə, mədəniyyətinə və Azərbaycanın istiqlalına, Bütövlüyünə, demokratiyası uğrunda mücadiləyə həsr etmişəm. Ömrümün sonuna qədər bu mücadilənin ön sırasında olacağam.

Millət vəkili olmaq istəyim də bu amalla bağlıdır. Mənə mandat yox, bu mənfur rejimdən xalqımı xilas etmək üçün tribuna, meydan lazımdır. Partiyamın və mənim də daxil olduğu «Azadlıq bloku» Azərbaycanın xilas yolu və həlledici güc, böyük demokratiya mərkəzidir.

Qarabağsız Azərbaycan, Azərbaycan deyil. Azərbaycanın hər bucağı mənim doğma Vətənimdir! Namizədi olduğum Suraxanı, Əmircan, Bülbülə qəsəbələri, yaxşı tanıdığım, insanları çox ağır vəziyyətdə olan bölgələrdir. Bu bölgələri ğır vəziyyətdən qurtarmaq üçün də, Qarabağı xilas etmək üçün də Azərbaycanımızın bu korrupsiyaçı, tayfaçı, mafioz rejimdən qurtuluşu zəruridir!

Inşallah, bunu da bacaracağıq!

Haqq bizimlədir!

Göydə Allah, yerdə Azərbaycan!

HARDA YANĞI VARSA, IŞIQ ORDADIR

Kamil Vəli Nərimanoğluna

Soruşma, dahilər görəsən neçin
Ögey övladıdır zəmanəsinin.
Xalq üçün yananlar Adəmdən belə
Qarşı-qarşıyadır zəmanəsilə.

Bir eşqin naminə yanan nur çilər,
Yanğından fışqırar işıq hər zaman.
Ulduzlar yanması görünməzdilər,
Görünmür yanmayan, görünür yanan.

Qızıla həsədlə boylanıb cingildər:
«Mən səndən əskikəm məgər?»
Görünən uçanı görmək istəmir,
Alçaqda dayanıb görünməyənlər.

Dahinin ayağı qopmaz bu gündən,
Amma xəyalları ürəklərindən
Süzülən işıqlı sabahlardadır.
Harda yanğı varsa, işıq ordadır.

Dəstəyə çevirir inam inadı,
Gizli bir sirridir bu da Allahın.
Bu onun əzabkeş, ögey övladı
Doğma övladına dönür sabahın.

RAMIZ RÖVŞƏN

FIKIR IÇINDƏ

Kamil Vəli Nərimanoğluna

Bu şəhərdə heykəllərin
hamısı fikir içində.
Büstlərin yarısı yoxdu,
yarısı fikir içində.

Heykəllərin donuq gözü
Yuxarıdan süzür bizi;
Cavanı, qocası, qızı,
qarısı fikir içində.

Baş açmadıq bu nə sirdi?
Bizi bura kim gətirdi?!
Nə qısa bir ömür sürdük
bir uzun fikir içində…

1999

CAVAD HEYƏT

Mən Kamil Vəlini o taylı-bu taylı Azərbaycanımızın böyük ziyalısı, alimi hesab edirəm, onun yazılarını, çıxışlarını məmnunluqla oxuyuram, sevə-sevə dinləyirəm.

Kamil bəylə tez-tez Türkiyədə elmi konfranslarda görüşürük. Bakıya hər gələndə də onunla görüşməyə çalışıram.

Bu görüşdən də böyük zövq alıram, məmnunluq duyuram.

Rəhmətlik Aydın Məmmədovun qoxusunu da ondan alıram. Bu yaxınlarda Türkiyə Kültür Vəqfinin ödülünü hər ikimiz aldıq. Dünyanın hər yerindən gələn türkoloqların iştirak etdiyi təqdim mərasimində Kamil Vəli gözəl çıxış etdi və başımızı ucaltdı.

Mən bizim «Varlığ»ın da yazarlarından biri olan Kamil bəyə və ailəsinə cansağlığı, xoşbəxtlik arzulayır, ondan yeni-yeni maraqlı əsər gözləyirəm!

Allah işini uğurlu eləsin!

MIN ILLƏRIN MILLƏT VƏKILI

Vaqif Bayatlı Odər

Bütün dünyada bizdən çox məsləhət verən və bizdən az məsləhətə qulaq asan xalq yoxdur. Bəlkə farslar və ərəblər ola. Çünki mənim fikrimcə, çoxlu məsləhət vermək həvəsi bizə farslardan və ərəblərdən keçib

Kamilin gənclik dostuyam, elə o vaxtdan dostları onu «Azərbaycanın ən gənc ağsaqqalı» adlandırırdı. Bu adı o? adamlara baş məsləhətlər verə-verə yox, konkret bir işdə, əməldə, bilikdə kömək edə-edə qazanmışdı. Mən ondan nəsə kömək, yardım, dəstək istəyən bir adamın onun yanından qəmli və ümidsiz ayrıldığını görməmişəm.

Indi Kamil ona deyilən yaşa, ağsaqqal yaşına çatıb, ancaq mən yenə onu Azərbaycanın ən gənc ağsaqqalı sayıram, çünki onun canındakı gənclik, xeyirxahlıq enerjisi məcbur edir ki, yüz yaşında da onu belə adlandırım, canımızdakı gənclik nə qədər güclü və əbədi olsa, millətimiz də o qədər güclü və əbədi olar. Kamil bütün mənalarda millətimizin gücüdür.

Dünyanın və Azərbaycanın ən böyük insanşünaslarından biri Vidadi Məmmədov bir dəfə elə mənim yanımda böyük bir məclisdə demişdi: - Allah Kamili yaradanda baxıb görüb onun bu dünyada çox problemləri ola bilər, ona görə də üzünə bir parça nur atıb? deyib get yaşa.

O nur Kamili çox çətinliklərdən qurtarıb. Azərbaycanın bu ağır günlərdən qurtarmağında da o nurun böyük payı olacağına inanıram.

Mən dünyanın və Türk dünyasının müxtəlif ölkələrində və şəhərlərində – Türkiyə və Rusiyada, Daşkənddə və Alma-Atada, Quzey Kipr Türk Cümhuriyyətində olarkən Kamil bəy haqqında tanınmış alimlərin, ziyalıların, dövlət adamlarının necə xoş sözlər dediklərinin şahidi olmuşam, onun bütün Türk dünyasının ən sayılan, hörmət edilən ziyalılarından biri olduğunu duyub, görüb, eşidib sevinmişəm.

O bir çox ölkələrin mükafatlarına, o cümlədən, qardaş Türkiyə Respublikasnın ən yüksək dövlət mükafatına layiq görülüb. Təkcə Azərbaycandan başqa. Kim Azərbaycanda layiq olduğunu alıb ki? Yox, mən səhv edirəm, Azərbaycanda da ən böyük mükafatı – xalqının, tələbələrinin, azadlıq uğrunda mübarizlərin, hərəkat dostlarının məhəbbətini qazanıb. Bundan yuxarı mükafat isə Allahın onun üzünə verdiyi nurdur.

Böyük Millət cəfakeşi Elçibəy bir dəfə uzaqdan gələn dostumuz Kamili göstərib mənə demişdi (onda hələ sovet hökumətinin qızğın illəriydi) – bu bəy, gənc olmağına baxmayaraq, indidən millətin dayaqlarından birinə çevrilib. Sonra əlavə etdi: Belə dayağı olan bir millət heç bir vaxt yıxılmaz. Sonrakı illər Elçibəyin dediklərini təsdiq etdi. O dayağı artıq on minlərlə insan hiss edir. O, dövrün yox, min illərin millət dayağı, millət vəkilidir.

M.Ə.FƏRZANƏ

SÖZ DÜNYAMIZ VƏ FOLKLOR

Professor Kamil Vəli Nərimanoğluna

Görkəmli ədib və araşdırmaçı, professor Kamil Vəliyevin yazı üslubuna heyranam, yazısı əlimə çatanda sönməz sevinclə hər şeyi bir tərəfə buraxaram, əlimə keçəni oxumağa başlaram. Lakin yazını oxuyub qurtara bilmərəm, yarıda qoyaram, udqunaram, daha doğrusu, duyduğum dadı damla-damla udmaq istərəm. Hər kəlməni, hər cümləni, hər sətri oxuyunca qayıdıb bir daha yenidən oxumaq istərəm. Sözlərdə olan məlahət, incəlik, şeriyyət canıma işlər, duyğularımı oxşar… Bu qədər iştiyaqla belə, onun yazdıqlarından çox az oxumuşam. Şayəd vur-tut iki kitab və iki-üç məqalə. Vəqt olub ondan yazılarını diləmişəm, söz olub, harayı olmayıb…

Bu səfərimdə Malmönün şəhər kitabxanasında yox, şəhər kitabxanasının mühacirlər oturan bir komunundakı şöbəsində çoxlu türkü, kürdü, farsi kitablar sırasında bir bölümdə azəri türkcəsində kitaba uğradım. Sevinclə birini götürüb, birini qoydum, gözlərimə inanmadım, professor Kamil Vəliyevin folklorumuza aid bir əsəri. Kitabı bir neçə iri kitabla götürdüm. Evə sarı yollananda, avtobusda gözdən keçirməyə başladım. Kitabın yazı üslubu yenə məni tutdu. Kamilin söz qartalı məni qanadlarına aldı, bütün Malmönü gəzdirdi. Bir saat, iki saat, üç saat… Evə çatanda bitkin olduğum halda, yazmaq istəyirdim. Lakin nə yazacağımı, nədən yazacağımı bilmirdim. Aldığım nəfəs, öz nəfəsimdir, yoxsa Kamil Vəliyevin, quraşdırdığım sözlər onun sözüdür, ya mənim. Bilmirəm. Təkcə bunu bilirəm: bu sözlər iki yanıq ürəkdən qalxan bir alovun qığılcımlarıdır… Kim bilir, bəlkə həmin üslub bizim gələcək nəsr üslubumuza bir örnək olacaq.

«8 ILDIR QULAQLAR KAR, GÖZLƏR KORDUR»

Mən Kamil Vəli Nərimanoğlunu Azərbaycanın ən böyük ziyalısı kimi tanıyıram, ona hörmətim həmişə böyükdür. Kamil Vəli Nərimanoğlu Azərbaycan türkünün qədrini bilən, onun uğurlarına sevinən, uğursuzluqlarına daim şam kimi yanan türk övladıdır. Hər bir azərisevər şəxs ondakı Vətən sevgisini özünün simvoluna çevirməlidir.

Maqsud Ibrahimbəyovun məlum müsahibəsini mən də oxumuşam. Mənən mən də alçalmışam, belə «qorxaq» millətin oğlu olduğuma görə yanmışam. Professor K.V.Nərimanoğlu bu gün milyonlarla azərinin ürəyindən tikan çıxardı. K.V.Nərimanoğlu doğru buyurur ki, Qarabağ bizim mədəniyyət və muğam ərazimizdir. Qarabağın səsi-sorağı Şumer dövrü türkündən gələn muğamatımızın, harayı mixi yazılarımızdan eşidilən "Rahabı"mız, "Mahur"umuzun ölməsi deməkdir, şerlərimizdə adları çəkilən tarımızın, sazımızın, udumuzun ölməsi deməkdir, gələcək bülbüllərimizin, şuşinskilərimizin, behbudovlarımızın, hacıbəyovlarımızın, rüstəmovlarımızın ölməsi deməkdir.

Bütün bunlarsız XXI əsrin azəri türkü nəyə və kimə lazımdır? K.V.Nərimanoğlu «Qarabağ mədəni ərazimizdir» deməklə bütün azəri türklərini nəzərdə tutur.

Mən Kamil Vəli Nərimanoğluna və onunla bir amalda olan ziyalılarımıza cansağlığı və mübarizələrində uğurlar arzulayıram. Və üzümü tutub deyirəm ki, qorxma qardaş, biz səninləyik. Sən dərdlərimizin göy qurşağısan, göy qurşağımızın rəngləri Qarabağ itkisi fonunda öz əfsanəvi çalarlarını 8 ildir itirir, əziz dost! 10 ildir «Qarabağ şikəstəsi» çadır çarpayıya ölü düşüb. 8 ildir ki, onun harayını Bakının "Ağ evində eşidən yoxdur. 8 ildir qulaqlar kar, gözlər kordur.

Kamil Vəli Nərimanoğlunun açıq, ziyalı fikirləri ilə tam şərikəm və sabah Vətənin Bütövlüyü uğrunda müharibə başlasa, orada mən də varam!

5 may 2001-ci il, «525-ci qəzet»

Doktor Azərtürk,

«Bablyon-Azərbaycan» jurnalının redaktoru

Kamil Vəliyə baxış bucaqları – maraq üçün

Oğlum, sən qəbrə salamat baş aparmayacaqsan.

(*anası Mirvari xanım*)

Sənin zahiri görkəminlə daxili aləmin eyni deyil.

(*Ömür-gün yoldaşı Fatma xanım*)

Kamil bəy, sən heç kəsin etmədiyi və edə bilmədiyi elə bir hərəkət edə bilərsən ki, dünyada çox şey dəyişər.

(*əqidə dostu Ə.Elçibəy*)

Kamil bəy çox təhlükəli adamdır.

(*əqidə dostu – P.Hüseynli – müsbət anlamda*)

Kamil bəy çox təhlükəli adamdır.

(*düşməni – iqtidar nümayəndəsi – mənfi anlamda*)

Kamil bəyi üzündəki nur qoruyur. Nuru Allah verib.

(*qələm dostu V.Məmmədov*)

Kamil bəy qədər azad adam az tanıyıram.

(*R.Rövşən*)

Kamil bəy sülh və dava adamıdır.

(*qələm dostu Hikmət Sabiroğlu*)

Kamil bəy, Sənin Azərbaycan qarşısında müqəddəs borcum var. Bunu heç unutma!

(*Həmid Nitqi*)

Atam böyük adamdır.

(*oğlu Toğrul*)

Atam gülməli adamdır.

(*oğlu Tural*)

MÜNDƏRICAT

Mənim füzulim

Füzuli yolu və ya ön söz əvəzi……5
"Allahını tapan nə itirir? Onu itirən nə tapır?"..... 6
Məni candan usandırdı …… 15
Fələklər yandı ahimdən və ya bir gecənin min bir sualı və bir cavabı ……30
Heyrət, ey büt. ya rəbb! bəlayi-eşq ioə qıl aşina məni!.....38
Mən türkzəbandan iltifat eyləmə kəm ……59
Füzuli gözəlliyi - Füzuli aydınlığıdır ……112

Füzuli elm işiğinda

Füzuli türklüyü ……126
Füzulinin şer dili ……130
Ortaq söz sərvətimiz haqqında söz ……133
Həqiqətin sonsuzluğuna daha bir səyahət ……140
Füzuli sənətinə yeni baxış……142
Füzulinin türkcə divanının dibaçəsi ……143

Düşüncələr ……157

Məqalələr, portretə ştrixlər, çevirmələr

Tarın möcüzəsi və ya atamın mədəniyyət payı ……209
Rənglərin impressiyası ……213
Tənhalığın sonu ……221
Ölümlə zarafat eləyən Adam ……226
Tale mənə yar olmasa ……232
Tahirsiz moskva nə tahir haqqında düşüncələrim ……233
Ramiz Rövşənin «101 nəğməsi» haqqında söz ……253
Bir həftə Həmid nitqi ilə …… 255

Şah İsmayıl – Sultan Səlim savaşı ……258
Son söz əvəzi……261
Dünyanı dəyişən nədir? ……275
Alim Qasımov – insan, sənət, dünya haqqında düşüncələr ……277
Ulu Füzuli səni gözləyir, Alim qardaş! …… 286
Azərbaycan türklərinin Azadlıq elçisi – "Əbülfəz Elçibəy …… 291
Görünən və görünməyən Heydər Əliyev və Əliyevçilik ……297
Azərbaycan dövlətçiliyində milli ideologiya və mədəniyyət siyasəti …… 302
Bütöv Azərbaycan mədəniyyət konsepsiyasının ana cizgiləri ……311
«Azadlıq» radiosu və Azərbaycan mədəniyyəti ……315
Bir damla göz yaşı ……317
15 sentyabr 1918-ci il – Bakının xilas günüdür …… 320
Dostum Ağayar Şükürov haqqında söz ……323
Jorj Blon və onun köçəriləri …… 326
"Süleymanın nəğmələr nəğməsi" …… 341
Son söz əvəzi və əlavələr …… 354

KAMİL VƏLİ NƏRİMANOĞLU

MƏNİM FÜZULİM

Nasir:
Qoşqar İsmayıloğlu

NƏŞRİYYAT REDAKTORU
Denis İzuf
TEXNİKİ REDAKTORU
İlham Niftəliyev

BƏDİİ REDAKTORU
Ceyhun Taöıyev,
KORREKTOR
Fəridə Ələsgərli,
OPERATOR
Ramilə Əliyeva,
ÇAPA MƏSUL
Cavad Əliyev,
Azər Yunusov.

Çapa imzalanmış 08.03.2006.
Formatı 68x100 1.16.
28.8 ç.v.
Ofset kağızı №1, tayms qarnituru,
Sifariş, K-65
Say 1 300

Kitab
"CİNAR-ÇAP"
nəşriyyatında nəşrə hazırlanmış
və
ofset üsulu ilə çap olunmuşdur.
Tel.: 4902757, 4937255